AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

**SƏMAYƏ MƏMMƏD qızı MUSTAFAYEVA**

# AVROPA VƏ AMERİKA ÖLKƏLƏRİNİN ƏN YENİ TARİXİ

## I HİSSƏ

***1918-1945-ci illər***
***Ali məktəblər üçün dərslik***

***Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının «Tarix» bölməsinin 13.12.2006-cı il tarixli iclasının qərarı (pr № 3) və Azərbaycan Respublikası Təhsil Nazirinin 19 dekabr 2006-cı il tarixli 920 № li əmrinə əsasən çap edilir.***

**BAKI – 2 0 10**

**Rəyçilər:** ***t.e.d., prof. M.S.Həsənov***

***t.e.n., dos. Ş.C.Nuruzadə***

***t.e.n., dos. M.Fətəliyev***

**Səmayə Mustafayeva. Avropa və Amerika ölkələrinin ən yeni tarixi. (*Ali məktəblər üçün dərslik)*** Bakı, ADPU-nun nəşriyyatı, 2010, 388 səh.

## M Ü N D Ə R İ C A T

*səhifə*


Giriş ....................................................................................5
I. Birinci Dünya müharibəsinin son dövründə və müharibədən sonrakı ilk illərdə beynəlxalq münasibətlər (1918-1923-cü illər) .......8
II. Böyük Britaniya ....................................................................34
III. Fransa ....................................................................................53
IV. Almaniya ...............................................................................72
V. Rusiya (1922-ci ildən SSRİ)...................................................104
VI. İtaliya ...................................................................................117
VII. İspaniya ..............................................................................131
VIII. ABŞ .....................................................................................147
**IX. MƏRKƏZİ, ŞƏRQİ VƏ CƏNUB-ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ**
Avstriya ....................................................................................170
Macarıstan ...............................................................................176
Polşa .........................................................................................185
Çexoslavakiya ..........................................................................190
Bolqarıstan ...............................................................................194
Rumıniya ..................................................................................201
Yuqoslaviya ..............................................................................208
Albaniya ...................................................................................216

**X. ŞİMALİ AVROPA DÖVLƏTLƏRİ**
İsveç.........................................................................................222
Finlandiya.................................................................................227
Norveç .....................................................................................234
Danimarka ...............................................................................237
Belçika......................................................................................242
Niderland .................................................................................246
**XI. CƏNUBİ AVROPA DÖVLƏTLƏRİ**
Yunanıstan................................................................................250
Portuqaliya................................................................................254
İsveçrə.......................................................................................259





**XII. KANADA**.............................................................................262
**XIII. LATIN AMERİKASI ÖLKƏLƏRİ** .......................................268
Braziliya ...................................................................................273
Argentina ..................................................................................279
Meksika ....................................................................................284
Çili ............................................................................................290
Kuba .........................................................................................294
**XIV. 1924-1939-cu illərdə beynəlxalq münasibətlər**..................301
**XV. İKİNCİ DÜNYA MÜHARİBƏSİ** .........................................316
**XRONOLOJİ CƏDVƏL**.............................................................360
**Məsləhət görülən ədəbiyyat**.......................................................374

# G İ R İ Ş

Ali məktəblər üçün nəzərdə tutulan bu dərslik Avropa və Amerika ölkələrinin 1918-1945-ci illəri əhatə edən tarixindən bəhs edir.

Tarixin ən yeni dövrünün hansı vaxtdan başlanması haqqında fikirlər müxtəlifdir. Bəziləri onun XX əsrin ilk ilindən, bəziləri 1914-cü ildən, bir çox tarixçilər isə Birinci dünya müharibəsinin son ilindən başlandığını göstərirlər. Hələlik ən yeni tarixin Birinci dünya müharibəsinin son ilindən başlandığı fikri əsas götürülür və dərslik yazılarkən bu nəzərə alınmışdır.

Bu dövr müasir dövrlə çulğalaşdığı üçün bəzən onu müasir tarix də adlandırırlar. XX əsrin əvvəllərindən hal-hazıra qədər davam edən ən yeni tarix əvvəlki tarixi dövrlərdən keyfiyyət baxımından fərqlənir. Belə ki, ən yeni tarix bəşəriyyətə ən böyük texniki kəşflər, həm də böyük bəlalar bəxş etmiş XX əsrin tarixini öyrənir. Əgər XVIII əsr tarixdə buxar, XIX əsr polad və kömür əsri kimi xatırlanırsa, XX əsr ETİ, kosmos, nüvə, elmi və siyasi məlumatların güclü axını əsri kimi tanındı.

XX əsr bəşər tarixində əsl mənada dönüş dövrü olmuşdur. Bu əsr çoxmillətli iri müstəmləkə imperiyalarının dağılması ilə də səciyyələnir. Bunun nəticəsində dünya xəritəsində onlarla yeni müstəqil dövlətlər yaranmışdır. XX əsr faşizmin və sosializmin iflası, bazar iqtisadiyyatının və liberal demokratizmin yeni ölkələr və bölgələrdə yayılması prosesinin genişlənməsi əsri kimi də yadda qalır.

Bu əsr tarixə həm də milyonlarla insanın məhvinə səbəb olan iki dünya müharibəsi bəxş etmişdir. Ümumiyyətlə, ən yeni tarixi öyrənərkən biz XX əsr və XXI əsrdən keçən illərdə baş vermiş sosial-siyasi hadisələrin böyük bir axınını izləmiş olacağıq. Əgər tarixi bəşəriyyətin laboratoriyası adlandırsaq, həmin laboratoriyada ən zəngin materiallar ən yeni dövrə



təsadüf edir. Ən yeni tarix tarixçi alimlərin fikrincə, əsasən 2 dövrə bölünür.

I dövr 1918-ci ildən, yəni Birinci dünya müharibəsinin sonundan başlayır, 1945-ci ilə qədər, yəni İkinci dünya müharibəsinin sonuna qədər olan dövrü əhatə edir. Bu dövrdə dünyanın $\frac{1}{6}$ hissəsində sosializm yaranır. Sosializmlə kapitalizm arasında, həmçinin kapitalist dövlətlərinin öz daxilində ziddiyyətlər kəskinləşir və Birinci Dünya müharibəsinin nəticələri İkinci Dünya müharibəsinin başlanmasına səbəb olur. Bu dövrün xarakterik xüsusiyyət siyasətin iqtisadiyyatı üstələməsi, siyasi partiyaların nüfuzunun güclənməsi, həmçinin əvvəlki tarixi dövrlərdən fərqli olaraq dövlətin cəmiyyətdə rolunun daha da artmasıdır. Bu dövr həm də bir sıra ölkələrdə, yəni SSRİ, İspaniya, Almaniya və İtaliyada totalitar-avtoritar rejimlərin bərqərar olması ilə səciyyələnir.

II dövr isə İkinci dünya müharibəsindən sonra başlanır və hal-hazıra qədər davam edir. Bu mərhələdə dünya iki sistemə parçalanır. Bir sıra ölkələrdə «sovet modeli» yaranır. Hərbi bloklar təşkil edilir. İki sistem arasında «soyuq müharibə» baş verir. Bir sıra qlobal problemlər ön sıraya çıxır, qütbləşmə əmələ gəlir. Bu dövrü həm də nüvə erası adlandırırlar. Əgər əvvəlki dövrlərdə hər bir dövlət ancaq özünün müdafiəsi qayğısına qalırdısa, bu mərhələdə bütün bəşəriyyəti düşündürən əsas məsələ insan nəslini nüvə fəlakətindən xilas etmək oldu.

1985-ci ildən sonra SSRİ və Avropa ölkələrində sosial-siyasi dəyişikliklər baş verir. Dünya sosializm sistemi və SSRi dağılır. Kapitalizm dünyada yeganə sistemə çevrilir. Həmçinin bu dövrdə mərkəzəqaçma meyli güclənir. Dünyanın 3 güc mərkəzi – ABŞ, Yaponiya və Avropa İttifaqı yaranır.

Dünya artıq XXI əsrə qədəm qoymuşdur. O bu yüzilliyə bəşər tarixində «soyuq müharibə»yə son qoyulması, dünyanın hələ böyük coğrafi kəşflər dövründən etibarən başlamış real

birliyinin gerçəkləşdirilməsi şəraitində daxil olmuşdur. Yeni əsrin tarixi vəzifəsi dünya mədəniyyətinin qarşılıqlı əlaqələri, əməkdaşlığı və bütövlüyünü tam bərqərar etməkdir. Bunlar XX əsrin yeni əsrə verdiyi ibrətamiz tarixi dərslərdir.

Ən yeni tarixi öyrənməklə gənclər müstəqil inkişaf yoluna çıxan və bəşər sivilizasiyasına qoşulan Azərbaycan dövlətinin gələcək inkişafında yaxından iştirak edə bilərlər. Çünki ən yeni tarixi bilmədən dünya dövlətləri içərisində tanınan bir dövlətin qurucusu olmaq mümkün deyildir.



## I. Birinci Dünya müharibəsinin son dövründə və müharibədən sonrakı ilk illərdə beynəlxalq münasibətlər (1918-1923-cü illər)

### *Birinci Dünya müharibəsinin son ilində beynəlxalq münasibətlər*

Birinci Dünya müharibəsi bölünmüş dünyanı yenidən bölüşdürmək uğrunda mübarizənin, ilk növbədə, Almaniya-İngiltərə ziddiyyətlərinin kəskinləşməsi nəticəsində başladı.

Müharibənin törətdiyi iqtisadi dağıntılar hələ onun gedişində dövrün real siyasət yeridən xadimlərini düşünməyə vadar etdi. Məhz bu dövrdə tarixə «yeni demokratiya» carçısı kimi daxil olan ABŞ prezidenti Vudro Vilson sülh təşəbbüsü ilə çıxış edərək 1918-ci il yanvarın 8-də müharibədən sonra dünyanın ədalətli bölgüsünü müəyyən edən «14 maddəlik sülh proqramını» elan etdi. Bu maddələr aşağıdakılar idi:

1) Sülh müqavilələrinin açıq müzakirəsi. Bundan sonra heç bir gizli beynəlxalq saziş olmayacaq, diplomatiya isə həmişə açıq-aydın və hamının gözü qarşısında fəaliyyət göstərəcək.
2) Ərazi suları xaricində həm sülh, həm də müharibə vaxtı gəmiçiliyin dənizlərdə mütləq sərbəstliyi.
3) Mümkün qədər bütün iqtisadi maneələrin ləğvi.
4) Dövlət təhlükəsizliyinə uyğun olaraq silahların mümkün qədər azaldılması üçün ədalətli zəmanətlər.
5) Müstəmləkələr üzərində suverenliklə bağlı bütün məsələlərin həllində əhalinin maraqlarının hökumətlərin ədalətli tələblərinə nisbətdə bərabər tutulması prinsipinə əsaslanaraq bütün müstəmləkə mübahisələrinin sərbəst, səmimi və mütləq bitərəflik mövqeyindən həlli.

6) Bütün rus torpaqlarının azad edilməsi; Rusiya öz taleyini özü müəyyən etməli, istədiyi idarə formasını seçməli və Millətlər Cəmiyyətinə qəbul edilməlidir.
7) "Belçika….boşaldılmalı və bərpa edilməlidir."
8) Fransa boşaldılmalı, işğala məruz qalmış əraziləri bərpa edilməli, Elzas və Lotaringiya Fransaya qaytarılmalıdır.
9) İtaliyanın sərhədləri şəffaf görünən milli sərhədlərə görə dəyişdirilməlidir.
10) Avstriya-Macarıstan xalqları… geniş muxtar inkişaf imkanları əldə etməlidirlər (sonralar muxtariyyət prinsipi tam müstəqilliklə əvəz edildi).
11) Rumıniya, Serbiya və Qaradağ (Çernoqoriya) boşaldılmalıdır.
12) Osmanlı imperiyasının türk hissəsi… təminatlı və möhkəm suverenlik almalıdır; tabe edilmiş millətlərə təhlükəsizlik və "muxtar inkişafın mütləq pozulmaz şərtləri" təmin edilməlidir.
13) Müstəqil Polşa dövləti yaradılmalıdır.
14) Xüsusi müqavilələr əsasında ümumi millətlər birliyi (Millətlər Cəmiyyəti) yaradılmalıdır.

1918-ci ilin oktyabrında ABŞ dövlətlər departamentinin hazırladığı “14 maddə”nin şərhində çağırılacaq Paris sülh konfransının iş prinsipləri də göstərildi. Vilson prinsiplərindən ancaq o xalq istifadə edə bilərdi ki, o intellektual və mədəni-dini sərvətlərinə görə fərqlənsin, öz taleyini özü həll etməyə qadir olduğunu sübut etsin, iqtisadi, maliyyə və təbii sərvətlərə malik olsun, özünü tarixi təcavüzdən qorumağı bacarsın və tabe olduğu ölkənin hökumətinin zülmündən əziyyət çəksin.

1918-ci il Birinci Dünya müharibəsinin son ili oldu. Antantanın üzvü olan Rusiya Oktyabr çevrilişindən dərhal sonra hələ müharibə qurtarmamış Almaniya ilə seperat, yəni əlahiddə sülh bağlamaq qərarına gəldi. Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər öz hakimiyyətlərini qoruyub saxlamaq üçün



yeganə çarəni Rusiyanı müharibədən çıxarmaqda görürüdülər. Məhz bunun nəticəsi idi ki, Rusiya Almaniya və onun müttəfiqləri ilə danışıqlara başladı. Bu danışıqlar 1918-ci il martın 3-də Almaniya və onun müttəfiqləri ilə Rusiya arasında Brest-Lütovsk sülhünün bağlanması ilə başa çatdı. Bu, Rusiya üçün alçaldıcı sülh idi. Brest sülhünün şərtlərinə görə Rusiya öz qoşunlarını Ukrayna, Belarusiya və Pribaltika ölkələrindən dərhal çıxarmalı, həmin ərazilərdə alman qoşunları yerləşdirilməli idi. Rusiya Ukrayinada hakimiyyətdə olan radanı qanuni hökumət kimi tanımalı idi. 50 milyon əhali yaşayan 1 mln. kv. km ərazi Almaniyanın tərkibinə keçir, Sovet Rusiyası ilə Almaniya arasında diplomatik münasibətlər yaradılırdı. Həmin sülhə görə Qars, Ərdahan, Batum Türkiyəyə qaytarılırdı. Müqavilənin şərtlərinə görə 1877-78-ci illər rus-türk müharibəsinə qədərki sərhəd xətti bərpa edilməli, rus qoşunları türk ərazilərində və sərhəddə yerləşən erməni silahlı birləşmələrini tərki-silah etməli idilər. Lakin Brest sülhü uzun sürmədi. «Dördlər ittifaqı» müharibədə məğlub edildikdən sonra 1918-ci il noyabrın 13-də Rusiya bildirdi ki, o, Brest sülhünün şərtlərindən imtina edir və onu qanuni saymır.

Rusiyadan sonra Antantanın tərkibində olan Rumıniya da 1918-ci ilin mayın 7-də müharibədən çıxdı. Rumıniya ilə alman bloku ölkələri arasında bağlanan Buxarest sülhünün şərtlərinə görə, Rumıniyanın təbii sərvət və ehtiyatlarından istifadə etmək üçün Alman inhisarlarına müstəsna hüquq verilir, cənubi Dobruca Bolqarıstana qaytarılır, 15 min km-lik dağlıq sərhəd zolağı Avstriya-Macarıstana verilirdi. Lakin yenə də Almaniyanın yanacağa olan tələbatı ödənilməmiş qalırdı.

1918-ci ildə yayında Antanta dövlətləri qüvvə və üstünlük cəhətdən daha da gücləndilər. Dördlər ittifaqının məğlubiyyəti qaçılmaz fakt oldu. 1918-ci ilin yay hücumlarında Almaniya və onun müttəfiqləri qəti məğlubiyyətə düçar oldular.

1918-ci ilin ikinci yarısında Bolqarıstanı kəskin iqtisadi və siyasi böhran bürüdü. Sentyabrın 15-də Dobro çayı rayonunda Antanta ölkələrinin silahlı qüvvələri bolqar ordusunu darmadağın etdi. Sentyabrın 29-da Antanta komandanlığı ilə Bolqarıstan arasında bağlanan Salonik barışıq sazişinə əsasən Bolqarıstan işğal etdiyi Serbiya, Yunanıstan, Rumıniya ərazilərini boşaltmalı idi. Bolqarıstan yollarını Antanta ordularının ələ keçirməsi nəticəsində Almaniya Osmanlı dövlətindən coğrafi cəhətdən ayrı salınmış olurdu.

1918- ci ilin oktyabrında Fələstin və Suriyada türk ordusu məğlub edildikdən sonra elə həmin ayın 30-da Antanta komandanlığı Lemnos adasındakı Mudros limanında Osmanlı dövləti ilə barışıq sazişi imzaladı. Həmin sazişə görə Qara dəniz boğazları müttəfiqlər tərəfindən işğal edilir, Osmanlı sularında üzən hərbi gəmilər müttəfiqlərə təslim edilirdi. Türk limanlarından Osmanlı dövlətinin müttəfiqlərinin istifadə etmələri qadağan olunur, Osmanlı hərbi birləşmələri Güney Azərbaycandan dərhal çıxır, Qafqaz ərazisi müttəfiqlərin nəzarəti altına keçirdi. Qalib dövlətlər Batum və Bakını işğal etməli idilər. Hicaz, Yəmən, Suriya, Mesopotamiyadakı türk qarnizonları müttəfiqlərə verilməli, Trablis və Kirenaikdəki türk emissar zabitləri İtaliya qarnizonuna tabe edilməli idi. Hər hansı hərbi əmlakın məhv edilməsi qadağan edilirdi. Bir sözlə, Osanlı dövləti Antanta dövlətlərindən asılı hala salınırdı.

1918-ci il noyabrın 3-də "Loskut monarxiyası" adlanan Avstriya-Macarıstanla bağlanan Padui barışıq sazişinə əsasən Antanta dövlətləri bu ölkənin təsərrüfatının tam sahibi olurdular.

Bu şəraitdə Almaniya üçün cənub və cənub-şərqdən ciddi təhlükə yaranmış oldu.

1918-ci ilin noyabrın 11-də isə Kompyen meşəsində Antanta ordularının baş komandanı general Foşun vaqonunda Almaniya təslim olmaq haqqında akta qol çəkdi. Kompyen



barışığı ilə Birinci dünya müharibəsi qurtarmış oldu. Həmin barışığa görə 6 saat ərzində quruda, havada və suda bütün hərbi əməliyyatlar dayandırılmalı idi. Almaniya Belçika və Fransa ərazisindən öz qoşununu dərhal geri çağırmalı, hər iki tərəfdən götürülən əsirlər geri qaytarılmalı idi. Həmçinin Almaniya Antanta dövlətinə 5 min top, 25 min pulemyot, 3 min minamyot, 5 min paravoz, 150 min vaqon, 5 min yük avtomobili, 1700 təyyarə verməli idi. Almaniya şərq cəbhəsindəki, yəni Avstriya-Macarıstan, Türkiyə və Bolqarıstandakı qoşunlarını geri çəkməli, oradakı hərbi ləvazimatlarını müttəfiqlərə verməli idi. Kompyen barışığına görə bu barışıqdan keçən ancaq 36 gün ərzində yenidən müharibə başlana bilərdi. Lakin müharibəyə başlamazdan 48 saat əvvəl tərəflər xəbərdar edilməli idi.

Beləliklə, Almaniya bloku dövlətləri müharibədə ağır məğlubiyyətə uğradılar. Almaniya və onun müttəfiqlərinin Birinci dünya müharibəsində məğlub olmasının başlıca səbəbləri Antanta dövlətlərinin iqtisadi və insan ehtiyatları cəhətdən Almaniya bloku ölkələrindən üstünlüyü, hərbi qüvvələr nisbətinin Antanta ölkələrinin xeyrinə olması, hərbi əməliyyatların gedişində Almaniyanın siyasi üstqurumunun böhran vəziyyətinə düşməsi, alman bloku ölkələrinin hərbi nəzəriyyə, strategiya, taktika cəhətdən rəqiblərindən zəif olması, "Dördlər ittifaqı"nın hərbi kəşfiyyat və informasiya baxımından müharibəyə yaxşı hazırlaşması, Antanta ölkələrinin Osmanlı dövləti və Avstriya-Macarıstan imperatorluğunda yaşayan milli azlıqları qiyamlara və separatçılığa təhrik etmələri idi.

Siyasətin zorakılıqla davamı olan bu müharibə 38 dövləti əhatə etmiş və iştirak edən dövlətlərin milli sərvətinin $\frac{1}{3}$ hissəsinin məhv edilməsinə gətirib çıxarmışdı. Müharibə edən dövlətlərin ağır sənayesinin 70%-i, yüngül sənayesinin

50%-i bu işə sərf edilmişdi. Müharibədə 10 milyon adam ölmüş, 20 milyonu yaralanmışdı. Əgər 1773-cü ildən 1914-cü ilə qədər olan müharibələrə çəkilən xərclər cəmi 6 milyon dollar olmuşdursa, Birinci Dünya müharibəsi bəşəriyyətə 80 milyard dollara başa gəlmişdir.

Birinci dünya müharibəsinin beynəlxalq nəticələri dörd nəhəng imperiyanın – Almaniya, Avstriya-Macarıstan, Osmanlı və Rusiya imperiyasının dağılması, bir sıra yeni dövlətlərin yaranması, dünya dövlətlərinin iqtisadi və siyasi cəhətdən qeyri-bərabər inkişafının sürətlənməsi, müstəmləkə və yarı müstəmləkə ölkələrində milli-azadlıq hərəkatının güclənməsi, müharibənin yaratdığı ağır sosial-iqtisadi vəziyyətin bir çox ölkələrdə inqilabi hərəkatın meydana gəlməsinə səbəb olması və s. idi.

## PARİS SÜLH KONFRANSI

Qaliblərlə məğlublar arasında sülh müqavilələrini hazırlamaq və bağlamaq üçün 1919-ci il yanvarın 18-də Parisdə (Versalda) 27 dövlətdən 1000 nəfər nümayəndənin rəsmən iştirak etdiyi sülh konfransı işə başladı. Konfransın gündəliyinə Almaniya ilə Sülh müqaviləsinin bağlanması, ərazi və müstəmləkə ölkələri, Millətlər Cəmiyyətinin yaradılması, təzminat, tərksilah məsələləri daxil idi. Konfransa sovet Rusiyası və məğlub dövlətlər dəvət edilməmişdi. Konfransda müharibəyə formal olaraq qoşulmuş Latın Amerikası ölkələri də məşvərətçi səslə iştirak edirdilər. Konfransa sədrliyi Fransanın baş naziri, son dərəcə qətiyyətli, başladığı işi axıra çatdırmağı sevən, "Pələng" ləqəbi ilə tanınan Corc Klemanso edirdi. Əsas məsələlərin həllində konfransda təşkil edilmiş bir neçə Şura mühüm rol oynayırdı. Bunlardan biri "Onlar şurası" idi. Bu şuraya 5 dövlətin, yəni ABŞ, İngiltərə, Fransa, Yaponiya və İtaliyanın dövlət və hökumət başçıları və xarici işlər nazirləri daxil idilər. Sonra bu orqan həmin 5 ölkənin



xarici işlər nazirlərindən ibarət olan "5-lər şurası"na, ABŞ, İngiltərə, Fransa və İtaliyanın dövlət və hökumət başçılarından ibarət olan (Vilson, Lloyd Corc, Klemanso, Orlando) "Dördlər şurası"na bölündü. Konfransda həlledici sözü Vilson, Lloyd Corc, Klemansondan ibarət - "Böyük üçlük" deyirdi.

Konfrans beynəlxalq nöqteyi-nəzərdən əlverişli vaxtda çağırılmamışdı. Çünki Sovet Rusiyasında vətəndaş müharibəsi gedişində bolşeviklər artıq qələbə təşəbbüsünü öz əllərinə almaqda idilər. Bu baxımdan konfransda Rusiya məsələsi xüsusi diqqət cəlb edirdi. Fransa istəyirdi ki, Rusiyaya dərhal hərbi müdaxilə edilsin, çarizm Rusiyada yenidən bərpa olunsun və Fransa çar Rusiyası ilə birgə İngiltərə və ABŞ-a qarşı dayansın. Lakin konfransda Fransanın Avropada hegemonluğunun yolverilməz olduğunu hesab edən İngiltərə və ABŞ belə bir fikir irəli sürdülər ki, həm Sovet Rusiyasının, həm də ağ qvardiyaçıların rəhbərləri ilə birgə danışıqlar aparsınlar və iqtisadi yolla Sovet hakimiyyətinin Rusiyada yıxılmasına nail olsunlar. Uzun danışıqlardan sonra «Böyük üçlük» qərara gəldi ki, Rusiyaya həm hərbi müdaxilə etmək, həm də Rusiyadakı ağqvardiyaçılara silah, sursat, maddi yardım göstərmək lazımdır. Antanta qoşunlarının baş komandanı general Foşun Moskvaya 1 milyonluq ordu göndərmək istəyi isə baş tutmadı.

Konfransda ən mühüm məsələ Almaniya məsələsi idi. Fransa Almaniyanı tam parçalanmış vəziyyətdə görmək istəyirdi. O, hələ müharibə dövründə çar Rusiyası ilə belə bir qərara gəlmişdi ki, Reynin sol sahilini Almaniyadan ayırıb Bufer-Reyn respublikası yaratsınlar. Fransa həmçinin Bavariyanı da müstəqil respublika kimi görmək istəyirdi. O, Saar kömür hövzəsini də özünə birləşdirməyi tələb edirdi. Həmçinin Fransa 800 milyard qızıl marka təzminat tələb edirdi ki, bu təzminatın da 58%-i Fransaya çatmalı idi. Lakin ABŞ və İngiltərə kontinentdə Fransaya və Sovet Rusiyasına qarşı dura

biləcək vahid, iqtisadi cəhətdən güclü Almaniyanın qalması tərəfdarları idilər.

1919-cu ilin martında L.Corc Vilsona və Klemansoya “Fontonlodan memorandum” adlı sənəd göndərərək Almaniya ilə əzablı sülh bağlamamağı təklif etdi.

Konfransda mühüm məsələlərdən biri də İtaliya məsələsi idi. İtaliyaya 1915-1917-ci illərdə Antanta tərəfindən çoxlu vədlər verilmişdi. Müharibə dövründə bağlanan sazişlərə görə İtaliyaya Kiçik Asiya və Balkan yarımadasının şimal-qərbində geniş ərazilər vəd edilmişdi. İtaliya həmçinin Dolmasiyanın şimal hissəsini, Fium limanını da tələb edirdi. Lakin müharibə qurtardıqdan sonra İtaliya burjuaziyasının iqtisadi cəhətdən zəifliyi və onun məğlublar içərisində qalib, qaliblər içərisində isə məğlub vəziyyətində olması qalib dövlətlərə imkan verdi ki, İtaliyaya vəd etdikləri əraziləri ona yox, Serb-Xorvat-sloven krallığına və Yunanıstana versinlər. Etiraz əlaməti olaraq İtaliya nümayəndə heyəti konfransı tərk etsə də, bu heç bir dəyişikliyə səbəb olmadı. İtaliya nümayəndə heyəti may ayında yenidən konfransa qayıtdı.

Uzun müddətli hazırlıqdan sonra mayın 7-də Almaniya nümayəndə heyəti Parisə dəvət olundu və sülh müqaviləsinin mətni imzalanmaq üçün ona təqdim olundu. Lakin müqavilənin şərtləri o qədər alçaldıcı idi ki, o zaman Almaniyanın xarici işlər naziri olan Borkdorf Rotsenau onu imzalamaqdan imtina edib öz vəzifəsindən istefa verdi. Almaniya nümayəndə heyəti Berlinə qayıtdı. Xarici işlər naziri təyin edilmiş sosial-demokrat German Müller 1919-cu ilin iyunun 28-də tarixə Versal sülhü adı ilə daxil olmuş həmin müqaviləni imzaladı və müharibənin başlanmasında Almaniya başlıca təqsirkar olduğunu etiraf etmək məcburiyyətində qaldı. Versal müqaviləsinə görə: Elzas və Lotaringiya yenidən Fransaya qaytarılırdı. Reynin sol sahili hərbsizləşdirilmiş zona elan edilirdi və burada Almaniyanın zavodlar tikməsi qadağan edilirdi. Reynin sol sahilini



Antantanın işğalçı qoşunları tutdular. Saar vilayəti 15 il müddətində Millətlər Cəmiyyətinin mandatına, onun kömür mədənləri isə Fransaya verildi. Müəyyən olunan müddət bitdikdən sonra vilayətin gələcək taleyinin referendum yolu ilə həll olunması nəzərdə tutulurdu. Sülh müqaviləsinə görə 15 ildən sonra Saar hər hansı bir dövlətə verilərdisə, onun kömür mədənlərini alman sahibkarları da ala bilərdi. Almaniya Avstriyanın müstəqilliyinə hörmət edəcəyini öhdəsinə götürdü.

Müqaviləyə əsasən Belçikanın bitərfliyi təsdiq edilir, Ey-pen və Malmedi mahalları ona verilirdi. Həmçinin Belçikanın tabeliyində olan Morena bitərəf zona elan edildi. Versal müqaviləsində nəzərdə tutulurdu ki, Lüksemburq hersoqluğu 1919-cu il yanvarın 1-dən müstəqil dövlət elan edilsin. 1864-cü ildə Danimarkadan almanların burada əksəriyyət təşkil etdiyi bəhanə edilərək alınmış Halşteyn vilayəti və Yuxari Şlezviq yenidən Danimarkaya qaytarılırdı. Aşağı Şlezviqin məsələsi isə referendum, yəni ümumrəy sorğusu ilə həll edilməli idi. Almaniyanın ərazisi Şərqi Prussiyanın ondan ayrılması nəticəsində iki hissəyə bölündü. Almaniya Memel (Klaypeda) ərazisi üzərində bütün hüquqlarından əl çəkdi.1923-cü ildə Klaypeda Litvaya verildi. O Birinci Dünya müharibəsi başlananadək keçmiş Rusiya imperiyasına daxil olan bütün ərazilərin müstəqilliyini tanıdı. Almaniya Polşanın müstəqilliyini tanıyır və Polşaya məxsus olan Şərqi Poznanı, Şimali və Şərqi Prussiyanın bir hissəsini, Şileziyanın ona məxsus hissəsini Polşaya qaytarırdı.Qdansk müstəqil şəhər elan edilirdi. Lakin Polşa dövləti dənizə çıxa bilmədi. Baltik dənizinə çıxa biləcək 100 km$^2$-ə qədər ərazi Almaniyanın ixtiyarında qalırdı. Almaniya öz müstəmləkələrinin hamısını itirdi. Almaniyada hərbi mükəlləfiyyət ləğv edilirdi. Almaniya ordu və donanma saxlaya bilməzdi. Ancaq 100 min nəfər könüllü ordu saxlaya bilərdi və bu orduya rəhbərlik edən zabit heyəti 4 min nəfərdən çox olmamalı idi. Bütün Almaniya üzrə

hərbi rütbəlilərin sayı isə 15 mini ötməməli idi. Onun sayını ancaq 1500 nəfər artırmaq olardı. Əsgərlər və unter-zabitlər 12, zabitlər isə ən azı 45 il xitmət etməli idilər. Almaniya ancaq 6 yüngül, 6 ağır zirehli gəmiyə, 12 mina- daşıyan və 12 əksminadaşıyan linkörə sahib ola bilərdi. Almaniyanın böyük tonnajlı gəmilər inşa etməyə, sualtı qayıqlara və hava donanmasına malik olmağa ixtiyarı yox idi. Lakin Versal müqaviləsi Almaniya imperializminin əsaslarına toxunmadı. Almaniyanın hərbi sənaye potensialı ləğv edilmədi, yalnız məhdudlaşdırıldı.

Versal müqaviləsinin mühüm tərkib hissələrindən biri də Millətlər Cəmiyyəti məsələsi idi. Millətlər Cəmiyyətinin fəaliyyəti assambley, onun şurası və katiblik vasitəsi ilə həyata keçirilirdi. Cəmiyyətin Baş Şurasının üzvlərini əvvəl dörd ölkənin (İngiltərə, Fransa, İtaliya, Yaponiya) nümayəndələri təşkil edirdi. Millətlər Cəmiyyətinin katibliyi yanında beynəlxalq əmək bürosu, tərksilah komissiyası, beynəlxalq ədalət məhkəməsi palatası fəaliyyət göstərməli idi.

Millətlər Cəmiyyətinin nizamnaməsi sülh müqaviləsinin tərkib hissəsi oldu. O, cəmiyyətin əsas vəzifələrini-xalqlar arasında əməkdaşlığın inkişaf etdirilməsi, sülhün və təhlükəsizliyin təmin olunması vəzifələrini müəyyən etdi. Beynəlxalq məsələləri müzakirə etmək üçün hər il Millətlər Cəmiyyətinin Məclisi toplaşırdı. Nizamnamə Cəmiyyətinin təcavüzkar dövlət barəsində kollektiv tədbirlər-sanksiyalar tətbiq etməsini nəzərdə tuturdu. Lakin nizamnamədə təcavüzün nə demək olduğunun və təcavüzkarın kim olduğunun tərifi yox idi. Vilson tərəfindən bu cəmiyyətin yaradılması təşəbbüsü irəli sürülsə də, Millətlər Cəmiyyətində rəhbər rol Yaponiyanın köməyi nəticəsində İngiltərə və Fransaya məxsus oldu. Həmçinin Vilson diplomatik uğursuzluğa düçar olaraq, müstəmləkələrin Millətlər Cəmiyyəti təşkil ediləndən sonra bölgüsünə nail ola bilmədi. İmperialistlər Almaniyanın keçmiş müstəmləkələrini



və Türkiyənin mülklərini açıq şəkildə tutmağa cürət etmədilər. Müstəmləkə xalqlarının özlərini guya müstəqil idarə etməyə qadir olmadıqları bəhanəsi ilə Millətlər Cəmiyyəti vasitəsi ilə bu xalqlara "mandat sistemi" adı altında qəyyumlar müəyyən olundu. Mandatların İngiltərə və onun dominionlarına, Fransaya, Yaponiyaya və Belçikaya verilməsi müəyyən edildi. İngiltərə və Fransa mandat sistemi xətti ilə müstəmləkələrin elə konfransda bölgüsünə nail oldular. Müstəmləkələr üç mandat kateqoriyasına bölündülər. «A» kateqoriyasına, əsasən, Osmanlı İmperiyasına aid olan Ərəb ölkələri daxil idi. Onların tezliklə müstəqillik qazanması nəzərdə tutulurdu. Fransa Suriya və Livanı, İngiltərə isə Fələstin, Transiordaniya və İraqı aldı.«B» və «C» kateqoriyaları birbaşa Almaniyanın müstəmləkələri idi. «B» kateqoriyasınaMərkəzi Afrikadakı alman müstəmləkələri, yəni Şərqi Almaniya Afrikası, Toqo və Kamerun daxil idi ki, bu İngiltərə və Fransaya çatırdı. «C» kateqoriyasına isə Cənub-Şərqi və Cənub-Qərbi Afrikadakı və Sakit Okeandakı Almaniya müstəmləkələri daxil idi. Bunlar faktiki olaraq Yaponiya, Avstraliya, Yeni Zelandiya və Cənubi Afrika İttifaqının mülklərinə çevrildilər. Belə ki, Cənub-Şərqi və Cənub-Qərbi Afrikadakı Almaniya müstəmləkələrini Cənubi Afrika İttifaqı aldı. Yeni Qvineya İngiltərənin dominionu olan Avstraliyaya, Marşal, Mariya və Karolin adaları Yaponiyaya verilirdi. Üçbucaq Kionqosu Portuqaliyaya, Çinin Şandun əyaləti Yaponiyaya, Ruanda və Urindi Belçikaya, Samao adası Yeni Zelandiyaya verilirdi. İmperialist dövlətləri arasında, müstəmləkələrin və nüfuz dairələrinin yenidən bölüşdürülməsi bu müstəmləkələrin qeyri-bərabər inkişafına və imperialistlər arasında ziddiyyətlərin yeni düyünlərinin yaranmasına səbəb oldu.

Versal sülh müqaviləsində mübahisəli məsələlərdən biri olan təzminat məsələsi öz əksini tapmadı. Çünki ABŞ cəmi 228 mlrd marka Almaniyadan təzminat alınmasını tələb edirdi.

Almaniyadan təzminat alınmasında Fransanın marağı daha böyük idi. O bu təzminat hesabına Avropada güclənmək istəyirdi. Fransa nümayəndəsi son nəticədə Almaniyadan 480-600 milyard qızıl marka təzminat alınmasını tələb edirdi. İngiltərənin isə mövqeyi bu məsələdə ziddiyyətli idi. O gah Fransanın təklif etdiyi və ya ona yaxın məbləğə tərəfdar çıxır, gah da onun əksinə olan təklif irəli sürürdü. İngilis nümayəndəliyinin maliyyə eksperti Keyns Almaniyadan 50 milyard qızıl markadan çox təzminat tələb etməyi yolverilməz hesab edirdi. Təzminat üzrə ayrıca konfrans çağırılması nəzərdə tutuldu. Lakin sülh müqaviləsində belə bir maddə var idi ki, 1921-ci ilə qədər Almaniya 20 mld qızıl marka təzminat ödəsin. 1920-ci ilin iyulun 5-10-da Belçikanın Spa şəhərində çağırılan konfransda Almaniyanın tərksilah məsələsi ilə yanaşı təzminatın miqdarı və onun verilmə vaxtı müəyyən olundu. Almaniya 30 il müddətinə 132 mld marka təzminat verməli idi. Bu təzminatın 52%-i Fransaya, 22%-i İngiltərəyə, 10%-i İtaliyaya, 8%-i Belçikaya, 0,75 %-i Portuqaliyaya, 0,75 %-i Yaponiyaya, 6,5%-i Yunanıstan və Yuqoslaviyaya verməli idi. ABŞ-ın təzminat almaq hüququ saxlanıldı.

Müqavilə, bir neçə ölkə istisna olmaqla, konfransın əksər iştirakçıları tərəfindən imzalandı və təsdiq olundu. Bir sıra ərazilərinin taleyi ilə əlaqədar müqavilənin şərtlərindən, Şandun vilayətinin Yaponiyaya verilməsindən narazı qalan Çin onu imzalamadı. Versal sülhünün şərtləri Amerika inhisarçılarının dünya hegemonluğu iddialarını təmin etmədiyi üçün, həm də İngiltərə və Fransanın başçılıq etdiyi Millətlər Cəmiyyətinə daxil olmaq istəməyən ABŞ senatı da bu müqaviləni ratifikasiya etmədi. Versal sülhü qaliblərlə məğlublar arasında ziddiyyətlər doğurdu. Qaliblərin cəbhəsində rəqabət gücləndi.

Birinci dünya müharibəsinin sonunda milli-azadlıq hərəkatı nəticəsində çoxmillətli Avstriya-Macarıstan imperiyasında



parçalanma əmələ gəldi. Bu imperiyanın yerində Polşa, Çexoslavakiya, Serb-Xorvat-sloven krallığı, Avstriya, Macarıstan kimi yeni dövlətlər yarandı. Habsburqlar monarxiyası süqut etdi. Yeni yaranan dövlətlərdə Fransa öz silahlı qüvvələrini yerləşdirdi ki, bu yolla o, Sovet Rusiyasından qorunmaq üçün, "sanitor kardonu" təşkil etmək istəyirdi.

Paris sülh konfransında Almaniyanın müttəfiqi olan Avstriya ilə də 1919-cu il sentyabrın 10-da Sen-Jermendə sülh müqaviləsi bağlandı. Bu sülh müqaviləsi hazırlanarkən ən mübahisəli məsələ Balkan yarımadası və Dunay hövzəsi idi. Həmin müqaviləyə görə Avstriya öz tərkibində olan malikanələrin hamısından əl çəkdi. Avstriyanın gələcəkdə Almaniya ilə birləşdirilməsi, yəni anşlüs qadağan edilirdi. Avstriya Çexoslavakiyanın müstəqilliyini tanıyır. Çexiya, Moraviya və Sileziyanın ona məxsus hissəsini ona verirdi. Avstriya həmçinin Serb-Xorvat-Sloven krallağının müstəqilliyini tanıyır, Sloveniya, Dolmasiya, Bosniya və Hersoqovunanı ona verirdi. Avstriya ancaq 30 min ordu saxlaya bilərdi. O Adriatik dənizində və Dunay çayında donanma saxlamaq hüququndan məhrum edilirdi. Sen-Jermen müqaviləsinə əsasən Yuliyek-Kraynı, Triyest əraziləri İtaliyaya verilirdi.

1919-cu il noyabrın 27-də isə Bolqarıstanla Neyi müqaviləsi bağlandı. Həmin müqaviləyə əsasən Bolqarıstan öz ərazisinin xeyli hissəsindən məhrum oldu. Müqaviləyə əsasən Bolqarıstan Makedoniyanın ona məxsus hissəsini Serb-Xorvat-Sloven krallığına verdi. Qərbi Frakiya Yunanıstana verildi və buna görə Bolqarıstan Egey dənizinə çıxışını itirdi. Cənubi Dobruçi Rumınıyaya verildi. Bolqarıstan ancaq 20 min qoşun, 4 minadaşıyan, 4 əksminadaşıyan gəmi, 6 matorlu qayıq saxlaya bilərdi. O, 2,27 mlrd frank təzminat verməli və onu 37 il ərzində ödəməli idi. Neyi müqaviləsinə görə Bolaqrıstan 5 il müdətində Serb-Xorvat-Sloven krallığına hər il 50 min ton daş

kömür, bundan başqa, Yunanıstan, Ruminiya və Serb-Xorvat-Sloven krallığına 6 ay müdətində 70 min baş mal-qara verməli idi. Bu müqavilə Bolqarıstanda milli ədavəti gücləndirdi.

1920-ci ilin iyunun 4-də Macarıstanla Parisin Trianon sarayında sülh müqaviləsi bağlandı. Müqaviləyə görə Macarıstandan slavyan malikanələri alındı. Macarıstan Çexiyanın müstəqilliyini tanıyır, Slovakiya və Zakarpat Ukraynasını ona, Serb-Xorvat-Sloven krallığının müstəqilliyini tanımaqla Xorvatiya, Baçka və Banatın qərb hissəsini isə ona verirdi. Həmçinin Macarıstan Rumıniyaya Transilvaniya və Banatın şərq hissəsini, Avstriyaya Burqenland əyalətini verirdi Macarıstan özünün Dunaydakı bütün donanmasından məhrum edilirdi. O ancaq 35 min nəfərlik muzdlu qoşun saxlaya bilərdi. Macarıstan ərazisi belə parçalandığına görə İkinci Dünya müharibəsinə qədər onu «kəsilmiş dövlət» də adlandırırdılar.

1920-ci ilin avqustun 10-da «Dördlər ittifaqı»nın üzvü olan Türkiyə ilə Sevr müqaviləsi bağlandı. Sevr müqaviləsində Osmanlı imperiyasının dağılması və bölüşdürülməsi nəzərdə tutulurdu. Həmin müqavilə Türkiyəyə onun bir çox starteji cəhətdən əhəmiyyətli ərazilərinin Antanta qoşunları tərəfindən işğal olunması şəraitində zorla qəbul etdirilmişdi. Osmanlı imperiyasının ərazisi tamamilə parçalanırdı. Belə ki, Türkiyə Ermənistanın müstəqilliyini tanıyır Anadolu yarımadasının şərq hissəsini ona, "muxtariyyət" qazanmış Kürdüstanı tanıyaraq Anadolunun cənub-şərq hissəsini isə ona verirdi. Türkiyə həmçinin Dardanelin Avropa sahili, Ədirnə, İzmir və Şərqi Frakiyanın, demək olar ki, Türkiyənin bütün Avropa hissəsinin Yunanıstanın olması ilə razılaşırdı. Kilikiya qonşu ərazilərlə, həmçinin Anadolunun cənubu Fransanın təsir dairəsinə daxil edilirdi. Bununla bərabər bütün Anadolu İtaliya və Fransanın nüfuz dairəsinə bölünürdü. Türkiyənin bütün mülkləri əlindən alınırdı. O, Misir malikanəsindən məhrum edildi və Misir üzərində İngiltərənin protektoratlığını qəbul etdi. Mandat üsulu



ilə Suriya və Livan Fransaya, İraq, Fələstin və Traniordaniya isə İngiltərəyə verilirdi. Bir sözlə, Türkiyənin əlində ancaq İstanbul və onun ətrafındakı ərazilər qalırdı ki, tezliklə İstanbuldan başqa bu ərazilər də İngiltərə tərəfindən işğal olundu. Dardanel və Bosfor boğazları ticarət və hərbi gəmilər üçün açıq elan edilirdi. Türkiyənin maliyyəsi üzərində qalib dövlətlər nəzarət etməli idilər. Boğazları nəzarətdə saxlamaq üçün ABŞ, İngiltərə, Fransa, İtaliya və Yaponiyadan ibarət xüsusi komissiya yaradılırdı. Bu komissiyanın özünün hərbiləşdirilmiş dəstəsi, büdcəsi və bayrağı var idi. Komissiyanın üzvlərinin hər birinin məsələlərin həllində iki, Rumıniyanın və Yunanıstanın isə bir səs hüququ var idi. Bolqarıstan, Türkiyə və Rusiya bu dənizlər ətrafında yerləşən ölkələr olsa da, onlardan heç birinin səsvermə hüququ yox idi. Onlar ancaq Millətlər Cəmiyyətinə daxil olduqdan sonra komissiyanın üzvü ola bilərdilər. Türkiyə cəmi 50 min muzdlu qoşun saxlaya bilərdi. Sevr müqaviləsi Osmanlı imperiyası kimi böyük bir türk dövlətini tarixdən silmək təhlükəsi qarşısında qoymuşdu. Lakin türk xalqının böyük oğlu M.K.Atatürk gənc türklərin buraxdığı səhvi vaxtında düzəldə bildi. Mustafa Kamal Paşanın başçılıq etdiyi TBMM[1] müqaviləni tanımadı Vətənin mənafeyini qorumağı bacarmayan sultan hökuməti qanundankənar elan olundu. Belə olan halda sultan Sevr müqaviləsini təsdiq etməyə cəsarət etmədi. “Antanta” növbəti fitnəkarlığa əl atdı. Daşnaq Ermənistanı Türkiyəyə müharibə elan etdi və Qars, Oltun, Sarıqamış işğal olundu. Lakin vəziyyətə nəzarət edən Mustafa Kamal hökuməti qısa zamanda düşmənə sarsıdıcı zərbələr endirdi. Kazım Qarabəkir paşanın komandanlığı altında türk qoşunları 1920-ci ilin sentyabrın 28-də hücuma başladılar. Ertəsi gün Sarıqamış, az sonra Qars işğalçılardan azad olundu. Daşnaq Ermənistanı təslim edildi və Gümrüdə sülh müqaviləsi imzalamağa məcbur oldu. Gürcüstanın əlində olan Ərdəhan və

[1] TBMM-Türkiyə Böyük Millət Məclisi

Artvin vilayətləri də geri qaytarıldı. 1921-ci ilin yanvar ayında İnönü kəndi ətrafında baş vermiş uğurlu döyüş nəticəsində yunanların qərb cəbhəsində sürətli irəliləyişləri dayandırıldı. Bu döyüş Türkiyə milli-azadlıq hərakatında dönüş nöqtəsi oldu. İngilislərdən kömək almış yunanlar yeni hücuma hazırlaşır, İnönü məğlubiyyətinin əvəzini çıxmaq istəyirdilər. 1921-ci il martın axırında hücuma keçən yunan qoşunları yenə də İnönü kəndi yaxınlığında məğlub edildilər. Bu döyüş tarixdə İkinci İnönü döyüşü adlanır. Yunan qoşunları ingilislərin təhriki ilə yenidən Sakarya istiqamətində hücuma keçdilər. Türk qoşunları sentyabrın 13-də Sakarya vuruşmasında parlaq qələbə çaldılar. Sakaryada məğlub olmuş yunan qoşunları Afyon-Qarahisar xəttinə çəkilərək müdafiəyə keçdilər və öz mövqelərini möhkəmləndirməyə başladılar. 1922-ci il avqustun 26-da Qocatəpədən böyük türk hücumu başladı. Az vaxt ərzində Afyon-Qarahisar xətti yarıldı, 200 minlik yunan ordusu mühasirəyə düşdü. Afyon alındı. Dumlıpınar döyüşü yunanlar üçün tam faciə ilə nəticələndi. Türk qoşunları yunanları Aralıq dənizinə sıxışdırdılar. Anadolunu yunan qoşunlarından təmizləyən türk ordusu sentyabrın 9-da İzmiri azad etdi. Oktyabrın 11-də “Antanta” dövlətləri və Yunanıstan Mudanya sülh müqaviləsini imzaladılar. Noyabrın 1-də TBMM sultan səltənətini ləğv etdi. Sultan Maltaya qaçdı.

1918-1923-cü illərdə gedən azadlıq müharibəsi yenidən qalib dövlətləri məcbur etdi ki, 1923-cü il iyulun 24-də onlar Lozannada çağrılmış konfransda (Konfrans öz işinə1922-ci il noyabrın 22-də başlamışdı) Sevr müqaviləsini qüvvədən düşmüş hesab etsinlər və Ankara hökumətini böyük türk dövlətinin hökuməti kimi tanısınlar. Lozanna protokoluna görə Türkiyə özünün ərəb ərazilərini itirir, Kiprin Böyük Britaniyaya Dodekanez adalarının İtaliyaya, Egey dənizindəki bir sıra adaların Yunanıstana verilməsi ilə razılaşmalı olurdu Bununla bərabər, başlıca türk ərazilərini Türkiyə özündə saxlaya bildi.



İzmir, Ədirnə ilə birlikdə Şərqi Frakiya, Dardanelin Avropa sahilləri, Qallipoli yarımadası və s. Türkiyəyə qaytarıldı. Qara dəniz dövlətlərinin ticarət və hərbi gəmiləri dinc və müharibə vaxtı boğazlardan sərbəst keçə bilərdilər. Fransa, İngiltərə, İtaliya, Yaponiya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Rusiya, Yuqoslaviya, və Türkiyədən ibarət İstanbulda türk nümayəndəliyinin sədrliyi ilə beynəlxalq boğazlar komissiyası yaradıldı. Yunanlar İstanbuldan başqa bütün Türk ərazilərindən çıxarılmalı idilər. Ermənilərin Türkiyə ərazisində Ermənistan təşkil etmək istəyi baş tutmadı. 1923-cü il oktyabrın 15-də Türkiyədə paytaxt İstanbuldan Ankaraya köçürüldü. Həmin il oktyabrın 29-da isə 1876-cı il konstitusiyasında edilmiş bir dəyişikliklə Türkiyə respublika elan edildi.

Bütün bu müqavilələr tarixdə Versal sistemi adlandı.

## PARİS SÜLH KONFRANSINDA AZƏRBAYCAN NÜMAYƏNDƏ HEYƏTİNİN İŞTİRAKI

1918-ci il dekabrın 7-də açılmış Azərbaycan parlamenti Paris sülh konfransında iştirak etmək üçün oraya nümayəndə heyəti göndərdi. Ona parlamentin sədri Ə.M.Topçubaşov başçılıq edirdi. Nümayəndə heyəti, çoxpartiyalılıq əsasında formalaşmışdı. Hələ yolda olan zaman Əhməd bəy Ağaoğlu «İttifaq və Tərəqqi» partiyasının rəhbərlərindən birinin ittihamı ilə tutulub müttəfiqlər tərəfindən Malta adasına həbsə göndərildi. İngilis hökumətinin köməyi ilə konfransda iştirak etmək üçün icazə ala bilən nümayəndə heyəti 1919-cu ilin may ayında Parisə çatdı.

Paris sülh konfransı Kolçak hökumətini bütün keçmiş Rusiya ərazisində ali hakimiyyət orqanı kimi tanımaq haqqında qərar qəbul etmişdi. Azərbaycan, Dağlılar Respublikası, Estoniya, Kuban, Gürcüstan, Latviya, Litva, Ukrayna nümayəndələri sülh konfransının sədrinə birgə müraciətlə bu qərara etirazlarını bildirdilər. Onlar Vilsondan «14 maddəlik»

məşhur proqramında əksini tapmış öz müqəddəratını təyin etmək hüququnun müstəqil dövlətlər kimi mövcud olan bu ölkələrə də şamil edilməsini və onların da rəsmən tanınmasını xahiş edirdilər.

1919-cu il mayın 28-də Azərbaycan nümayəndə heyəti ABŞ prezidenti V.Vilsonla görüşə bildi. Təqdim olunmuş memorandumda Azərbaycan Xalq Cumhuriyyətinin yaranma tarixi, onun bir illik inkişaf yolundan, istiqlal yolunda verdiyi qurbanlardan danışılırdı. Göstərilirdi ki, bu yolda Azərbaycanın iki şəhəri və 500 kəndi dağılmış, Azərbaycan xalqı 100 mindən 150 minə qədər qurban vermişdir. Daha sonra Vilsondan Azərbaycanın istiqlaliyyətinin tanınması, ABŞ-la Azərbaycan arasında diplomatik və iqtisadi əlaqələrin bərqərar edilməsi və s. məsələlərdə Azərbaycan nümayəndə heyətinə kömək göstərilməsi xahiş edilirdi.

Lakin prezident Vilson Azərbaycan nümayəndə heyətini soyuq qarşılamış, sülh konfransının dünyanı kiçik hissələrə parçalamaq niyyətində olmadığını dedikdən sonra Azərbaycan nümayəndələrinə konfederasiya ideyasını müdafiə etməyi məsləhət bilmiş, Millətlər Cəmiyyətinin mandatı ilə böyük dövlətlərdən birinin bu konfederasiya üzərinə qəyyumluğunun real çıxış yolu olduğunu göstərmişdir.

Azərbaycan Respublikasının nümayəndə heyətinin Parisdə vəziyyəti çətin idi. Ermənistan və Gürcüstan nümayəndələrindən fərqli olaraq onlara heç bir kömək göstərilmirdi. Qərbdəki ermənipərəstlik hərəkatı və gürcü menşeviklərinin beynəlxalq sosializm ilə əlaqələri fonunda azərbaycanlıların mövqeyi zəif idi.

Azərbaycan nümayəndələrinin Paris sülh konfransında irəli sürdükləri memorandumda aşağıdakılar irəli sürülürdü:

1. Sülh konfransı Qafqaz Azərbaycanının Rus imperiyasından ayrılmasını bəyənsin. Azərbaycan tamamilə müstəqil dövlət olmaqla Azərbaycan Xalq Cumhuriyyəti



adlansın və sərhədləri əlavə edilən xəritədəki kimi müəyyənləşdirilsin.

2. Azərbaycan Respublikası nümayəndə heyətinin üzvləri sülh konfransının və onun komissiyalarının işinə cəlb olunsun.

3. Azərbaycan Respublikası yüksək himayəsi altında olmaq istədiyi Millətlər cəmiyyətinin üzvlüyünə qəbul edilsin.

Azərbaycan Respublikası nümayəndələri tərəfindən verilən memoranduma çox yüksək keyfiyyətlə işlənmiş rəngli xəritə də əlavə olunmuşdu. Azərbaycan respublikası hökumətinin nəzarəti altında olan ərazinin dəqiq sərhədləri verilir və bu ölkənin Zaqafqaziyada olan mövqeyi hərtərəfli göstərilirdi.

Paris sülh konfransına təqdim olunan memorandumdan məlum olur ki, Azərbaycan hökumətinin nəzarəti altında olan ərazi 8378, 66 kv. verstdir və yaxud 94137, 38 kvardrat kilometrdir. Bu da bütün Qafqazın 217 376, 15 vesrt, yaxud 247 376, 15 kvadrat kilometr olan ərazisinin 30%-dən çoxunu təşkil edir.

Memorandumda göstərilirdi ki, Yerevan və Tiflis quberniyalarında, Zaqatala qəzasında mənsubiyyəti Azərbaycan, Ermənistan, Gürcüstan və Şimali Qafqaz respublikaları arasında iddialar doğuran və sahəcə çox kiçik ərazilər də mövcuddur. Dağıstan quberniyasının əhalisinin azərbaycanlılardan ibarət olan hissəsi həmişə Azərbaycana birləşmək meylində olmuşdur.

Danışıqlar zamanı yerli şəraiti öyrənmək üçün Cənubi Qafqaza ABŞ-ın xüsusi nömayəndəliyinin göndərilməsi məqsədəuyğun hesab edildi. ABŞ-ın təşəbbüsü ilə Sülh konfransı 1919-cu il iyun ayının əvvəllərində polkovnik K.V.Haskeli Ermənistanın ali komissarı təyin etdi. Oktyabr ayının əvvəllərində general Xarbordun başçılığı ilə Amerika nümayəndəliyi Cənubi Qafqaza göndərildi. Yerlərdə vəziyyətlə ətraflı tanış olan V.Haskel 1919-cu il avqust ayının 29-da

Bakıda apardığı danışıqlarda Qarabağ və Zəngəzurun Azərbaycana məxsus olduğunu bildirdi. Naxçıvan, Şərur və Dərələyəzdə Haskel ABŞ general-qubernatoru tərəfindən idarə olunan neytral zona yaradılmasını təklif etdi. 1919-cu il oktyabr ayının 24-də Naxçıvanda ABŞ general-qubernatorluğunun yaradılması və Amerika polkovniki E.Dellinin buraya qubernator təyin edilməsi barədə V.Haskelin bəyanatı elan edildi. Lakin Azərbaycan hökumətinin qəti mövqeyi, Naxçıvan əhalisinin ciddi müqaviməti ABŞ-ın planlarını puç etdi. Polkovnik Delli isə Naxçıvanda Sülh konfransının nümayəndəliyi kimi fəaliyyət göstərdi. Paris sülh konfransının Ali Şurası Böyük Britaniyanın xarici işlər naziri Lord Kerzonun təklifi ilə 1920-ci il yanvarın 11-də Azərbaycan, Gürcüstan və bir qədər sonra, Ermənistanın müstəqilliyini de-fakto tanıdı. Buna baxmayaraq onların dövlət sərhədlərinin müzakirəsi və təsdiqi məsələsini həmin ölkələrin beynəlxaq vəziyyətinin tam aydınlaşdırılmasına qədər təxirə saldı.

1920-ci ilin yanvarın 19-da Azərbaycan və Gürcüstanın rəsmi nümayəndələri Paris konfransının Ali Şurasının iclasına dəvət edildilər. İclasda müzakirə olunan məsələlərin əksəriyyəti Zaqafqaziyanın müdafiəsi ilə bağlı idi. Ə.M.Topçubaşov bu görüşün nəticələri haqqında Azərbaycan hökumətinə təcili məlumat verdi. Tezliklə xarici işlər nazirinin imzası ilə Azərbaycan hökumətinin rəsmi memorandumu müttəfiq dövlətlərin Ali Şurasına təqdim edildi. Memorandumda Azərbaycan respublikasının böyük tarixi xidmətləri və əhəmiyyəti xatırladılır, Azərbaycanın çox tezliklə şimaldan gələn təhlükə ilə üz-üzə dayanacağı ehtimalı qarşısında ona müxtəlif sahələrdə əsaslı yardım edilməsi zərurəti əsaslandırılırdı. Azərbaycanın istiqlalının qorunması məsələsində Azərbaycan hökumətinə hərtərəfli hərbi yardım göstərilməsi xahiş edilir, ənənəvi iqtisadi əlaqələr pozulduğundan ölkədə yaranmış iqtisadi maliyyə böhranını aradan qaldırmaq məqsədi ilə Avropa və Amerikanın



Azərbaycana 40-50 milyon qızıl manat miqdarında borc verməsi arzu edilirdi.

Paris sülh konfransında dövlətlər tərəfindən tanınandan sonra Azərbaycanın xarici işlər nazirliyində Avropa və Amerikanın altı dövlətində – İngiltərə, Fransa, ABŞ, İtaliya, İsveçrə və Polşada diplomatik nümayəndəliklərin açılması haqqında layihə hazırlandı. ADR-in baş naziri F.Xoyski İsveçrə ilə münasibətlərin yaradılmasına da böyük əhəmiyyət verirdi. İsveçrədə ADR-in informasiya mərkəzinin yaradılması haqqında razılıq əldə edilmişdi.

Paris sülh konfransında Azərbaycan nümayəndə heyətinin səmərəli fəaliyyətində Ə.M.Topçubaşovun mühüm rolu olmuşdur.

## VAŞİNQTON KONFRANSI

ABŞ Avropa, Asiya və Afrikada heç bir üstünlüyə nail olmadığı üçün bunun əvəzini Uzaq Şərq, Çin və Sakit okeanda çıxmağa çalışırdı. 1920-ci ildə keçirilən prezident seçkilərindən sonra ABŞ-da hakimiyyətə gələn respublikaçılar partiyası yeni bir konfrans çağırmaq təşəbbüsü ilə çıxış etdi. Bu işdə ən çox fəallıq göstərən ABŞ-ın dövlət katibi, yaxud xarici işlər naziri Yuz idi. ABŞ konfransı çağırmaq üçün böyük dövlətlərdən olan İngiltərə və Yaponiyanı razı salmağı birinci dərəcəli vəzifə hesab edirdi. İngiltərə bu məsələyə əvvəl razı olmadıqda ABŞ bildirdi ki, əks təqdirdə İngiltərənin ona borclu olduğu 850 milyon funt-sterlinqin və ya 4 milyard dolların dərhal verilməsini tələb edəcəkdir. Həm də bu tələb qızıl paritetinə uyğun olmalıdır. ABŞ həmçinin İngiltərəyə təzyiq göstərmək üçün o zaman İrlandiyadakı azadlıq uğrunda mübarizə məsələsini konqresə çıxartdı və göstərdi ki, bu məsələyə konqresin münasibəti İngiltərənin mövqeyindən asılı olacaqdır. İngiltərənin dominionları da ABŞ-ı müdafiə edir, Atlantik və Sakit okeanda İngiltərə və Yaponiyanın üstünlüyünü təmin edən 1902-ci ildə bağlanmış ingilis-yapon sazişinin ləğv

edilməsini və İngiltərənin ABŞ-la yaxınlaşmasını tələb edirdilər. ABŞ istəyirdi ki, hələ 1899-cu ildə Cənub-Şərqi Asiyaya qarşı irəli sürülmüş “açıq qapı” doktorinasını həyata keçirsin və Yantszı çayı hövzəsində və Çinin cənubunda İngiltərənin nüfuz dairəsini ləğv etsin. ABŞ Çində baş verən hadisələrdən qorxuya düşmüş Yaponiyanı da bu işə məcbur etdiYaponiya artıq belə bir nəticəyə gəlmişdi ki, Çinlə əvvəlki qaydada rəftar etmək mümkün deyildir və bu ölkəni heç bir vaxt müstəmləkəyə çevirmək olmaz. Uzun danışıqlardan sonra 1921-ci ilin iyun ayının 10-da böyük dövlətlərə məktublar göndərildi. Avqust ayının 1-nə qədər onlardan razılıq alındı. Nəticədə 1921-ci ilin noyabrın 12-də Vaşinqtonda 14 dövlətin iştirakı ilə yeni bir konfrans çağırıldı. Onun iştirakçıları ABŞ, İngiltərə və onun 4 dominionu, həmçinin Hindistan, Fransa, Yaponiya, İtaliya, Portuqaliya, Belçika, Niderland və Çin idi. Konfransın gündəliyində əsasən iki məsələ dururdu. Bunlardan biri dəniz silahlı qüvvələrini məhdudlaşdırmaq və müharibədə yeni silahlardan istifadə qaydası, digəri Sakit okean və Uzaq Şərq məsələsi idi. Konfransda Çin məsələsi ayrıca bir məsələ kimi gündəliyə salınmasa da, əslində ən başlıca məsələ idi. ABŞ Sakit okean məsələsini ona görə gündəliyə qoydu ki, 1920-ci ildə Panama kanalı işə düşmüşdü və ABŞ üçün Sakit Okeanın əhəmiyyəti daha da artmışdı. ABŞ-ın dövlət katibi Yuz, İngiltərənin xarici işlər naziri Balfur, Yaponiyanın xarici işlər naziri Kato konfransda həlledici sima idi. 1922-ci ilin fevralın 4-də bağlanan «4 dövlət sazişi»nə əsasən (ABŞ, İngiltərə, Fransa, Yaponiya) 1902-ci il ingilis-yapon sazişi ləğv edildi ki, bu ABŞ diplomatiyasının uğuru idi. Həmçinin bu dörd dövlət Sakin okeandanı mülklərini birə qorumaq haqqında öhdəlik götürdülər. 1922-ci il fevralın 4-də Yaponiya ilə Çin arasında da saziş bağlandı. Bu sazişə əsasən Çinin xeyrinə olaraq Yaponiya Şandun əyalətindən imtina etdi. İngiltərə də icarəyə götürdüyü Veyxoveyi limanını Çinə qaytardı.



1922-ci il fevralın 6-da isə Çinə dair «9 dövlət müqaviləsi» bağlandı. Bu müqaviləyə əsasən onu imzalayan dövlətlər bildirirdilər ki, Çinin ərazi bütövlüyünə, suverenliyinə hörmət edirlər. Çinin inkişaf etməsi və möhkəmlənməsi, hökumət təşkil etməsinə tam imkan yaradacaq və kömək edəcəklər. Dövlətlər Çində xüsusi imtiyazlar əldə etməyə çalışmayıb, ticarət və sənaye fəaliyyəti sahəsində bağlanacaq bərabərhüquqlu müqavilələrə riayət edəcəklər. Onlar Çinin daxili işlərinə qarışmayacaqlarına və Çinin nüfuz dairəsinə bölünməsinə imkan verməyəcəklərini də vəd edirdilər. Əslində bu saziş ABŞ-ın «açıq qapılar» siyasətinin reallaşması, İngiltərə və Yaponiyanın Çindəki nüfuzuna zərbə endirilməsi demək idi. Çin üçün "açıq qapılar" doktrinası onun suverenliyinə böyük zərbə idi. Çin böyük dövlətlərin sövdələşmə obyektinə çevrildi. Bu müqavilə Çində milli-azadlıq hərəkatını boğmaq üçün imperialistlərin birləşməsi, həmçinin onu yenə də yarımmüstəmləkə halında saxlamaq demək idi. Çində xaricilərin rabitə şöbələri və radiostansiyaları ləğv edilmədi. Çin kömrük məsələsində bərabər hüquq almadı, xarici dövlətlər polis və qoşununu onun ərazisindən çıxartmadılar. Mühüm strateji ərazilər yenə də böyük dövlətlərin sərəncamında qaldı. Yaponiya Lyaodun yarımadasını, İngiltərə isə Honkonqu öz əraziləri hesab etdilər.

Konfransda birinci məsələ çox böyük müzakirəyə səbəb oldu. ABŞ nümayəndələri təklif edirdilər ki, xətt, kreyser, sualtı qayıqların su tutumunun miqdarı (tonnajı) ABŞ və İngiltərəyə əsasən götürülsün. Yaponiyaya isə az miqdarda donanma təklif edilirdi. İngiltərə kreyserlər üzrə tam üstün olduğu üçün onların məhdudlaşdırılmasına razı olmadı. Yaponiya da buna etiraz etdi. Bir sıra mübahisə və müzakirələrdən sonra heç bir qərar qəbul edilmədi. Donanma saxlamaq məsələsinə gəldikdə dövlətlər ancaq xətt gəmiləri üzrə ABŞ-a üstünlük verməyə razılaşdılar. Xətt gəmiləri üzrə nisbət aşağıdakı qaydada müəyyənləşdirildi. 5- ABŞ: 5 İngiltərə: 3 Yaponiya: 1.75 –

Fransa: 1.75 – İtaliya. Bu məsələ ilə əlaqədar fevralın 6-da «5 dövlət sazişi» bağlandı. Bu saziş bağlanarkən Yaponiya belə bir diplomatik uduş qazandı ki, Yaponiyanın əsas adalarından ancaq 5 min km uzaqlıqda ABŞ öz hərbi donanmasını və hərbi bazalarını yarada bilərdi. Vaşinqton konfransı Sakit okeanda qüvvələrin yeni quruluşunu müəyyənləşdirdi. Konfransın qərarları 1919-1920-ci illərin Paris konfransının qərarlarını müəyyən dəyişikliklərlə tamamlamış oldu.

Birinci dünya müharibəsindən sonra beynəlxalq münasibətlərdə yeni sistem yaranmış oldu ki, bu da tarixə Versal-Vaşinqton sistemi kimi daxil oldu.

Versal-Vaşinqton sistemi Birinci və İkinci dünya müharibəsi arasındakı dövrdə beynəlxalq münasibətləri nizama salan bir sistem oldu. Bu sistem öz nəticələrinə görə ədalətsiz idi. Belə ki, bu sistemdə Almaniya, İtaliya və Yaponiyanın bir sıra alçaldıcı şərtləri qəbul etməsi gələcəkdə bu dövlətlərdə revanş hissinin artmasına, millətçiliyin güclənməsinə səbəb oldu. Təsadüfi deyildir ki, bu İtaliya və Almaniyada özünü faşizm formasında büruzə verdi. Bu sistem Sovet Rusiyasını kənarda qoymaqla özü ilə Sovet Rusiyası arasında ziddiyyətin kəskinləşməsinə səbəb oldu. Bu sistem bolşevizmi Avropaya buraxmamaq üçün Rusiya sərhəddində xırda dövlətlər yaratdı və «sanitar kartonu» tətbiq etdi. Bu sistem qalib dövlətlərin özü arasında ziddiyyəti kəskinləşdirdi. ABŞ-la Avropa arasındakı ixtilafı da gücləndirdi. Bu sistem mandat üsulunu tətbiq etməklə müstəmləkəçiliyin yeni formasını yaratdı. Müstəmləkələrlə metropoliyalar arasındakı ziddiyyətlər gücləndi. Nəhayət, bu sistem iqtisadi məsələlərdə, Almaniyadan təzminat alınması məsələsində obyektiv qərar çıxartmadığı üçün gələcəkdə çox ciddi problemlərlə üzləşdi. ABŞ-ın Versal müqavilələrinə bitərəf münasibəti, onun qərarlarını təsdiq etməməsi, Millətlər Cəmiyyətində iştirak etməkdən imtina etməsi bu sistemin kövrək olduğunu göstərdi. Versal sisteminin yaradıcıları Avropada



milli münasibətləri mürəkkəbləşdirdilər. Bütün bunlara görə bu sistem bəzi dövlətlər tərəfindən pozuldu və nəhayət, ləğv edildi.

Birinci dünya müharibəsi kapitalist ziddiyyətlərini bir müddət arxa plana çəkdi. Müəyyən müddət sakit inkişaf üçün şərait yaratdı ki, bu, isə yeni müharibəyə hazırlaşmaqdan başqa bir şey deyildi.

## GENUYA KONFRANSI

Birinci Dünya müharibəsindən sonra dağıdılmış Avropanı bərpa etmək üçün Antantanın Ali Şurası 1922-ci ilin yanvarında Fransanın Kanna şəhərində xüsusi müşavirə çağırdı. Həmin müşavirənin qarşısında yeni bir konfrans çağırmaq və dağıdılmış Avropanı Rusiyanın hesabına bərpa etmək məsələsi dururdu. Bu məqsədlə İtaliyanın Genuya şəhərində 1922-ci ilin aprelin 10-dan mayın 19-dək davam edən 34 dövlətin iştirakı ilə xüsusi maliyyə-iqtisadi konfrans çağırıldı. Həmin konfransa o zaman Sovet Rusiyasının Xarici İşlər naziri olan Çiçerinin başçılığı altında nümayəndə heyəti də dəvət edildi. Konfransda iqtisadi, siyasi, maliyyə, nəqliyyat məsələləri üzrə xüsusi komissiyalar yaradıldı. Konfransda qalib dövlətlər Rusiyadan tələb etdilər ki, xaricilərin Rusiyada milliləşdirilmiş müəssisələri yenidən özlərinə qaytarılsın. Həmçinin Rusiyadan xarici borclarını qaytarmaq da tələb edildi. Bu isə təxminən 18 milyard rubla bərabər rəqəm idi. Buna cavab olaraq Rusiya nümayəndə heyəti bildirdi ki, bu məbləği Rusiya bir şərtlə verməyə razıdır ki, xarici dövlətlər vətəndaş müharibəsi və xarici hərbi müdaxilə dövründə Rusiyaya dəymiş təxminən 39 milyard rubl dəyərindəki zərəri ödəsinlər. Bundan başqa, Rusiyaya çoxlu kredit və borc versinlər. Borcların qaytarılması üçün isə 30 il müddət qoysunlar. Ona görə də Rusiya ilə digər dövlətlər arasında konfransda heç bir razılıq əldə edilə bilmədi. Antanta dövlətləri bununla razılaşmadılar. Konfransın gedişi zamanı Sovet nümayəndə heyəti Almaniya nümayəndə heyəti

ilə aprelin 16-da Rapolloda görüşdü və RSFSR və Almaniya arasında diplomatik və iqtisadi münasibətləri bərpa etmək, hərbi xərclərin ödənilməsindən qarşılıqlı surətdə əl çəkmək haqqında sovet-alman müqaviləsi imzalandı. Almaniya sovet hakimiyyəti tərəfindən alman vətəndaşlarının milliləşdirilmiş mülkiyyəti barədə iddialarından əl çəkdi. Bu müqavilə Sovet Rusiyası tərəfindən imperializm zəncirinin ilk dəfə yarılması demək idi. 1922-ci ilin iyunun 13-dən – iyulun 20-dək Genuya konfransının davamı kimi Haaqada konfrans çağırılsa da, onun da nəticəsi olmadı.

Ümumilikdə götürüldükdə, bütün bu illərdə beynəlxalq münasibətləri sahmana salmaq üçün keçirilən konfranslar möhkəm sülhü təmin etməsə də, hər halda müəyyən dövr üçün xalqlara dinc tənəffüs verdi.



## II. BÖYÜK BRİTANİYA

*Böyük Britaniya üçün Birinci Dünya müharibəsinin nəticələri*

Birinci Dünya müharibəsinin əsas iştirakçılarından biri olan Böyük Britaniya bu savaşda ABŞ və Yaponiyadan sonra ən çox qazanan dövlət oldu. Bununla belə, Böyük Britaniya müharibə nəticəsində öz milli sərvətinin $\frac{1}{3}$ hissəsini itirdi, sənaye məhsulları istehsalı 20% aşağı düşdü. Müharibə dövründə hərbi işə tələbatla əlaqədar ölkədə bir sıra yeni sənaye sahələri – avtomobil, aviasiya, kimya sənayesi sürətlə inkişaf etsə də, ənənəvi sənaye sahələri olan gəmiçilik, toxuculuq və kömürçıxarma sənayesi ciddi durğunluq keçirdi. Bütövlükdə götürsək, müharibə illərində Böyük Britaniyada istehsal genişlənsə də, ingilis mallarının dünya bazarında rəqabət qabiliyyəti xeyli aşağı düşdü. Bu dövrdə ölkədə əkin sahələri 375 mln akra qədər artsa da, əvvəllər olduğu kimi, Böyük Britaniya yenə də ərzaq məhsullarına olan tələbatını xaricdən mal gətirilməsi hesabına ödəyirdi. Müharibə nəticəsində Böyük Britaniyada idxal iki dəfə artdı. Müharibəyə qədər o borc verən ölkə idisə, müharibədən sonra o, borclu ölkəyə çevrildi. Onun ABŞ-a borcu 850 mln funt-sterlinq, yəni 4 milyard dollara bərabər idi. Böyük Britaniya dünya maliyyə mərkəzi rolunu da itirdi. Belə ki, müharibədən sonra dünya maliyyə mərkəzi Londonun Siti bankından Nyu-Yorkun Uoll-Strit bankına keçdi. O, ABŞ-dan asılı vəziyyətə düşdü. Avropada Fransa ilə, Asiyada isə Yaponiya ilə rəqabətə onun malları davam gətirə bilmədi. Xaricə kapital qoyuluşu 25% ixtisar edildi. Ölkənin dövlət borcu 12 dəfə artaraq 650 mln funt-sterlinqdən 7 milyard 829 mln funt-sterlinqə çatdı.

Müstəmləkə imperiyası kimi tanınan Böyük Britaniyanın Birinci Dünya müharibəsidən sonra müstəmləkələr ilə münasibətlərində də ciddi dəyişikliklər baş verdi. Böyük Britaniya

müstəmləkələrə münasibətində siyasi manevr etmək metodunu tutmağa məcbur oldu.

Birinci dünya müharibəsində Böyük Britaniya 744 min adam itirdi, 1 milyon 693 min adam isə yaralandı və şikəst oldu.

Müharibə fəhlə hərəkatına da təsir etdi. Tred-yunion təşkilatlarının üzvlərinin sayı 1,5 dəfə artdı.

Müharibənin ən mühüm nəticələrindən biri də istehsalın və kapitalın sürətlə təmərgüzləşməsi və mərkəzləşməsi idi. Müharibə dövründə bir sıra yeni inhisar birlikləri yarandı. Bunlardan ən məşhuru 1916-cı ildə yaradılmış Böyük Britaniya Sənaye Federasiyası idi. Müharibə Böyük Britaniya inhisarçılarına çox böyük gəlir gətirdi.

Müharibənin Böyük Britaniya üçün uğurlu nəticələrindən biri də Almaniyanın müvəqqəti də olsa, ondan asılı vəziyyətə düşməsi, Almaniya donanmasının tamamilə məhv edilməsi idi.

Müharibə nəticəsində Böyük Britaniya Almaniya və Türkiyənin müstəmləkələri hesabına öz müstəmləkə ərazisini 2,6 mln.km$^2$, əhalisini isə 9 mln nəfər artırdı. Ümumiyyətlə, Böyük Britaniya dünyada yeganə dövlət idi ki, öz ərazisindən 109 dəfə çox müstəmləkə ərazisinə sahib idi.

İngiltərə yenə də güclü donanmaya malik idi və dənizlər hökmdarı rolunu özündə saxlaya bildi. Böyük Britaniya Millətlər Cəmiyyətində hakim mövqe tutdu. Almaniyadan alınan təzminatın da 22%-i ona çatmalı idi.

Müharibənin son mərhələsində Rusiyada baş verən Fevral inqilabı və Oktyabr çevrilişi Böyük Britaniyada narahatlığa səbəb oldu. Böyük Britaniya digər iri kapitalist dövlətləri ilə birgə bolşevizmə qarşı «xaç yürüşü»nün təşkilində fəal iştirak etdi. Təsadüfi deyil ki, o zaman İngiltərənin hərbi naziri olan Uinston Çörçill demişdi ki, gələcəkdə bolşevizmin bəşəriyyət üçün fəlakətə çevrilməməsindən ötrü onun körpəsini



beşiyindəcə məhv etmək məqsədilə mən Sovet Rusiyasına 14 dövlətin yürüşünü təşkil etmişəm.

Müharibə qurtarandan sonra sənayeni hərbi xətdən dinc xəttə keçirmək mühüm vəzifələrdən biri oldu. Hökumət 1917-ci ildə qəbul etdiyi "İqtisadi və siyasi yenidənqurma" proqramına uyğun olaraq dağıdılmış təsərrüfatın bərpasına başladı. Müharibənin son illərində hökumətə liberallar partiyasının liderlərindən biri olan Lloyd Corc rəhbərlik edirdi. Onun təşkil etdiyi hökumətin tərkibində həm mühafizəkarlar, həm liberallar və həm də leyboristlərin nümayəndələri iştirak etdiyinə görə o, koalisiyalı hökumət adlanırdı. Müharibə qurtardıqdan dərhal sonra Lloyd Corc hökuməti yeni seçkilərdə uğur qazanmaq məqsədilə 1918-ci ilin noyabr ayında parlament islahatı keçirdi. Bu islahat nəticəsində seçicilərin sayı ölkə üzrə 8 mln-dan 21 mln nəfərə çatdırıldı. 30 yaşından yuxarı bütün qadınlara, 21 yaşından yuxarı bütün kişilərə seçki hüququ verildi. "Fişer İslahatı»" adlanan təhsil islahatı nəticəsində İngiltərədə 14 yaşına qədər bütün uşaqlar məcburi icbari təhsillə əhatə olundular. Müharibədə əlil olmuşlara, valideynlərini itirmiş uşaqlara, qocalara verilən pensiyalar və müavinətlər artırıldı. Hökumətin tərkibində olan leyboristlər partiyası seçkiqabağı koalisiyadan çıxdığını bildirdi və öz platforması ilə ilk dəfə çıxış etdi. leyboristlər göstərirdilər ki, onlar hakimiyyətə gəlsələr, Sovet Rusiyasını tanıyacaqlar. Ən mühüm sənaye sahələrini, yəni elektrik stansiyalarını, kömür şaxtalarını, dəmir yollarını milliləşdirəcəklər. Həmçinin Hindistan və İrlandiyaya müstəqillik verəcəklər.

1918-ci ilin dekabrında hərbi vəziyyət şəraitində keçirilən "gümüsü" seçkilərdə parlamentdəki 707 deputatın 484 nəfərini liberallar və mühafizəkarlar təşkil etdilər. Mühafizəkarlar 348 mandat, liberallar isə 136 mandat aldılar. Bu seçkilərdə ilk dəfə olaraq, liberallar mühafizəkarlardan az yer aldılar. Halbuki İngiltərə tarixində son 100 il ərzində liberallar həmişə

parlamentdə çoxluq qazanmışdılar. Liberallar partiyası XVII əsrin sonunda sənaye və ticarət burjuaziyasının partiyası kimi meydana gəlmiş, XVIII- XIX əsrlərdə azad rəqabət hökm sürdüyünə görə İngiltərə parlamentində öz liderliyini saxlaya bilmişdir. Lakin XIX əsrin sonu-XX əsrin əvvəllərində kapitalizm öz yerini imperializmə verdi. Azad rəqabətin yerini inhisarlar tutdu. Ona görə də sənaye və ticarət burjuaziyasının partiyası olan liberallar partiyası maddi bazasını itirdiyindən siyasətdə də nüfuzdan düşdü. Onun yerini dövrə uyğunlaşmağı bacaran leyboristlər partiyası tutdu. 1918-ci ilin dekabrında leyboristlər partiyası öz nizamnaməsində belə bir dəyişiklik etdi ki, o, partiya üzvlüyünə kollektiv formadan başqa fərdi formada da üzv qəbul edə bilər. Bu imkan verdi ki, bu partiyada təkcə fəhlələr deyil, həm də xırda, orta və hətta iri burjuaziyanın nümayəndələri də təmsil edilsin.

Müharibə qurtardıqdan sonra bir sıra hərbi sənaye sahələrinin bağlanması fəhlə sinfinin vəziyyətini pisləşdirdi. 1919-cu ildə İngiltərədə 2.5 mln-a yaxın fəhlə tətil etdi. Bu hadisə hökuməti məcbur etdi ki, 6 mln-a qədər fəhlənin əmək haqqını 20% artırsın, 6.5 mln fəhlənin isə iş gününü 7 saata endirsin.

Rusiyada bolşeviklərin hakimiyyətə gəlməsi 1919-cu ildə III İnternasionalın – Kommunist internasionalının yaranmasına gətirib çıxardı. Bu hadisədən sonra kapitalist ölkələrində kommunist partiyalarının təşkili gücləndi. Adətən, kommunist partiyası keçmiş sosialist partiyasının sol qanadından təşkil olunurdu. Bu dövrdə Böyük Britaniyada 4 sosialist təşkilatı var idi. Bunlar Böyük Britaniya sosialist partiyası, Böyük Britaniya sosialist fəhlə partiyası, Fəhlə sosialist federasiyası, Cənubi Uels sosialist cəmiyyətindən ibarət idi. Lakin bu təşkilatlarda belə bir səhv fikir var idi ki, köhnə metodların hamısından əl çəkmək lazımdır. Parlamentə seçilmək gərək deyil. Saziş bağlamaq olmaz. Əslində bütün bunlar onların kifayət qədər



təcrübəli olmamasından irəli gəlirdi. Halbuki hər hansı bir partiya xalqı öz tərəfinə çəkmək üçün kütləni öz ardınca aparmağı bacarmalıdır. Məhz İngiltərədəki sol partiyaların bu səhvləri İngiltərə kommunist partiyasının fəaliyyətində də özünü bütün dövrlərdə büruzə verdi. 1920-ci ilin iyulun 31-i ilə avqustun 1-i arasında Londonda keçirilən qurultayda Harri Pollitin başçılığı altında İngiltərə kommunist partiyasının yaradıldığı elan edildi. Lakin bu partiyanın üzvlərinin sayı 10 min nəfəri keçə bilmədi. Çünki İngiltərə fəhlə sinfi Tred-yunion təşkilatları və leyborist partiyasına daha çox inanırdı.

Bu dövrdə İngiltərənin qarşılaşdığı mühüm problemlərdən biri müstəmləkələrə münasibət məsələsi idi. Hindistanda 1919-cu il islahatından sonra kütləvi nümayişlər başlandı. Onun ən faciəvi nəticələrindən biri 1919-cu ilin aprelində Amritsar qırğını oldu. 1919-1920-ci illərdə Mahatma Qandinin başçılığı altında vətəndaş itaətsizliyi kampaniyası davam etsə də, Qandinin ancaq dinc yolla mübarzəni davam etdirmək tərəfdarı olması onun nəticəsiz qurtarmasına səbəb oldu.

1919-1921-ci illərdə Misir xalqı da İngiltərəyə qarşı mübarizəyə qalxdı. Nəticədə 1922-ci ilin fevralın 28-də İngiltərə formal da olsa, Misiri müstəqil krallıq elan etdi. Ancaq o, Misirdə yenə də öz qoşunlarını saxlayır və onun xarici siyasətinə rəhbərlik edirdi.

Böyük Britaniya ən ciddi problemlə İrlandiyada qarşılaşdı. 1916-cı ildə irlandiyalılar üsyan etsələr də, azadlıq qazana bilmədilər. Bu hadisələrdən sonra, İrlandiyada Şinnfeyn (Biz özümüz) partiyası yaradıldı. 1918-ci ilin dekabrında keçirilən seçkilərdə bu partiya İrlandiyadan seçilən 103 deputatdan $\frac{3}{4}$-nə sahib oldu. Bu partiya bildirdi ki, o, Londona parlamentə getməyəcək və 1919-cu ilin yanvarında İrlandiyanı müstəqil respublika elan etdi. Bu hadisə İngiltərədə böyük

təşvişə səbəb oldu. Hökumət İrlandiyaya qoşun yeritdi. 1919-cu ilin yanvarından 1921-ci ilin dekabrına qədər İrlandiya öz azadlığı uğrunda mübarizə apardı. İngiltərə güzəştə getməyə məcbur oldu. Belə ki, dünya ictimaiyyəti, İngiltərə fəhlə sinfi, tred-yunion təşkilatları, həmçinin ABŞ və Fransa İrlandiyanı müdafiə elədilər. 1921-ci il dekabrın 6-da bağlanmış sazişə əsasən cənubdakı 26 qraflığa «Azad İrlandiya dövləti» adı ilə muxtariyyət verildi. Şimaldakı sənaye cəhətdən inkişaf etmiş və ingilislərin çoxluq təşkil etdiyi 6 qraflıq isə İngiltərənin tərkibində qaldı. De Valera başda olmaqla İrlandiya xalqı 1923-cü ilin yazına qədər mübarizəni davam etdirsə də, bu nəticəsiz qaldı.

Hələ 1917-ci ildə İngiltərə öz dominionları olan Kanada, Avstraliya və Cənubi Afrika İttifaqına muxtar respublika hüququ vermişdi. 1923-cü ildə isə bu dominionlara icazə verildi ki, xarici dövlətlərlə müstəqil müqavilələr bağlasınlar.

1919-cu ildə funt-sterlinqin qızıla olan paritetinin ləğv edilməsini sənaye istehsalının artımına müsbət təsir etdi.

1920-ci ilin ortalarında İngiltərədə yeni iqtisadi böhran başlandı və bu böhran fəhlə sinfinin vəziyyətinə də təsir etdi. Ona görə də ölkəni yenidən fəhlə tətilləri bürüdü. Hökumət polisin hər hansı bir nümayişi dağıtması haqqında qanun qəbul etməyə məcbur oldu . 1921-ci ildə müharibə dövründə tətbiq edilmiş kömür şaxtaları sahibkarları üzərində hökumətin nəzarəti qaydası ləğv edildi. Bundan istifadə edən sahibkarlar lakaut elan edərək fəhlələrin əmək haqlarının aşağı salınmasına və iş gününün uzadılmasına nail ola bildilər.

1922-ci ilə qədər İngiltərə hökumətinə Lloyd Corc başçılıq etdi. Yeni hökumətin başlıca şüarı "İngilotərəni oyadın" oldu. Istehsal üzərində dövlət nəzarəti ləğv edildi. Dövlətin sosial funksiyaları artırıldı. Bu dövrdə İngiltərənin həm beynəlxalq, həm də daxili vəziyyəti xoşagələn deyildi. L.Corc hökumətinin xarici siyasəti liberallizmə əsaslanırdı ki, bu da



zor tətbiq etməyin əleyhinə olsa da, imperiya siyasətindən imtina etmək deyildi. L.Corc hökumətinin xarici siyasətinin əsas istiqamətləri Paris sülh konfransında iştirak, Azərbaycana, müstəmləkələrə münasibət, İran və Əfqanıstana, Rusiyaya, Vaşinqton konfransına, Genuya konfransına, Türkiyəyə münasibət məsələsi idi. Avropa ölkələri və ABŞ-a münasibətdə ingilis diplomatiyası tarazlaşdırılmış xətt yeridirdi. Çörçill başda olmaqla bir qrup nazirlər belə hesab edirdilər ki, Sovet Rusiyası ilə heç bir danışığa girmək olmaz, ancaq hərbi müdaxilə lazımdır. Lloyd Corc başda olmaqla bir qrup nazir isə belə hesab edirdi ki, iqtisadi yolla da Rusiyanı məhv etmək olar. Liberallarla mühafizəkarların koalisiyası məsələsində də mühafizəkarlar arasında fikir ayrılığı mövcud idi. Mühafizəkarlardan Çemberlen, Balfur liberallarla koalisiyanı saxlamaq tərəfdarı idilər, Stenli Bolduin, Bonar-lou isə liberallarla koalisiyanın əleyhinə çıxırdılar. Bu ixtilafların nəticəsi olaraq, Lloyd Corc 1922-ci ilin oktyabrında baş nazir vəzifəsindən istefa verdi və yeni seçkilər təyin edildi. Keçirilən seçkilərdə mühafizəkarlar qələbə çaldılar. 1922-ci ilin dekabrından 1923-cü ilin mayına qədər Bonar-Lounun, 1923-cü ilin may ayından dekabr ayına qədər isə Stenili Bolduinin başçılığı altında mühafizəkarlar hökuməti hakimiyyətdə oldu. Mühafizəkarlar hökuməti daxili siyasətində inhisarların mənafeyini müdafiə etməklə fəhlə hərəkatına qarşı ciddi mübarizə apardı. Xarici siyasətində isə ilk növbədə Sovet Rusiyasına qarşı düşmənçilik mühüm yer tuturdu. Bu özünü 1923-cü il mayın 8-də xarici işlər naziri Lord Kerzonun sovet hökumətinə göndərdiyi notada bir daha göstərdi. Həmin notada İngiltərə hökuməti tələb edirdi ki, Əfqanıstan və İranda Sovet Rusiyası antiingilis təbliğatına son qoysun və sovet nümayəndə heyətini bu ölkələrdən geri çağırsın. Sovet Rusiyası İngiltərənin tələblərini yerinə yetirməli oldu.

1923-cü ilin fevral ayında Bolduin Vaşinqtonda İngiltərə ABŞ-la Böyük Britaniyanın borclarını 30% azaldan, qalan borclarının isə 62 il müddətində ödəməsini tələb edən sazişi imzalamalı oldu.

Mühafizəkarlar hökumətinin proteksionizm, yəni xarici malların İngiltərəyə axınının qarşısını almaq üçün çox yüksək kömrük haqqı qoymaq siyasəti yeritmək istəmələri mühafizəkarlar içərisində fikir ayrılıqlarına gətirib çıxartdı. 1923-cü ilin dekabrın 6-da keçirilən parlament seçkilərində mühafizəkarlar uğur qazana bilmədilər.

### *Böyük Britaniyada birinci leyborist hökuməti*

1924-cü ilin yanvarın 23-də Böyük Britaniya tarixində ilk dəfə olaraq Ramsey Makdonaldın başçılığı altında birinci leyborist hökuməti təşkil edildi. İkipartiyalı sistemdə liberalların əvvəlki rolunu itirmələri leyboristlərin qələbəsinə kömək etdi. Bundan başqa mühafizəkarlar və liberallar koalisiyalı və birpartiyalı hökumət yaratmaq haqqında razılığa gələ bilmədilər. Belə şəraitdə onlar leyboristlərin hökumət təşkil etməsinə mane olmadılar. Çünki leyboristlər özlərinin kapitalizm qaydalarına sadiqliyini dəfələrlə bildirmişdilər. Leyboristlər mühafizəkarlara nisbətən daxili siyasəti daha çevik üsullarla yeritməyə başladılar. Onlar işsizlərə və qocalara yardımın miqdarını çoxaltdılar, işsizliyə görə sığorta sistemini yaxşılaşdırdılar, mənzil tikintisinə dövlət təxsisatlarını artırdılar. Çay, qənd və ərzaq üzərinə qoyulan aksiz vergiləri azaldıldı. Sosial sığorta qaydaya salındı. Leyboristlər hökumətinin yeni dövlət büdcəsi layihəsi hazırlaması, proteksionizmdən və ticarətdən alınan rüsumlardan imtina etməsi mühafizəkarların narazılığına səbəb oldu. Böyük Britaniya 1924-cü il fevralın 1-də Sovet İttifaqını tanıdı. Lakin leyboristlər seçkiqabağı kampaniyada şaxtaları və dəmiryollarını milliləşdirmək, kapital



üzərinə vergi qoymaq barədə verdikləri vədlərini yerinə yetirmədilər.

İngilis diplomatiyası 1923-cü ildə olmuş Lozanna konfransında Türkiyə ilə münasibətləri tənzimlədi. Konfrans, Süveyş kanalı üzərində Böyük Britaniyanın hüquqlarını təsdiq etdi. 1923-24-cü illərdə dominionlarla münasibətlərdəki ziddiyətlər yumşaldıldı. Dominionların azad və bərabər hüquqlu tərəfdaş statusu möhkəmləndirildi. ABŞ-la münasibətlərə üstünlük verildi. Daues planı bəyənildi.

Leyboristlər kabineti silahlı qüvvələri möhkəmləndirdi. Hərbi xərclər artırıldı. Onların siyasəti zəhmətkeşlərdə məyusluq doğurdu. Kütlələrin gözündə daha da nüfuzdan düşəcəyindən qorxan hökumət 1924-cü ilin oktyabrın 9-da parlamenti buraxdı və yeni seçkilər təyin etdi.

### *Böyük Britaniya kapitalizmin nisbi sabitləşməsçi dövründə*

1924-cü ilin oktyabrın 29-da keçirilən növbədənkənar parlament seçkilərində leyboristlər məğlub oldular. Parlamentdə yenidən yerlərin mütləq çoxluğunu alan mühafizəkarlar hökumət təşkil etdilər. Yenə də hökumətə Stenli Bolduin başçılıq etdi. Yeni hökumət elan etdiyi “Məqsədlər və prinsiplər” proqramını həyata keçirərək mühafizəkar islahatçılığa başladı. Xüsusi sahibkarlığın inkişafına diqqət verildi. Sənaye istehsalının sərbəstləşdirilməsi və ölkənin maliyyə sisteminin sağlamlaşdırılması xətti yeridildi. İnkişafın başlıca mənbəyi müstəmləkələrin təbii sərvəti hesab edilirdi. Gəlir vergisi azaldıldı. Proteksionist rüsumların yalnız müstəmləkələrlə əlaqədə saxlanılması İngiltərə inhisarlarına dünya bazarında sərbəst iştirak imkanı verdi. Bütün ixracın $\frac{1}{3}$, idxalın $\frac{1}{2}$ -i imperiyanın öz ərazisində aparılırdı. İngiltərədə iqtisadi inkişafın başlıca xüsusiyyətləri kapital ixracının

artması, beynəlxalq bank əməliyyatlarının səmərəli aparılması, əlverişli dəniz nəqliyyatı ilə bağlı idi. Sosial təminat haqqında qəbul edilən proqrama əsasən pensiya yaşı 65-ə endirildi, təqaüdlər artırıldı, imkansızlara yardım edildi, yerli özünü idarəetmə orqanlarının hüquqları genişləndirildi. Lakin hökumətin sərt büdcə siyasətinə keçməsi sosial ziddiytləri kəskinləşdirdi. Dərin böhran keçirən kömür sənayesində kəskin münaqişə yarandı. Şaxta sahibkarları kömürün yüksək maya dəyərinin aşağı salınmasında və xarici bazarda onun rəqabət qabiliyyətini yüksəltməkdə maraqlı idilər. Lakin buna onlar köhnəlmiş avadnlığı dəyişdirmək yolu ilə deyil, fəhlələrin əmək haqqını azaltmaq yolu ilə nail olmaq istəyirdilər. Hökumət 1925-ci ildə şaxta sahiblərinə 9 ay müddətinə mədənçilərin əmək haqqının əvvəlki səviyyəsini təmin etmək üçün maliyyə yardımı göstərməyi öhdəsinə götürdü. Lakautu ləğv edən fəhlələrin qələbə günü, yəni iyulun 31-i Böyük Britaniya tarixinə "qırmızı cümə" günü kimi düşdü.

Doqquz aylıq müddət qurtaran kimi şaxta sahibləri lakaut elan etdilər, lakin mədənçilər yenidən onların şərtlərini rədd etdilər. Hökumət ölkədə fövqəladə vəziyyət elan etdi. 1926-cı il mayın 4-də 18 milyon insanın iştirak etdiyi tətil başlandı. Yeddi aylıq tətildən sonra kömür sənayeçilərinin və hökumətin təzyiqi, həmkarlar ittifaqı liderlərinin xəyanəti, həmçinin aclıq və ehtiyac şaxctaçıları geri çəkilməyə məcbur etdi. 1926-cı ilin dekabrında onlar işə qayıtdılar. Əmək haqqı aşağı salındı, iş günü uzadıldı. Parlament 1927-ci ildə "Həmkarlar ittifaqları və sənayedə münaqişələr haqqında" qanun qəbul etdi. Fəhlələrin "ştreykbrexerlər xartiyası" adlandırdığı bu qanun ümumi tətil və piketləri qadağan edirdi. Həmçinin qanunda göstərilirdi ki, dövlət qulluqçuları həmkarlar ittifaqlarında iştirak edə, tred-yunionlara və leyborist partiyasına daxil ola bilməzlər. Qanun həmçinin siyasi məqsədlər üçün həmkarlar ittifaqının fond təşkil etməsini məhdudlaşdırırdı.



Ölkədə əməklə kapital arasındakı ziddiyyətləri yumşaltmaq üçün 1928-ci ildə İmperiya kimya trestinin rəhbərliyi ilə xüsusi komissiya yaradıldı. Bu komissiyada həm sahibkarlar, həm də həmkarlar ittifaqlarının rəhbərləri təmsil edilmişdi. Komissiyanın tərtib etdiyi əmək və kapitalın barışdırılması, sosial ziddiyyətlərin aradan qaldırılması və tətillərin baş verməməsinə yönələn tədbirlər sistemini nəzərdə tutan sənəd hökumət tərəfindən qəbul edildi. Bu siyasət işçilərlə sahibkarlar arasında münasibətlərin nizama salınmasında mühüm rol oynadı və İmperiya kimya trestinin sədri Alfred Mondun adı ilə «mondizm» adını aldı.

Böyük Britaniyanın iqtisadiyyatı 1922-1923-cü illərdə düşdüyü durğunluq vəziyyətindən çıxsa da, zəif inkişaf edirdi və yalnız 1929-cu ildə sənaye məhsulunun buraxılışı həcminə görə 1913-cü il göstəricilərinə çatdı. Əgər sənayenin yeni sahələri (maşınqayırma, kimya, avtomobil) intensiv inkişaf edirdisə, köhnə sahələrdə (kömürçıxarma, gəmiqayırma, toxuculuq və b. sahələr) texniki gerilik qalırdı. Ölkə dünya bazarında Almaniya, ABŞ və Yaponiya ilə rəqabət mübarizəsində böyük çətinliklərlə üzləşirdi. Böyük Britaniya sahibkarları öz mallarının rəqabət qabiliyyətini artırmaq üçün yeni inhisar birlikləri yaradırdılar. 1925-ci ilin aprelində hökumət funt-sterlinqin qızıl paritetini yenidən bərpa etdi. Funtun dəyəri 4.40 dollardan 4.86 dollara qədər artırdı. Sabitləşmə dövrünün sonuna yaxın xarici kapital qoyuluşunun müharibəyə qədərki səviyyəsi bərpa olundu. Böyük Britaniya başqa ölkələrə qoyduğu kapitalın ümumi məbləğinə və ondan aldığı gəlirə görə birinci yeri qoruyub saxlayırdı. Hakim siniflərin varlanmasının mühüm mənbələri müstəmləkələrin və asılı ölkələrin milli sərvətlərinin vəhşicəsinə qarət edilməsi və istehsalata elm və texnikanın nailiyyətlərini tətbiq etmək yolu ilə fəhlə sinfinin istismar dərəcəsinin gücləndirilməsi idi.

Kapitalizmin nisbi sabitləşməsi dövründə Böyük Britaniya beynəlxalq aləmdə özünün siyasi və maliyyə mövqelərini qoruyub saxlamağa çalışırdı. O, «Daues planı»nın tərtibində iştirak etdi. Böyük Britaniya 1925-ci ilin oktyabrında Lokarno konfransında iştirak etdi və «Reyn təminat paktı»nı imzaladı. Stenli Bolduin hökuməti SSRİ-ni dempinq siyasəti yeritməkdə günahlandıraraq 1927-ci ildə onunla diplomatik münasibətləri kəsdi. Böyük Britaniya ABŞ-la xammal və satış bazarları uğrunda mübarizədə rəqib olsa da, Avropa və dünyaya münasibət məsələsində onunla əməkdaşlığa xüsusi diqqət yetirirdi. Böyük Britaniya da Çində 1925-1927-ci illərdəki milli-azadlıq hərəkatını yatırmaqda digər dövlətlərlə bərabər iştirak etdi. Bundan məqsəd Çində öz mövqelərini möhkəmləndirmək idi. 1926-cı ildə keçirilən İmperiya konfransında dominionlara daxili və xarici siyasətdə müstəqillik verildi və onlar Böyük Britaniya ilə bərabər hüquq qazandılar. Bununla belə, onlar yenə də Böyük Britaniya imperiyasının tərkibində qaldılar.

1928-ci ildə qəbul edilmiş yeni seçki qanununa əsasən qadınlarla kişilərin hüquqları bərabərləşdirilsə də, üç aylıq oturaq həyat tərzi, əmlak sahibi olmaq, universitet bitirmək senzi saxlanıldı.

Mühafizəkarlara qarşı narazılıq 1929-cu ilin mayın 30-da keçirilən parlament seçkilərində onların məğlubiyyəti ilə nəticələndi. 21 yaşına çatmış qadınlara seçki hüququ vermək haqqında qanun da onlara kömək etmədi. Leyboristlər 8 milyon 300 min səs alaraq Ramsey Makdonaldın başçılığı ilə hökumət təşkil etdilər. İcma palatasında da birinci dəfə onlar əksəriyyət səsə malik oldular.İkinci leyborist hökumətinin daxili siyasəti işsizliyə qarşı mübarizə proqramının həyata keçirilməsinə, iş yerləri yaratmaq üçün köçürmə siyasətinin yerinə yetirilməsinə, sosial sığorta sisteminin tətbiqinə yönəlmişdi. Hökumətin xarici siyasəti isə əsasən İngiltərənin beynəlxalq mövqeyini möhkəmləndirməyə yönəlmişdi. Müstəmləkələr və dominionlar



məsələsi xüsusi yer tuturdu. Avropa ölkələri ilə münasibətlərə də xüsusi diqqət verilirdi. 1930-cu ilin əvvəllərində Londonda keçirilən konfransda dəniz donanması sahəsində İnfiltərə, Fransa, ABŞ, İtaliya, Yaponiya arasında saziş imzalandı. Almaniyanın təzminat məsələsi ilə bağlı Huverin təklifi bəyənildi. 1929-cu ilin oktyabrın 3-də SSRİ ilə diplomatik münasibətlər bərpa edildi.

***Böyük Britaniya dünya iqtisadi böhranı dövründə***

1929-cu ildə ABŞ-da başlanan dünya iqtisadi böhranı İngiltərəyə 1930-cu ilin birinci rübündə öz təsirini göstərdi. 1930-cu ilin əvvəllərində iqtisadi böhran Böyük Britaniyanı da bürüdü. Sabitləşmə illərində Britaniya iqtisadiyyatı "çiçəklənmə" mərhələsi keçirmədiyi üçün ABŞ, Almaniya və Fransa ilə müqayisədə ölkədə sənaye istehsalı cüzi azaldı. 1929-cu ildə sənaye istehsalı 1913-cü illə müqayisədə 100,3 %, 1932-ci ildə isə 82,5 % təşkil edirdi. 1929-cu illə müqayisədə 1933-cü ildə kömür çıxarılması 285 milyon tondan 25,8 milyon tona, çuqun əridilməsi isə 7,59 milyon tondan 3,57 milyon tona endi. Sənayenin ən çox ənənəvi sahələri zərər çəkdi. İxrac iki dəfə azaldı. Leyboristlər daxili siyasət sahəsində özlərinin bir sıra seçkiqabağı vədlərini yerinə yetirmədilər. Əksinə, onlar gəlirin aşağı düşməsini dayandırmaq üçün kapitalistlərə fəhlələrin əmək haqqını azaltmaqda kömək etdilər. Ölkədə hər dörd fəhlədən biri işsiz idi. Hökumət işsizlər üçün vəsaiti kəsdi, mədənlərdə 7 saatlıq iş günü bərpa edilmədi. Leyboristlər həmkarlar idtifaqı əleyhinə olan qanunu saxladılar. İri burjuaziya fəhlələrin həyat səviyyəsini yenidən aşağı salmaq yolu ilə böhrandan çıxmaq istəyirdi.

Maliyyə böhranı kəskinləşdi. London banklarından xarici ölkələrin əmanətləri götürülməyə başlandı. Kağız pullar çox buraxılmağa başladı. Ölkənin maliyyə vəziyyəti İngiltərənin hakim dairələrində dərin həyəcan doğurmuşdu. Maliyyə vəziyyətini öyrənmək və onun yaxşılaşdırılması üçün tədbirlər

görməkdən ötrü 1931-ci ilin martında Makdonald hökuməti bankir Corc Mey başda olmaqla xüsusi bir komissiya yaratdı. Komissiya belə bir nəticəyə gəldi ki, əgər sərt iqtisadi siyasətə keçilməzsə, sosial xərclər ixtisar edilməsə, dövlət qulluqçularının əmək haqqları aşağı salınmasa, vergilər artırılmasa, ictimai iş yerləri açılmasa, 1932/33-cü təsərrüfat ilində Böyük Britaniya büdcəsinin defisiti 120 milyon funt-sterlinqə çatacaqdır. Hökumət Meyin təkliflərini qismən həyata keçirməyi qərara aldı. İngiltərənin hakim dairələri ABŞ və Fransadan borc almaq vasitəsi ilə vəziyyəti düzəltmək istədilər. 1931-ci il avqustun 1-də amerikan və fransız bankirləri İngiltərəyə 80 milyon funt-sterlinq borc verdilər. Yenidən 50 milyon funt-sterlinq borc istədikdə Amerika bankirləri bildirdilər ki, yalnız hökumət Mey komissiyasının təklif etdiyi məsləhətləri qəbul etdiyi təqdirdə yeni borc verilə bilər.

Leyboristlər hökuməti «əlavə qənaət haqqında» qərar qəbul etmək istədi, bu isə işsizlərə göstərilən maddi yardımın 10% azaldılması demək idi. Fəhlələrin hiddəti o qədər artdı ki, Makdonald hökumətinin, həmin qərarı bəyənmiş olan bəzi üzvləri tərəddüd etdilər. Avqustun 23-də kabinetin 10 üzvü bu təklifi müdafiə etməkdən boyun qaçırtdı. Hökumətdə təfriqə əmələ gəldi və Makdonaldın təklifi ilə hökumət istefa verdi.

### *«Milli hökumətin» daxili və xarici siyasəti*

1931-ci il avqustun 24-də Makdonaldın rəhbərliyi altında mühafizəkarlar, liberallar və leyboristlərin iştirakı ilə «Milli hökumət» təşkil edildi. 1931-ci ilin payızında keçirilən parlament seçkilərində milli koalisiya 497 yer aldı. Yenə də hökumətə Makdonald rəhbərlik etdi. Bu hökumət sosial xərcləri 10% ixtisar etdi.

Böyük Britaniya hökuməti iqtisadi böhrandan yaxa qurtarmaq üçün zəhmətkeşlərin yaşayış səviyyəsini aşağı salmaqla yanaşı, başqa vasitələrdən də istifadə etdi. Bu vasitələrdən biri 1931-ci il sentyabrın 21-də funt-sterlinqin qızıl standartının ləğv edilməsi idi. Bu tədbir dünya bazarında ingilis mallarının rəqabət qabiliyyətini yüksəltdi. İngiltərənin hakim dairələri həmçinin beynəlxalq miqyasda öz maliyyə mövqelərini möhkəmlətmək üçün 1931-ci ildə Böyük Britaniyanın və bir sıra digər kapitalist ölkələrinin (Portuqaliya, Yunanıstan və s.) sterlinq ittifaqı adını almış valyuta qruplaşmasını yaratdılar. Sterlinq ittifaqına daxil olmuş ölkələr öz valyutalarının dəyərini ingilis funt-sterlinqinin dəyərinə uyğunlaşdırdılar, onlar arasında ticarətdə haqq-hesab vahidi funt-sterlinq oldu. İqtisadi böhranı aradan qaldırmaq üçün istifadə edilən digər vasitələrdən biri də proteksionizmin tətbiq edilməsi idi.

1931-ci ildə İngiltərə parlamenti dominionlara xarici və daxili siyasətdə suveren hüquq verən Vestminster statusu qəbul etdi . Bundan sonra Britaniya qanunları onlar üçün məcburi deyildi. Bu status Britaniya Millətlər Birliyinin hüquqi əsasını təşkil etdi.

1931-1932-ci illərdə İngiltərədə azad ticarətdən tamamilə əl çəkildi. İngiltərənin daxili bazarı başqa ölkələrin mallarının rəqabətindən qorundu. Bu siyasət 1932-ci ilin iyul-avqust aylarında Ottavada olmuş İmperiya konfransında qəbul edilən tarif sistemi ilə təkmilləşdirildi. Böyük Britaniya, dominionların keçmişdə kömrüksüz gətirilən mallarını yenə də gömrük rüsumu almadan öz bazarına buraxmağı öhdəsinə götürdü.

Geniş sosial proqramlar həyata keçirildi. Yeni iş yerləri açıldı. 1931-ci ilin avqustunda işsizlərə yardım haqqında yeni qanun qəbul edildi. Qanuna görə mövsümü fəhlələr, ailəli qadınlar, fasiləsiz iş stajı olmayan şəxslər yardım almaqdan məhrum edildilər. 1932-ci ilin noyabrında qəbul edilən «Ehtiyacların yoxlanması haqqında» qanuna əsasən yardımların ödənilməsi üzərinə ciddi nəzarət qoyuldu. 1932-ci ilin

ortalarından etibarən ingilis iqtisadiyyatı yavaş-yavaş böhran vəziyyətindən çıxmağa başladı. 1934-cü ildə sənaye məhsulunun həcmi 1929-cu il səviyyəsinə gəlib çatmışdı. İngiltərə sənayesində baş verən bu canlanmanın başlıca səbəblərindən biri hərbi sənaye sahələrinin sürətlə inkişaf etməsi idi. Ölkə iqtisadiyyatına kapital qoyuluşu artdı. Xarici ticarət inkişaf etdi. Lakin bu möhkəm deyildi. Kömür, gəmiqayırma və toxuculuq sənayesi 1937-ci ildə də 1929-cu il səviyyəsinə çata bilmədi. «İşsizlər və onların müavinatının yeni ixtisarı haqqında» 1934-1935-ci illərdə verilən qanunlar kütləvi etiraza səbəb oldu.

Xarici siyasətin istiqamətlərindən biri Avropa ölkələri ilə əlaqələri inkişaf etdirmək idi. 1932-ci ildə keçirilən Lozanna konfransında Böyük Britaniya Almaniyadan təzminat alınmasının dayandırılmasına tərəfdar oldu və elə həmin ildə Cenevrədə tərksilaha dair keçirilən konfransda iştirak etdi.

1937-ci ilin ortalarında İngiltərədə başlanmış yeni iqtisadi böhran təzahürlərinin artmasını İkinci dünya müharibəsinin başlanması dayandırdı.

Almaniyada faşizmin hakimiyyət başına gəlməsi Böyük Britaniyada da faşist təşkilatların canlanmasına səbəb oldu. Burjua-demokratik azadlıqlar məhdudlaşdırıldı. 1934-cü ildə müharibə əleyhinə təşviqata görə ağır cəza müəyyən edən "Qiyama təhrik haqqında" qanun qəbul edildi. 30-cu illərin ortalarında iri burjuaziya və torpaq aristokratiyası tərəfindən müdafiə edilən Osvald Moslunun rəhbərliyi altında yaranan Britaniya faşist ittifaqı partiyası fəaliyyətini gücləndirdi. Bu partiya SSRİ-yə qarşı "xaç yürüşü" təşkil etmək çağırışı ilə çıxış etdi. Lakin faşistlər ölkədə kütləvi bazaya malik deyildirlər. Çünki inhisarçı burjuaziyanın əsas qruplaşmaları ölkənin idarə edilməsində ənənəvi parlament sistemindən imtina etməyi və faşistlərin köməyinə əl atmağı lazım bilmirdilər.



1935-ci ilin iyununda keçirilən seçkilərdən qabaq Makdonald istefaya getdi və mühafizəkarlar hökuməti təşkil olundu. Yeni hökumətə Bolduin başçılıq edirdi. 1935-ci ilin noyabr seçkilərində onlar kollektiv təhlükəsizlik şüarı ilə çıxış edərək qalib gəldilər.

S.Bolduin hökumətinin daxili siyasəti əsasən ölkə iqtisadiyyatının sağlamlaşdırılmasına yönəldilmişdi. Hökumətin xarici siyasətində Avropa dövlətləri ilə münasibətlər mühüm yer tuturdu. Almaniya və İtaliyanı sakitləşdirmək, İspaniya işlərinə «qarışmamaq» siyasəti yeridilirdi. 1935-ci ilin iyununda Almaniya ilə bağlanan hərbi dəniz sazişinə görə Almaniya İngiltərə donanmasının 35%-i qədər donanma yaratmaq hüququ aldı. 1935-ci ilin iyulun 6-15-də Versal sülh müqavləsinə yenidən baxmağı nəzərdə tutan «Razılıq və əməkdaşlıq paktı»nı Almaniya, İtaliya, Fransa ilə birlikdə İngiltərə də imzaladı. Hindistanda antingilis əhval-ruhiyyəni zəiflətmək üçün 1935-ci ildə Hindistanın yeni konstitusiyası qəbul edildi.

1937-ci ildə orta səviyyəli bir adam olan Nevill Çemberlen kabinetin başçısı oldu. O bu vəzifəyə aristokrat mənşəyinə və ailə əlaqələrinə görə keçə bilmişdi. Mühafizəkarlar ölkə daxilində sağ qüvvələri şirnikləndirmək siyasəti yeridirdilər. Hökumət aqrar bölməni inkişaf etdirmək məqsədilə kənd təsərrüfatı mallarının təminatlı qiymətlə alınmasını təşkil etdi. Kənd təsərrüfatına kapital qoyuluşu artırıldı. 1937-ci ildə İrlandiya parlamentinin qəbul etdiyi konstitusiya bəyənildi.

### *İkinci Dünya müharibəsi ərəfəsində xarici siyasət*

Hökumət xarici siyasətdə ilk növbədə 1937-ci ildə İtaliya ilə saziş bağlayaraq onun Həbəşistandakı təcavüzünü bəyəndi. Tərəflər Aralıq dənizi rayonunda bir-birinin mənafelərinə hörmət edəcəklərini öhdələrinə götürdülər. Nevil Çemberlen hökumətinin faşizmin təhlükəsini lazımınca qiymətləndirməyərək, Almaniyanı «sakitləşdirmək» siyasəti yeritməsi

İngiltərənin tərəqqipərvər ictimaiyyətinin və U.Çörçill başda olmaqla mühafizəkarlar partiyasının bir sıra xadimlərinin etirazına səbəb oldu. Çemberlenin 1938-ci ilin sentyabrında Münhen sövdələşməsinə imza atması onları daha çox narazı salmışdı. Mühafizəkarlar partiyasının bu görkəmli xadimləri Çemberlenin siyasətinə qarşı müxalifət təşkil etdilər. Onlar Çemberlenin xarici siyasətinin antisovet istiqamətinə tərəfdar olsalar da, onun Hitler və Mussoliniyə etibar etməsini bəyənmir, təcavüzkarlarla sövdələşərkən ehtiyatlı olmağı məsləhət görürdülər. Onlar İngiltərənin hərbi mövqelərini möhkəmlətmək məqsədilə zəruri tədbirlər görülməsini lazım bilirdilər. Onların fikrincə, ancaq bu yolla təcavüzkar dövlətlərlə İngiltərə üçün daha faydalı şəraitdə danışıqlar aparmaq mümkündür. Çemberleni «daxili kabinet» adlanan kabinetə daxil olan ifrat mürtəce siyasi xadimlər qrupu müdafiə edirdi. «Daxili kabinet» ətrafında «Klayvden guruhu» (Bu qpupun üzvləri, iri ingilis kapitalisti Astorlar ailəsinə mənsub olan Klayvden malikanəsində tez-tez görüşdükləri üçün belə adlanırdı) adı ilə məşhur olan mürtəce siyasətçilər qrupu toplaşmışdı.

Almaniya 1939-cu ilin martında bütün Çexoslovakiyanı işğal etdikdən sonra Çemberlen bildirdi ki, artıq İngiltərə diplomatiyası və siyasətinin yeni mərhələsi başlayır. İngiltərənin müdafiəsini gücləndirmək üçün bir sıra tədbirlər görüldü. Lakin bu tədbirlər çox ehtiyatla görülürdü. 1939-cu ilin aprelində İngiltərənin silahlanmasına buraxılan xərclər iki dəfə artırıldı. 1939-cu il mayın 15-də icbari hərbi mükəlləfiyyət tətbiq edildi. Bir sıra ölkələrin təhlükəsizliyi üçün təminat verildi. Bununla əslində İngiltərə hökuməti təcavüzkar dövlətlərlə yeni danışıqlar aparmaq üçün daha əlverişli şərait yaratmaq məqsədini güdürdü.

XX əsrin 30-cu illərinin ikinci yarısında Böyük Britaniyanın yeritdiyi xarici siyasət İkinci Dünya müharibəsinin



başlanmasına imkan yaradan amillərdən biri oldu. 1939-cu ilin sentyabrın 3-də Böyük Britaniya Almaniyaya müharibə elan etməklə İkinci Dünya müharibəsinə qoşulmuş oldu. İngiltərə ilə eyni vaxtda Yeni Zelandiya və Avstraliya, sentyabrın 5 və 8-də isə Kanada və Cənubi Afrika İttifaqı Almaniyaya müharibə elan etdilər. Hindistan da Almaniya ilə müharibə vəziyyətində olduğunu bildirdi. İngiltərə ilə Fransa 1940-cı ilin may ayınadək passiv müharibə aparırdılar. Danimarka və Norveç təslim olduqdan sonra N.Çemberlenin nüfuzu xeyli aşağı düşdü. Hökumətə 1940-cı il mayın 10-da nəinki liberallar və leyboristlər, hətta mühafizəkarların da əksəriyyəti etimad göstərmədiklərini bildirdikləri üçün o, istefa verməli oldu. U.Çörçillin başçılığı altında yeni hökumət yaradıldı. Parlament 1940-cı il mayın 22-də müharibənin aparılması üçün fövqaladə qanun qəbul etdi. Müharibə illərində İngiltərə silahlı qüvvələrinin sayı 4 mln 543 min nəfərə çatdı.Ölkədə 131 min təyyarə, 25 min tank, 300 min top islehsal edilirdi. İngiltərə müharibə illərində özünün ərzaq təlabatını əsasən ödəyirdi.

## III. FRANSA

### *Fransa üçün Birinci Dünya müharibəsi nin nəticələri*

Birinci Dünya müharibəsindən Fransa qalib dövlət kimi çıxdı. Lakin qələbənin nəticələri o qədər də təsəlliverici deyildi. Fransa əmək qabiliyyətli əhalinin 11%-ni itirmişdi. Fransa müharibədə 1 milyon 325 min adam itirmiş, 600 min adam şikəst olmuş, 2.8 milyon adam yaralanmışdı. Ölkə öz milli sərvətinin $\frac{1}{4}$ itirmiş, 10 departamenti dağıdılmış, 53 min km şose, 6 min km dəmir yolu, 23 min zavod, 550 min yaşayış evi sıradan çıxmışdı. Daş kömür çıxarılması 40.8 milyon tondan 26,2 milyon tona, çuqun istehsalı isə 4,7 milyon tondan 1.8 milyon tona enmişdi. Kənd təsərrüfat məhsulları istehsalı 34%-ə düşmüşdü. Büdcə çatışmazlığı 27 milyard frank təşkil edirdi. Müharibə dövründə Fransanın daxili borcları 34 milyarddan 116 milyarda, ümumi dövlət borcları 300 milyard franka qalxmışdı. Müharibənin vurduğu maddi zərər 200 milyard, hərbi xərclər 62 milyard frank təşkil edirdi. Rusiya, Avstriya-Macarıstan, Osmanlı imperiyalarının dağılması nəticəsində Fransanın xaricə kapital ixracı 40% aşağı düşdü. Fransa ABŞ-a 40 mlrd, İngiltərəyə 62 mlrd frank borclu qaldı

Bununla belə, Fransa 1871-ci ildə itirmiş olduğu beş milyon əhali yaşayan Elzas və Lotaringiyanı Birinci dünya müharibəsi nəticəsində özünə yenidən qaytardı. Müharibə nəticəsində hərbi sənaye inkişaf etdi.

Müharibə Fransa xalqının dünyagörüşündə böyük də-yişikliyə səbəb oldu. Fəhlə sinfinin siyasi şüuru xeyli inkişaf etdi. Fəhlə internasionalının fransız bölməsinin üzvlərinin sayı 1918-ci ildəki 34 mindən 1920-ci ildə 180 minə, həmkarlar it-tifaqı üzvlərinin sayı isə həmin illərdə 700 mindən 2400 minə qədər artdı.

Birinci dünya müharibəsinin sonunda Fransa hökumətinə radikallar partiyasının lideri Corc Klemonso başçılıq edirdi.



Kartoçka sistemi ləğv edildi. Istehsal üzərində dövlət nəzarəti zəiflədi. Ölkədəki inqilabi hərəkatın yüksəlişi 1919-cu ilin aprel ayının 23-də 8 saatlıq iş günü haqqında qanunun verilməsi ilə nəticələndi. Həmçinin sahibkarlarla həmkarlar ittifaqları arasında kollektiv müqavilələr bağlanması qanunilәşdirildi, müharibədə həlak olmuş cəbhəçilərin uşaqlarına, dul qalmış qadınlarına, şikəstlərə təqaüd müəyyən edildi.

Birinci dünya müharibəsinin gedişində Fransada istehsalın və kapitalın təmərküzləşməsi prosesi daha da gücləndi. Ölkənin bank-maliyyə əməliyyatlarına üç iri bank - Hind-Çin, Lion və Paris bankları nəzarət edirdi. Müharibənin sonunda Fransa artıq dünya səviyyəsinə çıxa biləcək güclü inhisar birliklərinə malik idi. Müharibə qurtardıqdan sonra təsərrüfatın bərpası işlərinə 90 mlrd. Frank vəssait ayrıldı. Pejo, Reno, Sitroen maşınqayırma zavodları ölkədə maşın istehsalının $\frac{2}{3}$ -ni verirdilər. Ölkədə metallurgiya sənayesinə “Komite de Foy” konserni rəhbərlik edirdi. Üç iri inhisar ticarət donanmasının 62%-nə nəzarət edirdi. Lakin yenə də o, aqrar-sənaye ölkəsi olaraq qalırdı. Əhalinin 53.6 %-i kənddə yaşayırdı. Bununla belə, müharibə nəticəsində şəhərə axın gücləndi.

Klemanso hökuməti öz xarici siyasətində Sovet Rusiya-sına qarşı düşmənçilik mövqeyində dururdu. Fransa bunu onunla əsaslandırırdı ki, müharibə dövründə Rusiya Antantaya sadiq olmamış, bolşeviklər hakimiyyətə gəldikdən sonra isə Leninin Almaniyanın agenti olduğu müəyyənləşdirilmiş, Rusiya öz müttəfiqlərini yarı yolda qoymuş, axıracan onlarla getməmiş, 1918-ci il martın 3-də Almaniya ilə seperat Brest-Litovsk sülhünü bağlamışdı. Fransa belə hesab edirdi ki, Rusiya öz borclarını, ilk növbədə Fransaya olan 12 milyard frank borcunu verməlidir. Fransa sovet Rusiyasına qarşı hərbi

müdaxilədə iştirak etsə də, ölkə ictimaiyyətinin tələbi ilə fransız əsgərləri Qara dənizdən geri qayıtmalı oldular.

### *«Milli blok» hökuməti*

1919-cu ilin noyabrında keçirilən seçkilərdə Aristid Brianın, Aleksandr Milyeranın, Raymond Puankarenin başçılığı altında 6 respublikaçı partiyanı birləşdirən və sağlardan ibarət «Milli blok» 613 deputat yerindən 437-ni tutaraq qalıb gəldi. Bu seçkilərdə radikal-sosialistlər 88 yer, sosialistlər isə 68 yer aldılar. A.Milyeranın başçılığı altında «Milli blok» hökuməti təşkil edildi. «Milli blok»un liderləri daxili böhranı aradan qaldırmağa çalışırdılar. Onlar meydana çıxan problemləri həll etmək üçün ümidlərini Birinci Dünya müharibəsi dövründə və ondan əvvəl Rusiyaya verilmiş borclarını geri almağa və Almaniyanın ödəyəcəyi təzminata bağlayırdılar. Bu məqsədlə hökumət Genuya konfransında Sovet Rusiyasından borclarını geri qaytarmağı tələb etdi. Lakin bu tələb nəticəsiz qaldı.

Bu hökumətin başlıca vəzifələrindən biri də bolşevizmə qarşı mübarizə aparmaq və bu bəlanı Avropaya, xüsusilə Fransaya buraxmamaq idi.

Hökumətin antifəhlə siyasəti ölkədə fəhlə hərəkatının yenidən yüksəlməsinə və 1920-ci ilin dekabrında Lui Frossarın başçılıq etdiyi Fransa kommunist partiyasının yaranmasına səbəb oldu.

1920-ci ilin yanvarında Fransada prezident seçkiləri keçirildi. Öz qələbəsinə əmin olan Klemanso tezliklə yanıldığını başa düşdü. Belə ki, parlament Klemansonu prezident seçməkdən imtina etdi. Onu iki məsələdə ittiham etdilər. Bunlardan birincisi antisovet müdaxilənin iflası, ikincisi, Paris sülh konfransında Fransaya Avropada hegemonluq qazandırmaması idi. Parlament prezident vəzifəsinə De Şaneli seçdi. Lakin o tezliklə xəstəliyinə görə bu vəzifədən istefa verməli oldu. Bu vəzifəyə Aleksandr Milyeran təyin olundu. A.Milyeran beynəlxalq opportunizmin Fransaya məxsus növünün başçısı olmuşdur və təsadüfi deyildir ki, Fransa opportunizmi tarixdə milyeramizm kimi tanınmışdır. Hələ 1899-cu ildə Paris kommunasının cəlladlarından biri olan general Qolifenin iştirak etdiyi hökumətdə sosialist nazir kimi Milyeran da fəaliyyət göstərmişdi. O, Eduard Bernşteynin söylədiyini işdə həyata keçirən ilk şəxs olmuşdur. Milyean həm də dünya tarxinə 1920-1921-ci illərdə yaranmış "Kiçik Antanta" nın təşkilatçısı kimi daxil olmuşdur. O, Fransanın təsiri altında Sovet Rusiyasına qarşı "sanitar kartonu" təşkil etmək məqsədilə Yuqoslaviya, Çexoslovakiya və Rumıniyadan ibarət "Kiçik Antanta" təşkil etmiş və bu təşkilat 1938-ci ilə qədər fəaliyyət göstərmişdir.

Baş nazir Milyeran 1920-ci ilin sentyabrından ölkə prezidenti vəzifəsini tutdu. O, 1924-cü ilə qədər bu vəzifədə çalışdı. 1920-ci ilin sentyabrından 1921-ci ilin yanvarına qədər Fransa hökumətinə Leyq, 1921-ci ilin yanvarından 1921-ci ilin sonuna qədər A.Brian, 1920-ci ilin yanvarından 1924-cü ilin iyulun 1-dək əsasən dünya və Fransa tarixinə "müharibə simvolu" kimi daxil olmuş Raymond Puankare başçılıq etdi. Onu müəyyən vaxtlarda Aristid Brian da əvəz etdi. 1921-1922-ci illərdə Almaniyanın təzminatı 20 mlrd marka ödəməsi əvəzinə 3 mld marka ödəməsi Puankare hökumətinin Belçika ilə birlikdə 1923-cü ilin yanvarında Almaniyanın Rur kömür hövzəsinə təcavüz etməsinə gətirib çıxartdı. Əslində Puankarenin məqsədi Rur kömür hövzəsini Fransaya qatmaq və Fransanı böyük sənaye dövlətinə çevirmək idi. Lakin bu plan İngiltərə və ABŞ-ın diplomatik təzyiqi nəticəsində baş tutmadı. Fransa-Belçika qoşunları 1923-cü ilin payızında Rur kömür hövzəsindən çıxarıldı.

### *«Sol blok» hökuməti*

Rur əməliyyatının uğursuzluğu «milli blok» hökumətinin nüfuzunu sarsıtdı. Bu hadisədən sonra sol partiyaların fəliyyəti gücləndi. Radikal, radikal-sosialist və sosialist partiyası birləşib "solların kartelini" yaxud "sol blok" təşkil etdilər. Bu blok 1924-cü ilin aprelində keçirilən seçkilərdə 328 səs toplayaraq qalib gəldi. Nəticədə radikal-sosialist partiyasının liderlərindən olan Eduard Errionın başçılığı altında "Sol blok" hökuməti təşkil edildi. Lakin "Sol blok" hökumətinin ömrü cəmi 10 ay çəkdi. E.Errio hökuməti ilk növbədə Aleksandr Milyeranin prezident vəzifəsindən uzaqlaşdırılmasına və həmin vəzifəyə Dumerqin seçilməsinə nail oldu. Eduard Errio hökuməti təşkil edildikdə sosialistlər onun tərkibinə daxil olmadılar. Lakin onu parlamentdə müdafiə edəcəklərinə söz verdilər. Hökumət siyasi məhbuslara əfv verdi. 1920-ci ildə tətil etdiklərinə görə işdən azad olmuş dəmir yol işçiləri yenidən öz işlərinə bərpa olundular. Sahibkarlarla fəhlələr arasında müqavilə bağlandı, bir çox malların qiyməti aşağı salındı. Dövlət məmurlarına həmkarlar ittifaqları təşkil etmək hüququ verildi, qadınlar yerli idarələrə seçkilərdə iştirak etmək hüququ aldılar.

Fransa iqtisadiyyatını gerilikdən çıxarmaq üçün Ali İqtisadi Şura və Ali Dəmiryol Şurası yaradıldı.

Milli kredit bankının yaradılması ölkənin iqitsadi inkişafında başlıca rol oynadı. Xarici siyasətdə bu hökumətin ilk addımı 1924-cü ilin oktyabrında SSRİ-ni de-yuro tanıması idi. Hökumətin xarici siyasətinin başlıca məqsədi Avropada hegemonluğa nail olmaq idi.

E.Errio hökumət mütərəqqi vergi tətbiq etməyi, kapital üzərinə nəzarət qoymağı bacarmadı. Bu məsələ parlamentin müzakirəsinə qaldırılan zaman senatda əksəriyyət təşkil edən sağlar Errio hökumətini müdafiə etmədilər. E.Errio 1925-ci ilin aprelində istefa verdi. 1925-ci ilin aprelindən noyabrına qədər hökumətə Penleven başçılıq etdi. Onun dövründə isə Mərakeş-



də aparılan müharibəyə Suriya ilə də müharibə əlavə olundu. 1925-ci ilin iyul ayında sosialistlər kütlələr arasında nüfuzdən düşəcəklərindən qorxaraq «sol blok»un tərkibindən çıxdılar. 1925-ci ilin noyabrında Aristid Brianın başçılığı altında hökumət təşkil edildi. O öz hökumətinin tərkibinə «sol blok»un üzvlərindən də daxil etdi. Bu hökumət cəmi 8 ay işləyə bildi. 1926-cı ilin iyulunda hökumət böhranı baş verdi. Brian kabineti dağıldı və Errionun yaratdığı yeni hökumət çox az davam gətirdi. Maliyyəçilərin təzyiqi ilə bir neçə gündən sonra o, istefaya getməyə məcbur oldu. Errio bu məsələ ilə əlaqədar yazırdi ki, faciəli dəqiqələrdə pul qüdrətinin respublika prinsipləri üzərində necə təntənə çaldığına o bir daha əmin oldu və gördü ki, borclu olan bir dövlətdə demokratik hökumət kölədir.

### *«Milli birlik» hökuməti*

İnhisarçı dairələr ölkədə güclü hökumət yaradılmasını və buna güclü şəxsin rəhbərlik etməsini tələb edirdilər. Belə bir güclü şəxsiyyət Raymond Puankare oldu. Hakimiyyətə gələn kimi o, dərhal dolayı vergiləri artırdı, dövlət qulluqçularının maaşlarını aşağı saldı, sosial xərcləri ixtisar etdi. Bütün bunların nəticəsində frankın sabitliyi təmin edildi. Puankare "Frankın xidasedicisi" adını aldı. Xarici banklara aparılan pullar yenidən Fransaya qaytarıldı. 1928-ci ildə frankın sabitliyini təmin etmək haqqında xüsusi qanun qəbul edildi. Puankare öz hökumətini «milli birlik» hökuməti adlandırdı.

1927-ci ildə isə icbari hərbi hazırlıq haqqında xüsusi qanun qəbul edildi. Puankare hökuməti silahlanma yolunda müəyyən addımlar atdı. 1927-1928-ci illərdə hərbi büdcə müharibədən əvvəlkinə nisbətən iki dəfə artdı.

1928-ci ildə Puankare hökuməti mojaritar seçki sistemini yenidən tətbiq etdi. (Mojaritar fransız sözü olub hərfi mənası «çoxlu» deməkdir). Fransa ərazisi həmin seçki sisteminə əsasən 612 dairəyə bölündü. Seçkilər iki turda keçirilməli idi. Birinci

turda deputatlığa namizədlər müəyyən olunurdu. İkinci turda isə deputatlar seçilirdi və burada partiyalar blokda çıxış edə bilərdilər. Həmin seçki sistemində partiyalara verilən yer müxtəlif idi.Nəticədə seçkilərdə burjua patiyaları daha çox səs almış oldu.

Puankare hökumətinin hakimiyyəti dövründə Fransada güclü hakimiyyət yaradıldı. Bu illərdə Fransa «çiçəklənmə» prosesi keçirmiş oldu. Bu illər ərzində ölkədə sənaye məhsulları istehsalı hər il 5% artdı. 1913-cü illə müqayisədə 1929-cu ildə ölkədə sənaye məhsulları istehsalı 1,5 dəfə çoxaldı. Əgər 1918-ci ildə əhalinin 53%-i kənddə yaşayırdısa, kapitalizmin nisbi sabitləşməsi dövründə şəhərə axın gücləndi. Şəhər əhalisinin sayı 51%-i ötüb keçdi. Nəhayət, Fransa aqrar-sənaye ölkədən sənaye-aqrar ölkəyə çevrildi. Fransanın iqtisadi yüksəlişində müharibədə dağıdılmış təsərrüfatın tezliklə bərpa edilməsi, Elzas və Lotaringiyanın geri qaytarılması, Saar kömür mədənlərinin Fransaya verilməsi, fransız inhisarçılarının istehsal avadanlığını həmişə yeni texnologiya ilə təzələməsi, Almaniyadan alınan təzminat, onun yenə də sələmçi dövlət kimi qalması və borclardan aldığı faizlər, 1926-cı ildə həm Suriya ilə, həm də Mərakeşlə müharibənin qurtarması, müstəmləkə xalqlarının istismarının yenə də davam etməsi mühüm rol oynadı.

Kapitalizmin nisbi sabitləşməsi illərində Fransada maşın-qayırma, radiotexnika, aviasiya sənayesi sürətlə inkişaf etdi. Ənənəvi sənaye sahələri olan toxuculuq, zərgərlik və ətriyyat sənayesi Fransaya çoxlu gəlir gətirirdi. Fransa silah istehsalını xeyli artırdı. Hərbi sənaye şirkətləri Şərqi Avropa ölkələrinə silah ixracını genişləndirir və bununla çoxlu mənfəət əldə edirdilər. Sabitləşmə illərində istehsalın və kapitalın təmərküzləşməsi sürətləndi. Zəhmətkeşlərin istismarını gücləndirmək hesabına ölkənin iqtisadiyyatına və maliyyəsinə nəzarət edən "iki yüz ailənin" mənfəəti artdı. Hökumətdə



vəzifələr tutan və parlamentdə yeri olan iri bankirlər və sənayeçilər daxili və xarici siyasətə bilavasitə təsir göstərirdilər.Lakin bu dövrdə də Fransa xırda burjua ölkəsi olması xüsusiyyətini qoruyub saxlayırdı. Fəhlələrin 40%-i təxminən 10 nəfərə qədər adam çalışan müəssisələrdə işləyirdi. Bu dövrdə çoxlu xırda mülkiyyətçinin çalışdığı kənd təsərrüfatı xroniki böhran keçirirdi.

1929-cu ilin iyul ayında Puankare xəstəliyi ilə əlaqədar istefa verdi. A.Brian iyul ayından oktyabr ayına qədər baş nazir oldu. 1929-cu ilin oktyabrından 1931-ci ilədək baş nazir Andre Tardye oldu.

Kapitalizmin nisbi sabitləşməsi illərində Fransanın xarici siyastəinə Aristid Brian başçılıq edirdi. O, 1906-cı ildən 1931-ci ilə qədər 25 il nazir vəzifəsində çalışmış, 11 dəfə baş nazir olmuşdur. Aristid Brian sülhsevər olması, millitarist olmaması ilə fərqlənirdi. A.Brian Sovet Rusiyasına qarşı antisovet mövqeyində idi. Lakin sağlam düşüncə sahibi olduğu üçün 1927-ci ildə İngiltərə SSRİ ilə diplomatik əlaqələri kəsərkən Fransa bunu etmədi. Aristid Brianın fəaliyyəti sayəsində 1925-ci ilin oktyabrında Lokarno konfransında Fransa konfransda iştirak edən dövlətlərin (İngiltərə, Fransa, Belçika, İtaliya və Almaniya) Birinci dünya müharibəsindən sonrakı dövrdə mövcud olan vəziyyəti, yəni status-kvonu qoruyub saxlayacaqlarına dair saziş bağlamalarına nail oldu. Həmçinin həmin konfransda Almaniya özünün qərb sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün öhdəlik götürdü. Bu da ilk növbədə Fransanın şərq sərhədlərinin təhlükəsizliyini təmin etmək demək idi. A.Brianın təşəbbüsü ilə 1928-ci ilin avqustunda 48 dövlət tərəfindən məşhur Brian-Kelloq paktı bağlandı. Kelloq ABŞ-ın dövlət katibi idi. Həmin pakta görə müharibə hər bir dövlətin milli siyasəti üçün yolverilməz hesab edilirdi. A.Brian həm də Panavropa ideyasının təşkilatçısı olmuşdur. Ümumiyyətlə, Avropanın birliyi məsələsi ilk dəfə məşhur

fransız yazıçı Viktor Hüqo tərəfindən irəli sürülmüşdür. Lakin bu ideya XIX əsrdə reallaşa bilmədi. XX əsrdə bu fikir A.Brian tərəfindən yenidən irəli sürüldü. 1930-cu ilin mayında A.Brian Avropanın 27 dövlətinə "Avropa federal ittifaqı" yaratmaq barədə müraciət etdi. Lakin böyük dövlətlər bu ideyanı mdüaifə etmədilər. Çünki onlar Avropada Fransanın hegemon olacağından ehtiyat edirdilər.

### *Fransa 1929-1933-cü illər dünya iqtisadi böhranı illərində*

1929-cu ilin oktyabrında ABŞ-da başlayan iqtisadi böhran Fransaya nisbətən gec – 1930-cu ilin sonunda çatdı. Bu böhran 1935-ci ilə qədər davam etdi. Böhranın gec başlanması Fransa burjuaziyasının istehsal avadanlıqlarını daim yeniləşdirməsi və inflyasiya ilə əlaqədar olaraq malların qiymətini vaxtında xeyli aşağı salması ilə bağlı idi. Əgər 1913-cü ildə Fransada sənaye istehsalının indeksini 100 qəbul etsək, 1929-cu ildə bu rəqəm 139-a, 1930-cu ildə 140-a, 1931-ci ildə 124-ə, 1932-ci ildə isə 96-ya bərabər oldu. Böhran ən çox özünü 1932-ci ildə göstərdi və bu proses 1935-ci ilə qədər davam etdi. İqtisadi böhran nəticəsində Fransanın istehsal vasitələri istehsalı 80%-ə düşdü. Kənd təsərrüfatında gəlir 1929-cu ildəki 44,8 milyard frankdan 1932-ci ildə 17 mlrd franka endi. İdxal və ixrac 2-2,5 dəfə azaldı. Fəhlələrin yarısı işsiz qaldı. İnflyasiya gücləndi. Vəziyyəti çətinləşdirən səbəblərdən biri də Almaniyadan təzminat alınmasının dayanması idi. ABŞ isə Fransadan borcunu tələb etdi. Böhran illərində xarici ticarət 2 dəfədən çox azaldı. Fransa böhrandan ancaq 1935-ci ildə öz iqtisadiyyatını hərbiləşdirmək hesabına çıxa bildi.

30-cu illərdə ölkədə dövlət tənzimlənməsinin forma və məqsədləri ciddi müzakirə edilirdi. Dövlət tənzimlənməsi



"çaricim" adlanırdı. İri kapitala güzəşt üçün "Mühafizə edilən bölmə" yaradıldı.

Böhran ölkənin siyasi həyatına da böyük təsir göstərdi. 1931-1933-cü illərdə yeddi hökumət dəyişikliyi oldu ki, bu hökumətlərdən üçünə Laval başçılıq etdi. 1932-ci ildə hökumətə yenidən Eduard Errio başçılıq etdi və onun dövründə Fransa ilə SSRİ arasında 1932-ci ilin noyabrında bir-birinə hücum etməmək haqqında müqavilə bağlandı. 1934-cü ildə Fransanın xarici işlər naziri Lui Bartu oldu. 1933-cü ildən 1934-cü ilin fevralınadək hökumətə isə Eduard Daladje başçılıq edirdi. Lui Bartu sağlam düşüncəyə malik bir şəxs idi. O, Almaniyada faşizmin hakimiyyət başına gəlməsinin tezliklə Fransada da təhlükə yaradacığını görür və SSRİ ilə münasibətləri normal məcrada inkişaf etdirməyə çalışırdı. Ona görə də o, 1934-cü ildə həm SSRİ ilə qarşılıqlı yardım haqqında müqavilə, həm də Şərq paktı bağlamaq təşəbbüsü ilə çıxış etdi. Həmin paktı Almaniya, Fransa, SSRİ, Finlandiya, Polşa, Çexoslovakiya və Pribaltika ölkələri imzalamalı idilər. Lakin Almaniya və Polşanın bu təklifi rədd etməsi nəticəsində həmin pakt imzalanmadı. Lui Bartu isə Yuqoslaviya kralı Aleksandrla birlikdə 1934-cü ilin oktyabrında Marseldə Almaniya kəşfiyyatının hazırladığı "Tevton qılıncı" əməliyyatına əsasən öldürüldü və onun başladığı iş yarımçıq qaldı.

### *Fransada faşizmə qarşı mübarizə*

XX əsrin 30-cu illərinin II yarısında Fransanın siyasi həyatında mühüm yeri faşizmə qarşı mübarizə təşkil edirdi.

Fransada faşizmin ilk təşkilatları- XX srin 20-ci illərində yaradılmışdı. Bunlardan ən təhlükəlisi 1927-ci ildə De lya Rok tərəfindən təşkil edilmiş və tərkibində 350 minə qədər adamı birləşdirən "Odlu xaç" cəmiyyəti idi. Bu cəmiyyət hətta özünün aviasiyasına da malik idi. Bu cəmiyyət Birinci Dünya müharibəsinin Fransa üçün nəticələrindən narazı qalan hərbiçilərin

əksəriyyətini öz tərkibində birləşdirmişdi. Digər faşist təşkilatlarından biri də "Fransa həmrəyliyi" təşkilatı idi. Onun əsasını milyonçu Koti və faşistpərəst general Peten qoymuşdur. 1934-cü ildə Kotinin ölümündən sonra o dağıldı. 1933-cü ilin sentyabrında kapitan Byukar tərəfindən "Fransaçılar" təşkilatı yaradıldı. O, öz təşkilatını italyan faşzminə bənzədirdi. "Fransaçılar" azadlıq, qardaşlıq, bərbərlik əvəzinə qayda-qanun, intizam tərəfdarı olduqlarını bildirirdilər. Onların "Mavi köynəklilər" adlı hərbi dəstləri də vardı. Onlar Fransanın demokratiya ənənələrini yaşadan bir ölkə olduğunu bildiklərinə görə açıqca demokratiyaya qarşı çıxmır və belə hesab edirdilər ki, Fransa demokratiyasını şiş xəstəliyinə bənzəyən sosializm və kommunizmdən azad etmək lazımdır. Fransız faşizminin də sosial bazası Almaniyada və İtaliyada olduğu kimi xırda burjuaziya və klerikal din xadimləri idi. Onun maliyyə mənbəyi isə inhisarçılar və maliyyə burjuaziyası idi.

Faşizmə qarşı mübarizə aparmaq üçün Fransada hələ 1932-1933-cü illərdə Amsterdam-Pleyer təşkilatı yaradılmışdı. 1933-cü ildə Almaniyada faşistlər hakimiyyətə gəldikdən sonra Fransada faşistlər qüvvətləndi və hakimiyyətə gəlmək fikrinə düşdülər. Lakin onların bu məqsədinin həyata keçirilməsi üçün real imkan yox idi. Bunun səbəbləri isə ilk növbədə onunla əlaqədar idi ki, Almaniya və İtaliyadan fərqli olaraq, Fransada faşizm o qədər də geniş sosial bazaya malik deyildi. Almaniya və İtaliyadakı kimi Fransada revanş, yəni qisas hissi Birinci dünya müharibəsindən qalib dövlət kimi çıxdığı üçün güclü deyildi. Almaniyadan fərqli olaraq, Fransada şovinizm təbliğatı üçün əsas yox idi. Fransada iqtisadi böhran Almaniyadakı kimi dərinə getməmişdi. Fransa əsrlərdən bəri öz xalqını demokratik ənənələr ruhunda tərbiyə etmişdi. Fransız burjuaziyası parlamentarizmin və demokratik ənənələrin tərəfdarı idi. Ona görə də xalq faşizmə tərəfdar çıxmadı.



1934-cü ilin fevralında faşistlər hakimiyyəti ələ almağa cəhd etdilər. Bunun üçün bəhanə Stavisskinin işi oldu. Stavisski Parisdə ən məşhur lombardlardan birinin rəhbəri idi və İspaniyada burjua inqilabı baş verərkən Fransaya gələn ispan varlıları öz brilliant və bahalı daş-qaşlarını onun lombardına qoymuşdular. Lakin tezliklə məlum olmuşdur ki, həmin brilliant və bahalı qaşlar dəyişdirilmiş, adi qaşla əvəz olunmuşdur. İşin üstü açılarkən onun bir ucu Fransanın hökumət və dövlət məmurlarına çıxırdı. Bu hadisə Fransız xalqının çox böyük narazılığına səbəb oldu. Bu narazılıqdan istifadə edən faşistlər 1934-cü il fevralın 6-da deputatlar palatasının yerləşdiyi Burbonlar sarayına hücum etdilər. Onların cəhdinin qarşısı alındı. 1934-cü il fevralın 12-də 4.5 mln nəfərin iştirak etdyi ümumi tətil göstərdi ki, fransız xalqı faşizmin hakimiyyətə gəlməsinə yol verməyəcəkdir. 1934-cü ilin fevralında faşistlər əleyhinə çıxışlar Xalq Cəbhəsinin yaradılmasını sürətləndirdi. 1934-cü ilin iyulun 27-də kommunistlərlə sosialistlər arasında "Faşizmə və müharbə təhlükəsinə qarşı birgə mübarzə haqqında" pakt imzalandı. 1930-cu ildən Fransa kommunist partiyasına başçılıq edən Moris Tores 1934-cü ilin oktyabrında "uzanmış əl" platformasını irəli sürərək bütün demokratik partiyaları faşizmə qarşı sülh, azadlıq və çörək uğrunda birləşməyə çağırdı. 1935-ci ilin mayında Fransa parlamentində kommunistlər, radikallar və sosialistlər partiyası xalq cəbhəsi təşkil etmək haqqında birgə qərara gəldilər.

1935-ci il iyulun 14-də Fransanın milli bayramı – Bastiliya qalasının alınması günü münasibətilə keçirilən nümayişdə sosialistlərin, kommunistlərin və radikalların ardınca gedən kütlələr faşizmə qarşı mübarizədə birliyi bir daha nümayiş etdirdilər. Həmin gün Xalq Cəbhəsinin yaradılması reallaşdı. Xalq Cəbhəsinin proqramında həm siyasi, həm də iqtisadi məsələlər öz geniş əksini tapmışdır. Siyasi tələblərin birinci bölməsi "Azadlığın müdafiəsi" adlanırdı ki, burada ümumi

aministiya, faşist cəmiyyətlərinə qarşı mübarizə, səmərəli tərksilah və qanuna müvafiq olaraq yarımhərbi hissələrin buraxılması, fitnəkarlıq, qətl və yaxud dövlətin təhlükəsizliyinə qəsd edildiyi halda qanunla nəzərdə tutulan tədbirlərin görülməsi, həmkarlar ittifaqlarının azadlıqları ilə bağlı hüquqlarının tətbiq edilməsi və onlara riayət olunması, qadınların əmək hüquqlarına əməl olunması məsələləri öz əksini tapmışdı.

Siyasi tələblərin II bölməsi "Sülhün müdafiə edilməsi" adlanırdı ki, bu bölmədə sülhün qorunub saxlanmasında bütün xalqların əməkdşlıq etməsinə çağırış, təcavüzkarın müəyyənləşdirilməsi və təcavüzkarlıq edildiyi halda sanksiyaların dərhal və həmrəyliklə tətbiqi, kollektiv təhlükəsizliyi təmin etmək məqsədi ilə Millətlər Cəmiyyəti çərçivəsində beynəlxalq əməkdaşlıq, hərbi sənayenin milliləşdirilməsi və xüsusi silah alverinin ləğv edilməsi, Şərqi və Mərkəzi Avropada Fransa-SSRİ müqaviləsi prinsiplərinə uyğun olaraq hamı üçün açıq olan paktlar sisteminin yaradılması məsələsi açıqlanmışdı.

Xalq Cəbhəsinin proqramının "İqtisadi tələblər" hissəsində isə böhranın heçə endirdiyi, yaxud zəiflətdiyi alıcılıq qabiliyyətinin bərpa edilməsi üçün istehsalçılar və istehlakçılardan möhtəkirlərin aldığı töycülərin ləğv edilməsi məqsədilə taxıl satışı üzrə milli vasitəçilik bürosunun yaradılması, əmlakın icbari surətdə siyahıya alınmasının ləğv edilməsi və borc yükünün yüngülləşdirilməsi, qənaət edilmiş pulun qarət edilməsinə qarşı mübarizə, kreditin ən yaxşı təşkil edilməsi, maliyyənin sağlamlaşdırılması məsələsindən bəhs edilirdi.

1934-1936-cı illərdə Fransada beş hökumət dəyişikliyi oldu. Hökumət əvvəl Q.Dumerq, sonra Pyer Etyen Flanden, 1935-ci ilin iyunundan 1936-cı ilədək Laval başçılıq etdi.



### *Fransada Xalq Cəbhəsi hökumətinin daxili və xarici siyasəti*

1936-cı ilin aprel-mayında keçirilən parlament seçkilərində Xalq Cəbhəsi bütün səslərin 57%-ni aldı və sosialist Leon Blümün başçılığı altında iyunun 4-də hökumət təşkil edildi. Kommunistlər bu hökumətə daxil olmasalar da, parlamentdə yeni hökuməti Xalq Cəbhəsi proqramını yerinə yetirməsi şərti ilə müdafiə etmək haqqında qərar qəbul etdilər.

Xalq Cəbhəsi hökuməti 1937-ci ilin fevralına qədər 133 qanun layihəsini parlamentdə müzakirə etdi və bunlar qəbul olundu. Ümumiyyətlə, XX əsrin 30-cu illərində Fransa kapitalist ölkələri içərisində demokratik islahatları ən çox həyata keçirən ölkə idi. Xalq cəbhəsi hökumətinin həyata keçrdiyi islahatlar nəticəsində faşist və yarımfaşist təşkilatları buraxıldı. Onların fəaliyyəti qadağan edildi. Siyasi məhbuslara əfv verildi. Həmkarlar ittifaqları sahibkarlarla kollektiv müqavilələr bağlamaq hüququ əldə tdilər. 40 saatlıq iş həftəsi və 2 həftəlik ildə haqqı ödənilən məzuniyyət verilməsi qanuniləşdirildi. 14 yaşına çatmış bütün uşaqlara icbari təhsil verilməli idi. Təhsilə qoyulan vəsait artırıldı. Hərbi sənayenin və dəmir yollarının qismən milliləşdirilməsi həyata keçirildi. Bankların və dəmir yollarının üzərində dövlət nəzarəti qoyuldu. Əhalinin aşağı təbəqələrinin əmək haqqı 2-2,5 dəfə, fəhlələrin əmək haqqı isə 15-17% artırıldı, müharibə iştirakçılarının təqaüdü çoxaldıldı. Kənd təsərrüfatında çoxuşaqlı ailələrə əlavə müavinətlər ayrılırdı. Dövlət kənd təsərrüfatı məhsullarını kəndlilərdən sabit yüksək qiymətlərlə satın almağa başladı. İri kapital üzərinə qoyulan vergilər xeyli artırıldı. Bütün bunlar xalq kütlələrində Xalq Cəbhəsi hökumətinə qarşı etimadı gücləndirdi. Orta təbəqələrə güzəştli kreditlər verildi. Xalqın yaşayış səviyyəsi yüksəldi. Sosial qanunvericilik sahəsində mühüm irəliləyiş baş verdi. Lakin sosial xərclərin hədsiz dərəcədə artırılması ölkədə maliyyə böhranına gətirib çıxardı. Qarşıya qoyulan proqram

əsasən yerinə yetirildikdən sonra Xalq Cəbhəsinə daxil olan partiyalar gələcək inkişaf yolunu seçmək məcburiyyətində qaldılar. Maliyyə çətinliyini gücləndirən amillərdən biri də kapital üzərinə vergi qoyulmasından qorxan kapitalistləin öz pullarını yerli banklardan götürərək xarici banklara qoymaları idi. Leon Blüm hökuməti 1937-ci ilin fevralında öz fəaliyyətində «pauza» elan etdi. Hökumət fransız mallarının ixracını yüksəltmək və iqtisadiyyatın canlanmasına şərait yaratmaq üçün frankı devalvasiya etdi. Frankın qızıl məzənnəsi azaldıldı, müvafiq olaraq digər valyutalarla müqayisədə onun məzənnə dəyəri aşağı düşdü. Fransanın iqtisadi vəziyyəti pisləşməyə başladı. İqtisadiyyata kapital qoyuluşu azaldı. Hadisələrin inkişafı ona gətirib çıxardı ki, 1937-ci ilin iyununda Leon Blüm istefa verməli oldu. Hökumətə radikallar partiyasından olan Kamil Şotan rəhbərlik etdi. Xalq Cəbhəsi içərisində narazılıqlar başladı. İlk növbədə iqtisadi sahədə kapital üzərinə vergü qoymaq məsələsində radikallar sosialistlərlə razılaşmadılar. Xarici siyasətdə də onların arasında fikir müxtəlifliyi yarandı. Belə ki, 1936-cı ilin iyununda İspaniyada vətəndaş müharibəsi başlanarkən Leon Blüm hökuməti Fransa ilə İspaniya arasında bağlanmış qarşılıqlı yardım haqqında sazişə əməl etmədi və Böyük Britaniyanın təzyiqi altında "Qarışmamaq komitəsi"nə qoşuldu. 1938-ci ilin martında Şotanı yenidən Leon Bölüm, aprelində isə radikallar partiyasının lideri olan Eduard Daladye əvəz etdi. Bu hökumətin dövründə isə Xalq Cəbhəsində parçalanma radikalların təslimçi, kommunistlərin radikal, sosialistlərin isə liberal mövqeyi üzündən daha da dərinləşdi. 1938-ci ilin sentyabrında Münxendə Fransa hökumətinin başçısı Eduard Daladyenin Çexoslavakiyanın Sudet vilayətinin Almaniyaya verilməsi haqqında sazişə qol çəkməsi Xalq Cəbhəsinin dağılmasını daha da sürətləndirdi.



1938-ci ilin noyabrında radikallar Xalq Cəbhəsinin tərkibindən çıxdıqlarını bildilər. Bləliklə, Xalq Cəbhəsi dağılmış oldu. Eduard Daladyenin başçılıq etdiyi radikallar hökuməti Fransaya rəhbərlik etməyə başladı.Hökumət iqtisadi inkişafa xüsusi diqqət yetirməyə başladı. Bu hökumət müharibə ərəfəsində Xalq Cəbhəsinin keçirdiyi bir sıra islahatları təxirə saldı, iki həftəlik pulsuz məzuniyyət ləğv etdi. 40 saat əvəzinə 48 saatlıq iş həftəsi müəyyən etdi. Birbaşa vergilər 8% artırıldı. 1938-ci ilin noyabrın 12-də hökumətin yeni fövqaladə dekretləri verildi. Kommunal xidmət tarifləri yüksəldildi. Qiymətlər üzərində nəzarət ləğv edildi. Sosial xərclər ixtisar edildi. Ölkə iqtisadiyyatını sabitləşdirmək üçün fond yaradıldı. Ölkəyə xarici kapital axını gücləndi. Hökumət hərbi sənayenin inkişafına xüsusi diqqət yetirməyə başladı. İqtisadiyyatın dövlət tənzimlənməsi gücləndirildi. Hərbi istehsalı gücləndirmək üçün 1938-ci ildə hökumət komissiyası yaradıldı. 1939-cu ildə parlament "iqtisadiyyatı tənzimləyən rejim" qanununu qəbul etdi.Bu proqram şəxsi təşəbbüsə imkan yaradırdı. 1939-cu ilin avqustunda SSRİ ilə Almaniya arasında hücum etməmək haqqında müqavilə bağlandıqdan sonra Fransa hökuməti kommunistlər üzərinə ciddi hücumə keçdi və kommunistlərin mətbuat orqanlarını bağladı.

### *Fransa İKinci Dünya müharibəsi ərəfəsində və illərində*

İkinci dünya müharibəsi ərəfəsində Avropada yaranmış mürəkkəb şərait Fransanın xarici siyasətində də öz əksini tapmışdı. Bu dövrdə Fransanın xarici siyasətində iki meyl özünü göstərirdi. Bu meyllərdən biri SSRİ ilə münasibətləri yaxşılaşdırmaq, Fransanın müstəqilliyini qoruyub saxlamaq idi. İkinci meyl faşist Almaniyasına güzəştə getmək, onu "sakitləşdirmək" meyli idi. İkinci meylin tərəfdarları belə hesab edirdilər ki, Almaniyanın diqqətini Şərqə yönəltmək və SSRİ ilə müharibəyə cəlb etmək lazımdır. Birinci meylin tərəfdarları

1936-cı ilə qədər Fransa siyasətində nisbətən üstün mövqe tuturdular. Məhz bunun nəticəsi idi ki, 1935-ci il mayın 2-də Fransa ilə SSRİ arasında qarşılıqlı yardım haqqında müqavilə bağlandı və 1936-cı ilin mayında o,Fransa parlamentində ratifikasiya edildi. Jorj Bonne xarici işlər naziri olduqdan sonra Almaniyaya meyl gücləndi. Bu özünü ən çox Münhen sövdələşməsində göstərdi. İdeologiyadakı müxtəliflik Fransanın SSRİ ilə faşizmə qarşı birgə mübarizəsinə mane oldu. Avropada sərhədləri dəyişdirmək iddiasında olan Almaniyanı sakitləşdirmək siyasəti Fransanı İkinci dünya müharibəsinə sürüklədi.

1939-cu il sentyabrın 3-də Fransa Almaniyaya müharibə elan etdi. 1939-cu il sentyabrın 6-da "Hərbi vəziyyətə uyğun olaraq istehsalın qurulması haqqında dekret" verildi. 1939-cu ilin noyabrın 18-də isə "şübhəlilər haqqında" dekret verildi. 1940-cı ilin mart ayında 620 həmkarlar təşkilatı buraxıldı. Baş nazir Daladye 1940-cı il martın 20-də istefaya çıxdıqdan sonra onun yerini Demokratik Alyansın lideri Pol Reyno tutdu. İyunun 7-də Reyno Fransa uğrunda mühbarizənin başlandığını bildirdi. İyunun 9-da Almaniya ordusu Sena çayına yaxınlaşdı. İyunun 10-da İtaliya da Fransaya müharibə elan etdi. Müqavimətin nəticəsi olmadı. İyunun 14-də Hitler ordusu Parisə girdi. İyunun 16-da Reyno istefaya getdi. Yeni hökuməti Peten təşkil etdi. İyunun 22-də Fransa nümayəndə heyəti Kompyen meşəsində danışıqsız təslimolma aktını imzaladı. Iuylun 24-də Fransa ilə İtaliya arasında barışıq sazişi imzalandı. Fransa ərazisinin $\frac{2}{3}$ hissəsi işğal edilir, hərbi gəmiləri Almaniya və İtaliyaya verilirdi. 1,5 milyon fransız Almaniyada sülh müqaviləsi imzalanana qədər saxlanılmalı idi. Almaniya ordusu 3 min fransız təyyarəsini, 5 minə yaxın tankını aldı. Ölkənin cənub departamentləri Almaniya ilə əməkdaşlıq edən Peten hökumətinin nəzarətində qaldı.

İşğal olunmuş ərazilərdə sabitliyi qorumaq məqsədilə Peten hökuməti 100 minlik "barışıq ordusu" saxlaya bilərdi.



Fransanın cənubundakı Menton şəhəri yaxınlığındakı rayonları işğal edən İtaliya fransız silahlarını ələ keçirdi. Bunula belə, Fransa Afrikadakı müstəmləkələrində tam nəzarəti saxladı.

1940-cı il iyunun 18-də Londonda olan general Şarl De Qoll radio ilə çıxış edərək işğalçılara qarşı mübarizəni davam etdirəcəklərini bildirdi.

1940-cı ilin iyununda Peten hökuməti İngiltərə ilə münasibətləri kəsdi.

Üçüncü respublikanın buraxılması haqqında qanun əksəriyyət səslə qəbul edildi. Peten Fransa respublikasının şüarları olan "Azadlıq", bərabərlik, qardaşlıq" v s. əvəzinə "Əmək, Ailə, Vətən" şüarlarını irəli sürdü. Ölkə Fransa dövləti adlandırıldı. Prezident vəzifəsi ləğv edildi. Yeni hökumət "Vişi rejimi"adlandırıldı. Almaniya ilə əməkdaşlıq barədə razılığın alınması hökumətin kollaborasionist siyasət yeritdiyini rəsmiləşdirmiş oldu. Bunu əksinə olaraq Şarl De Qoll fəaliyyyətini gücləndirdi. 1940-cı ilin oktyabrın 7-də Şarl De Qoll Brazzavildə Respublikanın müdafiə şurasının yaradıldığını elan etdi.

1942-ci il aprelin 19-da Darlanın istefasından sonra Laval hökumətin başçısı vəzifəsini tutdu. Peten hökuməti strateji məqsədinin beynəlxalq kapitala və sosializmə qarşı mübarizə olduğunu elan etdi və bunu "Milli inqilab" adlandırdı.

Əmək münasibətləri sahəsində başlıca məqsəd sosial ziddiyətləri aradan qaldırmaq idi. Kənd təsərrüfatında kooperativlər yaradıldı. Korporasiyalar daxilində və onların arasında münasibətləri tənzimləmək üçün "Əmək xartiyası" işlənib hazırlandı. Tətillər və işçiləri işdən azad etmək qadağan olundu.

"Vişi rejimi" ölkədə "xristian sivilizasiyasını dirçəltmək" proqramını elan etdi. Çoxuşaqlı ailələrə yardımlar edildi. Demoqrafik siyasətə xüsusi diqqət yetirildi. Yəhudilər üzərində polis nəzarəti qoyuldu. Hökumətin siyasəti fransız

hakimiyyətinin faşistləşdirilməsinə yönəlsə də, Fransada kütləvi hərakat üçün sosial baza yox idi. Rejimin başlıca dayağı "Veteranlar legionu" oldu. Hökumətin əlaltı dövlətə çevrilmək siyasəti xalqın narazılığına səbəb oldu. 1944-cü ildə Fransa sənayesinin 80%-i Almaniyanın sifarişlərini yerinə yetirirdi. Peten hökuməti yeni konstitusiya aktı verərək daxili və xarici siyasətə rəhbərliyi öz əlinə aldı. Lakin bu tədbir müqavimət hərakatını dayandıra bilmədi.

1941-ci ilin sentyabrında Şarl De Qolll Fransız Milli komitəsini yaratdı. Bir il sonra bu komitə "Döyüşən Fransa" adını aldı. 1943-cü il iyunun 3-də Əlcəzairdə təşkil edilən Fransa Milli Azadlıq Komitəsi hökumət orqanı kimi müttəfiqlər tərəfindən tanındı. 1944-cü ilin fevralında Fransa ərazisindəki müqavimət qüvvələri "Fransa daxili qüvvələri"ndə cəmləşdirildi. Xalq işğalçılara qarşı mübarizədə antifaşist qüvvələri müdafiə etdi. "Vişi hökuməti" məğlubiyyətə uğradı. Onun üzvlərinin əksəriyyəti həbs edildi. 1944-cü il avqustun 25-də Paris üsyançılara təslim olan gün Şarl De Qoll paytaxta gəldi. 1944-cü ilin sonuna qədər bütün Fransa ərazisi faşistlərdən təmizləndi.



## IV. ALMANİYA

### *Almaniyada Noyabr inqilabı. Veymar konstitusiyası*

1914-1918-ci illəri əhatə edən Birinci dünya müharibəsi ilk növbədə Almaniya-İngiltərə ziddiyyətlərinin son dərəcə kəskinləşməsi üzündən başladı. Almaniya Birinci dünya müharibəsinə ona görə başladı ki, o, imperialist təamları stoluna gecikmişdi, gücləndiyi vaxt günəş altında boş torpaq qalmamışdı. Ona görə də XX əsrin əvvəllərində Almaniya dünyaya meydan oxuyaraq belə hesab edirdi ki, o bu stoldan kimi isə durğuzmalı, bu əsrdə o, ya «çəkic», ya da «zindan» olmalıdır. Birinci dünya müharibəsi başlandıqdan 1916-cı ilə qədər üstünlük Almaniyanın tərəfində idi. Əgər Almaniya 1915-ci ildə Rusiyanı müharibədən çıxara bilsəydi, yəqin ki, müharibənin taleyi bəlkə də başqa cür həll olunardı. Lakin 1915-ci ildə o bu məqsədinə nail ola bilmədi.

1918-ci ildə, yəni müharibənin son ilində Almaniyada həm də sosial partlayış yaranmaq üzrə idi. Bunu həmin ilin yanvar ayında ölkədə 1,5 mln-a qədər fəhlənin tətil etməsi bir daha göstərdi. Ölkə iqtisadi çətinliklə üzləşdi. Almaniya Rusiya ilə Brest-Litorisk sülhünü bağladıqdan sonra bütün qüvvələrini yenidən cəmləşdirərək yay hücumunə böyük ümid bəsləyirdi. Lakin yay hücumunda ABŞ qoşununun Avropada Antantanın tərəfində ilk dəfə hərbi əməliyyatlarda iştirak etməsi Almaniyanın vəziyyətnin daha da ağırlaşmasına səbəb oldu. 1918-ci il avqustun 8-də Almaniya qoşunları qəti məğlubiyyətə uğradılar və bu, Almaniyanın tarixinə «qara gün» kimi daxil oldu. Bu hadisədən sonra Almaniyanın Birinci dünya müharibəsində məğlubiyyəti qaçılmaz oldu. Hadisələrin gedişini diqqətlə izləyən şahzadə Maks Bodenskinin başçılıq etdiyi Almaniya hökuməti 1918-ci ilin oktyabrın 5-də ABŞ prezidenti Vudro Vilsona məktub göndərərək sülh danışıqlarına başlamağı təklif etdi. Hökumət həmçinin yetişən inqilabi böhranın qarşısını almaq üçün bir sıra islahatlar keçirdi. Belə ki, hökumət

parlament qarşısında məsuliyyət daşımalı idi. Siyasi məhbuslara amnistiya verildi. Sosialist partiyasının liderləindən olan Karl Libknext həbsxanadan azad edildi. Ölkədə yetişməkdə olan inqilabın qarşısını almaq üçün hökumət manevrlərə də əl atmalı oldu. O, Almaniyanın şimalında Kil limanında yerləşən matrosları dənizdə İngiltərə donanması ilə döyüşə çıxarmaq istədi. Almaniya hökumətinin bu işdə iki məqsədi vardı. Hökumət belə güman edirdi ki, Əgər Almaniya donanması qalib gələrdisə, kütlələrdə vətənpərvərlik əhval-ruhiyyəsi artar və onlar inqilab fikrindən əl çəkərdilər. İkinci halda, yəni matroslar məğlub olardılarsa, bunun günahını inqilabi əhvali-ruhiyyəli kütlələrin üzərinə yıxmaq və onların üzərinə hücuma keçib inqilabın qarşısını almaq olardı. Lakin hadisələrin gedişi hökumətin gözlədiyi kimi olmadı. 1918-ci il noyabrın 3-də Kil limanının matrosları dənizə çıxmaqdan imtina etdilər və tətil etdilər. Onların tətili bütün ölkədə tətil və nümayişlərin başlamasına səbəb oldu. Həmin gün Almaniya tarixinə inqilabın başlanması tarixi kimi daxil oldu. Almaniyada inqilabı dörd mərhələyə bölmək olar: noyabrın 3-dən 9-na qədər; noyabrın 10-dan dekabrın ortalarınalək, dekabrın ortalarından 1919-cu ilin fevralınadək, 1919-cu ilin fevralından may ayına qədər;

Almaniyadakı inqilab öz xarakterinə görə burjua-demokratik inqilabı idi. Bu inqilab öz qarşısına monarxiyanı devirmək və demokratik respublika qurmaq məqsədini qoymuşdu. Noyabrın 9-da inqilab Berlində qələbə çaldı və monarxiya devrildi. Kral II Vilhelm və şahzadə Maks Badenski heç bir müqavimət göstərmədən hakimiyyətdən əl çəkdilər. Almaniyada Hohensolernlər sülaləsinin mövcudluğuna son qoyuldu. Kral Hollandiyaya getdi. 1918-ci ilin noyabrın 10-da təşkil edilən hökumət Xalq Müvəkkilləri Şurası adlandı və ona sosial-demokrat Ebert başçılıq etməyə başladı. O, Almaniya sosial-demokrat partiyasının liderlərindən idi. Həmin gün Karl Lip-



qnext Almaniyanı sosial respublika elan etdi. Bolşeviklərin qırmızı terrordon istifadə etmələrinin acı təcrübəsini müşahidə edən Almaniya sosial-demokratları vətəndaş müharibəsinə imkan vermədilər. Ona görə də Almaniyada Noyabr inqilabı «məxməri inqilab» adlandı. Birinci dünya müharibəsi Almaniyaya çox böyük zərər vurdu. Müharibədə Almaniyaya vurulan maddi və hərbi zərər 161 milyard marka olmuş, 2 mln. adam ölmüş, 1 mln əsir düşmüş, 4 mln adam isə yaralanmışdı. Almaniya öz əhalisinin 1/10, ərazisinin isə 1/8 hissəsini itirmişdi. Dəmir filizinin çıxarılması 75 %, daş kömür çıxarılması isə 20% azalmışdı. Almaniyanın dirçəlməsi üçün xeyli vaxt lazım idi.

1918-ci ilin sonunda ölkədə baş verən hadisələrlə əlaqədar olaraq, sinfi qüvvələrin qruplaşması və yeni siyasi partiyaların yaranması prosesi sürətləndi. İlk növbədə fəaliyyətdə olan partiyalar öz sıralarına yenidən baxdılar. Bu partiyalardan biri hələ 1869-cu ildə Almaniyanın Eyzenax şəhərində təşkil edilmiş Almaniya sosial-demokrat partiyası idi. Müharibə dövründə bu partiyadan üç qanad ayrılmışdı. Onlardan biri 1916-cı ildə təşkil olunmuş «Spartakçılar» qrupu idi ki, bunlar daha sol mövqedə dururdular. İkinci qrup «mərkəzçilər» qrup idi ki, bu qrup barışdırıcılıq mövqeyində dururdu. Sosial-demokrat partiyasından ayrılan üçüncü qrup isə 1917-ci ilin aprelində Almaniya Müstəqil sosial-demokrat pratiyasını (AMSDP) təşkil etmişdi. AMSDP müharibəni imperialist müharibəsi elan etsə də, barışdırıcılarla əlaqəni kəsmirdi:

1918-ci ilin dekabrın 30-da «Spartak» qrupu Almaniya kommunist partiyasını təşkil etdi. Onun ən görkəmli liderləri K.Libqnext və R.Lüksemburq idi.

1918-ci ilin sonunda burjua partiyalarında da yenidən təşkilolunma prosesi başlandı. Bu paritiyalardan biri Almaniyada monarxiyanın tərəfdarı olan Almaniya milli xalq parti-

yası idi. Bu partiya iri mülkədarları və qolçomaqları, bir sıra inhisarçıları, yüksək rütbəli məmurları, irticaçı zabit korpusunun maraqlarını müdafiə edirdi. Bu mühafizəkarlar, qisasçılar, monarxistlər, militaristlərin partiyası idi. Onun rəhbəri Huqenberq idi.

İkinci partiya isə ağır sənaye inhisarçılarını və maliyyə oliqarxiyası quruplarını təmsil edən Ştrezemanın başçılıq etdiyi Alman xalq partiyası idi.

Üçüncü burjua partiyası tərkibində əsasən, elektrotexnika və kimya sənayesi inhisarlarının sahiblərini, orta sahibkarlar, bankirlər, dövlət qulluqçuları və ziyalıları birləşdirən Almaniya demokrat partiyası idi. Onun liderləri B.Ratenau, E.Kox və başqaları idi. Onlar ölkədə respublika idarə formasının tərəfdarları idi.

Bismarkın dövründə təşkil edilmiş Katolik Mərkəz partiyası da öz tərkibini yenidən qurdu. Bu partiya əsasən ağır sənayedəki katolik dairələrinin, iri mülkədarların maraqlarını müdafiə edirdi. Onlar katoliklərin əksəriyyət təşkil etdiyi rayonlarda, xristian həmkarlar ittifaqlarında kütləvi bazaya malik idilər. Ona M.Ertsberqer, Y.Virt, V.Marks başçılıq edirdilər.

Burjuaziya öz əlində çoxlu sayda mətbuat orqanları saxlamış, xüsusi təbliğat mərkəzləri təşkil etmişdi ki, əhalini əks-inqilabi ruhda kökləyə bilsin.

Hakimiyyətdə olan sosial-demokratlar 1918-ci ilin dekabrın 16-dan və 21-nə qədər keçirilmiş Ümumalman sovetlər qurultayında Almaniyada sovet respublikasının qurulmasına yol vermədilər. Qurultay ancaq 1919-cu il yanvarın 19-da Müəssislər məclisinə seçkilər haqqında qərar qəbul etdi. Qurultayın qərarı ilə razı olmayan sosial-demokratların sol qanadı 1919-cu il yanvarın 5-də hakimiyyəti ələ almaq üçün Berlində üsyan təşkil etsə də, Ebert hökuməti tərəfindən bu



üsyan yatırıldı. Karl Lipqnext və Roza Lüksemburq isə 1919-cu ilin yanvar ayının 15-də öldürüldü.

1919-cu ilin yanvarın 19-da Müəssisələr məclisinə keçirilən seçkilərdə burjua partiyaları 54,5%, sosial-demokratlar isə 45,5% səs aldılar. Berlində xalq həyəcanlarından qorxuya düşən hökumət qərara aldı ki, Müəssislər məclisini Trungiyanın paytaxtı Veymarda keçirsin. 1919-cu il fevralın 6-da işə başlayan Müəssislər məclisi Almaniyanı respublika elan etdi. Ebert prezident seçildi. Şeydeman hökumətin başçısı, Noske daxili işlər naziri təyin edildi. 1919-cu ilin aprelin 13-də Bavariyada Sovet respublikası təşkil edildi. Lakin bu respublika çox yaşamadı. 1919-cu il mayın 4-də daxili işlər naziri Noskenin (Onu «inqilabın qanlı köpəyi» adlandırırdılar) başçılıq etdiyi qoşun hissələri Bavariyanın paytaxtı Münhenə daxil oldular və sovet qoşunlarını məğlub etdilər. Bu Noyabr inqilabının Almaniyada sonu demək idi.

1919-cu il iyunun 28-də xarici işlər naziri sosial-demokrat Müller Versal sülhünü imzaladı. Bu sülhdən təxminən bir ay sonra 1919-cu ilin iyulun 31-də Veymarda Almaniya respublikasının konstitusiyası qəbul edildi və avqustun 11-də qüvvəyə mindi. 1933-cü ilə qədər Almaniya respublikası tarixə Veymar respublikası adı ilə düşdü. Veymar konstitusiyasına görə Almaniya parlamentli federal quruluşlu prezident respublikası elan edildi. Almaniya parlamenti iki palatadan ibarət idi. Yuxarı palata reyxstrat adlanır və lantaqların, yəni torpaqların nümayəndələrindən təşkil edilirdi. Aşağı palata isə reyxstaq, yəni ölkə məclisi adlanırdı. Seçib-seçilmək hüququ 20 yaş müəyyənləşdirildi. O, dörd ildən bir əhalinin ümumi sayına görə seçilirdi. 1871-ci il konstitusiyasından fərqli olaraq, Veymar konstitusiyasında demokratik azadlıqlar öz əksini tapmışdı. Prezident ümumi səsvermə yolu ilə yeddi il müddətinə seçilirdi. Reyxstaqın 68 nəfər üzvündən 27-si

prezident tərəfindən təyin edilirdi. Konstitusiya prezidentə xüsusi səlahiyyətlər verirdi. Onun 25-ci maddəsinə görə prezident parlamenti buraxa bilərdi. 48-ci maddəyə əsasən prezident ölkədə fövqəladə vəziyyət elan edə bilərdi. Konstitusiyaya görə Almaniyanın muxtar dövlətlərə – torpaqlara bölünməsi saxlanıldı. Landlar, yəni torpaqlar, muxtar dövlət hüququ ilə Almaniyanın tərkibinə daxil olurdular. Onların qanunverici orqanı isə landtaqlar idi. Konstitusiyaya görə qanunverici hakimiyyət reyxstaqa və lanqtaqlara məxsus idi. O zaman Almaniyada landtaqların sayı on yeddi idi. Konstitusiya xüsusi mülkiyyəti qorumağa təminat verirdi. Ümumiyyətlə, konstitusiya nəticəsində Almaniya yunker-burjua Almaniyasından burjua-yunker Almaniyasına çevrildi. Veymar konstitusiyasının tətbiq edilməsi Noyabr inqilabının böyük nailiyyəti və Almaniyada burjua-demokratik prinsiplərin inkişafı və möhkəmlənməsi yolunda mühüm addım oldu.

### *Almaniya Noyabr inqilabından sonrakı ilk illərdə (1919-1923-cü illər)*

Konstitusiya qəbul ediləndən sonra da Almaniyada inqilabi əhval-ruhiyyə davam etməkdə idi. Bu isə ilk növbədə yuxarı dairələri narahat edirdi. Ona görə də onlar çarəni faşist partiyasını yaratmaqda gördülər. Almaniyada ilk faşist partiyası 1919-cu ilin yanvarında Anton Dreksler tərəfindən Almaniya fəhlə partiyası adı ilə yarandı. Onun proqramı 1920-ci ildə qəbul edildi və orada Böyük Almaniya yaratmaq ideyası irəli sürüldü. Bu partiyanın liderləri tezliklə müəyyən etdilər ki, Almaniyada həm millətçilik, həm də sosializm ideallarına sədaqət çox güclüdür. Ona görə də 1921-ci ildə onlar bu partiyanın adını dəyişdirərək Almaniya nasional-sosialist fəhlə partiyası adlandırdılar. Ümumiyyətlə, Almaniya faşistləri özlərini faşist yox, «nasist» adlandırırdılar. 1921-ci ildən bu partiyaya Adlolf Hitler başçılıq etməyə başladı.Onun həqiqi adı



Adolf Şkilqruberdir. O, Avstriyanın Braunau şəhərində anadan olmuş və 1932-ci ilə qədər Avtsriya vətəndaşlığını saxlamışdır. O, marksizm, sionizm, pasifizmin düşməni olsa da, sosializm ideyalarından istifadə edərək özünə geniş sosial baza yaratmağa çalışırdı.

Adolf Hitler 1914-cü ildə Birinci dünya müharibəsi başlayarkən könüllü müharibəyə getmiş, yaralanmış, yefreytor rütbəsi almışdır. O, belə hesab edirdi ki, müharibədə Almaniyanın məğlubiyyətinin əsas səbəbi yəhudilərin pozuculuq siyasəti və xəyanəti, həm də Almaniya sosial-demokratiyasının alman xalqına arxadan zərbə vurmaları olmuşdur. Almaniya nasional-sosialist fəhlə partiyası XX əsrin iyirminci illərinin əvvəllərində fəhlə hərəkatına təsir etmək qüvvəsinə o qədər də malik deyidi və miskin bir varlığa bənzəyirdi.

Versal sülhü və Veymar konstitusiyasına münasibət iki istiqamətdə özünü göstərirdi. Bunlardan biri liberal, ikincisi mühafizəkar istiqamət idi. Liberal istiqamət tərəfdarları belə hesab edirdilər ki, mövcud şəraitlə barışmaq vacibdir. Beymar konstitusiyası çərçivəsində hərəkət edib Versal sülhünün şərtlərini Almaniya üçün yumşaltmaq lazımdır. İkinci istiqamət tərəfdarları isə belə hesab edirdilər ki, bunların heç biri ilə barışmaq lazım deyil, Almaniyada monarxiyanı yenidən bərpa etmək lazımdır. Bu məqsədlə 1920-ci ilin martın 13-də Bavariya mülkədarı Kappın başçılığı ilə Berlində qiyam baş verdi. Qiyamçılar Milli Məclisin buraxılmasını, yeni prezident seçkiləri keçirilməsini, reyxsverin ixtisarından imtina edilməsini, hərbi canilərin Antanta ölkələrinə verilməsini tələb edirdilər. Hökumət bu ultimatumu rədd etdi. Qiyam o qədər güclü idi ki, hökumət Ştutqarta qaçmalı oldu. Lakin Berlin fəhlə sinfinin qətiyyətli mövqeyi qiyamın yatırılmasına və hökumətin Berlinə qayıtmasına səbəb oldu. Almaniyada monarxiyanın bərpası məsələsinə birdəfəlik son qoyulmuş oldu. Hökumətə Bauer başçılıq etməyə başladı.

1920-ci ilin iyununda keçirilən parlament seçkilərində burjua partiyaları 58% səs alaraq çoxluq təşkil etdilər. Katolik Mərkəz partiyasının liderlərindən olan Ferenbaxın başçılığı altında hökumət təşkil edildi. Onun tərkibinə sosial-demokratlar daxil olmadılar. Bu hökumətin dövründə Almaniya ilə ABŞ arasında 1921-ci il avqustunda separat sülh bağlandı. 1921-ci ilin noyabrında keçirilən parlament seçkilərində hökumətə Katolik Mərkəz partiyasından olan Virt gəldi. Onun dövründə müharibədən məğlub, iqtisdiyyatı dağılmış vəziyyətdə çıxmış Almaniya öz qəddini düzəltmək üçün yollar axtarmağa başladı. Qaliblər arasındakı ziddiyyətlərdən istifadə edən Almaniya 1922-ci ilin aprelin 16-da İtaliyanın Rapollo şəhərində Sovet Rusiyası ilə müqavilə imzaladı. Bu, Almaniyanın diplomatik və iqtisadi təklənməkdən xilas olmaq yolunda atdığı ilk addım idi.

Almaniyada sosial-siyasi sabitlik yaratmaq o dövrün ən mühüm vəzifəsi idi. 1922-ci ilin noyabrından Almaniya hökumətinə Kuno başçılıq etdi. Bu dövrdə ən xarakterik hadisə 1923-cü ilin yanvarında Belçika və Fransa dövlətinin Almaniyaya qoşun yeritməsi oldu. Buna bəhanə isə Almaniyanın təzminat verməsini gecikdirməsi idi. Hökumət çətin vəziyyətdə qaldığına görə passiv itaətsizlik kampaniyasını irəli sürdü. Almaniyanın kömür ehtiyatlarının 72%-i, çuqun və polad ehtiyatının 50%-i Fransa və Belçika qoşunlarının soxulduğu Rur hövzəsində idi. Almaniya ciddi maliyyə və iqtisadi böhranla qarşılaşdı. Əgər 1919-cu ildə Almaniyada bir dollar on dörd marka təşkil edirdisə, 1923-cü ildə bir dollar yüz doqquz min markaya bərabər idi. Almaniya hökumətinin bu ağır vəziyyəti İngiltərə və ABŞ hökumətinin ciddi narahatlığına səbəb oldu və onların ciddi təzyiqi nəticəsində Fransa və Belçika qoşunları 1923-cü ilin sonunda Almaniya ərazisini tərk etdilər. 1923-cü ilin avqustunda Kuno hökuməti istefa verdi və hökumətə Almaniya xalq partiyasının lideri olan Ştrezeman



başçılıq etməyə başladı. 1923-cü ilin dekabrında katolik mərkəz partiyasından olan Vilhelm Marks «Kiçik koalisiya hökuməti» təşkil etdi. 1923-cü ilin dekabrından 1924-cü ilin fevralınadək 75 fövqaladə qanun qəbul edildi. Mühasirə vəziyyəti ləğv edildi. Kommunist partiyası açıq fəaliyyətə keçdi. «Rentabelli iqtisadiyyata keçid proqramı» elan edildi. İş günü 9-12 saata çatdırıldı. İşsizləri işlə təmin etmək üçün yeni iş yerləri açıldı. Əlillərə pensiya verildi. Müharibədə ziyan çəkmiş müəssisələr kompensasiya aldılar.

1924-cü ilin əvvəllərindən isə hökumətə sosial-demokrat Lüter başçılıq etdi. 1923-cü ildə Almaniyanın Saksoniya, Bavariya, Trungiya torpaqlarında xalq hərəkatı güclənhdi. Hətta Hamburqda üsyan baş verdi. Bu vəziyyətdən istifadə edən faşistlər yenidən fəallaşdılar. 1923-cü ilin noyabrın 8-də Münxendə pivəxanalardan birində Hitlerin başçılıq etdiyi faşistlər qiyam təşkil etmək haqqında qərar qəbul etdilər. Lakin məğlub oldular. Bu qiyam tarixə «pivəxana qiyamı» kimi daxil oldu. Hitler isə beşillik həbs cəzasına məhkum edildi, lakin cəmi 6 ay yatdı. Bu müddətdə silahdaşları Moris və Gessə «Mənim mübarizəm» kitabını diktə edib yazdırdı. Faşistlər ona görə hakimiyyətə gələ bilmədilər ki, o dövrdə Almaniya burjuaziyasının faşistlərə ehtiyacı yox idi. Alman sosial demokratları burjuaziyaya hakimiyyətlərini gücləndirməkdə kömək edirdi. Sosial-demokratlar xalqı inandırırdılar ki, sosial islahatlar yolu ilə fəhlə sinfinin vəziyyətini yaxşılaşdırmaq mümkündür.

### *Almaniya kapitalizmin nisbi sabitləşməsi dövründə*

1923-cü ilin sonunda Almaniya iqtisadi və maliyyə böhranından ilk növbədə ABŞ və İngiltərə hökumətlərinin verdiyi kreditlər hesabına çıxa bildi və 1924-cü ildə kapitalizmin nisbi sabitləşməsi dövrünə qədəm qoydu. Bu proses 1929-cu ilə

qədər davam etdi və bu dövr Almaniya tarixinə «qızıl dövr» kimi daxil oldu.

1924-cü ilin avqustunda təzminat məsələsi ilə əlaqədar olaraq, böyük dövlətlərin Londonda xüsusi konfransı toplandı. Həmin konfransda ABŞ-ın məşhur ekspertlərindən Daues xüsusi plan irəli sürdü və bu plan tarixə «Daues planı» kimi daxil oldu. O, təklif edirdi ki, Almaniyadan təzminat onun təsərrüfatı bərpa edilə-edilə alınsın. Bu təzminat 1924-cü ildə 1 mlrd.-dan 1929-cu ilə qədər 2,5 mlrd. markaya qədər artırılsın. Həmin plan London konfransında təsdiq edildi. Plana görə ABŞ elə 1924-cü ildə Almaniyaya 800 mln marka kredit verdi. 1924-26-cı illərdə isə bu kreditin miqdarı 5 mlrd marka oldu. Almaniya xarici dövlətlərdən istiqraz aldı. ABŞ-ın Almaniyanın təsərrüfatını dirçəltməkdə məqsədi Almaniyanı Avropada Sovet Rusiyasına qarşı dura biləcək güclü dövlətə çevirmək və ondan Sovet Rusiyasına qarşı bir sipər kimi istifadə etmək idi. Almaniya təzminatı əhalidən alınan birbaşa və dolayı vergilər, dəmir yollarının istismarından gələn gəlirlər və zəhmətkeşlərin istismar edilməsi hesabına verməli idi.

ABŞ və İngiltərə imperialistləri Almaniyaya qoyduqları kapitalın müqabilində yüksək gəlir götürməklə yanaşı, Almaniyanın hərbi-sənaye potensialının bərpa olunmasına kömək edirdilər. Alman inhisarları üçün əlverişli olan təzminat məsələsinin həlli də bu planlara cavab verirdi. 1924-1929-cu illərdə təzminat kimi 11 milyard marka ödəyən Almaniya iqtisadiyyatını dirçəltmək üçün isə 26 mlrd marka məbləğində ABŞ və İngiltərədən birbaşa kapital qoyuluşu və istiqrazlar almışdı. Alman imperialistləri «Dranq Nax Osten» («Şərqə hücum») planlarının həyata keçirilməsinə qayıtmaq niyyətində idilər.

Almaniya tezliklə verilən istiqrazlar hesabına öz təsərrüfatını bərpa etməyə başladı. 1927-ci ildə sənaye istehsalına görə 1913-cü il səviyyəsinə çatdı. Bir sıra sahələr üzrə İngiltərə və



Fransanı ötüb keçdi. Sənaye məhsulunun həcminə görə Avropada birinci yerə çıxdı.

1924-29-cu ildə Almaniyada «İq-Farbenindustri», həmçinin, «Polad tresti» kimi yeni inhisarlar yaradıldı. Almaniyada bu dövrdə ABŞ kapitalının köməyi ilə hərbi sənaye inkişaf etdi. Alman inhisarçıları həmçinin Hollandiya, İspaniya, İsveçrədə də hərbi məhsullar istehsal edən sənaye müəssisələri inşa etdirdilər. Almaniyada bu dövrdə 2100 kartel var idi.

1925-ci iln aprelində Almaniyanın prezidenti Ebert vəfat etdi. Prezident seçkilərində sosial-demokratlardan Bauer, kommunistlərdən Ernest Telman, Katolik Mərkəz partiyasından Marks öz namizədliyini irəli sürsə də, prezident feldmarşal Hindenburq seçildi. Onun seçilməsi monarxist dairələrin fəallaşmasına səbəb oldu. Hindenburqun seçilməsi ilə bütün monarxiya tərəfdarları, o cümlədən, kilsə xadimləri və yüksək hərbi dairələrin burjua demokratiyasını məhdudlaşdırmaq və Birinci dünya müharibəsindəki itkinin əvəzini çıxmağa çalışmaq səyləri meydana çıxdı. Keçmiş malikanə knyazları inqilab vaxtı onlardan alınmış malikanələr, meşələr və banklarının geri qaytarılmasını və ya əvəzinin ödənilməsini tələb etdilər. Bunların dəyəri 3 mlrd markaya yaxın idi. 1926-cı ilin iyulunda bu məsələ ilə əlaqədar keçirilmiş referendumda 14,5 milyon seçici (onların ümumi sayının 38%-i) knyaz mülklərinin tamamilə müsadirə edilməsinə səs verdi. Referendum sol qüvvələrin birgə fəaliyyətinin böyük imkanlarını göstərdi.

1928-ci ildə Almaniyada keçirilən parlament seçkilərində yenidən sosial-demokratlar qələbə çaldılar və German Müllerin başçılığı ilə «böyük koalisiya hökuməti» adlanan hökumət təşkil edildi. Onun belə adlanmasının səbəbi bu hökumətin tərkibində sosial-demokratlardan başqa dörd burjua partiyasının nümayəndələrinin də olması idi. Müller hökuməti müharibədən sonra ilk dəfə «Doyçland» tipli linkorların inşası haq-

qında qərar qəbul etdi və Almaniyanın hərbi-sənaye potensialının təkmilləşdirilməsini davam etdirdi.

Almaniyanın dirçəldilməsi məqsədilə 1929-cu ilin avqustunda Haaqada olan beynəlxalq konfransda ABŞ bankiri Yunqun təklifi ilə yeni plan irəli sürüldü. Həmin plana görə Almaniya 114 mlrd marka məbləğində təzminatı 59 il ərzində ödəməli idi. Yaxın 37 il ərzində onun 2 milyard marka təzminat ödəməsi müəyyənləşdirildi. Həmçinin Yunq planına əsasən alman iqtisadiyyatı üzərində qalib dövlətlərin nəzarəti götürüldü, sənayedən gələn gəlirin hesablanması təxirə salındı, işğalçı qoşunlar Reyn əyalətindən çıxarıldı. Bütün bu güzəştlər isə alman inhisarçı kapitalını gücləndirdi.

Kapitalizmin nisbi sabitləşməsi dövründə Almaniyanın xarici siyasətində Versal sülhünün şərtlərinin bir qədər yumşaldılması mühüm yer tuturdu. 1925-ci ilin oktyabrın 5-16-da çağırılmış Lokarno konfransında Almaniya yenə də bərabər hüquqlu dövlət kimi tanındı və həmin konfransda ilk dəfə olaraq İngiltərə və Fransa Versal müqaviləsinin ədalətsiz olduğunu etiraf etməli oldular. Konfransda yekun aktı olaraq Almaniya, Belçika, Fransa, Böyük Britaniya və İtaliya arasında təminat müqaviləsi imzalandı. Bu müqavilə tarixə «Reyn təminat paktı» kimi düşdü. Bu pakta görə bu sənədi imzalayan dövlətlər Versal sülhü ilə müəyyən edilmiş ərazilərdə status-kvoya hörmət edəcəklərini bildirir, bir-birinə qarşı silah işlətməkdən imtina edir və sərhədlərin toxunulmazılığına dair öhdəlik götürürdülər. 1926-cı ilin aprelində Almaniya ilə SSRİ arasında bir-birinə hücum etməmək haqqında müqavilə bağlandı. 1926-cı ilin sentyabrında Almaniya Millətlər cəmiyyətinə daxil edildi.



### *Almaniya 1929-1933-cü illər dünya iqtisadi böhranı illərində*

1929-cu ilin oktyabrında ABŞ-da başlanan dünya iqtisadi böhranı Almaniyaya daha ağır təsir etdi. Çünki, bir tərəfdən böhranın yaratdığı çətinliklər, digər tərəfdən ABŞ və İngiltərənin ona verdiyi kreditləri dayandırması, həm də Almaniyanın təzminat verməsi vəziyyəti daha da mürəkkəbləşdirirdi. 1929-1933-cü illərdə ölkədə istehsal vasitələri istehsalı 60% azaldı. İşsizlərin sayı 6 milyonu ötüb keçdi. 1932-ci il Almaniyada 2600 işsizlər komitəsi fəaliyyət göstərirdi. İdxal və ixrac 2 dəfədən çox ixtisar edildi. 1931-ci ildə Almaniya bildirdi ki, o, təzminatı ödəmək iqtidarında deyildir. ABŞ prezidenti Huverin təklifi ilə Almaniyadan bir il müddətində təzminat alınması təxirə salındı. 1932-ci ilin iyulunda Lozannada çağrılmış konfransda isə Almaniyadan təzminat alınmaması haqqında qərar qəbul edildi. Almaniyadan bu vaxtdan etibarən təzminat alınmadı.

1929-cu ildən başlanan dünya iqtisadı böhranından həm yuxarı, həm də aşağı dairələr çıxış yolu axtarmağa başladılar. Yaranmış bu şəraitdən bu illər ərzində heç bir siyasi qüvvəyə malik olmayan faşistlər çox məharətlə istifadə etdilər və xalqı öz tərəflərinə çəkməyi bacardılar. Onlar öz təbliğatlarına xırda burjuaziyanın müflisləşdiyi, işsizliyin kütləvi hal aldığı, insanların siyasi istiqamətlərini itirdikləri bir şəraitdə başladılar. Onların xalqı inandıra bilmələrinin səbəbi isə böhrandan çıxmaq və xalqın vəziyyətini yaxşılaşdırmaq yollarını göstərməsi idi. Faşist partiyasının proqramında göstərilirdi ki, nasist diktaturasının yaradılması Versal müqaviləsi buxovlarından xilas olmaq, böhrandan qurtarmağın yeganə yoludur. Onların şüarı "Məhv olsun Versal!" idi. Onlar göstərdilər ki, dövlət ilk növbədə qadınların və gənclərin qayğısına qalmalıdır. Faşistlərə münasibətdə iri inhisarçılar və maliyyə maqnatları əvvəllər tərəddüd edirdilər. Lakin 1932-ci ilin yanvarında Dyusseldorfda olan yığıncaqda Hitler bildirdi

ki, o, xüsusi mülkiyyətə toxunmayacaq. Nasistlər Almaniyanın xilas yolunu xərçəng xəstəliyinə bənzəyən demokratiya və marksizmi məhv etməkdə, alman xalqı üçün “yeni həyat sahəsi” əldə etməkdə görürdülər. Nasisitlərin proqramları Nitsenin fəlsəfəsindən qidalanırdı. Bu fəlsəfəyə görə həyat güclülərin olmalı idi. Güclülər Nitsenin fikrincə, həmişə qalibdirlər və onlar ağalıq etmək üçün doğulmuşlar. Faşistlər şovinizmi və irqçiliyi təbliğ edir və almanların ari irqindən olduğunu, sinfi bölgüyə yabançı olduğunu göstərirdilər. Faşistlərin emblemi də arilərin özləri üçün götürdüyü emblemə bənzəyirdi. Bu emblem kəllə sümüyündən və çarpazlaşmış sümüklərdən təşkil edilmişdi. Faşistlər həyatda xoşbəxt olmaq üçün zorakılığı əsas vasitə kimi götürürdülər. Onlar polukpatiya və yəhudilərin kapitalı ilə qurtarmağı, trestlər üzərində nəzarət təşkil etməyi, universal mağazaları bağlamağı, işsizliyi ləğv etməyi, aqrar islahat keçirməyi vəd edirdilər. Onlar həmçinin almanların "həyat sahəsini" genişləndirməyi vəd edirdilər. Nasist başçıları "yeni qayda" yaratmağı öz məqsədləri elan edirdilər ki, bu qaydaya görə bir qisim xalqları qırmaq, başqalarını tabe etməklə "təmiz arilərin hökmranlığı" qurulmalı idi. Onlar almanlara təlqin edirdilər ki, sosial-iqtisadi probelmləri «daxili düşmənlərin» – kommunistlərin və başqa antifaşistlərin məhv edilməsi və Sovet İttifaqına qarşı müharibə aparılması yolu ilə həll etmək olar. SSRİ-nin ərazisini, slavyan xalqlarının məskunlaşdığı torpaqları hitlerçilər özlərinin "ömürlük boş" torpaqları elan etmişdilər.

Nasistlər insan şəxsiyyətinə hər cür hörməti inkar edir, qəddarlığa və zorakılığa pərəstişi yayırdılar. Nasist təbliğatına uyan təbəqələr – yəni sənətkarlar, kəndlilər, müharibə veteranları, işsizlər, kapittalın nüfuzlu dairələri, demokratiyadan yorulmuş gənclər, Veymar respublikasından narazı olan sənayeçilər, bankirlər və hərbi bürokratiya onları müdafiə edirdilər. Nasistlər göstərirdilər ki, məqsədə çatmaq üçün hər cür vasitə



yaxşıdır. Onlar belə ideya irəli sürürdülər ki, alman xalqı bütün dünyaya ağalıq etmək üçün yaranmışdır. Onlar minillik quldarlıq quruluşu yaratmaq, bu quruluşda almanları, ağa, yerdə qalan xalqları qul etmək fikrində idilər. Faşizmin prinsipləri belə ifadə olunurdu. Güclü vahid dövlət, güclü vahid millət, güclü vahid rəhbər.

Müllerin «böyük koalisiya» hökumətini 1930-cu ilin martında prezidentin sərəncamı ilə Mərkəz partiyasından olan Brüninqin koalision hökuməti əvəz etdi. Bu vaxtdan Almaniyada demokratik rejimdən avtoritar rejimə keçidin əsası qoyulmuş oldu. Brüninq hökuməti əmək haqqını aşağı saldı, işsizliyə görə verilən müavinəti azaltdı, vergiləri artırdı. 1932-ci ilin iyununda Brüninqi əvvəlcə fon Papen, dekabrda isə Şlyayxer əvəz etdilər ki, onlar da Hitlerin hakimiyyətə gəlməsi üçün yol açmış oldular. 1932-ci ildə fon Papen xüsusi dekretlə sahibkarlara icazə verdi ki, onlar fəhlə və qulluqçuların əmək haqlarını aşağı salsınlar. Şlyayxer öz hökumətini «milli həmrəylik hökuməti» adlandırdı. Böhran illərində faşistlərin nüfuzu xeyli artdı. Belə ki, onlar 1928-ci il seçkilərində cəmi 800 min, 1930-cu il seçkilərində 6,4 milyon səs almışdılarsa, 1932-ci ilin iyun seçkilərində isə 13,7 milyon səs aldılar. Lakin fon Panen hökumətinin fəaliyyəti faşistlərin nüfuzuna xeyli xələl gətirdi. Belə ki, 1932-ci ilin noyabrında reyxstaqa keçirilən seçkilərdə nasistlər 2 milyon səs itirdilər. Bu hadisə alman inhisarçı burjuaziyasını və yunkerləri narahat etdi və onlar kütlələrin inqilabi hərəkatından qorxaraq faşistləri hakimiyyətə gətirməyə tələsdilər. Y.Şaxtın təşəbbüsü ilə bir qrup iri burjuaziyanın adından prezident Hündenburqa 1932-ci ilin noyabrın 19-da belə bir tələb göndərildi ki, A.Hitler reyxkansler təyin edilsin və yeni hökumətin tərkibinə faşistlər daxil edilsin. Prezident hakim sinfin iradəsini yerinə yetirərək 1933-cü ilin yanvar ayının 30-da A.Hitleri alman hökumətinin başçısı təyin etdi. Yeni hökumət formal olaraq koalision

adlansa da, əslində orada əksəriyyəti faşistlər təşkil etdilər. Hitlerin "Milli həmrəylik" adlandırdığı hökumətin tərkibində mərkəzçilər və mühafizəkarlardan da nümayəndələr var idi.

### *Almaniyada faşist diktaturası dövründə daxili siyasət*

Versal müqaviləsinin alçaldıcı şərtləri Almaniyada şovinizmin təbliğatının genişlənməsinə imkan verdi. Almaniyada faşistlər kutləvi sosial bazaya malik olmağı bacardılar. Bunun əsas səbəbi fəhlələr, kəndlilər və burjuaziyanın səbatsız ünsürlərinin onun dalınca getməsi idi. Faşistlər siyasi cərəyana çevrildilər. Almaniyanın iri maliyyə dairələri faşistləri maliyyə cəhətdən təmin etdilər. Əslində Almaniyada yaranan faşist diktaturası da iri maliyyə maqnatlarının diktaturasından başqa bir şey deyildi. Almaniyada fəhlə sinfinin parçalanması, xüsusilə komunistlərin sosial-demokratları «nasistlərin mötədil qanadı» adlandırması da bu məsələdə mühüm rol oynadı. Nasional-sosialistlərin gəncləri müdafiə edərək özlərinə onların simasında güclü dayaq yaratmaları, hələ 20-ci illərdə partiya işini yenidən qurmaları, 1928-ci ildə partiyanın ərazi təşkilatlarını yaratmaları, nəinki regionlarda, hətta küçə və məhəllələrdə də partiya özəkləri qurmaları, "pivəxana qiyamı"ndan sonra seçki yolu ilə hakimiyyətə gəlməyə üstünlük vermələri və bu sahədə təbliğatı genişləndirmələri də onların qələbəsinə imkan yaradan mühüm amillər idi. Dindarlar da nasional-sosialistləri müdafiə etdilər. Almaniyada nasional-sosialistlərin əleyhinə olan qüvvələr zəif idi. Beynəlxalq vəziyyət, ABŞ-ın bu məsələdə bitərəf mövqeyi və Avropada formalaşmış ictimai rəy də nasional-sosalistlərin xeyrinə oldu.

1933-cü yanvarın 30-da Almaniyada faşist partiyasının hakimiyyətə gəlməsi ilə Veymar konstitusiyasının demontajı başladı. Ümumiyyətlə, Almaniyada Veymar konstitusiyası və Respublikası 1933-cü ilin yanvarına qədər qüvvədə qaldı. Faşistlər hakimiyyət başına gəldikdən dərhal sonra demokratik



azadlıqlar üzərinə hücumə keçdilər. Onlar ölkədə demokratik azadlıqları ləğv etməyə və siyasi rəqiblərinə qarşı açıqca terrora başladılar. Onlar öz hərəkətlərinə haqq qazandırmaq üçün 1933-cü il fevralın 27-də Reyxstaqı yandırıb onun təqsirini kommunistlərin üstünə yıxdılar. 1933-cü il fevralın 28-də Hitlerin tələbi ilə Hindenburq "xalqı və dövləti müdafiə etmək" adlı fövqaladə fərman imzaladı ki, bu fərmana əsasən Veymar konstitusiyasının müəyyən etdiyi bütün azadlıqlar ləğv edildi. Əslində Veymar konstitusiyası qüvvədən düşmüş oldu. 1933-cü il martın 5-də yeni növbədənkənar parlament seçkiləri təşkil edildi. Martın 5-də keçirilən seçkilərdə kommunistlər – 5, burjua partiyaları 9, sosial demokratiklər 7 milyondan çox, faşistlər isə 17,5 milyon səs aldılar. Bu hadisə faşistlər tərəfindən "milli inqilab" adlandırıldı. Bu hadisədən sonra faşistlər unifikasiya, yəni vahid şəklə salma siyasəti yeritməyə başladılar. 1933-cü il martın 14-də kommunist partiyasının fəaliyyəti qadağan edildi və onun 81 mandat yeri ləğv edildi. 1933-cü ilin mayında həmkarlar ittifaqının fəaliyyəti dayandırıldı. Fəhlələr məcburi surətdə faşist Leyin başçılıq etdiyi "Əmək cəbhəsi"ndə birləşməli idilər. 18 yaşdan 25 yaşa qədər olan gənclər üçün ikiillik əmək mükəlləfiyyəti tətbiq edildi. Bu müddətdə onları hərbiləşdirilmiş düşərgələrdə saxlayır, istehkamlarda, yollarda və s. tikintilərdə işlədirdilər. Əmək düşərgələrinin yaradılması işsizliyin bir qədər azalmasına gətirib çıxardı və hitlerçilərə gənclərin bir hissəsinə siyasi təsir göstərmək imkanı asanlaşdı. 1933-cü il iyunun 23-də sosial-demokrat, iyulun 24-də isə faşist partiyasından başqa bütün siyasi partiyaların fəaliyyəti qadağan edildi. Ölkədə ancaq Almaniya nasional-sosialist fəhlə partiyasının fəaliyyəti saxlanıldı. Bu ölkədə totalitar rejimin yaranması demək idi.

1933-cü ilin yazı və yayında faşist idarə üsulunun formalaşması əsasən başa çatdı. Hökumət, şəxsən Hitler qanun vermək hüququ aldı. 1933-cü ilin martında federal dövlətin

tərkibinə daxil olan alman torpaqlarının muxtariyyəti ləğv edildi. Torpaqlara faşist canişinləri başçılıq etməyə başladılar ki, onlar da qaulyayterlər adlanırdı.

1933-cü ildə faşistlər xüsusi mühafizə dəstələri yaratdılar ki, bu da eseslər adlanırdı. Bu mühafizə dəstələrinin rəhbəri Gimmel idi. Bundan başqa gizli polis dəstəsi yaradıldı ki, bu da gestapo adlandı. Gestaponun kadrları eseslərin tərkibindən seçilirdi. Gestaponun rəhbəri Göbbels təyin edildi. Bütün bu tədbirlər Hitlerin tərəfdarlarının bir hissəsində məyusluq hissi doğurdu. Lakin Hitler asanlıqla onların öhdəsindən gəlməyi bacardı. 1934-cü il iyunun 30-u Almaniya tarixinə "uzun bıçaqlar gecəsi" kimi daxil oldu. Həmin gecə Almaniyanın bir sıra şəhərlərində – Berlin, Münhen, Breslau və digərlərində, həmçinin Lüxtenburq həbsxanasında müxalifət üzərinə amansızlıqla hücuma keçildi. Bir gecədə 1000-ə qədər adam həlak oldu. Hitler müxalifətə elə bir dərs verdi ki, bu hadisədən sonra heç kim ona qarşı çıxmağa cəsarət etmədi. Bu hadisədən sonra SA adlanan və hələ 1931-ci ildə yaradılmış hücumçu dəstələrin nüfuzu düşdü. Eseslərin nüfuzu artdı. 1934-cü ilin avqust ayının 2-də prezident Hindenburqun ölümündən sonra Hitler prezident və kansler vəzifələrini birləşdirərək özünü alman millətinin "fürer"i adlandırdı. Reyxstaq və landtaq torpağa gömüldü və heç bir təsirə malik olmadı.

Faşistlər hakimiyyətə gəldikdən sonra yəhudilər üzərinə hücuma keçdilər. 1933-cü ildə yəhudilərin müəssisələri baykot edilməyə başlandı. 1935-ci ildə onları alman vətəndaşlığından məhrum edən və onların dövlət aparatında hər hansı vəzifə tutmalarını qadağan edən bir sıra qanunlar verildi. 1938-ci ilin noyabrın 9-dan 10-a keçən gecə yəhudi qırğını təşkil edildi (bu «büllur gecə» əməliyyatı adlanır). Almanlar marksizm-leninizm klassiklərinin bütün əsərlərini küçələrə tökərək yandırmağa başladılar. "Hayl Hitler" salamlaşma formasına çevrildi. Onlar güclü təbliğat maşınından da istifadə edirdilər.



Alman faşizmi yüksək inkişaf etmiş kapitalist ölkəsində hakimiyyət başına gəlmişdi. Hitler diktaturası inhisarçı kapitalizmin sosial-siyasi əsasları üzərində quruldu və tezliklə iqtisadiyyatın dövlət tərəfindən tənzim edilməsi tədbirləri sistemini işləyib hazırladı. Bu məqsədlə Almaniyada 18-ə qədər inhisarı birləşdirən Alman təsərrüfat baş şurası təşkil edildi.

1934-cü ilin fevralın 27-də "Alman iqtisadiyyatının üzvü qurulmasına hazırlıq haqqında" qanun qəbul edildi. Yenidənqurma işləri beş əsas istiqamətdə getməyə başladı: 1) hərbi xammal bazalarının yaradılması, 2) hərbi sənayenin sürətlə inkişaf etdirilməsi, 3) Əmək ehtiyatlarının yaradılması, 4) ərzaq bazalarının yaradılması, 5) bütün ölkəni tənzimedən və hərbiləşdirən orqanların yaradılması.

1936-cı ilin sentyabrında Nürnberqdə Alman nasional-sosialist fəhlə partiyasının qurultayında dördillik plan qəbul edildi ki, bundan da məqsəd alman iqtisadiyyatını müharibəyə hazırlamaq idi. İ.Gerinqin başçılığı altında iqtisadiyyatın tənzimlənməsinin yeni sistemi təşkil edildi.

Bütün ölkənin iqtisadiyyatında "fürerçilik" sistemi tətbiq olundu. Müəssisə və sənaye sahələrinin başında duran kapitalistlər "fürer" elan edildilər və müvafiq dərəcələrə bölünərək dövlət hakimiyyətinin nümayəndəsi səlahiyyətini aldılar. Nasist başçıları ən iri konsernlərin səhmlərinin sahibləri oldular. Beləliklə, inhisarların gücü faşist dövlətinin gücü ilə birləşdirildi. Hitler Almaniyasında dövlət-inhisarçı kaptalizminin əsas xüsusiyyəti müharibəyə hazırlıq məqsədi ilə dövlət tərəfindən bütün iqtisadiyyatın ümumi nizamlanması oldu. 1934-cü ildə verilən «Milli əməyin nizama salınması haqqında» qanuna əsasən bütün müəssisələrdə Alman nasional-sosialist fəhlə partiyasının özəkləri yaradılmış oldu. 1932-ci ildə əgər hərbi xərclər büdcənin 7%-ni təşkil edirdisə,1938-ci ildə bu rəqəm 32% oldu. 1933-1939-cu illərdə hərbiyə 90 milyard marka pul xərcləndi.

Ümumiyyətlə, Almaniya 1939-cu ildə dünya sənaye məhsulunun 15%-ni verirdi və ABŞ-dan sonra kapitalist ölkələr içərisində ikinci yeri, Avropada isə birinci yeri tutdu.

Gənclərin böyük bir hissəsi "Hitlerçi gənclər", "Gənc millət", "Alman qızları ittifaqı" və başqa təşkilatlara daxil olaraq əxlaqın və vicdanın mənasızlığı, "böyük reyxin" mənafeyi naminə hər cür zorakılığa yol verilməsi haqqında faşist nəzəriyyəsini mənimsəyirdilər.

Hitlerçilər kollektiv müqavilələr sistemini ləğv etdilər, fabrik-zavod komitələrini dağıtdılar. Fəhlələrə iş yerini dəyişmək qadağan olunurdu, sahibkarlar iş gününü 14 saata qədər uzatmaq hüququ alırdılar. İnhisarların möhkəmlənməsi xırda və orta sahibkarların kütləvi surətdə yoxsullaşmasına gətirib çıxartdı. "İrqi" yoxlanışdan sonra onların bəzilərinə dövlət və ya partiya aparatında sərfəli yer verilirdi.

Görülən bütün tədbirlər nəticəsində Almaniyada həm faşist partiyası üzvlərinin sayı, həm də fəhlələrin sayı artdı. 1930-cu ildə faşist partiyası üzvlərinin sayı cəmi 130 min nəfər idisə, 1933-cü ildə 300 minə, 1939-cu ildə 1 mln, 1945-ci ildə 6 mln-a çatdı. Bu partiyanın üzvlərinin 2/3 hissəsi fəhlələr və xırda burjuaziya, cəmisi 10%-ni isə varlı sinfin nümayəndələri təşkil edirdi. Fəhlə sinfinin sayı 1939-cu ildə 20,8 mln nəfərə yaxın idi ki, onun da 30%-ni qadınlar təşkil edirdi.

Hitlerçilərin aqrar siyasəti iri mülkədar torpaq sahibliyinin və kənd burjuaziyasının müdafiəsində ifadə olunurdu. 1933-cü ilin sentyabrın 29-da verilmiş "İrsi həyətlər" haqqında qanun irsən yalnız böyük oğula keçən orta və iri kəndli təsərrüfatlarının satılmasını və ya parçalanmasını qadağan edirdi. Kənd varlılarının timsalında faşistlər möhkəm dayaq əldə etdilər. Onlar torpaqsız kəndlilərə Şərqdə "daimi baş torpaqlar"ı işğal etdikdə pay torpaqları verməyi vəd edirdilər.



### *Almaniyada faşist diktaturasının xarici siyasəti*

Hitler xarici siyasəti də geopolitik nəzəriyyəyə əsaslanırdı. Burada qarşıya qoyulan məqsəd bioloji dövlət, təbii sərhədlər və optimal coğrafi-iqtisadi rayonlar yaradaraq "yeni dünya qaydası" qurmaq idi. 1933-cü ilin fevralın 1-də verilən dekretdə yaşamaq hüququnun təsdiqi, azadlığın bərpası xarici siyasətin əsas vəzifələri kimi müəyyənləşdirilmişdi. Nasional-sosialist partiyasında yaradılan xarici siyasət şöbəsinə Rozenberq rəhbərlik edirdi. İlk dövrdə Almaniya hökuməti əsas diqqəti Avropa ölkələri ilə ikitərəfli münasibətlərin qurulması və inkişafına yönəltmişdi. 1933-cü ilin fevral-iyul aylarında Cenevrədə keçirilən tərksilaha dair konfransda Almaniya nümayəndə heyəti də iştirak etdi və silahların saxlanması sahəsində digər dövlətlərlə Almaniyanın bərabərliyi prinsipini təklif etdi.

Almaniyada faşist diktaturasının yaradılması ilə Versal-Vaşinqton sistemi iflas etməyə başladı. Almaniyada faşistlər hakimiyyət başına gələn kimi Versal sülhünün şərtlərinin ləğv edilməsini Millətlər cəmiyyətinin qarşısında qoydular. Cəmiyyətin Baş şurası buna qəti etirazını bildirdiyinə görə Almaniya həmin ilin oktyabrın 14-də Millətlər Cəmiyyətindən çıxdığını bildirdi. Hitler 1933-cü il dekabrın 18-də Versal müqaviləsinin bütün hərbi maddələrini ləğv etməyi, alman ordusunun sayını artırmağı, bütün silah növlərinin istehsalının bərpa olunmasını, hərbsizləşdirilmiş Reyn zonasının Almaniyaya verilməsini tələb etdi. Hitlerçilərin səyi nəticəsində Almaniya Avropada müharibə ocağına çevrildi.

1935-cir ildə məcburi hərbi mükəlləfiyyəti bərpa etmək haqqında qanun qəbul olundu. Vermaxt, yəni alman silahlı qüvvələri yaradılmağa başladı. Almaniya Baş qərargahı bərpa olundu. Həmin ildə Almaniya İngiltərə ilə bağladığı sazişə əsasən suüstü və sualtı donanmanın yaradılması işini sürətləndirdi. Hərbi hava qüvvələri təşkil edilməyə başlandı. 1935-ci ilin yanvarında Hitler hökuməti referendum keçirərək Saar vilayətini geri aldı. 1936-cı ildə hərbisizləşdirilmiş Reyn zo-

nasına qoşun yeridərək oranı tutdu. 1936-cı ildə İspaniyada vətəndaş müharibəsi başlanarkən faşistləri müdafiə edərək Frankoya yardım üçün İspaniyaya hərbi müdaxilə etdi. 1936-1937-ci illərdə Almaniya Yaponiya və İtaliya ilə birlikdə antikommintern paktını imzalandı.

1937-ci ilin sonu və 1938-ci ilin əvvəllərində alman rəhbər dairələrində Almaniyanın silahlandırılmasının sürəti, metodları və Qərb dövlətlərinə münasibət məsələsində fikir ayrılığı meydana gəldi. Şaxt, Tissenin rəhbərlik etdiyi bir qrup inhisarçılar göstərirdilər ki, Almaniya hələ müharibəyə hazır deyildir. O, Avropa və Amerika ölkələri ilə iqtisadi əlaqələri davam etdirsin, ixracı artırsın, tam hazırlıqdan sonra müharibəyə başlasın. Digər qrupa Hitler başda olmaqla daxil olan "Farbenindustri", elektrotexnika konserni, Flik, Krupp, Mannesmanın şirkətlərinin nümayəndələri göstərirdilər ki, Almaniya müaribəyə elə indi başlamalıdır. Birincilərin etirazı onların rəhbər vəzifələrdən götürülməsinə səbəb oldu. Belə ki, 1937-ci ilin noyabrında Şaxt təsərrüfat naziri vəzifəsindən istefa verdi. 1938-ci ilin yanvarında Blomberq hərbi nazir, Neyrat xarici işlər naziri, həmin ilin fevralında Fric isə quru qoşunlarının komandanı vəzifəsindən azad edildi. Bu vəzifəyə Hitlerin həmfikirləri təyin edildilər. Hitler özü həm kansler, həm də hərbi nazir oldu, Vermaxın, yəni alman silahlı qüvvələrinin baş komandanı Keytel, Hərbi hava qüvvələrinin baş komandanı Q.Qerinq oldu. Quru qoşunlarının baş komandanı vəzifəsini Brauxic, Təsərrüfat naziri vəzifəsini Funk tutdu. Xarici işlər naziri Ribbentrop təyin edildi.

Hitler 1938-ci ilin martında Avstriyanı dinc yolla – sadəcə bir kağıza imza atdırmaqla III imperiyanın tərkibinə qatdı. Avstriyanı ələ keçirdikdən sonra hitlerçilər üzünü Çexoslovakiyanın Sudet vilayətinə tutdu. Belə bir bəhanə irəli sürüldü ki, Sudet vilayətinin əhalisinin əksəriyyəti almanlardır və onlar Çexoslavakiyada milli zülmə məruz qalırlar. Almaniyanın



«sakitləşdirilməsi» siyasətinin tərəfdarı olan İngiltərə və Fransa 1938-ci ilin sentyabrın 29-30-da Münhendə Sudet vilayətinin Almaniyaya birləşməsinə tərəfdar oldular. İngiltərə və Fransanın biganəliyini görən Hitler 1939-cu ilin martında tərtib etdiyi "Yaşıl" plana əsasən Çexoslavakiyanı işğal etdi. Slovakiya "müstəqil dövlət" elan edildi və Almaniyanın satilletinə, yəni əlaltısı olan dövlətə çevrildi. 1939-cu ildə artıq Almaniya ayrı-ayrı ölkələri işğal etmək üçün hərbi planlar işləyib hazırladı. O, Polşa üçün "Vays", Skandinaviya ölkələri üçün "Vezerdə təlim", Fransa üçün "Sarı", İngiltərə üçün "Dəniz şiri", İspaniya üçün "İzabella" planını tərtib etdi.

1939-cu ilin aprelində Almaniya Litvadan Klaypedi, Polşadan Odanski tələb etdi. Birinci istəyinə nail oldu, Klaypedi götürdü, lakin Polşa hökuməti Qdanski verməkdən imtina etdi. Polşa ona arxalanırdı ki, Fransa və İngiltərə onun təhlükəsizliyi üçün təminat veriblər. 1939-cu ilin mayında Mussolini ilə Hitler arasındakı danışıqlar nəticəsində Almaniya ilə İtaliya arasında «polad» və ya «möhkəm pakt» bağlandı.

1939-cu ilin avqustun 23-də Almaniya SSRİ ilə bir-birinə hücum etməmək haqqında on illik müqavilə bağladı. Bu müqavilənin gizli protokolunda Polşa və Pribaltikanın Almaniya və SSRİ arasında təsir dairələrinə bölünməsi öz əksini tapdı.

1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücumu ilə ikinci qrupun ideyası reallaşdı. Birinci dünya müharibəsi kimi İkinci Dünya müharibəsi də Almaniya tərəfindən başlanmış oldu.

# V. RUSİYA (1922-Cİ İLDƏN SSRİ)

## *Rusiya Fevral burjua-demokratik inqilabından və oktyabr çevrilişindən sonrakı ilk dövrdə (1917-1918-ci illər)*

XX əsrin əvvəllərində Rusiya da digər kapitalist ölkələri kimi imperializmə qədəm qoymasına baxmayaraq, Avropanın qabaqcıl ölkələri və ABŞ-dan iqtisadi inkişaf səviyyəsinə görə xeyli geridə qalırdı. Rusiya sənaye məhsulları istehsalına görə 1913-cü ildə ABŞ-dan 8 dəfə, İngiltərədən 4,6 dəfə, Almaniyadan 6 dəfə, adambaşına düşən sənaye məhsulları istehsalına görə isə ABŞ-dan və İngiltərədən 14 dəfə, Almaniyadan isə 13 dəfə geridə qalırdı. 1917-ci ildə Rusiyada 150-yə qədər inhisar birliyi var idi ki, bunun ən çoxu sindikatlar idi. Rusiyada dağ-mədən və metal emalı sənayesinin yarıdan çoxu, energetika sənayesinin 75%-i, Donbasın kömür şaxtalarının 70%-i, Krivoyroqdakı dəmir filizinin 87%-i xarici kapitalistlərin əlində idi. Ölkədə neft hasilatının yarıya qədərini xarici kapitalistlərə məxsus müəssisələr verirdi. Bu geriliyin əsas səbəbi siyasətdə çarizmin, iqtisadiyyatda isə mülkədar torpaq sahibliyinin Rusiyada mövcud olması idi. 1905-1907-ci illər Rusiya inqilabı çarizmi və mülkədar torpaq sahibliyini ləğv etməyi qarşısına məqsəd qoysa da, buna nail ola bilmədi.

Rusiya xalqlar həbsxanası idi. Çarizm "Parçala və hökmranlıq et" siyasətini davam etdirməkdə idi. Rus imperializmi hərbi-feodal xarakteri daşımaqla bərabər həm də xaici kapitaldan asılı idi. Rusiyada kəndlilərin çoxu aztorpaqlı idi. Belə ki, 30 min mülkədarın 70 milyon desyatin torpağı, 10 milyona yaxın kəndlinin də təxminən o qədər torpağı var idi.

Birinci dünya müharibəsi Rusiyada inqilabı yetişdirmiş oldu və 1917-ci il fevralın 27-də 304 il hökmranlıq etmiş Romanovlar sülaləsi devrildi. Lakin Rusiyada inqilabın əsas məsələsi olan hakimiyyət məsələsi başqa ölkələrdən fərqli olaraq xüsusi tərzdə həll edildi. Rusiyada xırda burjuaziyanın çoxluğu,



fəhlə sinfinin isə əhalinin cəmi 10%-ni, yəni 16 mln nəfərini təşkil etməsi, Rusiyada ikihakimiyyətliyin yaranmasına səbəb oldu. Bu hakimiyyətlərdən biri 1917-ci ilin martın 2-də knyaz Lvovun sədrliyi ilə yaranmış müvəqqəti hökumət, digəri isə fəhlə və əsgər deputatları soveti idi. Müvəqqəti hökumətin sosial dayağını burjuaziya və burjualaşmış mülkədarlar, sovetlərin sosial dayağını isə fəhlələr və əsgər şineli geymiş kəndlilər təşkil edirdi. Müvəqqəti hökumətin xarici işlər naziri Milyukov, hərbi naziri Quçkov, torpaq naziri Şinqaryov, ədliyyə naziri Kerenski oldu. 1917-ci ilin iyulundan isə hökumətə Kerenski başçılıq etməyə başladı.

Rəsmi hakimiyyət müvəqqəti hökumətə, real hakimiyyət isə sovetlərə məxsus idi. 1917-ci ilin Fevral inqilabından sonra Rusiya dünyada ən demokratik ölkə oldu. O zaman Rusiyada 70-ə qədər partiya vardı ki, onlardan 39-u iri burjua partiyası idi və onlar leqal fəaliyyət göstərməyə başladılar. Kütlələr üzərində heç bir zorakılıq yox idi. Ona görə də Fevral inqilabı ərəfəsində cəmisi 24 min üzvü olan bolşeviklər partiyası hakimiyyətin dinc yolla sovetlərə keçməsi şüarını irəli sürdü. Bolşeviklər belə hesab edirdilər ki, sovetlərə seçkilər zamanı eser və menşeviklərin sayı azalar, bolşeviklərin sayı çoxalar və nəticədə hakimiyyət bolşevikləşmiş sovetlərin əlinə dinc yolla keçə bilər. "Bütün hakimiyyət sovetlərə" şüarı 1917-ci il avqustun 31-nə qədər dinc yolla bolşeviklərin qələbəsini nəzərdə tuturdu. Lakin 1917-ci ilin avqustun 25-31-i arasında baş vermiş və yatırılmış Kornilov qiyamı vəziyyəti dəyişdirdi. Kornilov qiyamının məqsədi dövlət çevrilişi etmək və Rusiyada hərbi diktatura qurmaq idi. Müvəqqəti hökumətin sədri eser Kereniski özü bu qiyama qarşı çıxdı, çünki hakimiyyəti heç kimə vermək istəmirdi. Xalq kütlələri bu qiyamın yatırılmasına nail oldular. Bu hadisədən sonra "Bütün hakimiyyət sovetlərə!" şüarının ikinci mərhələsi – hakimiyyətin silahlı üsyan yolu ilə bolşeviklər tərəfindən ələ alınması mərhələsi başladı. 1917-ci il

sentyabrın 1-də Rusiya respublika elan olundu. Sentyabrın 5-də Rusiyada direktoriya təşkil olundu. Bu dövr ərzində bolşeviklər partiyası öz fəaliyyətini xeyli genişləndirdi. Bolşeviklər partiyasına 1917-ci ilin aprelində İsveçrədən qayıtmış Lenin başçılıq edirdi. Ölkə yenidən ümummilli böhran içərisində idi. Bolşeviklər partiyasının ən uğurlu cəhəti onun kütlələri inandırmağı bacarması idi. Bu partiya Rusiyada o dövrdə fəaliyyət göstərən 70-ə qədər partiya içərisində ən çoxsaylı partiyalardan biri idi.Artıq oktyabr çevrilişi ərəfəsində L.Trotskinin "samuraylar ordusu", Stalinin isə "qılınclılar ordeni" adlandırdığı bolşeviklər partiyası üzvlərinin sayı 350 minə qədər idi. 1917-ci ilin oktyabrın 24-dən 25-ə keçən gecə bolşeviklər ən mühüm strateji nöqtələri Petroqradda ələ aldılar. Oktyabrın 26-da hökumət boşeviklər partiyasının çevrilişə rəhbərlik etmək üçün təşkil etdiyi Hərbi inqilab komitəsinin əlinə keçdi. 1917-ci ilin oktyabr çevrilişinin belə tezliklə qələbə çalmasının əsas səbəblərindən biri rus burjuaziyasının qabaqcıl kapitalist ölkələrinin burjuaziyasından fərqli olaraq siyasi cəhətdən təcrübəsiz, iqtisadi cəhətdən isə zəif olması idi. Burjuaziya Rusiyada siyasi hakimiyyətdə cəmi bir neçə ay olmağı bacardı.

Oktyabr çevrilişi baş verən gün İkinci Ümumrusiya sovetlər qurultayı çağırıldı. Həmin qurultayda hərbi inqilab komitəsi hakimiyyəti sovetlərə verdi. Ümumrusiya ikinci sovetlər qurultayının torpaq haqqında dekretinə əsasən torpaq kəndlilərə verildi. Həmin qurultayın sülh haqqında dekretinə əsasən bütün gizli müqavilələr açıqlandı. Həmçinin ilk dəfə olaraq burada dinc yanaşı yaşamaq prinsipi elan edildi və müharibə edən ölkələrə ilhaqsız, təzminatsız, ədalətli sülh təklif edildi. Lenin ilk sovet hökumətinin – Rusiya Xalq Komissarları Sovetinin sədri təyin edildi. Qanunverici orqan isə Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi, onun sədri isə Sverdlov oldu. Oktyabr çevrilişi baş verəndən dərhal sonra Rusiyada keçmiş



imtiyazların hamısı ləğv edildi. Fəhlələr abad mənzillərə köçürüldü. Bütün vətəndaşların hüquq bərabərliyi elan edildi. 1917-ci ilin oktyabrın 25-dən 1918-ci il martın 3-nə qədər olan dövr Rusiya tarixində “Sovet hakimiyyətinin təntənəsi” dövrü hesab edilir. Çünki bu dövrdə Rusiyanın özündə və bütün müstəmləkələrində sovet hakimiyyəti qələbə çaldı. Sovet hökuməti məzlum xalqları öz tərəfinə çəkmək üçün 1917-ci il noyabrın 2-də «Rusiya xalqının hüquq bəyannaməsi» adlı dekret imzaladı. Həmin sənədə əsasən bütün millətlərin hüquq bərabərliyi elan edildi. Onların ayrılmaq hüququ təsdiqlənir, ayrılmaq istəməyənlərə geniş yerli özünidarə hüququ verilirdi. Məhz həmin sənəd əsasında 1917-ci ilin dekabrında Finlandiya, 1918-ci ilin noyabrında Polşa Rusiyadan ayrıldı və müstəqil dövlətlər oldular. 1918-ci ilin yanvarın 5-də Rusiyada burjua parlamentinin rolunu oynayan Müəssislər məclisi açıldı. Burada Rusiyanın hər yerindən seçilən deputatlar iştirak edirdi. Lakin həmin məclis bolşeviklərin təqdim etdiyi "Zəhmətkeş və istismar olunan xalqın hüquq bəyannaməsi" adlı sənədi qəbul etməkdən imtina etdiyinə görə yanvarın 6-da onun Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsi tərəfindən buraxıldığı elan olundu. 1918-ci ilin yanvarın 15-də vicdan azadlığı haqqında verilən dekretə əsasən əhalinin dini hisslərində sərbəstlik təmin edildi. Həmçinin məktəb kilsədən, dövlət dindən ayrıldı.

Rusiyada sovet hakimiyyətini qoruyub saxlamaq üçün bolşeviklər Almaniya ilə 1918-ci il martın 3-də Brest-Litovsk sülhünü bağladılar və ölkə Birinci dünya müharibəsindən çıxdı. Birinci dünya müharibəsi nəticəsində Rusiyada 2 milyona yaxın insan öldü, 5 milyona yaxını isə yaralandı.1918-ci ilin martında Lenin Rusiyada sovet hakimiyyətinin növbəti vəzifələrini müəyyən etdi. O, göstərdi ki, Rusiyada oktyabr çevrilişindən sonra da mövcud olan aşağıdakı dörd ukladı: natural kəndli təsərrüfatı, xırda əmtəə istehsalı, xüsusi kapitalist

təsərrüfatı, dövlət kapitalizmi ukladını ləğv etmək, sosialist ukladını əvvəl hakim, sonra isə yeganə uklada çevirmək lazımdır.

Sovet hakimiyyətinin qarşısında duran vəzifələrdən biri də iqtisadiyyatı ixtisaslı kadrlarla təmin etmək məsələsi idi. Bolşeviklər özlərinin ixtisaslı kadrları olmadığına görə burjua mütəxəsisslərindən onlara yüksək maaş verməklə istifadə etməyi lazım bildilər. Növbəti vəzifələrdən biri də əmək məhsuldarlığını artırmaq idi. Bunun üçün Rusiyanın həm geniş ərazisi, həm kifayət qədər yeraltı və yerüstü sərvətləri, insan ehtiyatları, həm də insanlarında yüksək yaradıcılıq ehtirasları var idi.

### *Rusiya vətəndaş müharibəsi dövründə (1918-ci ilin mayı – 1920-ci ilin noyabrı)*

1918-ci ilin yazına yaxın Rusiya vətəndaş müharibəsi və xarici hərbi müdaxilə təhlükəsi ilə qarşılaşdı. Rusiyada vətəndaş müharibəsinin və xarici hərbi müdaxilənin baş verməsinin səbəblərindən biri ilk növbədə varlı siniflərin öz hakimiyyət və mülkiyyətlərindən imtina etmək istəməmələri ilə əlaqədar idi. Həmçinin xarici dövlətlərin burada çoxlu müəssisələri vardı ki, onlar bu müəssisələrdən, gələn gəlirlərdən əl çəkmək niyyətində deyildilər. Oktyabr çevrilişindən sonra Rusiyanın 50 milyard rubla qədər daxili və xarici borcları vardı. Bunun 16 milyard rublu xarici borclar idi. Rusiya 1918-ci ilin yanvarında bu borcları verməkdən imtina etdiyini bildirmişdi. Xarici dövlətlər həm də Rusiyada baş verən hadisələrin öz ölkələrinə təsir edəcəyindən də qorxurdular. Odur ki, 1918-ci il mayın 25-də Vladivostokda Birinci dünya müharibəsi dövründə ruslara əsir düşmüş 50 min nəfərlik çexoslavak korpusunun qiyamı ilə Rusiyada vətəndaş müharibəsi başlanmış oldu. 1920-ci ilin noyabrına qədər Rusiyada davam edən vətəndaş müharibəsi 3 dövrə bölünür:



I dövr – 1918-ci ilin yazından – 1919-cu ilin martına qədər olan dövrü əhatə edir.

II dövr – 1919-cu ilin martından 1920-ci ilin martına qədər olan dövrü əhatə edir.

III dövr – 1920-ci ilin martından 1920-ci ilin noyabrına qədər olan dövrü əhatə edir.

Tezliklə, Samaradan Çelyabinskiyə qədər olan ərazi Çexoslavak korpusunun nəzarəti altına keçdi. Paralel olaraq ölkədə kəndlilərin də antisovet qiyamları genişlənirdi.

1918-ci il noyabrın 18-də Omskda birləşmiş antibolşevik hökumətin hərbi naziri admiral A.B.Kolçak bütün hakimiyyətin onun əlinə keçdiyini bildirdi və özünü "Rusiyanın bütün quru və dəniz silahlı qüvvələrinin ali komandanı" elan etdi. O, həm də Ali hakim elan olundu. Beləliklə, Kolçak ağ hərəkatın əsas siması oldu. Ağların əsas ideyası bolşevimzi dəf etmək, döyüş qabiliyyətli ordunun gücü ilə böyük, vahid və bölünməz Rusiyanı bərpa etməkdən ibarət idi.

Bu zaman ciddi intizam yaratmaq üçün çox sərt tədbirlərlə köhnə zabitləri Qırmızı Orduya cəlb edən L.Trotski nizami, döyüş qabiliyyətli ordu yaratmağa nail oldu. 1918-ci ilin iyulunda çar ailəsinə mənsub olanların hamısı Yekaterinburqda güllələndi. 1918-ci ilin sentyabrında ölkədə qırmızı terror tətbiq edilməyə başlandı. Mübarizə gah bir tərəfin, gah da digər tərəfin üstünlüyü ilə gedirdi. 1918-ci ilin yazında Kolçakın ordusu Ufadan Volqaya hərəkət etdiyi, payızın əvvəlində isə general Denikinin orduları Oryol və Voroneji tutaraq Moskvanı hədələdiyi zaman sovet hökuməti və Qırmızı Ordu böhranlı vəziyyətə düşdü. Həmçinin ingilis, fransız, alman və yaponların Vladivostok, Krım, Arxangelsk və Murmanskdan sovet Rusiyasına qarşı hərbi müdaxiləsi başlandı. Kolçakı İngiltərə hər vasitə ilə təchiz etməyi öz öhdəsinə götürdü. Donda Denikinin cənub qrupu öz fəaliyyətini genişləndirdi. Petroqradda Yudeniçin dəstələri hücuma

keçdilər. Orta Asiyada basmaçılar hakimiyyəti ələ aldılar. 1918-ci ilin sentyabrın 15-də Bakının türklər tərəfindən tutulması ilə Sovet Rusiyası ağlar tərəfindən halqaya alınmış oldu. Ağların ilk dövrdə qələbəsi Qırmızı ordunun hələ zəif olması, müasir ordunun yaradılmaması, ortabab kəndlilərin tərəddüdü, ağ qvardiyaçıların əsasən sənaye cəhətdən zəif inkişaf etmiş yerləri tutmasından irəli gəlirdi.

Sovet hökuməti üçün belə çətin bir vaxtda 1918-ci ilin yayından 1919-cu ilin yazına qədər ölkədə mərhələ-mərhələ ərzaq sapalağına keçildi və bu siyasət 1921-ci ilin martına qədər davam etdi. Ərzaq sapalağında kəndlidən ailəsinə lazım olandan artıq qalan bütün məhsul dövlət tərəfindən alınırdı. Bu isə kəndlidə əslində maddi maraq hissini zəiflədirdi. Vətəndaş müharibəsi dövründə ilk dəfə elmi ədəbiyyata Baqdanov tərəfindən gətirilmiş "hərbi kommunizm" adlanan siyasət həyata keçirildi. Bu siyasətin əsas cəhətləri ərzaq sapalağının tətbiqi, ticarətin ləğv edilməsi, hər şeyin məhsullarla mübadilə edilməsi, bütün xırda, orta və iri müəssisələrin milliləşdirilməsi, məcburi əmək mükəlləfiyyəti qoyulması və "işləməyən dişləməz" prinsipinin həyata keçirilməsindən ibarət idi. Bu siyasət ona görə hərbi kommunizm adlanırdı ki, o, məcburiyyət üzündən görülən tədbir idi.

1918-ci ilin iyulun 19-da RSFSR-in ilk konstitusiyası qəbul edildi. Həmin konstitusiyaya görə Rusiya sovet federativ sosialist respublikası (RSFSR) elan edildi. Həmin konstitusiyaya əsasən seçkiyə görə vətəndaşlar 4 dərəcəyə bölünürdü. I dərəcə üçün seçkilər asanlaşdırılmış, IV dərəcə üçün son dəəcə çətinləşdirilmişdi.

Şərq cəbhəsindəki müvəffəqiyyət 1919-cu ilin martın əvvəllərində Kolçak üzərində qələbəni asanlaşdırdı və vətəndaş müharibəsinin birinci mərhələsi qırmızı ordunun və ya qırmızıların qələbəsi ilə başa çatdı. 1918-ci il noyabrın 30-da Leninin sədrliyi ilə təşkil edilən Dövlət Müdafiə Komitəsinin fəaliyyəti



nəticəsində qırmızı ordunun sayı 5 mln-a çatdırıldı. Artıq 1919-cu ilin martında müharibənin ikinci mərhələsi başlandı və bu mərəhələdə əsas zərbə Denikinin Donda toplanmış cənub qrupuna vurulmalı idi. 1919-cu ilin iyul ayında Denikin qoşunu da ciddi məğlubiyyətə uğradıldı. Denikin özü xaricə qaçdı. Kolçak isə 1920-ci ilin yanvarında İrkutsk şəhərində güllələndi. 1920-ci ilin martından vətəndaş müharibəsinin III mərhələsi başladı. Bu mərhələ Polşa qoşunlarının Ukrayna və Belarusiyaya, general Vrangelin isə Krımda hücuma keçməsi ilə başlanmış oldu. Əvvəl qırmızılar Polşa qoşunları üzərində qələbə çalaraq Varşavaya qədər gəlib çatdılar. Qoşun arxasından hədsiz aralı düşdüyünə, həm də Polşada təcili olaraq aqrar islahat keçirildiyinə görə Polşa kəndliləri qırmızılara ciddi müqavimət göstərdilər və qırmızı ordu geri çəkilməyə məcbur oldu. Polşa ilə 1921-ci ilin martında bağlanan Riqa sülhünə əsasən Qərbi Ukrayna və Qərbi Belarusiya Polşada qaldı. 1920-ci il noyabrın 16-da Perekop bərzəxinin tutulması ilə Krımdakı Vrangel qoşunları da məğlub oldular. Beləliklə, 1918-ci ildə başlanmış vətəndaş müharibəsi əsasən başa çatdı. Ancaq Uzaq Şərqdə yaponlarla müharibə 1922-ci ilin oktyabrın 25-nə qədər, yəni Vladivostok azad edilənə qədər davam etdi.

Vətəndaş müharibəsində ağların məğlubiyyətinin bir sıra səbəbləri vardır. Onların sıralarında sağ sosialistlərdən qatı monarxistlərə kimi müxtəlif siyasi qüvvələr var idi. Bu şəraitdə vahid ideya-siyasi platforma hazırlamaq mümkün deyildi. Ağlar cəbhə arxasında normal mülki idarə yarada bilmədilər. Bu işlə kifayət qədər təcrübəsi olmayan hərbiçilər məşğul olmalı olurdular. Maliyyə təminatları olmadan zorakı müsadirələr əvvəlcə bolşevikləri qovduğu üçün ağlara rəğbətlə yanaşan kəndlilərin tezliklə onlardan üz çevirməsinə səbəb oldu. Real aqrar proqramın olmaması və antibolşevik istiqamətli milli hərəkatlarla əlaqə yaratmağın mümkünsüzlüyü ağ hərəkatın müqəddəratına çox mənfi təsir göstərdi. Xarici

dövlətlər də kifayət qədər yardım göstərməyi bacarmadılar. Müttəfiqlərin maliyyə, silah və paltarla təchizatı məhdud xarakterdə idi və bu döyüş əməliyyatlarına öz təsirini göstərdi.

Vətəndaş müharibəsi və xarici hərbi müdaxilədə sovet hakimiyyətinin qələbəsi, əsasən, güclü qırmızı ordunun yaradılması, ortabab kəndlilərin sovet hakimiyyətinə dönüş etməsi, xarici ölkələrdəki fəhlə sinfinin və digər demokratik qüvvələrin Rusiyadakı sovet hakimiyyətini müdafiə etməsi, rus burjuaziyasının siyasi cəhətdən təcrübəsizliyi və iqtisadi cəhətdən zəifliyi ilə bağlı idi.



## RUSİYA (1922-ci ildən sonra SSRİ) xalq təsərrüfatının bərpası dövründə (1921-1925-ci illər)

1921-ci ilin əvvəllərində Sovet Rusiyasının həm beynəlxalq, həm də daxili vəziyyəti son dərəcə gərgin idi. Kapitalist dövlətlərinin bir qismi belə hesab edirdilər ki, Rusiya ilə iqtisadi əlaqələri inkişaf etdirmək və bu yolla bolşeviklərin sonuna çıxmaq lazımdır. Kapitalist dövlətlərinin digər bir qrupu isə Rusiya ilə iqtisadi əlaqələri inkişaf etdirməyin əleyhinə idi. Onlar deyirdilər ki, fürsət düşən kimi sovet Rusiyasına qarşı yenidən hücuma keçmək lazımdır, bolşeviklərlə heç bir sazişə yol vermək olmaz. Bu meyllərdən gah biri, gah da digəri şəraitdən asılı olaraq üstünlük təşkil edirdi. 1921-ci ilin əvvəllərində Sovet dövləti Pribaltika ölkələri, Finlandiya, Polşa ilə diplomatik münasibətlər yaratdı. 1921-1922-ci illərdə İngiltərə, Almaniya, Norveç, Avstriya, Danimarka, Çexoslovakiya, İtaliya ilə ticarət sazişləri bağlandı. Sovet Rusiyası 1921-ci il fevralın 26-da İran, fevralın 28-də Əfqanıstan, martın 16-da Türkiyə, noyabrın 5-də Monqolustanla bərabərhüquqlu müqavilələr bağladı.

Vətəndaş müharibəsində qələbə Rusiyaya çoxlu itkilər hesabına başa gəldi. Əgər 1917-ci ildə Rusiyanın əhalisi 136 mln-dan çox idisə, vətəndaş müharibəsindən sonra 20 mln-a qədər azaldı, təqribən 5 milyon adam əlil oldu. 2 mln-a qədər varlı adamlar xaricə getdilər. Rusiyada 1913-cü illə müqayisədə sənaye məhsulu istehsalı 7 dəfə, neft istehsalı 2,5 dəfə, pambıq parça istehsalı 20 dəfə, daş kömür istehsalı 3 dəfə azaldı. Müharibədən əvvəlkinin 3%-i miqdarında çuqun əridilirdi. Çuqun istehsalına görə Rusiya XVII əsr səviyyəsinə endi. Rusiyaya vətəndaş müharibəsi nəticəsində dəyən maddi zərər isə 39 mlrd rubl oldu. Milli gəlir 1917-ci ildəki 11 milyard rubldan 1920-ci ildə 4 milyard rubla endi. Müharibədən sonra ölkədə həm fəhlə sinfi, həm də kəndlilər acınacaqlı vəziyyətə düşdü. Əhali hərbi kommunizm siyasətindən son dərəcə narazı idi. 1920-ci ilin dekabrında VIII Ümumrusiya sovetlər qurultayı

Qızıl Ordunun tərkibinin 5,3 milyondan 1921-ci ilin yayın ortalarınadək iki dəfə azaldılmasını nəzərdə tutan qərar qəbul etdi. Həmin qurultayda həmçinin Rusiyanın elektrikləşdirilməsi haqqında QOELRO planı tərtib edildi ki, bu plana əsasən Rusiyada 10 il ərzində 30 iri elektrik stansiyasının tikilməsi planlaşdırılırdı.

1921-ci ilin martında RK(b)P-nin X qurultayında yeni iqtisadi siyasətə keçid xətti elan edildi. Həmin siyasətin mahiyyəti fəhlə sinfi ilə kəndlilərin ittifaqını möhkəmləndirmək, kəndlə şəhər arasındakı əlaqələri bəpa etmək, bazar iqtisadiyyatı və sahibkarlığa imkanlar yaratmaq, ölkədəki maliyyə böhranını aradan qaldırmaq, iqtisadiyyatı canlandırmaq idi. Yeni iqtisadi siyasət kapitalizmə qayıtmaq demək idi. Lakin dövlət və istehsalın hakim mövqeləri bolşeviklərin əlində olduğuna görə onlar bu riskə getməkdən qorxmurdular. 1921-ci ildən başlayaraq ölkədə kooperativlərin, xırda, orta sahibkarlığın inkişafına yol açıldı. Kənd təsərrüfatında ərzaq saplağını ərzaq vergisi əvəz etdi. Sapalaqdan fərqli olaraq, ərzaq vergisi kəndliyə yaz tarla işləri başlamazdan əvvəl bildirilirdi. Bu da kəndlidə öz əməyinə maraq yaradır, vergini verdikdən sonra qalan məhsulla istədiyi kimi rəftar edə bilirdi. Ticarət azadlığına yol verildi. Həmçinin icazə verildi ki, dövlətin gücü çatmadığı və ya pis işləyən müəssisələr xaricilərə icarəyə verilsin. Millətlərin faktiki bərabərliyini təmin etmək məsələsi də yeni iqtisadi siyasətin (YİS) ən mühüm vəzifələrindən biri idi. YİS ölkədə 3 mərhələdə həyata keçirildi. I mərhələ 1921-1925-ci illəri əhatə etmişdi ki, bu mərhələdə bazar iqtisadiyyatının inkişafına geniş imkan yaradılımışdı. II mərhələ 1926-1929-cu illəri əhatə etmişdiki, bu mərhələdə şəhər burjuaziyası üzərinə hücum başlamış, geniş sənayeləşdirmə həyata keçirilmişdi ki, bundan da məqsəd sosializmin maddi-texniki bazasını yaratmaq idi. III mərhələ 1929-1936-cı illəri əhatə etmişdi ki, bu mərhələdə



kənd burjuaziyası üzərinə hücuma keçilmiş, kənd təsərrüfatının kollektivləşdirilməsi xətti həyata keçirilmiş, sosialist ukladının və idelogiyasının hökmranlığına nail olunmuşdu. Bu mərhələdə yeni iqtisadi siyasət Rusiyası sosialist Rusiyasına, sosializm ukladı isə yeganə uklada çevrildi. Lakin bu sosializm zor gücünə qurulduğu üçün çox vaxt ədəbiyyatda ‘’kazarma sosializmi’’ kimi səciyyələndirilir.

1921-ci ildə Volqaboyu, Ukrayna, Krım, Şimali Qafqazı bürüyən quraqlıq baş verdi ki, bu da dəhşətli aclığa səbəb oldu.

1922-ci ildə Ümumrusiya fövqəladə komissiyası dövlət siyasi idarəsinə çevrildi. 1922-ci ildə həmçinin torpaq cəmiyyətləri təşkil edildi.

1922-ci il dekabrın 30-da Sovet Sosialist Respublikaları İttifaqı – SSRİ təşkil edildi. 1922-ci ilin dekabrın 30-da SSRİ—nin I Sovetlər qurultayı ittifaq dövləti yaratmaq haqqında Müqavilə və Bəyannaməni təsdiq etdi. Həmin sənədlərə əsasən respublikaların beynəlxalq nümayəndəlik, müdafiə, sərhədlərə yenidən baxma, dövlət təhlükəsizliyi, xarici ticarət, nəqliyyat, büdcə, rabitə, pul dövriyyəsi kimi səlahiyyətləri mərkəzi orqanlara verildi. Bu əslində müttəfiq respublikaların suveren hüquqlarının əlindən alınması demək idi. Onun tərkibinə Rusiya, Ukrayna, Belorusiya, Zaqafqaziya respublikaları daxil oldu. SSRİ mərkəzi icraiyyə komitəsinin sədrləri - Rusiyadan Kalinin, Ukraynadan Petrovski, Belorusiyadan Çervyakov, Zaqafqaziyadan Nərimanov seçildi.

1924-cü ilin yanvarın 31-də SSRİ-nin I konstitusiyası qəbul olundu. Həmin konstitusiyaya görə onun tərkibinə dörd respublika severen dövlət kimi daxil oldu.

1922-1924-cü illərdə SSRİ-də pul islahatı keçirildi. Çervonun qızıl dəyəri sabitləşdi. 1922-ci ildə mülki məcəllə haqqında qanun da verildi. Həmin ildə bütün kilsələrin qızıl əmlakı müsadirə edildi. 1918-ci ilin sonundan Rusiyada mövcud olan bütün partiyaların (bolşeviklərdən başqa)

buraxılması prosesi 1923-cü ildə başa çatdı. Artıq 1923-cü ildə sovetlərin tərkibində bir nəfər də olsun eser və menşevik yox idi. 1923-cü ildə artıq eserlər partiyası da buraxıldı.

1925-ci ildə ölkə iqtisadiyyatında canlanma yarandı. Maliyyə böhranı qismən həll edilmiş oldu. 1923-1924-cü illərdə sənaye məhsulunun artımı 30%-ə bərabər idisə, 1924-1925-ci illərdə 64% təşkil edirdi. Kənd təsərrüfat malları istehsalı əvvəlki illə müqayisədə 32% çoxaldı. Sənayedə fəhlələrin sayı 1914-cü il səviyyəsinə, yəni 2429 min nəfərə çatdı. 1924-1925-ci illərdə həyata keçirilmiş hərbi islahat Sovet silahlı qüvvələrinin möhkəmləndirilməsində mühüm rol oynadı. 1925-ci ildə bərpa dövrü əsasən başa çatmış oldu.

### *SSRİ-də sənayeləşdirmə və kollektivləşdirmə*

1925-ci ilin dekabrında PK(b)P-nin XIV qurultayı oldu. Həmin qurultayda partiyanın adı dəyişilərək ÜİK(b)P adlandı. Həmin qurultay tarixə sənayeləşdirmə qurultayı kimi daxil oldu. 1926-cı ildə ölkədə sənayeləşdirmə başlandı.

Sənayeləşdirmənin başlıca məqsədi ölkənin texniki-iqtisadi geriliyini aradan qaldırmaq, iqtisadi cəhətdən xaricdən asılılığa son qoymaq, güclü hərbi sənaye yaratmaq, ilk növbədə baza sənaye sahələrini (yanacaq, metallurgiya, kimya, maşınqayırma) inkişaf etdirməkdən ibarət idi. Bu vəzifələrin yerinə yetirilməsində ilk sovet beşilliklərinin mühüm rolu oldu. Ağır sənayenin inkişafına daha çox fikir verilirdi.

1928/29 – 1932/33-cü illəri əhatə edən birinci beşillik planın başlıca məqsədi sosializmin maddi təməlini yaratmaq idi. Birinci beşillikdə xalq təsərrüfatına 64,6 milyard rubl kapital qoyulmuşdu. Beşillik dövründə SSRİ-də 1500 sənaye müəssisəsi tikildi və 1913-cü illə müqayisədə sənaye məhsulu istehsalı 7 dəfədən çox artdı. 1930-cu ildə ölkədə işsizlik ləğv edildi. 1930-cu ildə ilk dəfə xalq təsərrüfatında sənayenin



xüsusi çəkisi kənd təsərrüfatından üstün oldu. Lakin sənayeləşdirmə şəhər burjuaziyasının əmlakının müsadirə edilməsi və kəndlilərdən alınan yüksək vergilər hesabına həyata keçirilirdi.

1933-1937-ci illəri əhatə edən ikinci beşilliyin əsas vəzifəsi sosialistcəsinə yenidən qurmanı başa çatdırmaq idi. Bu beşillikdə xalq təsərrüfatına təqribən 133 milyard rubl kapital ayrılmışdı. Ölkədə 1923-cü ildən tətbiq edilən kartoçka sistemi 1934-cü ildə ləğv edildi. İkinci beşillikdə 4500 yeni sənaye müəssisəsi tikilib istifadəyə verildi. 1937-ci ildə kənd təsərrüfatında 456 min traktor, 129 min kombayn, 146 min yük avtomobili işləyirdi.

Üçüncü beşillik 1938-1942-ci illəri əhatə etməli idi. Bu beşillikdə xalq təsərrüfatına təqribən 192 milyard rubl vəsait ayrılmışdı. Bu beşillik kimya və xüsusi poladlar beşilliyi olmalı idi. Bu beşillik tam həyata keçirilməsə də, ölkədə 6 min yeni sənaye müəssisəsi tikildi.

1929-cu ildə SSRİ dünyada polad istehsalına görə beşinci, çuqun əridilməsi və kömür hasilatında 6-cı, elektrik enerjisi istehsalında 9-cu yeri tuturdu. 1940-cı ildə isə SSRİ-də 48 milyard kilovat-saat elektrik enerjisi, 18 mln. ton polad, 152 milyon ton daş kömür istehsal edilirdi. Bu dövrdə Almaniyada isə 37 milyard kv.saat elektrik enerjisi, 18 milyon ton polad, İngiltərədə 40 milyard kv.saat eleketrik enerjisi, 13 milyon ton polad, Fransada 20 milyard kilovat-saat elektrik enerjisi, 8 milyon ton polad istehsal edilirdi. SSRİ bu dövrdə dünyada ABŞ-dan sonra ikinci, Avropada isə birinci sənaye dövlətinə çevrildi.

Ölkədə sosializm qurmaq planının mühüm tərkib hissələrindən biri də kənd təsərrüfatının sosialistcəsinə yenidən qurulması idi. 1927-ci ilin dekabrında olmuş XV qurultay SSRİ tarixinə kollektivləşdirmə qurultayı kimi daxil oldu. 1929-cu ilin yayından ölkədə kollektivləşdirmə, yəni kənd ərazisində

olan bütün torpaqların kolxozların ixtiyarına keçməsi prosesi başlandı. Sovet siyasətində bu, «yuxarıdan inqilab» kimi qiymətləndirildi.

1929-cu ildə SSRİ-də 24,5 milyona yaxın fərdi kəndli təsərrüfatı mövcud idi. Onların 8,5 milyona yaxını yoxsul, 15 milyonu ortabab, 1 milyonu qolçomaq təsərrüfatı idi. Kəndli təsərrüfatlarının 5%-ə qədərini təşkil edən qolçomaqların 1927-ci ildə 10 milyon ha-ya qədər (94,7 milyon ha ümumi sahədən) taxıl əkin sahəsi var idi və onlar bütün satlıq taxılın 1/5 hissəsini verirdilər. Partiya və dövlət 1918-ci ildən qolçomaqları bir sinif kimi məhdudlaşdırmaq, 1929-cu ildən isə bir sinif kimi ləğv etmək siyasətinə keçdi. 1929-cu il SSRİ tarixinə "böyük dönüş" ili kimi daxil oldu.

1930-cu ilin yanvarın 5-də ÜİK(b)P-nin MK-nın kollektivləşdirmə ilə əlaqədar verdiyi qərara əsasən kollektivləşmənin gedişinin sürəti cəhətdən rayonlar üç qrupa bölünürdü. I qrupa Şimali Qafqaz, Orta və Aşağı Volqa, II qrupa Mərkəzi Qaratorpaq vilayəti, Ukrayna, Sibir, Ural, Qazaxıstan, II qrupa isə digər bölgələr daxil idi.

Bu dövrdə 20000-dən artıq qolçomaq ailəsi Sibirə, Urala, Şimali Qazaxıstana sürgün edildi. Bu dövrdə 10-12 mln-a qədər kəndli kollektivləşdirmə nəticəsində təqibə məruz qaldı. Heyvandarlığa böyük zərbə dəydi. 1930-cu il martın 14-də Mərkəzi komitə kolxoz qurucularındakı əyintilərlə əlaqədar qərar qəbul etdi ki, bu qərarda kolxozlara daxil olarkən könüllülük prinsipinin pozulması yolverilməz hesab edilirdi. Kollektivləşdirmə SSRİ-də 1936-cı ilə qədər davam etdi. Nəticədə 243 min kolxoz təşkil edildi ki, bu da bütün kəndli təsərrüfatının 93%-ni əhatə edirdi.

Kollektivləşdirmə ölkənin kənd təsərrüfatını pis vəziyyətə saldı. 1929-1934-cü illərdə ölkədə taxil istehsalının həcmi 10% aşağı düşdü. 1929-1932-ci illərdə iribuynuzlu heyvanların və atların sayı 1/3 dəfə, donuzların sayı 2 dəfə, qoyunların sayı 2,5



dəfə azaldı. 1932-1933-cü illərdə bir sıra iri rayonları bürüyən aclıq nəticəsində yüz minlərlə adam tələf oldu.

Kollektivləşdirmə nəticəsində kəndlilər cəmiyyətin ən hüquqsuz hissəsinə çevrildilər. 1932-ci ildən pasportlaşma sisteminə keçirilməsinə baxmayaraq, bəzi bölgələr istisna olmaqla, bu kəndlilərə tətbiq edilmədi. Pasportu olmayan kəndli doğulduğu və yaşadığı yerdən kənara çıxa bilməzdi. Bunu əslində «ikinci təhkimçilik hüququ» da adlandırmaq olardı.

SSRİ-də həyata keçirilən sosialistcəsinə yenidənqurma nəticəsində sənaye və kənd təsərrüfatı üzərində ictimai mülkiyyət bərqərar oldu, hamıya və heç kimə mənsub olmayan mülkiyyət forması təşəkkül tapdı. Bu forma insanlarda sahiblik və işgüzarlıq hissini itirir, insanların sərbəst yaradıcılıq əzmini buxovlayırdı. Bir sözlə, bu sistem insan psixologiyasına uyğun gələn mülkiyyətçilik hissinə yad idi.

SSRİ-də sosializmi qurmaq planının mühüm tərkib hissələrindən biri də insanların şüurunda sosialist ideologiyasının möhkəmləndirilməsindən ibarət olan «mədəni inqilab» idi. Rusiyada əhalinin 1920-ci ildə 97%-i savadsız olduğuna görə mədəni inqilaba başlamaq üçün ilk növbədə savadsızlığı ləğv etmək lazım idi. 1921-ci ildən ölkədə savadsızlığı ləğvetmə prosesi başlandı.

1930-cu illərdə partiyanın XVI qurultayında sosializmin bütün cəbhə boyu hücuma keçməsi qərara alındı və icbari, ibtidai təhsilə keçmək zəruri sayıldı. Həmçinin ölkədə ali, orta, texniki peşə, orta ixtisas məktəblərinin şəbəkəsi genişləndirildi. 1934-cü ildə SSR-də Akademiyanın müxbir və həqiqi üzvü, professor, dosent, assistent, elmlər namizədi, elmlər doktoru adları təsis edildi. Artıq ikinci beşilliyin sonunda ali məktəblərdə 500 minə qədər tələbə oxuyurdu. Ölkədə 191 ali məktəb vardı. Ziyalıların sayı 19 mln-u ötüb keçmişdi. Nəticədə SSRİ başdan-başa savadlılar ölkəsinə çevrildi.

Əgər 1926-cı ildə SSRİ-də 147 mln nəfər əhali yaşayırdısa, ikinci beşilliyin sonunda bu rəqəm 170,6 mln-a qalxmışdı. 12 il ərzində əhalinin orta illik artımı SSRİ-də 1,23% idisə, Fransada 0,08 %, İngiltərədə 0,36%, Almaniyada 0,62%, ABŞ-da 0,67% idi. Əgər SSRİ-də 1926-cı ildə şəhərlərdə 26,3 milyon nəfər, yəni bütün əhalinin 17,9%-i yaşayırdısa, 1939-cu ildə isə 56,1 milyon nəfər, yəni bütün əhalinin 32,9%-i yaşayırdı. Fəhlə sinfinin sayı isə bu dövrdə 8-9 mln nəfərdən 23-24 mln nəfərə çatmışdı.

1936-cı ilin dekabr ayının 5-də qəbul edilmiş konstitusiya SSRİ-də sosializmin tam qələbəsini nümayiş etdirmiş oldu. SSRİ-də ancaq iki sinif: fəhlə və kəndli sinfi, bir də onların içərisindən çıxan ziyalılar qaldı. Un sənayesindən başqa yerdə qalan bütün sənaye sahələrində xüsusi mülkiyyət ləğv edildi. Ölkədə ictimai mülkiyyətin iki forması – dövlət və kolxoz-kooperativ forması hökm sürməyə başladı.

## *SSRİ-DƏ İNZİBATİ-AMİRLİK SİSTEMİNİN FORMALAŞMASI*

SSRİ-də inzibati-amirlik sistemi ilk rüşeymlərini hələ Oktyabr çevrilişindən keçən ilk aylarda göstərməyə başladı. 1918-ci ilin sonuna qədər bolşeviklər və eserlərdən başqa bütün partiyaların fəalliyyəti qadağan edildi. O zaman Rusiyada 70-ə yaxın partiya vardı. 1923-cü ildə eserlər partiyasının da fəaliyyəti qadağan edildi. Ölkədə ancaq bir partiyanın – bolşeviklər partiyasının hökmranlığı başladı və bu 1985-ci ilə qədər davam etdi.

1920-ci ildə həmkarlar ittifaqı haqqında ölkədə keçirilən ümumpartiya müzakirəsində müxalifətçi qrupların hamısı məğlub edildi. 1926-cı ildə meydana gələn və SSRİ-də sosializmin qələbəsinin mümkünlüyünü inkar edən trotşkici-zinovyeçi qrup 1927-ci ildə partiyadan xaric edildi. 1928-ci ildə ölkədə taxılın çatışmaması ilə əlaqədar kəndlilər taxılı gizlətdikdə dövlət taxıl tədarükü məsələsini qaldırdı. Bu dövrdə Buxarin,



Rıkov və Tomskinin başçılığı altında sağ təmayül meydana gəldi. Sağ təmayül kolxozların əleyhinə idi. Onlar ancaq təchizat-satış və istehlak kooperasiyası tərəfdarı idilər. Həm də onlar qolçomaqlara qarşı zorakılıq tədbirlərini bəyənmirdilər. Qolçombaqların dinc yolla sosializmə qovuşmasını iddia edirdilər. Stalin bu fikri «paralellər nəzəriyyəsi» adlandırırdı. Buxarın göstərirdi ki, kəndli psixologiyası xüsusi mülkiyyətə öyrəşib və bu psixologiyanı dəyişdirmək qeyri-mümkündür. Bütün bunlara baxmayaraq, sağ təmayül də 1929-cu ilin aprelində məğlubiyyətə uğradı. 20-ci illərin ən mühüm cəhətlərindən biri vahid birpartiyalı siyasi sistemin formalaşması idi. Vətəndaş müharibəsi dövründən başlamış bu proses 20-ci illərdə qəti olaraq başa çatdırıldı. ÜİK(b)P ölkədə yeganə siyasi qüvvəyə çevrildi, totalitar sistemin formalaşmasına şərait yaradılmış oldu. 1934-cü ildə olmuş partiyanın XVII qurultayı tarixə «qaliblər qurultayı» adı altında daxil oldu. Artıq ölkədə heç bir müxalifətçi qrup yox idi. 1934-cü ilin dekabrın 1-də Leninqrad vilayət komitəsinin birinci katibi Sergey Mironoviç Kirovun öldürülməsi ilə ölkədə kütləvi represiyaların (təqiblərin) bağlanğıcı qoyuldu. 1934-1935-ci illərdə partiya sənədlərinin yoxlanışı başlandı. 1937-ci ilin fevral-mart plenumlarında Zinovyev və Kamenev, Buxarin «xalq düşməni» adlandırıldılar. 1937-1940-cı illərdə 20 milyondan çox sovet adamı kütləvi təqiblərə məruz qaldı. Bu illərdə 40 min hərbiçi kütləvi təqibin qurbanı oldu ki, bu da Böyük Vətən müharibəsinin əvvəllərində cəbhədə özünü aydın göstərdi. Tədricən Stalinin şəxsiyyətinə pərəstiş və bir partiyanın diktaturası hökm sürməyə başladı ki, bu da totalitar rejim demək idi. SSRİ-də totalitar rejimin əmələ gəlməsinin obyektiv və subyektiv səbəbləri vardı. Obyektiv səbəblər ilk növbədə Rusiyanın özünün konkret tarixi şəraiti ilə bağlı idi. Bunlar əsasən, ölkənin texniki iqtisadi geriliyi, kifayət qədər vəsait və kadrların çatışmaması, Mərkəzi komitə işçilərinin cəmi 5%-nin ali təhsilli olması, 40%-nin isə hətta orta

təhsilinin də olmaması, ölkənin kapitalizm əhatəsində olması və sosializmə ilk yol açması, xırda burjuaziyanın çoxluq təşkil etməsi və onun kifayət qədər intizamlı olmaması, Rusiyada xalqların uzun əsrlər boyu bir monarxın hakimiyyəti altında qalması və onlarda bir nəfərə pərəstiş hissinin güclü olması, Leninin ölümündən sonra Stalinin siyasi rəqiblərinin Mərkəzi Komitədən kənarlaşdırılması və s. idi.

Stalinin şəxsiyyətinə pərəstişin əmələ gəlməsi bu obyektiv səbəblər ilə yanaşı, Stalinin özünün şəxsi keyfiyyətləri ilə də bağlı idi. Lenin XIII qurultaya yazdığı «Qurultaya məktub» adlı məqaləsində açıq göstərirdi ki, Stalin 1922-ci ildə, yəni partiyanın XI qurultayında Baş katib seçildikdən sonra "öz əlinə hədsiz hakimiyyət toplamışdır və mən onun bu hakimiyyətdən kifayət qədər ehtiyatla istifadə edə biləcəyinə əmin deyiləm". Məktuba əlavədə o göstərirdi ki, "Stalin olduqca kobuddur. Yoldaşlar arasında dözülə bilən bu nöqsan baş katib vəzifəsində tamamilə dözülməzdir. Ona görə də Stalini başqa bir vəzifəyə keçirmək və bu vəzifəyə elə bir adamı təyin etmək lazımdır ki, bütün keyfiyyətlərdə Stalin yoldaşa oxşamaqla bərabər, ondan fərqli olaraq daha az kobud, daha az qərəzli və daha az şıltaq olsun". Lenin həmin məktubda Mərkəzi Komitənin digər üzvlərinin də xarakteristikasını vermişdi. O, Trotski haqqında yazırdı ki, Trotski hazırkı Mərkəzi Komitədə bəlkə də ən bacarıqlı yoldaşdır. Lakin işin inzibati cəhətinə uyan və özünə hədsiz güvənən adamdır. Buxarin haqqında yazırdı ki, o, haqlı olaraq bütün partiyanın sevimlisi hesab edilir. Lakin onun nəzəri baxışlarını çox böyük şübhə ilə dialektik baxışlar hesab etmək olar.

Həmin məktub Leninin ölümündən sonra 1924-cü ilin mayında olmuş XIII qurultayda müzakirə edildi. Stalinin 6 maddədən ibarət andını, trotskizmə qarşı onun fəal mübarizə apardığı nəzərə alınaraq, onu Baş katib vəzifəsində yenə də saxlamağı qurultay məsləhət bildi.



Stalin, həqiqətən, Lenin ideyalarının və sosializmin quruculuğunun fəal müdafiəçisi idi. Lakin onun bədbəxtliyi onda idi ki, o, bu müdafiədə barbar metodlardan istifadə edirdi. Stalinin xüsusilə 30-cu illərin II yarısında irəli sürdüyü "Sosializm inkişaf etdikcə sinfi mübarizə də güclənir" tezisi milyonlarla sovet adamına divan tutulmasına səbəb oldu. Kütləvi repressiyaların həyata keçirilməsində o zaman Daxili İşlər Nazirliyində və Dövlət Təhlükəsizlik Komitəsində işləyən Yejov və Beriyanın da mühüm xidmətləri olmuşdur.

30-cu illərdə Stalin SSRİ-ni elə bir yüksəliş səviyyəsinə çatdırmışdı ki, onun əleyhinə deyilən sözə xalq inanmazdı. Stalinin həyata keçirdiyi quruculuq işləri ona həm daxildə, həm də beynəlxalq aləmdə böyük nüfuz və təbii hörmət qazandırmışdı.

### *1924-1939-cu illərdə SSRİ-nin xarici siyasəti*

SSRİ öz xarici siyasətində əvvəlcə xarici dövlətlərlə dinc yanaşı yaşamaq prinsipinə xüsusi üstünlük verirdi. 1926-cı ilin aprelin 14-də o, Almaniya ilə hücum etməmək haqqında müqavilə bağlandı. 1927-ci ildə İngiltərə Sovet İttifaqını dempinq siyasəti yeritməkdə təqsirləndirərək onunla diplomatik əlaqələri kəsdi. Bu münasibətlər yenidən 1929-cu ildə bərpa edildi. 1932-ci ildə SSRİ hücum etməmək haqqında Fransa ilə müqavilə bağladı. 1933-cü ilin noyabrında SSRİ ilə ABŞ arasında diplomatik münasibətlər yarandı. 1934-cü ildə o, Millətlər Cəmiyyətinə daxil oldu. 1935-ci ildə Fransa və Çexoslavakiya ilə qarşılıqlı yardım haqqında müqavilələr bağlandı.

1934-cü ildə olmuş ÜK (b)P-nin XVII qurultayında Stalin partiyanın MK-anın hesabat məruzəsində belə bir tezis irəli sürdü ki, Birinci dünya müharibəsi nəticəsində dünyanın 1/6 hissəsində sosializm cəbhəsi yaranıbsa, əgər İkinci dünya

müharibəsi olarsa, dünyanın yarısında sosializm qurula bilər. Bununla belə bu dövrdə SSRİ həm də faşizmə qarşı kollektiv təhlükəsizlik sisteminin yaranması tərəfdarı kimi çıxış edirdi. Digər tərəfdən isə ölkədə müdafiə sənayesinin inkişafı üçün büdcədən getdikcə daha çox vəsait ayırılırdı. Əgər birinci beşillikdə büdcədən hərbi xərclər üçün 13% vəsait ayrılmışdırsa, III beşillikdə bu rəqəm 39% təşkil edirdi.

1938-ci ildə SSRİ Uzaq Şərqdə yapon təcavüzkarlarının müdaxiləsinin qarşısını alaraq, həmin il Xasan gölü, 1939-cu ildə isə Xalxin – Qol çayı yaxınlığında yaponları darmadağın etdi. Bunun nəticəsi idi ki, Yaponiya İkinci dünya müharibəsi dövründə SSRİ-yə hücum etməyə cürət etmədi. 1939-cu ilin mart-iyul aylarında Sovet-Fransa-İngiltərə danışıqları baş tutmadıqda 1939-cu ilin avqustunda SSRİ çox cəsarətli addım ataraq özünü beynəlxalq aləmdə təcriddən qurtardı və Almaniya ilə bir-birinə hücum etməmək haqqında 10 illik müqavilə bağladı. Bu tarixdə Molotov-Ribbentrop paktı adlandı. Leninqraddan sərhədi bir qədər uzatmadığı, ərazisi cəmisi 48 min km$^2$ olan strateji cəhətdən əhəmiyyətli 5 kiçik adanı ona icarəyə vermədiyi və Mannerheym xəttini qurduğuna görə 1939-cu il noyabrın 30-da SSRİ Finlandiyaya müharibə elan etdi. Bu tarixdə «Qış müharibəsi» də adlanır. Həmin müharibədə Finlandiya məğlub oldu. SSRİ ilə Finlandiya arasında 1940-cı ilin martında bağlanmış Moskva müqaviləsinə əsasən sərhəd Leninqraddan əvvəlki 32 km əvəzinə 150 km uzaqlaşdırıldı. 5 ada SSRİ-yə icarəyə verildi. Strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Xanko yarımadası da SSRİ-yə icarəyə verildi.

Almaniya Polşaya hücum etdikdən sonra SSRİ həmçinin 1939-cu il sentyabrın 17-də Qərbi Ukrayna və Qərbi Belarusiyaya qoşun yeridərək yenidən onları özünə birləşdirdi. 1940-cı ildə SSRİ 1918-ci ildə Rumıniya tərəfindən tutulmuş Bessarabiya və Şimali Bukovinanın SSRİ-yə qaytarılmasına



nail oldu. Bessarabiya Moldaviya MSSR ilə birləşdikdən sonra Moldaviya müttəfiq respublikaya çevrildi. Şimali Bukovina isə Ukraynaya birləşdirildi. 1939-cu ilin sentyabrında Almaniya ilə SSRİ arasında bağlanmış gizli müqaviləyə əsasən Pribaltika SSRİ-nin təsir dairəsinə daxil edildi. Pribaltika ölkələri, yəni Estoniya, Latviya və Litva 1940-cı ildə SSRİ-yə birləşdirildi.

1940-cı ilin II yarısından, xüsusilə 1941-ci ilin yazında Moskvaya müxtəlif kanallardan məlumat daxil olurdu ki, Almaniya SSRİ-yə qarşı müharibəyə hazırlaşır. Müharibənin qaçılmaz fakt olduğunu SSRİ-nin sərhədi yaxınlığında alman qoşunlarının toplanması da göstərirdi. Yaranmış mürəkkəb şəraitdə Stalin belə güman edirdi ki, diplomatik və siyasi tədbirlər vasitəsi ilə Almaniyanın SSRİ-yə qarşı mühribəyə başlaması vaxtını uzada bilər. Hitlerə heç bir bəhanə verməməkdən ötrü SSRİ öz qoşunlarını hətta tam döyüş hazırlığı səviyyəsinə də gətirməmişdi. 1941-ci il iyunun 14-də SİTA (Sovet İttifaqı Teleqraf Agentliyi) belə bir məlumat dərc etdirdi ki, xarici mətbuatda Almaniyanın tezliklə SSRİ-yə hücum edəcəyi barədə məlumatlar verilir, lakin SSRİ buna inanmır. Bu diplomatik manevrə Almaniya cavab vermədikdə, SSRİ bu məlumatların həqiqət olduğuna inandı.

1941-ci il iyunun 22-də Almaniyanın SSRİ-yə hücumu ilə SSRİ İkinci dünya müharibəsinə girmiş oldu və 1939-cu il SSRİ-Almaniya müqavilələri qüvvədən düşdü.

# VI. İTALİYA

### *İtaliya üçün Birinci dünya müharibəsinin nəticələri*

İtaliya Birinci dünya müharibəsinin başlanmasına qədər Üçlər ittifaqının tərkibində idi. 1881-ci ildə Tunisi öz himayəsinə keçirdiyinə görə Fransadan hədsiz dərəcədə inciyən İtaliya 1882-ci ildə Üçlər İttifaqına daxil olmuşdu. Lakin tezliklə başa düşdü ki, Avstriya-Macarıstanla onun ittifaqı qeyri-mümkündür. Çünki Dunay hövzəsində və Balkanlarda onların mövqeyi toqquşurdu. Ona görə də Birinci dünya müharibəsi başlanarkən İtaliya Üçlər ittifaqının tərəfində müharibəyə girmədi və gözləmə mövqeyi tutdu. Hər iki tərəf İtaliyanı müharibəyə cəlb etmək üçün ona çoxlu vədlər verirdilər. Lakin Antantanın verdiyi vədlər (Misir mülklərindən pay, Albaniya üzərində protektoratlıq, Cənubi Tirol, İstriya yarımadası, Terentino) İtaliya üçün daha əlverişli olduğuna görə 1915-ci ilin may ayında o, Avstriya-Macarıstana müharibə elan etməklə Antantanın tərəfində müharibəyə başladı. 1916-cı ilin avqustunda isə İtaliya Almaniyaya müharibə elan etdi. Alman qoşunları 1917-ci ilin oktyabrında olmuş Koperetto döyüşündə italyanları məğlub etdi. İtalyanları ancaq ingilis-fransız qoşunlarının köməyə gəlməsi xilas etdi. İtaliya daha döyüş əməliyyatlarında iştirak etmədi.

Antantanın üzvü olduğuna görə İtaliya Birinci dünya müharibəsindən qalib dövlət kimi çıxdı. Lakin o qaliblər içində məğlub, məğlublar içində qalib vəziyyətində idi. Bunun səbəbi isə italyan burjuaziyasının iqtisadi cəhətdən kifayət qədər qüdrətli olmaması idi. Müharibə qurtardıqdan sonra Antantanın hakim dövlətləri olan İngiltərə və Fransa İtaliyaya verdikləri vədləri yerinə yetirməkdən imtina etdilər. Konfransda həmin ərazilərin İngiltərə Balkan yarımadasında öz siyasi təsir və nüfuzunu gücləndirmək məqsədilə Yunanıstana və yeni yaranmış Serb-Xorvat Sloven Krallığına verilməsinə nail oldu.



İtaliyanın baş naziri Orlando Paris sülh konfransında «Dördlər şurası»nın üzvü kimi iştirak etsə də, nəticəni öz xeyrinə dəyişdirə bilmədi. İtaliyaya ancaq bir sıra ərazilər – Cənubi Tirol, Terentino vilayəti, Triyestlə birlikdə İstriya yarımadası verildi.

İtaliya üçün Birinci dünya müharibəsinin nəticəsi maddi və insan itkisi baxımından da xoşagələn deyildi. Belə ki, İtaliya müharibədə 700 min adam itirdi. 450 min nəfər şikəst oldu, 1 milyona qədər adam isə yaralandı. İtaliya öz milli sərvətinin 1/3 hissəsini itirdi. Müharibə dövründə İtaliyanın maddi və hərbi xərcləri 65 mlrd qızıl lirə bərabər oldu. Birbaşa hərbi xərclər isə 12 milyard lir idi.

İtaliya üçün Birinci dünya müharibəsinin nəticələrindən biri də onun xarici, ilk növbədə, ABŞ və ingilis kapitalından asılılığının güclənməsi idi. Müharibədən sonrakı dövrdə İtaliya ABŞ-a 1,5 mlrd, İngiltərəyə isə 2,5 mld dollar borclu qaldı.

Müharibə İtaliyada istehsalın və kapiatlın təmərküzləşməsi və mərkəzləşməsini gücləndirdi. Dövlət inhisarçı kapitalizmi inkişaf etməyə başladı. Müharibə dövründə İtaliyada bir sıra iri inhisar birlikləri yarandı. Bunlardan ən mühümləri metallurgiya və maşınqayırma sahələrində «Ansaldo» və «İlva», avtomobil istehsalında «Fiat», hərbi sənayedə «Breda» inhisar birliyi idi.

İtaliya müharibə nəticəsində aqrar ölkədən aqrar-sənaye ölkəyə çevrildi və müharibə dövründə də belə qaldı.

Müharibə qurtardıqdan sonra sifarişlərin azalması və ordunun tərxisi nəticəsində ölkədə işsizlik artdı. İtaliyanın cənubunda latifundiyalar qalmaqda idi. İqtisadi cəhətdən güclü inkişaf etmiş şimalla feodal qalıqlarının hökm sürdüyü cənub arasında olan fərqlər kəskin idi və İtaliyada təsadüfi deyildir ki, cənubu şimalın «müstəmləkəsi» hesab edirdilər.

Rusiyadakı Oktyabr çevrilişindən sonra İtaliyada fəhlə hərəkatı geniş vüsət aldı. İtaliya hökuməti də öz müttəfiqləri kimi Qara dənizə donanma göndərdi və xarici hərbi müdaxilədə

iştirak etmək istədi. Lakin İtaliya fəhlə sinfinin kəskin mövqeyi bu müdaxilədə axıra qədər iştirak etməyə imkan vermədi.

Birinci dünya müharibəsi qurtardıqdan sonra İtaliya hökuməti 1918-ci ildə zəhmətkeşlərin təzyiqi altında bir sıra islahatlar keçirməyə məcbur oldu. Fəhlələr üçün səkkiz saatlıq iş günü rəsmiləşdirildi. Seçki qanunu qəbul edildi. Həmçinin seçki sistemində proporsional seçki qaydası tətbiq olundu. Ərzaq məhsullarının satışında qiymət maksimumu qoyuldu.

İtaliya fəhlə hərəkatında sosialist partiyasının böyük nüfuzu var idi. Müharibənin sonunda onun üzvlərinin sayı 216 min nəfərə yaxın idi. İtaliya sosialist partiyası müharibə dövründə üç qanada parçalanmışdı. Onun sağ qanadına İtaliya parlamentinin dəfələrlə üzvü olmuş Filippe Turati başçılıq edirdi. O, belə güman edirdi ki, İtaliyada inqilab yolu ilə deyil, evolyusiya (təkamül yolu) ilə sosializm qurula bilər. O, Rusiyada Fevral burjua-demokratik inqilabını alqışlasa da, Oktyabr çevrilişini tanımaq istəmirdi. O, Rusiyanın təcrübəsinin əleyhinə idi və göstərirdi ki, bu təcrübə qabaqcıl Avropa üçün yararsızdır. İtaliya sosialist partiyasında ikinci qanad Djaçinto Serratinin başçılıq etdiyi «mərkəzçilər» idi. Onun tərəfdarları daha çox idi. Bu qanad sağlarla sollar arasında barışdırıcı mövqe tuturdu. Üçüncülər «sollar» adlanırdı ki, bu qanadda həm Neapoldan, həm də Turindən olan sosialist nümayəndələr birləşmişdilər. Neopoldan olan sosialistlərin başında Amadeo Bordiqa, Turindən olan sosialistlərin başında isə A.Qramşı və P.Tolyatti dururdu.

1919-cu ilin yanvarında italyan burjuaziyası Sosialist partiyasına qarşı dura biləcək bir partiya yaratmaq qərarına gəldi və bu partiya keşiş Sturso tərəfindən yaradılmış Xalq partiyası oldu. 1919-cu ilin noyabrında keçirilən seçkilərdə Liberal və Sosialist partiyası ilə bərabər bu partiya da parlamentə xeyli deputat keçirə bildi.



1919-cu ilin iyununda Orlandonun istefasından sonra, 1920-ci ilin iyunun 6-dək baş nazir Françesko Nitti olşdu. O, siyasi amnistiya verdi. 8 saatlıq iş günü tətbiq etdi, kəndlilərin tutduqları torpaqları geri qaytarmadı.

1920-1922-ci illərdə İtaliya hökumətinə əvvəl C.Ciolitti, sonra İvanos Bakomi və Luici Fakta başılıq edirdi.

1919-1920-ci illər İtaliya tarixinə «qırmızı ikillik» kimi daxil oldu. Bu dövrdə oktyabr çevrilişinin təsiri altında İtaliyada fabrik-zavod komitələri və sovetlər yaradıldı və onlar yeni mübarizə formaları olan fabrik-zavodların ələ keçirilməsi üsullarından istifadə etdilər. İtaliyada inqilabı təşkilatlar yaradıldı. Kütlələr üzərində heç bir zorakılıq yox idi. İtaliyada liberallar hökumətinə başçılıq edən Ciolliti kütlələrə qarşı silah işlədilməsinin əleyhinə idi.

Fəhlə hərəkatının parçalanması inqilaba gətirib çıxarmadı. 1921-ci ilin yanvarında İtaliyanın Livorno şəhərində Sosialist partiyasının xüsusi qurultayı oldu. Qurultayda irəli sürülən əsas məsələ Kommunist partiyasının yaradılması idi. «Sollar» Kominternin 21 şərtini qəbul etdilər və İtaliya kommunist partiyası yaradıldı. Onun ilk sədri Bordiqo oldu.

***İtaliyada faşizmin hakimiyyət başına gəlməsi.***

1919-20-ci illərdə fəhlə hərəkatının yüksəlişi, həmçinin 1920-1921-ci illərdəki iqtisadi böhran burjuaziyanı bu vəziyyətdən çıxmaq yolu üzərində düşünməyə vadar etdi. Belə bir yolu onlara faşistlər göstərdilər. Faşistlər hələ 1919-cu ildə özlərinin mübarizə ittifaqlarını yaratdılar. Onların ilk toplantısı 1919-cu ilin martında Milanda oldu. Faşistlər əvvəllər ən çox öz sıralarına müharibənin nəticələrindən incik olan gəncləri toplayırdılar. Belə gənclərdən biri faşist şair Qabriel Arnnuntsio idi. Onun başçılığı altında bir legion təşkil edildi. Bu legion 1919-cu ilin sentyabrında Fium limanını işğal etdi. Lakin tezliklə onlar Fiumu tərk etməli oldular. Çünki bu hadisə iki dövlət arasında narazılığa səbəb oldu. 1920-ci ilin noyabrında

İtaliya ilə Serb-Xorvat-Sloven krallığı arasında Rapolloda müqavilə bağlandı.

Hələ 1919-cu ildə faşistlərin kifayət qədər mövqeyi yox idi. Parlament seçkilərində faşistlər heç bir səs ala bilməmişdilər. Faşist təşkilatlarının nüfuzu 1920-ci ilin payızında inqilabi hərəkatın sönməsi dövründə artmağa başladı. 1921-ci ilin mayındakı parlament seçkilərində faşistlər ilk dəfə parlamentə 35 deputat keçirə bildilər. Onların şüarı aşağıdakı 3 maddədən ibarət idi. Əməkdaşlıq, bu əməkdaşlığı təmin edən güclü dövlət, millətlər ittifaqı. Onlar belə hesab edirdilər ki, millətin mənafeyi hər şeydən üstündür. Faşistlərin terrorçuluq fəaliyyəti genişlənmişdi. 1920-ci ilin sonu, 1921-ci ilin əvvəllərində zəhmətkeşlərin 726 təşkilatı faşistlərin terroruna məruz qalmışdı. 1921-ci ilin yayında faşistlərə qarşı müqavimət gücləndi, müharibə iştirakçılarından zəhmətkeşləri faşist terrorundan qorumaq üçün «xalq cəsurları» təşkilatı yaradıldı. Təşkilatın başında leytenant Arqo Sekondari dururdu.

Tezliklə faşistləri iri inhisarçılar və maliyyə maqnatları maddi cəhətdən təmin etməyə başladılar. 1921-ci ilin noyabrında Milanda keçirilən qurultayda faşist partiyası yaradıldı. Onun rəhbəri isə əvvəllər sosialist partiyasının üzvü və onun orqanı «Avantı» qəzetinin redaktoru olmuş, dəmirçi ailəsində doğulmuş, italyan dili müəllimi Benito Mussoliini oldu. Onu "duce", yəni rəhbər adlandırmağa başladılar.

Faşistlər xalq kütlələrini öz tərəfinə çəkmək üçün proqramlarında xeyli dəyişikliklər etdilər. Onlar kapital üzərinə vergi qoymaq, respublika qurmaq, ümumi seçki hüququ, bir sıra sənaye müəssisələrini milliləşdirmək, kəndlilərə torpaq vermək, kilsə mülkiyyətini müsadirə etmək, müəssisələr üzərində fəhlə nəzarəti qoymaq məsələsini irəli sürdülər. 1921-1922-ci illərdə faşistlərlə xalq kütlələri arasında ciddi döyüşlər oldu. Faşizm sosial qruplar arasında mübarizə prinsipini inkar edən, sosial qrupları əməkdaşlığa çağıran, irqçiliyi təbliğ edən, parlamentli quruluşun əleyhinə olan, güclü rəhbərin olması şərtilə «sosial qruplar fövqündə» totalitar dövlət yaratmaq uğrunda mübarizə aparan siyasi hərəkat idi.



1921-ci ilin avqustun 31-də faşist partiyası və İtaliya sosialist partiyasının rəhbərləri arasında "sakitləşdirmə paktı" bağlandı. Hər iki tərəf bir-birinə münasibətdə düşmənçilik hərəkətlərindən çəkinmək öhdəliyini götürdü. Bu səbəbdən İtaliyada antifaşist birliyinin yarardılması ideyası baş tutmadı.

Artıq 1922-ci ilin oktyabrın ortalarında faşistlər dövlət çevrilişi etməyə hazırlaşırdılar. Oktyabrın 16-da dövlət çevrilişinə rəhbərlik etmək üçün "kvadrumviri" – dördlük yaradıldı. Onun tərkibinə Balbo, Byanka, De Boko və De Vekin daxil oldular.

1922-ci il oktyabrın 24-də "Romaya yürüş" şüarı altında faşistlərin Neapolda 40 minlik toplanışı keçirildi. Kral III Viktor Emmaniel oktyabrın 28-də Salandreyə faşistlərin iştirakı ilə yeni kabinet təşkil etməyi tapşırdı. Lakin Mussolini bu təklifi rədd edərək hökumətin tamamilə ona verilməsini tələb etdi. Həmçinin İtaliyanın nüfuzlu inhisarçı təşkilatı olan Sənayeçilərin Baş Konfederasiyası krala teleqram göndərərək hakimiyyətin Mussoliniyə verilməsini tələb etdi. Bir gün sonra Mussolini hökumətə başçılıq etmək üçün Romaya dəvət olundu. Oktyabrın 29-da onun Romaya gəlişi ilə "faşist inqilabı" sona yetmiş oldu. Xalq arasında onu istehza ilə "yataq vaqonnuda inqilab" adlandırırdılar. Oktyabrın 31-də Mussolini kral III Viktor Emmanuil ilə birlikdə faşist dəstələrinin rəsmi keçidinə baxdılar. Beləliklə, iri kapitalın müdafiəsi, Vatikanın "neytral" mövqedə durması, kral ailəsi və bir çox görkəmli siyasətçilərin faşistləri dəstəkləməsi, xırda burjuaziyanın, gənclərin və varlı kəndlilərin faşistlərin təraifnə cəlb edilməsi nəticəsində İtaliyada faşistlər hakimiyyətə gəldilər.

İtaliyada faşistlərin hakimiyyətə gəlməsi adi hökumət dəyişikliyi deyildi. Bu iri burjuaziya, mülkədarlar və katolik

kilsəsi tərəfindən hazırlanmış dövlət çevrilişi idi. Onların hakimiyyətə gəlməsi ilə burjua-demokratik quruluşun ləğvi prosesi başlandı və onu maliyyə kapitalının və iri mülkədarların diktaturası-totalitar faşist rejimi əvəz etdi. İtaliya faşizmin təsdiqini tapan ilk ölkə oldu ki, bu da təsadüfi deyildir. Kəskin qarşudurmalar, hakim dairələrdə hökm sürən çaşqınlıqlar, liberal-burjua dövlət quruluşundakı böhran İtaliyada faşizmin çiçəklənməsinə şərait yaratdı. Faşistlərin hakimiyyətdə olduğu dövr tarixə "qara iyirmillik" kimi daxil oldu.

Mussolini dərhal qeyri-məhdud diktatura yaratmağa tələsmədi. O, zəhmətkeşlərin inqilabi mübarizəsinin yenidən başlanmasından ehtiyat edirdi. "Duçe" monarxiya ilə hesablaşmasa da, onu saxladı. Diktaturaya keçid tədricən həyata keçirilməyə başladı. Faşistlərin emblemi dövlət gerbi elan edildi. Mussolini özünün birinci kabinetinə liberal və katoliklərdən bir sıra görkəmli siiyasi xadimləri daxil etdi. 1922-ci il dekabrın 15-də Mussolini başda olmaqla "Böyük faşist şurası" yaradıldı. Bu şura həm qanunvericilik, həm də icraedicilik funksiyasını öz üzərinə götürmüşdü.

Rəsmən qadağan edilməsə də birinci zərbə kommunistlərə vurulmağa başladı. Dövlətin inhisarların gəliri üzərində nəzarəti məsələsi təxirə salındı, çünki Mussolini bilirdi ki, onların köməyi ilə o qələbə çalmışdır. Mussolini gəncləri faşist partiyası ətrafında toplamaq məqsədilə bütün gənclər və uşaq təşkilatlarını yarımhərbi gənclər təşkilatında – İtaliya fəxri keşikçi təşkilatında birləşdirdi. Təşkilatın başlıca şüarı: "inanmaq, tabe olmaq, döyüşmək" idi.

1924-cü ilin parlament seçkilərində faşistlər saxtakarlıq edərək əksəriyyətə nail oldular. Rəsmi məlumatlara görə faşistlər 4,5 milyon səs, digər partiyalar isə 3,5 milyon səs aldılar. Lakin faşistlər parlamentdə 374, Xalq, Sosialist və Kommunist partiyası isə cəmi 104 deputat yeri tutdular. İtaliya Unitar sosialist partiyasından parlamentə deputat seçilmiş



Cakomo Matteotti özünün cəsarətli çıxışında bu saxtakarlığı ifşa etdi və o tələb etdi ki, seçkilərin nəticəsi ləğv olunsun və faşistlər deputat mandatından məhrum edilsin. Bu çıxışdan 10 gün sonra, 1924-cü ilin iyun ayının 10-da o oğurlandı və yoxa çıxdı. Bu hadisədən təsirlənən müxalifətdən olan deputatlar parlamentin işində iştirak etməkdən imtina etdilər. Kəskin siyasi böhran yaranmış oldu. Tezliklə məlum oldu ki, Matteotti faşistlər tərəfindən vəhşicəsinə öldürülmüşdür. Romadan bir qədər uzaqda onun meyidi tapıldı. Bu hadisədən sonra hətta faşist partiyası üzvlərinin bir çoxu da onun tərkibindən çıxdılar. Mussolini Matteottini öldürən Duminini həbs etdirdi. O, terrorçu təşkilatın rəhbəri Maripellinin tapşırığı ilə bu qəsdi həyata keçirdiyini bildirdi. Parlamentdən getmiş deputatlar "Müxalifət partiyalarının komitəsi"ni təşkil etdilər ki, bu komitə qədim Romada plebeylərin yığıncaq keçirdikləri təpənin adı ilə "Aventin bloku" adını aldı. Lakin tezliklə kommunistlərdən fərqli olaraq digər partiyalardan olan deputatlar zəiflik və qətiyyətsizlik göstərdilər. Xalq Matteottinin xatirəsini əziz tutaraq etiraz mitinqləri və nümayişlər təşkil etdilər, lakin «Aventin bloku» bundan istifadə edərək xalqı faşizmlə mübarizəyə qaldırmadı. Kommunistlər Aventin blokunun tərkibindən çıxdılar. «Duçe» Aventin blokunun fəaliyyətini qadağan etdi və kütləvi surətdə həbslər keçirməyə başladı.

### *İtaliyada açıq faşist diktaturasının qurulması*

1925-ci ilin yanvar ayının 3-də Mussolini rejimin təhlükəsizliyini hiss edərək deputatlar palatasında böyük nitqlə çıxış etdi. O, nitqində "Bütün hakimiyyət faşistlərə!" şüarını irəli sürdü. Bu hadisədən sonra o, bir sıra qanunlar qəbul etdi ki, bununla da demokratik azadlıqlar və parlamentin səlahiyyəti məhdudlaşdırıldı. Bundan sonra hökumətin başçısını kral təyin edirdi və hökumət ancaq onun qarşısında məsuliyyət daşıyırdı.

Kralın isə rolu əslində simvolik xarakter daşıyırdı. Deməli, hökumət heç kimin qarşısında məsuliyyət daşımırdı. Hökumət dekretlər vermək hüququ əldə etdi ki, bu dekretlər qanun qüvvəsində idi. Yerli hakimiyyət orqanlarının funksiyası təyin edilmiş hökumət prefektlərinə verilirdi. Faşistlərinkindən başqa bütün həmkarlar ittifaqlarının hüquqları məhdudlaşdırıldı, tətillər qadağan edildi. 1926-cı ilin noyabrında "Fövqəladə faşist qanunları" nəşr edildi ki, bu əslində açıq terrorist diktaturaya keçid demək idi. Bütün müxalifət partiyaları buraxıldılar, onların qəzetləri bağlandı. "Dövlətin təhlükəsizliyinin müdafiəsi" tribunalı təşkil edildi, ölüm cəzası tətbiq edilməyə başlandı, OVRA adlanan mühafizə dəstələri yaradıldı. Kütləvi həbslər başlandı. 1926-cı ilin noyabrında A.Oramşi, onun ardınca isə 12 min kommunist həbs edildi. Bütün müxalifət partiyaları öz fəaliyyətlərini xaricə keçirməyə məcbur oldular. 1927-ci ildə "Əmək xartiyası" adlı həmkarlar təşkilatı yaradıldı ki, bu da bütün fəhlə təşkilatları üzərində nəzarəti həyata keçirməli idi. Bütün digər həmkarlar idtifaqlarının fəaliyyəti qadağan edildi. Ölkədə bütün hakimiyyət faşist partiyasının əlində cəmləşdi. Ali orqan «Böyük faşist şurası» oldu və qanunvericilik funksiyası aldı.

1929-cu ilin fevralında İtaliya dövləti ilə Roma papası arasında Lateran sazişi bağlandı. İtaliya Vatikanı müstəqil dövlət kimi tanıdı, katolizmi müdafiə edəcəyini vəd etdi, onun doktrinasının ali məktəblərdə tədrisinə icazə verdi, onun ənənələrini vətəndaş aktlarında yerinə yetirəcəyini öhdəsinə götürdü. Vatikan da öz növbəsində İtaliya dövlətini müdafiə edəcəyinə təminat verdi.

Lateran sazişi faşizmlə kilsə arasında ittifaqı rəsmiləşdirdi, bu isə demokratik qüvvələrə qarşı mübarizədə Mussolininin mövqeyini möhkəmləndirdi.



### *İtaliya kapitalizmin nisbi sabitləşməsi və dünya iqtisadi böhranı dövründə*

Kapitalizmin nisbi sabitləşməsi dövründə iqtisadi inkişaf yaxşılaşdı, sənaye məhsullarının artımı başlandı. 1928-ci ildə sənaye məhsullarının artımı 1920-ci illə müqayisədə 60% artdı. Mussolini təbliğat kampaniyasına başlayaraq dünya ictimaiyyətini inandırmağa çalışırdı ki, guya bu yüksəliş faşistlərin "müdrik" siyasətinin nəticəsidir. Faşistlərin hakimiyyəti dövründə iqtisadi inkişaf özünəməxsus xüsusiyyətləri ilə fərqlənirdi. İtaliyada sənayenin inkişaf surəti onu sənaye-aqrar ölkəyə çevirdi, lakin sənaye sahələri qeyri-bərabər səviyyədə inkişaf edirdi. Mussolini iqtisadi inkişafa güvənərək Roma imperiyasını dirçəltmək fikrinə düşdü. Onun planında Afrikada geniş ərazilər zəbt etmək, Fransadan Nitsa və Savoyyanı qoparmaq, Balkan yarımadasını öz təsir dairəsinə çevirmək, Aralıq dənizini isə romalıların dediyi kimi, "bizim dəniz", yəni "İtaliyanın daxili dənizi etmək» kimi əsassız iddialar var idi. Mussolini bu planı həyata keçirmək üçün hərbi sənayenin inkişafına xüsusi üstünlük verirdi. Ona görə də faşistlərin hakimiyyəti dövründə İtaliya iqtisadiyyatını bəzən fil xəstəliyinə də bənzədirlər.

Sabitləşmə illərində fəhlələrin istismarı artdı, 8 saatlıq iş günü faktiki təxirə salındı. Bir çox ərzaq məhsulları xaricdən gətirilirdi. 1927-ci ildə Mussolini ölkədə korporativ dövlət "yaradacağını elan etdi".

1929-1933-cü illərdə dünya iqtisadi böhranı faşist İtaliyasının da təsərrüfatına ciddi zərbə vurdu. 1932-ci ildə İtaliyada sənaye istehsalı 1929-cu ilə nisbətən 33% aşağı düşdü. Əmək haqqı 12-16% aşağı düşdü. İşsizlərin sayı bir milyonu ötdü. Faşist hökuməti böhrandan çıxmaq üçün tədbirlər görməyə başladı. 1930-1934-cü illərdə "korporativ dövlət" yaratmaq

proqramı həyata keçirilməyə başladı. İqtisadiyyatın bütün sahələrində – sənaye, kənd təsərrüfatı, ticarət və xidmət sahələrində müvafiq olaraq sahibkarla həmkarlar ittifaqlarını və bütün zəhmətkeşləri öz sıralarında birləşdirən 22 korporasiya yaradıldı. Korporativ sistemin yaradılması ölkə iqtisadiyyatına dövlət nəzarətini gücləndirməyin səciyyəvi forması idi. Mussolininin iqtisadi xətti güclü "dövlət- güclü rəhbər" ideyasına əsaslanırdı. Bu ideya əsasında dövlət-inhisar kompleksi yaradıldı. İqitsadi böhran illərində hökumət «Çörək uğrunda mübarizə!» şüarını irəli sürlü. 1928 və 1933-cü illərdə əkin sahələrini genişləndirmək və suvarma qurğularını tikməyə dair iki qanun verdi. Bu qanunlar ölkənin aqrar bölməsinin böhrandan çıxmasına kömək etdi. Ölkədə taxıl istehsalı 82 mln. tona çatdı. Korporasiya nazirliyi təşkil edildi ki, ona Mussolini özü başçılıq edirdi.

### *Avtargiya uğrunda mübarizə*

XX əsrin 30-cu illərində İtaliyanın iqtisadi həyatında gedən proseslərdən biri də avtorgiyaya nail olmaq uğrunda mübarizə idi. Bundan məqsəd ölkədə özünü təmin edən və iqtisadi cəhətdən müstəqil olan sistem yaratmaq idi. Bu məqsədlə 1937-ci ilin oktyabrında Avtorgiya üzrə Ali komissiya yaradıldı. Ali komissiya tərəfindən iqtisadiyyatın və ayrı-ayrı sahələrin texniki cəhətdən yenidən qurulması, istehsal və maliyyə üzərində ciddi nəzarət qoyulması, istehlakın, hərbiləşmənin nizama salınması tədbirləri həyata keçirildi. İqtisadiyyatın işinə birbaşa və hərtərəfli qarışmaq sayəsində faşist-korporativ dövləti ölkənin iqtisadi inkişaf sürətinin artırılmasına nail oldu. Tezliklə sənaye istehsalının strukturu dəyişildi, maşınqayırma və metallurgiya sənayesinin xüsusi çəkisi xeyli yüksəldi. Beləliklə, İtaliya faşizmin dünyada yayılmasında, onun beynəlxalq amilə çevrilməsində əməli addımlar atıldı. Faşizm hərəkatında



italyan forması ideallaşmağa başladı. 1939-cu ildə parlamenti korporativ parlament əvəz etdi, onun üzvləri "duçe" tərəfindən təyin edilirdi və həqiqətdə bu orqan heç bir səlahiyyətə malik deyildi. İtaliyada dövlət-inhisarçı birliklər yaranmağa başladı ki, bunlardan ən məşhurları Əmlak institutu və Sənayenin Yenidən Qurulması idarəsi idi. Bu inhisar birliyi hərbi və ağır sənayenin əksəriyyət hissəsini öz nəzarəti altına almışdı.

### *Faşizmə qarşı fəhlə və demokratik hərəkatı*

1929-1933-cü illər dünya iqtisadi böhranı dövründə bütün İtaliyada antifaşist hərəkatı gücləndi. Faşizmə qarşı müqavimətin başlıca qüvvəsi fəhlə sinfi idi. 1930-cu ildə xaricə mühacirət etmiş İtaliya sosialist partiyasının sol qanadı İtaliya Kommunist partiyası ilə 1934-cü ilin avqustunda və 1937-ci ilin iyulunda faşizmə qarşı birgə mübarizə haqqında pakt bağladılar. O zaman İtaliya Kommunist partiyasına P.Tolyatti, İtaliya Sosialist partiyasına isə P.Nenni başçılıq edirdi. Bu pakt İtaliyanın azad edilməsi uğrunda mübarizədə mühüm rol oynadı və 1956-cı ilə qədər qüvvədə qaldı.

Xaricə mühacirət etmiş demokratik ziyalıların nümayəndələri də "Ədalət və azadlıq" adlı antifaşist təşkilat yaratdılar.

### *Faşist İtaliyasının xarici siyasəti*

İtaliya SSRİ-ni ilk tanıyan dövlətlərdən oldu və 1924-cü ilin fevralında onunla ticarət sazişi bağladı. Öz zəifliklərini hiss edən faşistlər açıq təcavüzkarlığa keçmək üçün əlverişli şərait gözləyirdilər. İtaliyada şovinist və militarist təbliğat genişlənməkdə idi. 1923-cü ildə İtaliyanın yunan adası olan Korfini tutmaq planına İngiltərə mane oldu. Lakin İtaliya 1924-cü ildə Fium limanını Yuqoslaviyadan ala bildi. Həmçinin Albaniya da İtaliyanın protektoratlığı altına düşdü. 1925-ci ildə

Həbəşistandakı Eriteriya və Somali müstəmləkələri arasında dəmiryolu çəkmək üçün konsessiyalar almaq və onun qərb hissəsində iqtisadi nüfuz qazanmaq istəyinə İngiltərənin ralızığı ilə nail oldu.

1929-1933-cü illər dünya iqtisadi böhranı zamanı kütlələri daxili problemlərdən yayındırmaq məqsədi ilə Mussolini xarici ekspansiyaya başlamağı mühüm vasitə hesab edirdi.

Hitlerin Almaniyada hakimiyyətə gəlməsi və Yaponiyanın Çində müharibəyə başlaması, xammal mənbələrini ələ keçirmək və dünyanı bölüşdürməkdə gecikmək təhlükəsi Mussolinini daha fəal fəaliyyətə həvəsləndirdi.

İtaliya təcavüzünün birinci qurbanı Efiopiya oldu. 1935-1936-cı illərdə Efiopiyada apardığı müharibə və Efiopiyanın işğalı faşizmin cinayətkar xarakterini göstərmiş oldu.

İtaliyanın Almaniya ilə birlikdə İspaniyaya hərbi müdaxiləsi təcavüzkarlıq yolunda sonrakı addım oldu. İspaniyaya müdaxilə zamanı Almaniya və İtaliyanın hərbi-siyasi əməkdaşlığı faşist dövlətləri blokunun yaranmasını sürətləndirdi. 1936-cı ilin oktyabrında beynəlxalq siyasətin əsas məsələlərində birgə fəaliyyət, Mərkəzi və Cənub-Şərqi Avropada nüfuz dairələrinin hüdudlarını müəyyən etmək haqqında Almaniya-İtaliya müqaviləsi bağlandı. 1936-cı ilin noyabrında Almaniya və Yaponiya "Antikomintern paktı" bağladılar. Bir ildən sonra İtaliya da bu pakta qoşuldu. Əslində faşist militarist koalisiyası dünyanı Almaniya, İtaliya və Yaponiya inhisarlarının mənafeyinə uyğun bölmək uğrunda müharibənin hazırlanması və törədilməsi məqsədi ilə meydana çıxmışdı. Blokun əsas zərbəsi təkcə SSRİ-yə qarşı yox, həmçinin, ABŞ, İngiltərə və Fransaya qarşı da çevrilmişdi.

1937-ci ilin dekabrında İtaliya Millətlər Cəmiyyətindən çıxdı. 1937-ci ildə İtaliya ilə İngiltərə arasında imzalanan «centlmen sazişləri»nə görə dövlətlər Aralıq dənizində bir-



birlərinin mənafelərinə hörmət etməli idilər. 1938-ci ildə bağlanmış İtaliya-İngiltərə sazişinə görə isə İngiltərə Aralıq dənizi rayonunda İtaliyaya müəyyən güzəştlərə getdi.

İlk dövrlərdə Avstriya, Dunay hövzəsi və Balkan yarımadasına qarşı işğalçılıq planlarına görə İtaliya ilə Almaniyanın mənafeyi toqquşurdu. Lakin Efiopiyanın təcrübəsi "duce"ni inandırdı ki, Hitlerlə ittifaq olmadan o heç nəyə nail ola bilməyəcək. Ona görə də Hitlerlə alçaldılmış şəraitdə ittifaqa girməyə məcbur oldu və Almaniya tərəfindən Avstriyanın işğalını, onun Çexoslovakiya və Polşaya qarşı iddialarını sakitliklə qarşıladı. Mussolini Münhen sazişini imzaladı. Mussolini 1939-cu ilin fevralın 4-də İtaliyanın xarici siyasət məqsədlərini elan edərək bildirdi ki, İtaliya Avropada Albaniyanı çıxmaq şərti ilə heç bir ərazi iddiasına düşməyəcəkdir. İtaliyanın məqsədi Aralıq dənizinə sahib olmaqdır. İtaliya Albaniyanı 1939-cu ilin aprelində işğal etməklə kifayətlənməyə məcbur oldu. 1939-cu ilin mayın 22-də İtaliya ilə Almaniya arasında "polad pakt" adlanan müqavilə imzalandı. İtaliya İkinci dünya müharibəsi başlanarkən 1939-cu il sentyabrın 1-də öz bitərəfliyi haqqında rəsmi bəyanat verdi. 1940-cı ilin martın 18-də Brennerdə Hitlerlə görüşündə Mussolini «paralel müharibə» aparmaq planını irəli sürdü. Bu plan «Fransa sərhədlərində müdafiə mövqeyi seçməyi, Yuqoslaviyaya qarşı qüvvə toplamağı, Egey dənizi rayonu və Liviyada hərbi əməliyyatlar aparmağı nəzərdə tuturdu. İtaliya 1940-cı ilin iyunun 10-da Fransanın cənubuna qoşun yeritməklə Almaniyanın tərəfində İkinci dünya müharibəsinə girmiş oldu.

# VII. İSPANİYA

## *İspaniya Birinci dünya müharibəsindən sonrakı ilk dövrdə*

XX əsrin əvvəllərində İspaniya güclü feodalizm qalıqlarının olduğu aqrar-sənaye ölkəsi idi. Mülkədar aristokratiyası və maliyyə oliqarxiyası blokunun mənafeyini ifadə edən monarxiya idarə üsulu hərbi diktaturanın köməyinə arxalanaraq özünü saxlayırdı. Ölkənin əsas burjua partiyaları liberallar və mühafizəkarlar idi.

Birinci dünya müharibəsi dövründə İspaniya bitərəfliyini saxladı. Müharibə aparan ölkələrə strateji məhsullar satmaq və Latın Amerikası ölkələrindən gələn mallara öz ərazisindən keçirmək üçün aldığı gömrük hesabına xeyli gəlir əldə etdi. Bu dövrdə onun sənaye və kənd təsərrüfatı sürətlə inkişaf etdi. Qızıl ehtiyatı 4 dəfə çoxaldı. Daş kömür polad və çuqun istehsalı 2 dəfə artlı. Sənaye fəhlələrin sayı artaraq 2 milyona çatdı. Varlı siniflərin gəlirləri artsa da, zəhmətkeş əhalinin vəziyyəti daha da ağırlaşdı.

İqtisadi inkişafa baxmayaraq İspaniya xarici dövlətlərdən maliyyə asılılığında idi. İspaniya iqtisadiyyatına qoyulan xarici kapitalın 50%-i İngiltərənin, 34%-i isə Fransanın payına düşürdü.

Müharibədən sonra İspaniyada sosial ziddiyyətlər xeyli kəskinləşdi. Ölkəni bürüyən sosial etirazlar nəticəsiz qalmadı. Hökumət 8 saatlıq iş günü tətbiq etdi, uşaq əməyindən istifadə qadağan olundu, qocalığa və əlilliyə görə pensiya təyin edildi.

Birinci dünya müharibəsinin son ilində İspaniya hökumətinə mühafizəkarlar partiyasından olan A.Maura başçılıq edirdi. 1918-ci il noyabrın 9-da Maura hökumətini liberal Qarsio Prieto hökuməti əvəz etdi. Lakin həmin ilin dekabrında bu hökumət də istefaya getdi. Onun yerində Qraf Romananes hökuməti təşkil edildi. Tətil hərəkatının güclənməsi nəticəsində bu hökuməti yenidən Maura hökuməti əvəz etdi. O da ancaq üç ay



hakimiyyətdə qala bildi. 1919-cu il iyulun 15-də Sançes de Tokanın başçılığı ilə liberal-mühafizəkar hökumət quruldu. Bu hökumətin dövründə bütün ölkədə konstitusiya təminatları bərpa edildi. Siyasi amnistiya verildi. Dekabr ayında Mühafizəkarlar partiyasının liderlərindən biri olan Alyende Salaras yeni hökumət qurdu. Onun hakimiyyəti 1920-ci ilin may ayınadək davam etdi.

1920-ci ilin aprelin 15-də Madriddə İspaniya Kommunist Partiyası təşkil edildi və o, Kominternə daxil oldu. 1921-ci ilin aprelində İspaniya Kommunist fəhlə partiyası təşkil edildi. 1921-ci ilin noyabrında onların hər ikisi birləşib. İspaniya Kommunist partiyası adlandı. Onun rəhbəri isə Qarsia Kexido oldu. Bu partiyanın yaranması burjua-mülkədar dairələrində həyəcana səbəb oldu. Ölkədə «Reket müdafiə xuntaları» yarandı.

1920-ci ilin may ayında liberal-mühafizəkar Dato yeni hökumət təşkil etsə də, 1921-ci il martın 8-də o öldürüldü və yenidən baş nazir Alyende Salaras oldu. Onun hakimiyyəti illərində İspaniya xarici siyasətdə bir sıra uğursuzluqla üzləşdi.

Ən ciddi siyasi böhranı ölkə Mərakeşdə ispan qoşunlarının məğlubiyyəti vaxtı hiss etdi. 1921-ci ilin iyulunda İspaniya qoşunları üsyan etmiş rif tayfalarına qarşı hücuma keçdilər, lakin Anval altındakı döyüşdə qəti məğlubiyyətə uğradılar.

Anval altındakı məğlubiyyətdən sonra Alyende Salaras hökuməti istefaya getdi. Onu 1921-ci ilin avqustun 15-də yenidən başda A.Maura olmaqla koalisiyalı hökumət əvəz etdi. O, Mərakeşdə hərbi əməliyyatları aparmaqdan ötrü plan işləyib hazırladı və onu həyata keçirməyə başladı. Lakin bu planın həyata keçirilməsinə qarşı hökumət daxilində narazılıq başlandı. 1922-ci il martın 7-də Sançes Herra başda olmaqla liberal-mühafizəkarlar hökuməti yaradıldı. Beləliklə, 1917-ci ilin sonundan 1922-ci ilin dekabr ayınadək ölkədə 11 hökumət

dəyişikliyi oldu. Bütün bunlar ölkədə siyasi böhranın hökm sürdüyünü göstərirdi.

Anval altındakı məğlubiyyət rejimin çürüklüyünü göstərdi və cəmiyyətin bütün təbəqələrində həyəcan oyatdı. Ölkədə inqilabi hərəkat başlandı. Ölkə idarəedilməz həddə gəlib çatdığından hərbçilər fəaliyyətlərini gücləndirdilər. Belə şəraitdə hərbçilərin hakimiyyət başına gəlməsi labüd idi.

### *Primo de Riveranın diktaturası*

Burjua-mülkədar partiyaları olan liberallar və mühafizəkarlar monarxiyanın müdafiəsinə qalxdılar. «Müdafiə xuntası», ali ruhanilik, maliyyə oliqarxiyası və mülkədarların yuxarı təbəqəsi monarxiyanı hərbi diktatura qurmaq yolu ilə xilas etmək qərarına gəldilər. Hərbi çevriliş açıq şəkildə hazırlanmaqda idi. 1923-cü ilin sentyabrın 20-də Anval altında məğlubiyyətin səbəbləri haqqında məruzə dinlənilərkən məsuliyyət kralın və generalitetin üzərinə qoyuldu. 1920-ci ilin sentyabrın 13-də Katalon hərbi dairəsinin komandanı general Migel Primo de Rivera Kataloniya iri burjuaziyası və hərbçilərindən kömək alaraq Barselonada hakimiyyəti ələ aldı.. Kral XIII Alfons isə onu Madridə dəvət edib hökumət təşkil etməyi həvalə etdi. Əvvəlki hökumət istefa verdi

Adi hökumətin yerində Primo de Rivera sentyabrın 15-də hərbi direktoriya təşkil etdi. Onun tərkibi general və admirallardan ibarət idi. Kataloniyada fəhlə hərəkatına divan tutmuş Martines Anido daxili işlər naziri oldu. Mühasirə vəziyyəti elan edildi. Konstitusiya təxirə salındı, kortes buraxıldı, yerlərdə hakimiyyət hərbi qubernatorların əlində cəmləşdirildi. Korteslərin əvəzində İspaniyanın bütün ərazisində Somatenlər yaradıldı. Xalqa bildirilən manifestdə göstərilirdi ki, ölkə acınacaqlı vəziyyətdədir, ona görə də onu bu vəziyyətdən çxıarmaq lazımdır. «Yeniləşdirmə» siyasəti yeridiləcəyi elan edildi.



«Yeniləşdirmə» hər şeydən əvvəl öz ifadəsini tətillərin, nümayiş və yığıncaqların qadağan edilməsində tapdı. İKP qanundan kənar elan edildi. Ciddi senzura qoyuldu. Andlılar məhkəməsi ləğv edildi. Özünə möhkəm dayaq yaratmaq məqsədi ilə diktator zabitlərin maaşını artırdı. Anval hadisəsinə görə istintaqı dayandırdı. Öz tərəfinə xalqı çəkmək üçün «Vətənpərvərlər ittifaqı» adlı partiya təşkil etdi. İtaliyada olduğu kimi korporativ sistem təşkil etməyə başladı. Siniflərdən yüksəkdə dayanan yeni rejim yaratdığını elan etdi. «Vahid millət» yaratmaq pərdəsi altında katalon, bask və Qalisiya dillərini rəsmi sənədlərdə işlətməyi qadağan etdi.

İqtisadi iyasət «ölkənin dirçəldilməsi» şüarı altında həyata keçirilirdi. Diktator rejiminin qurulması dünyada kapitalizmin nisbi sabitləşməsi dövründə baş verirdi. İqtisadi yüksəliş bütün ölkələrdə, o cümlədən İspaniyada da yaxşı gedirdi. 1924-cü ilin martın 8-də iqtisadi inkişafı mərkəzləşdirmək, planlaşdırmaq və əlaqələndirmək məqsədi ilə Milli iqtisadiyyat Şurası təşkil edildi. Hökumətin maliyyə siyasəti gəlir və əmlak vergisinin artırılmasına əsaslanırdı. Dövlət inhisarları yaradıldı. 1927-ci il 28 iyul tarixli dekretlə neft inhisarı olan KAMPSA şirkəti yaradıldı. Xarici siyasətdə proteksionizm siyasəti yeridildi. Hökumət milli inhisarı gücləndirdi. Fəhlə və sahibkarların ümummilli korporasiyalarda birləşməsi nəticəsində mövcud olan sosial ziddiyyətlər yumşaldıldı. Lakin yenə yarımfeodal quruluş qalmaqda idi.

1928-ci ilin noyabrında XIII Alfons və Primo di Rivera Romaya səfər etdi. İtaliya kralına generalı təqdim edərkən Alfons dedi ki, budur, mənim Mussolinim. Prime de Riveranın diktaturası ilk əvvəllər Mussolinin yaratdığı diktaturaya bənzəyirdi.

İspaniya Mərakeş problemini silahlı qüvvə ilə həll etməyi bacarmadı. Ancaq İspaniya ilə Fransa arasında birlikdə hərəkət etmək haqqında saziş əldə edildikdən sonra riflərin üsyanı ya-

tırıldı (1926). 1925-ci ildə üsyançıların rəhbəri Əbdül Kərimin Aqadardakı qərargahı tutuldu. 1926-cı ilin iyulun 10-da Fransa və İspaniya Mərakeşdə nüfuz dairələri məsələsində razılığa gəldilər.

Hərbi diktaturanın populyar olmadığı təsdiq edildikdən sonra Primo de Rivera 1925-ci ildə onu mülki hökumətlə əvəz etdi, lakin bu formal idi. Diktator yenə də qeyri-məhdud səlahiyyətə malik idi.

Əvvəllər bu diktatura ciddi müqavimətə rast gəlmədi. Lakin sonralar ona qarşı müxalifət gücləndi. 1926-1929-cu ildə müxalifətin diktaturanı silahlı yolla devirmək cəhdi baş tutmadı. Kataloniyalılar muxtariyyət uğrunda inadlı mübarizəyə başladılar.

Alimlər, professorlar, tələbələr diktaturaya nifrət edirdilər. Müxalif qüvvələr gücləndi. Ona görə İSFP və ÜƏİ məcbur oldu ki, diktaturanı müdafiə etməkdən əl çəksin. Anarxo-sindikalistlər terrora əl atdılar.

İnhisarçı olmayan burjuaziya da gördü ki, Riveranın tədbirləri ilk növbədə onların mənafeyinə ziyan vurur. «Böyük İspaniya» kursunun özünü doğrultmaması onları müxalifətə keçməyə məcbur etdi. Kəndlilər torpaq ala bilmədikləri üçün diktaturaya qarşı çıxdılar. Milli assambleya çağrılması, kortesi yenidən təsis etmək və konstitusiya qəbul etmək cəhdləri diktatora kömək etmədi.

Sabitləşmə illərində İspaniya öz müstəmləkələrində xeyli fəallaşdı. Başlıca məqsəd «Böyük İspaniya» yaratmaq idi. Bu illərdə İspaniya Aralıq dənizindəki mühüm strateji mövqedə yerləşən Tancer limanına sahib olmaq istəsə də, ona nail ola bilmədi. Tancer limanını alan Fransa onu beynəlxalq nəzarətə verdi. Bundan narazı qalan İspaniya 1926-ci ildə Millətlər Cəmiyyətindən çıxsa da, 1928-ci ilin mart ayında yenidən bu təşkilata qayıtdı. Hökumət Argentina, Meksika və Kuba ilə əlaqələrini genişləndirsə də, «Böyük İspaniya» yaratmağı



bacarmadı. Bu dövrdə X.Kolumbun 1492-ci ilin oktyabrın 12-də Amerikanı kəşf etdiyi gün «İspan Milli günü» kimi geniş bayram edildi.

Dünya iqtisadi böhran ölkə həyatına bütün sahələrinə zərbə vurdu. Sənayenin kimya, dağ-mədən. Maşınqayırma, toxuculuq sahələri daha çox ziyan çəkdi. 1930-cu ildə işsizlərin sayı təxminən 300 min, 1931-ci ildə 500 min nəfədən çox idi. Dünya iqtisadi böhranı ilə əlaqədar ölkədə vəziyyət daha da pisləşdi. Hətta Riveranı hərbi dairələrin komandanlığı da müdafiə etmədi. 1930-cu ilin yanvarın 28-də o, istefa verməyə məcbur oldu. Hakimiyyət ilk əvvəl mülkədar və iri burjua blokunun əlinə keçdi. Hökumətə monarxist Berenqer rəhbərlik etməyə başladı. Berenqer hökuməti senzuranı ləğv etdi və siyasi məhbuslara amnistiya verdi. Lakin ölkədə monarxiya əleyhinə əhval-ruhiyyə gücləndi. Orta və xırda burjuaziya qüvvələri respublika uğrunda mübarizəyə qalxdılar. Berenqer 1931-c ilin fevral ayınadək hökumətə başçılıq etdi. Bu hökumət fevralın 14-də istefaya çıxmağa məcbur oldu. Berenqerdən sonra 1931-ci ilin aprelinədək hakimiyyətdə Asnarın hökuməti oldu. Lakin onun da gördüyü tədbirlər inqilabın qarşısını ala bilmədi. Burjua-demokratik inqilabı üçün ölkədə şərait yetişdi.

### *İspaniyada burjua-demokratik inqilabı. İnqilabın birinci və ikinci mərhələsi*

Xalq kütlələrini öz nəzarətləri altında saxlamaq üçün respublika tərəfdarı olan partiyalar, o cümlədən sosialistlər 1930-cu ilin avqustun 17-də San-Sabestyanda birgə hərəkat haqqında pakt imzaladılar.12 nəfərdən ibarət inqilabi komitə təşkil edildi. Pakta görə çevriliş dinc formada olmalı idi. Lakin son dəqiqələrdə qanlı xarakter aldı. Xaki (Araqon) qarnizonunun əsgərləri çıxışlarının dayandırıldığından xəbər tutmadan üsyan qaldırdılar və məğlubiyyətə uğradılar. Üsyanın təşkilatçıları güllələndilər. Bir neçəsi isə həbs edildi.

1931-ci ilin aprelin 12-də bələdiyyə idarələrinə seçkilərdə respublika tərəfdarları 49 əyalətdən 45-də əksəriyyət qazandılar. Ölkədə inqilab dinc yolla qalib gəldi. Ordu və polis silah işlətməyə cəsarət etmədi. XIII Alfons xaricə qaçdı.1931-ci il aprelin 14-də İspaniya respublika elan olundu. Hakimiyyət inqilabi komitənin əlinə keçdi və o, özünü müvəqqəti hökumət elan etdi. Onun tərkibinə keçmiş monarxistlər, liberal burjua nümayəndələri və üç sosialist (Larqo Kabalero, Prietto, de los Rios) daxil oldu. Hökumətin başçısı katolik Alkala Samora oldu. Onun əsas məqsədi inqilabın qarşısını almaq və respublikanın mühafizəkar xarakterini təmin etmək idi.

Yeni qurulmuş respublika qarşısında mürəkkəb vəzifələr dururdu. İspaniya geridə qalmış aqrar ölkə idi. 2% mülkədar 67% torpağa, 86% kəndlilər isə cəmi 15% torpağa sahib idilər. Feodal qaydaları saxlanılırdı. Mülkədar, kilsə və dövlət qarşısında mükəlləfiyyətlər əsaslı aqrar islahat keçirilməsini zəruri edirdi.

Milli məsələnin həll edilməsi də vacib idi. İspaniyada əsasən 4 millət – ispanlar, katalonlar, basklar, qalisiylər yaşayırdılar. İspanlardan başqa onlardan üçünün yaşadığı ərazi İspaniya ərazisinin 15.6 %-ni təşkil edirdi. Onlar ərazi muxtariyyəti tələb edirdilər. Onların sayı 6 milyondan çox idi.

Kilsə də problem idi. Kilsə kapitalı dəmiryolu, dəniz nəqliyyatı və tramvay kompaniyasına qoyulmuşdu. Ölkədə 67 min kilsə, 200 min keşiş, rahib, rahibə, 4,5 min monastr fəaliyyət göstərirdi. Kilsə məktəblərində 700 min şagird oxuyurdu.

İspaniyada xarici – ingilis, fransız, Kanada, Amerika, alman, italyan, Belçika kapitalı ağalıq edirdi.

Ordu və donanma mülkədarlar və iri kapitalistlərin əlində idi. Müasir silahlar az idi.



Fəhlə sinfinin vəziyyətinin yaxşılaşması vacib idi, Avropanın digər ölkələri ilə müqayisədə onlar daha az əmək haqqı alırdılar.

İnqilabın 1931-1933-cü illəri əhatə edən birinci mərhələsi tarixdə respublikaçılar və sosialistlər dövrü adlandırılır.

Yeni hökumət və kortes burjua-demokratik inqilabının birinci mərhələsində (1931-1933-cü illər) bir sıra demokratik dəyişikliklər həyata keçirdi. 1931-ci ilin dekabrın 9-da burjua-demokratik konstitusiya qəbul edildi, demokratik azadlıqlar verildi. Kataloniya muxtariyyət aldı. Aqrar islahat institutu yaradıldı. Ölkənin mərkəz, Cənub və Cənub-qərb vilayətlərində sakitləşdirici aqrar islahat keçirildi. Lakin bütün bunlar ardıcıl deyildi. Hökumət kilsənin dövlətdən ayrılması, yezuitlar ordeninin fəaliyyətinin qadağan edilməsi barədə də dekrat verdi. Orduda zabit və generalların sayı bir qədər azaldıldı. Lakin yenə də irticanın maddi gücü sarsılmaz qalmışdı. Mülkədar torpağı qalmaqda idi, onlar orduya nəzarət edirdilər, monarxistlər dövlət aparatında çalışırdılar, kilsə öz sərvətini saxlayırdı. Konstitusiyanın təsdiqindən sonra Alkala Samora ölkənin prezidenti seçildi, baş nazir isə sol respublikaçılar partiyasının lideri Manuel Asanya təyin edildi. Hökumətin siyasəti dəyişmədi.

Almaniyada faşist diktaturasının qurulması irticaçıları daha da fəallaşdırdı. Onlar xalq kütlələrinin hökumətdən narazılığından istifadə edərək 1933-cü ilin noyabrın 19-da keçirilən seçkilərdə qələbə qazandılar. Bununla da inqilabın 1933-1936-cı illəri əhatə edən ikinci mərhələsi başlandı. Seçkilərdən sonra hakimiyyətə mülkədarla blokda olan iri burjuaziyanın sağ partiyaları gəldilər. Yeni hökumət din, Vətən, ailə, mülkiyyət və qayda-qanunun qorunmasını tələb edirdi.

Faşistpərəst A.Merrusun başçılığı ilə 1933-cü ilin dekabrında təşkil olunmuş “Sağ mərkəz” hökumət zəhmətkeşlərə verilmiş bütün hüquqları ləğv etdi. Aqrar islahatın həyata

keçirilməsi dayandırıldı. Kortes rejimə qarşı çıxanlara qarşı ölüm cəzası verilməsi haqqında qanun verdi. A.Merrus hökuməti etimad qazanmadığı üçün istefaya getdi. Oktyabrın 9-da radikal D.Martines Barrio yeni koalisiyalı hökumət qurdu. 1934-cü ildə ölkədə 1,5 milyona yaxın işsiz var idi. Ona görə də bu hökumətin fəaliyyəti İspaniya tarixində «Qara ikiillik» və ya «əksislahat respublikası» kimi qiymətləndirilmişdi.

Faşist təşkilatları fəallaşdı. 1931-ci ilin sonlarında «Nasional-sindikalist hücum xuntası» («Xons» partiyası) yaradıldı. 1933-cü ilin oktyabrında isə keçmiş diktatorun oğlu Xose-Antonio Primo de Rivera Almaniyadakı faşist partiyası tipində «İspaniya falanqası» partiyasını təşkil etdi. Falanqaçılar 27 maddədən ibarət qəbul etdikləri proqramda İspaniyada millətin birliyin xidmət edən Milli-sindikalist dövlət yaradılmasını, ispanların, ailə, bələdiyyə və həmkarlar təşkilatlarının vasitəsi ilə dövlət həyatında iştirak etmələrini, siyasi partiyalar və bələdiyyələr sisteminin ləğv edilməsini, kilsənin ölkənin yeniləşdirilməsi işinə cəlb edilməsini tələb edirdilər. Kapitalizm tənqid olunurdu. Proqramda ispanların dini və hərbi ruhu əks olunmuşdu. 1934-cü ilin fevralında onlar vahid «İspan falanqası və xons» partiyasında birləşdilər. Partiyanın əsas şüarları «vətən birliyi», «birbaşa hərəkət», «antikommunizm və antiimperializm» idi.

Bu mərhələdə mürtəce qüvvələrin fəaliyyəti gücləndi.

1932-ci ilin sonunda yaradılmış İspaniya sağ muxtariyyət hüquqları konfederasiyasının (SEDA) 3 nümayəndəsi 1934-cü ilin oktyabrın 4-də hökumətin tərkibinə daxil oldu. Burjua millətçiləri Kataloniyanı müstəqil burjua respublikası elan etdilər. Asturiyada fəhlələr hakimiyyəti ələ aldılar. Onda irticaçı general Fransisko Franko Mərakeşdəki qoşunu buraya gətirdi və üsyanı yatırtdı.



## *İspaniyada inqilabın üçüncü mərhələsi. Vətəndaş müharibəsi*

İspaniyadakı 1934-cü il oktyabr hadisələri göstərdi ki, bir tərəfdən faşistpərəst qüvvələr hələ açıq diktaturaya keçə bilməzlər, digər tərəfdən isə faşizmə qarşı bütün xalqın birləşməsi, xalq cəbhəsi təşkil etməsi zəruridir.

1934-cü ilin oktaybrın 1-dən 1935-ci ilin sentyabrın 25-dək hökumətə A.Merrus, 1935-ci ilin sentyabrın 25-dən dekabrın 10-dək Çaparieta, 1935-ci ilin dekabrın 10-dan isə respublikaçıların nümayəndəsi Portel Valyadares başçılıq tdilər. Valyadares hökuməti Korteslərin vaxtından qabaq buraxılması və 1936-cı ilin fevralın 16-da yeni parlament seçkiləri keçirilməsi barədə sərəncam verdi.

1935-ci il mayın 14-də general F.Franko İspaniya silahlı qüvvələrinin baş qərargah rəisi təyin edildi.

1936-cı ilin yanvarın 15-də kommunistlər və sol sosialistlər Xalq cəbhəsi təşkil etdilər. Onun tərkibinə əsas respublika partiyaları daxil oldular.

Xalq cəbhəsinin proqramı siyası məhbuslar üçün amnistiya verilməsini, fəhlələrə qarşı cəza tədbirləri tətbiq edən günahkarların cəzalandırılmasını, demokratik azadlıqların bərpa edilməsini, zəhmətkeşlərin əmək haqqının artırılmasını, kəndlilərə və muzdurlara torpaq payı verilməsini, vergilərin və icarə haqqının azaldılmasını və s.özündə əks etdirirdi.

1936-cı il fevralın 16-da Xalq cəbhəsi kortesə seçkilərdə qələbə qazandı, 474 yerdən 269-nu tutdu. Hökumətə sol respublikaçılar gəldilər. Ona yenidən Manuel Asanya rəhbərlik edirdi. May ayında o, prezident seçildi. Baş nazir isə həmin partiyadan Kasares Kiroqo oldu. Bu qələbə ilə burjua-demokratik inqilabının ikinci mərhələsinə yekun vuruldu və üçüncü mərhələsinin başlanğıcı qoyuldu.

Xalq cəbhəsi hökuməti «qara ikiilliyin» dekretlərini ləğv etdi, siyasi məhbuslara amnistiya verdi və fəhlələrin əmək

haqqını artırdı. Torpağın kəndlilərə verilməsi işi də bərpa olundu. Xalq cəbhəsinin qələbəsi və fəaliyyəti sağların açıq parlament yolu ilə hakimiyyətə gəlmək ümüdlərini puç etdi. Lakin hökumət ordunu yenidən təşkil etmək üçün tədbirlər görmədi. Məsul hərbi vəzifələrdə mürtəce generallar qalırdılar, bunlar maliyyə maqnatlarının, torpaq aristokratiyasının və ali rütbəli ruhanilərin geniş yardımından faydalanırdılar. Daxili irtica respublikaya qarşı qəsd hazırladı. O, Hitler Almaniyasının və faşist İtaliyasının köməyi ilə Xalq cəbhəsinin nailiyyətlərini ləğv etmək və ölkədə faşist diktaturası qurmaq istəyirdi.

İspaniya respublikasının düşmənləri belə qərara gəldilər ki, respublikanı ancaq vətəndaş müharibəsi yolu ilə yıxmaq olar.

Mussolini və və Hitlerdən kömək alan İspaniya faşistləri sürətlə qiyama hazırlaşmağa başladılar. İspaniyada demokratik quruluşun möhkəmlənməsindən qorxan İngiltərə və Fransa da bu məsələyə göz yumurdu. Qiyam İspaniya Mərakeşində iyulun 17-də başlandı, sonrakı gün bütün ölkəyə yayıldı. 32 ay ərzində İspaniya faşizm və dünya kommunizm qüvvələri arasında qanlı döyüş meydanına çevrildi. Millətçilərə (qiyamçılara) Almaniya və İtaliya, respublikaçılara isə SSRİ və dünya kommunist hərəkatının qüvvələri yardım edirdilər. Qiyamın rəhbərləri ildırım sürətli qələbəyə əmin idilər. Özünü itirmiş hökumət hətta təslim olmağa hazır idi. Lakin xalq ümumi inqilabi tətil elan etdi. Hökumət istefa verdi, yeni kabinetə sol respublikaçı Xose Xiral başçılıq etdi. Xalq müharibəsi başlandı. Tezliklə müharibənin mərkəzi Madrid oldu. Faşistlər ancaq ölkənin şimalında və cənub sərhədlərində möhkəmlənə bildilər. Onlar məğlubiyyətə düçar olduqları anda İtaliya və Almaniya köməyə gəldi. Qüvvələr nisbəti qiyamçıların xeyrinə dəyişdi. Şimaldan və cənubdan onlar Madridə hücum etdilər. Respublikanın başı üstünü təhlükə aldı. Faşistlərin tutduğu zonada 1936-cı ilin



oktyabrın 1-də Frankonun diktaturası quruldu. O, özünü generalisimus elan etdi. franko «Biz xalqa məxsus olmaq üçün gəlmişik!» şüarını irəli sürdü. Almaniya, İtaliya və Vatikan İspaniya respublikası ilə diplomatik münasibətləri kəsərək Franko hökumətini tanıdılar. Faşistlər belə bir şüar irəli sürdülər: «Vahid ölkə, vahid dövlət, vahid rəhbər!» Franko «kaudilyo» adlandırıldı. Bu almanca «fürer», italyanca «duçe» adına uyğun gəlirdi.

Böyük Britaniya və Fransa İspaniya hadisələrinə «qarışmamaq» deyilən siyasət yeridirdilər. Böyük Britaniyadakı Balduin hökumətinin təzyiqi ilə Fransadakı Leon Blüm hökuməti Avropa dövlətlərinə məsləhət gördü ki, İspaniyanın işinə qarışmamaq və hər iki tərəfə silah göndərməmək haqqında saziş bağlasınlar. Sovet hökuməti bu təklifə o şərtlə razı oldu ki, faşist Almaniyası, İtaliya və Portuqaliya da bu sazişi imzalasın. 1936-cı ilin avqustun 23-də 27 dövlət onu imzalayandan sonra saziş qüvvəyə mindi. Ona nəzarət üçün təşkil edilən Komitə Londonda yerləşirdi. Lakin tezliklə aydın oldu ki, faşist dövlətləri Frankoya kömək edirlər. Onda SSRİ də elan etdi ki, o da İspaniya respublikasına kömək edəcəkdir.

Müharibənin birinci mərhələsində respublikaçıların əsas səyləri döyüş qabiliyyətli xalq ordusunun yaradılmasına və Madridin müdafiəsinin təşkil edilməsinə yönəldilmişdi.

Vətəndaş müharibəsi Xalq cəbhəsi üçün Milli-inqilabi, frankoçular üçün mühafizəkar – bərpa xarakteri daşıyırdı.

İspaniyada respublika quruluşunu müdafiə etmək məqsədi ilə Parisdə beynəlxalq həmrəylik komitəsi yaradıldı. Dünyanın 54 ölkəsindən olan könüllülər 7 beynəlmiləl briqada yaratdılar.

1936-cı ilin sentyabrında İspaniya respublikasında yeni hökumət yarandı, onun da başında İSFP-nın lideri Larqo Kabalyero dururdu. Onun tərkibinə sosialistlər, burjua respublikaçıları, kommunistlər, bir qədər sonra isə anarxo-sindikalistlər

daxil oldular. İlk dəfə kommunistlər də bu hökumətdə iştirak edirdilər. 1936-cı ilin oktyabrında SSRİ onlara kömək göstərdi.

Oktyabrda faşistlər Madridə yaxınlaşıb, onu bütünlüklə mühasirəyə aldılar. Faşist generalı Mola açıq elan etdi ki, paytaxta qarşı 4 cəbhədən və şəhərin özündən (yəni 5 yerdən) hücuma keçmişlər. Lakin bütün bunlara baxmayaraq, onlar Madridi ala bilmədilər. Bunun əsas səbəbi İspaniya əsgərlərinin və əhalisinin şəhəri qəhrəmancasına müdafiə etməsi idi. Bu dövrdə hökumət bir sıra sosial dəyişikliklər həyata keçirdi. Mülkədar torpaqlarının xeyli hissəsi kəndlilərə verildi. Basklar muxtariyyət aldı. Xalq millisi nizami orduya çevrildi. Orduda siyasi komissarlar sistemi yaradıldı və onlar ordu içərisində iş aparırdılar. Madrid uğrunda döyüş respublikanın möhkəmlənməsində mühüm rol oynadı.

Xose Antonio Primo de Rivera 1936-cı ilin noyabr ayında respublikaçılar tərəfindən edam edildikdən sonra Franko partiyanın başçısı və ispan faşizminin rəhbəri elan olundu. Yeni falanqa "frankoçu", ideologiya isə "frankizm" adlanırdı.

Madrid döyüşündən sonra Almaniya və İtaliya açıq müdaxiləyə keçdilər. 1937-1939-cu illər frankoçular üçün dönüş dövrü oldu. Respublikanın daxiil vəziyyəti çətinləşdi. Barselona qiyamından (3-9 may 1937-ci il) sonra Larqo Kabolyero istefa verdi. Yeni hökumətə Xuan Neqrin başçılıq etməyə başladı. İspaniya xalqının müharibəsi ikinci mərhələyə daxil oldu. Ordunun möhkəmləndirilməsi üçün tədbirlər görüldü və bir sıra hücum əməliyyatları keçirildi. Xuan Neqrinin gördüyü bir sıra tədbirlər daxili vəziyyəti xeyli yaxşılaşdırdı. Lakin İtaliya və Almaniya hesabına Franko sürətlə silahlanırdı. Nəticədə bir sıra qələbələrə (1937-ci ilin martında Qvadalaxarada, 1938-ci ilin iyulundə Ebro çayı yanındakı əməliyyat) baxmayaraq respublikanın vəziyyəti yenə də ağır idi. Şimalda da vəziyyət mürəkkəbləşdi, burada faşistlər Basklar ölkəsini, sonra isə Asturiyanı tutmağa müvəffəq



oldular. 1938-ci ilin aprelində müdaxiləçilər və qiyamçılar respublikanın ərazisini iki hissəyə ayırdılar. İspaniyada müharibənin tamamlayıcı mərhələsi başlandı.

1939-cu ilin əvvəllərində mübarizəni davam etdirmək üçün hələ Xuan Neqrin hökumətinin imkanları var idi. 140 min kv.km ərazi, 9 milyon adam, Madrid, Valensiya respublikanın əlində idi. Lakin qüvvələr nisbətində üstünlük düşmənlərin tərəfində idi. İtaliya-Almaniya hərbi donanması respublikanı dənizdən blokadaya almışdı. Fransa İspaniya ilə sərhədi bağlamışdı. 1938-ci ilin dekabrında frankoçular və müdaxiləçilər Katoloniyada böyük hücuma başladılar 1939-cu ilin fevralında onu tutdular. İngiltərə və Fransa Neqrin hökumətindən müqaviməti dayandırmağı tələb etdilər. Fevralın 27-də onlar respublika ilə diplomatik münasibətləri kəsdilər və Frankonu tanıdılar.

Madridin müdafiəsinə başçılıq edən polkovnik Kasado Neqrin hökumətinin süstlüyünü görərək qiyamçılarla təslim olmaq haqqında danışıqlara başladı. 1939-cu ilin martın 6-da Kasado müqaviməti dayandırdı. 1939-cu il aprelin 1-də respublikanın bütün ərazisi frankistlərin hakimiyyəti altına keçdi.

Vətəndaş müharibəsi dövründə İspaniyada əhəmiyyətli dəyişikliklər edildi. Kəndlilər əvəzi ödənilmədən 5,5 mln.ha torpaq aldılar, ispan torpaqlarından mülkədarlar və sələmçilər yox oldular, müəssisələri fəhlə komitələri idarə edirdilər, əsas sənaye sahələri ictimailəşdirildi, iqtisadiyyatın planlaşdırılması həyata keçirildi; iş günü ixtisar edildi. Ərzaq məhsullarına sabit qiymətlər qoyuldu. Hökumət xarici ticarət üzərinə inhisar qoydu. Kilsə dövlətdən ayrıldı və ölkənin siyasi həyatına qarışmaqdan məhrum edildi. Milli məsələnin düzgün həlli ispanlar, katalonlar, basklar arasında dostcasına əməkdaşlığı təmin etdi (Qalisiya əvvəldən qiyamçılar tərəfindən mühasirəyə alınmışdı).

Müharibə dövründə mədəni inqilab həyata keçirildi. 10 min yeni məktəb açıldı, «mədəni milis» 500 min adamı savadlandırdı, ali məktəblərin sayı artırıldı, dövlət təqaüdü sistemi yaradıldı. Qadınlar kişilərlə bərabər hüquq qazandılar və ölkənin müdafiəsində fəal iştirak etdilər.

### *İspaniya respublikasının məğlubiyyət səbəbləri*

Respublikanın məğlubiyyətinin əsas səbəbi ilk növbədə faşist dövlətlərin müdaxiləsi oldu. Frankonun ordusunda 200 min italyan, alman, 100 min mərakeşli, on minlərlə portuqaliyalı, macar, fin, İrlandiya faşistləri iştirak edirdilər. Digər səbəb isə Fransa, İngiltərə, ABŞ kimi böyük dövlətlərin «qarışmamaq» siyasəti idi. Məğlubiyyətin həmçinin bir çox daxili xarakterli səbəbləri də var idi: burjua-respublikaçıların liderləri ölkənin sosial və siyasi yeniləşməsinin əleyhinə idilər və qiyamçılarla kompromis axtarırdılar; onlar inqilabçı xalqdan qorxurdular; sosialist partiyası dəqiq mübarizə proqramı irəli sürmədi; partiyadixili mübarizə kəskinləşdi, anarxistlər müharibənin sonuna qədər özlərinin «libertar» eksperimentini həyata keçirmək istədilər və məğlub oldular.

Müharibə İspaniyaya hədsiz itki gətirdi. Ölkə bir milyon adam itirdi ki, onların çoxu gənc idi.

### *İspaniya Franko hakimiyyətinin ilk dövrlərində*

Franko hakimiyyətə gəldikdən sonra bütün partiyaların fəaliyyətini qadağan etdi. Ancaq "İspaniya falanqası" partiyası qaldı. Sosial qanunvericilik ləğv edildi. O, Əlində hədsiz hakimiyyət toplayaraq özünün faşist rejimini qurdu ki, onun əsas dayağı maliyyə oliqarxiyası, mülkədarlar, ali ruhanilər və irticaçı hərbi dairələr idi. Franko hökumətin xarici siyasətinin əsas məqsədinin ispan xalqının mənafelərinin qorunmasına və İspaniyanın Avropada itirilmiş nüfuzunun bərpa edilməsinə



yönəldiyini bəyan etdi. 1939-cu ilin mart ayında İspaniya Portuqaliya və Almaniya ilə dostluq müqavilələri bağladı.

1939-cu ilin aprel ayında İspaniya "Antikomintern" paktına qoşuldu. İkinci dünya müharibəsi başlanarkən 1939-cu ildə İspaniya özünü bitərəf, 1940-cı il iyununda isə döyüşməyən dövlət elan etdi. 1943-cü ilin oktyabr ayında İspaniya döyüşməyən dövlət statusundan yenidən bitərəf dövlət statusuna keçdiyini bəyan etdi. Onun Almaniya tərəfində döyüşlərə göndərdiyi 20 min nəfərlik "Mavi diviziya" adlı ispan könüllü dəstələri geri çağrıldı. Müharibə illərində İspaniya Böyük Britaniya və ABŞ-la münasibətləri inkişaf etdirməyə diqqət yetirsə də, lakin bu arzu edilən səviyyədə alınmadı.

# VIII. ABŞ

## *ABŞ üçün Birinci dünya müharibəsinin nəticələri*

XVIII əsrin II yarısında Amerika qitəsinin şimalında müstəqil dövlət kimi yaranmış ABŞ artıq XIX əsrin sonu - XX əsrin əvvəllərində sənaye məhsulu istehsalına görə dünyada birinci yeri tutdu və rəqibsiz oldu. Birinci dünya müharibəsinə qədər ABŞ, demək olar ki, dünya dövləti kimi tanınmırdı. Birinci dünya müharibəsində iştirak onun dünya dövləti kimi tanınmasına səbəb oldu. ABŞ-ın 1917-ci ilin aprelin 6-da Antanta tərəfində müharibəyə girməsinin əsas səbəbi Birinci dünya müharibəsinin nəticələrini öz xeyrinə dəyişdirmək, verdiyi borcları itirməmək istəyi, həmçinin Rusiyadakı Fevral inqilabının Avropaya təsirindən qorxması idi. Lakin o, hərbi əməliyyatlarda ancaq 1918-ci ilin yayında iştirak etdiyinə görə bu ölkədən ancaq 120 min ölən, 230 min yaralanan oldu. ABŞ-ın müharibədə hərbi xərci 25,7 milyard dollar təşkil etdi, ABŞ Birinci dünya müharibəsi nəticəsində ən çox qazandı və kapitalizm dünyasının ən güclü dövləti səviyyəsinə qalxdı. 1914-1919-cu illərdə ABŞ-ın gəliri 35 mlrd. dollar oldu. Əgər Birinci dünya müharibəsinə qədər ABŞ borc alan dövlət idisə, onun xarici dövlətlərə borcu 6 milyard dollara çatırdısa, müharibə dövründə o, borc verən dövlətə çevrildi. Müharibədən sonra xarici dövlətlərin ona borcu 10 milyard dollar oldu. Xarici dövlətlərin ona hərbi borcları 8 mlrd. dollar oldu. Dünya qızıl ehtiyatının yarısı onun əlində cəmləşdi. Dünyanın maliyyə mərkəzi İngiltərənin paytaxtı Londondakı Siti bankından Nyu-Yorkun Uoll-Strit bankına keçdi.

Müharibə nəticəsində ABŞ Avropa dövlətlərinə hərbi və ərzaq məhsuları satmaqla güclü sənaye sahələri yaratmış oldu. Avtomobil istehsalında dünyada birinci yeri tutdu. Artıq 1920-ci ildə dünyada istehsal edilən bütün avtomobillərin 85%-i, neft istehsalının 67%-i, poladın 60%-i ABŞ-ın payına düşürdü.



Polad istehsalına görə İngiltərədən 4,5, Fransadan 14 dəfə irəlidə idi. Ölkə sənayesinin yüksək sürətlə inkiaşfının səbəblərindən biri də xarici ölkələrdəki hərbi əməliyyatlar zonasından qaçıb gələn ucuz işçi qüvvəsi ilə bağlı idi. Müharibə nəticəsində ABŞ-ın milli gəliri 2,5 dəfə artdı. Onun dövlət inhisarçı kapitalizminə çevrilməsi prosesi başa çatdı. Belə ki, ABŞ-dakı bütün fabrik və zavodların 50%-i, istehsal edilən bütün sənaye məhsulunun 92%-i iri korporasiyalara məxsus idi.Fəhlələrin 90 %-i bu korporasiyalarda işləyirdi. Əhalinin 2%-ni təşkil edən inhisarçıların əlində bütün milli gəlirin 60%-i toplanmışdı. Əhalinin $\frac{2}{3}$ hissəsini təşkil edən digər təbəqələrə isə gəlirin 5%-i düşürdü. Ayrı-ayrı ailələrin əlində külli miqdarda sərvət toplanmışdı. Morqan, Düpon, Rokfeller, Mellonun ailələri belələrindən idi. Həmçinin iri maliyyə-inhisar qruplaşmalarının yerləşdiyi ayrı-ayrı şəhərlərdən Çikaqo, Boston, Klivlend, Nyu-York xüsusilə seçilirdi.

Müharibə ABŞ-da kənd təsərrüfatının inkişafına da müsbət təsir göstərdi. Müttəfiq dövlətlərin amerikan kənd təsərrüfatı məhsullarına olan tələbatı ölkədə istehsalın və aqrar bölmənin inkişafına kömək etdi.

Birinci dünya müharibəsinin ABŞ üçün nəticələrindən biri də kapital ixracının güclənməsi idi. Əgər 1913-cü ildə ABŞ xarici ölkələrə cəmi 2,6 milyard dollar kapital ixrac edirdisə, artıq 1920-cı ildə bu rəqəm təxminən 6 dəfə artraq 11 milyard dollara çatdı.

ABŞ müharibə illərində verdiyi kreditlər hesabına çoxlu borc faizləri götürdü ki, bu da demək olar ki, büdcənin 30%-dən çoxunu təşkil edirdi. Bu baxımdan o, rantye dövlət kimi də tanınırdı. Lakin ABŞ, dənizdə hökmranlığı və kapital ixracındakı üstünlüyü İkinci dünya müharibəsinə qədər İngiltərənin əlindən almağı bacarmadı.

Müharibə ABŞ siyasi sisteminin səmərəliliyini göstərdi. Müharibədən sonra ABŞ yeni dünya qaydası yaratmaq və ona mənəvi rəhbərlik etmək istəyirdi. Bu V.Vilsonun 14 maddəsində öz əksini tapmışdı. Məhz buna görə ABŞ Paris Sülh Konfransının işində üç mərhələ təklif etdi: müharibəyə yekun vurmaq, Millətlər Cəmiyyəti yaratmaq, özünəməxsus tərzdə ərazi və siyasi məsələləri həll etmək.

Birinci dünya müharibəsi qurtardıqdan sonra ABŞ-da hakim dairələr içərisində demokratlar partiyasından narazılığın güclənməsinin səbəblərindən biri prezident Vudro Vilsonun Paris sülh konfransında ABŞ-ın üstünlüyünü təmin etməyi bacarmaması idi. Vilson özü Versal müqaviləsinə qol çəksə də, ABŞ konqresi bu müqaviləni ratifikasiya etmədi. Vilson özünü müdafiə etmək üçün konqresə məlumat verdi ki, o, Almaniyanın parçalanmasının qarşısını almışdır. Saar vilayətinin Fransaya verilməsinə mane olmuşdur. Respublikaçılar Millətlər Cəmiyyətində ABŞ-ın rəhbərliyinin təmin edilməməsindən də narazı idilər. Bu dövrdə ABŞ-ın hakim dairələri içərisində xarici siyasətdə iki meyl yarandı. Bunlardan biri təcridçilik, ikincisi isə beynəlmiləlçilik idi. Birinci meylə respublikaçıların ən nüfuzlu nümayəndəsi Lodc başçılıq edirdi. O, göstərirdi ki, biz ilk prezidentimiz Corc Vaşinqtonun vəsiyyətinə əməl etməli və narahat Avropadan kifayət qədər kənarda dayanmalıyıq. Beynəlmiləlçilər isə belə fikir irəli sürdülər ki, ABŞ dünyanın tərkib hissələrindən biridir. O, ancaq dünya ölkələri ilə əlaqədə öz inkişafını təmin edə bilər.

Müharibə ölkədə siyasi partiyaların, sol təmayüllü təşkilatların da fəaliyyətinin güclənməsinə səbəb oldu. Con Ridin rəhbərliyi ilə xarici mənşəli amerikalılardan 1919-cu ilin avqustun 31-də Amerika Kommunist Partiyası, Ç.Rutenberqin başçılığı altında ilin sentyabrın 1-də köklü amerikalılarda Amerika kommunist partiyası təşkil edildi. 1921-ci ilin mayında bu partiyalar birləşib ABŞ Kommunist partiyası



adlandı. Onun rəhbəri isə C.Rutenberq oldu. Müharibədən sonra ölkədə tətillər də baş verirdi. 1919-cu ilin sentyabrında poladəritmə sənyesinin 365 min fəhləsinin tətili nəticəsində əmək haqqı artırıldı, 8 saatlıq iş günü tətbiq edildi. Kollektiv müqavilələr bağlanmağa icazə verildi. S.Hampers başda olmaqla Amerika Əmək Federasiyası əməklə kapitalın əməkdaşlığını qurmağa başladı. Sosial ziddiyyətlər yumşaldıldı, islahatların həyata keçirilməsi genişləndirildi.

1920-ci ilin prezident seçkiləri ərəfəsində Vilson vəziyyəti düzəltmək üçün konstitusiyaya 2 düzəliş etməyi təklif etdi (ABŞ konstitusiyası Corc Dikkenson tərəfindən tərtib edilmiş, 1787-ci il sentyabr ayının 17-də qəbul olunmuşdu. Konstitusiyada cəmi 7 maddə vardır. Bu vaxta qədər ona 26 əlavə edilmişdir). Vilsonun konstitusiyaya etmək istədiyi düzəlişlərdən biri ondan ibarət idi ki, 21 yaşına çatmış qadınlara da kişilərlə bərabər seçki hüququ verilsin. BU XIX düzəliş idi. ABŞ əhalisinin əksəriyyəti protestant olduğu üçün bu təklif böyük həyəcana səbəb oldu. Çünki onlar qadını bu vaxta qədər ancaq mətbəxdə, kilsədə və ailədə görmək istəyirdilər. Konstitusiyaya edilən 18-ci düzəlişə görə isə spirtli içkilərin istehsalı və istehlakı qadağan edilirdi. Lakin bu qara bazarın genişlənməsinə və çirkli pulların işə düşməsinə səbəb oldu.

### *ABŞ Uorren Hardinq və Kalvin Kulicin prezidentliyi dövründə*

Prezident Vilsonun xəstəliyini onun təkrar prezident seçkilərində iştirak etməsinə imkan vermirdi

1920-ci ilin noyabr ayında keçirilmiş prezident seçkilərində respublikaçıların nümayəndəsi Hardinq prezident seçildi. Handinq müharibə dövründə xaricilərə və radikallara inamsızlığı artan Amerika xalqının əhval-ruhiyyəsini nəzərə

almağı vacib hesab etdi. O, Oqayo ştatından idi. Uorren Hardinq hökuməti ilk növbədə iqtisadiyyatın dövlət tənzimlənməsinə ayrılan büdcə xərclərinin azaldılması təklifi ilə konqresdə çıxış etdi. O, "normal zaman" və "normal qaydalar" şüarını irəli sürərək fərdiyyətçilik prinsipini əsas götürdü. Hökumət şəxsi biznesin inkişafına xüsusi fikir verdi. Əməklə kapital arasında əməkdaşlıq yaradılması məqsədi ilə həmkarlar ittifaqları assosiasiyaları yaradıldı.1921-ci ildə 1920-ci illə müqayisədə federal hökumətin xərcləri iki dəfə aşağı düşərək 3,3 milyard dollar təşkil etdi.

1920-ci ilin yayında ölkədə iqtisadi böhran başlandı, istehsal aşağı endi. Xarici ticarət iki dəfə azaldı, işsizlik artdı, əmək haqqı 25-50% ixtisar edildi. Lakin böhran 1921-ci ilin sonu 1922-ci ilin əvvəllərində iqtisadi yüksəlişlə əvəz olundu. ABŞ-da iqtisadi böhranın tez qurtarmasının səbəbləri daxli bazarın geniş tutumlu olması, yeni sənaye sahələrinə iri həcmli kapital qoyuluşu, ABŞ mallarının xarici ölkələrə ixracından və onun verdiyi borclardan gələn gəlirlər ilə əlaqədar idi. 1922-ci ildən iqtisadiyyatda inkişaf və ya "çiçəklənmə" ("prosperite") dövrü başlandı. 1920-1929-cu illərdə bankların sayı 30 mindən 24 minə düşsə də, onların kapitalı 21 mlrd. dollara qədər artdı. Qardinqin hakimiyyəti illərində rüşvətxorluq halları artdığına görə üç nazir istefaya getməli oldu.

Bu dövrdə ABŞ-ın xarici siyasətində təcridçiliyin üstünlük təşkil etməsinə baxmayaraq xarici iqtisadi əlaqələr genişləndirildi. ABŞ 1921-ci ilin avqustunda Almaniya ilə seperat sülhbağladı. Latın Amerikasında öz nüfuzunu gücləndirdi. Uzaq Şərqdə İngiltərə-ABŞ, Yaponiya-ABŞ arasındakı problemlər Vaşinqton konfransında qismən həll edildi.

1920-1931-ci illərdə ABŞ-ın xarici kapital qoyuluşu 11,6 milyard dollar təşkil edirdi. Kapital ixracının 40%-i Arvopa, 22%-i isə Latın Amerikası ölkələrinin payına düşürdü.



İxrac artdı. ABŞ sənayesi istənilən rəqibinə qalib gəlməyə qadir oldu.

1923-cü ilin avqustun 2-də Alyaskaya səfəri zamanı Hardinqin ölümündən sonra vitse-prezident respublikaçı Kalvin Kuliç onun yerini tutdu 1924-cü il prezident seçkilərində Kulic qələbə qazandı. Onun daxili siyasəti ölkə iqtisadiyyatının gücləndirilməsinə yönəldilmişdi. İri kapitala qoyulan vergi azaldıldı Kulic "ABŞ-ın işi biznesdir" şüarını irəli sürdü. Radiotexnika və elektrotexnika sənayesinin inkiaşfına diqqət artırıldı. İstehsal üzərində dövlət nəzarəti ləğv edildi. Məcmu milli məhsul istehsalı 54% artdı. Dünya sənaye məhsulu istehsalında, ABŞ-ın payı 44,8 faiz təşkil etdi. Çiçəklənmə illərində istehsala yeni texnika, texnologiya və konveyer sistemi tətbiq edildi. «Kənd təsərrüfatının bərabərliyi» şüarı irəli sürüldü.

Xarici siyasətdə proteksionizm siyasəti tətbiq edildi. 1929-cu ildə xarici ticarətin həcminə görə ABŞ İngiltərəni ötüb keçdi. Kulic hökuməti 1924-cü ildə yeni vergi qanunu qəbul etdi. Qanuna görə yüksək gəlirli şəxslərin ödəyəcəyi vergi 50 %-dən 40 %-ə endirildi. Dövlət borcu azaldıldı. Dövlətin iqtisadiyyata müdaxiləsinin azaldılması nətisəsində xüsusi biznes inkişaf etdi. İri biznesin özünü tənzimləmə sistemi təşəkkül tapdı.

Hökumət fermer təsərrüfatını inkişaf etdirmək məqsədi ilə onlara kredit verdi. Ölkədə həyat səviyyəsi yaxşılaşdı. Avtomobil, soyuducu, telefon, radio və başqaları gündəlik məişətə daxil oldu. İstehlak kreditləri sisteminin tətbiq edilməsi xalqın rəğbətini qazandı. Sosial etirazlar azaldı. Bütün bunlarla bərabər bu dövrdə "Ku-kluks-klan" təşkilatı yəhudilərə, zəncilərə, katoliklərə və mühacirlərə qarşı mübarizəni gücləndirdi. Onların başlıca məqsədi ağ, kənd, protestant və anqlosakson Amerikasının qurulması idi. Bu problemi həll etmək üçün 1924-cü il aprelin 16-da yeni mühacirət qanunu

qəbul edildi. Şərqi Asiyadan mühacirət axını qadağan edildi, digər ölkələrdən mühacirət edənlərə isə məhdudiyyət qoyuldu.

Kulic hökumətinin xarici siyasəti amerikan kapitalını qoymaq üçün sərfəli yerlər tapmağa, xammal və satış bazarlarına yiyələnməyə doğru yönəldilmişdi. Avropa ölkələri ilə iki tərəfli münasibətlər inkişaf etdirildi. O, Almaniya ilə əlaqədar "Daues planı"nının qəbul edilməsinə nail oldu. borclar məsələsinə diqqət yetirdi. Böyük Britaniya, Fransa, İtaliya, Belçika və Çexoslavakiya ilə hərbi borcların bir hissəsinin ödənməsinə dair saziş bağlandı. Fransa Xarici İşlər naziri Aristid Brianın Milli siyasətdə müharibədən imtina edilməsi haqqında təklifini alan ABŞ hökuməti bu təkliflə razılaşdı. «Brian – Kelloq pakt»ı imzalandı. 1923-1929-cu illərdə Latın Amerikası ölkələrinə yardımlar edərək bu regionda iqtisadi, siyasi və hərbi cəhətdən xeyli möhkəmləndi.

Çinə münasibətdə "açıq qapılar" siyasəti yeridildi.ABŞ-ın Filippin və Havay adalarında hərbi-strateji mövqeləri möhkəmləndi. Bir sözlə, Kulicin hakimiyyəti illərində ABŞ-ın beynəlxalq nüfuzu xeyli gücləndi.

### *ABŞ dünya iqtisadi böhranı dövründə (1929-1933-cü illər)*

1928-ci ildə prezident seçilən respublikaçıların liderlərindən olan Herbert Huverin "çiçəklənmə" və "ABŞ kapitalizminin müstəsnalığı" siyasəti özünü doğrultmadı. Onun prezidentliyi dövründə "ciddi fərdiyyətçilik" və "şəxsi təşəbbüsə yol verilməsi" prinsipləri yeganə prinsip oldu. Huver hökuməti daxili siyasətdə yoxsulluğu aradan qaldırmaq üçün plan işləyib hazırladı. Lakin başlanan dünya iqtisadi böhranı müasirləri tərəfindən böyük təşkilatçı və mühəndis adlandırılan Huverin bu planının həyata keçirilməsinə mane oldu. ABŞ Huverin dövründə dolların sabit valyuta kimi tanınması və onun beynəlxalq pul vahidinə çevrilməsinə nail oldu.



1929-cu ilin oktyabrında Nyu-York birjalarının birində baş verən hadisə, yəni səhmlərin qiymətinin birdən-birə ucuzlaşması böyük çaxnaşmaya səbəb oldu. 1929-cu ilin oktyabr ayının 24-də dünya maliyyə mərkəzi olan Nyu-Yorkun birjalarında 12,8 milyon səhm satıldı ki, bu da əvvəlkilərdən 1,5 dəfə çox idi. Oktyabr ayının 29-da isə satılan səhmlərin sayı 16,4 milyona çatdı. Qiymətli kağızların kursu sürətlə aşağı düşməyə başladı. Belə sürətlə azalma daha üç ili davam etdi. 1933-cü ilin martına qədər 1929-cu illə müqayisədə səhmlərin dəyəri 4,5 dəfə azaldı.

1929-cu ilin oktyabr ayının 24-nə qədər olan dövrlə müqayisədə Amerika Birləşmiş Ştatlarında sənaye məhsul istehsalının ümumi həcmi 1930-cu ildə 80.7 %-ə, 1931-ci ildə isə 68.1 %-ə endi. 1932-ci ilin yayından 1933-cü ilin yazınadək böhranın nisbətən daha da dərinləşdiyi müşahidə edilirdi.

Ümumdünya iqtisadi böhranı nəticəsində ABŞ sənayesi 1932-ci ilin iyulunda özünün ən aşağı səviyyəsinə düşdü, istehsal 1913-cü il səviyyəsinə endi. 1929-cu illə müqayisədə 1932-ci ildə ABŞ-da sənaye məhsulu istehsalı 46% azaldı. Ağır sənaye xüsusilə daha çətin vəziyyətə düşdü. Ölkədə milli gəlir 2 dəfə, xarici ticarət 3 dəfə aşağı endi. Fəhlə sinfinin vəziyyəti daha da ağırlaşdlı.

Dünya iqtisadi böhranı aparıcı kapitalist dövlətlərinin iqtisadiyyatını ən azı bir rüb geri atdı. Dünya sənaye istehsalının həcmi 38%, ticarətin həcmi və kənd təsərrüfatı məhsullarının istehsalı 30% azalmış oldu. Dünya bazarında rəqabət kəskinləşərək ticarət müharibəsi xarakteri almağa başladı. Təkcə 1929-1934-cü illərdə 76 ölkə kömrük vergilərini artırdı.

Ticarət rəqabətinin artması ilə əlaqədar ölkələr arasındakı maliyyə əlaqələrinin ənənəvi əsasları pozulmuş oldu. İnfilyasiya ABŞ-ı dolların qızıl standartlarından əl çəkməyə məcbur etdi. Nəticədə 56 dövlətin dollar ilə bağlı valyutası qiymətdən

düşdü. 1932-ci lin əvvəli üçün tam işçizlər 26 milyon, işini tamam itirməyənlərlə birlikdə bu rəqəm 30 mln. nəfərə çatırdı.

Dünya iqtisadi böhranı beynəlxalq münasibətlər sahəsinə də əhəmiyyətli dəyişikliklər gətirdi. Məhz bu dövrdə Versal-Vaşinqton siyasi sisteminin əməli iflası başlandı. İqtisadi böhran fərdiyyətçilik, şəxsi təşəbbüs və sahibkarlığın hüdudsuz azadlığı ideyalarının parıltısını söndürmüş oldu.

Avropa ölkələrindən fərqli olaraq ABŞ-da sosial sığorta sisteminin olmaması vəziyyəti daha da ağırlaşdırırdı. Amerikalılarda o vaxta qədər belə bir psixologiya formalaşmışdır ki, hər bir şəxs həyatda ancaq özünə arxalanmalıdır, dövlətə ümid etməməlidir. Onlar çətin vəziyyətdə ancaq xeyriyyəçilərə ümid bəsləyə bilərdilər. Lakin böhran illərində onların psixologiyasında dəyişiklik yarandı. Onların diqqəti dövlətə yönəlməyə başladı. Bu dövrdə meydana çıxan ən böyük kütləvi hərəkatlar dövlətin köməyini tələb edirdilər.

On minlərlə zavodun, fabrikin, müəssisənin və digər istehsal və qeyri-istehsal sahələrin bağlanması işsizliyin kütləvi surətdə artmasına səbəb oldu. Əmək haqqı fondu 2 dəfə ixtisara getdi. Artıq 1933-cü ildə ABŞ-da 17 milyon işsiz vardı. İşçizlərin vəziyyətini yaxşılaşdırmaq üçün Huver iri şəhərlərin kənarlarında xüsusi qəsəbələr salmağa başladı. Burada fəhlələr dövlət hesabına təmin olunur və yaşayırdılar. Bunlar «Huver villaları» adlanırdı. Tezliklə prezident Huver «çiçəklənmə» prezidenti kimi deyil, «aclıq» prezidenti kimi şöhrət qazandı.

Fermerlərin vəziyyəti son dərəcə ağırlaşdı. 1930-cu ildə Huver tərəfindən fermerlər üçün ticarət palatası təşkil edilsə də, bu vəziyyətdə dəyişiklik yaratmadı. 1929-1934-cü illər ərzində borc və vergini ödəyə bilmədiyinə görə 897 fermer təsərrüfatı, başqa sözlə, ölkədəki fermer təsərrüfatlarının təxminən 14%-i satılmışdı.

1931-ci ilin payızında sənaye və aqrar böhranın daha da dərinləşməsi maliyyə böhranına da səbəb oldu. Maliyyə



böhranı ən kəskin səviyyəyə 1933-cü ilin fevral-martında çatdı. Ölkəni bankların məhvi dalğası bürüdü. Bu dövrdə Huverin yeritdiyi yeganə siyasət iri korporasiyalar, inhisarlar və iri bankların iflasa uğramasının qarşısını almaq məqsədilə 1930-cu ildə Maliyyənin yenidən qurulması korporasiyasını təşkil etməsi oldu. Bu müəssisə digər korporasiyalara kredit buraxmağa başladı. ABŞ SSRİ-dən gələn mallar üzərinə qadağa qoyduqda, SSRİ də ABŞ mallarının alınmasını dayandırdı və sifarişi Avropa ölkələrinə verdi. Bu ABŞ biznesmenləri içində xüsusi həyəcana səbəb oldu. Huver hökuməti SSRİ-dən gələn mallar üzərinə qadağanı təxirə salmağa məcbur oldu.

Böhran illərində həmkarlar ittifaqlarının fəaliyyəti xeyli genişləndi. Fəhlə hərəkatına rəhbərlik etmək üçün İstehsalçıların həmkarlar ittifaqlarının konqresi təşkil edildi. 1886-cı ildə Hampers tərəfindən təşkil edilmiş ixtisaslı fəhlələrin həmkarlar təşkilatı olan ABŞ Əmək Federasiyasından fərqli olaraq İstehsalçıların Həmkarlar İttifaqı konqresi ixtisassız fəhlələri özündə birləşdirirdi. 1930-cu ilin 6 mart günü ABŞ-da və bütün dünyada işsizliyə qarşı mübarizə günü kimi qeyd edildi. ABŞ-da aclıq yürüşləri geniş yayıldı. 1931-1932-ci ildə Vaşinqtona müharibə iştirakçılarının 2 dəfə aclıq yürüşü oldu. 1932-ci ildə 24 min Birinci dünya müharibəsi iştirakçısının Vaşinqtona yürüşü və onların pensiyaları artırmaq tələbi nəinki yerinə yetirilmədi, o zaman silahlı qüvvələrin baş ştatının rəisi general Makkarturun başçılığı ilə güllələbaran edildi. Bu hadisə bütün dünyada həyəcana səbəb oldu.

Huver hökumətinin xarici siyasətdə əsas məqsədi dünyada ABŞ-ın hərbi-siyasi və iqtisadi mövqelərini daha da möhkəmləndirmək idi. 1930-cu ilin yanvar-aprelində keçirilən London dəniz konfransında, ABŞ 18 kreyserə sahib oldu. Huver hökuməti xarici siyasətdə beynəlxalq vəziyyəti gərginləşdirməyə gətirib çıxaran siyasət yeridirdi. Huver hakimiyyətə gələn kimi elan etdi ki, onun əsas vəzifəsi

sosializmi qəbrə qoymaqdır. O, yeganə prezident idi ki, Rusiyanı yaxşı tanıyırdı. Onun Maykopda çoxlu neft mədənləri vardı. Lakin sovet Rusiyası onu bunlardan məhrum etmişdi. 20-ci illərdə o, humanitar yardım gətirmək bəhanəsi ilə dəfələrlə Sovet Rusiyasında olmuşdu. O, SSRİ-yə qarşı düşmən ruhda idi. Ona görə də, Huver 1932-ci ildə Lozanna konfransında Almaniyanın təzminatdan birbaşa yaxa qurtarmasına nail olmaqla əslində ona Sovet Rusiyasına qarşı müharibəyə hazırlaşmaq üçün imkan yaratmaq məqsədini güdürdü. 1932-ci ilin dekabrında Cenevrədə keçirilən təksilaha dair konfransda ABŞ Almaniyanın silahlanmasına razılıq verdi. 1931-ci ildə Yaponiya Mancuriyanı işğal etdikdə və orada oyuncaq Man-Çjo-Qo dövləti yaratdıqda ABŞ bu məsələni sakitliklə qarşıladı və hətta Yaponiyaya neft və neft avadanlığı satmağını da davam etdirdi. Bundan məqsəd onu da SSRİ-ə qarşı yönəltmək idi. Lakin Yaponiya SSRİ-ni ehtiyatda saxlayaraq cənuba üz tutdu. Çünki ABŞ-Yaponiya ziddiyyətləri daha dərin idi və tezliklə ABŞ bunu başa düşdü. Ona görə də ABŞ hökuməti açıq şəkildə bildirdi ki, Çində Yaponiyanın heç bir işğalını tanımır. 1932-ci il yanvarın 7-də qəbul edilən “Stimson doktrinası” Yaponiyanın mövqeyini zəiflətməyə yönəldilmişdi.

Bu dövrdə Latın Amerikasına qarşı "böyük dəyənək" siyasəti yenidən fəallaşdı. ABŞ çalışırdı ki, İngiltərənin Latın Amerikası ölkələrinə kapital ixracı azalsın. ABŞ-Latın Amerikası ölkələrini bir-biri ilə toqquşdurmağa çalışaraq bu regionda hökmranlığı ələ almağa cəhd edirdi. Huverin hakimiyyəti dövründə Boliviya ilə Paraqvay, Kolumbiya ilə Peru arasında müharibə baş verdi.

1929-1933-cü illər dünya iqtisadi böhranı ABŞ-ın hakim dairələri qarşısında sosial-iqtisadi, siyasi və ideoloji problemləri həll etmək zərurətini qoydu. "Sərt fərdiyyətçilik" ideologiyasına yenidən "nəzər" salmağın vacibliyini vəziyyət



özü tələb edirdi. Eyni zamanda lazım gəlirdi ki, dövlət iqtisadi və sosial münasibətlərə fəal müdaxilə etsin.

### *Franklin Ruzveltin "Yeni xətt"i*

### *İqtisadi sahədə həyata keçirilən islahatlar*

1932-ci ilin noyabrında, prezident seçkilərində respublikaçılar yenidən Huverin namizədliyini irəli sürmələrinə baxmayaraq, o, müvəffəqiyyət qazanmadı. Demokratlar partiyası seçkilərdə qalib gəldi. Onun lideri Franklin Ruzvelt 22810 min səs toplayaraq prezident seçildi. Amerika mətbuatı bunu "güclülərin qələbəsi" kimi qiymətləndirdi. F.Ruzvelt 1882-ci ildə varlı bir ailədə anadan olmuş, mənşə etibarilə holland idi. O, Teodor Ruzveltlə əminəvəsi idi. Franklin Ruzvelt əvvəlcə Harvard universitetini, sonra isə Kolumbiya Universitetinin hüquq fakültəsini bitirmişdi. 1913-1920-ci illərdə o, Hərbi Dəniz Nazirinin köməkçisi vəzifəsində işləmişdi. 1921-ci ildə polimelit xəstəliyinə tutulmuş və ömrünün sonunadək ayaqları iflic vəziyyətində qalmışdı. Möhkəm iradəsi və anasının mənəvi dayaq olması Ruzveltin siyasi fəaliyyətlə yenidən məşğul olmasına imkan yaratdı. 1928-1930-cu illərdə o, Nyu-York ştatının qubernatoru seçildi. 1932-ci ildə isə ABŞ-ın 32-ci prezidenti oldu. Ruzvelt hakimiyyətə gələnə kimi prezident seçilmiş şəxs ancaq bir ildən sonra prezident kürsüsünə əyləşə bilərdi. Ruzvelt konstitusiyaya edilmiş 20-ci əlavə ilə bunu təxirə saldı. Bu əlavəyə görə prezident seçilmiş adam növbəti ilin yanvar ayının 20-də prezident kürsüsünə əyləşə bilərdi. Ruzvelt 1933-cü ilin mart ayının 4-də prezident kimi fəaliyyətə başladı. Həmin gün ABŞ konqresi də fəaliyyətə başladı və 73 gün davam etdi ki, bu ABŞ tarixində «uzunmüddətli konqres» kimi qaldı.

Ruzvelt hakimiyyətdə olduğu ilk 100 gün ərzində 70-dən çox qanun qəbul etdi. Bu Ruzveltin "Yeni xətti" adlan-

dırıldı və prezidentin "100 günü" ifadəsi də buradan yarandı. "Yeni xətt"in ideya müəllifi ingilis iqtisadçısı Con Keyns Meynard idi. Lakin bu ifadə Ruzveltin 1932-ci il iyulun 2-də demokratlar partiyasının iclasında onun namizədliyi irəli sürülərkən etdiyi məruzəsindən götürülmüşdü.

Ruzvelt konsepsiyası Huver konsepsiyasından böhrandan çıxmağın həllinə münasibətdə aşağıdakı cəhətlərlə fərqlənirdi. Birincisi, "Yeni xətt"in yaradıcısı bunu beynəlxalq səbəblərlə yox, ölkə daxilindəki sosial-iqtisadi səbəblərə bağlayır və vacib hesab edirdi ki, ABŞ-ın sosial-iqtisadi institut strukturunda bəzi islahatlar keçirilməlidir. İkincisi, o, bu vaxta qədər ABŞ-da hökm sürən "fərdiyyətçilik" prinsiplərindən daha cəsarətlə yan keçərək federal hökumətin funksiyalarını genişləndirmək prinsipinə üz tuturdu. Üçüncüsü, əgər Huver kütləvi etirazlara qarşı qulağını bağlayırdısa, F.Ruzvelt Amerika xalqının əhval-ruhiyyəsini nəzərə almağı vacib bilirdi.

Ruzvelt bildirdi ki, bizim qorxmalı olduğumuz bir şey varsa, o da qorxunun özüdür. Ruzvelt prezident seçildiyi ilk dövrdə ölkədəki vəziyyəti, beynəlxalq şəraiti və Amerika xalqının əhval-ruhiyyəsini diqqətlə öyrəndi. Huverdən fərqli olaraq o, aşağı kütlələri öz tərəfinə cəlb etməyi lazım bildi. O, göstərirdi ki, ABŞ-da «unudulmuş» adamlar üçün yaxşı şərait təmin edilməlidir. O, həmçinin Huverdən fərqli olaraq "milli birlik" yaratmaq məsələsini ön plana çəkdi. O, ölkənin "qızıl fondu" olan elm adamlarından ibarət «beyinlər tresti» yaratmağı lazım bilirdi. Ruzvelt filosofları, iqtisadçıları, tarixçiləri bu işə cəlb etdi. Bundan sonra islahatlar keçirməyə başladı. İslahatlarda 2 cəhət özünü göstərirdi. Bunlardan biri dərin maliyyə sistemi yaratmaq, ikincisi isə «unudulmuş» adamları razı salmaq. "Yeni xətt" adlanan bu siyasətin mahiyyəti dövlətin iqtisadiyyata fəal müdaxiləsini təmin etmək idi. Qeyd etmək lazımdır ki, bu fikri ondan qabaq elektrik inhisarının prezidenti Svoys irəli sürmüşdü. O, göstərirdi ki,



belə çətin dövrdə dövlət mütləq iqtisadiyyata müdaxilə etməlidir.

İslahatlara Ruzvelt banklardan başladı. Bankların böhranı Ruzveltin qətiyyətli olduğunu və novatorçuluq qabiliyyətini dərhal aşkara çıxartdı. Ruzvelt göstəriş verdi ki, martın 9-da ölkədəki bütün banklar fəaliyyətini dayandırsın. Məqsəd hökumətin banklar sisteminə nəzarətini təmin etmək idi. Martın 13-dən əvvəl ölkənin 12 şəhərində, sonra 250 şəhərində sağlamlaşdırılmış banklar fəaliyyətə başladı. Böhrandan əvvəl ölkədə 20 mindən artıq bank var idisə, indi onların sayı 5200 idi. Ruzvelt göstərirdi ki, bankın depozit, investisiya funksiyası olmalıdır. O, göstərirdi ki, 45 milyard dollara qədər banka vəsait qoyula bilər. İkinci tədbir dolların qızıl standartının qadağan edilməsi idi. Kağız pul qızıl pulla dəyişdirilə bilməzdi. Qızılın alınıb-satılması qadağan edilirdi. Qızıl dövlət fondunda saxlanılmağa başladı. Merkantilizm siyasətinə uyğun olaraq ixrac artdı, idxal azaldı. Vətən sənayesi məhsullarının xaricə aparılması ölkəyə valyuta gətirilməsini təmin etdi.

Ruzvelt sənayeni nizama salmaq üçün 1933-cü ilin iyun ayında Consonun başçılığı altında Sənayenin Milli İnzibati İdarəsi adlı orqan yaratdı. Həmin milli idarənin qarşısına qoyulan başlıca məqsəd məhsulun həcmini, xammal mənbələrini və satış bazarlarını düzgün müəyyənləşdirmək idi. Bunun üçün sənaye sahələri 17 qrupa bölündü. «Vicdanlı rəqabət» adlı ticarət qaydaları işlənib hazırlandı. Bu qaydalara 557 əsas, 189 əlavə maddə salındı. Nəzərdə tutulurdu ki, dövlət tərəfindən müəyyən edilmiş həmin komissiyanın hazırladığı kodeks üzrə sənaye planlı şəkildə inkişaf etdirilsin. Həmin hadisədən sonra Ruzvelti "sosializm qurmaqda" təqsirləndirdilər. 7[a] bəndinə əsasən həmkarlar ittifaqına hüquq verilirdi ki, fəhlə sinfinin əmək və məişət şəraitinin yaxşılaşdırılmasında başlıca rol oynasın.

Ruzvelt fermerləri də yaddan çıxarmadı. İri fermerlərə məsləhət gördü ki, əkin sahələrini azaltsınlar, həmçinin mal-qaranı qırsınlar. 1933-cü ildə 10 milyon hektara qədər əkin sahəsi, 23 milyon baş mal-qara, 7 milyon donuz qırıldı. Bu işi görən fermerlərə mükafatlar müəyyən edildi. 1933-cü ilin mayında Kənd Təsərrüfatı Milli İnzibati İdarəsi təşkil edildi. İdarənin rəhbəri kənd təsərrüfatı naziri vəzifəsini tutan Uolles oldu. Ruzvelt fermerlərin vəziyyətini yaxşılaşdırmağı başlıca vəzifə hesab edirdi. Ona görə fermerlərin yenidən fəaliyyətə başlaması və onlara kredit verilməsi məsələsi dövlət qayğısına çevrildi. Kənd təsərrüfatı islahatları 3 mərhələdə 1933-1936-cı ildə, 1936-1938-ci ildə və 1938-ci ildən sonra həyata keçirildi.

İstər kənd təsərrüfatında, istərsə də sənayedə səhmləri vahid planlı şəklə salmaq üçün birjalar fəaliyyət göstərməyə başladı. Bu birjalar dövlət tərəfindən nəzarətə alındı. Qeyd etmək lazımdır ki, səhmlərin qeyri-dövlət səhmdar cəmiyyətlərdən alınıb-satılması qadağan edildi.

"Yeni xətt" siyasəti tezliklə həm daxildə, həm də xaricdə böyük əks-sədaya səbəb oldu. Ruzvelti kapitalizmin ümumi qayda-qanunlarına zidd hərəkət etməkdə təqsirləndirirdilər. Əslində isə Ruzvelt burjua cəmiyyətini möhkəmləndirməyi qarşısına məqsəd qoymuşdu.

1935-ci ildə ABŞ Ali məhkəməsi Ruzveltin sənaye sahəsində həyata keçirdiyi tədbirləri konstitusiyadan kənar hesab etdi. 1936-cı ilin yanvarında yenə də ABŞ Ali məhkəməsi onun kənd təsərrüfatı sahəsində gördüyü tədbirləri qanundan kənar hesab etdi. Bütün bunlara baxmayaraq Ruzvelt ölkədə milli birliyə nail oldu.

İqtisadiyyatda baş vermiş böhran 1933-cü ilin sonlarında durğunluq, 1933-1936-cı illərdə isə yüksəlişlə əvəz olundu. Ruzveltin milli iqtisadiyyatı dirçəltmək siyasəti öz bəhrəsini verdi.



Ruzveltin həyata keçirdiyi islahatlar üçün məşhur iqtisadçı Keynsin kəsirsiz büdcəyə nail olmaq siyasəti rəhbər tutulur və iqtisadiyyatın sağlam inkişafı üçün başlıca stimul hesab edilirdi. Ruzveltin gördüyü bütün bu tədbirlər ona xalq içərisində böyük rəğbət qazandırdı. O, millətin xilaskarı kimi tanındı.

### *Ruzvelt hökumətinin sosial sahədə həyata keçirdiyi islahatlar*

«Yeni xətt»in II mərhələsi 1935-ci ildə başladı. Əsas diqqət sosial islahatların keçirilməsinə yönəldildi. Çünki Ruzvelt hakimiyyətə gələrkən vəd etmişdi ki, o, indiyədək «unudulmuş» adamları ilk növbədə yaddan çıxarmayacaqdır. Ruzvelt sosial islahatlar içərisində işsizliyi ön plana çəkdi. 1933-cü ildə işsizliyə qarşı mübarizə komitəsi təşkil edildi. Həmin komitə xüsusi fond yaratdı ki, həm işsizlərin işlə təmin edilməsi, həm də onlara müavinət verilməsi məsələsini həll etsin. Təkcə 1933-cü ildə işsizlərə 500 milyon dollara yaxın yardım göstərildi. Sonrakı illərdə isə bu yardımın miqdarını 4 milyard dollara çatdırmaq nəzərdə tutulurdu. Artıq 1933-cü ilin sonunda 25 milyon adam dövlətdən müavinət alırdı. Ruzvelt hökuməti işsizlər üçün meşə düşərgələri təşkil etdi. Bu düşərgələrdə 18 yaşından 25 yaşına qədər gənclər işlə təmin edilirdi. Onlar strateji əhəmiyyətli tikintilərdə çalışırdılar. Belə düşərgələr 6 ay müddətinə təşkil edilirdi. Burada onlar həm yeməklə, həm də paltarla təmin olunurdu. Onlara 35 dollar pul da verilirdi. Hökumət bu iş üçün 3 milyard 300 milyon dollar vəsait ayırmışdı.

1935-ci ilin iyulunda qəbul edilmiş "Əmək münasibətləri haqqında" qanun çox mühüm əhəmiyyətə malik sosial iyasət idi. Həmin qanunu senator Vaqner hazırladığı üçün o, tarixə Vaqner qanunu kimi daxil oldu. Qanunun qəbul edilməsi demokratik qüvvələrin çox böyük qələbəsi demək idi. Həmin qanuna görə həmkarlar itttifaqlarının hüquqları genişləndirildi.

Fəhlələrlə sahibkarlar arasındakı mübahisəli məsələləri həll etməkdə onlara böyük səlahiyyətlər verilirdi. ABŞ məhkəmə orqanları həmkarlar ittifaqlarının hər hansı mübahisəli məsələlərinə baxmalı idi. Piketlər, tətillər həmin qanuna görə leqallaşdırıldı. Həmkarlar ittifaqlarının icazəsi olmadan heç kimin müəssisədən kənar edilməsinə icazə verilmirdi.

"Yeni xətt"in ən əhəmiyyətli qanunlarından biri 1935-ci ilin avqust ayında qəbul edilmiş "Sosial sığorta haqqında" qanun idi. Həmin qanun qocalığa və işsizliyə görə sosail təminat məsələlərini ön plana çəkdi. Belə ki, qocalığa görə pensiya 65 yaşından təyin edilməyə başladı. Pensiya üçün xüsusi fond ayrılması nəzərdə tutulurdu. Bu fond müəssisələrin gəlirlərinin müəyyən hissəsindən, həm də fəhlələrin əmək haqqlarından tutulurdu. Nəzərdə tutulmuşdu ki, 1937-ci ildən fəhlələrin əmək haqqlarından 1%-dən başlayaraq 1949-cu ilə qədər 3%-i miqdarında vergi tutulsun. Pensiyaların 1942-ci il yanvarın 1-dən verilməsi nəzərdə tutulurdu. Lakin bu işə 1940-cı ilin yanvarından başlandı. «Sosial sığorta haqqında» qanuna görə ər öldükdə arvad, arvad öldükdə ər həmin pensiyanı ala bilərdi. Pensiya 85 dollar miqdarında olmalı idi. Lakin fəhlələrin ixtisas dərəcəsindən asılı olaraq pensiya artıq da ola bilərdi. Ev qulluqçuları, kənd təsərrüfatı fəhlələri və dövlət qulluqçularının təqaüdləri aşağı idi. Bundan başqa çoxuşaqlı ailələrə, şikəstlərə, dul qadınlara da pensiya vermək nəzərdə tutulurdu. 1938-ci ildə Ruzvelt hökuməti daha iki qanunun qəbul edilməsinə nail oldu. Bunlardan biri «Minimum əmək haqqı və maksimum iş həftəsi haqqında» qanun idi. Qanuna görə iş həftəsi 38 saat müəyyən olundu. 30-cu illərin II yarısında 2 milyona qədər fəhlənin əmək haqqı artırıldı. İkinci qanun isə «Əmək şəraitinin yaxşılaşdırılması haqqında» qanun idi. Qanuna əsasən 16-18 yaşlı gənclər üçün 6 saatlıq iş günü qoyulurdu. Onların gecə və orqanizm üçün zərərli işlərdə işləməsi qadağan edilirdi. Həmçinin südəmər uşağı olan



qadınlara 3 saatdan bir uşağı əmizdirmək üçün vaxt ayrılırdı. Həmin qadınlar qısa iş günü müddətində işləməli idi.

1936-cı il seçkilərində respublikaçılar Alfred Lindonu irəli sürmələrinə baxmayaraq Ruzvelt yenə də 27,6 milyon səs toplayaraq prezident seçildi.Onun gördüyü tədbirlər nəticəsində respublikaçılar öz elektratını itirdi.

Ruzveltin unutduğu yalnız zəncilər oldu. Ölkədə 25 milyon zənci yaşamasına baxmayaraq onlar haqqında heç bir mütərəqqi addım atılmadı.

1937-ci ilin fevralında Ruzvelt Ali məhkəmədə islahat keçirmək haqqında konqresə müraciət etdi. Ruzvelt təklif edirdi ki, ali məhkəmə üzvləri 9 nəfər deyil, 7 nəfər olsun. Onlar 70 yaşından sonra öz maaşları saxlanılmaqla təqaüdə çıxarılsınlar, həmçinin ali məhkəmə üzvləri 10 il müddətinə təyin edilsin. Lakin konqres bunu qəti rədd etdi və bildirdi ki, guya bu bir tərəfdən ABŞ konstitusiyasına görə nəzərdə tutulmuş hakimiyyətin bölünməsi prinsipinə ziddir, digər tərəfdən isə, rüşvətxorluq üçün imkan yaratmış olar. Əsas səbəb isə o idi ki, ali məhkəmə üzvlərindən 7-sinin yaşı 70-dən çox idi. Ruzveltin gördüyü işlərdən biri də 1939-cu ildə prezidentin icra aparatının təsis edilməsi idi.

Ruzveltin həyata keçirdiyi islahatlar ona böyük nüfuz qazandırdı və 1940-cı ildə onu üçüncü dəfə prezident seçilməsinə səbəb oldu. Bu heç də o demək deyildi ki, Ruzveltin hakimiyyət illəri qarşıdurmasız keçmişdi. ABŞ Ali məhkəməsi təkcə 1937-ci ildə «Yeni xəttin» 12 qanununu ləğv etmişdi. Bu dövrdə Ruzveltə qarşı ölkədəki bütün mürtəce qüvvələr birləşmişdilər. Bu birləşmənin ən görkəmli nümayəndələri Luizana ştatının qubernatoru Lonq, həmçinin keşiş Koflin idi. Koflin "Sosial ədalət naminə siyasi təşkilat", həmçinin "Kommunizm əleyhinə ittifaq" adlı təşkilat yaratdı. Bunlar əslində faşist təşkilatları idi. Amerika faşizmini «Xaç altında olan faşizm» adlandırırdılar. Lakin ABŞ-da faşizmin sosial bazası

zəif olduğuna və Ruzveltin Amerika xalqının əhval-ruhiyyəsini əks etdirən real siyasətinə görə o, ayaq açmağı bacarmadı.

1938-ci ildə Ruzvelt "Yeni xətt" siyasətini dayandırdı. Həyata keçirilmiş islahatların möhkəmləndirilməsinə daha çox diqqət yetirilməyə başlandı. "Yeni xətt" siyasəti böhrandan yaxa qurtarmağa imkan verdi. Bu həqiqət isə sübut etdi ki, kapitalizm özünü islah etmək yolu ilə iqtisadi və sosial çətinliklərin öhdəsindən gəlmək imkanına malikdir.

### *F.Ruzveltin inzibati idarəsinin xarici siyasəti*

F.Ruzveltin "Yeni xətt" siyasətinin mühüm tərkib hissələrindən birini də beynəlxalq münasibətlər sahəsi əhatə edirdi.

Beynəlxalq vəziyyət ABŞ-ın xarici siyasətində əsasən iki mühüm amili nəzərə almağı zəruri edirdi. Bu amillərdən biri 1929-1933-cü illər dünya iqtisadi böhranı, digəri isə faşist Almaniyası və millitarist Yaponiyasının fəallaşması nəticəsində yeni dünya müharibəsi təhlükəsinin artması idi. Əgər böhran dünya iqtisadi-ticarət əlaqələrini pozub, ABŞ-ı təcridçiliyə sürükləmişdirsə, dünya müharibəsi təhlükəsi isə, ümumi sülhün qorunması naminə beynəlxalq əməkdaşlığı zəruri edirdi. ABŞ-ın xarici siyasətində təcridçilik və beynəlmiləlçilik meylləri aydın şəkildə öz əksini tapmışdı. İqtisadi, sosial-siyasi, ideoloji sahədə ölkədə hökm sürən durğunluq xarici siyasətə də öz təsirini göstərməyə bilməzdi. Xarici siyasət böhranla mübarizədə diqqətdən kənarda qala bilməzdi. ABŞ-ın xarici siyasəti XX əsrin 30-cu illərində də ənənəvi əsaslara söykənərək istiqamətlənmişdi. Belə ki, Latın Amerikasına qarşı Monro, Asiyaya qarşı "açıq qapılar" doktrinası, Avropaya münasibətdə isə təcridçilik əsas götürülürdü. Xüsusilə təcridçiliyə böyük diqqət yetirilirdi. Çünki bu qeyri-amerikan dünyasına amerikan dünyasının spesifik yanaşma prinsipi idi.

Ruzvelt real siyasətçi idi. Onun məşhur tezisində göstərilirdi ki, "daxili siyasətdə buraxılmış hər hansı səhv ancaq



o ölkənin fəlakətinə, xarici siyasətdəki səhv isə bəşəriyyətin məhvinə səbəb ola bilər." Ruzvelt beynəlxalq məsələləri diqqətlə öyrəndikdən sonra ABŞ-ın xarici siyasət strategiyasını aşağıdakı istiqamətlərdə davam etdirməyi lazım bildi.

Ruzvelt belə hesab edirdi ki, ABŞ-ın 1933-cü ilə qədər SSRİ-ni tanımaması onu dünya xəritəsində ağ ləkə şəklində göstərməsi və “qırmızıların təhlükəsi”nə qarşı açıq mübarizə aparması səhv olmuşdu. Çünki SSRİ dünyanın böyük dövlətlərindən biri idi. Həmçinin SSRİ kimi geniş daxili bazara malik olan bir ölkə ilə münasibətə girməmək ABŞ iqtisadiyyatı üçün faydalı deyildi. Bunlar nəzərə alınaraq 1933-cü ilin yazında SSRİ ilə diplomatik münasibətlər yaratmaq üçün danışıqlar başlandı. Danışıqlarda ABŞ-nın dövlət katibi Xell, SSRİ-nin xarici işlər naziri Litvinov böyük rol oynadı. 1933-cü ilin noyabr ayının 16-da SSRİ ilə ABŞ arasında diplomatik münasibətlər yarandı. Məhz ABŞ-n Millətlər cəmiyyətində səyi nəticəsində 1934-cü ildə SSRİ də bu cəmiyyətə daxil oldu. 1935-1937-ci illər ərzində SSRİ ilə ABŞ arasında iki ticarət sazişi bağlandı və mal mübadiləsi genişləndi.

ABŞ-ın xarici siyasətinin ikinci mühüm istiqaməti Avropa ölkələri idi. ABŞ Corc Vaşinqtonun vəsiyyətini nəzərə alaraq Avropaya daha az nüfuz etmək siyasəti yeritməyə başladı. ABŞ bu dövrdə bildirdi ki, o, milli iqtisadiyyatını inkişaf etdirməyə daha çox diqqət yetirir. 1933-cü ilin avqustunda iqtisadi məsələləri həll etmək üçün Londonda çağırılmış konfransda Ruzveltin nümayəndəsi bildirdi ki, ABŞ Avropaya kredit və istiqraz verməkdən imtina edir.

1935-ci ilin avqustunda ABŞ konqresi "Bitərəflik haqqında" qanun qəbul etdi. Həmin qanuna görə ABŞ müharibə edən tərəflərdən heç birinə silah və ərzaq satmamalı idi. Qanunda həm təcavüzkar, həm də təcavüz olunan ölkə eyniləşdirilirdi. Ona görə də, ABŞ İspaniya Respublikasına və İtaliyanın təcavüzünə məruz qalan Efiopiyaya kömək etmədi.

«Bitərəflik haqqında» qanun 1939-cu ilə qədər qüvvədə qaldı. 1939-cu ilin sentyabrın 1-də İkinci dünya müharibəsi başlayandan sonra, ABŞ həmin qanunda dəyişiklik etmək qərarına gəldi. ABŞ 1939-cu ilin sentyabrın sonunda Almaniya ilə müharibə edən dövlətlərə silah, ərzaq satmağa razı oldu. Lakin bu mallar nəqd pulla alınmalı və həmin dövlətlərin öz gəmilərində aparılmalı idi. 1941-ci ilin martında isə ABŞ konqresi Lend-liz qanununu qəbul etdi. Qanuna görə Almaniya ilə müharibə edən dövlətlərə borc, kredit və kirayə vermək nəzərdə tutulurdu. Həmin qanun ABŞ tarixinə «elan edilməmiş müharibə» kimi daxil oldu.

ABŞ-nın xarici siyasətinin üçüncü istiqaməti Asiya idi. Asiyaya qarşı ABŞ hələ vaxtilə irəli sürülmüş "açıq qapılar" doktrinasının tərəfdarı idi. Əslində bu ABŞ-nın mövqeyinin Çində, Uzaq Şərqdə və Sakit okeanda möhkəmləndirilməsini nəzərdə tuturdu. Uzaq Şərqdə ABŞ çox ciddi diplomatik problemlərlə toqquşdu. Amerika-yapon ziddiyyətləri qaçılmaz fakt idi. Mancuriyanın Yaponiya tərəfindən işğalından sonra bu münasibətlər daha da kəskinləşdi. Siyasi-diplomatik rəqabətdə ABŞ 1921-1922-ci ildə Vaşinqton konfransında bağlanmış sazişdən istifadə etdi. 1928-ci ildə bağlanmış pakt da ABŞ-a imkan verdi ki, Yaponiyanı günahlandırsın. ABŞ-nın Uzaq Şərqdə Yaponiyaya qarşı siyasətinin əslində əsas məqsədi Yaponiya ilə münaqişədən uzaqlaşmaq idi. ABŞ Avropada vəziyyətin gərginləşməsindən də Yaponiya ilə kompromisə gəlmək üçün istifadə etmək istədi. Bu dövrdə Yaponiya ABŞ-dan vacib hərbi-strateji materialların, demək olar ki, yarısını alırdı. ABŞ çalışırdı ki, SSRİ ilə Yaponiya toqquşsun, özü isə kənarda qalsın. Lakin gözlədiyinin əksi oldu.

Ruzveltin dövründə xarici siyasətin dördüncü istiqaməti Latın Amerikası idi. Latın Amerikasına qarşı aparılan əvvəlki siyasətlər Latın Amerikası xalqlarının ABŞ-a qarşı nifrətinə səbəb olmuşdu. Hələ 1904-cü ildə prezident Teodor Ruzvelt



Panama kanalının çəkilişi ilə əlaqədar göstərirdi ki, bu məsələ ABŞ-ın milli mənafeyinə (siyasətdə milli mənafe terminini ilk dəfə T.Ruzvelt işlətmişdir) uyğundur və ABŞ-ın bütün Amerika dövlətlərinin daxili işlərinə qarışmağa ixtiyarı vardır. 1904-cü ildə ABŞ konqresi bu barədə qanun da qəbul etdi. Bu dövrdə Latın Amerikası ölkələrində aprizm adlı cərəyan hökm sürürdü. Onun mahiyyətini -"Amerika hindular üçündür" şüarı təşkil edirdi. Ruzvelt Latın Amerikası ölkələrinə münasibətdə ilk növbədə onların etibarını qazanmağı qarşısına məqsəd qoydu. 1904-cü il qanunu ləğv edildi. ABŞ silahlı qüvvələri Nikaraqua və Haitidən çıxarıldı. Latın Amerikası ölkələrinə qarşı Ruzvelt "mehriban qonşu" siyasəti yeritdi. Bu qonşuluğun arxasında Latın Amerikasına italyan, yapon, alman, ingilis kapitalının axınının qarşısını almaq məqsədi gizlənmişdi. Ruzvelt ABŞ prezidenti Monronun 1823-cü ildə irəli sürdüyü "Amerika-amerikanlar üçündür" doktrinasını dirçəltmək istəyirdi. O, Amerika dövlətləri arası sistem yaratmağa çalışırdı. Bunun üçün Ruzvelt Latın Amerikası ölkələrinin ABŞ-la birlikdə 1933-cü ildə Montevedioda, 1936-cı ildə Buenos-Ayresdə, 1937-ci ildə Limada beynəlxalq konfranslarının çağırılmasına nail oldu. Həmin konfranslarda Latın Amerikası ölkələri ilə ABŞ arasındakı münasibətlərin bərabər hüquqlar səviyyəsində qurulması nəzərdə tutulurdu.

30-cu illərin ikinci yarısında ABŞ-ın xarici siyasətinə münasibətdə ölkənin özündə iki istiqamət vardı. Bu istiqamətlərdən biri Huverin, Mellonun başçılıq etdiyi «təcridçilik» istiqaməti idi. Onlar belə hesab edirdilər ki, Avropa ilə heç bir əlaqə saxlamaq lazım deyil, xüsusilə İngiltərədən uzaqlaşmaq lazımdır. ABŞ-a İngiltərə lazım deyil. ABŞ öz milli iqtisadiyyatını özü yaratmalı, Almaniya və Yaponiya ilə əlaqələrin inkişafına daha çox səy etməlidir.

İkinci istiqamət Ruzvelt və Xellin başçılıq etdiyi «beynəlmiləlçilik» idi. Onlar göstərirdilər ki, dünyanı faşizm təhlü-

kəsi bürüyüb. Almaniya İngiltərəni öz tərəfinə çəkmək istəyir. Dünya ölkələrinin yarısı İngiltərənin tərəfindədir. Ona görə də bu dünyada yaşayıb, dünyadan kənarda qalmaq olmaz. İngiltərə ilə əlaqələri inkişaf etdirmək vacibdir.

ABŞ 1941-ci ilin dekabrına qədər müharibədə iştirak etməsə də, getdikcə Böyük Britaniyaya hərbi-iqtisadi yardımını artırdı. Avropada qəribə müharibə başa çatdığından Ruzveltin irəli sürdüyü «Milli müdafiə proqramı»na əsasən konqres hərbi xərclərin 17.7 mlrd dollara, ordunun sayının isə 280 min nəfərdən 1 milyon 200 min nəfərə çatdırmaq haqqında qərar qəbul etdi. “Bitərəflik haqqında” qanunun bürün maddələrindən 1941-ci ilin dekabrına kimi imtina edildi. 1941-ci ilin dekabrın 7-də ABŞ Yaponiyaya müharibə elan etməklə İkinci dünya müharibəsinə girmiş oldu. Çünki ilk növbədə ABŞ-ın milli mənafeyi, onun daxili və beynəlxalq vəziyyəti bunu tələb edirdi.

Dünya hadisələrinin gedişi Ruzveltin haqlı olduğunu göstərdi Ruzveltin real siyasət aparması, gözəl təşkilatçılıq bacarığı, möhkəm siyasi iradəsi, praktik adam olması onun XX əsrin Eynşteyndən sonra İkinci adamı kimi tanınmasına səbəb oldu.



# IX. MƏRKƏZİ, ŞƏRQİ VƏ CƏNUBİ-ŞƏRQİ AVROPA ÖLKƏLƏRİ

## AVSTRİYA

### *Avstriyanın respublika elan edilməsi*

Birinci dünya müharibəsi dövründə də Avstriya-Macarıstanın əhalisinin əksəriyyəti milli zülm altında olan və istismar olunan xalqlardan ibarət idi.

Müharibədən əvvəl Avstriya-Macarıstan kapitalizmin zəif inkişaf etdiyi ölkə idi. Sənaye ancaq Çexiyada bir qədər inkişaf etmişdi. Müharibə bu çoxmillətli ölkənin iqtisadiyyatını xeyli zəiflətdi, milli və sinfi ziddiyyətləri isə daha da kəskinləşdirdi. 1918-ci ilin noyabrın 3-də o, müharibədən məğlub vəziyyətdə çıxdı. Müharibədə Avstriya-Macarıstandan 4 milyondan artıq yaralanan, ölən və əsir düşən oldu.

Müharibənin ən mühüm nəticələrindən biri Avstriya-Macarıstan imperiyasının dağılması və onun yerində bir sıra yeni milli dövlətlərin yaranması idi. Bu dövlətlərdən biri də Avstriya oldu.

1918-ci ilin oktyabr-noyabr aylarında bütün Avstriyanı fəhlə və əsgərlərin inqilabi çıxışları bürüdü. Müharibə illərində Avstriya sosial-demokrat partiyası içərisində sol qruplar təşəkkül tapmaqda idi. 1918-ci il noyabrın 3-də Vyanada təsisedici konfransda Avstriya Kommunist Partiyası (AKP) təşkil olundu. Partiya «Vekruf» (Çağırış) qəzetini buraxmağa başladı. Ancaq AKP ideaoloji cəhətdən zəif, üzvləri az idi. Avstriya burjuaziyası inqilabi-çıxışları yatırmağı bacardı. Avstriyada 1918-ci il noyabr inqilabı burjua-demokratik inqilab çərçivəsindən kənara çıxmadı. Vyanada Avstriya vilayətlərinin deputatlarının məclisi çağırıldı. Məclis özünu «Alman Avstriyasının müvəqqəti Milli Məclisi» elan etdi. Dövlət şurası təşkil olundu. Dövlət kansleri vəzifəsinə sosial-demokrat partiyasının lideri Karl Renner təyin edildi. Milli Məclis Avs-

triyanı 1918-ci il noyabrın 12-də respublika və Almaniya Respublikasının tərkib hissəsi elan etdi. Sənaye fəhlələri üçün 8 saatlıq iş günü müəyyən olundu. İşsizliyə görə vəsait ayrıldı. Lakin bununla belə sosial-demokrat partiyasının başçılıq etdiyi bu hökumət milli qvardiyanı tərksilah etdi, fəhlə və əsgər deputatları sovetinin rolunu heçə endirdi. Avstriya dövlət şurası ilə Almaniya arasında anşlüs haqqında danışıqlar başlandı. Lakin 1919-cu ildə anşlüs siyasəti həyata keçirilmədi. Çünki Antanta dövlətləri Almaniyanın güclənməsini istəmirdilər. 1919-cu ildə Avstriya Milli-Məclisinə seçkilər keçirildi. Sosial-demokratlar seçkilərdə birinci yeri tutdular. Milli Məclisin sədri Karl Zeyts seçildi. 1919-cu ilin martında Karl Renner yeni hökumət təşkil etdi. 1920-ci ilin iyununda K.Renner hökuməti xalq kütlələrinin güclü tətilinin təsiri altında istefa verdi. Yeni hökuməti Xristian-sosialist partiyasının lideri Mayr təşkil etdi.

1919-cu il sentyabrın 10-da Avstriya ilə Antanta dövlətləri arasında Parisin yaxınlığında olan Sen-Jermen qəsəbəsində sülh müqaviləsi bağlandı. Avstriyadan təzminat alınmasını xüsusi təzminat komissiyası müəyyən etməli idi. Müqavilə Avstriya üçün məcburi hərbi mükəlləfiyyəti qadağan edirdi.

1920-ci il oktyabrın 1-də Təsisedici məclis Avstriyanın konstitusiyasını qəbul etdi. Avstriya federativ respublika elan olundu. Avstriyanın torpaqları landtaqlarını saxlayırdı. Vyanada landtaqın vəzifələrini bələdiyyə idarəsi yerinə yetirirdi. Konstitusiyaya əsasən burjua-demokratik azadlıqları elan edildi. Lakin kilsə dövlətdən ayrılmadı. 1920-ci ilin oktyabr seçkilərində Xristian sosialist partiyası qələbə qazandı. Haynş prezident seçildi.



### *Avstriya kapitalizmin nisbi sabitləşməsi və dünya iqtisadi böhranı illərində*

Yeni təşkil edilmiş Avstriya dövləti iqtisadi cəhətdən çətinlik keçirirdi. Sen-Jermen sülh müqaviləsinə görə Avstriyanın tərkibində 6,4 milyon əhalisi olan ərazi qalmışdı. Avstriyada sənaye fəhlələrinin sayı milyon yarıma çatırdı.

52 milyon əhalisi olan Habsburqlar monarxiyasını idarə etmək üçün yaradılmış idarə heyətlərini işlə təmin etmək imperiya dağıldıqdan sonra çətin idi. Buna görə də Avstriyada böyük bir qrup insan işsiz qaldı. Avstriya sənayesi bir çox xammal növlərindən məhrum oldu. İmperiya dağıldıqdan sonra fabrik-zavodların çoxu fəaliyyətdən qaldı. Avstriya burjuaziyası və iri torpaq sahibləri xaricdən borc almağı qərara aldı. 1922-ci ildən 1929-cu ilə qədər Avstriya xaricdən 650 milyon qızıl kron borc aldı.

Avstriyada fəhlələrin əksəriyyəti sosial-demokrat partiyasının arxasınca gedirdi. 1924-cü ildə bu partiyanın 555 min üzvü var idi. Sosial demokratların rəhbərlik etdikləri həmkarlar ittifaqları bir milyondan artıq fəhlə və qulluqçunu öz sıralarında birləşdirirdi. Otto Bauer və başqaları fəhlələrə sosializm uğrunda mübarizədə ancaq seçkilərə ümid bəsləməyi təbliğ edirdi. 1927-ci il seçkilərində Avstriya Sosial-demokrat partiyası 42% səs topladı. Sosial demokratlar uzun müddət Vyana bələdiyyə idarəsini öz əllərində saxladılar. Avstriya SDP sosializm qurmağa başladığını qeyd etsə də, onların həyata keçirdiyi tədbirlər kapitalizmin əsaslarına toxunmurdu. Avtsriya burjua mürtəce dairələri faşist terrorçu metoduna keçdiklərinə görə 1923-cü ildə sosial-demokrat partiyası özü hərbiləşdirilmiş təşkilatını yaratdı. Təşkilat Ştusbund (Müdafəi ittifaqı) adlandırıldı. Onun 100 minə yaxın üzvü var idi. 1927-ci il yanvarın 30-da faşist qrupları Kiçik Ştattekdorf əyalət şəhərində fəhlə

nümayişinə atəş açdılar. Faşist terroruna qarşı Avstriyada kütləvi nümayiş başlandı. Öldürülən fəhlələrin dəfni zamanı Avstriyada bütün fəhlə sinfi 15 dəqiqə işi dayandırdı.

1927-ci ilin iyulun 14-də burjua məhkəməsi Ştattekdorf-dakı qırğına haqq qazandırdı. Buna etiraz əlaməti olaraq kütləvi fəhlə tətilləri başlandı. 20 gün ərzində tətillər dayanmadı. Hökumət tətilləri qəddarcasına yatırtdı. 1929-cu ildə hakimiyyətə fəhlələrin iyul nümayişinə divan tutmuş Şober keçdi. O, konstitusiyanı yenidən faşizm ruhunda tərtib etdirdi.

Dünya iqtisadi böhranı Avstriyanın sosial-siyasi və iqtisadi həyatına ciddi təsir etdi. 1929-cu ilin oktyabrında böyüklüyünə görə Vyananın ikinci bankı olan "Bodenkredit ştabı" iflasa uğradı. Ölkənin maliyyə sistemi pozuldu. İqtisadi böhran Avstriya sənayesində mərkəzləşməni və təmərküzləşməni gücləndirdi. İşsizlərin sayı artdı. Vergilər çoxaldıldı. Mənzil haqları artırıldı. Şober hökuməti 1930-cu il sentyabrın 5-də istefaya getdi. Voquci kansler oldu. Lakin 1930-cu il noyabrın 29-da o da istefaya getdi. 1930-cu il noyabrın 9-da keçirilən seçkilərdən sonra Xristian sosialist partiyasının nümayəndəsi Otto Ender ölkə kansleri oldu. Hökumətin Avstriya-Almaniya gömrük ittifaqının yaradılması haqqında qərarı beynəlxalq təzyiqlərə səbəb oldu. Ender hökuməti də 1931-ci il iyunun 20-də istefa verdi. Yeni hökuməti Karl Bureş yaratdı. O, iqtisadi böhranın qarşısını almaqda aciz qaldı. Avstriyaya kreditlər verilməsi məsələsi böyük dövlətlər tərəfindən istənilən qaydada həll olunmadığı üçün qalmaqal yarandığından Bureş hökuməti 1932-ci il may ayının 13-də istefaya getdi.

Sosial-demokratların apardığı islahatçılıq təbliğatı nəticəsində pərən-pərən düşmüş fəhlə sinfi faşizmin yolunu kəsə bilmədi. 1932-ci ilin mayında Xristian-sosialişlər partiyasının sağ qanadının lidrei Dolfusun hökuməti hakimiyyətə keçdi. O, 1933-cü ildə dövlət çevrilişi edib, parlamenti buraxdı. Demokratik azadlıqları ləğv etdi. Sosial-demokratların



ştusbundu buraxıldı. AKP qadağan edildi. Dolfus arxalandığı partiyaları – Xristian sosialistlər partiyasını, Katolik təşkilatını, Heynveri "Vahid vətən cəbhəsi" partiyası adı altında birləşdirdi. Bu partiya Dolfus hökumətinin dayağına çevrildi. Avstriyada fəhlələr faşistlərə qarşı silahlı mübarizəyə başladılar. Barrikadalar təşkil etdilər. Lakin ordu 1934-cü il fevral çıxışlarını qəddarcasına yatırtdı. 1200 nəfər öldü, 5000-ə yaxın yaralandı, 11 minə yaxın isə həbs edildi, yüzlərlə fəhlə Çexoslovakiyaya keçib, oradan SSRİ-yə gəldilər.

### *Hitler Almaniyasının Avstriyanı işğal etməsi*

1934-cü il iyulun 25-də hitlerçilər Dolfusu öldürüb Avstriyanı işğal etməyə cəhd göstərdilər. Ancaq sərhədlərdə yerləşən alman qoşunlarını Hitler Avstriyaya yeridə bilmədi. Çünki Mussolini də belə olacağı təqdirdə qoşunlarını Avstriyaya yeridəcəyini bildirmişdi. Şuşink Avstriya hökumətinin başçısı oldu. O, 1936-cı ilin yayında Avstriya və Almaniya arasında dostluq münasibətlərini bərpa etmək haqqında müqaviləyə imza atdı. Almaniya faşist mətbuatı anşlüs haqqında yenidən təbliğata başladı. Şuşink hökuməti yenə də xalqın iradəsi ilə hesablaşaraq almanların Avstriyada təşkil etdiyi nasional-sosialist partiyasını qadağan etdi. Bu Hitlerin qəzəbinə səbəb oldu. 1938-ci ilin fevralın 12-də Hitler Şuşinkə ultimatum verdi. Nəticədə nasional-sosialistlər azad olundu. Nasist Zeys-İnkvard daxili işlər naziri təyin olundu. Şuşink Avstriyanın müstəqilliyi barəsində plebist (ümumi rəy sorğusu) keçirməyi qərara aldı. Ancaq Hitler yenə ona ultimatum göndərib plebsisti ləğv etməyə nail oldu. Şuşink 1938-ci il martın 11-də radio ilə çıxış edib istefaya çıxdığını bildirdi. Eyni zamanda xalqı alman qoşunlarına müqavimət göstərməməyə çağırdı. İnkvard Avstriyanın kansleri təyin edildi. 1938-ci il martın 11-də Hitler ordusu heç bir müqavimətsiz Avstriyaya daxil oldu. Kansler Avstriyanı alman dövləti elan etdi. Anşlüs Avstriyanın Alma-

niyanın hakimiyyəti altına alınması ilə nəticələndi. Avstriya rəsmi olaraq Ostmark ("Şərq markası") adı altında üçüncü reyxin tərkibinə qatıldı.



## MACARISTAN

***Macarıstanda 1918-ci il burjua-demokratik inqilabı***

Çoxmillətli Habsburqlar monarxiyası tərkibində Macarıstan imtiyazlı dövlət idi. Macar iri torpaq sahibəri və burjuaziyası serbləri, rumınları, slovakları, xorvatları və digərlərini-ni təzyiq altında saxlayaraq onların milli mədəniyyətlərinin inkişafına mane olurdular. Bu dövrdə Macarıstan kapitalizmin orta səviyyədə inkişaf etdiyi 10 miloyn əhaliyə malik olan aqrar-sənaye ölkəsi idi. Bir sıra iri sənaye sahələri də inkişaf etməkdə idi. Macarıstanda fəhlə sinfinin əksəriyyət hissəsi Budapeştdə yerləşmişdi. Kənd təsərrüfatında feodalizmin qalıqları, latifundiyalar mövcud idi. Birinci dünya müharibəsi illərində Macarıstandan ölənlərin sayı 1,4 milyon, əsir düşənlərin sayı isə 700 min nəfər oldu. Müharibə nəticəsində ölkədə aclıq və təsərrüfat pozğunluğu əmələ gəldi. Zəhmətkeş kütlələrin nifrəti iri mülkədar və burjuaziyanın mənafeyini müdafiə edən hökumətə qarşı getdikcə güclənirdi. Rusiyadakı Fevral inqilabı və oktyabr çevrilişi inqilabi hərəkatın yüksəlməsinə təkan verdi.

1918-ci ildəki tətillərin gedişində ilk dəfə Macarıstanda fəhlə deputatları sovetləri təşkil edildi. Zəhmətkeş kütlələr müharibənin dayandırılmasını, Habsburqlar monarxiyasının dağıdılmasını daha qətiyyətlə tələb edirdilər. Serbiya, Xorvatiya, Çlovakiyada və s. başqa yerlərdə milli-azadlıq hərəkatı gücləndi.

1918-ci ilin oktyabrında ölkədə kütləvi tətil hərəkatı ən yüksək nöqtəsinə çatdı. Kəndlilər mülkədarların torpaqlarını müsadirə edərək öz aralarında paylayırdılar. Cəbhələrdə fərarilərin sayı artırdı. Bu hadisələr Habsburqlar monarxiyasının dağılmasını surətləndirdi. 1918-ci ilin oktyabrın 30-da Budapeştdə zəhmətkeşlərin üsyanı oldu. Üsyan edən fəhlələr silah zavodunu ələ keçirərək silahlanıb əsgərlərə qoşuldular. Silahlı

üsyançılar oktyabrın 31-də hökumət evini, teleqraf, poçt və s.-ni ələ keçiridlər. Lakin sovetlərdə əksəriyyəti təşkil edən sağ sosialistəlr fəhlə hökuməti təşkil etməkdən boyun qaçıraraq hakimiyyəti burjuaziyaya verdilər. Oktyabrın 31-də İstiqlaliyyət partiyasının rəhbəri Mixail Karoyi başda olmaqla koalisiyalı hökumət təşkil edildi. Bu hökumətin tərkibinin əksəriyyəti burjua nümayəndələrindən ibarət idi. Lakin burada sağ və mərkəzçi sosialistlərin də nümayəndələri var idi.

1918-ci il noyabrın 16-da Macarıstan respublika elan edildi. 1919-cu ilin yanvar ayında M.Karoyi prezident seçildi. Yenicə təşkil edilmiş koalision hökumət fəhlə-kəndlilərin çıxışlarını yatırmağa və burjuaziyanın hakimiyyətini möhkəmləndirməyə çalışdı. Bu hökumət Habsburqlar monarxiyasının dövlət aparatına toxunmadı. Hökumətin göstərişi ilə müəyyən yerlərdə mülkədar torpaqlarının bölüşdürülməsi dayandırıldı. Kəndlilər tərəfindən bölüşdürülmüş torpaqlar təkrar sahiblərinə qaytarıldı. Koalision hökumət müəyyən güzəştlər etməyə də məcbur oldu. Ümumi seçki hüququ, söz, mətbuat, yığancaq azadlığı verildi. 8 saatlıq iş günü müəyyən edildi. Hökumətin tərkibindən müəyyən komissiya ayrıldı ki, ona da «sosialistləşmə komissiyası» adı verildi. Ölkədə aqrar islahatın həyata keçirilməsi vəd edildi. Göstərildi ki, 500 xoltdan (57 sotdur) artıq torpaq mülklərinə sahib olmaq qadağan edilir. Lakin aqrar islahatlar və "sosialistləşmə" hökumət tərəfindən həyata keçirilməyərək kağız üzərində qaldı. Ölkədə iqtisadi vəziyyət olduqca çətinləşdi. Bir sıra şəhərlərdə, xüsusilə, Budapeştdə xeyli miqdarda işsizlər ordusu əmələ gəldi. Ərzaq mallarının çatışmazlığı şəraitində möhtəkirlik gücləndi.

1918-ci il noyabrın 24-də Budapeştdə Rusiyadan qayıtmış kommunistlərin və sol sosialistlərin müşavirəsi çağırıldı. Burada Bela Kunun rəhbərliyi altında Macarıstan Kommunist partiyası təşkil edildi. Bu partiya Macarıstan zəhmətkeşlərini



burjua hakimiyyətini yıxmağa və proletariat diktaturasını qurmağa çağırdı.

Kommunist partiyası təşkil edilən gündən hökumət bu partiyanı ciddi təqib etməyə başladı. 1919-cu il fevralın 21-də MK-nın bütün tərkibini həbs etdi. Sağ sosialistlər hökumətin bu təşəbbüsünü bəyənərək kommunistləri həmkarlar ittifaqının rəhbər vəzifələrindən uzaqlaşdırmağa çalışdı. Hökumətin bu tədbirinə qarşı 1919-cu ilin mart ayında fəhlələr çıxış edərək Bela Kun və onun silahdaşlarının həbsxanadan azad edilmələrini tələb etdilər. Çıxış edən fəhlələr kommunistlərlə sosialist-demokratların birgə fəaliyyət göstərmələrini də tələb edirdilər. 1919-cu ilin əvvəlindən ölkədə inqilabi yüksəliş əmələ gəldi. Fəhlələr fabrik-zavodları ələ keçirdilər. Kəndlərdə kəndlilər mülkədar torpaqlarını müsadirə edərək onu yenidən öz aralarında bölüşdürürdülər. Bu zaman Macarıstanın beynəlxalq vəziyyəti də çətin idi. Burjuaziya dairələri danışıq şərtlərini sözsüz qəbul etməyi tələb edirdilər ki, Antanta dövlətləri Ruminiya, Çexoslavakiya, başqa dövlətlərin Macarıstandan ərazi tələblərini yerinə yetirməsinlər və bu işdə Macarıstana yardım etsinlər. Lakin onlar səhv edirdilər. 1919-cu il martın 20-də Macarıstanda olan Fransa podpolkovniki Vik vasitəsilə Antanta dövlətləri Macarıstana nota verdi. Notada göstərilirdi ki, Macarıstan hökuməti Şərqi Macarıstanı və Zakarpatiya ərazisini tam azad etsin və bu yerlərdə Rumıniya, Çexoslavakiya qoşunları yerləşdirilsin. Kütləvi hərəkatı yatıra bilməyən koalisiya hökuməti bu notanı alarkən daha çətin vəziyyətə düşdü və martın 21-də istefa verərək sosialistlərə hökumət təşkil etmələrini təklif etdi. Lakin bu zaman ölkədə hakimiyyət faktiki olaraq silahlı fəhlələrin əlində idi. Onlar polis və jandarmanı tərksilah edərək strateji cəhətdən mühüm məntəqələri ələ keçirdilər. Martın 21-də sosial-demokratların rəhbərləri həbsxanada olan Bela Kun və MK-nın digər üzvlərinin yanına gəldilər. Onlar bilmək istəyirdilər ki, kommunistlər sosialistlə-

rin təşkil edəcəyi hökumətə razılıq verəcəklərmi? Buna cavab olaraq həbsxanadakı kommunist rəhbərlər təklif etdilər ki, fəhlə partiyasının hər ikisi birlikdə hökuməti təhvil alsınlar. Sosial-demokratlar bu iki partiyanın birləşdirilməsi planını tərtib etdi. Kommunistlər bu planı bəyəndilər. Həbsxanada bu iki partiya rəhbərləri arasında saziş bağlandı. Sazişdə göstərilirdi ki, həmin partiyalar birləşərək Birləşmiş Sosialist Partiyası təşkil edirlər.

### *Macarıstan Sovet hökuməti*

1919-cu il martın 21-də Macarıstanda zəhmətkeşlər hökuməti təşkil edildi. Hökumət Macarıstanı Sovet respublikası elan etdi. Başçısı sosial-demokrat Şandor Qarban oldu. Bela Kun xarici işlər komissarı təyin edildi. Bütün komissarlar sosial-demokratlardan, onların müavinləri isə kommunistlərdən ibarət idi. Burjuaziyanın zəifliyi və özünü itirməsi nəticəsində fəhlə-kəndlilərə müqavimət göstərə bilmədi. Ölkə hər tərəfindən düşmənlərlə mühasirə edilmiş kiçik ərazidən ibarət idi. Antanta imperializminə Macarıstan Sovet respublikasını dağıtmaq asan idi.

Macarıstan Sovet hökuməti 133 gün fəaliyyət göstərməsinə baxmayaraq  bir sıra mühüm tədbirlər həyata keçirdi. Burjuaziya tərksilah edildi. Sənaye müəssisələrini idarə etmək üçün fəhlə sinfi içərisindən inzibati işçilər irəli çəkildi. Fəhlə millisi yaradıldı. Qızıl Ordu təşkil edildi. 21 fəhlədən artıq olan istehsalat müəssisələri, xarici ticarət, nəqliyyat milliləşdirildi. Fəhlələrin əmək haqqı artırıldı. 8 saatlıq iş günü haqqında fərman verdi. Mənzil kirayələri aşağıya salındı. Fəhlələrin ərzaqla təmin edilməsi qaydaya düşdü. Onların mənzil şəraiti də yaxşılaşdı. Ancaq Budapeştdə 30 min nəfər fəhlə qaranlıq mənzillərdən işıqlı binalara köçürüldülər. Qadınlar da kişilərlə bərabər hüquqa malik oldular. Xalq maarifi sahəsində də böyük işlər görüldü. Macarıstanda 14 yaşına qədər uşaqlar üçün



ümumi icbari təhsil elan olundu. Kilsə dövlətdən ayrıldı. 1919-cu il aprelin 3-də mülkədarların 100 xoltdan artıq torpağı müsadirə edildi. Lakin bu torpaqlar kəndlilərə paylanmayaraq dövlət torpağı şəklində qaldı. Macarıstan Sovet hökuməti həmişə Antantanın müdaxiləsini gözlədiyi üçün o bir neçə dəfə dünya fəhlə sinfinə müraciət etdi ki, çətin vaxtlarda ona yardım etsinlər. Doğrudan da, Paris sülh konfransının iştirakçıları Macarıstanı iqtisadi blokadaya almağı qərara aldılar. Aprelin axırlarında İngiltərə vaxtilə irəliyə sürmüş olduğu tələbləri təkrar etdi. Macarıstan Sovet hökuməti bu tələbləri rədd etdi. Belə bir şəraitdə Antanta dövlətlərinin razılığı ilə Fransa silahlı qüvvələri hücum edərək Macarıstan ərazisinin bəzi yerlərini işğal etdi. Fransızların yardımı ilə Sekel şəhəri Macarıstan ərazisində əksinqilabçıların yığnağına çevrildi. Admiral Xorti bu şəhərdə fəallıq göstərirdi. Aprel ayında Rumıniya və Çexoslovakiya da müdaxiləyə başladı. Bir sözlə, 50 min nəfərlik Qızıl Orduya qarşı Antanta dövlətlərinin 150 min qoşunu dururdu. Belə bir çətin şəraitdə sağ sosialistlər təkid etdilər ki, Sovet hökuməti istefa versin, ölkədə həmkarlar ittifaqından ibarət bitərəf hökumət təşkil edilsin. Lakin Bela Kun başda olmaqla kommunislər bu fikrin əleyhinə gedərək zəhmətkeşlərin daha geniş miqyasda silahlanmalarını tələb etdilər. May ayının 3-də Sovet hökuməti ümumi səfərbərlik elan etdi. Bu çağırışa qoşularaq 100 min fəhlə ordu sıralarına gəldilər. Macarıstan ordusu çox böyük inqilabi əhval-ruhiyyədə hücuma başlayıb Rumıniya ordusunu Tissa çayından sıxışdırıb çıxartdı. Çexoslovakiya ordusuna da ciddi zərbə endirdi. Bunun təsiri altında Slovakiyada iyunun 16-da Sovet respublikası elan edildi və bu əyalət federativ respublika kimi Macarıstanın tərkibinə daxil oldu. Macarıstan ordusunun bu müvvəffəqiyyətini görən Paris sülh konfransının sədri Klemanso Macarıstana yeni ultimatum göndərərək Antanta dövlətləri adından tələb etdi ki, Çexoslovakiya ərazisindən silahlı qüvvələri dərhal geri

çağırsın. Bu tələb yerinə yetirilməzsə, Macarıstan üzərinə daha geniş miqyasda müdaxilə başlanacaqdır. Klemanso vəd edirdi ki, bu tələb yerinə yetirilərsə, Macarıstandan sülh konfransına nümayəndə dəvət ediləcək, Rumıniya da öz qoşunlarını Macarıstandan geri çəkəcəkdir.

Belə bir çətin şəraitdə kənardan heç bir yardım ala bilməyən və eyni zamanda müəyyən mənada "Brest tənəfffüsü"nə ehtiyacı olan Macarıstan Sovet hökuməti bu ultimatumu qəbul etməyə məcbur oldu. Slovakiyadan qoşunlarının geri çəkilməsi Macarıstan silahlı qüvvələrinə mənfi təsir etdi və ordu içərisində ruh düşkünlüyü əmələ gətirdi. Lakin Klemanso öz vədinə əməl etmədi. Macarıstan ərazisindən Rumıniya qoşunları çıxarılmadı və Sovet hökumətinin nümayəndələri konfransa dəvət edilmədi. Vəziyyətin belə gərgin vaxtında daxildəki əksinqilabçılar baş qaldırmağa başladılar. İyunun 24-də Budapeştdə əksinqilabçılar qiyam qaldırdı. Bu qiyamda şəhər komendantı, sosial-demokrat Kalbruxt da iştirak etdi. Budapeşt qiyamı başqa şəhərlərdə də əksinqilabın baş qaldırması üçün işarə oldu. Fəhlələrin fəal iştirakı ilə bu qiyam yatırıldı. Lakin əksəriyyəti sosial-demokratlardan ibarət olan Macarıstan Sovet hökuməti qiyamçıları ağır cəzalandırmadı. Rumıniya qoşunlarının ölkə ərazisində qaldığını görən Macarıstan Sovet Respublikası bu qoşunlara qarşı hücum etmək üçün plan tərtib etdi. İyulun 20-də tənəffüs pozularaq hücum başlandı. Bu vuruşmada Qızıl Ordu hissələri məğlubiyyətə uğradı. Fransa-Çexoslovakiya müdaxiləsi yenidən başladı. İyulun 28-də Antanta dövlətləri Macarıstanda Sovet hökumətinin istefa verməsini tələb etdilər. İyulun 30-da Bela Kun yardım üçün dünya fəhlə sinfinə müraciət etdi. Lakin bu zaman Sovet Rusiyası vətəndaş müharibəsi ilə məşğul olduğu üçün Macarıstana yardım etmək iqtidarında deyildi. Kəndlilər Macarıstan Sovet hökumətini müdafiə etmədilər. Avqustun 1-də 133 gün yaşadıqdan sonra Macarıstan Sovet hökuməti süqut etdi.



Macarıstan Sovet hökumətinin məğlubiyyətə uğramasının bir sıra obyektiv və subyektiv səbəbləri vardır. Obyektiv səbəblərdən biri bu inqilabın beynəlxalq vəziyyətə uyğun şəraitdə baş verməməsi idi. Antanta dövlətləri Macarıstana müdaxilə etdilər. Ölkə olduqca kiçik ərazidən ibarət idi. Ölkə, eyni zamanda inqilabın mərkəzi olan Budapeşt hərbi cəbhələrdən o qədər də uzaq məsafədə deyildi. Aqrar məsələ düzgün həll edilmədiyi üçün fəhlə-kəndli ittifaqı pozuldu. Hökumət bütün sənaye sahələrini milliləşdirməklə süni olaraq öz yükünü artırdı, digər tərəfdən də xırda burjua dairələrini özündən narazı saldı.

### *Xorti diktaturasının qurulması*

Macarıstan Sovet hökumətinin süqutundan sonra ölkədə kommunistlərə, demokratik qüvvələrə qarşı ciddi terror tədbirləri həyata keçirildi. Kommunist rəhbərlərdən Samuel, Korvin və başqaları edam edildilər. Antantanın yardımı ilə hakimiyyətə keçmiş Xorti 25 il öz faşist rejimini Macarıstanda davam etdirdi. Ölkədə naiblik sistemi yaradıldı. Naib vəzifəsini kontr-admiral Mikloş Xorti tutdu. O, Trianon sülh müqaviləsini tanıdığını bildirdi. Bu sülhə əsasən Macarıstan ərazisinin 2/3, əhalisinin isə 1/3 hissəsini və dənizə çıxış yolunu itirirdi. 1921-ci ilin aprelində ölkədə qraf İ.Betlenin başçılığı altında təşkil edilən hökumət a sosial-demokratların sağ mövqedə dayanan rəhbərləri ilə həmin ilin dekabrında gizli saziş bağladı ki, bu saziş Xorti rejimini daha da möhkəmləndirilməsinə kömək etdi.

Bu dövrdə beynəlxalq miqyasda Macarıstan Trianon sülhünün şərtlərinə yenidən baxılmasına və təzminatın bir qədər azaldılmasına çalışırdı. Məhz bu səylər nəticəsində Slovakiya, Cənubi Karpat Ukraynası və Transilvaniya torpaqlarında macar hökmranlığı bərpa olundu. 1927-ci ildən İtaliya ilə yaxınlaşma başlandı. Macarıstan tədricən öz hərbi potensialını artırdı.

### *Macarıstan kapitalizmin nisbi sabitləşmə dövründə*

Macarıstan iqtisadi böhrandan ancaq 1924-1926-cı illərdə İngiltərə, ABŞ və Fransanın verdiyi kreditlər hesabına çıxa bildi və iqtisadiyyatın inkişafında nisbi sabitlik yarandı. Lakin ölkədə xarici kapitalın mövqeyi gücləndi. Macarıstanda ağır sənaye (metallurgiya, maşınqayırma və s.), toxuculuq sənayesi nisbətən daha sürətlə inkişaf edirdi. İnhisarların sayı artdı. Lakin 1929-cu ildə də bu inkişaf 1913-cü il səviyyəsinə çatmadı. Əsaslı aqrar islahat keçirilmədiyindən kəndli ailələrinin yarıya qədərinin torpağı yox idi. Betlen hökuməti Xorti rejimi ilə siyasi razılığa gəlməyi bacardı. 1922-ci il seçki qanunu Budapeşt və 11 iri əyalətdə gizli səsverməni saxlayırdısa da, 1925-ci il seçki qanunu parlament demokratiyasını minimum səviyyəyə endirdi.

### *Macarıstan dünya iqtisadi böhranı dövründə və İikinci dünya müharibəsi ərəfəsində*

1929-1933-cü illər dünya iqtisadi böhranı Macarıstan iqtisadiyyatına ağır təsir göstərdi. Sənaye istehsalı 1929-cu ilə nisbətən 23,1 % aşağı düşdü. 1930-1932-ci illərdə taxıl yığımı 5,5 milyon sentner azaldı. Vergilər artırıldı. Demokratik təşkilatlar dağıdıldı. İttifaq, tətil hüquqları, 8 saatlıq iş günü ləğv edildi. 1927-ci ildə Millətlər Cəmiyyətinin beynəlxalq bürosu 21 ölkədə fəhlələrin vəziyyətini yoxladı. Yaşayışlarının pis olması etibarı ilə Macarıstan birinci yer tutdu. Ölkədə vərəm və s. yoluxucu xəstəliklər, ölüm hadisələri olduqca çoxaldı. Uşaqların vaxtından əvvəl ölməsinə görə də Macarıstan bütün Avropada birinci yerdə idi.

İqtisadi böhran daxili vəziyyəti də kəskinləşdirdi. Ölkədə kütləvi narazılıq artdı. Ölkədə işsizlərin sayı 800 minə yaxın idi. 1931-ci ilin avqustunda keçirilən parlament seçkilərində



Birlik partiyası uğur qazanmadı, qraf Betlen istefa verdi. Xorti 1932-ci ilin oktyabrında Birlik partiyasının sağ qanadının rəhbərlərindən olan Kömböşi hökumətə başçı təyin etdi. Bu hökumət demokratiyanı daha da məhdudlaşdırdı. Xarici siyasətdə "Macar millətini canlandırmaq» şüarını irəli sürdü. 1938-ci ilin mayında hökumətin sədri B.İmredi oldu. Yeni nazir faşist dövlətlərilə əlaqəni genişləndirdi. Faşist partiyası kimi 1935-ci ildə yaranan Milli iradə partiyası fəaliyyətini canlandırdı. 1938-ci ilin noyabrında Vyana arbitrajının qərarına əsasən Slovakiyanın cənubu və Zakarpat Ukraynasının qərb hissəsi Macarıstana verildi.

Faşistlər zəhmətkeş kütlələr üzərində istismar təzyiqini artırmaq yolu ilə iqtisadi böhrandan çıxmaq istədilər. Maliyyə çətinliyini düzəltmək üçün çoxlu miqdarda kağız pul kəsildi. Xorti hökuməti beynəlxalq aləmdə bu rüsvayçılıqdan İngiltərə və İtaliya diplomatiyasının yardımı ilə yaxa qurtara bildi. Macarıstan İngiltərə, ABŞ, İtaliyadan çoxlu miqdarda borc aldı. Bunun nəticəsində ölkədə iqtisadiyyat getdikcə xaricilərin təsiri altına düşdü. İkinci dünya müharibəsi ərəfəsində sənayedəki əsas kapitalın 40%-i xarici inhisarlara məxsus idi. Xarici ticarətdə Almaniyanın payı 1933-cü ildə 11%, 1939-cu ildə isə 50% oldu.

1939-cu ilin fevralında hökumətin başçısı qraf Pol Teleki təyin edildi. Bu hökumət iki imperialist qrupu arasında manevr etməyə çalışırdı. Lakin 1939-cu ilin martında Çexoslovakiyanın işğalından sonra qəti olaraq nasist Almaniyası və faşist İtaliyası tərəfinə keçdi. 1939-cu ilin martında Hitlerin razılığı ilə Macarıstan Zakarpat Ukraynasını işğal etdi.

Macarıstan 1939-cu ildə «Antikomintern» və 1940-cı ildə isə Berlin paktlarına qoşuldu.

# POLŞA
## POLŞANIN MÜSTƏQİLLİYİNİN BƏRPASI

Birinci dünya müharibəsi dövründə Polşa hərbi əməliyyat meydanı idi. 1915-ci ilin yayında Almaniya və Avstriya-Macarıstan Rusiyanın tərkibində olan Polşa krallığını tutdu. Rusiyada baş verən Fevral inqilabından sonra Polşada müstəqillik uğrunda mübarizə başlandı. 1918-ci il avqustun 29-da Sovet Rusiyası Polşanın müstəqilliyini tanıdı.

1918-ci il noyabrın 6-7-də Polşa Sosialist Partiyası ilə Qalitsiya Sosialist Partiyası Lyublində müstəqil Polşa dövləti yaratdıqlarını elan etdilər. Təşkil edilən yeni hökumətə İqnasi Daşınski başçılıq edirdi. Bu hökumət Polşanı Xalq Respublikası elan etdi, Müəssisələr məclisi çağırmağı və demokratik islahatlar keçirməyi vəd etdi. Lakin o çox yaşamadı. 1918-ci il noyabrın 10-da Polşaya qayıdan Pilsudski Polşanı burjua dövləti yoluna keçirdi. 1918-ci il noyabrın 11-də Varşavadakı Naiblər şurası hakimiyyəti ona verdi. Daşinski hökuməti istefa verməli oldu və sağ sosialist Moraçevskinin başçılığı ilə yeni hökumət təşkil edildi. Polşanın müstəqilliyi 1918-ci ilin noyabrında bərpa olunmuş oldu.

1918-ci ilin dekabrında Polşa və Litva SDP və Polşa Sosialist Partiyası birləşib PKFP-ni (Polşa Kommunist Fəhlə Partiyası) təşkil etdilər.

Polşanın qərb sərhədləri Versal sülh müqaviləsi ilə müəyyənləşdirildi. Lakin şərq sərhədlərini müəyyən etməkdə Antanta ölkələri Polşaya fəaliyyət azadlığı verdilər. 1919-cu ilin dekabrında Antantanın Ali Şurası şərqdə Polşanın sərhəd xəttini təsdiq etdi. Bu xətt şərti olaraq İngiltərənin xarici işlər naziri Kerzonun adı ilə "Kerzon xətti" adlandırıldı.

Xalq artıq saikitləşdiyinə görə 1919-cu ilin yanvarın ortalarında Moraçevski hökumətini məşhur pianist, sağlara yaxın olan İqnasi Paderevskinin təşkil etdiyi hökumət əvəz etdi.



O Polşa Xalq Demokrat partiyasının sağ qanadına mənsub idi. Bu hökumət 1919-cu ilin yanvarında Müəsisslər Seyminə seçkilər təyin etdi. Xalq Demokratlar partiyası (endeki adlanır) çox səs aldı. Kilsənin köməyi ilə Pilsudski «dövlət rəisi» vəzifəsini saxladı.

Ölkədə 8 saatlıq iş günü müəyyən edildi, torpaq islahatı keçirildi. Bu kəndli hərəkatını zəiflətdi.

1918-1920-ci ildə Polşa antisovet mudaxilədə iştirak etdi. 1921-ci il martın 18-də Polşa ilə Sovet Rusiyası arasında Riqa sülhü bağlandı. Bu sülhə görə Qərbi Ukrayna və Qərbi Belorusiya Polşaya verildi. Polşanın qəti sərhədləri 1923-cü ildə müəyyən edildi.

1921-ci ilin martında Polşa Respublikasının konstitusiyası qəbul edildi. Konstitusiyada respublika quruluşu təsbit olundu. Prezident hər iki palata tərəfindən 7 il müddətinə seçilir və ona mühüm səlahiyyətlər verilirdi. Pilsudski prezident seçildi. 1922-ci ilin noyabrında birinci parlament seçkiləri keçirildi. Demokrat partiyası xristian demokrat partiyası ilə blokda 444 yerdən 163 yer aldılar. Kəndli partiyası (Lyudovtsı) da mühüm yer tutdu. Bu partiyanın sağ qanadı «Pyast» (rəhbəri Vitos idi) sol qanad isə «Vızvolene» adlanırdı. Onlar seymdə 25% səs aldılar ki, bu 125 yer demək idi. Sosialist partiyasının sol qanadı 141 mandat aldı, Prezident «Pyast»a yaxın olan Voytsexovski oldu. 1923-cü ilin mayında «Xyena-Pyast» hökuməti yaradıldı ki, onun da başında Vitos dururdu. 1923-cü ilin ortalarında inflyasiya artdı, qiymətlər qalxdı. Vitos hökumətindən narazılıqdan Pilsudski istifadə etdi. Tezliklə Vitos hökuməti də istefaya çıxdı.

### *Polşa kapitalizmin nisbi sabitləşməsi və dünya iqtisadi böhranı dövründə*

1924-1925-ci illərdə hökumətə məşhur iqtisadçı Qrabski başçılıq edirdi. O «daxili sülh, iqtisadiyyatın sağlamlaşdırıl-

massı»na nail olmaq istədisə də, bacarmadı. Xarici dövlətlər Almaniyaya istiqraz verdilər, Polşaya isə yox, bu isə onun beynəlxalq vəziyyətini çətinləşdirdi. Ən böyük zərbə ona Lokarno (1925) konfransında dəydi, çünki bu konfrans alman-Polşa sərhədinin təhlükəsizliyinə təminat vermədi.

1925-ci ilin aqrar islahatı yalnız qolçomaqlara və mülkədarların bəzi qruplarına xeyir verdi. 1925-ci ilin fevralında Qrabski hökuməti Vatikanla konkordat (dini saziş) bağladı. Dövlət din üzərindəki nəzarətdən imtina etdi. Bütün ziddiyyətləri həll etməyə imkan tapmayan hökumətin 1925-ci ilin noyabrında vəziyyəti mürəkkəbləşdi. Qızıl standartı siyasətinə hücum başlandı, sənaye istehsalı azaldı, işsizlik artdı. 1926-cı ilin mayın 10-da «güclü əllər» hökuməti təşkil edildi ki, ona yenə də Vitos başçılıq edirdi. 1926-cı ilin mayın 12-də Pilsudskinin general və zabitlərinin rəhbərlik etdiyi qoşunlar Varşavaya yürüş etdilər. Hökumət əleyhinə fəhlə sinfi də çıxış etdi. Nə hökumət, nə də Polsudski vətəndaş müharibəsi istəmirdilər. Prezident Voytexovski və Vitos hökuməti istefa verdi. Professor Bartel hökumətin başçısı təyin edildi. Pilsudski seymin və senatın əksəriyyət səsi ilə prezident seçildi. Həmçinin o, hərbi nazir və ordunun baş inspektoru vəzifəsini özünə götürdü. O, "sanasion" rejim yaradacağını elan etdi.

"Sanasion" (sağlamlaşdırma) rejimin şüarı «Demokratiya Pilsudski ilə, Pilsudski demokratiya ilədir» idi. Pilsudski siniflərin və partiyaların siyasətdən kənar olduğunu bildirdi. Parlamenti formal olaraq saxladı. Faktiki olaraq o, həm dövlətin daxili, həm də xarici siyasətinə rəhbərlik edirdi. Pilsudskinin dayağı iri burjuaziya və mülkədarlar idi. O, Xalq Demokrat partiyasının (Xyena) nüfuzunu məhdudlaşdırmağa çalışırdı. Bu rejim tezliklə zəiflədi. Polşa İtaliya və Almaniyaya bənzəməyi bacarmadı. O kütləvi siyasi partiya yarada bilmədi.

Kapitalizmin nisbi sabitləşməsi dövründə işsizlik bir qədər azaldı, sənaye istehsalı artdı. 1926-1928-ci illərdə 700



min ha torpaq kəndlilərə haqqı ödənilməklə verildi ki, bu kəndli problemini bir qədər həll etmiş oldu. Lakin kommunistlərə və sosialistlərə qarşı kütləvi təqiblər hökumətdən narazılığı artırdı. Pilsudski öz tərəfdarlarından "bitərəf blok" yaratdı.

Seymə və senata 1928-ci ilin mart seçkiləri ərəfəsində «Bitərəf bloka» cəmi 25% səs verildi, 31% səs isə sosialistlər topladılar.

1928-ci ildə Polşada hələ başqa ölkələrdən qabaq iqtisadi böhran başlandı. Bu böhran 1935-ci ilə qədər davam etdi. 1931-ci ildə 1,5 milyon adam işsiz idi. 1930-1935-ci illərdə 3 min sənaye müəssisəsi iflasa uğradı.

Böhran "Sanasion" rejimin möhkəm olmadığını yəqin etdi. 1930-1935-ci illərdə 10 hökumət dəyişildi. Bu hökumətlər «polkovniklərin hökuməti» adlanırdı. Sol partiyalarla «Mərkəz partiya»sı parlamentdə birləşib, «Sentrol» adlanmağa başladılar. Onlar konstitusiya və demokratiyanın bərpa olunması uğrunda çıxış edirdilər.

1930-cu ilin yayında parlament buraxıldı, yeni seçkilər təyin edildi. Müxalif qüvvələr həbs edilib cəzalandırıldı və Brest qalasına salındı. Bu seçkilər «Brest seçkiləri» adını aldı. "Bitərəf blok" çox səs aldı. Seçkilərdən sonra Pilsudski hökumətdən getdi, onu növbəti polkovnik əvəz etdi. Polşada təqib dalğası davam edirdi.

### *Polşa İkinci dünya müharibəsi ərəfəsində*

Faşistləşmə meyli özünü 1935-ci il konstitusiyasında bir daha göstərdi. «Vahid və bölünməz dövlət», «tarix və allah qarşısında məsuliyyət» konstitusiyada öz əksini tapdı. Pilsudski prezident seçildi. Bütün dövlət orqanları ona tabe edildi. Hökumət parlamentə tabe olmadı. Avtoritar rejim yaranmış oldu. 1935-ci ilin mayında Pilsudski öldü.

Polşanın Fransa və Kiçik Antantanın üzvü olan Ruminiya ilə əlaqəsi yaxşı idi. 1932-ci ildə Polşa SSRİ ilə hücum

etməmək haqqında müqavilə bağladı. 1934-cü ildə Polşa ilə Almaniya arasında silah işlətməmək haqqında bəyannamə imzalandı.

Pilsudskinin silahlı qüvvələrin baş inspektoru yerini Rıda Smiqla tutdu. Prezident isə Mostsisski seçildi. Xarici işlər naziri Bek idi. 1935-ci ildə "Bitərəf blok" buraxıldı. 1937-ci ildə isə Milli birlik cəbhəsinin yaradıldığı elan edildi. Antifaşist mübarizə gücləndi.

1937-1939-cu illərdə iqtisadi vəziyyət bir qədər yaxşılaşdı. Visla və Sana çayları arasında Mərkəzi sənaye dairəsi yaradılmış oldu. Lakin bununla belə 1939-cu ildə ölkədə 240 min işsiz var idi.

Kənd təsərrüfatında da yüksəliş nəzərə çarpırdı.

1938-ci ildə Kominternin qərarı ilə Polşa KP buraxıldı.

İkinci dünya müharibəsi ərəfəsində Polşa Almaniya və SSRİ əleyhinə olan xarici siyasət yeridirdi ki, bu da onun 1939-cu ildə bu iki dövlət tərəfindən bölüşdürülməsinə səbəb oldu.



## ÇEXOSLOVAKİYA

### *Çexoslovakiya respublikasının təşkili*

Birinci dünya müharibəsinin sonuna qədər Çexiya və Slovakiya Avstriya-Macarıstan imeriyasının tərkibində idi.

Müharibədə "Dördlər İttifaqı"nın məğlubiyyəti Çexiya xalqını da öz müstəqilliyi uğrunda mübarizəyə ruhlandırdı. 1918-ci ilin yanvar ayının 6-da çex deputatları Avstriya reyxstrat və seymindən Çexiyaya müstəqillik verilməsini tələb etdilər. Lakin bu tələb rədd edildi.

1918-ci ilin iyununda isə Parisdə fəaliyyət göstərən çex siyasi partiyaları Milli komitə təşkil etdilər. Komitənin rəhbəri Tomas Masarik təyin edildi. 1918-ci ilin oktyabrın 28-də Milli Komitə müstəqil Çexiya dövlətinin yaradıldığını elan etdi. 1918-ci ilin oktyabrın 30-da Slovakiya da Macarıstandan ayrıldığını və Çexiya ilə birləşdiyini bildirdi. 1918-ci ilin noyabrın 14-də Milli Məclis Çexoslovakiyanı respublika elan etdi. Respublikanın prezidenti T.Masarik seçildi. "Ümumxalq koalisiyası" adlanan hökumət təşkil edildi və onun tərkibinə ölkədəki siyasi partiyaların nümayəndələri daxil oldular. Hökumət 8 saatlıq iş günü müəyyən etdi. Aqrar islahat keçirildi. Hökümət Macarıstana müdaxilədə iştirak etdi. Bu dövrdə Slovakiyada yaranan Sovet respublikası 1919-cu il iyulun 1-də süqut etdi.

1920-ci ilin iyulunda sosial-demokrat partiyasının sağ qanadının lideri V.Tusar "qırmızı-yaşıl koalisiya" adlanan hökumət təşkil etdi. 1920-ci il fevralın 20-də Çexoslovakiya Respublikasının konstitusiyası qəbul edildi. Konstitusiyaya görə prezident 7 il müddətinə seçilir və ona böyük səlahiyyətlər verilirdi. Qanunverici məclis ikipalatalı parlament idi ki, onun da aşağı palatası Milli Məclis adlanırdı. Paris sülh konfransının qərarına əsasən Zakarpat Ukraynası da Çexoslovakiyaya verilirdi. Çexoslovakiya Habsburqlar imperiyasının sənaye potensialının 4/5 hissəsinə sahib oldu. Çexoslovakiya çoxmillətli

ölkə idi. Onun 13,5 milyonluq əhalisinin 7 milyona qədəri çex, 3 milyona qədəri alman, 2 milyona yaxını slovak, 750 minə yaxını macar, 500 minə yaxını ukraynalı, 100 minə yaxını polyak idi.

XX əsrin 20-ci illərinin əvvəllərində Çexoslovakiyanın xarici siyasətinə böyük dövlətlərin, ilk növbədə Fransanın təsiri güclü idi. 1920-1921-ci illərdə Çexoslovakiya Fransanın rəhbərliyi ilə təşkil edilən Kiçik Antantanın üzvü oldu.

1920-ci ilin aprelində keçirilən parlament seçkilərində sosial-demokratlar və milli sosialistlər əksəriyyət qazandılar. Tusar yenə də hökumətə başçılıq etdi.

Kommunist İnternasialının fəaliyyəti Çexoslovakiyaya da öz təsirini göstərdi. 1921-ci ilin mayında Şmeralın başçılığı altında Çexoslovakiya Kommunist Partiyası təşkil edildi.

### *Çexoslovakiya kapitalizmin nisbi sabitləşməsi və dünya iqtisadi böhranı illərində*

Birinci dünya müharibəsindən sonra ölkədə baş verən böhrandan ölkə ancaq 1923-cü ilin sonunda çıxa bildi. Çex inhisarçıları Slovakiya və Zakarpat Ukraynasının iqtisadiyyatını özlərinə tabe etdilər və onu yüksək inkişaf etmiş çex torpaqlarının aqrar-xammal əlavəsinə çevirdilər. Kapitalizmin nisbi sabitləşməsi illərində ölkədə yüngül sənaye sahələri daha sürətlə inkişaf etdi. "Skoda" zavodu öz silah məhsullarını Kiçik Antantanın üzvlərinə və digər ölkələrə satırdı.

1929-1933-cü illərin dünya iqtisadi böhranı Çexoslovakiya iqtisadiyyatına da ciddi zərbə vurdu. Böhran hərbi sənayedən başqa bütün sənaye sahələrinə toxundu. Ölkədə işsizlərin sayı 700 mini ötüb keçdi. Böhran illərində ölkədə milli münasibətlər də kəskinləşdi. Siyasi məsələlərin həllində "Qrad" qrupu əsas rol oynayırdı. Onunla müxalifətdə olan partiya isə "Pyaterka" partiyası idi. "Qrad"ın nüfuzu daha güclü idi. Ölkədə "çexləşdirmə" siyasəti yeridilirdi. Bu siyasətin nəticəsində Slovakiyada millətçi xalq partiyası təşkil edildi ki, onun da rəhbəri Qlinka idi. Sudet vilayətində də Henleynin başçılığı altında millətçi Alman partiyası təşkil edildi. Zakarpat Ukraynası da muxtariyyət tələb edirdi.



1929-cu ilin dekabrında keçirilən parlament seçkiləri nəticəsində "hakim koalisiya hökuməti" təşkil edildi. Çexoslovakiya böhrandan ancaq 1934-cü ildə çıxa bildi.

### *Çexoslovakiya İkinci dünya müharibəsi ərəfəsində*

Almaniyada faşizmin hakimiyyət başına gəlməsi Çexoslovakiyada da millətçi qrupların daha da fəallaşmasına səbəb oldu. Ölkədə təqiblər artdı. 1934-cü ildə Kommunist partiyasının fəaliyyəti qadağan edildi.

1935-ci ilin mayın 19-da Milli Məclisə keçirilən seçkilərdə Sudet vilayətində Alman partiyası, Slovakiyada isə Xalq partiyası səslərin əksəriyyətini topladı. 1935-ci ilin dekabrında keçirilən prezident seçkilərində "Qrad" qrupunun rəhbəri Beneş qalib gəldi. Hökumətin başçısı isə Milan Qoca oldu. 1936-1938-ci illərdə ölkədə alman, slovak, ukrain, macar və polyak separatizmi gücləndi. Bununla belə 1938-ci ilin mayında Çexoslovakiya sərhədinə faşist Almaniyasının qoşun yığmaq cəhdi uğursuz oldu. Çünki o dövrdə Çexoslovakiya Avropada ən güclü qoşuna malik olan dövlətlərdən biri olduğu üçün Hitler buraya hücum etməyə cəsarət etmədi. 1938-ci ilin mayında Milan Qocanı general Sırov əvəz etdi. 1938-ci ilin sentyabrında olan Münhen konfransı Sudet vilayətinin orada almanların çoxluq təşkil etməsi bəhanəsi ilə Almaniyaya birləşdirilməsi haqqında qərar qəbul etdi. 1938-ci ilin oktyabrında Almaniya Sudet vilayətini özünə birləşdirdi. Çexoslovakiya öz ərazisinin 1/3-ni, əhalisinin 5 milyonunu, sənaye potensialının isə 40%-ni itirdi. Bundan sonra o, “İkinci respublika” adlandı. Prezident Beneş istefa verdi. Onu Qaxa əvəz etdi. Baş nazir Milli birliyin lideri R.Beran oldu. 1938-ci ilin oktyabrında

Slovakiyada Tisonun başçılığı altında hökumət təşkil edildi. Slovakiya 1939-cu ilin martın 14-də öz müstəqilliyini elan etdi. Slovakiya Almaniyanın satilletinə çevrildi. Zakarpat Ukraynasına isə Hitlerin razılığı ilə macar qoşunları daxil oldular. 1939-cu ilin martın 14-də Zakarpat Ukraynası da öz müstəqilliyini elan etdi. 1939-cu ilin martın 15-də prezident Qaxa Hitlerin Çexoslovakiya Respublikasını ləğv etmək tələbi ilə razılaşmalı oldu. Bohemiya (Çexiya) və Moraviya Almaniyanın protektoratlığına verildi. Beləliklə, Çexoslovakiya parçalandı və onun dövlət müstəqilliyinə son qoyulmuş oldu.



## BOLQARISTAN

### *Birinci dünya müharibəsinin Bolqarıstan üçün nəticələri*

Birinci Dünya müharibəsi ərəfəsində Bolqarıstan Balkan yarımadasında strateji mövqeyə malik olduğu üçün bu ölkəni öz tərəflərinə çəkmək məqsədi ilə Antanta dövlətləri və Üçlər ittifaqı ciddi mübarizə aparırdılar. Almaniya bu vilayəti ələ keçirərək Orta Şərqdə ağalıq etmək istəyirdi. Bolqarıstanı təsiri altına salmaq üçün 1914-cü ildə Almaniya Bolqarıstana 500 milyon lev pul borc verdi. Ölkənin birinci və ikinci Balkan müharibəsində məğlub edilməsindən istifadə edərək Almaniya imperializmi burada şovinist təbliğatı genişləndirdi. Çar Ferdinand Almaniya tərəfdarı idi. Bolqarıstan 1915-ci il sentyabrın 6-da Üçlər ittifaqı tərəfində müharibədə iştirak edərək Serbiyaya hücum etdi. Burjua partiyalarının hakim dairələri Bolqarıstanın müharibəyə qoşulmasını bəyənərək parlamentdə hərbi büdcə lehinə səs verdilər. Ancaq sosial-demokratların sol qanadı olan tesnyaklar parlamentdə hərbi büdcə əleyhinə səs verdilər. Müharibənin əmələ gətirdiyi çətinliklər, xüsusilə Almaniyanın bu ölkəni qarət etməsi kənd təsərrüfatı ölkəsi olan Bolqarıstanda çox ciddi ərzaq çətinliyi əmələ gətirdi.

1918-ci il sentyabrın 15-də Antanta ordusu Makedoniya cəbhəsində hücuma keçdi. Bu zaman Bolqarıstan əsgərləri vuruşmadan boyun qaçıraraq bir hissəsi əsir düşdü. Qalan qoşun hissələri isə geriyə qayıdaraq cəbhədən 45 km məsafədə olan Radomir şəhərinə gəldilər. Radomir şəhərində əsgərlər üsyan edərək strateji əhəmiyyətə malik olan bütün məntəqələri ələ keçirdilər. Üsyan etmiş əsgərlər 1917-ci ildə həbs edilmiş Dmitrovun və Stambuleyskinin («Əkinçilər ittifaqı» partiyasının rəhbəri idi) həbsxanadan azad edilmələrini tələb etdilər. Üsyançılar öz məqsədlərinə nail olduqdan sonra Radomirə gələn Stambuleyski üsyançıları sakit etmək məqsədi ilə vəd etdi

ki, Ferdinand taxtdan salınacaq və ölkə respublika elan ediləcəkdir. Belə bir şəraitdə hökumət orqanları özünü toplayaraq Radomirə silahlı qüvvələr göndərdilər. İki günlük gərgin vuruşmadan sonra hökumət qoşunları üsyanı yatıra bildi.

Burjua dairələri bu üsyandan qorxuya düşərək onun bir daha təkrar edilməməsi üçün Ferdinandı qurban verdilər. Hakim dairələrin təkidi ilə Çar Ferdinand oğlu Borisin xeyrinə taxtdan əl çəkdi. Lakin müharibədə Bolqarıstanın məğlubiyyəti ölkədə siyasi böhranı daha da gücləndirdi. Fəhlələr kütləvi bir surətdə çıxış edərək bir sıra siyasi tələblər, o cümlədən siyasi məhbuslara amnistiya verilməsini irəliyə sürdülər. Hökumət tərəfindən bu nümayişlər dağıdıldı.

1919-cu il mayın 28-də müharibədən sonra tesnyakların I qurultayı oldu. Bu qurultayda tesnyaklar özlərini Kommunist Partiyası adlandıraraq yeni proqram qəbul etdilər. 1919-cu ilin avqustunda ölkədə parlament seçkiləri keçirildi. Seçkilərin nəticəsində 229 deputatdan 85 nəfəri «Əkinçilər ittifaqı» partiyasından (bu partiya üzvlərinin əksəriyyəti xırda və ortabab kəndlilərdən ibarət idi), 45 deputat isə BKP-dən seçildi. Bu iki partiya deputatların əksəriyyətinə malik olduğu üçün hökuməti də onlar təşkil etməli idilər. Lakin Stambuleyski KP ilə deyil, iri torpaq sahiblərinin və burjuaziyanın mənafelərini müdafiə edən xalq, tərəqqipərvər və liberallar partiyası ilə koalisiya bağlayaraq hökumət təşkil etdi.

Beləliklə də, 1919-cu il oktyabrın 17-də Stambuleyskinin birinci hökuməti təşkil olundu. Bu hökumət ilk növbədə fəhlə-kəndli ittifaqının möhkəmlənməsinə mane olaraq BKP-na qarşı mübarizəyə başladı. Burjuaziya blokuna qarşı geniş miqyasda çıxış edən xalq kütlələrinin təzyiqi altında Stambuleyaki hökuməti 1920-ci ilin mart ayında yeni parlament seçkiləri elan etməyə məcbur oldu. Bu dəfəki seçkilərdə də BKP-nın 50 deputat yerinə malik olmasına baxmayaraq, Stambuleyaki BKP ilə bloka girməyərək yeni  ikinci hökuməti xalis "Əkinçilər



ittifaqı" partiyası xadimlərindən təşkil etdi. Stambuleyskinin hökuməti kütlələr içərisində BKP-nın təsirini azaltmaq məqsədi ilə bir sıra tədbirlər həyata keçirdi. Əmək mükəlləfiyyəti ləğv edildi, torpaq və mal-qara vergilərinin miqdarı azaldıldı. Mütərəqqi vergi sistemi müəyyən edildi. (Əmlak, varidat, sərvət artdıqca vergi də ona münasib artırdı). Varlıların evlərinin bir hissəsi müsadirə edildi, möhtəkirlərə qarşı mübarizə aparıldı. Bu hadisə burjua dairələrini Stambuleyski hökumətindən narazı saldı. Lakin bu tədbirlər geniş zəhmətkeş kütlələrinin vəziyyətini yaxşılaşdıra bilmədi. Bu dəfə burjua dairələri də Stambuleyskinin ikinci hökumətindən narazı oldu və ona qarşı mübarizəyə başladılar.

### *1923-cü il hərbi-faşist çevrilişi*

1920-ci ildə Sankov "xalq sazişi" adlı faşist partiyası təşkil etdi. Bu zaman burjuaziya xalq içərisində dayağa malik olmadığı üçün o, hərbi qüvvələrə və Sovet Rusiyasından qaçmış 30 min nəfərdən artıq ağqvardiyaçılara istinad edərək hökuməti dəyişdirməyə çalışdı. Stambuleyski hökumətinin kommunistlərə qarşı apardığı mübarizədən xalq kütlələrinin narazı olmasını hiss edən iri burjua dairlərəi çıxış üçün bu şəraiti əlverişli hesab etdilər. Faşistlərin başçısı Sankov Vrangel qoşunlarının qalıqlarına və öz silahlı dəstələrinə arxalanaraq 1923-cü il iyunun 9-da qiyam qaldırdı. Qiyam zamanı Stambuleyski də daxil olmaqla hökumət üzvlərinin bir neçəsi öldürüldü, qalanları isə həbs edildi. Həmin gün Bolqarıstanda faşist hökuməti təşkil edildi. Faşistlər fəhlə və kəndlilərin fəal xadimlərini təqib etməyə başladılar. "Əkinçilər ittifaqı" partiyası qadağan etdikdən sonra faşist hökuməti silahı kommunist partiyasına qarşı çevirdi.

Sankov hökuməti həmkarlar ittifaqları, gənclər təşkilatlarına qarşı da hücuma keçdi. Müsadirə edilmiş binalar

öz sahiblərinə qaytarıldı. Ölkədə hərbi vəziyyət elan edildi. Sankov hökumətinin geniş terrorçu tədbirlərinə baxmayaraq, müəyyən sənaye mərkəzlərində tətillər başlandı. Hökumət bu tətilləri silah gücü ilə yatırtdı. Sankov hökuməti iri burjuaziyanın və xarici imperialistlərin ölkə daxilində imtiyazlarını bərpa etdi. Stambuleyski hökumətinin keçirdiyi islahatlar (mütərəqqi vergi, iri binaların müsadirəsi və s.) ləğv edildi.

Fəhlə sinfi uzun müddət mübarizə prosesində əldə etdiyi nailiyyətlərdən məhrum oldu. BKP gizli işə keçməyə məcbur oldu. Faşist rejimi həmkarlar ittifaqlarını da ciddi bir surətdə təqib edirdi.

### *Bolqarıstan kapitalizmin nisbi sabitləşməsi və dünya iqtisadi böhranı illərində*

1923-cü ilin sentyabrın 13-dən 23-nə qədər Bolqarıstanın cənubunda və şimal-qərbində fəhlə və kəndlilərin faşist rejiminə qarşı qaldırdığı üsyanlar yatırılsa da, hərbi-faşist rejimin sosial bazasının məhdudluğunu da üzə çıxartdı. İlk dəfə dünyada faşizm əleyhinə mübarizəyə bolqar xalqı qalxdı.

1924-1925-ci illərdə Bolqarıstan iqtisadiyyatının sabitləşməsi başladı. Əkin sahələri genişləndirildi, iqtisadiyyatın əsas sahəsi olan kənd təsərrüfatının texniki bazası gücləndirildi. Yüngül sənaye daha çox inkişaf etdi. Xarici kapitalın köməyi ilə ölkədə inhisarlar yarandı. 1926-cı ildə Bolqarıstan İngiltərə, Fransa və ABŞ-dan çoxlu istiqrazlar aldı ki, bu da onun xarici kapitaldan asılılığını gücləndirdi.

Sentyabr üsyanının yatırılması hərbi-faşist rejiminə imkan verdi ki, öz siyasi vəziyyətini sabitləşdirsin. Lakin 1923-cü ilin noyabrında keçirilən seçkilər rejimin kifayət qədər möhkəm olmadığını bir daha göstərdi.



Sankovun hökumətindən həm xalq kütlələri, həm də burjuaziya narazı idi. Burjuaziya elə bir hökumət istəyirdi ki, ölkəni sakitləşdirməyi, iqtisadiyyat və maliyyəni sağlamlaşdırmağı bacarsın. "Demokratik saziş" partiyası üzvləri də ölkənin siyasi kursunun dəyişdirilməsini tələb edirdilər. Sankov çar və hərbiçilərdən dayaq istəsə də, nail olmadığı üçün 1926-cı ilin yanvarında istefaya getməyə məcbur oldu. Yeni hökuməti "Demokratik saziş" partiyasından olan və Qərb dövlətləri tərəfindən dəstəklənən Andrey Lyapçev təşkil etdi. O, ölkədə sakitlik yaradacığını və demokratik azadlıqları bərpa edəcəyini elan etdi.

Sankov məclisin sədri vəzifəsini icra edərək Bolqarıstan irticaçılarına ilham verməyi davam etdirdi. 1926-ci ildə ölkənin maliyyə sistemində baş vermiş pozğunluğu bir qədər düzəltmək üçün Lyapçev hökuməti ABŞ və İngiltərədən 3,5 miloyn funt-sterlinq borc aldı. Bu kimi borcların nəticəsində Bolqarıstan daha güclü şəkildə xarici imperialistlərin təsiri altına düşdü. Kredit bankı xaricilərin əlində qaldı.

1929-cu ildə başlanmış iqtisadi böhran Bolqarıstana da sarsıdıcı təsir etdi. Kənd təsərrüfatı mallarının qiyməti 50% aşağı düşdüyü üçün kəndlilərin alıcılıq qabiliyyətləri olduqca zəiflədi. Böhran sənaye sahələrinin də ixtisara düşməsinə səbəb oldu. Sənayedə ixtisar işsizlər ordusunun sayını artırdı. İnhisarların təzyiqi daha da artaraq xeyli miqdarda orta və xırda burjuaziyanı iflasa uğratdı. İqtisadi böhran Bolqarıstanda ictimai və sinfi ziddiyyətləri də kəskinləşdirdi. Hakimiyyət başında olan faşist partiyasının inhisarların mənafeyini müdafiə edərək orta və xırda burjua dairələrini nəzərə almamaları həmin qruplar içərisində narazılığı artırdı. Bu əsasda inhisarlara, iri burjua dairələrinə qarşı mübarizə aparmaq üçün orta və xırda burjuaziyaya mənafeyini müdafiə edən demokratik, radikal və "əkinçilər ittifaqı" partiyaları birləşərək "Xalq bloku" təşkil etdilər. 1931-ci ilin parlament seçkilərində bu blok

"Demokratik saziş" partiyası üzərində qələbə çaldı və "Xalq bloku" hökuməti təşkil etdi. Lakin Xalq bloku hökumətinin təşkili də Bolqarıstan zəhmətkeşlərinin vəziyyətini yaxşılaşdıra bilmədi. Böhran getdikcə dərinləşərək kapitalın təzyiqini artırdı. Kəndlilər üzərində vergilərin artması onları daha da müflisləşdirdi. İşsizlərin çıxışlarına, ayrı-ayrı kommunistlərə və tətillərə qarşı Xalq bloku hökuməti terror tədbirləri ilə cavab verirdi. 1929-1933-cü illərin iqtisadi böhranı dövründə fəhlə hərəkatı daha da geniş vüsət aldı.

### *Ölkədə monarxo-faşist diktaturasının qurulması*

1932-ci ilin bələdiyyə idarələrinə seçkilərdə fəhlə partiyası Sofiyada birinci yerə çıxdı. Fəhlə partiyasının müvəffəqiyyəti hakim dairələri olduqca narahat etdi. Hakim siniflər ölkədə faşizmin güclənməsinə meyl göstərirdilər. 1932-ci ildən Bolqarıstanın siyasi həyatında "Zveno" adlı yeni faşist təşkilatı fəaliyyətə başladı. Bu zaman Sankov da "İctimai və milli hərəkat" adlı faşist təşkilatı yaratdı. Bu iki faşist təşkilatı ölkədə yeni çevriliş hazırlamağa başladı. 1934-cü il mayın 19-da "Zveno" təşkilatı faşist çevrilişi etdi. Onlar hakimiyyətə keçdikdən sonra qısa müddət içərisində ölkədə terror rejimi əmələ gətirdilər. "Zveno" hökuməti bütün siyasi partiyaları qadağan edib onların əmlakını müsadirə etdi. Bütün demokratik təşkilatlar buraxıldı.

19 may çevrilişindən sonra təşkil edilmiş Kimon Giorgiyev hökuməti ancaq səkkiz ay yaşaya bildi. Bu hökumət İngiltərə və ABŞ-a böyük hüsn-rəğbət bəsləyərək onlarla əlaqəni gücləndirməyə çalışırdı. Çar Boris başda olmaqla saray isə Almaniya ilə əlaqəni gücləndirmək tərəfdarı idi. Buna görə də saray adamlarına xoş gəlməyən Kimon Giorgiyev 1935-ci ilin yanvarında hökumətdən kənar edildi. Bu dəfə hakimiyyəti çar Boris öz əlində cəmləşdirdi. Çar Boris istədiyi adamları nazir



təyin edir, xoşa gəlməyən nazirləri işdən çıxarırdı. Eləcə də nazirlər kabinəsini, inzibati idarələri dəyişdirə bilirdi. Bu qayda üzrə çar Boris ölkədə monarxo-faşist diktaturası yaratdı. Çar Boris faşist Almaniyasının agenti kimi hərəkət edərək ölkənin daxili və xarici siyasətini Almaniyaya tabe etdirdi. Alman kapitalı ölkəyə soxularaq başqa dövlətləri sürətlə sıxışdırmağa başladı. Bu zaman Bolqarıstanın xarici ticarətində başlıca rolu da Almaniya oynayırdı. Bir sözlə, monarxo-faşist rejimi ölkəni Almaniyanın satilleti (əlaltısı) halına saldı.

## RUMINİYA

### *1918-1923-cü illərdə Rumıniyanın iqtisadi və siyasi vəziyyəti*

Birinci dünya müharibəsi başladıqdan sonra Rumıniya Antanta qrupuna daxil olaraq müharibəyə girdi. Lakin o, 1918-ci ilin mayında Almaniya ilə seperat sülh bağlayaraq müharibədən çıxdı. 1918-ci ildə Almaniya məğlub ediləndən sonra Rumınya öz silahlı qüvvələrindən istifadə edərək müəyyən ölkələrdə gedən inqilabi hərəkatı yatırmaqda iştirak etdi. 1918-ci ildə Rumıniya hakim dairələri Sovet Rusiyasından Bessarabiyanı, Bukovinanı ayırdı. Antanta dövlətləri bu ərazilərin Rumıniyada qalmasını təsdiq etdilər. Avstriya-Macarıstan imperiyası dağıldıqdan sonra Rumıniya Transilvaniya və Banatı işğal etdi. Beləliklə, Antanta dövlətlərinin yardımı ilə Cənub-Şərqi Avropada Rumıniya çoxmillətli iri dövlətə çevrildi.

Rumıniyanın Birinci dünya müharibəsində iştirak etməsi ölkəyə baha başa gəldi. Cəbhələrdə 250 min nəfər itirdi. Müharibə nəticəsində daxildə əmələ gəlmiş müxtəlif yoluxucu xəstəliklər nəticəsində 400 min nəfər həlak oldu. Müharibənin gedişi, Almaniya tərəfindən ölkənin müəyyən hissəsinin işğal edilməsi ölkə iqtisadiyyatını bərbad hala saldı. Məsələn, neft sənayesinin məhsulu müharibədən əvvəlkinin 1/3-nə bərabər oldu. Başqa sənaye sahələri də almanların qarəti nəticəsində həmin vəziyyətə düşdü. Maldarlıq sahəsinə vurulan ziyan daha güclü oldu. 1913-cü ildə Rumıniyada 28 milyon baş mal-qara olduğu halda, 1919-cu ildə 16,4 milyon baş mal-qara qalmışdı. Əkinçilikdə işləyən mal-qaranın sayı azaldığı üçün bu sahələr də yararsız bir hala düşdü. Bu dövrdə Rumıniyada çoxlu miqdarda kağız pulların kəsilməsi maliyyə sisteminə mənfi təsir etdi və ölkə iqtisadiyyatını daha ağır vəziyətə saldı. Ölkədə ictimai ziddiyyətlər də kəskinləşdi. 1918-ci ilin



noyabrında Almaniya məğlub edildikdən sonra ölkədə inqilabi hərəkat daha da gücləndi. Bu hərəkata dəmir yolunda çalışan xidmətçilər, mürəttiblər də qoşuldu. Bu zaman tətil edən fəhlələr əmək haqqlarının artırılmasını, həmkarlar ittifaqı və siyasi təşkilatlar yaratmaq hüququnu tələb edirdilər. İnqilabi hərəkatın qarşısına almaq üçün hökumət ölkədə hərbi vəziyyət elan etdi. Senzuranı möhkəmləndirdi. Tətil edən istehsalat müəssisələrinə silahlı qüvvələr göndərdi. Səhra məhkəmələri geniş bir surətdə işə düşdü. Lakin bu tədbirlər fəhlələrin inqilabi əhval-ruhiyyələrini söndürə bilmədi. 1920-ci ildə inqilabi hərəkat daha da gücləndi.

Bu tətil və nümayişlər getdikcə güclənərək oktyabrın 20-də ümumi tətilə çevrildi. Ümumi tətil zamanı sənayenin bütün sahələri fəaliyyətini dayandırdı. Belə bir vüsət almış, genişləndirilmiş ümumi tətilin yatırılmasında sosial-demokratlar əsas rol oynadı. Fəhlə-kəndli ittifaqının olmaması da bu hadisəyə ciddi təsir göstərdi.

1920-ci ildəki ümumi tətil yatırıldıqdan sonra Rumıniyada KP-nın (Kommunist partiyasının) təşkili uğrunda mübarizə gücləndi. 1921-ci il mayın 8-də Buxarestdə çağırılmış sosialist partiyasının qu-rultayında Rumıniya KP təşkil edildi. İlk gündən milli liberallar partiyası hökuməti Rumıniya kommunistlərini təqib etməyə başladı.

Müharibədən sonrakı ilk dövrdə Rumıniyada milli münasibətlər də kəskinləşdi. Ölkədə 6 milyona qədər azlıqda qalan müxtəlif millətlər (macarlar, bolqarlar, ukraynalılar və s.) var idi. Azlıqda qalan millətlər üzərində Rumıniya hakim dairələrinin güclü təzyiqi var idi. Onlara öz dillərində məktəb açmaq, mətbuat nəşr etmək mümkün deyildi. Ölkədə rumınlaşdırılma siyasəti aparılırdı. Milli mədəniyyətin inkişafına maneə yaradılırdı. Bu kimi təzyiqlərə qarşı azlıqda qalan millətlərin bir sıra çıxışları baş vermişdi. Bessarabiyada bu kimi çıxışlar daha çox olmuşdu. 1919-cu ildə Bessarabiyada

çıxışları yatıran cəza dəstələri 20-ə qədər kəndi tamamilə yandırıb sıradan çıxarmışdılar.

### *Rumıniya kapitalizmin nisbi sabitləşməsi illərində*

1922-1923-cü illərdə fəhlə-kəndli hərəkatı zəiflədikdən sonra Rumıniyada kapitalizmin nisbi sabitləşməsi başlandı. Lakin bu sabitləşmə müvəqqəti və birtərəfli idi. Bu dövrdə də kənd təsərrüfatının səviyyəsi müharibədən qabaqkı səviyyədən aşağı idi. Taxıl ixracı 25%, mal-qaranın sayı 20% azalmışdı.

Bratianinin milli liberallar hökuməti bu sabitləşməni hər şeydən əvvəl, fəhlə-kəndlilərin istismar edilməsi yolu ilə həyata keçirməyə çalışırdı. Məsələn, 1916-cı ilə nisbətən 1929-cu ildə fəhlələrin əmək haqqı iki dəfə azaldı, iş günü 16 saata çatdırıldı, cərimələr isə geniş bir surətdə tətbiq olundu. Müstəqim və qeyri-müstəqim vergilər getdikcə artırılırdı.

Kəndlilər öz gəlirinin 50%-ni müxtəlif vergilərə sərf edirdilər. Milli liberallar hökuməti azlıqda qalan millətlər üzərində təzyiqi artıraraq onların torpaqlarını və sənaye müəssisələrini müsadirə edib Rumıniya mülkədar və burjua dairələrinə verdi. Mülkədar-burjua hakimiyyətini möhkəmləndirmək üçün hakim dairələr başqa tədbirlərə də əl atdılar. 1923-cü ildə qəbul edilən konstitusiyaya əsasən ölkə konstitusiyalı monarxiya elan edildi. Konstitusiyada söz, mətbuat, yığıncaq azadlığı öz əksini tapmışdı. Qanunverici orqan iki palatalı (nümayəndələr palatsı və senat) parlamentdən ibarət idi. Kral iki dəfə veto hüququna malik oldu. Senatın əksər üzvlərini kral təyin edirdi. Konstitusiyanın təsdiqindən sonra da milli liberallar hökuməti zəhmətkeşlər və demokratik təşkilatlar üzərində təqibi davam etdirirdi. 1924-cü ildə RKP və gənclər təşkilatlarının fəaliyyti qadağan edildi.

Hökumətin təqibinə baxmayaraq, ölkədə fəhlə-kəndli hərəkatı yenə də davam edirdi.



Milli-liberallar hökumətindən sonra 1928-ci ilin noyabrında hakimiyyətə milli-saranistlər (Bu partiya 1926-cı ildə Transilvaniyada milli partiyanın saranistlər (kəndlilər) partiyası ilə birləşməsindən əmələ gəlmişdir) partiyasının rəhbərli Maniu hökuməti gəldi. Sosial-demokrat partiyası da milli saranistləri müdafiə etdiyi üçün parlamentdə 9 yerə malik oldu. Milli-saranistlər hökuməti də özündən qabaqkı milli liberallar hökumətinin siyasətini davam etdirdi.

### *Rumıniya dünya iqtisadi böhranı illərində*

1929-1933-cü illərin dünya iqtisadi böhranı Rumıniyada daha dərin və güclü oldu. Bunun səbəbləri ölkənin xarici imperializmin təsiri altında olması, ölkə sənayesində mərkəzləşmə əmələ gəlib inhisarlar təşkil edildiyi şəraitdə kəndlərdə hələ feodalizm qalıqlarının davam etməsi, zəhmətkeşlərin yaşayış səviyyəsinin aşağı olması idi. Böhran nəticəsində sənayedə istehsalın həcmi azaldı. Bir sıra istehsalat müəssisələri bağlandı. Meşə və s. sənaye məhsulları əvvəlki səviyyənin 50%-nə bərabər oldu. Böhran ancaq neft sənayesinə toxunmadı. Neft çıxarılması 1928-ci illə müqayisədə 1933-cü ildə 4,8 milyon tondan 7,3 milyon tona çatdı. Ölkədə işsizlərin sayı daha da artdı. Bu böhran kənd təsərrüfatını da pozğun hala saldı. Böhran nəticəsində kəndlilər müflisləşərək borclu düşdülər . 1932-ci ildə kəndlilərin borcu 150 milyard leydən çox idi. Böhran ölkədə maliyyə sistemini də sarsıtdı. 1931-ci ildə büdcədə 95 milyard ley açıqlıq vardı. Milli-saranistlər böhran nəticəsində əmələ gəlmiş bütün çətinlikləri zəhmətkeşlər üzərinə yükləməyə çalışırdılar. Zəhmətkeşlər üzərinə qoyulan vergilər getdikcə artır, əmək haqqı isə aşağı düşürdü. 1929-1933-cü illərdə fəhlələrin əmək haqqı 60% azaldı. Milli-saranistlər ölkənin qapılarını xarici imperialistlərə daha geniş açdılar. Buna görə də ölkəyə xarici kapital axını

daha da artdı. 1929-cu ildə Maniu hökuməti İngiltərə və Fransadan 17 milyard ley pul borc aldı. 1931-ci ildə isə bu hökumət əlavə olaraq 8,7 milyard ley pul borc götürdü. Böhran illərində xaricilərin Rumıniyada xalis gəliri 18 milyard ley olmuşdu. Bütün inhisar və ticarət sahələri, telefon, kibrit, duz, tənbəki tamamilə xaricilərin əlində idi. Ancaq telefonun Amerika şirkətinin əlində olması hər il Rumıniya xalqına 100 milyon leyə başa gəlirdi. Banklar üzərində də xaricilər nəzarət edirdilər. 1932-ci ildə Rumıniya öz xarici borclarını ödəyə bilmədiyi üçün ölkənin siyasi və iqtisadi həyatında xarici dövlətlərin nəzarəti daha da gücləndi. İqtisadi böhran Rumıniya daxilində ictimai ziddiyyətləri daha da kəskinləşdirdi. Ölkə ərazisində inqilabi yüksəliş əmələ gəldi. Əgər 1927-ci ildə tətilçilərin sayı 66 min idisə, 1930-cu ildə 100 min nəfərə çatdı. Bu zaman çıxış edən fəhlələr əmək haqqının artırılmasını, 8 saatlıq iş günü, istehsalat normalarının qaydaya salınmasını tələb edirdilər. Böhran illərində Rumıniya kəndlərində də kəndlilərin bir sıra çıxışları oldu. Təkcə Bessarabiyada 1932-ci ildə ayrı-ayrı kəndlərdə 170-ə qədər çıxış olmuşdu.

### *Rumıniya İkinci dünya müharibəsi ərəfəsində*

İkinci dünya müharibəsi ərəfində Rumıniya iqtisadiyyatının xarakterik xüsusiyyətləri kapitalın və sənayenin təmərküzləşməsindən ibarət idi. 1938-ci ildə Rumıniyadakı 94 inhisar təşkilatları ölkə sənaye müəssisələrinin 50%-ni öz əllərində saxlayırdılar. müharibə ərəfində Rumıniya inhiisarçı kapitalının ABŞ və İngiltərə inhisarlarından asılı olması daha aydın bir surətdə özünü göstərirdi. Məsələn, neft, qaz və elektrik sənayesinin 95, metallurgiya sənayenin 74, şəkər istehsalının 94%-i xarici kapitalistlərə məxsus idi. Ölkə iqtisadiyyatını öz əllərində saxlamaq məqsədi ilə xarici kapitalistlər Rumıniyada maşınqayırma sənayesinin və bir sıra



başqa sahələrin inkişafına yol vermirdilər. O zaman neft istehsalının bütün avadanlığı xarici ölkələrdən gətirilməsi məhz bunun nəticəsi idi.

Rumıniyada hələ böhran dövründə bir sıra faşist təşkilatları öz fəaliyyətlərini gücləndirmişdir. Bunlardan «Dəmir qvardiya», «Mixail Arxangelin legionu» və başqalarını göstərmək olar. Ölkə daxilində iqtisadi böhranın əmələ gətirmiş olduğu çətinliklərdən istifadə edərək həmin təşkilatlar öz təbliğatını gücləndirməyə çalışırdılar. Bu təşkilatlar ölkə daxilində şovinizm təbliğatını genişləndirərək demokratiya əleyhinə mübarizə aparırdılar. Rumıniya hakim dairələri bu təşkilatların fəaliyyətinə göz yumurdular. İqtisadi böhran illərində baş vermiş çətinliklərdən və ictimai ziddiyyətlərin kəskinləşməsindən ağır vəziyyətə düşmüş milli saranistlər hökuməti 1932-ci ildə istefa verdi. Həmin ildə hakimiyyət başına yenə milli-liberallar keçdi. Bu hökumət də milli-saranistlər hökuməti kimi faşist təşkilatlarına yardım edib terror rejimini davam etdirdilər. Milli liberallar hökuməti demokratik təşkilatlar üzərinə təzyiqi daha da artırdı.

1934-cü ildə hökumət 34-ə qədər müxtəlif fəhlə təşkilatını kommunist təşkilatı adlandıraraq onların fəaliyyətini qadağan etdi. Tərəqqipərvər mətbuat da milli liberallar hökuməti tərəfindən ciddi bir surətdə təqib edilirdi. Parlamentin səlahiyyətləri getdikcə azalırdı.

SSRİ-yə qarşı müharibə hazırlığında fəal iştirak etməsinə baxmayaraq milli liberallar hökuməti zəhmətkeşlərin tələblərini nəzərə alaraq onların iradəsinə tabe olmağa məcbur oldu və 1934-cü ildə SSRİ ilə diplomatik əlaqə yaratdı.

1934-cü ilin əvvəllərindən 1937-ci ilə qədər hökumətə "gənc liberallar" nəslindən olan "Rumıniya kredit bankı"nın sədri Tataresku rəhbərlik etdi. Bu dövrdə ölkədə kralın hakimiyyəti xeyli gücləndi.

Burjua-mülkədar Rumıniyası Avropada imperialist dövlətlərinin başlıca antisovet bazalarından biri oldu.

Bu dövrdə "Dəmir qvardiya faşist təşkilatı" öz fəaliyyətini xeyli canlandırdı. Rumıniya kralı II Karol 1938-ci ilin fevralında öz diktaturasını qurdu. Bütün hakimiyyət faktiki olaraq onun əlində cəmləşdi. Dövlət başçısı kimi o heç bir məsuliyyət daşımır, nazirləri isə özü təyin edirdi. 1938-ci il konstitusiyası krala qeyri-məhdud səlahiyyətlər verir, "rumın xalqının birliyi" prinsipini irəli sürürdü. Bu konstitusiya ölkədə faşizmə meyl edən inhisarçı burjuaziya və iri mülkədarların hakimiyyətini qüvvətləndirirdi. Xarici siyasətdə II Karol diktaturası imperialist dövlətlər arasında manevr etməyə çalışırdı. Bununla belə o xarici siyasətində Almaniyaya daha çox meyl edirdi. Çexoslovakiyanın işğalı zamanı Rumıniya Berlinə bildirdi ki, o, sovet qoşunlarının Çexoslovakiyaya kömək üçün onun ərazisindən keçməsinə icazə verməyəcəkdir. Bunun müqabilində Almaniya Transilvaniya məsələsində Rumıniyanı müdafiə etdi. Çexoslovakiyanın müstəqilliyi ləğv edildikdən sonra Almaniya ilə Rumıniya arasında qarşılıqlı əməkdaşlıq haqqında müqavilə bağlandı. Bu müqaviləyə əsasən alman inhisarçı kapitalına Rumıniyanın təbii sərvətlərindən istifadə etməkdə geniş imkanlar yaradıldı. Eyni zamanda Rumıniya İngiltərə və Fransa tərəfindən "müstəqillik təminatı"nı da qəbul etdi. Rumıniya hökuməti "iki stulda oyun" siyasəti yeridərək SSRİ-nin kollektiv təhlükəsizlik sistemi yaratmaq təklifini qəbul etmədi.



## YUQOSLAVİYA

### *Yuqoslaviya xalqlarının milli-azadlıq mübarizəsi*

Balkan yarımadasının şimal-qərbində yerləşən slovyan xalqlarının ümumi mənafeyi, Avstriya-Macarıstan zülmkarlığına qarşı mübarizə, İtaliyanın işğalçılıq təhdidi onları birləşməyə məcbur etdi. Birinci dünya müharibəsi illərində Habsburqlar monarxiyasının cənubi slovyan əyalətlərində, Avstriya-Macarıstanın işğal etdiyi Serbiya və Qaradağda bərabərlik və qardaşlığa əsaslanan vahid Serb-xorvat-sloven dövləti təşkil etmək ideyası əmələ gəldi. Mərkəz dövlətlərinin müharibədə məğlubiyyəti, Avstriya-Macarıstan imperiyasının dağılması həmin ideyaları həyata keçirmək üçün real şərait yaratdı. Bu birləşmə işini Serbiya irticaçı burjuaziyasının rəhbərləri öz əlinə aldı. Buna görə bu xalqlar qeyri-bərabər hüquqi əsaslarla birləşdirildi və bütün slovyan xalqları Serbiya burjuaziyasının zülmü altına düşdü.

Hələ müharibə illərində Nikola Paşiçin başçılıq etdiyi Serbiya hökuməti Avstriya-Macarıstanın cənubi-Slovyan xalqlarının Serbiya ilə birləşməsi haqqında layihə irəli sürdü. Bu layihə 1915-ci ildə Londonda təşkil edilmiş Xorvat –Sloven-Serbiya burjua nümayəndəliyi tərəfindən bəyənildi. 1917-ci il iyulun 20-də Serbiya hökuməti adından Nikola Paşiç, Yuqoslaviya komitəsi adından isə Prombiç Korfu adasında qəbul etdikləri bəyannamədə Xorvatiya, Sloveniya və Serbiya əyalətlərinin Avstriya-Macarıstan imperiyasından ayrılaraq Serbiyanın başçılığı ilə birləşliyini elan etdilər. Həmin bəyannamədə qeyd edilirdi ki, təşkil edilmiş bu yeni hökumətin başında Qarageorgieviçlər sülaləsi durmalı, hər üç xalq bərabər hüquqa malik olmalıdır. İsveçrədə Qaradağ mühacirləri tərəfindən təşkil edilmiş Qaradağ milli komitəsi də bu bəyannaməyə şərik oldu. Balkan yarımadasının şimal-qərb

slovyan torpaqlarının Avstriya-Macarıstanın zülmündən xilas olmasında başlıca rolu isə zəhmətkeş kütlələr oynadılar.

1918-ci il oktyabrın əvvəlində Zaqrebdə Sloven, Xorvat-Serbiyanın Milli şurası (Milli veçe də deyilir) təşkil edildi. Bu şuranın tərkibinə bütün burjua partiyalarının nümayəndələri, həmçinin Stepan Radiçin başçılıq etdiyi kəndli partiyasının nümayəndələri və sağ sosialistlər də daxil oldular. 1918-ci il oktyabr ayında təşkil edilmiş bu şura hökumətin vəzifəsini icra edirdi. Milli şura 1918-ci il oktyabrın 29-da Çənubi Slovyan vilayətinin Avstriyadan ayrılaraq Serb, xorvat və slovenlərin müstəqil dövləti olduğunu elan etdi. Avstriya-alman işğalçıları Serbiya və Qaradağdan çəkilməyə məcbur oldular. 1918-ci ilin noyabrın əvvəllərində Belqrada Serbiya və Antanta qoşunları daxil oldular. Bu qoşunlarla bərabər Belqrada Serbiya hökuməti və şahzadə-qəyyum Aleksandr da daxil oldu. Bu zaman Zaqrebdə və bir sıra başqa şəhərlərdə fəhlə deputatları şuraları təşkil edildi.

1918-ci il noyabrın 4-də Milli şura Antanta və Serbiyadan qoşun hissələri göndərməyi xahiş edərək onların vasitəsi ilə ölkədə "qayda-qanun" yaratmağa başladı. 1918-ci il noyabrın 24-də Milli şura Serbiya ilə birləşmək təklifini irəli sürdü. Noyabrın 26-da Velikaya Skupşina (Böyük Məclis) Qaradağda qərara aldı ki, ölkədə Petroviçlər sülaləsi taxtdan salınsın, Qaradağ da Serb-xorvat-sloven dövləti tərkibinə daxil olsun. 1918-ci il dekabrın 1-də şahzadə-qəyyum Aleksandr elan etdi ki, Qarageorgiyeviçlər sülaləsi başda olmaqla Avstriya-Macarıstan imperiyası ərazisində olan Cənubi-Slovyan əyalətləri bir dövlət kimi birləşirlər.

### *Vahid Yuqoslaviya dövlətinin təşkili*

1918-ci il dekabrın 20-də Serbiya burjuaziyanın nümayəndəsi, radikallar partiyasının rəhbəri Protiçin başçılığı ilə birinci Yuqoslaviya hökuməti təşkil edildi. Bu hökumətin



tərkibinə əsasən Serbiya burjua partiyalarının nümayəndələri və sağ sosialistlər daxil oldular. Protiç hökumətinin təşkil edilməsi ilə Serbiya-xorvat-sloven dövlətinin başlanğıc forması başa çatdı. 1929-cu ildən bu dövlət Yuqoslaviya dövləti adlandı. Dövlətin tərkibinə Serbiya, Çernoqoriya, Makedoniyanın bir hissəsi, Dolmasiya, Bosniya, Hersoqovina, Sloveniya və Voyevodina daxil oldu. Bu dövlətin əhalisi 12 milyon nəfərdən ibarət idi. Serblər isə əhalinin 40%-dən azını təşkil edirdilər. Burjua Yuqoslaviyası xalqların bərabər hüquqlu federasiyası kimi təşkil edilməyib, Serbiyanın başçılığı ilə mərkəzləşmiş dövlət kimi təşkil edildi. Antanta dövlətləri bu hökuməti tezliklə tanıyaraq ona müəyyən sahələrdə yardım etməyə başladılar. Bu dövlətin iqtisadi vəziyyəti olduqca ağır idi. Fabrik-zavodların əksəriyyəti işləmədiyi üçün ölkədə çoxsaylı işsizlər ordusu var idi. İşsizlər hərəkatı və fəhlələrin tətilləri getdikcə genişlənirdi. Hakim dairələr ancaq cəza tədbirləri ilə bu hərəkatın öhdəsindən gələ bilmədilər. Hökumət məcbur oldu ki, xalqa müəyyən güzəştlər etsin, 8 saatlıq iş günü müəyyən edildi; həmkarlar ittifaqı və başqa təşkilatların yaranmasına icazə verildi. 1919-cu ilin fevral ayında aqrar islahatı keçirildi. İri malikanələr ləğv edilərək xırda-xırda sahələrə bölünüb satıldı. Bu islahatın xeyri qolçomaqlarla torpaq möhtəkirlərinə oldu. Kəndlilərin tam əksəriyyətini təşkil edən yoxsullar isə torpaq ala bilmədilər. Fəhlə, kəndli və qabaqcıl ziyalılar içərisində iqilabi əhval-ruhiyyə gücləndi. Monarxiya və burjuaziya ilə əməkdaşlıq edən sağlar hörmətdən düşdülər.

1919-cu ilin aprelində təşkil edilən Yuqoslaviya sosialist fəhlə partiyası, kommunistlər 1920-ci il bələdiyyə seçkiləri zamanı ciddi müvəffəqiyyət qazandı. Belqrad bələdiyyə idarəsi də daxil olmaqla kommunistlər deputat yerlərinin əksəriyyətinə malik oldu. Buna görə Protiç hökuməti həmin bələdiyyə idarələrini buraxaraq yenidən seçkilər apardı. Hökumətin bu özbaşınalığına qarşı Bosniya və Sloveniyada bir sıra tətillər oldu.

Tətilləri hökumət silah gücü ilə yatırdı. Ölkənin hakim dairələrində müəyyən hərc-mərclik əmələ gəldi. Bir neçə dəfə kabinet dəyişildi. Yuqoslaviya hakim dairələri ölkənin milli mənafeyini İtaliya imperializminə sataraq 1920-ci il noyabr ayında Rapolloda bağlanan müqaviləyə əsasən Yuqoslaviyanın əyaləti olan Yuliyek-Kraynı və başqa əyalətləri İtaliyaya verdilər.

1920-ci il dekabrın 30-da hökumət xüsusi dekretlə KP-ın, həmkarlar təşkilatının fəaliyyətini qadağan etdi, bütün fəhlə mətbuatını bağladı, fəhlə təşkilatlarının əmlakını müsadirə etdi. Kommunistlərin kütləvi həbsi başladı. Kommunist deputatların toxunulmamazlığı prinsipinə riayət edilmədi. 1921-ci ilin yanvarında hökumət başına iri serb burjuasının nümayəndəsi Nukola Paşiç keçdi. Bu hökumət fəhlə-kəndli hakimiyyətinə qarşı daha qəddar rəftar edərək mərkəziyyəti gücləndirdi. 1921-ci ilin avqust ayında kommunistlərdən bir nəfərinin prinsqəyyuma qəsd etmək cəhdindən istifadə edərək Paşiç hökuməti məclisin "dövləti mühafizə qanunu" adlı dekret verməsinə nail oldu. Bu qanuna əsasən kommunist partiyası qəti olaraq qadağan edildi və onun üzvlərinə 20 il katorqa cəzası müəyyən edildi. Kommunist deputatların mandatı alındı. 1922-ci ildə leqal müstəqil fəhlə partiyası təşkil edildi.

1920-ci ildən Yuqoslaviya sənayesi nisbətən sürətlə inkişaf etdi. Ölkədə möhtəkirlik daha geniş miqyas aldı. Səhmdar cəmiyyətlərinin sayı getdikcə artdı. Bir sıra mədən-müəssisələr xaricilərə konsessiyalara verildi. Lakin bu inkişaf uzun sürmədi.

### *Vidovdan konstitusiyası*

Güclü təqiblər şəraitində 1921-ci ilin iyunun 28-də müqəddəs Vida günündə (1389-cu idldə Kosovo döyüşünün ildönümündə) Müəssislər Məclisi Vidovdan konstitusiyası adlı konstitusiyasını qəbul etdi. Onun birinci maddəsində yazılırdı ki, Serb-xorvat-sloven dövləti konstitusiyalı, parlamentli, irsi



monarxiyadır. Kral da qanunverici məclis olan Skupşina ilə bərabər qanun vermək hüququna malik idi. İcraedici hakimiyyət də krala məxsus idi. O, silahlı qüvvələrin baş komandanı idi. Dövlət 33 jiraniyaya (qubernatorluğa) bölünürdü ki, onlara da jiranları kral təyin edirdi.

Konstitusiya unitar dövlət quruluşunu möhkəmləndirdi. Krallıqda ancaq 10 il yaşayan şəxs deputat ola bilərdi. Vidovdan konstitusiyasının qəbul edilməsi ilə Yuqoslaviya dövlətinin formalaşması prosesi başa çatdı.

1923-cü ildən ölkəni iqtisadi böhran bürüdü. Böhran nəticəsində bir sıra istehsalat müəssisələri müflisləşdi. Buna görə də ölkədə işsizlərin sayı daha da artdı. Kənd təsərrüfatında da vəziyyət çətinləşdi. Yuqoslaviya kənd təsərrüfatı məhsullarını xarici bazarda sata bilmədi. Ölkənin siyasi vəziyyəti də kəskinləşdi.

### *Kapitalizmin nisbi sabitləşməsi*

Kapitalizmin nisbi sabitləşməsi dövründə serb burjuaziyası dövlətdə özünün aparıcı rolundan istifadə edərək milli rayonların hesabına ölkə iqtisadiyyatında Serbiyanın rolunu artırmağa çalışırdı. Serbiya Milli bankdan kreditin əsas hissəsini alırdı. Onun ərazisində dəmir və şosse yolları çəkilir, yeni sənaye müəssisələri tikilirdi. Bosniya və Hersoqovina ən geridə qalmış əyalətlər idi. Makedoniyada nisbətən inkişaf gedirdi. Bütövlükdə ölkənin sənaye cəhətdən inkişafı zəif idi. Bircə dağ-mədən sənayesindən başqa yerdə qalan sənaye sahələri yox səviyyəsində idi. Yüngül sənaye müəssisələrinin əksəriyyəti xırda müəssisələr idi. Yuqoslaviyanın ixracında xammal və kənd təsərrüfatı məhsulları üstünlük təşkil edirdi. Torpaqların 70%-i iri və orta sahibkarlara məxsus idi. 500 min kəndlinin torpağı yox idi. 250 min adam ehtiyac üzündən ölkəni tərk etmişdi.

Daxili siyasi həyatda milli ziddiyyətlərin ifadəsi olaraq müxtəlif burjua fraksiyaları arasında kəskin mübarizə gedirdi. Serb burjuaziyasının hegemonluq siyasəti yeni siyasi münaqişə yaratdı. Böyük serb millətçiliyinə qarşı yerli xorvat və sloven millətçiliyi də gücləndi.

1925-ci ilin iyulun 20-də hökumət İtaliya ilə Nettun konvensiyasını imzaladı ki, bu sənədə görə Yuqoslaviya hökuməti dəmir yolları və su nəqliyyatı, gömrük tarifləri, Dalmasiyada italyan vətəndaşlarının hüquqları məsələsində İtaliyaya güzəştə getməli idi. Bu hadisə Xorvatiya Kəndli Partiyasında (XKP) narazılıq yaratdı və onun lideri S.Padiç parlamentdə müxalifətə keçdi. Paşiç hökuməti istefaya getdi, onun yerini Radikallar partiyasından olan N.Uzunoviçin hökuməti əvəz etdi.

1927-ci ilin noyabrında Xorvat Kəndli Partiyası xırda və orta serb burjuaziyasının mənafeyini müdafiə edən Müstəqil Demokrat partiyası ilə birlikdə Kəndli-demokratik koalisiyasını təşkil etdilər. Onlar parlament yolu ilə tələblərinin həyata keçirilməsinə nail olmaq istəyirdilər. 1928-ci ilin iyunun 20-də Skupşinada qızğın müzakirələr zamanı hakim partiyanın deputatı tərəfindən Xorvatiya Kəndli Partiyasının lideri S.Radiç öldüruldu. Bu, Xorvatiyada böyük həyəcana səbəb oldu.

### *Yuqoslaviya dünya iqtisadi böhranı və İkinci dünya müharibəsi ərəfəsində*

1929-cu ildə yanvarın 6-da monarxistlərin yaratdığı "Ağ əllər" təşkilatı kral Aleksandrın və burjua-mülkədar qüvvələrin köməyi ilə dövlət çevrilişi etdi. Kralın əmri ilə parlament (skupşina) buraxıldı və bütün siyasi partiyalar qadağan edildi. Əvvəlki Serb-xorvat-sloven karllığı 1929-cu il oktyabrın 3-də Yuqoslaviya krallığı adlandırıldı. Bütün millətlər "vahid" yuqoslav xalqı elan edildi. Əvvəlki konstitusiya ləğv edildi.



1931-ci ildə qəbul edilmiş konstitusiyaya əsasən Yuqoslaviyada burjuasiyanın mənafeyinə xidmət edən qaydalar bərpa olundu.

Dünya iqtisadi böhranı Yuqoslaviyadan da yan keçmədi. 1931-ci ildə milli gəlir 1927-ci illə müqayisədə iki dəfə azaldı. Kənd təsərrüfatı mallarının qiyməti aşağı düşdü. 1932-ci ildə xarici ticarət 1929-cu illə müqayisədə 60%-ə endi. Kəndlilərin borcları üzərində möhlət qoyuldu. Kənd təsərrüfyatına kreditlər verildi. Lakin ən çox kredit Serbiya aldı. Ölkədə tətillər artdı. 1935-ci ildə Yuqoslaviya iqtisadiyyatında canlanma başladı. Ölkədə xarici kapitalın mövqeyi gücləndi.

İngiltərə və Fransanın təsiri altında Yuqoslaviya 1934-cü ildə Rumıniya, Türkiyə, Yunanıstanla birlikdə Balkan paktına daxil oldu. Faşist müdaxiləsi təhlükəsindən qorunmaq üçün Yuqoslaviya Fransa ilə münasibətlərini möhkəmlətməyə çalışdı. Bu məqsədlə Yuqoslaviya kralı Aleksandr 1934-cü ilin oktyabrın 9-da Marselə getdi. Lakin orada alman kəşfiyyatının agentləri tərəfindən öldürüldü. Bu hadisədən sonra taxta onun 11 yaşlı oğlu II Pyotr çıxdı. 1935-ci ilin mayın 15-də Skupşinaya keçirilən seçkilərdən sonra M.Stoyadonoviçin başçılığı altında hökumət təşkil edildi. Ölkədə sabitliyə qismən nail olundu.

1938-ci ilədək Yuqoslaviya 1920-1921-ci illərdə təşkil edilmiş Kiçik Antantanın tərkibində qaldı. İkinci dünya müharibəsi ərəfəsində Almaniya və İtaliya Yuqoslaviyaya iqtisadi müdaxiləni gücləndirdi. 1937-ci ilin martında Yuqoslaviya ilə İtaliya arasında bitərəflik və xeyirxah qonşuluq haqqında müqavilə imzalandı. Faşist dövlətlərinin təcavüzkar siyasəti Yuqoslaviyanın beynəlxalq mövqeyini pisləşdirdi. Ölkədə Stoyadonoviç hökumətinin siyasətindən narazılıq başlandı. 1939-cu ilin fevralında bu hökumət istefaya getdi, ölkənin yeni hökumətinin başçısı D.Svetkoviç oldu.

İkinci dünya müharibəsi başlandıqdan sonra Yuqoslaviya 1941-ci ilin martına qədər müharibəyə qoşulmadı. 1941-ci il

martın 25-də Svetkoriç hökuməti Berlin paktına daxil olmaq üçün protokol imzaladı. Lakin bu xalqın böyük narazılığına səbəb oldu. Nəticədə ölkədə dövlət çevrilişi baş verdi. Simoviç hökumət təşkil etdi. 1941-ci ilin aprel ayının 5-də bu hökumət SSRİ ilə müqavilə bağladı. Lakin həmin ilin aprel ayının 6-da alman faşistləri Yuqoslaviyaya hücum edib, onu işğal etdilər. "Müstəqil" Serbiya və Xorvatiya yaradıldı. İtaliya Çernoqoriyanı, Bolqarıstan Makedoniyanı, Macarıtan Voevodinanı aldı. Sloveniya isə Almaniya ilə İtaliya arasında bölündü.



# ALBANİYA

## 1918-1921-Cİ İLLƏRDƏ AZADLIQ HƏRƏKATININ YÜKSƏLİŞİ

1912-ci ilin noyabr ayının 12-də Albaniya Osmanlı imperiyasının tabeçiliyindən çıxdı və müstəqil knyazlığa çevrildi. Albaniya müstəqillik əldə etsə də, ölkədə feodalizmin qalıqları hökm sürür, xarici kapitaldan asılılıq qalırdı. Siyasi hakimiyyətdə feodal aristokratiyası və mülkədarlar idi. Albaniyada, demək olar ki, sənayenin heç bir sahəsi yüksək səviyyədə inkişaf etməmişdi. Albaniya rəsmən müharibədə iştirak etməsə də, onun ərazisi müharibə aparan ölkələr tərəfindən işğal edilmişdi. 1918-ci ilin ikinci yarısından sonra Albaniyanın şimal və mərkəz hissəsini Avtsriya-Macarıstan qoşunları tərk etdi. Ölkənin böyük bir hissəsi isə İtaliyanın nəzarəti altında idi. 1918-ci ilin dekabr ayında Durresdə çağrılan Alban konqresində təşkil edilən Turxan paşa Permetinin müvəqqəti hökuməti 1919-cu ildə İtaliyanın Albaniya üzərində protektoratlığını tanıdı. Paris sülh konfransında alban məsələsi müzakirə edilərkən böyük dövlətlər qərara gəldilər ki, Albaniyanı İtaliya, Yuqoslaviya və Yunanıstan arasında bölsünlər. Qalib dövlətlər 1920-ci ilin yanvarın 14-də Albaniyanın bölünməsi haqqında 1915-ci il London müqaviləsini bir daha təsdiq etdilər. Lakin alban xalqı azadlıq mübarizəsinə qalxdı.

Albaniyanın vətənpərvər dairələri 1920-ci ilin yanvarında Lyuşna şəhərində öz hökumətlərini təşkil etdilər. Konqres qətiyyətlə Albaniyanın bölünməsinə qarşı çıxaraq Paris konfransına öz etirazını göndərdi. Ölkədə işğalçılara qarşı silahlı mübarizə başlandı. Milli müdafiə komitəsi təşkil edildi.
1920-ci ilin iyunun 3-də milli müdafiə komitəsi İtaliya komandanlığından tələb etdi ki, Vlyöradan öz qoşunlarını çıxartsın. Bu tələb yerinə yetirilmədikdə onlar işğalçılar əleyhinə hərbi əməliyyata başladılar. İtalyan qoşunları canlı qüvvə və

texnika cəhətdən əla səviyyədə təchiz edilmələrinə baxmayaraq məğlub oldular. 1920-ci il iyunun 12-də Vlyöra alban milli qüvvələrinin əlinə keçdi.

İtaliya xalqı da öz hökumətinin təcavüzkar hərəkətinə qarşı çıxdı. Ciolitti hökuməti qoşunlarını Albaniyaya göndərməyəcəyi barədə bəyanat verməyə məcbur oldu. Tirana hökuməti ilə danışıqlar başlandı ki, hərbi əməliyyatlar dayandırılsın. 1920-ci ilin avqustun 2-də "Vlyöra rayonunda münaqişəyə son qoyulması və italyan qoşunlarının Albniyadan çıxarılması haqqında" protokol imzalandı. Bu hadisədən sonra Bayram Surrinin başçılığı altında alban vətənpərvərləri ölkədən serb və yunan işğalçılarını da qovdular. Nəticədə Albaniya öz müstəqilliyini bərpa etmiş oldu. 1920-ci ilin noyabrın 9-da Londonda olan konfransda müstəqil Albaniyanın müharibəyə qədərki sərhədləri tanındı. 1920-ci ilin dekabrın 17-də Albaniya Millətlər Cəmiyyətinə daxil edildi.

Milli müstəqillik qazandıqdan sonra Albaniyada hakimiyyət bir qrup feodalın əlinə keçdi ki, onların içərisində ən nüfuzlu fiqur Əhmət Zoqu (1895-1961) idi. 1920-1921-ci illərdə o, xarici işlər naziri, 1922-ci ilin dekabrından 1924-cü ilin fevralına qədər isə Albaniyanın baş naziri oldu. Feodal dairələr antixalq və antimilli siyasət yeridirdilər. Hökumət 1922-ci ildə Bayram Surrinin başçılığı altında ölkənin şimalında baş verən kəndlilərin silahlı üsyanını yatırtdı.

Ölkədə az sayda olan fəhlə sinfi əmək haqlarının artmasına və əmək şəraitlərinin yaxşılaşmasına nail oldular. Fəhlə sinfinin fəallığının artması həmkarlar ittifaqı və fəhlə sinfinin siyasi partiyasını yaratmaq təşəbbüslərinə gətirib çıxartdı.

Antifeodal dəyişikliklərin keçirilməsi uğrunda mübarizəyə milli burjuaziya və ziyalılar da qoşuldu. 1921-ci ildə ölkədə A.Rustaminin rəhbərliyi ilə "Başkimi" təşkilatı yarandı. Onun proqramında aqrar islahat keçirmək, vergi sistemində dəyişiklik etmək, ölkəyə xarici kapitalın müdaxiləsini məhdudlaşdırmaq kimi burjua-demokratik dəyişiklikləri həyata keçirmək nəzərdə tutulurdu.



### *Albaniyada 1924-cü il iyun inqilabı*

Albaniyada Müəssislər məclisi çağırmaq ideyası böyük populyarlıq qazandı. İctimai fikrin təzyiqi altında hökumət Müəssislər məclisinə seçkilər keçirilməsinə razılıq verdi. Albaniyada fəaliyyətdə olan seçki qanununda bir sıra məhdudiyyətlər var idi. Qadınlar və hərbi qulluqçular seçki hüququndan məhrum idilər. 1923-cü ilin dekabrında Müəssislər məclisinə keçirilən seçkilər birbaşa deyil, çoxdərəcələrdə keçirildi. Bütün bunlara baxmayaraq seçkilər kütlələrin siyasi fəallığının artmasına təkan verdi. Hökumət bloku çox çətinliklə seçkilərdə qələbə qazandı və 1924-cü ilin martında mülkədar Şefket Berlyasi başda olmaqla hökumət təşkil edildi.

Ölkənin iqtisadi vəziyyəti yaxşı deyildi. 1922, 1923, 1924-cü illərin məhsul qıtlığı ölkədə gərgin vəziyyət yaratmışdı. Albaniyada inqilabi şərait yetişmişdi. 1924-cü ilin aprelində A.Zoqunun tapşırığı ilə A.Rustaminin öldürülməsi xalqın səbr kasasını doldurdu. 1924-cü ilin may ayının 1-də A.Rustaminin dəfni günü Vlyörada 10 min adamın iştirak etdiyi nəhəng nümayiş keçirildi. May ayının sonunda ölkənin hər yerində kəndli, fəhlə və əsgərlərin birgə iştirak etdikləri silahlı inqilabi çıxışlar oldu. Silahlı üsyanın gedişində Albaniyada feodalların hakimiyyəti devrildi. İyunun 10-da üsyançılar Albaniyanın paytaxtı Tiranaya daxil oldular. İyunun 16-da başda liberal əhval-ruhiyyəli Fon Nola olmaqla demokratik hökumət təşkil edildi. Bu hökumət demokratik dəyişikliklər keçirəcəyini vəd etdi. 1924-cü ilin iyunun 24-də SSRİ ilə diplomatik münasibətlər yaratdı. Yeni hökumətin proqramında inzibati, hərbi və mülki islahatlar keçirmək, kəndlilərin vəziyyətini yaxşılaşdırmaq, vergi sistemi, səhiyyə və təhsilin təşkilində dəyişikliklər etmək

nəzərdə tutulurdu. Beynəlxalq aləmdə isə hökumət müstəqil xarici siyasət yeritməyi planlaşdırdı. Lakin hökumət bu dəyişiklikləri etməyə müvəffəq olmadı. Hökumətin sosial bazası zəif idi. Onun daxilində ciddi ixtilaflar var idi. Burjua dairələri qətiyyətsizlik göstərərək feodallarla kompromisə girməyə çalışırdılar. A.Zoqunun başçılığı altında Yuqoslaviya ərazisində əksinqilabi dəstələr təşkil edildi ki, onlar vrangelçilərin iştirakı ilə Albaniyaya soxuldular və burjua-demokratik inqilabını yatırtdılar. 1924-cü ilin dekabrında Tirana alındı. Demokratik azadlıqlar ləğv olundu. Mütərəqqi təşkilatlar qadağan edildi. Bütün hakimiyyət A.Zoqunun əlində cəmləşdi.

### *Albaniya kapitalizmin nisbi sabitləşməsi illərində*

Kapitalizmin nisbi sabitləşməsi illərində ölkə iqtisadiyyatında canlanma müşahidə edildi. Valyuta sabitləşdi, xarici və daxili ticarətin həcmi artdı, alban burjuaziyasının yeni müəssisələri yarandı. Bununla belə, Albaniyada emal sənayesi çox zəif inkişaf edirdi.

20-ci illərin II yarısında Albaniyaya İtaliya inhisarının müdaxiləsi gücləndi. 1925-ci ildə təsis edilən Milli bankda səhmlərin əksəriyyəti italyan bankirlərinə məxsus idi. 1925-ci ildə Albaniyanın iqtisadi inkişafı üzrə italyan cəmiyyətləri meydana çıxdı. Onlar əsasən, alban banklarına kredit verirdilər. İtaliya kampaniyaları neft, kömür, mis və xrom filizləri kimi faydalı sərvətlərin çıxarılması üçün kəşfiyyat aparmaq hüququ aldılar. Albaniya hökumətinin razılığı ilə ölkənin ən yaxşı torpaqlarına 300 min italyan köçürüldü. İtaliya həmçinin öz mallarını kömrük vermədən Albaniyada satmaq hüququ əldə etdi. 1930-cu ilə yaxın İtaliyanın əlində Albaniyanın ixracının 70, idxalının 50, dəniz yüklərinin 60%-i cəmləşmişdi.

1926-cı ilin noyabrın 27-də bağlanılmış "dostluq və təhlükəsizlik haqqında" müqaviləyə əsasən İtaliya Albaniyanın



müstəqilliyi üçün "təminat" verirdi. Həmin müqaviləyə əsasən Albaniya İtaliyanın razılığı olmadan "üçüncü" dövlətlə saziş bağlaya bilməzdi. 1927-ci ilin noyabrın 22-də bağlanmış müqaviləyə əsasən isə İtaliya Albaniya ordusu üzərində nəzarət hüququ əldə edirdi. Əslində bununla Albaniyada İtaliyanın protektoratlığı yaranmış oldu.

1925-ci ilin yanvarın 22-də Albaniya respublika elan edilsə də, əslində ölkədə Ə.Zoqunun diktaturası hökm sürürdü. 1925-ci ilin yanvarın 31-də Zoqu ölkənin prezidenti seçildi və bütün hakimiyyəti öz əlinə aldı. 1928-ci ildə o özünü kral elan etdi. Albaniya krallığa çevrildi.

### *Albaniya dünya iqtisadi böhranı illərində və İkinci dünya müharibəsi ərəfəsində*

İqtisadi böhran illərində Albaniyada ticarətin həcmi, ölkəyə xarici kapital qoyuluşu azaldı, işsizlik artdı. Ölkədə fəhlə və kəndli çıxışları çoxaldı. 1933-cü ildə Kuçevada fəhlə tətilləri baş verdi. Kəndli hərəkatının təsiri nəticəsində 1930-cu ildə aqrar islahat keçirilməsi haqqında qanun qəbul edildi. Mülkədar torpaqlarının kiçik bir hissəsi alınaraq kəndlilərə satıldı. Bütün məhdudiyyətlərinə baxmayaraq bu islahat kənddə kapitalizmin inkişafını sürətləndirdi. Kəndlərdə qolçomaq təbəqəsi yarandı. Bununla belə, 30-cu illərin əvvəllərində kəndlilərin 52%-i torpaqsız idi.

Böhrandan sonra Albaniyada diktatura rejiminə qarşı mübarizə artdı. 1935-ci ildə Tiranada gizli "Antidiktatura təşkilatı" meydana gəldi. Bu təşkilat Ə.Zoqu rejimini silahlı yolla devirməyi qarşısına məqsəd qoysa da, onun üzvlərinin geniş kütlələrlə əlaqəsi zəif idi. Ölkənin siyasi həyatında ən mühüm hadisələrdən biri 1936-cı ilin fevralında Kuçevada neftçi-fəhlələrin tətili oldu. Hərəkatın gedişində Kuçevada fəhlə

təşkilatları və həmkarlar ittifaqı yarandı. 1938-cü ildə fəhlələr Kuçevada "Əmək cəmiyyəti"ni yaratdılar.

İkinci dünya müharibəsi ərəfəsində Albaniya sənaye cəhətdən geridə qalmış ölkə idi. 1938-ci il sənaye məhsulları ölkənin topdansatış məhsullarının cəmi 9,8%-ni təşkil edirdi, ölkədə cəmi 70 sənaye müəssisəsi var idi.

İkinci dünya müharibəsi başlanmamışdan əvvəl İtaliya qərara gəldi ki, Albaniyanın müstəqilliyinə son qoysun. 1939-cu ilin aprelin 7-də italyan qoşunları Albaniya ərazisinə daxil oldular. Ə.Zoqu hökumətinin ölkənin müdafiəsini təşkil etməkdə bacarıqsızlığı, qərb dövlətlərinin isə təcavüzkara qarşı heç bir ölçü götürməməsi İtaliyaya imkan verdi ki, Albaniya ərazisini qısa bir zamanda işğal etsin.



## ŞİMALİ AVROPA DÖVLƏTLƏRİ

## İ S V E Ç

### *İsveç üçün birinci dünya müharibəsinin nəticələri*

Birinci dünya müharibəsi zamanı İsveç bitərəf mövqe tutmuşdu. Bu siyasət İsveç burjuazisıyanın mənafelərinə uyğun gəlirdi. Çünki o, müharibə aparan hər iki qrup ilə ticarət edirdi. 1916-cı ilə qədər hakimiyyətdə olan mühafizəkarlar Almaniyaya meyl göstərirdi. Lakin ingilis blokadası gücləndikdən sonra ingilispərəst müxalifət gücləndi. 1916-1917-ci illərdə hakimiyyətdə olan liberallar Antantaya dost münasibət göstərirdilər.

Hərbi sənaye ilə əlaqədar olan sahələrdə, ticarət, gəmiçilikdə burjuaziya varlansa da, fəhlələrin vəziyyəti pis idi. Ərzaq məhsulları qıt idi. 1915-ci ildən ölkədə kartoçka sistemi tətbiq edilmişdi.

Müharibə dövründə İsveçdə sinfi qüvvələrin kəskin qütbləşməsi baş verdi. 1917-ci ilin mayın ortalarında İsveç sol sosialist-demokrat partiyası yaradıldı. 1917-ci ildə İsveçdə hakimiyyətdə Eden-Brantinq hökuməti idi. 1918-ci ilin sonunda parlament (riksdaq) islahatlar haqqında qanun qəbul etdi. Bu islahatlardan kralın hüququnun məhdudlaşdırılması, 23 yaşına çatmış kişi və qadınlar üçün seçki hüququ verilməsi, 8 saatlıq iş gününün tətbiq edilməsi, orduda xidmət vaxtının azaldılması xüsusi ilə əhəmiyyətli idi.

1920-ci ilə qədər İsveç fəhlələri həm əmək haqqı, həm də əmək şəraiti sahəsində bir sıra güzəştlər əldə etmiş, habelə öz siyasi hüquqlarını genişləndirmişdilər. Bundan 1920-ci il seçki kompaniyasında sağ sosial demokratlar istifadə etdilər. 1920-ci ilin martında Brantinq ilk xalis sosial-demokrat hökuməti təşkil etdi. Bu hökumət pralamentdə çoxluğa malik deyildi və hər vaxt burjuaziya tərəfindən «qanun yolu ilə» hakimiyyətdən götürülə bilərdi. Brantinq geniş islahatlar proqramını (vergilərin azaldılması, mənzil məsələsinin həlli, sənayenin

sosialistləşdirilməsi) irəli sürdü, lakin burjua parlamenti bu proqramı qəbul etmədi.

1920-ci ilin otkyabrında Brantinq hökumətinin Aland adalarını (bu adalar Rusiya imperiyasının tərkibinə daxil idi və inzibati cəhətdən Böyük Finlandiya knyazlığına mənsub idi). İsveçə birləşdirilməsinə yönəldilmiş xarici siyasəti iflasa uğradı. Riksdağa yeni seçkilərdə o, çoxluq qazanmadığından hakimiyyəti «bitərəf» De Qeyer hökmətinə verdi. Bir qədər sonra bu hökumətin yerində Fon Sudovun mühafizəkarlar hökuməti təşkil edildi.

1921-ci ilin martında İsveç Sovet Rusiyası ilə ticarət sazişi bağladı. 1921-ci ilin payızında riksdağa keçirilən seçkilərdə sağ sosialist-demokratlar 93, mərkəzçilər 6 və yenicə təşkil edilmiş kommunist partiyası (1921-ci il, oktyabr) 7 mandat aldı. Yenə də hakimiyyətə Brantinq hökuməti gəldi.

### *İsveç XX əsrin 20-ci illərində*

1921-ci il İsveçin inkişafında dönüş ili oldu. Bu dövrdə iqtisadiyyat sahəsində müharibədən sonrakı ilk illərdə hökm sürən qızğın möhtəkirlik dövrü başa çatdı.

Başqa ölkələrə nisbətən İsveçdə kapitalizmin qismən sabitləşməsi prosesinin tez başlanması və bu proses üçün sağ sosial demokratların müstəsna əlverişli şərait yaratması, İsveçə güclü miqdarda xarici kapitalın (alman və amerikan) nüfuz etməsi nəticəsində 5-6 il ərzində sənaye, xüsusilə dəmir, sellüloz, maşınqayırma və hərbi sənaye yüksək sürətlə inkişaf etdi, texniki cəhətdən xeyli dərəcədə yenidən quruldu. 1921-ci ildə İsveçdə 200-dən çox inhisar var idi. Artıq 1925-ci ildə İsveçin sənaye istehsalı müharibədən əvvəlki səviyyəyə çatdı və 1929--cu ilə qədər artmaqda davam etdi. Daxili bazarın həcmcə kiçik olması 20-ci illərdə İsverç inhisarçı kapitalını iqtisadi qəsbkarlıq yoluna sövq etdi. Bu özünü İsveç inhisarlarının dünyanın ən iri inhisarları: amerikan, alman,



ingilis inhisarları ilə sıx əlaqə yaratmalarında, habelə çoxlu isveç kapitalının iqtisadi cəhətdən zəif və asılı (Pribaltika, Orta Şərq, Həbəşistan, Latın Amerikası ölkələri) ölkələrə qoyulmasında göstərirdi. Bütün bunlar İsveç burjuaziyasına XX əsrin 20-ci illərinin II yarısında İsveçin «böyüklüyünün II dövrünün» başlanması haqqında danışmağa əsas verirdi.

1921-ci ildən 1926-cı ilədək (1922-1924-cü illər müstəsna olmaqla) hakimiyyət başında sağ sosialist-demokratlar olmuşdular. 1925-ci ildə Brantinqin vəfatından sonra baş nazir vəzifəsini R.Sandler tutdu.

20-ci illərin ikinci yarısında İsveçdə mondizm geniş surətdə yayılmağa başlamışdı. Hakimiyyət başında duran burjuaziya (1926-1928-ci illərdə Ekman hökuməti, 1928-1930-cu illərdə Lindman hökuməti) və sosial-demokrat hökumətləri «əmək bazarında sülhü» qanunvericilik yolu ilə möhkəmləndirdilər. Fəhlələrlə sahibkarlar arasında münaqişələrlə əlaqədar dövlət arbitrajı haqqında qanunlar qəbul edilmişdi.

### *İsveç dünya iqtisadi böhranı illərində*

İsveç sənayesində iqtisadi böhran Avropanın başqa ölkələrindən nisbətəngec başladı. İsveçdə iqtisadi böhranın ilk təzahürü 1929-cu ilin oktyabrında ABŞ-da olmuş birja iflasından sonra meydana çıxdı. 1930-cu ildə amerikan kredit bankları ilə bağlı olan Əkinçilik bankının iflası ilə kənd təsərrüfatında da böhran özünü göstərdi. Bununla belə, 1930-cu ildə matorlar, generatorlar, telefon avadanlığı ixracı, demək olar ki, 1929-cu ilə nisbətən artıq idi.

1931-ci ildə sənayedə böhran başlandı. İstehsal bütövlükdə 21%, ixrac üçün işləyən sahələrdə isə 34% aşağı düşdü. Dəmir filizi istehsalı 1896-cı il səviyyəsinə qədər düşdü, onun ixracı isə 5 dəfə azaldı. Böhran keçirməmiş yeganə sahə hərbi sənaye idi. Böhran illərində «Büfors» hərbi konserni öz anbar ehtiyatlarını ləğv etdi, müəssisələrinin işini artırdı, 1932-ci ildə onun gəlirinin miqdarı çoxaldı.

İsveç inhisarlarının beynəlxalq inhisar birləşmələri ilə əlaqəsi kredit-maliyyə sahəsində böhranı xüsusilə göstərdi. İsveçdə Kreyqer konserninin iflası maliyyə böhranı yaratdı, onun ardınca kibrit, elektrotexnika («Erikson») və dəmir filizi («Qrenqesberq») trestlərində böhran yarandı. Bütün İsveç iqtisadiyyatı pozuldu. İşsizlik 50% artdı. İsveç kapital ixrac edən ölkədən kapital idxal edən ölkəyə çevrildi. Kreyqer konserninin iflasından sonra, Kreyqerin hakim sağ liberallar partiyasına və habelə xain çilbumçular təşkilatına pul buraxdığı aşkara çıxarıldı. Bununla əlaqədar siyasi vəziyyət kəskinləşdi. Ekman hökuməti (1930-1932-ci illər) istefaya çıxdı. Hakimiyyət başına gəlmiş Xolernin sağ liberal hökməti ay yarım hakimiyyətdə qala bildi.

İSDP İsveçdə ən nüfuzlu və böyük partiya idi. 1926-cı ildən müxalifətdə olan İSDP 1932-ci il seçkilərində böhranın nəticələrini ləğv etmək və İsveç dövlətinin demokratik yol ilə inkişafını təmin etmək proqramı ilə çıxış etdi və qalib gəldi. 1932-ci ilin sentyabrında P.A.Xansonun sosial-demokrat hökuməti təşkil edildi.

Xanson hökuməti işsizlər üçün dövlət işləri sistemi təşkil etdi ki, burada da əmək haqqı azad bazar qiyməti ilə verilirdi. Kənd təsərrüfatına kredit buraxıldı və kənd təsərrüfatı məhsullarının qiyməti artırıldı. Bunun əvəzində «Kəndli ittifaqı» parlamentdə sosial-demokrat hökumətini müdafiə etməyə başladı.

### *İsveç İkinci dünya müharibəsi ərəfəsində*

1932-ci ildə bütün liberal qruplar və iki liberal partiya Xalq partiyası adını almış vahid partiyada birləşdi. Sollar Almaniyaya, bu partiya isə İngiltərə, Fransa, ABŞ-a meyl göstərirdi. Avropada faşizmin fəallaşması İsveçdə də faşist təşkilatlarının əmələ gəlməsinə səbəb oldu. İsveç nasional-sosialist partiyası yarandı. Daha sonra İkinci dünya müharibəsinin



sonuna qədər mövcud olan Per-Edqalın faşist partiyası yaradıldı.

1936-cı ildə «Kəndli ittifaqı» partiyası İSDP-dən ayrıldı ki, bu da Xanson hökumətinin istefasına səbəb oldu.

1936-cı ilin yayında riksdaq seçkilərində İSDP yenidən «Kəndli ittifaqı» ilə sazişə girdi, Xanson-Person-Bramstrop koalisiya hökuməti təşkil edildi. Bu hökumət 1939-cu ilin sonuna qədər hakimiyyətdə oldu.

1936-cı ildə «mötədil qüvvələrin birliyi» əldə edildi ki, bu da İsveç burjuaziyasının bütün qruplarının (onların xüsusi mənafelərinin və xarici siyasətdə meyllərinin müxtəlifliyinə baxmayaraq) mənafeyini müdafiə edirdi. Bu birlik İsveç mallarının hər iki imperialist qruplarına (Almaniya İttifaqı və ABŞ-İngiltərə-Fransa) satışını genişləndirmək üçün müharibə ərəfəsində əmələ gəlmiş yüksək konyukturadan sona qədər istifadə etmək səyini əks etdirirdi.

## FİNLANDİYA

### *Finlandiya Birinci dünya müharibəsinin sonu və müharibədən sonrakı ilk illərdə*

1809-1917-ci illər ərzində böyük knyazlıq kimi Rusiya tərkibində olmuş Finlandiya olduqca geniş muxtariyyətdən istifadə edirdi. Onun öz maliyyə sistemi, kömrük sərhədi, seymi, senatı (yerli hökuməti) var idi. Dövlət dili İsveç və fin dilləri idi. Onun vətəndaşları Finlandiya təbəəliyinə malik idilər. Birinci dünya müharibəsi illərində Finlandiyada hərbi vəziyyət elan edilsə də, fin əhalisi müharibədə iştirak etmirdi. Lakin onlar xəlvəti Almaniyaya kömək edirdilər.

Çoxlu hərbi sifarişlər alan ölkənin sənayesi sürətlə inkişaf edir, burjuaziyaya çoxlu qazanc gətirirdi.

Fin sosial-demokrat başçılarının tərəddüdü və sazişçi siyasəti onların nüfuzdan düşməsinə və 1917-ci ilin oktyabrın 1-2-də keçirilmiş seym seçkilərində məğlubiyyətə uğramasına səbəb oldu. 1917-ci il noyabrın 27-də təşkil edilmiş Svinxuvud hökuməti Finlandiyanın Rusiyadan dərhal ayrılmasını tələb etdi və seymin Rusiyanın tərkibində qalmaq haqqındakı 1917-ci il 18 iyul qərarını ləğv etdi. 1917-ci il dekabrın 31-də Sovet hökumətinin başçısı V.İ.Lenin Svinxuvudun başçılıq etdiyi fin nümayəndə heyətini qəbul etdi və elə həmin gün də XKS-nin Finlandiya Respublikasına istiqlaliyyət verilməsi haqqında qərarını ona təqdim etdi. Hökumət 1918-ci il yanvarın 12-də sosial-demokrat fraksiyasının müqavimətinə baxmayaraq, seymə şüskorların açıq fəaliyyət göstərmələrinə icazə verən və Qızıl Qvardiyanın buraxılmasını nəzərdə tutan diktatorluq vəkalətləri verilməsi haqqında qanun qəbul etdirdi. 1918-ci il yanvarın 16-da Svinxuvud keçmiş çar generalı Qustav Mannerheymi ordunun baş komandanı təyin etdi.

1918-ci il yanvarın 22-də sosial-demokrat partiyası Şurasının iclasında ali inqilabi orqan – Finlandiya fəhlələrinin icraiyyə komitəsi seçildi. Yanvarın 28-də Helsinqforsda fəhlə



sinfi inqilaba başladı. Paytaxt tutuldu və Xalq Müvəkkilləri Şurası yaradıldı. Ali dövlət orqanı 35 nəfərdən ibarət olan Baş Sovet idi. Finlandiyanın cənubunda yeni hökumət quruldu. Ağ hökumət ölkənin bütün qızıl ehtiyatını götürərək ölkənin şimalına qaçdı. Svinxuvud gizlicə Estoniyaya, oradan da Almaniyaya getdi. Ağ fin hökuməti Almaniya ilə ayrılıqda sülh bağladı və sonra inqilab əleyhinə hərbi yardım almaq haqqında onunla saziş imzaladı.

Finlandiya fəhlə respublikası cəmi 3 ay, 1918-ci il yanvarın axırından mayın əvvəlinə qədər yaşadı. 1918-ci il martın sonu – aprelin əvvəllərində Finlandiyanın cənubuna-Qızıl Qvardiyanın arxasına fon der Holtsun komandanlığı altında alman qoşunlarının böyük desant qrupları çıxarıldı. Şimaldan isə fin inqilabi qoşunlarının mərkəz cəbhəsini yararaq Monnerheym ordusu irəlilədi. Qızıl Qvardiya məğlubiyyətə uğradı.

Qalib gəlmiş ağ hökumətin ilk tədbiri 1918-ci il mayın 15-də Sovet Rusiyası ilə diplomatik münasibətləri kəsməsi oldu.

1918-ci il avqustun 29-da Moskvada fin inqilabçı mühacirlərinin qurultayında Fin KP yaradıldı.

Finlandiyada alman imperializmi ilə sıx bağlı olan rejim yaradıldı. 1918-ci il avqustun 15-də Finlandiyada monarxiya qurulduğu elan edildi. Oktyabrın 9-da isə alman şahzadəsi Hessenski-Karl-Fridrix «Finlandiya və Kareliyanın kralı» oldu. Müharibədə Almaniya məğlub edildikdən sonra, 1918-ci il dekabrın 12-də Antantanın əlaltısı Mannerheym Finlandiyanın naibi təyin edildi. Alman ekspedisiya korpusu Finlandiyanı tərk etdi.

1919-cu ildə vətəndaş müharibəsindən sonra seymə ilk seçkilər keçirildi. 5 partiya: koalisiya, İsveç xalq partiyası, aqrar, tərəqqipərvər və sosial-demokrat partiyası bu seçkilərdə iştirak etdi. Seym respublika idarə formasını qəbul etdi, monar-

xiya haqqındakı qanunu ləğv etdi. 1919-cu ilin iyulunda liberal burjuaziyanın nümayəndəsi K.Stolberq (tərəqqipərvər partiyası) Finlandiyanın prezidenti seçildi.

Fin hakim dairələri Kareliya, Kola yarımadası və Leninqrad hesabına Finlandiyanın ərazisini genişləndirmək istəyirdilər. Yalnız 1920-ci il oktyabrın 14-də Fin hökuməti Rusiya ilə Yuryev-Tartu sülhünü bağladı. Bu sülhə görə Barents dənizinə çıxış yolu ilə birlikdə Peçeneq (Petsamo) vilayəti Finlandiyaya verilirdi. 1922-ci il iyulun 1-də Finlandiya ilə Rusiya arasında sərhəd sazişi imzalandı.

### *Finlandiya kapitalizmin nisbi sabitləşməsi dövründə*

Burjuaziyanın «möhkəm qol» hökuməti yaratmaq cəhdinə baxmayaraq 20-ci illərin birinci yarısında Finlandiyada daxili siyasi vəziyyət olduqca ağır idi. Fin və isveç kapitalı arasında gedən mübarizə nəticəsində hökumətlər tez-tez dəyişilirdi.

1918-1926-cı illərdə Finlandiyanın iqtisadiyyatında hakim mövqe tutmuş xarici kapital ölkə iqtisadiyyatının birtərəfli inkişafına səbəb olurdu. Finlandiya meşə xammalı mənbəyinə çevrilmişdi. Sənayenin bu əsas sahəsində səhm kapitalının 60%-dən çoxu xarici kapitala mənsub idi. İngilis və İsveç kapitalı birinci yeri tuturdu. Ölkədə vergilərin son dərəcə çox artmasına baxmayaraq, bu vergilərdən toplanan məbləğ xarici borcların faizini belə ödəməyə çatmırdı.

Daxili siyasi vəziyyətin möhkəm olmaması, müxtəlif burjua partiyaları arasında mübarizə xarici kapitalistləri də narahat edirdi. Buna görə də onlar daxili siyasətdəki gərginliyi yumşaltmağa cəhd edirdilər. Sənaye kapitalistləri ilə aqrarilər arasındakı ziddiyyətlər həddindən çox kəskinləşdiyi bir vaxtda 1926-cı ilin dekabrında xarici kapitalistlər V.Tennerin başçılıq etdiyi sosial-demokrat hökumətini hakimiyyətə gətirdilər.



1926-cı ilin dekabrından 1927-ci ilin dekabrına qədər bu hökumət hakimiyyətdə oldu.

1927-ci il seçkilərində hakimiyyətə aqrarilərin Sunila hökuməti gəldi. 1927-ci ildə İsveç ticarət müəssisələrinin baykot edilməsi ilə İsveç əleyhinə kampaniya başlandı. Xarici siyasət sahəsində fin burjuaziyası İsveç əyaləti Norbottanın, Norveç əyaləti Finmarkın Finlandiyaya birləşdirilməsi tələbini irəli sürdü. Lakin bu tələb hər iki dövlət tərəfindən qəti rədd edildi.

### *Finlandiya dünya iqtisadi böhranı və İkinci dünya müharibəsi ərəfəsində*

1928-ci ilin sonunda Finlandiyada başlanmış iqtisadi böhrandan faşist hərəkatının «fin» formasını ölkədə yaymaq üçün istifadə edildi. İşsizlərin sayı 95 mindən 126 min nəfərə qədər artdı. Bu vaxt mürtəce qüvvələr Finlandiyanın şimal-qərbindəki Lapua mahalının, yəni 1929-cu il noyabrın ortasında yerli şüskorların tərəqqipərvər fəhlə gənclərin iclasına basqın etdikləri və iclas iştirakçılarına ağır divan tutduqları yerin adı ilə adlanmış lapuas faşist təşkilatını yaratdılar. 1930-cu il iyulun 1-də hökumət seymə fövqəladə qanunlar layihəsini təqdim etdi. Bu qanunları müdafiə etmək məqsədi ilə 1930-cu il iyulun 7-də lapuasçılar, bütün Finlandiyada Lapuas hərəkatının 12 min fəal iştirakçısı Helsinki üzərinə «yürüş» təşkil etdi. Bundan bir az əvvəl xaricdə mühacirətdə olmuş Svinxuvud ölkəyə çağrıldı və ona sağ burjua partiyaları nümayəndələrindəni yeni kabinet təşkil etmək tapşırıldı.

Seymə edilən təzyiq əks təzyiqə səbəb oldu. Laupas hərəkatının getdikcə azğınlaşmasından qorxan liberal-burjua deputatların bir hissəsi fövqəladə qanunlara səs verməkdən imtina etdi və bu qanunlar üçüncü oxunuşda lazım olan əksəriyyəti qazana bilmədi. Belə olduqda prezident Relander

1930-cu il iyulun 15-də seymi buraxaraq, 1930-cu il oktyabrın 1-nə yeni seçkilər təyin etdi.

Terror şəraitində keçirilmiş və koalisiya partiyasına böyük uğur gətirmiş (28 əvəzinə 42 mandat) yeni seçkilərin nəticəsində irtica öz mövqelərini möhkəmləndirdi. Seym bütün fövqəladə qanunları qəbul etdi. Lapuasçılar açıq faşist çevrilişinə cəhd etməyə başladılar. Azğın antisovet təbliğatı başlandı. Lakin, Sovet İttifaqı orqanlarını təqsirləndirmək məqsədi ilə keçmiş prezident K.Stolberqi öldürüb, onun meyitini SSRİ ərazisinə atmaq cəhdi baş tutmadı. 1931-ci il yanvarının 15-16-sında cəmi iki səs çoxluğu ilə Svinxuvud prezident seçildi. 1931-ci il martın 21-də isə Sunilanın mötədil burjua hökuməti təşkil edildi.

Lapuasçıların öz hərəkatlarına geniş kəndli kütlələrindən yardım almaq ümidi boşa çıxdı. Xırda kəndlilər nəinki sağ partiyaları, habelə aqrarilər partiyasını da tərk edərək siyasi radikal «Xırda torpaq sahibləri» ittifaqını yaratdılar.

Lapuasçıların nüfuzunun gündən-günə aşağı düşdüyünü hiss edən onların başçıları hərbi-faşist çevrilişini sürətləndirmək üçün cəhd göstərdilər. 1932-ci ilin fevralında paytaxtın yaxınlığındakı Miyantiyola adlanan yerdə lapuasçıların silahlı dəstəsi qiyam qaldırdı. Qiyam heç bir güllə atılmadan dağıdıldı. Hərəkat zəifləməyə başladı. Lakin onun əsasında əvvəlcə koalisiya partiyasının bir qrupu kimi çıxış etmiş, sonra isə fin faşist partiyası kimi təşəkkül tapmış «Vətənpərvər xalq hərəkatı» adlı faşist partiyası yaradıldı. Bu partiya geniş ictimai baza əldə edə bilmədi. Fin faşizminin – lapuas hərəkatının xüsusiyyəti onun ictimai bazasının darlığında idi.

1932-ci ilin yanvarında laupas hərəkatı formal olaraq qadağan edildikdən sonra SSRİ ilə Finlandiya arasında hücum etməmək haqqında 10 il müddətinə öhdəlik imzalandı.

1932-ci ilin dekabrında sağ burjua partiyalarını təmsil edən Kivimyaki hökuməti təşkil edildi. Bu hökumət əvvəlkilərdən daha çox - 1936-cı ilin sentyabrına qədər hakimiyyətdə qaldı.



Finlandiyada fin burjuaziyası ilə İsveç burjuaziyası arasındakı ziddiyyətlər əsas etibarı ilə fin və İsveç iri kapitalistlərinin mənafelərinin tamamilə uyğun gəlməsi ilə əlaqədar aradan qaldırılmışdı. 1936-cı ilin iyulunda seymə keçirilmiş seçkilərdə, «sol» olan partiyalara verilən səslər çoxluq təşkil etdi. FSDP 83 mandat, aqrarilər isə 53 mandat aldılar. 1936-cı ilin sentyabrında Kivimyaki hökuməti istefa verdi və üç partiya – aqrarilər, tərərqqipərvərlər, mühafizəkarlar koalisiyasını təmsil edən Kalleo (aqrarii partiyasından idi) hökuməti təşkil edildi. Yarım ildən sonra prezident seçkilərində Svinxuvud məğlubiyyətə uğradı. Prezident seçilmiş Kalleo hökumətin təşkilini Kayanderə tapşırdı. O isə, sosial-demokrat Tennerə maliyyə naziri vəzifəsini verməklə koalision hökumət təşkil etdi. Nəticədə Finlandiyada keçmiş hökumətdən fərqli olaraq İngiltərə meylli Kayander-Xolsti-Tenner burjua hökuməti hakimiyyətə gəldi. Bu hökumət arasıkəsilmədən müharibəyə hazırlıq aparırdı. Lakin ilk vaxtlarda yəni, 1937-1938-ci illərdə, fin burjuaziyası özünün xarici siyasət planlarını «Skandinaviya istiqaməti» siyasəti ilə pərdələyirdi.

1937-ci ilin fevralında Finlandiyanın xarici işlər naziri Xolsti Moskvaya gəldi. Bir az sonra R.Xolsti vəzifəsindən götürüldü. Xarici işlər naziri vəzifəsinə SSRİ-yə nifrət edən Elias Erkko təyin edildi. Kayandar-Tenner hökuməti müharibəyə ideoloji hazırlığı gücləndirdi. «Mannerheym xətti» tikilməyə başladı. Yenidən Urala qədər «Böyük Finlandiya» yaratmaq haqqında fikirlər irəli sürülməyə başlandı. Belə olduqda, 1939-cu ilin mart-aprel aylarında Sovet hökuməti Avropada yaranmış gərgin vəziyyəti nəzərə alaraq Finlandiyaya təklif etdi ki, Fin körfəzinin mərkəzi hissəsindəki ümumi sahəsi 48,5 min kv.km olan bir sıra xırda adaları (Suksaari, Tyuttarsaari, Lavansaari,Penisaari və Seyskari) Kareliya ərazisinin müvafiq

sahəsi ilə dəyişdirsin və ya onu SSRİ-yə icarəyə versin. Lakin Finlandiya hökuməti bu təklifi rədd etdi. Bu isə SSRİ ilə Finlandiya arasında 1939-cu ilin noyabrında müharibənin başlanmasına və Finlandiyanın məğlubiyyətinə səbəb oldu.



## NORVEÇ

### *Norveç Birinci dünya müharibəsindən sonrakı ilk illərdə*

Birinci dünya müharibəsi Norveçin təsərrüfatının yenidən qurulmasını sürətləndirdi. Müharibədə Norveç burjuaziyası hər iki kapitalist qrupu arasında manevr edərək varlandı və yüksəliş dövrü keçirdi. 1913-cü ildə 1 milyard kron borcu olan ölkədən 1919-cu ildə 1,31 milyard kron borc verən ölkəyə çevrildi. Kapital qoyuluşunda İngiltərənin payının artması, Almaniyanın payının azalması müşahidə edilməyə başladı. Əkin sahələrinin 63%-ni öz əlində toplamış qolçomaqların tədavül kapitalı 5 dəfə, xalis gəliri isə 3,5 dəfə artdı. Fəhlə aristokratiyası yarandı.

Bahalıqla əlaqədar 1917-ci il iyunun 6-da Norveç fəhlə hərəkatının tarixində ilk dəfə olaraq ümumi tətil baş verdi. Bu dövrdə fəhlə və əsgər deputatları sovetləri yarandı və məhəlli orqanlar kimi fəaliyyət göstərməyə başladı.

Dünya müharibəsi qurtardıqdan bir qədər sonra ölkədə iqtisadi böhran başlandı. Gəmi istehsalı ixtisar edildi, xarici sifarişlər azaldı. Meşə emalı sənayesində «Borreqer», «Yunion K» kimya sənayesində «Norsk Xüdro» xarici kapitalın Norveç torpağında votçinası idilər.

Knudsen hökuməti (1915-1920-ci illər) dövründə idxalın ümumi məbləği 5 dəfədən çox artdı.

Digər ölkələrdə inqilabların yatırılması Norveç burjuaziyasını da ruhlandırdı. 1920-ci ildə «Venstre» liberal partiyasından başlıca olaraq iri torpaq sahiblərinin və qolçomaqların mənafeyini müdafiə edən «Vunneparti» kəndli partiyası ayrıldı. Mühafizəkarlar «Xoyre» adlanırdı.

1920-ci ilin iyulunda Xalversenin mühafizəkar hökuməti hakimiyyətə gəldi. 1921-ci ildə Norveç Fəhlə Partiyasının sağ qanadından Norveç SDP yaradıldı, sol qanadından isə 1923-cü ildə Norveç Kommunist Partiyası təşkil edildi.

## *Norveç kapitalizmin nisbi sabitləşməsi və dünya iqtisadi böhranı illərində*

1924-cü il sinfi döyüşləri fəhlə sinfinin məğlubiyyəti ilə qurtardı. Sənayenin sabitləşməsi kapitalist «səmərələşdirilməsi» yolu ilə əldə edildi. 1927-ci ildə NFP (Norveç Fəhlə Partiyası) və NSDP bir partiyada birləşdi və NFP adlandı.

Lükkenin (1926-1928) mühafizəkar hökuməti tətilə təhrik edənləri həbsə almaq, ştreykbrexerləri müdafiə etmək haqqında stortinqin qanunlar verməsinə nail oldu.

Zəhmətkeş kütlələrin kortəbii çıxışlarının qarşısını almaq üçün 1928-ci ilin yanvarında Xonsrudun başçılığı altında sosial-demokrat «fəhlə» hökuməti yaradıldı. Lakin o, üç həftədən sonra istefa verdi. L.Movingelin (1928-1931) «Venstre» liberal hökuməti təşkil edildi.

1930-cu ildə Norveç yeni iqtisadi böhrana məruz qaldı. 1932-ci ildə sənaye məhsulu 38%, xarici ticarət dövriyyəsi 37-40% azaldı. 1,1 milyon ton su tutumu olan gəmilər fəaliyyətsiz qaldılar. 47 bank iflasa uğradı. Yalnız onlardan 6-sı bərpa oluna bildi. Ölkədə 111 min işsiz var idi. 1931-ci ildə ən böyük lokaut baş verdi. 86 min adam işdən çıxarıldı.

Böhrandan çıxmaq üçün kəndli partiyası hakimiyyətə gətirildi. Kolstad-Xunsrud hökuməti təşkil edildi. Bu hökumət 1931-1933-cü illərdə hakimiyyətdə oldu. Böhran illərində burjuaziya faşist və yarımfaşist xarakterli «Leydanq», «Norveç Lattları», «Böhran zamanı kənd əhalisinə yardım», «Vətən ittifaqı» kimi təşkilatlar yaratdı. 1931-ci ildə Kvislinqin yaratdığı «Şimal xalq intibahı» partiyası tipik faşist partiyası idi.

1931-1932-ci ildə Norveç Danimarkaya məxsus olan Şərqi Qrenlandiyanı işğal etdi. Lakin tezliklə də tutduğu ərazidən geri çəkilməli oldu.



## *Norveç İkinci dünya müharibəsi ərəfəsində*

L.Movingelin başçılıq etdiyi «venstre» hökuməti 1933-1935-ci illərdə Norveçdə hakimiyyətdə oldu.

1933-cü ildə NFP-nin proqramında dəyişiklik edilərək orada "mütəşəkkil kapitalizm və korporativ sistem tətbiq edilməsi müddəaları" öz əksini tapdı.

1935-ci ilin yazında Norveç böhrandan çıxdı və 1935-ci ilin martında Q.Nyuqorsvollun başçılığı altında NFP hökuməti təşkil edildi. Bu dövrdə faşistlərin fəaliyyəti canlandı. Kvislinq 1933-cü ildə «Namunal Samlinq» faşist partiyasını yaratdı.

1937-ci ildə Norveç yeni böhranla üzləşdi. 1939-cu ilin yayında stortinq konstitusiyada belə bir dəyişiklik etdi ki, seçkilər 3 yox, 4 ildən bir keçirilsin.

1931-ci ildə Oslo qrupu yaradıldı. Belçika, Niderland və Şimali Avropa dövlətləri ilə birlikdə Norveç də bu qrupun üzvü idi. 1936-cı il iyulun 1-də onlar təcavüzkar dövlətlərə qarşı iqtisadi qadağalar tətbiqinə qarşı çıxdılar. Onlar bununla yüksək iqtisadi konyukturadan istifadə etmək niyyətində idilər.

1937-1938-ci ildə Danimarka, Norveç və İsveç arasında Skandinaviya müdafiə ittifaqı yaradıldı. 1938-ci ildə xarici siyasətdə Norveç bitərəf mövqe tuturdu.

İkinci dunya müharibəsində Almaniya tərəfindən işğal edilən ilk ölkələrdən biri də Norveç oldu.

# DANİMARKA

## Danimarka Birinci dünya müharibəsindən sonrakı ilk illərdə

Danimarka XX əsrin əvvəllərində inkişaf etmiş kənd təsərrüfatı ölkəsi idi və bu əhalinin müharibə dövründə ərzaq məhsulları ilə təmin edilməsində mühüm rol oynadı. Lakin müharibə dövründə ölkəyə xammalın az gətirilməsi istehsalın həcminin azalması, işsizliyin artması, real əmək haqqının aşağı düşməsi, vergilərin yüksəlməsi, şəhərlərdə mənzil böhranı yaranmasına gətirib çıxartdı.

Danimarka burjuaziyası içərisində xarici siyasətdə ciddi fikir ayrılığı özünü göstərirdi. Mühafizəkarlar partiyasının əsas hissəsini təşkil edən iri və orta şəhər burjuaziyası Antanta ölkələrinə, miqdarca daha çox və nüfuzlu olan aqrarilər və sosial-demokratlar partiyası isə Almaniyaya meyl edirdi. Bu isə, hər şeydən əvvəl, onların iqtisadi maraqlarından irəli gəlirdi.

Rusiyadakı Oktyabr çevrilişi və milliləşdirmə tədbirləri Danimarka burjuaziyasını Rusiyadakı, xüsusən, teleqraf və paraxod kompaniyalarına qoyduqları kapitallardan məhrum etdi. Çevriliş Danimarka fəhlə hərəkatına təsir göstərdi. Bu öz ifadəsini 1918-ci il fevralın 11-də işsizlərin birjaya hücumunda nümayiş etdirdi. Lakin anarxo-sindikalistlərin dünyagörüşündəki ziddiyyətlər fəhlə hərəkatını zəiflədirdi. 1918-ci il aprelin 8-də Danimarka sosialist fəhlə partiyası yaradıldı. Fəhlə hərəkatının təsiri altında sosial-demokratlar Tsale hökumətindən «cəmiyyətin demokratikləşdirilməsinə» yönəldilmiş islahatlar aparılmasını tələb etdi. Onlar 8 saatlıq iş günü tətbiq edilməsi, banklar və istehsal üzərində nəzarət qoyulmasını, ictimai təminatı yaxşılaşdırmağı, konstitusiyanı yenidən



nəzərdən keçirməyi və s. tələb edirdilər. Lakin bunların heç biri əməli olaraq yerinə yetirilmədi.

Fəhlə hərəkatının yüksəlişi illərində (1918-1920-ci illərdə) bir sıra burjua islahatları: kommunaların bələdiyyə rəislərinin seçkisi, xüsusi gimnaziyaların ləğvi, iri torpaq sahiblərinin torpaqlarının 25%-ni dövlətin ixtiyarına verən qismən torpaq islahatı və s. həyata keçirildi. 1918-ci ildə, Danimarka və İslandiya arasında krallıq çərçivəsində İslandiyaya istiqlaliyyət verildi.

Versal sülhünə görə, Almaniyanın 1864-cü ildə Danimarkadan zəbt etdiyi Holşteyn əyaləti və Şlezviq əyalətinin şimal hissəsi (orada danimarkalılar çoxluq təşkil edirdilər) yenidən qaytarıldı. Şlezviliqin cənub hissəsinin harada qalması isə (orada almanlar çoxluq təşkil edirdi) referendum yolu ilə həll edilməli idi. Keçirilən referendumda əhalinin çoxu Almaniyada qalmaq istədiyini bildirdi.

1920-ci il aprelin 26-da riqsdağa keçirilən seçkilərdə mandatların çoxunu «Venstre» (49 mandat) qolçomaq partiyası aldı və bu partiyanın liderlərindən biri olan Neyerqorun başçılığı altında hökumət təşkil edildi. Sosial-demokratlar 42 mandat qazandılar və müxalifət partiyasına çevrildilər. Bu isə DSDP-na həyata keçirilməli olan tələbləri irəli sürmək imkanı verdi. 1920-ci ilin sentyabrında keçirilmiş növbəti seçkilər Neyerqor hökumətinin vəziyyətini daha da möhkəmlətdi.

1920-ci ilin sonunda DSDP-yə çoxlu üzv daxil olmağa başladı ki, bu da ilk növbədə möhtəkirliyə və ticarət sahəsində «azad sahibkarlığa» geniş xalq kütlələrinin narazılığının artması ilə əlaqədar idi. 1920-ci ilin noyabrında Sol sosialist partiyası Kommінternin 21 şərtini qəbul etdi və Danimarka Kommunist Partiyası adlandırıldı.

Neyerqor hökumətinin iqtisadi siyasəti ölkədə işsizliyin artmasına gətirib çıxartdı. Burjuaziyanın fəhlə sinfi üzərinə hücumu 1922-ci ildə Danimarkanı bürümüş iqtisadi böhran

dövründə daha da genişləndi. Maliyyə böhranı Danimarkanın İngiltərə və ABŞ-ın ən yüksək banklarından asılılığı nəticəsində daha da dərinləşdi.

### *Danimarka kapitalizmin sabitləşməsi dövründə*

1924-cü ilin aprelində Stauninqin bir partiyalı ilk sosial-demokrat hökuməti təşkil edildi. Bu hökumət 1924-cü ildə SSRİ-ni rəsmi surətdə tanıdı. İqtisadi böhranı aradan qaldırmaq üçün o gəlir vergisini 50% artırdı və xarici mallar üzərinə 50% artıq qiymət gəldi.

1925-ci ildə genişlənən tətil hərəkatı yatırıldıqdan sonra ölkədə sosial-demokratların sağ qanadının nüfuzu aşağı düşdü. Kömrükləri və kənd təsərrüfatı mallarının qiymətini daha çox artırmadığına görə hökumətin siyasətindən burjuaziya da narazı idi.

Belə bir şəraitdə 1926-cı ilin dekabrında riqsdağa keçirilən seçkilərdə burjua partiyaları qələbə əldə etdilər. «Venstre» partiyasının təşkil etdiyi və Neyerqorun maliyyə naziri vəzifəsini tutduğu Madsen-Müqdal hökuməti aqrarilərin mənafeyinə uyğun olan iqtisadi siyasət yeritməyə başladı. Bu isə sənaye burjuaziyasını hökumətdən narazı saldı. 1929-cu il seçkilərində Venste məğlubiyyətə uğradı və sosial-demokratlar qələbə əldə etdilər. DSDP başçıları yenə də burjua radikallar partiyası ilə parlamentdə ittifaq yaradaraq ikipartiyalı Stauninq-Munk kabinetini təşkil etdilər. Bu kabinet 10 il hakimiyyətdə qaldı.

### *Danimarka dünya iqtisadi böhranı illərində*

Dünya iqtisadi böhranı Danimarkanı yalnız 1931-ci ilin sonunda-İngiltərə qızıl paritetindən əl çəkəndən sonra bürüdü. Maldarlıq məhsullarının 80-90%-ni İngiltərəyə ixrac edən Danimarkaya qiymətlərin aşağı düşməsi və xarici ticarət balansının pozulması çox pis təsir göstərdi. Böhranın təsiri altında hökumət riqsdağı buraxdı. 1932-ci ilin noyabrında növbədənkənar keçirilən seçkilərdə Venstre partiyası məğlub oldu. Böhran gəmi inşaatı, toxuculuq, sement və sənaye məhsulları istehsalının azalmasına və işsizlərin sayının 200 minə çatmasına səbəb oldu. Hökumət şəraiti bir qədər yumşaltmaq üçün tətilləri və lokautları qadağan etmək haqqında müvəqqəti qanun verdi və müştərək müqavilələrin müddətini bir il uzatdı. 1933-cü ilin yanvarında Venstre, Sosial-demokrat və Radikallar partiyası arasında getən gizli danışıqlar nəticəsində gələcək daxili siyasi xətt haqqında saziş bağlandı ki, buna «Kanslerqradda saziş» (Stauninqin mənzili yerləşdiyi və danışıqlar aparılmış küçənin adıdır) adı verildi. Bu saziş İkinci dünya müharibəsinə qədər Danimarkanın bütün iqtisadi və sosial-siyasətinin əsası oldu. Böhran və böhrandan sonrakı dövrdə Stauninq hökuməti büdcə xərclərinin və idxal mallarının istehlakının ciddi surətdə məhdudlaşdırılması siyasəti yeridirdi. Nəticədə, 30-cu illərin ortaları üçün, sənaye malları ixracının dəyəri ölkəyə gətirilən sənaye xammalının dəyəri ilə tədricən tarazlaşdı, sonra isə onu ötüb keçdi.

### *Danimarkanın İkinci dünya müharibəsi ərəfəsində daxili və xarici siyasəti.*

Stauninq hökumətinin siyasəti aqrar və sənaye kapitalistlərinin mənafeyinə uyğun gəlsə də, burjuaziyanın daha sağ dairələri sosial-demokrat hökumətinin öz işini gördükdən sonra hakimiyyətdə qalmasını artıq hesab edirdi. Bu dövrdə Danimarka burjuaziyasının cüzi hissəsi İngiltərəyə, əksəriyyətii isə Almaniyaya meylli idi. Almaniyada faşist partiyası hakimiyyətə gəldikdən sonra Danimarkada da faşizm canlanmağa başladı və ilk vaxtlarda, başlıca olaraq kənd əhalisini bürüdü. Artıq 1933-cü ildə Danimarka nasional-sosialist fəhlə partiyası adlanan faşist partiyası yarandı. Lakin həm fəhlə sinfi, həm də Danimarka sosial-demokratları faşistlərin əleyhinə çıxdı. 1934-cü ildə Stauninq hökuməti qanunsuz yollarla ictimai işlərə təsir göstərmək istəyən ittifaqlar, birliklər, korporasiyalar

yaradılmasını qadağan edən qanunlar qəbul edilməsinə nail oldu. 1935-ci il seçkilərində sosial-demokratlar yenidən uğur qazandılar.1936-cı ildə isə sosial-demokratlar və radikallar ilk dəfə olaraq landstinq seçkilərində çoxluq əldə etdilər.

Konstitusiyanın yenidən nəzərdən keçirilməsi və ictimai siyasət haqqında məsələ 30-cu illərin ikinci yarısında yeganə böyük daxili siyasət məsələsi idi.

İkinci dünya müharibəsinə hazırlıqla əlaqədar olaraq 30-cu illərin sonunda xarici siyasət Danimarka üçün getdikcə daha çox əhəmiyyət kəsb edirdi. Almaniya ilə daimi gərginliyin mənbəyinə çevrilmiş Şlezviq məsələsi xüsusi narahatlıq törədirdi. Danimarka burjuaziyası Şlezviqdə mənafelərini əldən verməmək üçün o zamankı Avropa siyasətinin ən mühüm prinsipial məsələlərində Almaniyaya güzəştə getdi. Belə ki, Danimarka 1935-ci ildə Millətlər Cəmiyyəti tərəfindən həddindən artıq silahlandığına görə Almaniyanın pislənməsi əleyhinə səs verdi. 1936-cı ildə təcavüzkar əleyhinə sanksiyalarda iştirak etməkdən boyun qaçırdı. Danimarkanın Almaniyaya güzəştə getməsinin bir səbəbi də onu ağır hərbi-siyasi vəziyyətə salmış 1935-ci il ingilis-alman dəniz sazişi idi. Bu sazişin nəticəsində Danimarka tamamilə alman nüfuz dairəsinə düşmüşdü. Məhz buna görə də Danimarka faşist Almaniyası ilə 1939-cu ilin mayında hücum etməmək haqqında müahidə bağlayan ilk dövlətlərdən biri idi. Lakin bu müahidə Danimarkanın təhlükəsizliyini təmin etmədi və o, müharibə dövründə Almaniyanın satilletlərindən biri oldu.



## BELÇİKA

### *Belçika Birinci dünya müharibəsindən sonrakı ilk illərdə*

Birinci dünya müharibəsi zamanı Belçikanın Almaniya tərəfindən işğalı onu ağır vəziyyətə saldı. Müharibədə 40 mindən çox insan həlak oldu, ərzaq mallarının qıtlığı kəskin surətdə özünü göstərdi, bahalıq artdı, yüz minlərlə adam işdən və yaşayış vasitələrindən məhrum oldu.

Müharibə qurtardıqdan sonra Belçika imperialistləri sürətlə öz mövqelərini bərpa etməyə başladılar. Versal müqaviləsinə görə Eypen və Malmedi dairələri Belçikaya birləşdirildi, Ekvator Afrikasındakı Ruanda-Urundi ərazisi üzərində ona tam mandat verildi. Belçika təzminat hüququ aldı, fransız və ingilis qoşunları ilə birlikdə Belçika qoşunları Reyn zonasının işğalında iştirak etdilər. 1920-ci ildən Almaniya əleyhinə yönəldilmiş birgə hərəkat haqqında Fransa, 1921-ci ildə ilə kömrük ittifaqı və vahid valyuta haqqında Lüksemburq, 1922-ci ildə isə təminatlar haqqında İngiltərə ilə saziş bağladı.

Müharibədən sonra Belçika inhisarları sənayeni nəinki bərpa etdilər, hətta onu yenidən qurdular. İşsizlik xeyli azaldı, fəhlə sinfinin vəziyyəti yaxşılaşdı. Kütlələrin tələbi ilə 1919-1921-ci illərdə seçicilərin sayı xeyli artırıldı, mənzil tikintisi proqramı qəbul edildi, müharibə əlillərinə və qocalara pensiya təyin edildi. Burjua partiyaları olan liberal və katolik partiyaları siyasi həyatda həlledici rol oynamalarına baxmayaraq 1919-cu il parlament seçkilərində xeyli mandat itirdilər. Fəhlə partiyasının əldə etdiyi mandatların sayı çoxaldı.

1920-ci ilin payızında Belçikada böhran başladı, istehsalın səviyyəsi aşağı düşdü. 1921-1923-cü illərdə baş vermiş tətillər hökuməti məcbur etdi ki, 1921-ci ildə tətillər və həmkarlar ittifaqları əleyhinə müstəsna qanunları ləğv etsin, 8 saatlıq iş günü təyin etsin. 1921-ci ilin sentyabrında Belçika Kommunist Partiyası yaradıldı. Kütlələr içərisində nüfuzlarını itirməkdən

qorxan sağ sosialistlər 1921-ci ilin oktyabrında hökumətin tərkibindən çıxdılar. Fəhlə partiyası başçılarının, xüsusilə E.Vanderveldenin opportunist siyasəti partiyanın bir qədər nüfuzdan düşməsinə səbəb oldu.

1921-1922-ci illərdə ölkənin başlıca burjua partiyası katolik ittifaq partiyası idi. Bu da katolik dininin bu ölkədə güclü nüfuza malik olmasından irəli gəlirdi.

Müharibədən sonrakı ilk illərdə Belçika inhisarları Yuqoslaviya, Rumıniya, Polşa, habelə Asiya və Afrikanın bir sıra ölkələrinin iqtisadiyyatında ciddi mövqelər tutmuşdu.

### *Belçika 1924-1929-cu illərdə*

Pur kömür hövzəsinə müdaxilənin uğursuzluğu ölkənin iqtisadiyyatına ağır zərbə vurdu.1924-cü ildə dövlət borcu 41.6 milyard franka qədər artdı. Qiymətlər və vergilər yüksəlmiş, müəssisələrin çoxunda iş günü uzadılmış, yenidən işsizlik artmışdı. Ona görə də 1925-ci ilin aprelində keçirilmiş parlament seçkilərində seçicilərin bir hissəsi burjua partiyalarından uzaqlaşıb fəhlə partiyasına öz səsini verdi. Kommunistlər də 2 mandat aldılar.

Seçkilərdən sonra katoliklərin və sosialistlərin nümayəndələrindən ibarət Pule-Vandervelde hökuməti yaradıldı. Hökumət əsas vəzifəsi hesab etdiyi frankın sabitləşməsini təmin etmək üçün zəhmətkeşlər üzərinə yeni ağır vergilər qoydu.

Burjuaziya partiyalarının müxtəlif fraksiyaları arasında sabitləşmənin üsulları haqqında məsələ ətrafında ziddiyyətlər hökumətin istefasına və 1926-cı ilin mayında Jasparın başçılığı altında yeni koalisiya hökumətinin hakimiyyətə gəlməsinə səbəb oldu. Hökumət vergiləri artırmaq, amerikan və ingilis banklarından borc almaq hesabına frankı sabitləşdirə və büdcə kəsirini nizama sala bildi. Sənaye istehsalı 1927-ci ildə 1918-1939-cu illər dövrünün ən yüksək səviyyəsinə çatdı. Məhsulunun 75%-i ixraca göndərildiyinə görə ən çox müvəffəqiyyət metallurgiya sənayesində qazanılmışdı. Brüssel və



Anterverpen birjalarının rolu artmış, Belçika kapitalının ixracı çoxalmışdı.

### *Belçika dünya iqtisadi böhranı illəri və İkinci dünya müharibəsi ərəfəsində*

1929-cu ilin sonunda baş verən dünya iqtisadi böhranı Belçikaya 1930-cu ildə öz təsirini göstərdi. İstehsal 1932-ci ildə 1929-cu il səviyyəsinin yalnız 37%-ni təşkil edirdi. 1932-ci ilin sonunda ölkədə 400 min tam və qismən işsiz var idi. Böhran illərində tətil hərəkatı gücləndi.

Hakimiyyət başında duran Katolik ittifaqı ilə liberallar partiyası blokundan ibarət hökumətlər fövqəladə mürtəce dekretlər vermək, vergiləri artırmaq, sosial xərcləri azaltmaq yolu ilə böhrandan çıxmağa çalışırdılar.

Faşist qrupları Belçikada iki əsas etnik qrupun (vallan və flamand) mövcud olmasından öz talançı təşviqatları üçün istifadə etməyə cəhd göstərirdilər. Lakin fəhlələr onları dəf edirdilər. Bununla belə fəhlə partiyasının sağ başçıları hökumətin bütün tədbirlərini müdafiə edirdilər. 1934-cü ildə onlar kral Albertin dəfni və Leopoldun taxta çıxması mərasimi zamanı monarxist kampaniyada iştirak etdilər. Fəhlə partiyasının təşkilatlarında sağ rəhbərliyin siyasətindən narazılıq artırdı. Belə şəraitdə hakim dairələr 1935-ci ildə Fəhlə partiyasından Vandervalde, de-Man, Spaakın daxil olduqları Ban-Zeyelandın başçılığı altında «milli ittifaq» hökuməti yaratmağı qət etdilər. Beynəlxalq aləmdə SSRİ-nin rolunun artması yeni hökuməti 1935-ci ilin iyulunda SSRİ ilə diplomatik əlaqələr yaratmağa məcbur etdi. Hökumətin yeni maliyyə tədbirləri və davam edən kapitalist səmərələşdirilməsi ölkədə işsizliyin daha da artmasına səbəb oldu.

1936-cı il parlament seçkilərində Katolik ittifaqı və Liberallar partiyasının tərəfdarlarının bir hissəsi öz səslərini inhisarçı kapitalın ən mürtəce qrupları, həmçinin alman nasistləri ilə sıx əlaqədə olan faşistlərə verdilər.

Lakin 1936-cı ilin oktyabrında fəhlələr faşistlərin çevriliş cəhdinin qarşısını aldılar. 1939-cu ildə keçirilmiş seçkilərdə isə faşist qrupları məğlubiyyətə uğradılar. Yenə də hakim dairələr «azad əllər» siyasətinə keçdiklərini söyləyərək, hitlerçilərə güzəştə getməklə alman faşizminin təcavüzkarlıq siyasətinə kömək edirdilər.

İkinci dünya müharibəsi ərəfəsində ölkənin iqtisadi vəziyyəti yenə də gərgin olaraq qalırdı. 1938-ci ilin sonunda işsizlərin sayı 400 mindən çox idi.

Avropada silahlanma Belçikanın iqtisadiyyatına getdikcə daha çox təsir göstərirdi. Hərbi məqsədlər üçün lazım olan malların, xüsusilə kömürün istehsalı və ixracı artmışdı. Antverpen limanının yük dövriyyəsi xeyli çoxalmışdı. Konqoda hasil edilən strateji xammal ticarətin genişlənməsində mühüm rol oynadı. Belçikanın xaricə uzun müddətə qoyduğu kapitalın miqdarı 1953 milyon dollar idi. Bu dövrdə Belçikanın təkcə ölkə daxilində deyil, beynəlxalq miqyasda da tanınan «Sosyete-Jeneral», «Solvey», «Bank de Brüssel» və başqaları kimi nüfuzlu inhisarları var idi.

İkinci dünya müharibəsi zamanı Belçika da alman işğalına məruz qalan ölkələrdən biri oldu.



## NIDERLAND

### *Niderland Birinci dünya müharibəsindən sonrakı ilk illərdə (1918-1923-cü illər)*

Birinci dünya müharibəsi başlanarkən Niderland öz bitərəfliyini elan etsə də, müharibə edən tərəflərə xammal, ərzaq, sənaye malları, silah və digər material satmaq hesabına xeyli varlandı. İnhisarların sayı çoxaldı. İstər «Royyal-Datç Şell» ingilis-holland neft tresti kimi beynəlxalq xarakter daşıyan, istərsə də Filipsin elektrik konserni və digər ölkə daxilində fəaliyyət göstərən başqa inhisar birliklərinin rolu xeyli artdı.

Müharibə zəhmətkeşlərin vəziyyətinə çox pis təsir göstərdi. Yeyinti məhsullarının qiymətləri artdı. 1918-ci ildə ərzaq kartoçkaları tətbiq edildi. İşsizlərin sayı xeyli çoxaldı. Bütün bunlar hakim dairələri məcbur etdi ki, 1917-ci ildə kişilər üçün ümumi seçki hüququ haqqında qanun verilməsinə razı olsunlar.

Niderlandın siyasi həyatında XIX əsrin sonundan başlayaraq xalq içərisində kilsənin geniş yayılmış nüfuzundan hakim siniflərin mənafeləri üçün istifadə edən burjua-klerikal (istər kapitalist və istərsə katolik) partiyaları əsas rol oynayırdılar. Bu partiyalar parlamentdə tam əksəriyyətə malik idilər. Bütün bunlara baxmayaraq, 1918-ci ilin iyulunda aşağı palataya keçirilmiş seçkilərdə Sosial-demokrat fəhlə partiyası əvvəlki seçkilərdən fərqli olaraq daha çox mandat aldı. Ancaq yenə də katolik partiyası hökumətdə əsas yer tuturdu.

1918-ci ildə ölkədəki inqilabi hərəkatın təsiri altında katolik partiyasının rəhbərləri bir sıra ictimai islahatlar keçirmək üçün proqram tərtib etməyə məcbur oldular. Onlar 8 saatlıq iş gününü tətbiq etməyi, müştərək müqavilələrin açıq bağlanmasına icazə verməyi, pensiyaları artırmağı və s. vəd etdilər. 1919-cu ilin aprelində ölkədə inqilabi hərəkatın təsiri altında Niderland Kommunist Partiyası yaradıldı. 1918-ci ilin sonu – 1919-cu ilin əvvəllərində 8 saatlıq iş günü tətbiq edildi. 1919-cu ilin iyulunda verilmiş qanuna görə 45 saatlıq iş həftəsi təyin

edildi. Aşağı palataya seçilmək hüququ qadınlara da şamil edildi. Qocalar və əlillər üçün pensiyalar artırıldı, pensiya alan şəxslər üçün yaş həddi azaldıldı. «Gent ictimai sığorta sistemi» adlanan sistem (həmkarlar ittifaqları üzvlərinin işsizlikdən sığorta edilməsində dövlətin iştirakı və s.) tətbiq edildi.

1920-ci ilin sentyabrından başlayaraq Niderland iqtisadiyyatı böhran dövrünə qədəm qoydu. İstehsal azaldı, xarici ticarət xeyli ixtisar edildi. İşsizlərin sayı artdı. Tətillər başlandı. 1922-ci ilin iyulun 3-də iş həftəsinin uzadılması haqqında parlament tərəfindən qəbul edilmiş qanun qüvvəyə mindi. Beləliklə də fəhlələrin 1919-cu ildə qazandıqları nailiyyətlər əlindən alındı.

1922-ci ilin iyulunda mühafizəkar qüvvələrin güclənməsi şəraitində keçirilmiş parlament seçkilərində klerikal partiyalar xeyli çoxluq qazanaraq qələbə əldə etdilər. Yeni hökumət ictimai sığorta xərclərini, dövlət qulluqçularının əmək haqqını və s. olduqca azaltdı. 1922-1923-cü illərin tətilləri nəticəsində fəhlələr tələblərinin bir hissəsini hökumətə qəbul etdirə bildilər.

### *Niderland 1924-1929-cu illərdə*

Niderlandda kapitalizmin qismən sabitləşməsi dövrü burjuaziyanın zəhmətkeşlərin yaşayış səviyyəsinə və hüquqlarına hücum etməsi ilə səciyyələnirdi. İndoneziyanın müstəmləkə istismarının gücləndirilməsi də mühüm rol oynayırdı. Ölkədə 1929-cu ildə 1400 nəfər milyoner var idi. 1930-cu ildə 20 min hektar sahəsi olan polderlərin qurudulması başa çatdırıldı. Əvvəllərdə olduğu kimi, yenə də ölkədə və onun müstəmləkələrində ingilis kapitalı böyük rol oynayırdı. Alman kapitalının da Niderlanda nüfuzu güclənmişdi.



### *Niderland dünya iqtisadi böhranı illərində və İkinci dünya müharibəsi ərəfəsində*

Dünya iqtisadi böhranı 1930-cu ildə ölkənin bütün iqtisadiyyatını bürüdü və 1932-1933-cü illərdə daha kəskin şəkil aldı. Ölkə iqtisadiyyatının vasitəçilik xarakteri daşıyan ticarət, nəqliyyat və müstəmləkə xammal emalı ilə əlaqədar olan əsas sahələri daha çox böhran keçirirdi. Ölkənin və onun müstəmləkələrinin xarici ticarəti yarıdan çox azalmışdı. 1933-cü ildə işsizlərin sayı yarım milyona çatırdı. İşsizlər hərəkatı genişlənirdi. Koleynin başçılıq etdiyi «milli birlik» hökuməti bu hərəkatı yatırmaq üçün polis, zirehli avtomobilləri və topları işə salmışdı.

Niderlandın iqtisadiyyatı 1933-cü ilin sonunda tədricən böhran vəziyyətindən çıxmağa başladı. 1938-ci ildə xaricdə və müstəmləkələrdə qoyulmuş Niderland kapitalının ümumi məbləği 4 milyard 818 milyon dollar idi. Xaricə kapital qoyuluşuna görə Niderland kapitalı ingilis və amerikan kapitalından sonra üçüncü yeri tuturdu. Buna baxmayaraq, ölkənin iqtisadi vəziyyəti heç də möhkəm deyildi. Əgər 1937-ci ilin iyulunda sənaye istehsalı 1929-cu il səviyyəsini ötüb keçmişdisə, həmin ilin sonunda yenə də aşağı düşdü. 1938-ci ildə işsizlərin sayı 439 minə çatırdı.

İşsizlərin narazılığından böhran illərində meydana çıxmış müxtəlif faşist təşkilatları istifadə etmək istədilər. Bu təşkilatlardan ən fəalı Hitler Almaniyası irlə sıx surətdə bağlı olan və Niderlandda pozuculuq fəaliyyəti gxöstərən Mussertin «Nasional-sosialist hərəkatı» idi. O, ölkədə faşizm qurmaq və Niderlandı Almaniyaya qatmaq məqsədini güdürdü. 1935-ci il parlament seçkilərində faşistlər 8% səs aldılar. Fəhlələrin çoxu yenə də sosial-demokratların ardınca gedirdi. 1937-ci il seçkilərində bütün seçicilərin 22%-i səslərini sosial-demokratlara vermişdi.

İkinci dünya müharibəsi ərəfəsində hakim dairələr faşist təşkilatları ilə mübarizə aparmırdılar. Xarici siyasətdə onlar bitərəflik elan edərək ölkəni müdafiəyə hazırlamır, Hitler Almaniyası və militarist Yaponiyasının təcavüzkarlığını sakitliklə qəbul edirdilər.

Bu siyasət isə Niderlandın da Almaniya tərəfindən İkinci dünya müharibəsində işğalına gətirib çıxartdı.



# XI. CƏNUBİ AVROPA DÖVLƏTLƏRİ

## YUNANISTAN

### *Yunanıstan Birinci dünya müharibəsindən sonrakı ilk illərdə*

Yunanıstan Birinci dünya müharibəsinə qədər geridə qalmış aqrar ölkə idi. Fəaliyyət göstərə bilən əhalinin əsas kütləsi (təqribən 70%) kənd təsərrüfatı ilə məşğul idi. Yunanıstanın iqtisadi cəhətdən geriliyinin səbəbi ölkədə müasir fabrik-sənayesinin yoxluğunda idi Yunanıstanın xalq təsərrüfatının xarakterik xüsusiyyəti onun xarici kapitaldan asılı olması idi. İngiltərə, Fransa, sonra isə ABŞ kapitalı ölkədə ağalıq edirdi.

Ölkənin ən böyük siyasi partiyaları – liberal, xalq və respublika ittifaqı partiyaları idi ki, onlar da çox vaxt böyük dövlətlərin yedəyində gedirdilər.

1917-ci ilin yayında Yunanıstan Antanta tərəfində birinci dünya müharibəsinə qoşuldu. Yunanıstanın hakim dairələri böyük Ellin dövləti yaratmaq planını həyata keçirmək istəyirdilər, lakin buna nail olmadılar.

Yunanıstan da antisovet müdaxilədə iştirak etdi.

Venizelosun başçılıq etdiyi hökumət Paris sülh konfransında iştirak etdi və Yunanıstan bütün Frakiyanı, İzmiri götürdü. İzmirin işğalı 1919-cu ilin mayında yunan-türk müharibəsinin başlanmasına səbəb oldu. 1918-ci ildə Yunan Ümumi Əmək Konfederasiyası və Yunanıstan fəhlə sosialist partiyası təşkil olundu. 1920-ci ildə kral Aleksandr öldü. Parlament seçkilərində Venizelosun başçılıq etdiyi hökumət iflasa uğradı. Monarxiyaçı xalq partiyası qalib gəldi. Konstantin yunan taxtına qaytarıldı.

1923-cü il iyulun 24-də Türkiyə ilə Lozzannada sülh müqaviləsi imzalandı. Sevr müqaviləsinə əsasən Yunanıstana verilmiş Şərqi Frakiya və Türkiyənin Kiçik Asiyadakı əraziləri Türkiyəyə qaytarıldı.

### *Yunanıstanın respublika elan edilməsi*

1922-ci ildə Konstantin 2-ci dəfə taxtdan əl çəkməyə və ölkədən çıxıb getməyə məcbur oldu. Zabitlər hakimiyyətdən salınmış kralın əvəzinə onun böyük oğlu II Georqu taxta oturtdular. Respublika qurulması tərəfdarları 1923-cü ilin dekabrındakı parlament seçkilərində çoxluq qazana bilməsələr də, onlar ordu və donanmanın köməyinə arxalanaraq hakimiyyətə gəlmiş mötədil liberal çoxluğu II Georqu ölkədən qovmağa və 1924-cü il martın 25-də Yunanıstanı respublika elan etməyə məcbur edə bildilər. 1924-cü ilin aprelində keçirilən referendum da bunu bəyəndi.

Yunan-türk müharibəsi qurtardıqdan sonra Kiçik Asiyadan 1,2 milyondan çox qaçqın yunanlar ölkəyə axışıb gəlirdilər. Beş milyon əhalisi olan kasıb ölkə üçün bu çox çətin vəziyyət idi.

### *Yunanıstan kapitalizmin nisbi sabitləşməsi və dünya iqtisadi böhranı dövründə*

Kapitalizmin qismən sabitləşməsi dövründə Yunanıstanda sənaye istehsalı və sənaye müəssisələri tikintisi artdı. 500-ə qədər sənaye müəssisəsi və elektrik stansiyası tikildi.

Yunanıstanda 1924-1926-cı illərdə natamam da olsa, aqrar islahatı keçirildi.

Ölkədə respublika qurulduqdan sonra daxili və beynəlxalq vəziyyətin pisləşməsindən polkovnik Panqalos istifadə etdi. O, Afina qarizonuna arxalanaraq 1925-ci ilin iyununda dövlət çevrilişi etdi və hakimiyyəti öz əlinə aldı. Parlament və nazirlikləri ləğv etdi. Onun Fransa ilə yaxınlığı İngiltərə və İtaliyanın xoşuna gəlmədi. 1926-cı ilin avqustunda Panqalos devrildi. Ölkədə burjua partiyalarının nümayəndələrindən ibarət



koalisiyalı hökumət hakimiyyət başına gəldi. Parlament çağrıldı.

1927-ci ili iyununda qəbul edilmiş konstitusiyaya görə qanunverici hökumət iki palatadan ibarət Parlamentə məxsus idi. 1926-1928-ci ildə Yunanıstanın maliyyə vəziyyəti xarici borclar hesabına yaxşılaşdı. Yunanıstanın İtaliya ilə münasibətləri yaxşılaşdı. Böyük Britaniyanın hərbi-dəniz nümayəndələri Afinaya qayıtdı. 1929-cu ilin iyununda SSRİ ilə ticarət və dənizçilik haqqında müqavilə bağlandı.

1929-cu ilin avqustunda Milli Məclisə keçirilən seçkilərdə sağ burjua partiyaları əksəriyyət qazandılar. Venizelosun başçılığı ilə hökumət təşkil olundu.

1929-cu ildə başlanan iqtisadi böhran Yunanıstanın iqtisadiyyatına ağır təsir göstərdi. 1931-1932-ci illərdə 1929-cu illə müqayisədə metallurgiyada 30%, ağac emalı sənayesində 20%, kimya sənayesində 15%, spirtli içkilər sənayesində 35% istehsal azaldı. Tütün istehsalı 68 min tondan 24 min tona endi. Böhran kənd təsərrüfatına daha ağır təsir etdi. Ölkədə aclıq başlandı. İş günü 10 saatdan 14 saata qaldırıldı. İşsizlərin sayı 200 mini ötüb keçdi.

1932-ci ildə keirilmiş seçkilərdə Saldarisin başçılıq etdiyi xalq (monarxist) partiyası qalib gəldi. Yeni hökumətə Saldaris başçılıq etdi.

Yunanıstan ancaq 1934-cü ildə iqtisadi böhrandan çıxmağa başladı.

### *Yunanıstan İkinci dünya müharibəsi ərəfəsində*

Almaniyada faşizmin hakimiyyət başına gəlməsi Yunanıstanda faşizmin dirçəlməsinə səbəb oldu. 1935-ci il martın 1-də xalq partiyasının başçısı Kondilis hərbi-monarxist çevriliş etdi. Monarxistlərin 1935-ci ilin noyabrın 25-də fırıldaqla

keçirdikləri xalq rəy sorğusundan sonra kral II Georq İngiltərədən Yunanıstana qayıtdı.

Ölkədəki inqilabi hərəkatın qarşısını almaq üçün 1936-cı il avqustun 4-də monarxist Metaksas hərbi dairələr tərəfindən çoxdan bəri hazırlanmış çevrilişi etdi və yalnız orduya və jandarmaya arxalanaraq faşist diktaturası qurdu. O, mühasirə vəziyyəti tətbiq etdi, parlamenti buraxdı, kütləvi həbslər keçirməyə başladı. Yunanıstan faşist Almaniyası ilə yaxınlaşmağa başladı. Lakin buna baxmayaraq İkinci dünya müharibəsi ərəfəsində Yunanıstanda yenə də İngiltərənin nüfuzu üstünlük təşkil edirdi.



# PORTUQALİYA

## *Birinci dünya müharibəsindən sonra ölkədə iqtisadi və siyasi vəziyyət*

1910-cu il burjua inqilabından sonra Portuqaliya burjua parlament respublikası oldu. O, geridə qalmış kapitalist ölkəsi idi. İngiltərədən xeyli dərəcədə asılılıq var idi. Ölkə bununla belə Anqola, Mozambik və s. kimi iri müstəmləkələrə malik imperiya idi. Onun müstəmləkələrinin ərazisi öz ərazisindən təxminən 23 dəfə böyük idi. Ölkədə feodal qalıqları yaşamaqda idi. Əhalinin 60%-i kənddə yaşayırdı. Cənubda iri latufindiyalar, şimalda isə xırda torpaq sahibliyi üstün idi. Kənd təsərrüfatında icarədarlıq geniş yayılmışdı. Sənaye yarımkustar səciyyə daşıyırdı. Dəmiryolu və kommunal nəqliyyatı əsasən ingilislərin əlində idi. Fəhlə sinfinin sıralarında 250 min adam var idi.

Ölkədə siyasi hakimiyyət mülkədarların və burjuaziyanın mənafeyini müdafiə edən Respublikaçılar partiyasının əlində idi. Fəhlə hərəkatında reformist və anarxist əhval-ruhiyyə güclü idi. 1875-ci ildən ölkədə zəif nüfuza malik olan Sosialist partiyası da fəaliyyət göstərirdi. 1910-cu ildə yaradılmış Milli fəhlə ittifaqı 1919-cu ildə Ümumi Əmək Konfederasiyası kimi təşkil edildi.

1916-cı ildə İngiltərənin təzyiqi ilə Portuqaliya Antantanın tərəfində birinci dünya müharibəsinə daxil oldu. Versal sülhünə əsasən Portuqaliyaya keçmiş alman müstəmləkələrindən ancaq Şərqi Afrikadakı üçbucaq Kionqosu verildi.

1917-ci ilin dekabrın 11-də keçirilən prezident seçkilərində Sidoniy Paiş qalib gəldi. Rejimdən narazılıq 1918-ci ilin sonunda hökumətlə fəhlə təşkilatları arasında baş verən güclü toqquşmada özünü göstərdi. Ölkədə baş verən tətillər Paişin diktaturasının 1918-ci ilin dekabrın 14-də süqutuna səbəb oldu.

1919-1921-ci illərdə Portuqaliyanı ümumi tətillər bürüdü. Bu monarxistlərin qiyam yolu ilə 1919-cu ilin qışında hakimiyyətə gəlmək cəhdlərinin qarşısını aldı.

1921-ci ilin martında Portuqaliya kommunist partiyası təşkil edildi. 1923-cü ildə iqtisadi böhranla əlaqədar ölkədə yenidən ümumxalq hərəkatı gücləndi.

### *1926-cı il hərbi çevrilişi və faşist diktaturasının qurulması*

1924-1925-ci illərdə Portuqaliyada iqtisadi, xüsusilə maliyyə böhranı kəskin şəkil aldı, bu həmçinin siyasi sabitliyi də pozdu. 1910-cu ildən 1925-ci ilədək ölkədə 40 hökumət dəyişikliyi, 18 qiyam olmuşdu. Kapitalizmin nisbi sabitləşməsi illərində də qeyri-sabit şərait qalmaqda idi. Bundan istifadə edən hərbi dairələr 1926-cı ilin may ayının 28-də dövlət çevrilişi edərək öz diktaturalarını qurdular. Respublika partiyası, o cümlədən sosialistlər əvvəl dəyişikliyin mahiyyətini başa düşməyərək yeni rejimi alqışladılar. Ümumi əmək konfederasiyası bitərəf qaldı. Kommunist partiyası çevrilişin əleyhinə olduğunu bildirdi. Tez bir zamanda hakimiyyət general Koştun əlində mərkəzləşdi. 1928-ci ilin martın 25-də ölkənin prezidenti İngiltərənin himayəsi ilə general Karmon oldu. Ölkənin faşistləşməsi başladı. 1911-ci il konstitusiyası təxirə salındı. Onunla birlikdə burjua-demokratik azadlıqlar da ləğv edildi. 1928-ci ilin aprelin 28-də maliyyə naziri O.Salazar oldu. O, iqtisadiyyat sahəsində fövqəladə səlahiyyətlər aldı.

Portuqaliyanın demokratik dairələri ardıcıl olaraq faşistləşmə və diktaturaya qarşı mübarizə aparırdılar. 1927-ci ilin fevralında respublika əhval-ruhiyyəli zabitlər, həmçinin fəhlələrin bir hissəsi Lissabon və Portuda üsyan qaldırdılar. 1928-ci ildə baş verən üsyanlar diktator tərəfindən yatırıldı.



### *Portuqaliya dünya iqtisadi böhranı və İkinci cahan müharibəsi ərəfəsində*

Ölkədə diktatura rejiminin möhkəmlənməsi Portuqaliyada İngiltərənin nüfuzunun daha da artmasına, zəhmətkeşlərin istismarına, feodalizm qalıqlarının qalmasına və kilsənin rolunun yüksəlməsinə şərait yaratdı.

1929-1933-cü illərin dünya iqtisadi böhranı ənənəvi Portuqaliya mallarının (balıq konservləri, şərab və s.) ixtisarına və həyat səviyyəsinin aşağı düşməsinə səbəb oldu. 1935-ci ildə fəhlələrin 35%-i (150 min adam) işsiz idi. Sənaye fəhlələrinin əmək haqqının səviyyəsi 40-45% düşdü. 1926-cı illə müqayisədə isə kənd təsərrüfatı fəhlələrinin əmək haqqı 75% aşağı idi.

Böhrandan çıxmaq üçün hakimiyyət iri sahibkarlara və torpaq sahiblərinə güzəştə getməklə zəhmətkeşlərdən alınan vergiləri artırdı. Bu dövrdə istehsal inhisarçıların kiçik dairəsinin əlində cəmləşdi. Həmçinin faşist rejiminin köməyi nəticəsində ölkə iqtisadiyyatında iri inhisar birliklərinin, məsələn, Fabrik ittifaqı kampaniyasının, SAKOR-un ağalıq mövqeyi gücləndi. Onlar ölkənin kimya və neft sənayesində ağalıq edirdilər.

İqtisadi böhran illərində ölkənin faşistləşməsi prosesi gücləndi. Müxalifətçi partiyalar qanundan kənar elan edildi. 1930-cu ildə Salazar "Milli ittifaq" adlı faşist partiyası təşkil etdi. O, ölkədə yeganə leqal partiya idi. 1932-ci ilin iyulun 5-də o, baş nazir təyin edildi və uzun illər faşist diktatoru kimi qaldı. Faşist rejimi 1933-cü il konstitusiyası ilə möhkəmləndirildi. Bu konstitusiyaya əsasən Portuqaliya "unitar korporativ respublika" adlandırıldı. Baş nazirə qeyri-məhdud səlahiyyətlər verildi. Yaşlı əhalinin ¾-ü seçki hüququndan məhrum edildi. Azad həmkarlar ittifaqlarının yerinə Salazar 1933-cü ilin

sentyabrın 23-də faşist "Milli həmkarlar ittifaqları"nı təşkil etdi. Fəhlələr tətil hüququndan məhrum edildi. Salazarın partiyasından başqa bütün digər partiyalar gizli iş şəraitinə keçdilər. Kilsə faşist diktaturasının ən mühüm dayağı oldu. Ölkədə xüsusi təqib aparatı təşkil edildi. "PİDE" adlanan gizli siyasi polis yaradıldı. Hərbi düşərgələr təşkil edildi ki, onlardan biri Yaşıl Burun adasında yerləşən "Trafal" idi. Faşist rejimi ordu, donanma və polisə çəkilən xərcləri xeyli artırdı. Bu xərclər büdcənin 1/3-ni təşkil edirdi. 1934-cü ildə Portuqaliya hökuməti özünün yeni hərbi proqramını qəbul etdi ki, bu proqrama əsasən İngiltərəyə 20 hərbi gəmi inşa etmək sifarişi verildi.
1935-ci ildə isə daha 14 hərbi gəmi inşa etmək üçün hökumət 65 milyon funt-sterlinq həcmində pul ayırdı. Bundan başqa ölkədə strateji əhəmiyyətə malik olan yollar çəkildi, hərbi aviasiya möhkəmləndirildi. Portuqaliya silahın xeyli hissəsini Almaniya və İtaliyadan alırdı.

Bu dövrdə müstəmləkə xalqlarının istismarı gücləndi. 1930-cu il iyulun 8-də qəbul edilmiş "müstəmləkələr üzrə akt"a əsasən Portuqaliya müstəmləkələrinin əhalisi bütün iqtisadi, siyasi və mədəni hüquqlardan məhrum edilirdi. Müstəmləkələrdə məcburi əmək sistemi geniş tətbiq edildi, işçi qüvvəsinin satışı həyata keçirildi.

Antifaşist hərəkatını ləğv etmək Salazar diktaturasına tam nəsib olmadı. Bu özünü aydın formada İspaniyada vətəndaş müharibəsi dövründə xüsusilə göstərdi. Portuqaliya hökuməti dərhal Franko diktaturasını tanıdığını bildirdi və onun ordusunu silahla təchiz etməyə, oraya əsgər göndərməyə başladı. 1939-cu ilin mart ayının 17-də Salazar ilə Franko arasında "Dostluq və hücum etməmək haqqqında" pakt bağlandı. Bununla bərabər, həmin dövrdə Portuqaliya demokratları da İspaniya respublikaçılarına rəğbətlərini gizlətmirdilər. 1936-cı ilin sentyabrında Lissabon limanında üç gəmidə hərbi dənizçilər İspaniya respublikası ilə həmrəylik əlaməti altında silahlı üsyan



qaldırdılar. Portuqaliya antifaşistləri İspaniyaya gələrək beynəlmiləl briqadaların tərkibində vuruşurdular.

İkinci dünya müharibəsi ərəfəsində İngiltərə Portuqaliya iqtisadiyyatında ağalıq mövqeyini saxlayır, onun əsas kreditoru olaraq qalırdı. 1935-ci ildə Portuqaliyanın 30,9 milyon funt-sterlinq xarici borcundan 22 milyon funt-sterlinqi İngiltərəyə məxsus idi. 1937-ci ildə Portuqaliya müstəmləkələrinə İngiltərənin kapital qoyuluşu 25 milyon funt-sterlinq idi. Portuqaliya ordusu və donanmasını silahla, demək olar ki, İngiltərə təchiz edirdi. Eyni zamanda, İkinci dünya müharibəsi ərəfəsində Salazar hökuməti faşist İtaliyası və Hitler Almaniyası ilə də sıx iqtisadi və siyasi əməkdaşlıq yaratmışdı. Almaniya müharibə ərəfəsində Portuqaliyaya idxal etdiyi məhsul və kapitala görə, demək olar ki, İngiltərəyə çatmışdı.

# İSVEÇRƏ
## *İsveçrə Birinci dünya müharibəsindən sonrakı ilk dövrdə*

1815-ci ildən bitərəf ölkə olan İsveçrə birinci dünya müharibəsi dövründə öz bitərəfliyini saxlamaqla müharibə aparan bütün ölkələrlə ticarət edərək öz burjuaziyasına çoxlu gəlir gətirdi. Ölkədə maşınqayırma, hərbi sənaye, elektroenergetika sənayesi xeyli inkişaf etdi. Ölkənin qızıl ehtiyatı artdı. Bununla bərabər ərzaq mallarının qiymətlərinin bahalanması xalq kütlələrinin maddi vəziyyətini ağırlaşdırdı. Müharibə illərində ordunun səfərbərliyə alınması ilə əlaqədar İsveçrə bu işə 1,2 milyard frank sərf etməli oldu. 1913-cü ildəki 140 milyon franka qarşı 1918-ci ildə İsveçrənin dövlət borcu 1 milyard franka çatdı. Həmçinin bu dövrdə İsveçrə xəzinəsi xarici turizmdən gələn gəlirlərdən də məhrum oldu.

1917-1918-ci illərdə Rusiyada baş verən Fevral burjua-demokratik inqilabı və Oktyabr çevrilişinin nəticəsində İsveçrədə də fəhlə hərəkatı gücləndi. Bu dövrdə fəhlə hərəkatında İsveçrə sosial-demokrat partiyasının nüfuzu güclü idi. Fəhlə hərəkatının təsiri altında hökumət güzəştə getməyə məcbur olaraq 1918-ci ildə proporsional seçki sistemi tətbiq etdi, 48 saatlıq iş həftəsi müəyyən edildi.

1919-cu ildə çağrılmış Parist sülh konfransı İsveçrənin "daimi bitərəflik" doktrinasını bir daha təsdiqlədi.

1921-ci ilin martında sosial-demokrat partiyasının sol qanadından İsveçrə Kommunist partiyası təşkil edildi və o, Kominternə daxil oldu.

Birinci dünya müharibəsindən sonra İsveçrə beynəlxalq münasibətlərdə mühüm rol oynamağa başladı. Onun ərazisində beynəlxalq təşkilatlardan Beynəlxalq Qırmızı Xaç Komitəsi, Ümumdünya poçt ittifaqı, Millətlər Cəmiyyəti fəaliyyət göstərirdi.



Sovet dövlətinə qarşı İsveçrə düşmənçilik mövqeyində dururdu. 1923-cü ilin iyunun 20-də İsveçrə hökuməti onun ərazisində keçirilən beynəlxalq konfranslarda sovet nümayəndə heyətinin iştirakını qadağan etdi.

1920-1921-ci illərin iqtisadi böhranı xalq kütlələrinin maddi vəziyyətinə ağır təsir etdi. 1922-ci ildə ölkədə 130 min işsiz var idi. Qiymətlər müharibədən əvvəlki dövrlə müqayisədə 4 dəfə artdı.

## *İsveçrə 1924-1939-cu illərdə*

Kapitalizmin sabitləşməsi illərində İsveçrənin iqtisadi vəziyyəti bir qədər yaxşılaşdı. Həyat səviyyəsi bir qədər yüksəldi. Bir sıra, xüsusilə, ixracla əlaqədar olan sahələrdə fəhlələrin əmək haqqı artdı. 1925-ci ildə ölkədə qocaların, yetimlərin və şikəstlərin sığorta edilməsi, 1927-ci ildə dövlət qulluqçularının əmək haqlarının ödənilməsi vəziyyəti haqqında qanun qəbul edildi. 1929-cu ilin martından ölkənin çörəklə təmin edilməsi üzərində dövlət inhisarı həyata keçirilməyə başlandı.

Bu dövrdə Vahid İsveçrə həmkarlar ittifaqı və sosial-demokrat partiyası əməklə kapitalın əməkdaşlığı uğrunda mübarizəni genişləndirdilər. 1926-cı ildə onlar parlamentə belə bir təklif verdilər ki, bütün sosial münaqişələrin arbitraj məhkəməsi vasitəsi ilə həll edilməsinə icazə versinlər ki, "sinfi sülh" yaradılsın.

İsveçrədə 20-ci illərin ortalarından başlanan iqtisadi yüksəlişi 1929-1933-cü illərin iqtisadi böhranı dayandırdı. Böhran illərində 2500 müəssisə və bank iflasa uğradı. Bir sıra bankların səhmlərinin qiyməti 40% aşağı düşdü. Hökumət böhrandan çıxmaq üçün lazım olan bir sıra, məsələn, əmək haqlarını dondurmaq, frankı devolvasiya etmək və s. tədbirləri görmədi. Böhranın bütün ağırlığı xalq kütlələrinin üzərinə düşdü. Bazel, Sürix, Cenevrədə fəhlə tətilləri artdı.

Sosial ziddiyyətlərin kəskinləşməsindən faşist ünsürlər istifadə edərək Hitler və Mussolininin ideyalarını təbliğ etməyə başladılar. İsveçrədə "Milli cəbhə" adlanan faşist təşkilatı öz fəaliyyətini genişləndirdi. Həmçinin Milli İttifaq, İsveçrə faşist partiyası da təbliğat işini gücləndirdi. Faşist təşkilatlarının fəaliyyətinə mane olmamaq üçün hökumət antifaşist çıxışları qadağan etdi. 1932-ci ilin noyabrın 9-da hökumət Cenevrədə antifaşist nümayişi güllələbaran etdi.

30-cu illərin ikinci yarısında antifaşist hərəkat gücləndi. 1940-cı ilin noyabrın 27-də İsveçrədə Kommunist partiyasının fəaliyyəti qadağan edildi.

İkinci dünya müharibəsi ərəfəsində İsveçrədə iqtisadi inkişaf yenidən yüksəldi. Ölkənin xüsusilə hərbi istehsalla bağlı olan müəssisələri bütün gücü ilə faşist dövlətlərinin sifarişini yerinə yetirmək üçün işləyirdi.

İsveçrə daha çox Almaniyanın təsir dairəsində idi. O, 1934-cü ildə SSRİ-nin Millətlər Cəmiyyətinə daxil olmasının əleyhinə səs verdi. Həmçinin İsveçrə faşist təcavüzünün Avropa, Asiya və Afrikada genişlənməsini sakitliklə qarşılayaraq təcavüzkara qarşı iqtisadi sanksiyaların tətbiq edilməsində iştirak etmədi.



# XII. KANADA

## *Birinci dünya müharibəsinin Kanada üçün nəticələri*

1914-cü ilin avqustun 4-də Böyük Britaniyanın dominionu olduğu üçün Kanada da Birinci dünya müharibəsinə qoşuldu. Onun 400 mindən çox əsgəri Avropada hərbi əməliyyatlarda iştirak etdi. Bununla belə, müharibə dövründə Kanadanın ərazisi hərbi əməliyyatlar meydanına çevrilmədi. Ölkədə iqtisadiyyat xeyli inkişaf etdi. 1917-1920-ci illərdə Kanadada R.Z.Bordenin başçılıq etdiyi mühafizəkar və liberallar partiyasının üzvlərindən ibarət olan koalisiyalı hökumət hakimiyyətdə idi. 1918-ci ilin fevralında Kanadada ordudan tərxis edilmiş əsgərləri işlə təmin etmək üçün xüsusi departament təşkil edildi. İşsizlərə kömək, səhiyyə, texniki təhsilin inkişafı üçün bir sıra tədbirlər görüldü.

Müharibə dövlət-inhisarçı kapitalizmin inkişafını sürətləndirdi. Bunun təzahürlərindən biri 1918-1923-cü illərdə dəmir yollarının milliləşdirilməsi idi. Müharibədən sonra Kanadaya ABŞ kapitalının müdaxiləsi gücləndi.

Fəhlə hərəkatının güclənməsindən ehtiyat edən Borden hökuməti əməklə kapitalın sinfi əməkdaşlığı siyasətini yeridirdi. "Sosial sülh" yaratmaq məqsədi ilə 1918-ci ildə həmkarlar ittifaqları ilə hökumət arasında bir sıra müşavirələr keçirildi.

Fermerlərin mübarizəsi 1919-cu ildə xırda burjuaziyanın mənafeyinin təmsilçisi olan Milli mütərəqqi partiyanın yaranması ilə nətiəcələndi.

1920-ci ildə Kanadanı iqtisadi böhran bürüdü. Sənaye məhsulları istehsalı 11%, ixrac 13% azaldı. Aqrar böhran 1921-ci ildə xüsusilə dərinləşdi. Avropaya buğda göndərilməsi, demək olar ki, dayandırıldı. Zəhmətkeşlərin vəziyyəti pisləşdi.

1921-ci ilin parlament seçkilərindən sonra hakimiyyəti 1926-cı ilə qədər M.Kinqin başçılıq etdiyi liberallar hökuməti idarə etdi. Bu hökumət ölkənin qərbindəki fermerlərlə şərqindəki sənayeçilər arasında manevr etmək siyasəti yeridirdi. O, fermerlərin mənafeyini nəzərə alaraq kömrük tariflərini aşağı salsa da, sənayeçilərin xeyrinə olaraq dəmiryolu tariflərini qaldırdı. Tədricən Mütərəqqi partiya öz nüfuzunu itirdi və 1926-cı il seçkilərində məğlubiyyətə uğradı. Bu dövrdə Kanadada Böyük Britaniyadakı Leyborist partiyası tipində yaranmış leyborist partiyanın fəaliyyəti artdı. Həmçinin 1921-ci ilin iyununda Kanadada gizli şəraitdə Kanada Kommunist partiyası yaradıldı.

Müharibədən sonra Kanadanın beynəlxalq aləmdə nüfuzu artdı. Belə ki, o Paris sülh konfransında bütün müqavilələrə müstəqil imza atdı. Vaşinqton konfransında iştirak etdi. 1922-ci ildə Sovet Rusiyasını de-fakto tanıdı.

### *Kanada kapitalizmin nisbi sabitləşməsi illərində*

1923-cü ildə Kanada iqtisadi böhrandan çıxa bildi və 1929-cu ilədək ölkədə topdan satış milli məhsul 35% artdı. Bu dövrdə Kanada aqrar sənaye ölkəyə çevrildi. Dağ-mədən, selluloz-kağız, əlvan metallurgiya, elektroenergetika daha sürətlə inkişaf etdi, taxıl istehsalı artdı. Bununla bərabər, Kanada yenə də ABŞ və Böyük Britaniya bazarından asılı vəziyyətdə idi. Ölkənin ixracının 2/3-si, idxalının isə 4/5-ü bu ölkələrlə bağlı idi. 50 iri bank və kampaniya, demək olar ki, ölkəyə sahiblik edirdi.

Bu dövrdə mərkəzləşmə və təmərküzləşmə artıq kənd təsərrüfatını da əhatə etdi. Kanada kapitalının Latın Amerikası ölkələrinə müdaxiləsi artdı. Lakin yenə də Kanada kapitalizmi asılı vəziyyətdə idi. Belə ki, onun emal və istehsal sənayesinin 40%-i xaricilərin, xüsusilə, ABŞ inhisarçılarının əlində idi.

M.Kinqin başçılıq etdiyi liberallar hökumətinin əsas diqqəti tarif siyasəti məsələsinə yönəldilmişdi. 1926-ci il parlament seçkilərində liberallar yenidən uğur qazandılar və Kinq hökumətə yenidən 1930-cu ilədək başçılıq etdi. Fəhlə hərəkatının artması nəticəsində 1927-ci ildə yeni həmkarlar təşkilatı olan Ümumkanada həmkarlar ittifaqı konqresi təşkil edildi. Həmçinin 1925-ci ildə Fermerləri maarifləndirmə liqası yarandı.



Kapitalizmin nisbi sabitləşməsi dövründə Kanadanın müstəqilləşməsi prosesi gücləndi. İngilis imperializmi öz mövqeyini burada xeyli itirdi. 1923-cü ildə Kanada Londonun icazəsi ilə müstəqil xarici siyasət yeritmək hüququ aldı. 1926-cı ildə isə Kanada digər dominionlarla birlikdə bütün sahələrdə İngiltərə ilə bərabər hüquqa malik oldu. 1927-ci ildə ABŞ və Kanada səfirlər mübadiləsi etdi. Fransada Kanada nümayəndəliyi açıldı. Kanadanın Millətlər Cəmiyyəti və digər beynəlxalq təşkilatlarda fəaliyyəti gücləndi.

1927-ci ildə o, Böyük Britaniyanın təsiri altında SSRİ ilə münasibətləri kəsdi.

### *Kanada 30-cu illərdə.*

1929-1933-cü illərdə ABŞ-ın ardınca Kanadanı güclü iqtisadi böhran bürüdü. Sənaye istehsalı iki dəfə aşağı düşdü. Artıq 1933-cü ilin əvvəllərində ölkədə 1,3 milyon nəfər işsiz var idi ki, bu da ölkə əhalisinin 12%-ni təşkil edirdi. Kənd təsərrüfatı məhsullarının qiyməti düşdü. Xüsusilə buğdanın qiyməti 88% endi. 240 min fermer təsərrüfatı tənəzzülə uğradı. İnfilyasiya artdı. Orta hesabla zəhmətkeşlərin gəliri 48% aşağı düşdü.

1930-cu ilin iyulun 30-da keçirilən parlament seçkilərində liberallar böhranı aradan qaldırmaqda heç bir fəallıq göstərmədikləri üçün məğlub oldular. Seçkilərdə qələbə qazanan mühafizəkarlar Bennetin başçılığı altında hökumət təşkil etdilər və bu hökumət 1935-ci ilə qədər hakimiyyətdə qaldı. Sənaye mallarının tarifi qaldırıldı. Bu hökumət işsizliyi aradan qaldırmaq üçün 1930-cu ildən 1942-ci ilə qədər 20 milyon

dollar vəsait ayırdı. Bu hökumətin dövründə zəhmətkeşlər işsizlərin sığorta edilməsi haqqında qanun qəbul edilməsinə nail oldular. ABŞ-ın nümunəsi əsasında Kanadada "əmək düşərgələri" təşkil edildi. Kommunist partiyasının fəaliyyəti qadağan edildi.

Fəhlə sinfinin həyati maraqlarının müdafiəsində 1929-cu ildə təşkil edilmiş Fəhlə birliyi liqası mühüm rol oynadı. Bu dövrdə fəhlələrin mübarizə formalarından biri "arzuedilməz mühacirlərin" ölkədən qovulmasına qarşı mübarizə idi. 1929-1934-cü illərdə Kanadadan müxtəlif bəhanələrlə 27 min adam qovulmuşdu.

Böhran dövründə Kanadada siyasi partiyaların yenidən qurulması baş verdi ki, bu da xırda burjuaziya təbəqələrinin tərəddüdü ilə əlaqədar idi. Kanadada həm faşist, həm də sosial-demokrat tipli təşkilatlar bu dövrdə yenidən formalaşmağa başladı. Albert əyalətində antiinhisar meylli "sosial kredit" hərəkatı gücləndi. Onlar 1935-ci ildə əyalət seçkilərində əksəriyyət qazandılar və əyalətdə hökümət təşkil etdilər.

1931-ci il Bestministr statusuna əsasən Kanada İngiltərə parlamentinin qəbul etdiyi qanunları dəyişmək və təxirə salmaq hüququ əldə etdi. Bu andan London Kanada üçün Kanadanın razılığı olmadan qanunlar vermək hüququnu itirdi. Bununla bərabər, bu status Kanada federal hökumətinin əyalətlərə münasibətdə qanunvericilik hüququnu xeyli məhdudlaşdırdı. Böyük Britaniya müəyyən səviyyədə Kanadanın xarici siyasətində öz nəzarətini saxlayırdı. Lakin hər halda bu status Kanadanın suverenliyinin gələcəkdə təsdiqi üçün imkan yaratmış oldu.

1935-ci il oktyabrın 14-dəki parlament seçkilərində mühafizəkarlar uğur qazanmadılar. Hakimiyyətə yenidən M.Kinqin başçılıq etdiyi liberallar hökuməti gəldi.Bu hökumət 1957-ci ilə qədər hakimiyyətdə qaldı. Bu hökumət tədricən "əmək düşərgələri"ni ləğv etdi. Bir sıra əyalətlərdə həmkarlar



ittifaqlarının tanınması, kollektiv müqavilələr, minimum əmək haqqı haqqında qanunlar qəbul edildi.

1937-1938-ci illərdə Kanada yenidən iqtisadi böhranla üzləşdi ki, bu da ölkədə sosial-siyasi şəraiti gərginləşdirdi.

30-cu illərin ikinci yarısında Kanada ilə ABŞ-ın əməkdaşlığı gücləndi. 1935-ci ildə bağlanmış ticarət sazişinə görə Kanada ABŞ mallarının idxalında kömrüyü azaltmağı öhdəsinə götürdü. Bu ölkələr arasında hərbi əməkdaşlıq başlandı. 30-cu illərin sonuna yaxın Kanadanın 1500 kampaniyası ABŞ inhisarçılarının əlində idi. 1939-cu ildə Kanadaya xarici ölkələrin kapital qoyuluşu 6913 milyon dollar təşkil edirdi ki, bunun 4151 milyon dolları ABŞ-a məxsus idi. 1939-cu ildə Kanadanın xarici ölkələrə, ilk növbədə ABŞ-a və Latın Amerikası ölkələrinə kapital qoyuluşu isə 1865 milyon dollar təşkil edirdi.

Kanada ABŞ, İngiltərə, Fransa meylli xarici siyasət yeridirdi. O, İspaniyada baş verən hadisələrə "qarışmamaq" siyasətini müdafiə etdi. İtaliyanın Efiopiyaya təcavüzü zamanı ona qarşı sanksiya tətbiq etmədi. 1937-ci ildə Kanada İspaniyaya silah və hərbi materiallar ixracı üzərində embarqo qoydu. Kanada Münxen sazişini bəyəndi. İkinci dünya müharibəsində Kanada antihitler koalizasiyasının tərəfində iştirak etdi. 1939-cu ilin sentyabrın 10-da Kanada Almaniyaya müharibə elan etdi. Ölkə iqtisadiyyatı hərbi relsə keçirildi. Hərbi əməliyyatlar ölkə ərazisində aparılmadığından yeni sənaye müəssisələrinin yaranması üçün əlverişli şərait yarandı. Kanadanın hərbi məhsulunun 53%-i antihitler koalisiyası üzvlərinə verlirdi. Kanadanın müharibə dövründə olan 70 min ordusundan 1939-40-cı illərin qışından İngiltərəyə hərbi yardım məqsədilə hərbi hissələr göndərildi. Lakin onlar 1943-cü ilin yayınadək böyük döyüşlərdə iştirak etmədilər. Kinq hökumətinin 1943-44-cü illərdə Avropaya göndərdiyi hərbi hissələr Aralıq dənizində aparılan hərbi əməliyyatlarda,ikinci

cəbhənin açılmasında yaxından iştirak etdi. ABŞ və İngiltərə ilə münasibətlər daha da yaxşılaşdı. Kanada Hayd-park bəyannaməsini imzalayaraq Lend-liz sisteminə qoşuldu.



## XIII. LATIN AMERİKASI ÖLKƏLƏRİ

XIX əsrin əvvəllərində Latın Amerikası ölkələri müstəqillik qazansalar da, asılı ölkələr kimi tanınındılar ki, bunun da əsas səbəbi dünya kapitalizm təsərrüfat sisteminin inkişafından onların geri qalması idi. XX əsrin əvvəllərində, xüsusilə, Birinci dünya müharibəsi dövründə Latın Amerikası ölkələri müharibə edən ölkələrə ərzaq məhsulları və strateji mallar satmaqla milli sənayenin bir sıra sahələrini inkişaf etdirdilər. Bu ölkələrdə dəmir və avtomobil yolları salındı. Lakin bu ölkələrdə kapitalizmin inkişafı yolunda ən böyük maneə iqtisadiyyatda və siyasətdə latifundiyaların ağalığı idi. Hakim dairələr milli xırda və orta burjuaziyanın mənafeyini nəzərə almırdılar. Latufindistlər xarici bazara ancaq qəhvə, şəkər, meyvə çıxara bilirdilər. Bir çox ərzaq və sənaye məhsulları bu ölkələrə xaricdən gətirilirdi.

Birinci dünya müharibəsindən sonra Latın Amerikası ölkələrinin xarici kapitaldan asılılığı gücləndi. Bu sahədə ABŞ və İngiltərə öndə gedirdi. Əgər 1913-cü ildə Böyük Britaniyanın kapital ixracı 4984 mln, ABŞ-ınki isə 1242 mln. dollar idisə, 1929-cu ildə bu ölkələrə Böyük Britaniya 5891 mln, ABŞ 5587 mln dollar kapital ixrac edirdi. Kapitalist dövlətlərinin iqtisadi müdaxiləsi hərbi-siyasi müdaxilə ilə çulğalaşırdı. ABŞ konqresinin 1901-ci ildə qəbul etdiyi «Platta düzəlişi» ABŞ-a hüquq verirdi ki, Kuba ərazisində hərbi-dəniz bazaları təşkil etsin və lazım gəldikdə onun ərazisini tutsun. Latın Amerikası ölkələrinə münasibətində ABŞ «dollar diplomatiyası» ilə «böyük dəyənək» siyasətini birləşdirirdi.

Mülkədar oliqarxiyası ağalığı və xarici kapitaldan asılılıq bu ölkələrdə burjua-demokratik inqilabı üçün obyektiv şərait yaradırdı. Bu zəmində ilk inqilab 1910-1917-ci illərdə Meksikada oldu.

Rusiyadakı Fevral burjua-demokratik inqilabı və Oktyabr çevrilişi də Latın Amerikası ölkələrində mübarizənin gələcək inkişafına müsbət təsir göstərdi. Latın Amerikası ölkələrinin zəhmətkeşləri antisovet müdaxilənin əleyhinə çıxış etdilər.

Bu dövrdə Latın Amerikası ölkələrində fəhlə hərəkatında anarxizm və anarxo-sindikalizmin böhranı başlanmışdı. 1920-1922-ci illərdə Argentina, Meksika, Uruqvay və Braziliyada Kommunist partiyaları təşkil edildi. İkinci dünya müharibəsi ərəfəsində Latın Amerikası ölkələrindən 18-də Kommunist partiyası fəaliyyət göstərirdi.

Milli burjuaziya fəhlə hərəkatını özünə tabe etməyə cəhd göstərərək bundan latufindiyaçılara və xarici imperializmə qarşı mübarizədə istifadə etməyə çalışırdı. 1924-cü ilin sonunda Peruda başda tələbə hərəkatının rəhbərlərindən olan Viktor Raul Ayya de la Torre olmaqla Amerika xalq inqilabı alyansı (ARPA) təşkil edildi ki, tezliklə bu alyans özünü «Milli burjuaziya ilə zəhmətkeş kütlələrin bloku partiyası» adlandırdı. Bu partiyanın proqramında Şimali Amerika imperializminə qarşı mübarizə, Latın Amerikasının siyasi birliyi, torpaq və sənayenin milliləşdirilməsi, Panama kanalının beynəlmiləlləşdirilməsi, bütün dünyanın əzilən xalqları ilə əməkdaşlıq məsələləri əks olunmuşdu. Aprizm ən çox xırda, orta burjuaziya, qismən də fəhlələr və kəndlilər arasında yayılmışdı. Apristlər azadlıq mübarizəsində fəhlə sinfinin rolunu inkar edirdilər, xırda burjuaziyaya daha çox üstünlük verirdilər. Onların «Amerika hindular üçündür!» şüarı bütün antiimperialist qüvvələrin sıx birləşməsinə mane olurdu. Tədricən o təkamül yolunu əsas tutdu və antikommunist mövqeyə keçdi.

Aprizmlə mübarizədə Xose Karlos Mariateqi mühüm rol oynadı. O göstərdi ki, Latın Amerikası öz problemlərini burjua-demokratik inqilabı yolu ilə həll etməlidir. Mariateqi 1928-ci ildə Peru sosialist fəhlə partiyasının əsasını qoydu ki, 1930-cu ildən o, Peru Kommunist partiyası adlandı.



20-ci illərin sonunda Latın Amerikası ölkələrində imperializm və yerli irticaya qarşı mübarizə gücləndi. Bu Nikaraquada daha kəskin xarakter aldı. 1926-cı ildə burada başlanan antiimperialist hərəkata fəhlə Auqusto Sesaro Sandino başçılıq edirdi. Bu hərəkat yeddi ilə qədər davam etdi. 1933-cü ilin yanvarında ABŞ öz qoşunlarını Nikaraquadan çəkməyə məcbur oldu. Lakin 1934-cü ilin fevralında Sandino «milli qvardiyanın» rəisi Anastasio Somosa tərəfindən xaincəsinə öldürüldü. Tezliklə Somosa ABŞ-ın köməyi ilə Nikaraquanın prezidenti oldu. Somosa ailəsinin diktaturası ancaq 1979-cu ildə Sandinistlər inqilabı nəticəsində devrildi.

Latın Amerikası ölkələrinin iqtisadi geriliyi dünya iqtisadi böhranı illərində azadlıq mübarizəsinin daha da güclənməsinə səbəb oldu. 1930-1931-ci ildə Qvatemalada hindu kəndlilərin üsyanı başlandı. Lakin ABŞ-ın köməyi ilə 1931-ci ildə ölkədə Xorxe Ubikonun diktaturası quruldu və 1944-cü ilə qədər hakimiyyətdə oldu. 1931-1932-ci illərdə Çilidə, 1932-ci ildə Salvodorda da inqilabi hərəkat gücləndi. Onların əsas şüarı «Torpaq və azadlıq!» idi. 1933-cü ildə Kubada X.Maçado diktaturası devrildi.

Dünya iqtisadi böhranı illərində ABŞ və İngiltərə arasında Braziliya, Paraqvay, Uruqvay, xüsusilə Argentina üstündə rəqabət gücləndi. Bu rəqabət öz ifadəsini Latın Amerikası ölkələri arasında hərbi-siyasi münaqişələrdə tapdı. ABŞ-da F.Ruzveltin prezident seçilməsi ilə Latın Amerikasına qarşı «böyük dəyənək» siyasətini «mehriban qonşu» siyasəti əvəz etdi. ABŞ Latın Amerikası ölkələrinin daxili işlərinə qarışmamaq prinsipini əsas tutduğunu elan etdi. Bu ölkələrlə hər iki tərəf üçün əlverişli ticarət sazişi bağlayacağını, onlara texniki kömək göstərəcəyini vəd etdi. 1933-cü ilin dekabrında Montevideoda keçirilən VII Panamerikan konfransında belə bir deklarasiya qəbul edildi ki, heç bir dövlətin başqa bir dövlətin daxili və xarici işlərinə qarışmağa ixtiyarı yoxdur. Bunun ar-

dınca «Platta düzəlişləri»ndən əl çəkildi və 19 il işğaldan sonra ABŞ öz qoşunlarını Haitidən çıxartdı. ABŞ-ın bu ölkələrə qarşı taktikasını dəyişdirməsinin səbəblərindən biri Latın Amerikasında alman və yapon ekspansiyasının qarşısını almaq idi. Belə ki, Hitler Almaniyası İkinci dünya müharibəsi ərəfəsində Latın Amerikası ölkələrinə ixracın həcminə görə Böyük Britaniyanı ötüb keçmişdi. Onun Latın Amerikası ölkələrinə kapital qoyuluşu 969 milyon dollar idi. Alman kapitalı Argentina, Braziliya, Çili, Qvatemala, Meksika, Boliviya kimi ölkələrdə mühüm mövqelər tutmuşdu. Latın Amerikası ölkələrində almanların sayı 1,5 miloyn nəfər idit. Argentina, Braziliya, Paraqvayda polis qüvvələrində alman zabit və müfəttişləri qulluq edirdi.

Latın Amerikası ölkələrinə Hitler kəşfiyyatının soxulması bu ölkələrdə faşist hərəkatının inkişafına, faşist partiyalarının təşkilinə, siyasi sistemi faşistləşdirmə meyllərinin yaranmasına səbəb oldu. Faşist təhlükəsinə qarşı mübarizədə geniş xalq kütlələri fəal iştirak etdilər. Bir çox ölkələrdə xalq cəbhəsi hərəkatı geniş yayıldı. Bu hərəkat ən çox Çilidə uğur qazandı. Belə ki, Çilidə 1936-cı ilin fevralında antiimperialist və antifaşist platforma əsasında yaranmış Xalq Cəbhəsi 1938-ci ilin oktyabrında keçirilmiş prezident seçkilərində qələbə qazandı. Meksika və Çili İspaniya Respublikasını müdafiə etdilər. Meksika SSRİ-dən başqa yeganə ölkə idi ki, Avstriyanın Almaniya tərəfindən işğalına qarşı öz etirazını bildirmişdi.

Latın Amerikası ölkələrində Xalq cəbhəsinin siyasəti faşizmin hücumunu dayandırdı. Bu təhlükəyə qarşı fəhlə sinfi, kəndlilər, ziyalılar, milli burjuaziyanın müəyyən hissəsi birləşdilər. Həmkarlar hərəkatının da təşkil olunması gücləndi. Meksika zəhmətkeşlər konfederasiyasının təşəbbüsü ilə 1938-ci ilin sentyabrında Meksikada Latın Amerikası ölkələrinin Konfederasiyası təşkil edildi.



Fəhlə sinfinin təzyiqi altında bir sıra Latın Amerikası dövlətləri fəhlələr və sahibkarlar arasındakı münasibətləri qanunvericilik yolu ilə nizama salmaq üçün həmkarlar ittifaqlarının fəaliyyətinə icazə verilməsi haqqında qanunlar qəbul etdilər.

Bu islahatlar Latın Amerikasında kapitalist münasibətlərinin gələcək inkişafına təkan vermiş oldu. Lakin Latın Amerikası ölkələrinin əksəriyyətində köklü aqrar islahatlar keçirilməsi, xarici kampaniyaları milləşdirmək cəhdləri inhisarların güclü müqavimətinə səbəb oldu və xarici kapitalın iqtisadiyyata və siyasətə təsirini kənarlaşdırmaq mümkün olmadı.

ABŞ öz imperialist rəqibləri ilə mübarizə üçün Latın Amerikası ölkələrinin hərbi-siyasi blokunu yaratmağa çalışırdı. 1936-cı ilin dekabrında Buenos-Ayresdə F.Ruzveltin təşəbbüsü ilə keçirilmiş Amerikaarası konfransın iştirakçıları qarışmamaq, birbaşa və dolayı formada müdaxilənin qadağan edilməsi haqqında protokol imzaladılar. 1938-ci ilin dekabrında Limada keçirilən Panamerika konfransında Latın Amerikası dövlətləri kontinenti xarici müdaxilədən qorumaq qətiyyəti haqqında bəyanat verdilər.

İkinci dünya müharibəsi ərəfəsində Latın Amerikası ölkələrinin, Argentinadan başqa, demək olar ki, hamısı ABŞ meylli xarici siyasət yeridirdilər və müharibədə Antihitler koalisiyasının tərəfində iştirak etdilər.

# BRAZİLİYA

## *Braziliya Birinci dünya müharibəsindən sonrakı ilk illərdə və kapitalizmin nisbi sabitləşməsi dövründə*

Birinci dünya müharibəsi başlayarkən Braziliya öz bitərəfliyini elan etsə də, tezliklə Antantaya tərəf daha çox meyl etməyə başladı. 1917-ci ilin oktyabrında isə Antanta tərəfində müharibəyə girdi. Birinci dünya müharibəsindən sonra Braziliyada sinfi qüvvələrin yerləşməsində, iqtisadiyyatda nəzərə çarpan dəyişikliklər əmələ gəldi. Ərzaq və xammalın Antanta ölkələrinə satılması sənaye məhsullarının idxalını azaltdı, sənayenin inkişafına kömək etdi. 1915-1919-cu illərdə 6 min sənaye müəssisəsi tikildi ki, bunların da əksəriyyəti yüngül, yeyinti sənayesinə aid idi. Əsas ixrac qəhvə idi. Braziliya kənd təsərrüfatı ölkəsi idi.Məhsuldar torpaqların 70%-i mülkədar-latifundistlərə məxsus idi. Sənayedə fəhlə sinfi 275 min nəfərə qədər idi. 1918-ci noyabrında Rio-de Janeyroda ümumi tətil baş verdi. Ölkədə mühasirə vəziyyəti elan olundu.

Prezident Pessona (1918-22-ci illər) ölkəni böhrandan çıxarmaq üçün tədbirlər həyata keçirdi. Ölkədə suvarma qurğuları, dəmiryolları, elektrik stansiyaları tikildi. İbtidai və dünyəvi məktəblər dövlət tərəfindən maliyyələşdirilməyə başlanıldı. Hərbi quruculuğa diqqət artırıldı. Ölkədə ABŞ və İngilis kapitalının mövqeyi gücləndi. Ölkədə fəaliyyət göstərən xarici səhmdarların yarısı amerikanlar idi. Xüsusilə dağ-mədən, kimya, əczaçılıq, avtomobilqayırma sənayesində ABŞ kapitalı üstünlük təşkil edirdi.

1922-1926-cı illərdə prezident Artur-de Silva Bernardes oldu. Onun dövründə iqtisadiyyatı böhrandan çıxarmaq üçün fövqaladə qanunlar verildi. Sol təmayüllü mətbuat və partiyalar bağlandı. Federal hökumətin idarəçilik, maliyyə və siyasi sahədə hüquqlarını genişləndirmək məqsədilə 1924-cü ildə



konstitusiyada dəyişiklik edildi. İşçilərin əmək münasibətlərini tənzimləmək üçün Milli Əmək Şurası yaradıldı.

1922-ci ildə Rio-de-Janeyroda keçirilən qurultayda Braziliya Kommunist partiyası təşkil edildi.

1922-ci il iyulun 5-də hərbi məktəbin kadetlər korpusu və gənc zabitlər (cəmi 52 adam) hökuməti devirmək üçün üsyan qaldırdılar. Bu tenentistlər (portuqalça-leytenant deməkdir) üsyanı adlandı. Tenentistlərin ideyası müstəqil Braziliya Respublikası yaratmaq idi.

1920-ci illərin ortalarında ölkədə yüksəliş baş verdi. Lakin milli burjuaziya İngiltərə və ABŞ inhisarları tərəfindən sıxışdırılırdı. 20-ci illərdə hakimiyyətdə respublika partiyası dururdu ki, onlar da Minas Jerays və San-Paula ştatlarının sənaye burjuaziyasının mənafeyini müdafiə edirdilər. Onları «paulistlər» də adlandırırdılar. Onlar İngiltərəyə meyl edirdilər. Müxalifətdə liberallar partiyası dururdu ki, onları Riu-Qrandi – du - Sul ştatının iri hedvandarları müdafiə edirdi. Onlar ABŞ-a meyl edirdilər.

Respublikada diktatura rejimi hökm sürürdü. 1924-cü ilin iyulun 5-də Rio-de-Janeyroda tenentistlər üsyanının iki illiyi münasibəti ilə İsidoro Lopesin başçılığı altında yenidən üsyan başlandı. 1924-cü ilin oktyabrında ölkənin cənubunda da üsyan baş verdi. Üsyana Karlos Prestes başçılıq edirdi. Hökumət aqrar islahat keçirməklə kəndliləri tenentistlərdən ayırmağı bacardı. Karlos Prestesin «Məğlubedilməz kolonnası" (Braziliyada onu belə adlandırırdılar) döyüşlə 14 ştatın ərazisindən keçdi, 26 min kv.km yol qət etdi, partizan müharibəsi apararaq Braziliyanın 18 generalını məğlubiyyətə uğratdı. Onlar Boliviya sərhədinə qədər gəlib çatdılar. Lakin irticanın güclənməsi onları ölkəni tərk etməyə məcbur etdi.

1926-cı ilin noyabrında keçirilən prezident seçkilərində Vaşinqton Luis qalib gəldi və 1930-cu ilə qədər ölkənin prezdenti oldu. Hökumət mühasirə vəziyyətini ləğv etdi.

Həmkarlar hərakatı tam fəaliyyət sərbəstliyi aldı. Ölkəyə xarici kapitalın nüfuz etməsi üçün əlverişli şərait yaradıldı. Braziliyada ABŞ-ın mövqeyi gücləndi, İngiltərəninki isə zəiflədi.

### *Braziliya dünya iqtisadi böhranı dövründə və İkinci dünya müharibəsi ərəfəsində*

1929-1933-cü illər dünya iqtisadi böhranı Braziliyaya çox ağır təsir etdi. Kisələrlə qəhvə dənizə töküldü. Qiymətlər aşağı düşdü. 1929-1930-cu illərin seçki kompaniyası zamanı «paulistlər» «mühafizəkar mərkəzləşmə» təşkil edərək iri qəhvə maqnatı Juliu Prestesi prezidentliyə namizəd irəli sürdülər. «Paulistlər»in əleyhinə "Liberal alyans" çıxış edərək Ri-Qrandi-du-Sul ştatından iri mülkədar Jetuliu Varqasın namizədliyini irəli sürdülər.

1930-cu ilin martında keçirilən seçkilərdə Prestes qalib gəldi, prezident seçildi. Onda tenentistlər liberallarla birləşərək qəhvə oliqarxiyasına qarşı mübarizəyə başladılar. Luis Karlos Prestes xalqa manifestlə müraciət etdi. Ölkədə inqilab başlandı. 1930-cu il oktyabrın 3-də bir sıra ştatlarda antihökumət qiyamı baş verdi. Paytaxtda hakimiyyət və prezident devrildi. Bu hadisə Braziliya tarixində "milli inqilab" adlandırıldı. 1930-cu il noyabrın 3-də J.Varqas hökumət təşkil etdi. O, 1891-ci il konstitusiyasını ləğv etdi, konqresi və digər seçkili orqanları buraxdı. Hökumət başlıca diqqətini iqtisadi böhranın nəticələrini aradan qaldırmağa yönəltdi. Ştatların konqresi və qanunverici hakimiyyət orqanları prezidentin əlində cəmləşdirildi. Həmkarlar ittifaqlarının siyasi fəaliyyəti qadağan edildi. Sənayedə 8 saatlıq iş günü tətbiq edildi. Ştatlararası ticarət tarifi ləğv edildi. Sənaye və ticarəti inkişaf etdirmək üçün qanunlar qəbul edildi. Fəhlə sinfinə güzəştlər edildi. Sosial sahədə qanunvericilik aktları qəbul edildi.



Hökumətdə Əmək nazirlliyi təşkil etdi. Varqas milli burjuaziyanın mənafeyinin müdafiəçisi kimi çıxış etdi.

Bununla belə, mülkədarların torpaq üzərində mülkiyyət hüququ saxlanıldı. İtaliyadakı kimi həmkarlar ittifaqı təşkil edildi. Onların vəzifəsi dövlət hakimiyyət orqanlarına nəzarətdən ibarət idi.

1932-ci il iyulunda paulistlər Varqasa qarşı qiyam təşkil etdilər. Onlar San-Paulada öz hökumətlərini təşkil etdilər. Varqas güzəştə getməyə məcbur oldu. Beləliklə, milli burjuaziya ilə iri mülkədarlar arasında siyasi konsalidasiyaya nail olundu. Milli məclis Braziliyanın yeni konstitusiyasını qəbul etdi ki, bu da 1934-cü ilin iyununda qüvvəyə mindi. Qnunverici hakimiyyət senat və nümayəndələr palatasından ibarət olan Milli Konqresə məxsus idi. Xalqa demokratik azadlıqlar. 18 yaşına çatmış kişi və qadınlara seçki hüququ verildi. Milli iqtisadiyyatın inkişafına şərait yaradıldı. 8 saatlıq iş günü tətbiq edildi. İstehsal sahəsində kollektiv müqavilələr bağlamağa icazə verildi. Varqas prezident seçildi. Ona mühüm səlahiyyətlər verildi.

30-cu illərin əvvəllərində Braziliyada faşist hərəkatı fəallaşdı. 1932-ci ildə "Braziliya inteqralist hərəkatı" adlı faşist partiyası yaradıldı ki, 1933-cü ildə onun üzvlərinin sayı 200 minə çatırdı. Onun rəhbəri Plinio Salqado idi Faşizmə qarşı mübarizə məqsədi ilə 1935-ci il martın 30-da Rio-de Janeyroda "Milli-azadlıq alyansı təşkil edildi. Alyansun fəxri sədri ölkədən qovulmuş L.K.Prestes seçildi. 1935-ci ildə Vahid Braziliya Əmək konfederasiyası təşkil edildi. Hökumət 1935-ci ilin iyulunda alyansı silahlı üsyan hazırlamaqda təqsirləndirərək onun fəaliyyətini qadağan etdi. 1935-ci ilin noyabrında Natallda şəhər yerli qarnizonu üsyan qaldırsa da, müvəffəqiyyətsizliyə uğradı. 20 min kommunist və alyanist istintaqa cəlb edildi. İnqilabi hərəkat zəiflədi.

Xarici siyasətdə Braziliya ABŞ-la bir çox ölkələr arasında manevr edirdi. Varqas hökuməti 1935-ci il fevralın 2-də ABŞ-la, 1936-cı il aprelin 16-da Almaniya ilə, avqustun 14-də isə İtaliya ilə ticarət sazişləri bağladı.

1935-ci il üsyanından sonra yuxarı dairələrdə yenə də ziddiyyət gücləndi. «Paulistlər» hakimiyyətə gəlmək istəyindən əl çəkməmişdilər. Onlar 1937-ci il prezident seçkilərinə ümid bağlamışdılar. Varqas konstitusiya ilə razılaşaraq ikinci dəfə namizədliyini irəli sürmədi. San-Paula ştatının qubernatorunun namizədliyi irəli sürüldü. Seçkiqabağı kampaniya zamanı Varqas  yeni dövlət çevrilişi etdi. 1937-ci ilin noyabrın 10-da Varqas konqresi qovdu, konstitusiyanı ləğv etdi, «yeni dövlət» təşkil etdiyini bəyan etdi. 1937-ci ildə yeni konstitusiya qəbul edildi ki, hökumətin səlahiyyətləri artırıldı və o, ştatların işinə qarışa bildi. Ölkədə fövqəladə vəziyyət elan olundu. Almaniya və İtaliya Braziliyada baş verən hadisələri bəyəndi.

ABŞ qorxurdu ki, Braziliyada da Almaniya, İtaliya kimi faşist diktaturası qurulsun. Lakin Varqas 1937-ci ilin dekabrında verdiyi dakretlə inteqralistlər də daxil olmaqla bütün partiyaları buraxdı. Belə olduqda inteqralistlər 1938-ci ilin mayında Hitler agentliyinin köməyi ilə Varqası devirmək istədilərsə də, bunu bacarmadılar.

Varqasın diktaturası bütün mürtəce cəhətlərinə baxmayaraq faşist diktaturasından fərqlənirdi. O, ölkənin xarici kapitaldan asılı olmasına qarşı çıxırdı.  1938-ci ilin aprel ayında neft sənayesi milliləşdirildi. İngilislərə məxsus kapital milliləşdirildi,  neft üzrə Milli Şura yaradıldı, ağır sənayenin inkişafı təşkil edildi. Varqas Braziliya sahibkarlarını müdafiə edirdi və bu ona iri və xırda burjuaziyanın simpatiyasını yaratmışdı.

Varqas fəhlə məsələsi üzrə qanunvericilik qəbul etidi. Minimum əmək haqqı, sənaye fəhlələrinə təqaüd verilməsi



haqqında qanunlar verildi. «Sinfi əməkdaşlıq» siyasəti Varqasa fəhlə sinfinə təsir göstərməyə imkan verdi.

İkinci dünya müharibəsi ərəfəsində Braziliya əvvəl imperialist qruplar arasında manevr edirdi. Sonra isə Antikomintern paktının iştirakçıları ilə əlaqələri zəiflətdi və ABŞ tərəfə keçdi Braziliya 1942-ci ilin sentyabrında antihitler koalisiyasının tərəfində İkinci dünya müharibəsinə qoşuldu. Ölkə iqtisadiyyatını müharibə şəraitinə uyğunlaşdırmaq üçün tədbirlər görüldü. Ölkədə 10 saatlıq iş günü tətbiq edildi. Yeni pul vahidi kruzeyro tətbiq edildi. 1944-cü ilin yayında Braziliya 50 minlik ekspedisiya korpusunu İtaliya cəbhəsinə göndərdi, bu korpus 1945-ci ilin aprel ayınadək burada döyüşdü. Braziliya BMT-nin yaradılmasında iştirak etdi.

# ARGENTİNA

## *Argentina Birinci dünya müharibəsindən sonrakı ilk illərdə*

Birinci dünya müharibəsi illərində Argentinə bitərəf ölkə kimi qaldı. Birinci dünya müharibəsi və ondan sonrakı dövrdə Argentinada iqtisadi yüksəliş davam edirdi. O, taxıl və ət məhsulları ixrac edirdi. 1920-ci ildə xaricə 50 milyon ton buğda satmışdı. Lakin ölkə yenə də xarici kapitaldan, xüsusilə İngiltərə və ABŞ kapitalından asılı vəziyyətdə idi.

Estonyerlər, yəni iri torpaq sahibləri torpaqların 80% -nə sahib idilər. Ölkənin ictimai-siyasi həyatında iri torpaq sahibləri və maliyyə-sənaye oliqarxiyası hökmranlıq edirdilər. Yuxarı dairələrə katolik kilsəsi və hərbçilər də aid idi. Siyasi arenada aparıcı yer Vətəndaş radikal ittifaqı partiyasına məxsus idi. Radikalların lideri İpolito İriqoyen 1916-cı ildən ölkənin prezidenti idi. Dövlət mülkədarlara, yepiskoplara, hərbçilərə qarşı qəti tədbirlər görməklə xırda burjuaziyanın, ziyalıların, sənətkarların etibarını qazandı. Mərkəzi hakimiyyət gücləndirildi, "qayda-qanun" möhkələmləndirildi. Kənd təsərrüfatı və milli sənayenin inkişafına xüsusi diqqət yetirildi. Ölkədə inzibati və bələdiyyə islahatı həyata keçirildi. Özünüidarəetmə orqanları proporsional qayda ilə seçilməyə başlandı. Mətbuatın azadlığı və partiyaların sərbəst fəaliyyəti təmin edildi. Universitetlərə muxtariyyət hüququ verildi. Partiyanın sağ qanadı isə mülkədarlarla saziş tərəfdarı idi. 1921-ci ildə kənd təsərrüfatına aid verilən icarə haqqında qanuna əsasən icarə müqaviləsi dörd il müddətinə bağlanırdı.

Müxalifətdə isə mühafizəkarlar partiyası dayanırdı. O torpaq sahibi oliqarxiyası, katoliklər və hərbçilərin mənafeyini müdafiə edirdi.

Fəhlə sinfinin 30%-i gəlmə idi. Fəhlə sinfi mübarizə nəticəsində əmək haqqının bir qədər artırılmasına nail



oldu.1918-ci ilin yanvarın 5-6-da sosialist partiyasının sol qanadından Argentina beynəlmiləl-sosialist partiyası yaradıldı ki, 1920-ci ildən o, Kommunist Partiyası adlandırıldı.

1919-cu ilin yanvarında Buenos-Ayresdə İngiltərəyə məxsus metallurgiya zavodunda tətil oldu. Hökumət arbitraj haqqında qanun verməyə, fəhlə qanunvericiliyi qəbul etməyə, 8 saatlıq iş günü müəyyən etməyə məcbur oldu. Ölkədə liberal-islahatçı rejim yaradıldı.

Ölkədə kəndli hərəkatının təsiri altında aqrar islahat keçirildi. Xarici siyasətdə Argentina öz suverenliyini saxlamaq istəyir, ABŞ-ın Mərkəzi Amerikaya müdaxiləsinə qarşı çıxırdı. Argentina 1920-ci ildə Meksika prezidenti Obreqanı müdafiə etdi. Sovet hökuməti əleyhinə aksiyalara tərəfdar olmasa da, onunla diplomatik əlaqələr yaratmağa tələsmədi.

1922-ci ilin oktyabr ayında növbəti prezident seçkilərində radikalların lideri olan Marselo de Alvear prezident seçildi. Mühafizəkarla sazişə gedərək o, zəhmətkeşlərə güzəştdən əl çəkdi. Hökumət daxili siyasətdə milli sənayeni, taxılçılıq və heyvandarlıq təsərrüfatını inkişaf etdirdi. Emal sənayesi inkişaf etdi. 1923-cü ilin noyabr ayında ordunun təchizatının yaxşılaşdırılması barədə qanun qəbul edildi.

Kənd təsərrüfatına yeni texnika tətbiq edildi. Daxili bazarın inkiaşfına avtomobil və dəniz yolların çəkilişi kömək etdi. Peso sabitləşdi. 1926-cı ildə qəbul ediləq iki qanunla kooperativlərə maliyyə yardımı göstərildi. Xarici siyasətdə Amerika qitəsi ölkələri ilə əməkdaşlığa xüsusi diqqət yetirildi. ABŞ-la münaisbətlər normalaşdı. 1925-ci ildə SSRİ ilə diplomatik münasibətləri yaradıldı.

### *Argentina kapitalizmin nisbi sabitləşməsi və dünya iqtisadi böhranı dövründə*

İqtisadi yüksəliş nəticəsində 1924-cü ilin yayında tətil hərəkatı sönməyə başladı. 1929-cu ilə qədər iqtisadi yüksəliş o qədər də nəzərə çarpmadı. Ağır sənaye zəif inkişaf etdirdi. Dünya iqtisadi böhranı ölkədə bütün sahələri əhatə etdi. İşsizlər əhalinin 10%-ni təşkil edirdi.

1928-ci il prezident seçkilərində İriqoyen yenidən prezident seçildi. Siyasi həyatda mərkəzdə neft məsələsi dururdu. Hökumət neftin istehsalı və bölüşdürülməsi üzərində dövlət nəzarəti qoydu. 1930-cu ildə konqresdə neft sənayesinin milliləşdirilməsi haqqında qanun qəbul edildi. İriqoyen ABŞ-dan qorunmaq üçün qanunla İngiltərəyə bir sıra imtiyazlar verdi. ABŞ-ın müdafiə etdiyi sağ mühafizəkar qüvvələr prezident əleyhinə gizli danışıqlara başladılar. Konqresin müxalifətçi deputatlarının əksəriyyətinin İriqoyeni konstitusiyanı pozmaqda ittiham etməl ərindən istifadə edən general Xose Feliks Uriburu ordu və donanmanın köməyinə arxalanaraq prezident vəzifəsindən istefa verməsini İriqoyendən tələb etdi. 1930-cu ilin sentyabrın 6-da Buenos-Ayresdə hərbi qiyam baş verdi. Hakimiyyətə Uriburu ilə birlikdə mülkədar-maliyyə oliqarxiyası gəldi. Ölkənin bütün ərazisində mühasirə vəziyyəti elan edildi. İriqoyen həbs edilib, uzaq adalardan birinə göndərildi.

O, ancaq 1932-ci ildə həbsdən azad edildi. Vaşinqton bu çevrilişi alqışladı. Diktator Amerika banklarından çoxlu istiqraz aldı. Lakin ABŞ İngiltərə ilə əlaqələrin davam etdirilməsinə mane ola bilmədi. Yeni rejimdən çoxu narazı idi. Belə şəraitdə Uriburu ölkədə prezident seçkiləri keçirməyə məcbur oldu. 1931-ci ilin noyabrında ölkədə prezident seçkiləri keçirildi. Uriburunun mühafizəkarlar partiyası əsasında təşkil etdiyi Milli demokrat partiyası bu seçkilərdə əksəriyyət qazandı. General



Aqustin Xusto prezident seçildi. Xarici siyasətdə Argentina İngiltərəyə meyl edirdi.

### *Argentina İkinci dünya müharibəsi ərəfəsində*

1933-cü ildə keçirilən VII Panameraikan konfransında ABŞ Latın Amerikası dövlətlərinin daxili işlərinə «qarışmayacağını» bildirdi. Tədricən ABŞ-la «mehriban qonşuluq» əmələ gəlməyə başladı. Yeni hökumətin siyasəti xarici kapitaldan asılılığı artırdı. Almaniyada faşistlər hakimiyyətə gəldikdən sonra Argentinada İtaliya və Almaniya mühacirləri faşist partiyası yaratdılar. Lakin demokratik qüvvələr faşizmlə mübarizəyə qalxdılar. 1933-cü ilin mayında Buenos-Ayresdə faşizmə qarşı mübarizə komitəsi təşkil edildi. 1935-ci ilin birinci yarısında Argentinada tətil hərəkatı gücləndi. Xalq cəbhəsi yaradılmasa da, müxalifətdə dayananlar 1936-cı ilin martında mühüm müvəffəqiyyət qazandılar. İrticaçı qüvvələr konstitusiyanın bərpasından qorxaraq yeni dövlət çevrilişinə hazırlaşmağa başladılar. Buenos-Ayres əyalətinin qubernatoru öz əyalətində Kommunist Partiyasının fəaliyyətini qadağan etdi. Xusto hökuməti həmkarlar ittifaqı üzərində dövlət nəzarəti təşkil etdi.

Demokratik ideyaların təbliğinə görə həbs cəzası verilməsi haqqında qanun verildi. Deputatlar palatasındakı müxalifətçi deputatlar – radikallar, sosialistlər, mütərəqqi demokratlar Xalq Cəbhəsi adı altında blok düzəltdilər. Lakin sonra sosialistlər və radikallar bu blokdan ayrıldılar.

Sol partiyalar 1937-ci ilin noyabrındakı prezident seçkilərində müstəqil çıxış etdilər, irticadan qorxaraq vahid blok təşkil etmədilər. Ortis prezident seçildi. Sağlar yenə də qalib gəldilər.

Xarici siyasətdə onlar ABŞ-ın təzyiqinə qarşı durmaq üçün faşist millitarist blokuna meyl edirdilər.

İkinci dünya müharibəsi zamanı Argentina əvvəl bitərəfliyini elan etdi. Bu vəziyyət iqtisadi inkişafın srüətlənməsinə kömək etdi. Sənayenin yeni sahələri yaradıldı. İşsizlik, demək olar ki, ləğv edildi. İqtisadi yüksəliş baş verdi. 1940-cı ildən prezident vəzifəsini Ortisin yerinə Ramon Kastilyo yerinə yetirməyə başladı 1943-cü ilə qədər o, bu vəzifədə qaldı. Ölkədə mövcud rejim sərtləşdirildi. Almaniya və onun müttəfiqləri ilə əlaqələr genişləndirildi. Müharibə illərində hökumətin daxili və xarici siyasətindən narazılıq onun xalq kütlələri tərəfindən devrilməsinə gətirib çıxartdı. Yeni hökumətə əvvəl Artero Ramson, sonra isə Ramiris başçılıq etdi. Ramiris Argentina hökumətinin müvəqqəti prezidenti seçildi. 1944-cü ilin fevral ayında Ramirisin istefasından sonra onu general Ferral əvəz etdi. Argentina hökuməti 1945-ci il martın 27-də Almaniya bloku ölklələrinə müharibə elan etdi.



## MEKSİKA

### *1910-1917-ci illər inqilabının başa çatması və onun nəticələri*

Meksikada1910-1917-ci illər inqilabı xarici imperialistlərə və mülkədarlara qarşı çevrilmişdi. 1917-ci il yanvarın 31-də konstitusiya qəbul edildi. Bu konstitusiyada aqrar məsələ radikal həllini tapdı. Kəndli hərəkatının rəhbərləri Emiliano Sapata, Pançо Vilya torpağın və xarici kapitalistlərin mülklərinin milliləşməsi məsələsinin konstitusiyada öz əksini tapmasına nail oldular. Konstitusiyaya əsasən təbii sərvətlər Meksika xalqına məxsus idi. Kilsə daşınmaz əmlakdan məhrum edilməli, dini məktəblər bağlanmalı idi. 8 saatlıq iş günü müəyyən edildi, fəhlələr həmkarlar ittifaqında birləşə bilərdilər.

1916-cı ildən ölkənin prezidenti Venustiano Karranso idi. O, aqrar məsələni həll etməyə tələsmədi. 1919-cu ilin yazında Sapata öldü. İqtisadi vəziyyətin ağırlığı inqilabi şərait yaratdı.

1918-ci ilin mayında Meksika regional fəhlə konfederasiyası (KPOM), 1919-cu ilin sentyabrında Meksika Kommunist Partiyası yaradıldı.

Xırda və orta burjuaziya Karransonun siyasətindən narazı idi, çünki o konstitusiyanı həyata keçirməyə tələsmirdi.1910-1917-ci illər inqilabının təşkilatçılarından olan general Obreqon Karransonu inqilaba xəyanətdə təqsirləndirdi. Obreqonın rəhbərliyi altında 1919-cu ilin dekabrında Meksika fəhlə (laborist) partiyası yaradıldı. Bu partiya bitərəf mövqedə dururdu. 1920-ci ilin mayında Obreqon KROM-a arxalanaraq dövlət çevrilişi etdi, Karranso öldürüldü. Sonra Obreqon prezident seçildi. «Böyük və çiçəklənən Meksika» yaratmaq «İnqilabi kuaudilizmin» başlıca məqsədi elan edildi. Prezidentin əlində böyük səlahiyyət toplanmışdı. Xırda burjuaziya aparatda çoxluq təşkil edirdi. 1921-1923-cü illərdə kəndlilərə 600 min ha torpaq paylandı. Böyük Britaniyadan

başqa 1923-cü il avqustunadək başda ABŞ olmaqla bütün dövlətlər Obreqon hökumətini tanıdılar.

1923-cü ilin sonu, 1924-cü ilin əvvəllərində iqtisadi vəziyyət yaxşılaşdı. Obreqonın siyasətinə qarşı latufindistlər, iri burjuaziya, katolik kilsəsinin ali təbəqəsi çıxış edirdilər. Mülkədarlar «ağ qvardiya» təşkil edərək 1923-cü ilin iyulunda kəndli hərəkatının rəhbəri Panço Vilyanı öldürdülər.

### *Meksika kapitalizmin nisbi sabitləşməsi dövründə*

1924-cü ilin yayında prezident Plutarko Elios Kalyes seçildi. O, Obreqonın siyasətini davam etdirəcəyinə söz verdi. 1928-ci ilə qədər kəndlilərə 3,2 milyon ha torpaq verildi. 30 milyon ha torpaq yenə də xaricilərin əlində idi. 1925-ci il dekabrında «Neft qanunu» qəbul edildi. 1917-ci ilin mayın 1-dək neftli torpaq almış xaricilərə 50 ilə qədər həmin neftli torpaqlar icarəyə verilə bilərdi.

Xarici siyasətdə Meksikanın milli maraqları nəzərə alınırdı. 1924-cü il Meksika SSRİ ilə diplomatik münasibətlər yaratdı.

Milli burjuaziya hakimiyyət başında olsa da, iqtisadiyyata hakim mövqeni o tutmurdu. Əsas sahələrdə – dağ-mədən, neft, emal sənayesində xaricilər ağalıq edirdilər. ABŞ-ın Meksikaya kapital qoyuluşu 1913-1929-cu ilədək iki dəfə artdı. ABŞ sahibkarlarının əlində 20-ci illərdə ölkənin bütün torpaq fondunun $\frac{1}{8}$-i var idi. ABŞ tələb edirdi ki, neftli torpaqlar üçün qoyulan müddət götürülsün.

Kalyes hökumətinə qarşı feodal-klerikal irtica çıxış etdi. 1926-cı ilin iyulunda 1917-ci il konstitusiyasına əsasən kilsənin siyasi fəaliyyətlə məşğul olması qadağan edildikdə katoliklər baykot taktikasından istifadə etdilər. 1927-ci il yanvarda «Xristos» qiyamı baş verdi. «Yaşasın Xristos» şüarı səsləndi. Krerikal irticaya qarşı milli burjuaziya və fəhlə sinfi çıxış etdi.



KROM da, kəndlilər də hökumətə kömək etdi. Lakin ABŞ qiyamçılara gizli kömək etdi. Ali məhkəmə 1925-ci ildə qəbul edilmiş neft haqqında qanunu konstitusiyadankənar hesab etdi. Bütün bunlarla bərabər, neft yenə də milli sərvət kimi qaldı.

Kalyes hökumətinin güzəşti Vaşinqtonda bəyənildi. Sağa doğru dönüş baş verdi. Hakimiyyətdə olan xırda burjuaziya nümayəndələri iri mülkiyyətçilərə çevrildilər. Onlar artıq sosial «eksperimentləri» dayandırmağı tələb edirdilər.

1928-ci il iyulunda Obreqon yenidən prezident seçildi. Lakin iki həftədən sonra o, bir fanatik-katolik tərəfindən öldürüldü. 1928-ci il sentyabrında müvəqqəti prezident Emilio Portes Xil seçildi. 1929-cu ildə ölkədə yeni prezident seçkiləri keçirildi. Ortis Rubio prezident seçildi. Kalyes isə hərbi nazir oldu.

1929-cu ilin mart-aprelində 18 min əsgərin iştirak etdiyi 44 generalın qiyamı baş verdi. Bu dövrdə Meksika ordusunun sayı 56 min idi. Hökumət qoşunlarına Kalyes başçılıq etdi. Partizan dəstələrinin köməyi ilə qiyam yatırıldı.

1929-cu ilin iyununda Kommunist partiyası qadağan edildi. Kilsəyə güzəşt edildi.

Kalyesin təşəbbüsü ilə 1929-cu ildə Milli inqilabi partiya (MİP) yaradıldı. Tərkibi burjua, mülkədar, xırda burjua, kəndlilərin nümayəndələrindən ibarət idi. Kalyes xüsusi həmkarlar mərkəzi olan əmək palatasını təşkil etdi.

### *Meksika dünya iqtisadi böhranı dövründə və İkinci dünya müharibəsi əpəfəsində*

Meksikaya dünya iqtisadi böhranı ağır təsir etdi, gümüş, qızıl, mis, sink istehsalı azaldı. Ölkədə 1 milyon işsiz var idi. 1930-cu ildə aqrar islahat dayandırıldı. Şəkər qamışı, banan plantasiyaları, əsasən, xarici kompaniyaların əlində idi. Onlar da iflas etdi.

Siyasi həyatda bütün rəhbərlik Kalyesin əlində toplanmışdı. O, «İnqilabın ali rəhbəri» hesab edilirdi. 1930-cu ildə ABŞ-ın təzyiqi ilə Meksika SSRİ ilə diplomatik münasibətləri kəsdi.

1932-ci ildə Ortısın istefasından sonra Abelyardo Rodriges prezident seçildi.

MİP-nin sol qanadı hökuməti məcbur etdi ki, 1933-cü ildə aqrar islahatlar keçirsin. Həmçinin altı illik proqram qəbul edildi. Bu proqramda milli sənaye yaradılması, kənd təsərrüfatının inkişafının  təşkil edilməsi nəzərdə tutulurdu.

1933-cü il oktyabrda Meksikada kəndli və fəhlə ümumi konfederasiyası yaradıldı.

1934-cü ildə MİP-nın sol qanadına məxsus olan Lasaro Kardenas prezident seçildi. O, hələ Miçoakan ştatında qubernator olanda korrupsiyaya qarşı mübarizədə şöhrət qazanmışdı. Kardenas Kalyesin dediklərin etmədi.

Kommunist partiyası leqallaşdırıldı, demokratik azadlıqlar bərpa edildi. Kalyesin qəsd yolu ilə Kardenası devirmək cəhdi baş tutmadı. Kalyes ABŞ-a sürgün edildi. Kalyesə məxsus əmlak dövlət tərəfindən müsadirə edildi.

1936-cı ilin fevralında Meksika zəhmətkeşlər konfederasiyasının təşkilindən sonra Meksikanın ictimai-siyasi həyatında fəhlə sinfinin rolu artdı. 40 saatlıq iş həftəsi müəyyən edildi, kollektiv müqavilələr bağlanılmasına icazə verildi, xaricilərə məxsus müəssisələr, dəmiryollar milliləşdirildi. Ən iri addım 1938-ci ilin martında neft sənayesinin milliləşdirilməsi idi. Bu sənayenin əksəriyyəti İngiltərə və ABŞ-a məxsus idi. Bu zaman ölkədə 17 amerikan və ingilis neft kompaniyası var idi. ABŞ Meksikaya iqtisadi sanksiya tətbiq etdi, ondan gümüş almadı. Böyük Britaniya və onun dominionları isə Meksikadan neft məhsulları almadı. Avropa ölkələrinin çoxu da onlara qoşuldu.



Bu dövrdə 18 milyon ha torpaq 1 milyon kəndliyə paylanıldı. Lakin yenə də mülkədarların əlində 80 milyon ha torpaq qalırdı.

1934-1940-cı illər islahatlarının mütərəqqi xarakter daşıması Meksikanın müstəqilliyini artırdı. Latın Amerikası ölkələrindən ancaq Meksika İspaniya respublikasına kömək etdi. Kardenas hökumətini geniş xalq kütlələri müdafiə etdi. 1938-ci il martında Milli İnqilab Partiyası Meksika inqilab partiyası adlandı. Onun – fəhlə, kəndli, hərbçilər, xalqın digər təbəqələrini əhatə edən bölmələri yaradıldı.

Hərbi qiyam yolu ilə 1938-ci ilin yazında Kardenası devirmək cəhdi baş tutmadı. Bu cəhd üçün bəhanə guya Meksikada kommunizm təhlükəsi idi.

Kardenasın dövründə toxuculuq, tikinti, yeyinti sənayesi, xarici ticarət inkişaf etdi.

1940-cı ilin iyulunda mühafizəkar qüvvələr Avilla Kamoçonun prezident seçilməsinə nail oldular. Kardenasın işini davam etdirəcəyinə söz versə də, onun dövründə ölkədə ABŞ-ın təsiri gücləndi.

1941-ci ilin dekabrınadək Meksika faşist-millitarist bloku ilə diplomatik münasibətləri kəsmədi. Ancaq ABŞ-ın təsiri altında 1942-ci il mayında onlara müharibə elan etdi. 1942-ci ilin noyabrında Meksika SSRİ ilə diplomatik münasibətləri bərpa etdi.

Hərbi əməliyyatların Meksika  ərazisində aparılmaması ölkə iqtisadiyyatının inkişafına əlverişli şərait yaratdı .

1945-ci ilin fevral-mart aylarında müharibə və sülh məsələlərini müzakirə etmək üçün Meksikada Amerika ölkələrinin xarici işlər nazirlərinin keçirilən konfransında "Çapıltəpək bəyannaməsi"  (Çapıltəpək Mexikoda qəsr adıdır) qəbul edildi. Amerika ölkələrinin təcavüzdən birgə müdafiə prinsipinə sadiq qalmaları onun əsas məzmununu təşkil edirdi. Konfransda ABŞ-ın təklifi ilə qəbul edilən "İqtisadi

xartiya”adlı sənəddə iqtisadi və gömrük məsələlərində maneələrin tədricən aradan qaldırılmasından bəhs edilirdi.



## ÇİLİ

### *1918-1923-cü illərdə iqtisadi vəziyyət və sinfi mübarizə*

Birinci dünya müharibəsində Çili xeyli gəlir əldə etdi. Lakin Birinci dünya müharibəsi qurtaran kimi Çili misinə olan tələbat da azaldı. Xüsusilə selitra sənayesinə böyük ziyan dəydi. 1919-cu ildə selitra istehsalı 1917-ci illə müqayisədə iki dəfə azaldı. Həmçinin xeyli mis yataqları və kömür qazmaları bağlandı. İqtisadi vəziyyətin pisləşməsi sinfi mübarizəni kəskinləşdirdi. Çilinin fəhlə sinfi Latın Amerikası fəhlə sinfinin ən qabaqcıl dəstəsi idi. Luis Emilio Rekabarren Çili Sosialist partiyasının yaradıcılarından və rəhbərlərindən biri idi.

1920-ci ilin prezident seçkiləri çox çətin bir şəraitdə keçirildi. Hakimiyyətdə olan mühafizəkarlar partiyası əsasən torpaq aristokratiyasının mənafeyini müdafiə edirdi, kifayət qədər populyar idi, lakin qələbə əldə edə bilmədi. Mühafizəkarlar partiyasının təşkil etdiyi Milli Alyansa qarşı liberal-burjua partiyalarını birləşdirən Liberal Alyans çıxış etdi və seçkilərdə onun nümayəndəsi Arturo Alessandri daha çox səs aldı və prezident seçildi. Onun qələbəsində sosialist partiyasının da mühüm rolu oldu. Hökumət seçkiqabağı "Liberal alyans və ya inqilab" şüarı altında çıxış edərək hakimiyyətə gəldiyi üçün seçkiqabağı verdiyi bir çox vədləri həyata keçirdi. 8 saatlıq iş günü, məzuniyyət və istirahət günü qanuniləşdirildi, ictimai sığorta həyata keçirildi, fəhlələrin həmkarlar ittifaqlarında birləşmək hüququ tanındı. Bununla belə daha əsaslı dəyişikliklər yenə də həyata keçirilmədi.

1922-ci ilin yanvarında Çili Kommunist Partiyası yaradıldı.

### *Çili kapitalizmin nisbi sabitləşməsi dövründə*

Alessandrinin hökuməti siyasi cəhətdən möhkəm deyildi. Amerikapərəst polkovnik Karlos İbanyes başda olmaqla ölkədə diktatura qurulmasına ciddi hazırlıq gedirdi. 1925-ci ilin av-

qustun 30-da hökumət icraedici hakimiyyəti gücləndirən konstitusiya islahatları keçirdi. Prezident altı il müddətinə seçilir və qeyri-məhdud səlahiyyətlərə malik idi. Bu islahat diktaturaya keçməyi asanlaşdırdı. 1927-ci ilin fevralında amerikan imperializminin və torpaq sahibləri oliqarxiyasının köməyi ilə Karlos İbanyes hakimiyyəti zəbt etdi. Çilidə diktatura dövrü başlandı. Kommunist partiyası qanundankənar elan edildi və gizli fəaliyyətə keçdi. Müəssisələrdə sənaye ittifaqları adlanan təşkilatlar yaradıldı. Hökumətin sərəncamı ilə sahibkarlar öz gəlirlərinin 2%-ni bu təşkilatların ixtiyarına verir, həm də ayrılmış bu məbləğin dörddə üçü ittifaq üzvləri, yəni fəhlələr arasında bölüşdürülməli idi.

İbanyes Çilidə faşist xarakterli korporativ təşkilatlar yaratmaq istəyi ilə 1929-cu ildə fəhlə və qulluqçuların respublikaçı Mülki fəaliyyət konfederasiyasını təşkil etdi. Diktator ölkəyə amerikan kapitalının soxulması üçün geniş şərait yaratdı. İngilis kapitalistləri arxa plana sıxışdırıldılar. İngilis imperialistlərinin nəzarəti altında olan «Selitra istehsalçıları Assosiasiyası» əvəzinə İbanyes «Çili selitra kampaniyası» («Kosaç») adlanan və əslində amerikan kapitalının nəzarəti altında olan təşkilat yaratmaq haqqında dekret verdi. Eyni zamanda amerikan kampaniyalarına ən mühüm konsessiyalar verildi.

### *Çili dünya iqtisadi böhranı illərində və İkinci dünya müharibəsi ərəfəsində*

Dünya iqtisadi böhranı Çili iqtisadiyyatına çox ağır təsir etdi. Mis əridilməsi 1932-ci ildə 320 min tondan 103 min tona qədər azaldı. 1932-ci ildə Çilinin ixracı 8 dəfə, idxalı isə 7,5 dəfə aşağı düşdü. Başlanan maliyyə böhranını zəiflətmək üçün Çili hökuməti xarici borcların ödənilməsini dayandırdı. 4 milyon əhalisi olan ölkədə 1932-ci ildə işsizlərin ümumi sayı 350 min nəfərdən çox idi. Nominal əmək haqqı 30-40%, real əmək haqqı isə daha çox azalmışdı. Ölkəni tətillər bürümüşdü.



Kütləvi inqilabi hərəkatın nəticəsində diktator 1931-ci ilin iyulunda hakimiyyətdən əl çəkməyə və Argentinaya qaçmağa məcbur oldu. Dekabrda İbanyes hökumətinin nazirlərindən biri – Xuan Esteban Montero prezident oldu. Lakin tətillər davam etməkdə idi. Bəzi yerlərdə bu üsyana çevrilsə də, hökumət onu yatırmağa müvəffəq oldu. Kəndli hərəkatı da ölkəni bürüdü.

İnqilabi hərəkatın və kütlələrin narazılığının artdığı bir şəraitdə orduya arxalanan burjua müxalifəti Montero hökumətini devirmək üçün hazırlığa başladı. 1932-ci il iyulun 4-də paytaxt qarnizonunun üsyanı başladı və ona bütün xalq qoşuldu. Nəticədə Montero hökuməti yıxıldı və milli burjuaziyanın nümayəndələri olan Davila və Qrove tərəfdarlarının müvəqqəti koalisiyalı hökuməti təşkil edildi. Lakin tezliklə bu ittifaq parçalandı. 1932-ci il iyulun 12-də amerikapərəst siyasət yeridən Davila hökumətin tərkibindən çıxmağa məcbur oldu. Lakin Qrove hökuməti də verdiyi vədləri yerinə yetirə bilmədi. Belə şəraitdə Çilidə Kommunist partiyasının fəallaşması və bir sıra şəhərlərdə sovetlərin yaranması imperialist dairələri təşvişə saldı. Təşkil edildikdən iki həftə sonra Qrove hökuməti xarici imperialistlərin fəal köməyi nəticəsində devrildi, sovetlər isə qovuldu.

1932-ci ilin oktyabrında terror şəraitində aparılmış prezident seçkilərində burjua-mülkədar partiyalarının köməyi nəticəsində Arturo Alessandri qalib gəldi və altı il hakimiyyətdə oldu. Alessandri ABŞ imperialistləri ilə sazişə girdi. O, həmçinin Almaniya, İtaliya və Yaponiya kapitalının ölkəyə soxulmasına kömək edirdi. İspaniyada Frankonu müdfaiə edirdi. Lakin xalq bütün bunları laqeyd qarşılamağı bacarmadı. Belə ki, 1936-cı ildə kommunist, sosialist, radikal və demokratik partiyalar arasında bağlanmış saziş nəticəsində xalq cəbhəsi hərəkatı təşkilat cəhətdən təşəkkül tapdı, buraya Çili zəhmətkeşlər Konfederasiyası da daxil oldu.

1938-ci ilin oktyabrın 25-də keçirilmiş prezident seçkilərində Xalq cəbhəsinin namizədi professor Pedro Adippe Serda bütün səslərin mütləq əksəriyyətini toplayaraq qalib gəldi. Xalq cəbhəsinin qələbəsi nəticəsində yaradılmış hökumət (bu hökumətin tərkibinə ragikallar, sosialistlər və demokratlar daxil idilər). Xalq cəbhəsi proqramını həyata keçirməyi, zəhmətkeşlərin maddi vəziyyətini yaxşılaşdırmağı, demokratik azadlıqların verilməsini təmin etməyi, mürtəce təşkilatlara qarşı mübarizə aparmağı, xarici inhisarların ağalığı əleyhinə qanunlar verməyi bacarmadı. Proqramda göstərilən kəndlilərə maliyyə və aqronomluq köməyini təşkil etmək. milli sənayeni hərtərəfli inkişaf etdirmək məsələsi də həll edilmədi. Hakimiyyətə gəldiyi gündən Xalq cəbhəsi hökuməti irticanın ciddi müqavimətinə rast gəldi. Xalq cəbhəsinin qələbəsinə qədər seçilmiş deputatlar palatası ölkədəki əsil qüvvələr nisbətini əks etdirmirdi. Bununla belə, inadlı mübarizə nəticəsində Çili fəhlə sinfi öz vəziyyətini bir qədər yaxşılaşdıra bildi. Bəzi mülki və demokratik azadlıqlar (yığıncaqlar, təşkilatlar, tətillər və s. hüququ) bərpa edildi. Lakin Xalq cəbhəsinin seçkiqabağı şüarı– «çörək, yaşayış və geyim» şüarı həyata keçirilmədi.

İkinci dünya müharibəsində Çili Antihitler koalisiyasının tərəfində iştirak etdi.



## KUBA

### *Kuba birinci dünya müharibəsindən sonrakı ilk illərdə*

Birinci dünya müharibəsi illərində Kuba hökuməti və bu ölkədə yerləşən Amerikanın şəkər qamışı plantasiyaları və şəkər zavodlarının sahibləri Avropaya bu məhsulun ixracını artırmaq üçün bu sahəyə kapital qoyuluşunu xeyli artırdılar. Şimali Amerika inhisarçıları müharibə dövründə Kubada iqtisadiyyatın başlıca sahələrini demək olar ki, tamamilə özlərinə tabe etdilər. 1920-ci ildə Kuba şəkərinin dünya bazarında qiyməti kəskin surətdə aşağı düşdü. Bu isə Kuba istehsalçılarının iflasına səbəb oldu. Bundan isə ABŞ inhisarçıları məharətlə istifadə etdilər və onların əlində şəkər zavodları, enerji şəbəkələri, dəmir yolarının 50%-i, dağ-mədən, tütün sənayesinin xeyli hissəsi cəmləşdi. ABŞ hökuməti ölkənin daxili işlərinə qarışmağa başladı. Bu hadisələr ölkənin fəhlə sinfi, ziyalı və tələbələrində böyük narazılığa səbəb oldu. Tələbələr universitetlərə muxtariyyət verilməsini, təhsilin demokratikləşdirilməsini tələb edirdilər. 1925-ci ilin avqustunda Kuba Kommunist partiyası yaradıldı.

**Maçadonun diktaturası.**

1925-ci ildə Kubada prezident kürsüsünə iri sahibkar, Amerika imperializminin satilletlərindən olan Xerardo Maçado əyləşdi. Maçado hökuməti dərhal fəhlə və demokratik hərəkata qarşı təqiblərə başladı. Kommunist partiyası qanundankənar elan edildi. Universitetlərin muxtariyyəti ləğv edildi, mütərəqqi həmkarlar ittifaqlarının fəaliyyəti qadağan edildi. Maçado "minlərlə sui-qəsd prezidenti" adını aldı. Maçado özünü fəxrlə "Antil Mussolinisi" adlandırırdı və onun əsas dayağı xırda və orta burjuaziya idi. Onun dövründə işsizlik bir qədər azaldı. 1933-ci ilə qədər o, həmin vəzifədə qaldı. Maçadonun diktaturası dövründə də Kuba iqtisadiyyatı ABŞ-ın təsiri altında idi. 1929-cu ildə Kuba iqtisadiyyatına qoyulan 1,8 milyard xarici kapitalın 1,5 milyard dolları ABŞ-a məxsus idi. Amerika inhi-

sarçılarının siyasəti ölkədə şəkər qamışının istehsalına xüsusi diqqətdən ibarət idi. Həmin dövrdə ən məhsuldar torpaqlar latufindistlərə məxsus idi, ona görə də ölkə ən zəruri ərzaq məhsullarını xaricdən alırdı.

1929-cu il dünya iqtisadi böhranı Kuba iqtisadiyyatını sarsıtdı. Böhran Kubada ixracın azalmasına və çoxlu şəkər zavodlarının bağlanmasına səbəb oldu. Kubanın dörd milyon əhalisinin yarım milyonu işləmirdi. Ölkədə sosial ziddiyyətlər kəskinləşdi. 1930-cu ilin martında keçirilən 24 saatlıq ümumi tətildə Havananın 200 min zəhmətkeşi iştirak edirdi. Bu Maçado diktaturasına qarşı ilk inqilabi çıxış idi. Bu tətillərdə tələbələr, ziyalılar, xırda burjuaziya da iştirak edirdi. Belə bir gərgin vəziyyətdə burjuaziya müxalifəti də fəallaşdı və onun liderləri hətta 1931-ci ilin avqustunda silahlı üsyan yolu ilə Maçado diktaturasını devirməyə cəhd etdilər, lakin alınmadı. Müxalifətdə olan burjua ziyalıları "ABŞ" adlı gizli təşkilat da yaratdılar. Bu təşkilat fərdi terror yolunu tutdu.

Kuba xalqının antiimperialist mübarizəsi ABŞ-ı Latın Amerikası ölkələrinə qarşı apardığı siyasətin forma və metodlarına yenidən baxmağa məcbur etdi. ABŞ hökuməti diktaturanın inqilabi yolla devrilməsi təhlükəsindən qorxaraq Maçadonun dinc yolla istefaya göndərilməsini təşkil etməyi lazım bildi.

### *1933-1935-ci illər inqilabı*

Vaşinqton tərəfindən təzyiq göstərilməsinə baxmayaraq Maçado hələ hakimiyyətdə qalırdı. 1932-1933-cü illərdə ölkədə vəziyyət daha da kəskinləşdi. Partizan müharibəsi başladı. 1933-cü ilin avqustun 1-də Havanada başlanan tətil tezliklə ümumi tətilə çevrildi, inqilabi mübarizənin hərəkətverici qüvvəsi isə fəhlə sinfi idi. 1933-cü ilin avqust ayının 12-də ABŞ səfirinin iştirakı ilə diktator məzuniyyətə getdiyini bildirdi və ölkəni tərk etdi. Maçadonun yerinə müvəqqəti prezident Karlos de Sespedes oldu. Təzə hökumətin tərkibinə burjua müxalifətinin nümayəndələri və "ABŞ"-ın liderləri daxil oldular.



Onlar ilk növbədə tətilləri dayandırmaq üçün ciddi ölçü götürməyi qərara gəldilər. Kuba sahillərinə ABŞ hərbi gəmiləri gəldilər, ölkədə hərbi vəziyyət elan edildi, nümayişlər qadağan edildi. Lakin inqilabi hərəkatı dayandırmaq mümkün olmadı. Maçado tiranlığının devrilməsi inqilabın başlanğıcı oldu. 1933-cü ilin sentyabrın 4-5-ində Batistanın başçılığı altında qəsdçilər amerikanpərəst hökuməti devirdilər və Havana Universitetinin professoru Ramon Qrau San-Martininin başçılığı altında Müvəqqəti inqilabi hökumət təşkil etdilər. Batista polkovnik rütbəsi aldı, silahlı qüvvələrin ştabının rəisi oldu.

1933-cü ilin sentyabrında keçirilən tətillərdə fəhlələr səkkiz saatlıq iş günü, əmək haqlarının artırılmasını tələb edirdilər.

ABŞ hökuməti bu hadisədən narahat olaraq Kubadakı öz vətəndaşalrının təhlükəsizliyini təmin etmək bəhanəsi ilə Kuba sahillərinə 30 gəmidən ibarət hərbi-dəniz eskadrası göndərdi. Latın Amerikası ölkələri bu məsələyə kəskin etirazlarını bildirdilər.

Qrau San-Martini hökuməti hakimiyyətə gələn kimi elan etdi ki, "Kuba kubalılar üçündür!" şüarı altında siyasət yeridəcəkdir. O, ABŞ-a üstünlük verən 1901-ci il konstitusiyasını təxirə saldı, hökumətin özündə Müvəqqəti hökuməti devirmək cəhdi Batista tərəfindən amansızlıqla yatırıldı. Vaşinqton əvvəlki kimi Kubada yeni rejimi tanımadı və onu "qayda-qanun" yaratmağı bacarmamaqda günahlandırdı. Kuba hökumətinə təzyiq göstərmək üçün Ağ ev ABŞ-a şəkər gətirilməsində kvota qoyulmasından və Kubanın iqtisadi vəziyyətinin ağırlığını yüngülləşdirməkdən imtina etdi. Qrau hökuməti öz üzvlərindən biri, tələbə hərəkatının görkəmli xadimlərindən olan Antonio Qiterasın təşəbbüsü ilə bir sıra mütərəqqi islahatlar keçirdi. Belə ki, səkkiz saatlıq iş günü, 44 saatlıq iş həftəsi müəyyənləşdirildi. Bildirildi ki, həmkarlar ittifaqlarını tanımaq və onlarla kollektiv müqavilələr bağlamaq sahibkarların

vəzifəsidir. Vacib hesab edilən malların qiyməti aşağı salındı. Havana Universitetinin muxtariyyəti bərpa olundu. Bütün bu tədbirlər xırda burjuaziya və zəhmətkeşlərin xeyli hissəsinin Qrau hökumətini dəstəkləməsinə səbəb oldu. Bununla bərabər hökumətin sağ qanadı Batistanın ətrafında qruplaşaraq köklü islahatların həyata keçirilməsinə mane olmaq üçün hökumət əleyhinə burjua-mülkədar müxalifətin liderləri ilə gizli danışıqlara girdi. Qrau San-Martini hökumətini devirmək üçün görülən hazırlıq işində Havanadakı ABŞ səfiri də yaxından iştirak edirdi.

1933-cü ilin dekabr -1934-cü ilin yanvarında Kuba hökuməti ABŞ inhisarçılarının mənafelərinə qarşı çevrilmiş bir sıra yeni tədbirlər həyata keçirdi. Hökumət Kuba-ABŞ şəkər kompaniyalarının müəssisələri və elektrostansiyalarının bir hissəsini öz idarəsi altına aldı; Şəkər qamışı plantasiyalarının fəhlələrinin əmək haqqı artırıldı. Maçado rejiminin tərəfdarlarına məxsus olan torpaqlar müsadirə edildi. 1933-cü ilin dekabrında Montevideoda keçirilən Panamerikan konfransında Kuba nümayəndəsi ABŞ-dan tələb etdi ki, "Platta düzəlişi"ndən əl çəksin və Müvəqqəti inqilabi hökuməti tanısın. Vaşinqton bu tələblə hesablaşmağa məcbur oldu, lakin bununla bərabər Kuba hökumətinin tərkibində dəyişikliklər edilməsini də təkid etdi

1934-cü ilin yanvar ayının 14-də Batista ABŞ səfirinin dəstəyi ilə prezident Qrau San-Martinini istefaya getməyə məcbur etdi. Qrau hökumətinin süqutu göstərdi ki, Kubanın milli burjuaziyası ABŞ imperializmi tərəfindən iqtisadi və siyasi təzyiqə qarşı müqavimət göstərməkdə acizdir. Çevrilişdən görd gün sonra ABŞ Kubanın yeni hökumətini tanıdı. Bu hökumətin tərkibinə burjua-mülkədar partiyalarının və «ABŞ»-ın sağ qanadının üzvləri daxil oldular. O dərhal fəhlə və kəndli hərəkatına qarşı hücuma başladı. Batistanın əmri ilə ölkədə hərbi vəziyyət elan edildi, fəhlə hərəkatının bir çox görkəmli xadimləri həbsxanalara salındı, həmkarlar ittifaqları buraxıldı.



ABŞ Kubada yeni hökumətin mövqeyini möhkəmlətməyə çalışırdı. ABŞ-ın 1934-cü ilin may ayında Kuba ilə imzaladığı müqaviləyə əsasən o, Kubanın Quantanamo hərbi-dəniz bazasında əvvəlcədən əldə etdiyi hüququ saxlayırdı. Siyasi dəstəklə yanaşı ABŞ Kuba hökumətinə iqtisadi yardım da göstərdi, bir çox Kuba mallarının tarifi aşağı salındı. Bu da Kuba iqtisadiyyatının inkişafına kömək etdi. 1934-cü ildən başlayaraq ABŞ mallarının Kubaya idxalı ikinci dünya müharibəsi başlayana qədər üç dəfə artdı.

Batista rejiminin sərtliyinə baxmayaraq 1934-cü ildə də ölkədə fəhlə və kəndli hərəkatı davam edirdi. 1935-ci ilin martında 700 mindən çox zəhmətkeş hərbi diktaturanın ləğv edilməsi, demokratik azadlıqların bərpası tələbi ilə tətil etsə də, nəticəsi olmadı.

1935-ci itlin mart tətilləri ilə 1933-1935-ci illərin burjua-demokratik inqilabı başa çatmış oldu. Bu inqilabın məğlub olmasının əsas səbəbi milli burjuaziyanın qorxaqlığı və qətiyyətsizliyi idi.

### *Kuba İkinci dünya müharibəsi ərəfəsində*

İnqilab üzərində qələbə çaldıqdan sonra hökumət formal da olsa, konstitusiyalı demokratiya yoluna qayıtdığını elan etdi. 1936-cı ilin yanvarında ölkədə parlament və prezident seçkiləri keçirildi. Əslində isə bütün hakimiyyət Batistannı əlində cəmləşmişdi, onun ixtiyarında 30 minlik ordu var idi. Rejimin bir qədər yumşaldılmasından istifadə edən demokratik qüvvələr demokratik quruluşun bərpası uğrunda mübarizəni davam etdirirdilər. Müəssislər məclisinin bərpası uğrunda mübarizədə təkcə fəhlələr deyil, burjua partiyalarının nümayəndələri də iştirak edirdilər. Batista prezident kürsüsünü tutmağa çalışaraq özünü müəssislər məclisinin çağrılmasının və yeni konstitusiyanın tərəfdarı elan etdi. Seçicilərin populyarlığını qazanmaq üçün o, "İqtisadi və sosial yenidənqurmanın" üçillik planını

nəşr etdirdi. Bir sıra islahatlar keçirilməsini lazım bildi. Hökumətin şəkər, tütün, dağ-mədən sənayesi üzərində nəzarəti qoyuldu, dövlət torpaqlarının müəyyən hissəsi yoxsul kəndlilərə verildi, fəhlələrin sosial sığortası təşkil edildi, siyasi məhbuslara amnistiya verildi və s.

1938-ci ilin sentyabrında kommunistlərin və digər inqilabi təşkilatların açıq fəaliyyətinə icazə verildi.

1939-cu ilin noyabrında fəhlə və kəndli hərəkatının yüksəlişi şəraitində Müəssislər məclisinə seçkilər keçirildi. 1940-cı ilin iyulunda Müəssislər məclisi Kubanın yeni konstitusiyasını qəbul etdi. Konstitusiyada əsas burjua-demokratik azadlıqlar olan söz, mətbuat, yığıncaq, nümayişlər azadlığı öz əksini tapdı. İrqi, sosial vəziyyətinə görə ayrı-seçkilik qadağan edildi. Hər iki cinsdən olan vətəndaşlar üçün ümumi seçki hüququ müəyyən edildi, 8 saatlıq iş günü qanuniləşdirildi, zəhmətkeşlər ikihəftəlik haqqı ödənilən məzuniyyət aldılar, sosial təminat hüququ qazandılar. Konstitusiyaya latifundizmin ləğvi, borcu verməməyə görə torpaqdan məhrum edilmənin qadağan edilməsi maddəsinin salınması xüsusilə mühüm əhəmiyyət kəsb edirdi.

1940-cı ilin iyulunda keçirilən prezident seçkilərində Batista 1940-cı il konstitusiyasına əsasən geniş sosial-iqtisadi dəyişikliklər tərəfdarlarını öz tərəfinə çəkərək rəqibi Qrau San-Martini üzərində qələbə çaldı. Onun qələbəsini Ağ ev də dəstəklədi. "Mehriban qonşuluq" siyasəti ABŞ-a imkan verirdi ki, özünün iqtisadi mövqeyini Kubada daha da möhkəmlətsin. Kubanın bütün xarici ticarəti, demək olar ki, ABŞ-a doğru istiqamətləndirilmişdi.

İkinci dünya müharibəsi dövründə Kuba xalqı 1940-cı il konstitusiyasının əsaslarının həyata keçirilməsi və ictimai-siyasi həyatın demokratikləşməsi uğrunda mübarizəni davam etdirdi.



1941-ci ilin dekabrında Kuba faşist bloku dövlətlərinə müharibə elan etdi, 1942-ci ilin oktyabrında isə SSRİ ilə diplomatik münasibətlər yaratdı.

# XIV. 1924-1939-CU İLLƏRDƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR

1924-cü ildə kapitalizmin qismən siyasi və iqtisadi sabitləşməsi dövrü başlandı. Beynəlxalq şəraitdə əmələ gəlmiş ciddi dəyişikliklər kapitalist ölkələrini öz xarici siyasətlərinə yenidən baxmağa məcbur etdi.

### *SSRİ-ni tanımaq dövrü*

Tezliklə dünya burjuaziyası özünün SSRİ-ni təcrid etmək siyasətindən əl çəkməyə məcbur oldu. Bu ilk növbədə SSRİ ilə iqtisadi əlaqələri inkişaf etdirməkdə onların maraqlı olmaları ilə bağlı idi. SSRİ-ni tanımaq mərhələsini İngiltərə açdı. Belə ki, İngiltərədə hakimiyyətə gəlmiş leyboristlər hökuməti 1924-cü il fevralın 1-də SSRİ-ni rəsmən tanıdığını bildirdi. Bunu ardınca İtaliya və Avstriya, Yunanıstan, Norveç, İsveç, həmin ilin fevral-martında, Çin 1924-cü ilin mayında, Fransa isə oktyabrında SSRİ ilə diplomatik münasibətlər yaratdı. Ümumiyyətlə, 1924-cü il ərzində 12 dövlət SSRİ-ni rəsmən tanıdı. 1924-cü il tarixə "SSRİ-nin tanınması dövrü" kimi də daxil oldu.

1925-ci il yanvarın 20-də SSRİ ilə Yaponiya arasında diplomatik münasibətlər yaradıldı, saziş bağlanıldı. Saziş Şimali Saxalinin Yaponiya tərəfindən boşaldılmasını nəzərdə tuturdu. Böyük dövlətlərdən bu dövrdə yalnız ABŞ SSRİ-ni tanımamaq siyasətini davam etdirirdi.

### *Sabitləşmə dövründə beynəlxalq münasibətlər (1924-1929-cu illər)*

20-ci illərdə qalib dövlətlər Almaniya üçün sülh şərtlərinin yumşaldılmasına çalışırdılar. 1924-cü ilin aprelində ABŞ generalı Çarlz Dauesin hazırladığı plan əsasında (bu "Daues plan"ı adlanır) Almaniyadan alınan təzminatın ümumi şərtini azaltmamaq şərti ilə illik ödənişin həcmi xeyli aşağı



salınırdı. Həmin ilin iyul-avqustunda keçirilən London konfransında Fransanın təzminat məsələsini tezliklə həll etmək təklifi rədd edildi. İngiltərə və ABŞ tərəfindən Almaniyaya 800 milyon marka istiqraz verildi. «Daues planı» İngiltərə-ABŞ blokunun ön plana çıxdığını göstərdi.

1925-ci ilin əvvəllərində Almaniya hökumətinin Reyndə mövcud vəziyyəti saxlanmasını təmin edən pakt layihəsini irəli sürməsindən Qərb dövlətləri SSRİ əleyhinə Almaniyanın da daxil olduğu ittifaq yaratmaq üçün istifadə etmək qərarına gəldilər. Bu məqsədlə çağrılan Lokarno konfransı 1925-ci il oktyabrın 5-dən 16-na qədər davam etdi. Bu konfransda İngiltərə, Fransa, Almaniya, İtaliya, Belçika, Polşa və Çexoslovakiyanın nümayəndələri iştirak edirdi. Konfransın qərarları içərisində İngiltərə, Fransa, Almaniya, Belçika və İtaliya arasında imzalanmış təminat paktı mərkəzi yer tuturdu. İngiltərə və İtaliya paktın təminatçıları elan edilirdilər. Fransa-alman və Belçika-alman sərhədlərinin toxunulmazlığını təmin edən, «Reyn təminat paktı» adlandırılan bu saziş alman – Polşa və alman-Çexoslovakiya sərhədlərinin təminatı haqqındakı məsələni açıq saxlayırdı. Bundan məqsəd isə Almaniya SSRİ əleyhinə təcavüz etmək istədikdə bu ərazilərdə Almaniya üçün azad hərəkat etmək imkanını təmin etmək idi.

Polşa və Çexoslovakiya xalqı qarşısında tam nüfuzdan düşməmək üçün Fransa Lokarnoda bu dövlətlərlə qarşılıqlı yardım haqqında xüsusi sazişlər imzaladı. Konfransda Almaniyanın Millətlər Cəmiyyətinə qəbul olunması haqqında razılıq da əldə edildi.

Lokarno konfransının qərarları alman imperializminin mövqelərini gücləndirdi. Fransanın isə mövqeləri zəiflədi. Belə ki, Fransa Almaniya əleyhinə sərbəst sanksiya tətbiq edə bilməzdi. Bu vaxtdan etibarən Fransanın öz təhlükəsizliyi İngiltərədən asılı olurdu. Fransa-alman sərhədlərinin təminatçısı

kimi İngiltərə iki tərəfdən hansının hücum edən tərəf hesab etmək məsələsini öz istədiyi kimi həll edə bilərdi.

SSRİ 1925-ci il oktybarın 12-də, Lokarno sazişləri imzalanmamışdan dörd gün əvvəl, Almaniya ilə ticarət müqaviləsi bağladı. Müqavilə Rapollo müqaviləsinin və sovet xarici ticarət inhisarının sarsılmazlığını təsdiq edirdi. Alman diplomatı Dirksen bu sazişi «kiçik əks – Lokarno» adlandırmışdı.

1926-cı il aprelin 24-də SSRİ ilə Almaniya arasında dostluq və bitərəflik haqqında müqavilə bağlandı. Müqavilədə göstərilirdi ki, tərəflərdən biri, hərəkətlərinin sülhsevərliyinə baxmayaraq, üçüncü bir dövlətin və yaxud üçüncü dövlətlər qrupunun hücumuna məruz qalarsa, digər tərəf bitərəfliyə riayət edəcəkdir. Müqavilə hər iki tərəfi, müqavilə bağlamış tərəflərdən birini iqtisadi və ya maliyyə cəhətdən baykota tutmaq məqsədi güdən üçüncü dövlətlərin ittifaqlarına qoşulmamağa məcbur edirdi. SSRİ Lokarno konfransından sonra öz beynəlxalq mövqeyini daha da möhkəmləndirmək üçün 1925-ci ilin dekabrın 17-də Türkiyə, 1926-cı il avqustun 31-də Əfqanıstan, 1927-ci il sentyabrın 28-də Litva ilə dostluq və bitərəflik, 1927-ci ilin oktyabrın 1-də isə İran ilə təminat və bitərəflik haqqında müqavilə bağladı.

1927-ci ildə SSRİ-də sosializm quruculuğuna mane olmaq məqsədi ilə İngiltərə başda olmaqla antisovet kompaniya başlandı. 1927-ci il fevralın 23-də İngiltərənin xarici işlər naziri U.Çemberlen Sovet hökumətinə göndərdiyi notada SSRİ-ni antibritaniya təbliğatı aparmaqda günahlandırdı. İngiltərə hökuməti 1927-ci il mayın 27-də SSRİ ilə ticarət və diplomatik münasibətləri kəsdi.

Kapitalizmin qismən sabitləşməsi dövrünün sonunda kapitalistlər dövlətləri daxilində başlıca ziddiyyətlər ABŞ ilə İngiltərə arasındakı ziddiyyətlər idi. İngiltərə bir sıra hallarda amerikan inhisarlarının təzyiqi altında geri çəkilirdisə də, lakin öz müstəmləkə imperiyasından möhkəm yapışırdı. O, dənizlərdə itirdiyi hökmranlığı geri qaytarmağa cəhd edir və bu məqsədlə ingilis və ABŞ donanmalarının bərabərliyi haqqındakı Vaşinqton konfransının qərarlarına yenidən baxılmasına çalışırdı.



İngilis-amerikan ziddiyyətləri ilə yanaşı ABŞ ilə Yaponiya, Fransa ilə Almaniya, Fransa ilə İtaliya arasındakı ziddiyyətlər də inkişaf edirdi.

Cənub-Şərqi Asiyada və Sakit Okeanda hökmranlıq uğrunda yapon-amerikan mübarizəsi bu dövrdə ən kəskin şəkil almışdı. Yaponiyanın «pozitiv», yəni açıq hücumçu siyasəti 1927-ci ildə yapon hərbçilərinin başçısı general Tanaka tərəfindən müəyyənləşdirilmişdi. Bu planda SSRİ-nin bütün Asiya hissəsinin və Çinin işğalı ən mühüm yer tuturdu. ABŞ əleyhinə amansız mübarizə bu təcavüzkar siyasətin bir hissəsini təşkil edirdi. ABŞ isə Çini «birləşdirmək» şüarından öz xeyri üçün istifadə edərək burada öz iqtisadi və siyasi mövqelərini xeyli genişləndirdiyi üçün Tanaka planı onu narahat edirdi.

20-ci illərin sonunda Avropada hərbi qarşıdurma təhlükəsi gücləndi. Bu sürətlə silahlanmaya təkan verdi. Dövlətlərin hərbi büdcələri artırıldı, orduların sayı çoxaldıldı. Nəticədə Millətlər Cəmiyyəti 1927-ci ilin payızında Cenevrədə tərksilaha dair xüsusi məsələ müzakirə etməyə məcbur oldu. Millətlər Cəmiyyəti yanında Beynəlxalq Təhlükəsizlik Komitəsi yaradıldı.

Beynəlxalq siyasi şəraitin yumşaldılmasında ABŞ, Fransa, Böyük Britaniya, Almaniya, Yaponiya və s. ölkələrin nümayəndələri tərəfindən 1928-ci ilin avqustunda Parisdə imzalanmış Brian-Kelloq (Brian Fransanın xarici işlər naziri, Kelloq isə ABŞ-ın dövlət katibi idi) paktının da müəyyən rolu olmuşdu. Müxtəlif vaxtlarda bu pakta 48 dövlət, o cümlədən, SSRİ də qoşulmuşdu. Pakta imza atan tərəflər müharibədən imtina etməyi, bütün münaqişələri və mübahisəli məsələləri dinc yolla həll etməyi öhdələrinə götürmüşdülər.

Müharibədən sonra Mərkəzi və Cənub-Şərqi Avropa dövlətlərində də şərait dəyişmişdi. Bu bölgədə mövcud vəziyyəti qoruyub saxlamaq marağı Çexoslovakiya, Rumıniya və Yuqoslaviyanın bir-birinə yaxınlaşmasının zəruriliyini tələb edirdi. Buna görə də onlar Fransanın rəhbərliyi altında «Kiçik Antanta» adlandırılan ittifaq yaratmışdılar. Bu ittifaq 1938-ci ilə qədər mövcud olmuşdu.

1926-cı ildə Türkiyə ilə Böyük Britaniya arasında bağlanan müqaviləyə əsasən Mosul münaqişəsinə son qoyuldu. Mosul vilayəti İraqın tərkibində qaldı, əvəzində isə Türkiyə kompensasiya aldı

XX əsrin 20-ci illərində beynəlxalq münasibətlərdə müəyyən mənada nisbi sakitlik hökm sürürdü.

### *Dünya iqtisadi böhranı və ikinci dünya müharibəsi ərəfəsində beynəlxalq münasibətlər*

1929-1933-cü illərin dünya iqtisadi böhranı kapitalist dövlətləri arasında ziddiyyətləri daha da kəskinləşdirdi. Bunun əsas mənbəyi isə kapitalist dövlətlərinin iqtisadi və siyasi inkişafının qeyri-bərabərliyinin güclənməsi idi.

İqtisadi böhranın və silahlanmanın qarşısını bütün dövlətlərin səyi ilə almaq məqsədilə Fransanın xarici işlər naziri A.Brian 1930-cu ilin mayında SSRİ də daxil olmaqla Avropanın 27 dövlətinə "Avropa Federal İttifaqı"nı yaratmaq təşəbbüsü ilə müraciət etdi. Bu plan " Pan avropa planı" kimi tarixə daxil oldu. Lakin Avropada Fransanın hegemon olacağında ehtiyat edən Avropa dövlətləri bu planın reallaşmasına imkan vermədilər.

Dünya iqitsadi böhranı illərində hərbi dəniz gəmilərinin tikintisinə dair həll olunmamış məsələləri qaydaya salmaq üçün 1930-cu ilin yanvarın 21-dən aprelin 22-dək Londonda keçirilən dəniz konfransında ABŞ, İngiltərə və Yaponiya arasında donanma sahəsində münaisbətlər qismən tənzimləndi.



30-cu illərin başlanğıcında bir tərəfdən Almaniya, İtaliya, Yaponiya, digər tərəfdən isə Böyük Britaniya, Fransa, ABŞ arasında ziddiyyətlər nəzərə çarpacaq dərəcədə kəskinləşdi. Faşist dövlətləri SSRİ-ni məhv etməyə, həmçinin öz imperialist rəqiblərini darmadağın etmək yolu ilə dünyanı yenidən bölüşdürməyə çalışırdılar. Böyük Britaniya, Fransa və ABŞ-ın hakim dairələri faşist təcavüzkarlarını SSRİ üzərinə hücuma təhrik edərək belə hesab edirdilər ki, müharibədə hər iki tərəf qüvvədən düşəcək və müharibədən sonrakı dünyada öz mövqelərini gücləndirəcəklər.

İmperilistlərarası ziddiyyətlərin kəskinləşməsi antisovet sövdələşmə imkanını qətiyyən istisna etmirdi. Antikommunizm zəncirində eyni vaxtda faşist dövlətləri təcavüzkar xarici siyasət xətti yeridirdilər ki, 30-cu illərdə Böyük Britaniya, Fransa, ABŞ bunu müdafiə edirdilər.

Dünyanı yenidən bölüşdürmək uğrunda silahlı mübarizəyə birinci olaraq Çində və Sakit Okean hövzəsində şəriksiz hökmran olmaq istəyən Yaponiya başladı. 1931-ci ilin sentyabrında yapon ordusu Çinə soxuldu və üç ay ərzində Mancuriyanı işğal etdi. ABŞ, Böyük Britaniya və Fransa Yaponiyanın tezliklə SSRİ üzərinə hücum edəcəklərini gözlədikləri üçün təcavüzkara qarşı çıxmadılar.

Bundan başqa onlar yapon ordusunun gücü ilə Çin xalqının milli-azadlıq hərəkatını yatırmaq ümidində idilər.

Yaponiya bütün Mancuriyanı işğal edərək tutulmuş ərazidə oyuncaq Mançyou Qo dövlətini yaratdı. Yalnız 1933-cü ilin fevralında Millətlər Cəmiyyəti Mancuriyanın işğalını ifşa edən qətnamə qəbul etdi və onun Çinə qaytarılmasını tələb etdi. Buna cavab olaraq 1933-cü ilin martında Yaponiya Millətlər Cəmiyyətindən çıxdı və yeni işğallara hazırlaşmağa başladı. 1937-ci ildə o, Çinə qarşı yenidən müharibəyə başladı. 1939-cu ilin payızında Yaponiya ölkənin cənubundakı Tayvan adasına qədər ərazi daxil olmaqla Çinin sahilboyu torpaqlarının çox

hissəsini zəbt etdi. 1938-1939-cu illərdə Xasan gölü və Xalxin-Qol çayı sahilində olan döyüşlərdə yapon qoşunları sovet ordusu tərəfindən ciddi məğlubiyyətə uğradıldı. Bu hadisədən sonra Yaponiya SSRİ-yə hücum etmək planını təxirə salmalı oldu.

İkinci müharibə ocağı Avropada yarandı ki, bunun da əsas günahkarları Almaniya və İtaliya idi. Almaniyada faşistlərin hakimiyyətə gəlməsi Avropada müharibə ocağının yaranması üçün başlanğıc oldu. Faşistlər dünya ağalığına can ataraq Avropanı özlərinə tabe etməyi birinci dərəcəli vəzifələri hesab edirdilər. Hitlerçilərin planında Şərqdə «çox zəruri ərazilər» tutmaq, yəni SSRİ-yə qarşı hərbi yürüşə başlamaq nəzərdə tutulurdu.

ABŞ və İngiltərə maliyyə-sənaye maqnatlarının alman inhisarları ilə çoxillik əlaqəsi Almaniyanı «sakitləşdirmə» siyasətinin iqtisadi əsasını təşkil edirdi. 1933-cü ilin oktyabrında Almaniya nümayişkaranə surətdə Millətlər Cəmiyyətindən çıxdı və bu addımla sürətlə silahlanma və təcavüz üçün öz əlqolunu tamam açdı. 1934-cü ildə alman kəşfiyyatı vasitəsilə Avstriya kansleri Dolfusun, Yuqoslaviya kralı Aleksandrın, Fransanın xarici işlər naziri Lui Bartunun öldürülməsi Avropada gərginliyi daha da artırdı. 15 il ərzində Millətlər Cəmiyyətinin idarəsi altında olan Saar vilayəti ümumxalq səsverməsi nəticəsində 1935-ci il martın 1-də Almaniyaya keçdi.Bu Almaniyanın sənaye bazasını nəzərə çarpacaq dərəcədə gücləndirdi.

Hitler Versal müqaviləsinin hərbi maddələrini birtərəfli surətdə pozaraq 1935-ci ilin martında ümumi hərbi mükəlləfiyyət keçirdi. 1935-ci il ingilis-alman dəniz müqaviləsi almanlara hərbi dəniz donanmasını artırmağa, sualtı qayıqlar hazırlamağa yol açdı ki, bu da faktiki olaraq Versal sazişlərinə ikitərəfli yenidən baxılması demək idi. 1936-cı ilin martında alman ordusu hərbisizləşdirilmiş Reyn zonasını tutdu. Hitler əslində bu addımı ilə riskə getdi. O bilirdi ki, Fransanın təhlükəsizliyini zərbə altında qoyan bu addım Fransa tərəfindən silahlı



müqavimətə səbəb ola bilər və həm də bu dövrdə qüvvələr nisbəti Almaniyanın xeyrinə deyildi. Çünki onun 36, Fransa və Çexoslovakiyanın isə 55 dviziyası var idi. Lakin Fransa hökuməti heç bir fəaliyyət göstərmədi, bu isə Hitlerin yeni müharibəyə hazırlığını gücləndirdi. Versal sistemi iflasa uğramış oldu.

Dünyanın yenidən bölüşdürülməsi «kiçik müharibələrdən» başlandı. Almaniya və Yaponiya ilə birlikdə Afrika və Aralıq dənizi hövzəsində geniş müstəmləkə imperiyası yaratmaq xətti götürmüş faşist İtaliyasının böyük xammal sərvətləri və mühüm strateji mövqeyi olan Efiopiyanı işğal etmək ən yaxın məqsədi idi. 1935-ci ilin oktyabrında yaxşı silahlanmış İtaliya ordusu Efiopiyaya soxuldu. 1936-cı ilin mayında Efiopiya xalqının inadlı müqavimətinə baxmayaraq paytaxt Əddisəbəbə tutuldu. Efiopiya İtaliyanın müstəmləkəsi elan edildi. Qərb dövlətlərinin köməyi nəticəsində İtaliya buna nail oldu.

Beynəlxalq ictimaiyyətin təzyiqi altında Millətlər Cəmiyyəti İtaliyanı təcavüzkar dövlət elan etməyə məcbur oldu və onunla ticarətdə bəzi məhdudiyyətlər qoydu. Lakin bu tədbirlər vəziyyəti dəyişdirmədi. Belə ki, İtaliya sanksiyalarda iştirak etməyən ölkələrlə, məsələn, ABŞ-la ticarəti genişləndirdi.

İkinci dünya müharibəsinin törədilməsi yolunda yeni addım İspaniyaya İtaliya-Almaniya müdaxiləsi oldu. Almaniya və İtaliyanın bu müdaxilədə əsas məqsədi İspaniyada faşist idarə üsulunun qurulmasına nail olmaq idi. İngiltərənin təşəbbüsü ilə 27 dövlətin daxil olduğu. “İspaniya işlərinə qarışmamaq komitəsinin yaradılması imkan verdi ki, İspaniyada faşist diktaturası qurulsun. İspaniya təcavüzkar dövlətləri müxtəlif xammal və ərzaqla təchiz edən əsas ölkə oldu. Bundan başqa vermaxt İspaniya ərazisindən öz aviasiya və tankları ilə hərbi manevrlər etmək, hərbi təcrübə qazanmaq və hərbi strategiyanı təkmilləşdirmək üçün meydan kimi də istifadə edirdi.

İtaliya-Almaniya müdaxləsi və İspaniyanın faşist dövlətlərinin müttəfiqinə çevrilməsi İngiltərə və Fransanın müstəmləkəri ilə dəniz rabitəsi üçün birbaşa təhlükə yaradırdı. Hər iki dövlətin hərbi-dəniz bazaları üçün də müəyyən təhlükə yaranırdı. Bu Fransa üçün daha ağır nəticələr verə bilərdi. Çünki o, faşist dövlətlərinin mühasirəsində qalmış olurdu. Lakin ingilis və fransız imperialistlərinin siyasətində antisovetizm daha çox üstünlük təşkil etdiyindən onlar İspaniyada faşist diaktaturası qurulmasına mane olmadılar.

Ciddi surətdə dünya müharibəsinə hazırlaşan Almaniya, İtaliya və Yaponiya tədricən hərbi blok yaratmağa başladılar. 1936-cı ilin oktyabrında beynəlxalq siyasətin əsas məsələlərində birgə fəaliyyət, Mərkəzi və Cənub-Şərqi Avropada nüfuz dairələrinin hüdudlarını müəyyən etmək haqqında Almaniya-İtaliya müqaviləsi imzalandı. Eyni vaxtda təcavüzkar planları həyata keçirməkdə əməkdaşlığa marağı olan Almaniya Yaponiya ilə yaxınlaşdı. 1936-cı ilin noyabrında Almaniya ilə Yaponiya "Antikomintern paktı" bağladılar. Bir ildən sonra İtaliya da bu pakta qoşuldu. Əslində faşist-militarist koalisiyası dünyanı Almaniya, İtaliya və Yaponiya inhisarlarının mənafeyinə uyğun bölmək uğrunda müharibənin hazırlanması və törədilməsi məqsədi ilə meydana çıxmışdı. Blokun əsas zərbəsi təkcə SSRİ-yə qarşı deyil, həmçinin ABŞ, İngiltərə və Fransaya qarşı da çevrilmişdi. "Antikomintern paktı" bağlandıqdan sonra faşist dövlətlərinin təcavüzkarlığı daha da artdı. Faşist dövlətləri təcavüzün yeni aktını Avropada da törətdilər. Bunlardan birincisi, almanların məskunlaşdığı bütün ərazilərin birləşdirilməsi şüarı altında Avstriyanın Almaniyaya "birləşdirilməsi" (anşlüs) oldu. Bu addımı atmazdan əvvəl Hitler Britaniya hökumətinin razılığını aldı. Almaniyanı "Qərbin bolşevizmə qarşı qalası" hesab edən İngiltərənin hakim dairələri, ona Mərkəzi və Şərqi Avropada fəaliyyət sərbəstliyi verdilər.



Avropanın İngilətərə və Fransaya arxalanan kiçik dövlətləri faşist blokunun təcavüzkarlığına qarşı birləşmək cəhdi göstərirdilər. 1934-cü ildə Yunanıstan, Rumıniya, Türkiyə və Yuqoslaviya "Balkan Antantası" adlanan ittifaq yaratdılar. Lakin sonrakı hadisələr göstərdi ki, belə cəhdlər kiçik ölkələrə Almaniya və İtaliya təcavüzündən xilas olmağa təminat vermir. İkinci dünya müharibəsi başlanmazdan əvvəl "Balkan Antantası" dağıldı. Ərizsinin təhlükəsizliyini təmin etmək üçün Türkiyə boğazlara dair Lozanna konvensiyasına yenidən baxılmasına nail oldu 1936-cı ilin iyunun 22-dən iyulun 20-dək İsveçrənin Möhtre şəhərində çağırılan konfransda boğazlar məsələsində Türkiyəyə böyük üstünlüklər verildi. Boğazlar faktiki olaraq Türkiyənin daxili sularına çevrildi. Qara dənizə çıxışı olmayan ölkələrin hərbi gəmilərinə istər müharibə, istərsə də dinc dövrdə boğazlardan keçmək qadağan edilirdi. İqtisadi və siyasi cəhətdən Balkanlarda hakim olmaq siyasəti yeridən İtaliya 1939-cu ilin aprelində Albaniyanı işğal etdi.

Təcavüzkar bloka qarşı digər blokun yaradılmaması onların işğallarını daha da genişləndirməsinin səbəblərindən biri idi. 30-cu illərin sonunda dünyada burjua-demokratik, sovet və totalitar-militarist qüvvələri mövcud idi. Dövr tələb edirdi ki, totalitar-inzibati bloka qarşı burjua-demokratik və sovet qüvvələri birləşsin.Lakin bu alınmadı. Çünki burjua-demokratik qüvvələr sovet qüvvəsinə faşist militarizminə nisbətən daha qatı düşmən kimi baxırdılar və onları bir-birinə qarşı qoymaq siyasəti yeridirdilər.

ABŞ XX əsrin 20-30-cu illərində yenə də təcridçilik siyasətini davam etdirir, narahat Avropanın işlərinə qarışmamağı lazım bilirdi. 1935-ci ilin avqustunda ABŞ konqresinin qəbul etdiyi "Bitərəflik haqqında" qanun da buna xidmət edirdi. Həmin qanun müharibə edən ölkələrdən hər birinə onların ədalətli və ya ədalətsiz müharibə aparmalarına baxmayaraq silah satmağı qadağan edirdi. Lakin 30-cu illərin ikinci yarısında prezident

F.Ruzvelt başda olmaqla "beynəlmiləlçilər" qrupu yarandı ki, onlar faşizmə qarşı mübarizədə Avropanın qabaqcıl dövlətləri ilə əməkdaşlıq etməyi lazım bilirdilər. Bunun nəticəsi idi ki, ABŞ konqresi Almaniya ilə müharibə aparan ölkələrə 1939-cu ilin sentyabrın sonunda silah satmağa icazə vermişdi.

SSRİ XX əsrin 20-ci illərində öz xarici siyasətini kapitalist dövlətlərinin hər hansı gözlənilməz hücumunu dəf etməyə istiqamətləndirmişdi. Lakin yeni müharibə ocaqlarının yaranması, xüsusilə Almaniyada faşizmin hakimiyyət başına gəlməsi onun xarici siyasətində əsaslı dəyişikliyə səbəb oldu. 1933-cü ildə SSRİ kollektiv təhlükəsizlik sistemi yaratmaq təklifi ilə Avropa dövlətlərinə müraciət etdi. 1933-cü ilin noyabrında SSRİ ilə ABŞ arasında diplomatik münasibətlər yaradıldı. SSRİ 1934-cü ilin sentyabrında 30 dövlətin dəvəti ilə Millətlər Cəmiyyətinə daxil edildi.

1935-ci ilin mayında SSRİ-nin təşəbbüsü ilə təcavüzkara qarşı qarşılıqlı yardım haqqında Sovet-Fransa, Sovet-Çexoslovakiya paktları imzalandı. Çexoslovakiya hökumətinin təkidi ilə Sovet-Çexoslovakiya paktına belə bir şərt də əlavə edildi ki, təcavüzün qurbanına Fransa da köməyə gələrsə, qarşılıqlı yardım haqqında öhdəlik qüvvəyə minir. Bu isə əslində müqavilənin təsirini zəiflədirdi.

Təcavüzkarın cəzalandırılmaması Almaniyanı yeni işğallara sövq etdi.Hitlerçilər indi diqqətlərini əlverişli strateji mövqeyi və inkişaf etmiş sənayesi olan Çexoslovakiyaya yönəldərək alman milli azlığının yaşadığı Sudet vilayətinin ona verilməsi tələbi ilə çıxış etdilər. ABŞ, İngiltərə və Fransa guya "sülhü xilas etmək" naminə Almaniyaya güzəştə getməyi lazım bildlər. 1938-ci ilin sentyabrın 29-30-da İngiltərənin baş naziri N.Çemberlen, Fransanın baş naziri E.Daladye, İtaliyanın "duçe"si B.Mussolini və Almaniyanın "fürerı" A.Hitlerin iştirakı ilə Münhendə konfrans oldu. İngiltərə və Fransanın faşist dövlətləri ilə sövdələşməsi Çexoslovakiyanın parçalanması haqqında qeyri-qanuni müqavilənin imzalanması ilə möhkəmləndirildi. Çexoslovakiya ərazisinin və əhalisinin $\frac{1}{3}$-ni təşkil edən Sudet vilayəti və başqa rayonlar Hitler Almaniyası, burjua-mülkədar Polşası və Xorti Macarıstanına verildi. Çexoslovakiyanı parçalayarkən Böyük Britaniya və Fransa hakim dairələri ümid edirdilər ki, Hitler daha istiqamətini SSRİ-yə qarşı yönəldəcəkdir. Lakin onlar tezliklə yanıldıqlarını müşahidə etməli oldular. Çünki Münhen sövdələşməsi Almaniyanın iştahasını daha da artırdı. 1939-cu ilin martında Almaniya Çexoslovakiyanın qalan hissəsini də işğal etdi. Çexiya və Moraviya Almaniya "protektoratı" oldular, "Müstəqil" Slovakiyada isə oyuncaq faşist hökuməti yaradıldı. Münhen sövdələşməsi Almaniyanın strateji mövqeyini möhkəmləndirdiyinə, Fransa və İngiltərənin isə beynəlxalq aləmdə öz mövqelərini əldən verməlærinə şərait yaratdığına görə İkinci dünya müharibəsinin başlanması yolunda mühüm addım oldu.

Münhen sazişi ilə SSRİ beynəlxalq aləmdən təcrid olunmuş oldu. Hitler və Çemberlen bir-birinə hücum etməmək haqqında alman-ingilis deklarasiyasını imzaladılar ki, bununla da Almaniyaya Şərqi Avropada azad hərəkət etmək imkanı verildi. Belə bir deklarasiya 1938-ci ilin dekabrında Almaniyaya Fransa tərəfindən də verildi. Bu, SSRİ ilə qarşılıqlı yardım haqqındakı müqavilənin əhəmiyyətini heçə endirdi. Münhen sazişinin ABŞ tərəfindən müdafiə olunması və Yaponiya tərəfindən bəyənilməsi SSRİ-ni ona qarşı vahid antisovet koalisiyanın yarana biləcəyi qorxusuna saldı. Lakin hitlerçilər və onların müttəfiqləri zərbəni ilk növbədə daha zəif rəqiblərə endirməyi qərara almışdılar.

SSRİ 1939-cu ilin noyabrında Finlandiya ilə müharibəyə başladığına görə elə həmin ilin dekabrın 14-də təcavüzkar dövlət kimi Millətlər Cəmiyyətindən çıxarıldı.

Qərb dövlətlərinin təcavüzkara yardım siyasətinə keçməsi yeni işğallara yol açdı. 1939-cu ilin martında nasistlər Litvanın liman şəhəri Klaypedanı tutdular. Hələ 1938-ci ilin payızında Almaniya Polşadan Qdanskın Almaniyaya birləşdiriliməsini və bu ölkənin "Antikominetrn paktı"nda iştirakını tələb etdi. Lakin rədd cavabı aldı. 1939-cu ilin yazında Berlin ikinci dəfə bu tələblə Varşavaya müraciət edib rədd cavabı aldıqda, 1939-cu ilin aprelində Polşanın tamamilə ləğv edilməsi haqqında "Vays" ("Ağ") planını təsdiq etdi. «Polşa» böhranı meydana çıxdı. Polşaya hücum 1939-cu il avqustun 26-na təyin edilmişdi. Belə olduqda qərb dövlətləri Münhen kursunun həyata keçirilməsi taktikasını dəyişdirməyə məcbur oldular. İngiltərə və Fransa hökumətləri öz ölkələrinin müdafiəsini möhkəmləndirmək üçün bəzi tədbirlər gördülər. Parlamentlər iri həcmli hərbi təxsisatları təsdiq etdilər. İngiltərədə ümumi hərbi mükəlləfiyyət keçirildi. Kiçik dövlətlər, o cümlədən Polşa və Rumıniya onlara qarşı təcavüz olduqda ingilis-fransız yardımına zəmanət aldılar.

Qərb dövlətlərinin uzaqgörən siyasi xadimləri təcavüzə qarşı mübarizədə SSRİ ilə əməkdaşlığa mühüm əhəmiyyət verirdilər.

1939-cu ilin aprelin 17-də SSRİ Qərb dövlətlərinə bərabər öhdəliklərə əsaslanan üçtərəfli saziş və hərbi müqavilə bağlamağı təklif etdi. Bu müqavilədə Baltik və Qara dəniz arasında yerləşən dövlətlərə qarşı təcavüz olduqda onlara yardım göstərilməsi nəzərdə tutulurdu. İngiltərə isə ancaq SSRİ-nin Polşaya və Rumıniyaya qarşı öhdəliklər götürməsini istəyirdi. Əslində İngiltərə hökuməti Almaniyanın-Şərqdə təcavüzünə imkan yaratmağa, üçtərəfli danışıqlarla Almaniyaya təzyiq göstərməyə, həmçinin sovet-alman yaxınlaşmasına mane olmağa üstünlük verirdi.

1939-cu ilin mayından etibarən İngiltərə eyni zamanda dünyanı nüfuz dairələrinə bölmək və bazarlarda birgə əməkdaşlıq etmək üçün əvvəlcədən zəmin yaratmaq məqsədilə Alma-



niya ilə də məxfi danışıqlar aparırdı. Berlin də şərqdə ona sərbəstlik verilməsi şərti ilə geniş ingilis-alman sazişi bağlamaq üçün qapını açıq qoymuşdu.

İngiltərə və Fransa ilə əməkdaşlığa səy göstərən sovet tərəfi Qızıl Ordunun Baş qərargahı tərəfindən hazırlanmış təklifləri irəli sürdü. Almaniyanın təcavüzü zamanı sovet qoşunlarının onun ərazisindən keçməsinə icazə verilməsi təklifini Polşa hökuməti rədd etdi. İngiltərə və Fransa Varşavaya lazımi təsir göstərə bilmədilər, nəticədə Moskva danışıqlarını nüfuzdan saldılar. Danışıqların baş tutmamasının əsas səbəblərindən biri İngiltərə və Fransanın mühafizəkar dairələrinin SSRİ-yə başqa ölkələrdə inqilabi hərəkatların katalizatoru funksiyasını yerinə yetirən bir dövlət kimi baxması, onun xarici siyasətinə şübhə ilə yanaşmaları idi. Digər səbəb isə ordunun ali komanda heyətinə tutulan divan nəticəsində SSRİ-də ordunun döyüş qabiliyyəti səviyyəsinin aşağı düşməsi idi. Nəticədə Rusiyaya Avropa və dünyanın ikinci dərəcəli dövləti kimi baxmaq meyli formalaşdı.

Hərbi təhlükənin artdığı bir şəraitdə SSRİ Almaniyanın hücum etməmək haqqında müqavilə bağlamaq təklifini qəbul etmək məcburiyyətində qaldı. SSRİ buna təklənməkdən xilas olmağın yeganə yolu kimi baxırdı. Sovet tərəfi Almaniyanın xarici işlər naziri Ribbentropun Moskvaya gəlməsinə razılıq verdi. Onunla danışıqları Stalin və Molotov aparırdı.

1939-cu il avqustun 23-də Almaniya ilə SSRİ-nin bir-birinə qarşı hər cür zorkaılıqdan, hər cür təcavüz hərəkətindən (istər tək, istərsə də başqa dövlətlərlə birlikdə) imtina etməyi öhdələrinə götürməsini nəzərdə tutan 10 il müddətinə bir-birinə hücum etməmək haqqında sovet-alman müqaviləsi imzalandı. Müqavilənin məzmunu 1926-cı il müqaviləsinin başlıca müddəasına əsaslanırdı. Lakin Moskvada Molotov və Ribbentrop Baltik dənizindən Qara dənizədək hər iki tərəfin "maraq dairəsini" müəyyənləşdirən "gizli əlavə protokol" da imzaladılar.

Protokolda alman müdaxiləsinin şərqə doğru hüdudları müəyyən olundu Almaniya Pribaltika respublikalarına və Finlandiyaya soxulmamaq barədə öhdəlik götürürdü. Alman qoşunlarının irəliləməsi Tissa, Narev, Visla və San çayları xətti ilə məhdudlaşdırılırdı. Polşa dövlətinin tərkibinə daxil olan və əhalisi ukraynalı və beloruslardan ibarət olan rayonların gələcək taleyi SSRİ-nin razılığı olmadan həll edilə bilməzdi. Almaniya 1918-ci ildə Rumıniyaya birləşdirilmiş Bessarabiyaya SSRİ-nin marağı faktı ilə də razılaşırdı. Lakin hadisələrin sonrakı gedişi göstərdi ki, bu müqavilə ilə Almaniyanın SSRİ üzərinə hücumunun ancaq vaxtı uzadılmış, qarşısı isə alınmamışdır. Bu sənədlərin imzalanması Hitlerə Polşaya qarşı tərtib etdiyi planı həyata keçirmək üçün şərait yaratdı. Bu da İkinci dünya müharibəsinə gətirib çıxartdı.

Sovet-alman müqaviləsi Yaponiyanın siyasətinə də təsir göstərərək onu təcavüzkarlıq istiqamətini dəyişməyə məcbur etdi.

Almaniyanın SSRİ üzərinə hücumu ilə 1939-cu il SSRİ-Almaniya müqaviləsi və onun gizli protokolu qüvvədən düşmüş oldu.



# XV. İKİNCİ DÜNYA MÜHARİBƏSİ

## *1. İkinci dünya müharibəsinin səbəbləri*

XX əsrin ən mühüm hadisələrindən biri olan İkinci dünya müharibəsi bəşəriyyət tarixində ən böyük hərbi-siyasi münaqişə idi. İkinci dünya müharibəsinin başlanması üçün şəraitin yaranmasında 1929-1933-cü illərin dünya iqtisadi böhranı mühüm rol oynadı. Böhran beynəlxalq münasibətləri gərginləşdirdi. Bir sıra dövlətlər mövcud nüfuz dairələri, xammal və satış bazarlarını yenidən bölüşdürməyə can atdılar. Almaniya və Yaponiya Versal sülhünün "alçaldıcı" şərtlərini ləğv etməyə çalışırdılar. Birinci dünya müharibəsində məğlub olmuş və çox ağır şərtləri qəbul etməyə məcbur edilmiş Almaniya, qalib gəlsə də, demək olar ki, heç nə qazanmayan Yaponiya və qaliblər içərisində məğlub vəziyyətində olan İtaliyada qisas hissi çox güclü idi. Onlar "ədaləti bərpa etmək" arzusu ilə yaşayırdılar.

İkinci dünya müharibəsi ərəfəsində imperialist dövlətlərinin iki qruplaşması meydana gəldi. Bunlardan biri Hitler Almaniyası, Yaponiya və İtaliya, digəri isə İngiltərə, Fransa və ABŞ-dan ibarət idi. Bu iki kapitalist qruplaşması dünyanı yenidən bölüşdürmək üzərində bir-biri ilə mübarizə aparırdılar. Hitler Almaniyası slavyan və digər sovet xalqlarını əsarət altına salmaq, Avropada qeyri-məhdud hökmranlıq yaratmaq, Afrikanı, Yaxın Şərqi ələ keçirmək yolu ilə özünün müstəmləkəçi imperiyasını qurmaq istəyirdi. Almaniyanın işğalçılıq planlarından zəngin təbii sərvətlərə, ilk növbədə neftə və strateji coğrafi mövqeyə malik olan Azərbaycan da kənarda qalmamışdı. Pozenberqin «Qafqazın idarə edilməsi» planına görə ilk vaxtlar Azərbaycanda yaradılan Komissarlıq idarə forması Tiflisdə yerləşən Qafqaz reyxkomissarlığına tabe edilməli, SSRİ işğal edildikdən sonra isə Azərbaycanın daxil

olduğu bütün türk xalqlarını birləşdirən «Böyük Türküstan» dövləti yaradılması idi.

Hitlerin Qafqaza hücum planı «Edelveys» adlanırdı. Bu plana görə Bakı 1941-ci il sentyabrın 25-də alınmalı və hərbi məntəqəyə çevrilməli idi.

İtaliya Əlcəzairi, Sudanı və İngiltərəyə məxsus olan əraziləri tutmaq fikrində idi. Yaponiya Çin, Hind-Çin, Hindistan, Seylon, Birma, İndoneziya, Filippin və Sakit okeanda olan bir sıra adaları zəbt etmək istəyirdi.

Yapon millitaristləri Sovet Uzaq Şərqinə də göz dikmişdilər. Almaniya və Yaponiyanın bu işğalçı planları İngiltərə, Fransa və ABŞ-ın mənafeyi əleyhinə idi. İngiltərə, Fransa və ABŞ öz xammal və satış bazarlarını, nüfuz dairələrini qoruyub saxlamaq istəyirdilər.

ABŞ və Böyük Britaniya Azərbaycana da xüsusi maraq göstərir və Qafqaza dair «Vilvet» planını tərtib etmişdilər. Planda Azərbaycanı SSRİ-dən ayırmaq, burada Sovet Ordusunun Qafqazdan çıxarılıb Stalinqrada aparılması, ABŞ və Böyük Britaniyanın hərbi qüvvələrinin yerləşdirilməsi nəzərdə tutulurdu. SSRİ Şərqi Avropanı ələ keçirməyə, Qara dəniz boğazlarında, Ön və Cənubi Asiyada, Uzaq Şərqdə nüfuz dairələrini genişləndirməyə çalışırdı. Sovet rəhbərliyi Azərbaycan əhalisinin zorla Orta Asiya və Qazaxıstana köçürülməsi barədə də məhşur plan hazırlamışdı. Buna səbəb isə dövlətin azərbaycanlılara etibar etmədiyi göstərilirdi.

Burjua-demokratik dövlətlərin totalitar rejimləri bir-birinə qarşı qoyub zəiflətmək və məhv etmək istəyi də müharibənin başlanması səbəblərindən idi.

Müharibənin başlanmasının bir səbəbi də faşizm təhlükəsinin lazımınca qiymətləndirilməməsi idi. İngiltərə və Fransanın SSRİ-yə ciddi hərbi-siyasi qüvvə kimi baxmamaları da müharibənin başlanmasına imkan verən amillərdən idi.



Almaniya ilə SSRİ arasında bağlanmış bir-birinə hücum etməmək haqqında 1939-cu il 23 avqust müqaviləsi də Şərqdən təhlükə gözləməyən Hitlerə tezliklə müharibəyə başlamaq imkanı verdi.

Böyük Britaniya, Fransa və ABŞ-ın hakim dairələri Almaniya və Yaponiyanı SSRİ-yə qarşı çevirmək yolu ilə imperialist ziddiyyətləri həll etmək fikrində idilər. Bu zaman sosialist ölkəsi olan SSRİ ilə kapitalist dövlətləri arasında ziddiyyətlər kapitalist dövlətləri arasındakı ziddiyyətlərdən zəif idi. Buna görə də İkinci dünya dünya müharibəsi SSRi ilə kapitalist dövlətləri arasında deyil, 1939-cu il sentyabrın 1-də kapitalist dövlətlərinin öz arasında baş verdi. Almaniya imperializminə ABŞ inhisarlarının yardım etməsi təcavüzkarlığın iqtisadi hərbi bazasını yaratdı. Müharibənin başlanmasında İngiltərə, Fransa, ABŞ və SSRİ-nin birgə təcavüzkara qarşı kollektiv təhlükəsizlik sistemi yaratmaması da mühüm rol oynadı. ABŞ, İngiltərə, Fransa hakim dairələri "sakitləşdirmə" siyasəti vasitəsi ilə Hitler Almaniyasının təcavüzkarlığı yaymasına və tədricən dünya müharibəsinin bağlanmasına yardım etmiş oldulalar.

Müharibə təhlükəsi artıq 30-cu illərin ortalarında qabaqcıl dövlətləri silahlanma məsələsində müəyyən addımlar atmağa məcbur etdi. Bununla bərabər, Böyük Britaniya, Fransa, ABŞ və SSRİ-nin Almaniya və onun müttəfiqləri ilə müqayisədə zəif strategiyaları, onların hərbi yolla deyil, diplomatik yolla hadisələri nizama salmaq istəyi onların müharibə ərəfəsində bütün hərbi resursları səfərbərliyə almalarına imkan vermirdi. 1939-cu ilin avqustunda Fransa ordusunda 2438 min. adam, o cümlədən, quru qoşunlarında 110 min adam Hərbi Hava Qüvvələri (HHQ), Hərbi Dəniz Qüvvələrində (HDQ) 126 min adam xidmət edirdi. Fransız donanmasının tərkibi 7 xətt, 1 təyyarədaşıyan gəmi, 19 kreyser, 77 sualtı qayıqdan ibarət idi. Böyük Britaniyanın ordusunda 897 min adam (1261 min adam dominanlarla birilkdə) quru

qoşunlarında, 193 min adam (206 min adam dominionlarla birilkdə) HHQ, 180 min adam (194 min adam dominionlarla birlikdə) HDQ-ndə xidmət edirdi. Böyük Britaniya kifayət qədər güclü donanmaya (15 xətt, 7 təyyarədaşıyan gəmi, 64 kreyser, 58 sualtı qayıq) və inkişaf etmiş hərbi hava qüvvələri sisteminə malik idi. Kralın müdafiəsində hərbi-hava qüvvələrinin 1456 təyyarəsi və 2000 maşın ehtiyatda dayanmışdı. ABŞ ordusunun zərbə qüvvəsində isə 1939-cu ildə 544 min adam var idi. Hərbi-dəniz donanmasının tərkibində 15 xətt, 5 təyyarədaşıyan gəmi, 36 kreyser, 99 sualtı qayıq var idi. ABŞ-ın hərbi strategiyası müdafiə xarakteri daşıyırdı ki, bu da onun xarici siyasətinin təcridçiliyə əsaslanmasından irəli gəlirdi.

Faşist bloku ölkələrində isə güclü hərbi potensial olmasa da, onlar müharibə ərəfəsində ehtiyatlarını səfərbərliyə almış, hərbi-sənaye bazalarını genişləndirə bilmişdilər. 1939-cu ildə Yaponiya ordusunun sayı 1240 min nəfərdən ibarət idi. Onun silahları 1 min təyyarədən, 2 mindən artıq tankdan ibarət idi. Yapon donanmasında 10 linkor, 6 təyyarədaşıyan gəmi, 35 kreyser, 56 sualtı qayıq var idi. İtaliyanın ordusunun tərkibində 1 753 min adam var idi. HHQ-nın tərkibində 2800 təyyarə, HDQ-ndə isə 4 xətt gəmisi, 22 kreyser, 105 sualtı qayıq var idi. 1939-cu ildə Alman silahlı qüvvələri 2750 min adamdan, 3200 tank, 4 min təyyarədən ibarət idi. Hitlerin dövründə ölkədə həm çoxsaylı, həm də yüksək döyüş qabiliyyətinə malik ordu yaradılmışdı. Doğrudur, Vermaxtın, yəni alman silahlı qüvvələrinin texniki bazası bir qədər köhnəlmiş vəziyyətdə idi. Müharibənin başlanmasına yaxın Almaniya donanmasında 2 linkör, 5 kreyser, 57 sualtı qayıq var idi. Alman ordusunun güclü cəhəti döyüş əməliyyatlarını aparmaq üçün yaradıcı, yenilikci taktikanın olması idi.

Birinci dünya müharibəsinə nisbətən İkinci dünya müharibəsi beynəlxalq aləmdə demokratik qüvvələrin inkişaf etdiyi şəraitdə başlanmışdı. Hitler Almaniyası və onun



müttəfiqləri tərəfindən aparılan müharibə əvvəldən axıra qədər işğalçılıq və təcavüzkarlıq xarakterində olmuşdur. İngiltərə, Fransa, ABŞ hakim dairələri də ikinci dünya müharibəsində imperialist məqsədlər güdürdülər. Lakin Hitler Almaniyası Fransanı işğal etdikdən sonra Qərb dövlətlərinin apardığı müharibə imperialist xarakterini itirməyə başladı, azadlıq və ədalətli xarakter daşıdı. Almaniya, İtaliya və Yaponiya imperialistləri dünyanın bir neçə yerində müharibə ocağı əmələ gətirdilər.

İkinci dünya müharibəsini xronoloji baxımdan üç böyük dövrə bölmək olar. Təcavüzkarın üstünlüyü şəraitində müharibə miqyaslarının genişlənməsi ilə səciyyələnən birinci dövr 1939-cu il sentyabrın 1-dən 1942-ci ilin iyun ayınadək davam etmişdir. 1942-ci ilin iyunundan 1944-cü ilin yanvar ayınadək davam edən ikinci dövrdə təşəbbüs və üstünlük antihitler koalisiyasının əlinə keçir və əsaslı dönüş yaranır. Düşmən ordusunun darmadağın edilməsi, təcavüzkar dövlətlərdə hakim rejimlərin süqutu ilə səciyyələnən üçüncü dövr 1944-cü ilin yanvarından 1945-ci ilin sentyabrın 2-nədək davam etmişdir.

1939-cu ilin martında Almaniya Çexoslovakiyanı, aprelində isə İtaliya Albaniyanı işğal etdi. İngiltərə, Fransa hakim dairələri öz siyasətlərinin nəticəsini aydın gördükdən sonra bir daha faşist Almaniyasına güzəştə getməyəcəklərini bildirmək üçün 1939-cu ilin yazında Rumıniya, Polşa, Yunanıstanla bir sıra sazişlər imzalayaraq onlara yardım edəcəklərini bildirdilər.

Faşist Almaniyasında təcavüzkar müharibənin hazırlanması və aparılması məsələsini alman generalı və faşizmin hərbi ideoloqu Lyudendorf hazırlamışdır. Hələ 1935-ci ildə "Total müharibə" adlı Lyudendorfun kitabı çap edilmişdir. Bu kitabda irəli sürülən nəzəriyyənin mahiyyəti ondan ibarət idi ki, Almaniya ancaq müharibə yolu ilə başqa xalqlar üzərində öz ağalığını qura və davam etdirə bilər. Orada

qeyd edilirdi ki, ölkədə həyatın bütün sahələri müharibə hazırlığına tabe etdirilməlidir. Dinc zamanlarda da müharibə mənafeyini müdafiə etmək ilk planda durmalıdır. Bu məqsədə mane ola biləcək heç bir azadlığa və təşkilatların fəaliyyətinə yol verilməməlidir. Müharibədə qələbə qazanmaq üçün bütün vasitələrdən: şantaj, aldatmaq, xəyanət, terror və s.-dən istifadə etmək lazımdır. Müharibə zamanı cəbhə ilə arxaya fərq qoymadan dinc əhalini də cəbhədəki əsgərlər kimi məhv etmək lazımdır. Total müharibə elan edilmədən başlanaraq beynəlxalq qaydalara əməl edilmədən rəhmsiz bir surətdə aparılmalıdır. "İldırım sürətli müharibə" nəzəriyyəsi də Lyudendorf tərəfindən hazırlanmışdı. Bu nəzəriyyə də əvvəlki nəzəriyyə ilə sıx əlaqəli idi. Almaniya Avropanın mərkəzində yerləşdiyi üçün o xammal mənbələrindən və s.-dən tez zamanda təcrid etdirilə bilərdi. Digər tərəfdən, faşist ideoloqları uzun sürən müharibəyə bel bağlamırdılar. Buna görə də onlar "ildırım sürəti ilə" ilk zərbələrdə müvəffəqiyyət əldə etmək və məqsədə nail olmaq fikrində idilər. Bu yol ilə hitlerçilər öz düşmənlərinin qruplaşmasına aman vermədən onları tezliklə məğlub etmək istəyirdilər.

## 2. İkinci dünya müharibəsinin birinci mərhələsi

### *İkinci dünya müharibəsinin başlanması*

İkinci dünya müharibəsi faşist Almaniyasının Polşaya qəflətən hücum etməsi ilə 1939-cu il sentyabrın 1-dən başladı. Sentyabrın 2-də İngiltərənin xarici işlər naziri parlamentdə çıxışında bəyan etdi ki, Almaniya hökuməti müharibəni dayandırmaq təklifini qəbul edəcək və 5 dövlətin (İngiltərə, Fransa, Polşa, İtaliya, Almaniya) iştirakı ilə Qdansk və Polşa koridoru məsələsi dinc yolla həll ediləcəkdir. Lakin artıq gec idi və İngiltərə hökuməti başa düşdü ki, Hitler Almaniyası



özünün Münxen müttəfiqlərinə qəti zərbə endirmək məqsədi ilə hücuma keçmişdir. Ona görə də sentyabrın 3-də baş nazir Çemberlen İngiltərənin Almaniya ilə müharibə vəziyyətində olduğunu rəsmən elan etdi. Həmin gün Fransa və onlarla əlaqədar olan digər ölkələr də Almaniyaya qarşı müharibə elan etdilər. Almaniya 1939-cu ilin aprelində təsdiq edilmiş "Vays" (Ağ) planına əsasən Rolşaya 62 diviziya, o cümlədən 7 tank və 4 motorlaşdırılmış diviziya, 1,6 milyon əsgər və zabit, 2800 tank, 6 min döyüş silahı və minomyot, 2 min təyyarə ilə hücum etdi. Polşanın isə bu dövrdə 1 milyon əsgəri, 4 min 300 silah və minomyotu, 870 tankı və 400 təyyarəsi var idi. Sentyabr ayının ortalarında hitlerçilər artıq Polşa ordusunun əsas qruplarını mühasirəyə ala və darmadağın edə bildilər. Sentyabrın 16-daPolşanın paytaxtı Varşava mühasirəyə alındı. Sentyabrın 17-də Sovet qoşunları da Polşaya soxuldu və heç bir müqavimətə rast gəlmədən Qərbi Ukrayna və Qərbi Belorusiyanı tutdular. Bu ərazilər SSRİ-nin tərkibinə daxil edildilər.

Sentyabrın 17-də Polşa hökuməti ölkəni tərk etdi və sentyabrın 30-da Fransanın Anjera şəhərində Vladislav Sikorskinin başçılığı altında mühacir Polşa hökuməti təşkil edildi. Fransa işğal edildikdən sonra isə o, Londonda yerləşdi. Qüvvələr bərabər olmadığı üçün polyaklar inadlı müqavimət göstərsələr də, Varşava sentyabrın 27-də alındı. Modlin qala-sının qarnizonu sentyabrın 29-na qədər, Xel yarımadasının müdafiəçiləri isə oktyabrın 2-nə qədər vuruşsalar da, məğlub oldular. Qısa müddətdə müharibə Polşanın məğlubiyyəti ilə qurtardı. Burada faşistlər "yeni qayda" yaratdılar. İqtisadi münasibətlərin daha çox inkişaf etdiyi Polşanın qərb və şimal-qərb əraziləri "üçüncü imperiya"nın tərkibinə daxil oldu. Qalan ərazi general-qubernatorluq elan edildi ki, ona da Hans Frank qubernator təyin edildi. Polşanın məğlub olunmasının səbəbləri içərisində Polşanın canlı və silahlı qüvvə cəhətdən zəifliyi,

İngiltərə və Fransanın ona kömək etməməsi, Polşa daxilində alman casuslarının fəaliyyəti mühümləri idi.

1939-cu ilin sentyabrın 28-də Almaniya ilə SSRİ arasında bağlanmış "Dostluq və sərhədlər haqqında" sazişə əsasən Narev, Qərbi Buq, San çayları üzrə Sovet-alman sərhədləri ayrılırdı.

### *"Qəribə müharibə". Almaniyanın Qərbdə fəal hərbi əməliyyatlara keçməsi*

1939-cu ilin sentyabrın 3-dən 1940-cı ilin aprelin 9-na qədər olan dövr İkinci dünya müharibəsi tarixində "qəribə müharibə" kimi səciyyələnir. Çünki sentyabrın 3-də Fransa və İngiltərə Almaniyaya müharibə elan etsələr də, ona qarşı fəal hərbi əməliyyatlara başlamadılar. 1939-cu ilin oktyabrın 11-də Fransada 158 min ingilis əsgər və zabiti toplandı. Qərb cəbhəsində ingilislər ilk itkini dekabrın 9-da verdilər. Fransa ilə Almaniya sərhədində toplanın 110 fransız və ingilis diviziyası oradakı 23 alman diviziyasına qarşı vuruşaraq Polşanı müdafiə edə bilərdilər. Lakin onlar hitlerçilərin SSRİ-yə hücumu üçün Polşaya bir meydan kimi baxdıqlarından bunu etmədilər.

Alman faşistlərinin planında Skandinaviya ölkələri xüsusi yer tuturdu. Hitlerçilər bu ölkələrə strateji cəhətdən böyük əhəmiyyət verirdilər. Hitlerçilər Şimal-Qərbi Avropa və Atlantik okeanda ağalıq mövqeyi qazanmaq fikrində idilər. Hərbi əhəmiyyəti olan xammallar da bu ölkələrdə az deyildi. 1939-cu ildə İsveçdə istehsal edilən 24 milyon ton dəmir-filizinin 11 milyon tonu Almaniyaya ixrac edilirdi. Almanlar hələ 1939-cu ilin oktyabrında Danimarka və Norveçi tutmaq buradan İngiltərə və Fransaya qarşı hücum etmək niyyətində idilər.

1940-cı il aprelin 9-da Almaniya müharibə elan etmədən Danimarka və Norveçə hücum etdi. Bununla Avropada "qəribə müharibə" sona çatdı. Almaniya Qərbdə fəal



hərbi əməliyyatlara başlamış oldu. Səhər saat 5-də sərhədi keçən Hitler qoşunları heç bir əks-təsirə rast gəlmədən ölkənin dərinliyinə doğru hərəkət etdilər. Bu hadisədən bir neçə saat sonra Danimarka hökuməti danışıqsız təslim olaraq ölkəni hitlerçilərə təhvil verdi. Danimarka Almaniyanın satilletinə, yəni əlaltısı olan dövlətə çevrildi. Danimarkaya hücumla yanaşı almanlar Norveç sahillərinə də desant salmışdılar. Hitler qoşunları ilk sırada Oslonu və bir sıra başqa liman şəhərlərini tutmaq fikrində idilər. Həmin məntəqələrə həm dəniz, həm də havadan hücum edərək bir günə paytaxtı işğal etdilər. Hitlerçilərin qəflətən hücuma keçməsi, Fransa və İngiltərə hərbi qüvvələrinin passivliyi nəticəsində təqribən iki ay müddətində Norveç işğal edildi. Norveçin işğalı İngiltərə və Fransanı bir sıra hərbi dəniz bazalarından məhrum etdi. 1940-cı il mayınn 10-da alman faşistləri Hollandiya, Belçika və Fransaya hücuma keçdilər. Bu hərbi əməliyyatda faşistlər 116 piyada diviziya, 2600 tank, 3000 hərbi təyyarədən istifadə etdilər. Faşist Almaniyasının Qərbi Avropada 45 gün davam edən hərbi əməliyyatlarını xarakterinə görə 2 mərhələyə bölmək olar:

1) 10 may-4 iyun.Bu dövrdə Almaniya bütün istiqamətdə müttəfiqlərin (İngiltərə-Fransa-Hollandiya-Belçika) cəbhəsini yararaq La-Manşa çıxıb onların çoxlu miqdarda qoşun hissələrini məhv etdi. Almaniya Belçika, Hollandiya və Şimali Fransanı işğal etdi.

2) 5-22 iyun. Bu günlər ərzində alman faşist qoşunları Fransaya hücumu genişləndirərək Parisi işğal edib, Fransa hökumətini təslim olmağa məcbur etdilər.

Belçika təslim edildikdən sonra müttəfiqlərin qoşunları Dyunkerk liman şəhərinə sıxışdırıldılar. Burada onların vəziyyəti olduqca çətinləşdi. Həmin şəhərdə Fransanın 17, İngiltərənin isə 10 diviziyası var idi. Belə bir şəraitdə alman qoşunları Fransa və İngiltərənin həmin şəhərdəki qoşunlarını tamamilə məhv etmək imkanına malik idi. Lakin bu hadisə baş

vermədi. "Dyunkerk möcüzəsi" baş verdi. Bəzi alman generalları öz xatirələrində bildirirdilər ki, alman qoşunları Dyunkerkə yaxınlaşanda alman komandanlığı geri çəkilməyi əmr edib Dyunkerkdən müttəfiq qoşunlarının çıxarılmasına imkan yaratdılar. 338 min nəfərlik ordu Dyunkerkdən çıxdıqdan sonra almanlar bu yeri işğal etdilər. Müttəfiq qoşunları burada 2400 top, 700 tank, 130 min avtomobil qoyub getdilər. İngiltərə 226, Fransa isə 217 gəmi itirdi. Beləliklə, hərbi əməliyyatların birinci dövründə müttəfiqlərin şimaldakı qoşunları darmadağın edildi. Almaniyanın qələbəsini hiss edən faşist İtaliyası bir sıra mühüm yerləri tutmaq üçün iyunun 10-da Fransaya müharibə elan etdi. Beləliklə, İtaliya da ikinci dünya müharibəsinə girmiş oldu. Bu hadisə Fransanın vəziyyətini daha da çətinləşdirdi. Hökumət əvvəl Tura, sonra isə Bordoya köçdü. Son müdafiə döyüşü Ema çayı sahilində oldu. 1934-cü ildə qurulmuş "Majino müdafiə xətti" yarıldı. İyunun 12-də Fransa hökuməti Parisi "açıq şəhər" elan edərək onun müdafiəsini təşkil etmədi. Həmin gün parlamentdə Peten tərəfindən müdafiə edilən Fransa silahlı qüvvələrinin baş komandanı Veyqan təklif etdi ki, hitlerçilərə şərtsiz təslim olmaq lazımdır. O belə bir əsli olmayan şaiə yaydı ki, guya Parisdə kommunistlər hakimiyyəti öz əlinə almaq istəyir. İyunun 14-də hitlerçilər heç bir müqavimət hiss etmədən Parisə daxil oldular. İyunun 22-də Peten hökumətinin nümayəndələri Kompyen meşəsində biabırçı təslimçilik aktına qol çəkdilər. Sülhün şərtlərinə görə Fransa ordusu tərxis edilir, ölkə ərazisi iki hissəyə bölünürdü. Paris də daxil olmaqla bütün sənaye mərkəzlərinə malik olan rayonların hamısı Almaniyanın işğal zonasına daxil edilirdi. Ölkənin cənub hissəsində isə general Petenin başçılığı altında paytaxtı Bişi olan faşistpərəst Fransa hökuməti təşkil edildi və o, 1944-cü ilin avqustunadək yaşadı. Ölkədə işğalçı rejimin yaranmasına baxmayaraq Fransa xalqı təslim olmadı. İlk gündən ölkədə müqavimət hərəkatı başlandı



ki, bu hərəkatda bütün xalq kütlələri iştirak edirdi. Fransanın antifaşist qüvvələri general Şarl de Qollun İngiltərədə təşkil etdiyi "Azad Fransa" komitəsi ətrafında birləşib işğalçılara qarşı müharibəni davam etdirirdilər.

Beləliklə, faşist Almaniyası 45 gün ərzində Hollandiya, Belçika və Fransanı məğlub edərək Qərb cəbhəsində İngiltərə qoşunlarına güclü zərbə endirdi. Hitler hökuməti bu fikirdə idi ki, Fransa məğlub edildikdən sonra İngiltərə onunla saziş bağlayıb SSRİ-yə qarşı müharibədə Almaniya ilə birlikdə iştirak edəcəkdir. Bu məqsədlə 1940-cı il iyulun 19-da sülh bağlamaq üçün Almaniya hökuməti İngiltərəyə müraciət etdi. Almaniya təklif edirdi ki, İngiltərə onun Avropada və müstəmləkələrdə hegemon mövqeyini qəbul etsin. Lakin İngiltərə Avropada və müstəmləkələrdə öz mövqeyini Almaniyaya vermək istəmirdi. Digər tərəfdən İngiltərə hakim dairələri faşizmə nifrət edən öz xalqı ilə də hesablaşmalı oldu. İngiltərə hökuməti iyulun 22-də Almaniyanın təklifinə rədd cavab verdi. Diplomatik yolla İngiltərəyə təsir etmək mümkün olmadıqdan sonra Hitler hökuməti İngiltərə ərazisini işğal etməklə onu müharibədən çıxarmağı qərara aldı. 1940-cı ilin avqustundan 1941-ci ilin mayına qədər Almaniya İngiltərə ərazisinə 190 min bomba atdı. Bombardman zamanı bir milyondan artıq yaşayış evi dağıldı, 40 min adam həlak oldu və 46 min nəfər yaralandı. Lakin faşist aviasiyası Britaniya sənayesinə ciddi zərbə vurmağı bacarmadı. Almaniya İngiltərənin Atlantik okeandan keçən nəqliyyat yollarını (ərzağın 50 %-i adaya bu yollarla gətirilirdi) kəsmək üçün əsasən sualtı qayıqlardan geniş istifadə edirdi. Lakin İngiltərə davam gətirdi. Bu, Almaniya ilə müharibədə, demək olar ki, ilk qələbə idi. 1941-ci ilin yazında hitlerçilər SSRİ-yə qarşı hücum üçün ciddi hazırlıq işləri ilə məşğul olduqları üçün İngiltərəni işğal etmək planı qeyri-müəyyən bir vaxta qədər təxirə salındı.

### *Faşist dövlətlərinin Üçlər ittifaqı və İngiltərə və ABŞ-ın ona cavab tədbirləri*

Qərb müstəmləkəçi dövlətlərindən Fransa və Niderlandın məğlub edilməsi Yaponiya imperializminin əl-qolunu açaraq onun həmin ölkələrin müstəmləkələri olan Hind-Çini, İndoneziyanı işğal etməsini asanlaşdırdı. Yaponiya Çini də işğal etmək istəyirdi. Eyni zamanda Yaponiya militaristləri SSRİ-yə qarşı hücum planı da hazırlayırdı. Yaponiya Uzaq Şərqdə təcavüzkarlıq müharibəsini genişləndirməklə Sakit okean hövzəsində imperialist ziddiyyətlərini daha da kəskinləşdirdi. O öz cəbhəsini möhkəmləndirmək üçün İtaliya və Almaniya ilə saziş bağlamağa səy göstərdi. Eyni zamanda faşist Almaniyası da təcavüzkar dövlətlərin hərbi-siyasi ittifaqını təşkil etmək fikrində idi. 1940-cı il sentyabrın 27-də Almaniya-İtaliya-Yaponiyadan ibarət Üçlər ittifaqı təşkil edildi. Stalin Balkanlarda və Qara dəniz boğazlarında nüfuz sahibi olmağa çalışdığına görə Hitlerin Üçlər paktına SSRİ-nin də qoşulması dəvətini qəbul etmədi. Bağlanan pakta əsasən bu üç dövlət hərbi cəhətdən bir-birlərinə yardım etməli idilər. Onlar öz aralarında təsir dairələrini böldülər. Almaniya və İtaliyanın Avropa və Afrikada ağalığını Yaponiya qəbul etdi. Almaniya və İtaliya hakim dairələri də öhdələrinə götürdülər ki, Yaponiyanın Asiyada əmələ gətirdiyi "yeni qaydalara" hörmət etsinlər. Bu üç dövlətin müqaviləsindəki müəyyən maddələrdə SSRİ ərazisini də öz aralarında bölüşdürmək nəzərdə tutulmuşdu.Yaponiyanın Hind-Çin və İndoneziya üzərində ağalığının həyata keçirilməsinə Almaniya kömək etməli idi, əvəzində isə Yaponiya mandat aldığı Marşal, Mariya və Karolin adalarından başqa Sakit okeandakı Almaniyanın digər keçmiş kaloniyalarını ona qaytarmalı, ona strateji material göndərməli idi.



Avropada müharibə başlanarkən ABŞ özünün bitərəfliyini elan etdi. Lakin Qərbi Avropada Hitler işğalları ABŞ-da narahatlığa səbəb oldu. 1940-cı ilin yayında hökumət hərbi quruculuq üçün 5 milyard dollar pul ayırdı. Çox gizli şəkildə atom bombasının yaradılması işi inkişaf etdirildi. Hələ 1939-cu ilin payızında "Bitərəflik haqqında" qanunda belə bir dəyişiklik edildi ki, müharibə edən ölkələr haqqını nəqd ödəmək və öz gəmilərində aparmaq şərti ilə ABŞ-dan silah və müharibə materialları almaq imkanı əldə edirlər. ABŞ müharibədə iştirak etməsə də, Böyük Britaniyaya hərbi-iqtisadi yardımı artırdı. 1940-cı ilin sentyabrın 2-də bağlanmış sazişə əsasən İngiltərə ABŞ-dan 50 esminec və digər silahlar almaq üçün Nyufaundlend, Bermud, Baham, Yamayka və başqa adalarındakı hərbi-hava və hərbi-dəniz bazalarını 99 il müddətinə ABŞ-a icarəyə verdi. İki ölkənin 1941-ci ilin əvvəlində işləyib hazırladığı plan müharibədə onların koalision strategiyasının əsasını qoydu. 1941-ci ilin martın 11-də prezident F.D.Ruzveltin təklifi ilə konqres Lend-liz haqqında, yəni düşmənə qarşı müdafiəsinin ABŞ üçün həyati əhəmiyyəti olan ölkələrə borc olaraq və ya icarə qaydası ilə silah və hərbi material verilməsi haqqında qanun qəbul etdi. Bu, ABŞ-ın öz təhlükəsizliyini müharibədə iştirak edən ölkələrin səyi ilə təmin etmək istədiyini aydın göstərirdi. Bunu əslində elan edilməmiş müharibə kimi də qiymətləndirmək olardı.

### *Afrika və Aralıq dənizində hərbi əməliyyatlar*

İtaliya müharibəyə qoşulduqdan sonra hərbi əməliyyatlar Şimali Afrika və Aralıq dənizi hövzəsini də əhatə etdi. Almaniya və İtaliya komandanlığı qərara aldı ki, İngiltərənin Aralıq dənizindəki bazalarını darmadağın edərək onu öz müstəmləkələrindən təcrid etsinlər. İtaliya Süveyş kanalına nəzarəti ələ keçirmək istəyirdi. Bu məqsədlə 1940-cı ilin ikinci yarısında İtaliya Britaniya Somalisini işğal etdi. İtaliya qoşunları Sudan, Keniyanı da işğal edib, Liviyadan Misirə qarşı

hücuma başladılar. 1940-cı ilin dekabr ayında İngiltərə qoşunları da hücuma keçərək 1941-ci ilin yazında Eritoriya, İtaliya və Britaniya Somalisi, Sudan və Keniyanı İtaliya qoşunlarından azad etdilər. 1941-ci il aprelin 4-də ingilislər Həbəşistanın paytaxtı Əddis-əbəbəyə daxil oldular. İtaliya Şimali Afrikadakı malikanələrindən məhrum oldu. Bunu görən Hitler hökuməti 1941-ci ilin əvvəllərində Liviyaya bir neçə diviziyadan ibarət qoşun göndərdi. Bu ərazidə olan İtaliya-Almaniya qoşunlarının baş komandanı Rommel idi. Martın 31-də Misiri və Süveyş kanalını ələ keçirmək məqsədi ilə Almaniya və İtaliya qoşunları hücuma keçdilər. Tez bir zaman içərisində onlar Tobruq qalasını mühasirə etdilər. Lakin ingilislər 1941-ci ilin aprelində Es-Sallumda İtaliya-alman qoşunlarının qarşısını aldılar. SSRİ-yə qarşı hücuma hazırlaşdığı üçün Almaniyanın burada əlavə ehtiyat qüvvələri yox idi ki, Misirə hücuma keçsin. Ona görə də onlar "Şərq kompaniyası" qurtardıqdan sonra bu məsələ ilə məşğul olmağı qərara aldılar.

### *Cənub-Şərqi Avropada və Balkanlarda faşist təcavüzkarlığı*

SSRİ-yə qarşı hücuma hazırlaşan Hitler Almaniyası Cənub-şərqi Avropanı istila edərək onun ərazi və ehtiyatlarından öz təcavüzkar məqsədləri üçün istifadə etmək istəyirdi. Bununla bərabər hitlerçilər Balkan ölkələrinə bir körpü kimi də baxırdılar. Bu körpü vasitəsilə onlar Orta Şərqin neft mənbələrini, İngiltərənin Asiyadakı müstəmləkələrini ələ keçirmək istəyirdilər. Hitlerçilər Yunanıstan hakim dairələrinə vəd etdilər ki, SSRİ-dən müəyyən əraziləri Yunanıstana verəcəklər. 1940-cı ilin avqustun 30-da Hitlerin təkidi ilə Rumıniya Şərqi Transilvaniyanı Macarıstana verdi. Bu hadisə ilə əlaqədar olaraq Hitler Macarıstanı özünə tabe etdi. Burada Xortinin faşist rejimi hökmranlıq edirdi. 1940-cı ilin sentyabrında Rumıniyada Antoneskunun faşist diktaturası quruldu.



Oktyabrda hitlerçilər Rumıniyaya qoşun çıxardılar. 1940-cı il noyabrında Rumıniya və Slovakiya Üçlər ittifaqına qoşuldular. 1941-ci il martın 1-də Hitlerçilər Bolqarıstanı da Üçlər ittifaqına daxil olmağa məcbur etdilər. Bu ölkələrin hakim dairələri öz xalqlarının iradəsi əleyhinə olaraq təcavüzkar bloka daxil oldular və Almaniyanın satilletinə çevrildilər.

Svetkoviçin başçılıq etdiyi Yuqoslaviya hökuməti 1941-ci ilin mart ayının 25-də Üçlər ittifaqına daxil olmaq haqqında protokola imza atdı. Lakin bu hadisə ölkədə böyük həyəcana səbəb oldu. Xalq buna qarşı çıxdı. Yuqoslaviyada dövlət çevrilişi baş verdi. Simoviç hökumət təşkil etdi. 1941-ci il aprelin 5-də hökumət SSRİ ilə müqavilə bağladı. Ancaq aprelin 6-da hitlerçilər Yuqoslaviyaya hücum edib onu tutdu. "Müstəqil" Serbiya və Xorvatiya yaradıldı. İtaliya Çernoqoriyanı, Bolaqrıstan Makedoniyanı, Macarıstan Voyevodinanı aldı, Sloveniya isə Almaniya ilə İtaliya arasında bölündü. Yuqoslaviya ilə eyni vaxtda Hitler ordusu Yunanıstana da hücum etdi. Hələ 1940-cı ilin oktyabrından Yunanıstan İtaliyanın təcavüz obyektinə çevrilmişdi. İtaliya Albaniya ərazisindən oraya 200 min qoşun yeritmişdi. Lakin 1941-ci ilin yazında yunanlar italyanları qovdular. Həmçinin alban partizanları ilə birlikdə Albaniyanın da bir hissəsini azad etdilər. Mussolini Hitlerdən kömək istədi. Hitlerçilər tərəfindən aprelin sonunda Yunanıstanın bütün ərazisi işğal olundu. Balkan yarımadasını işğal etməklə Almaniya Sovet İttifaqına qarşı mühüm strateji dayaq nöqtəsi əldə etmiş oldu. 1941-ci ilin mayın 20-də almanlar Kriti ələ keçirməklə İngiltərəni Egey dənizinə nəzarətdən məhrum etmiş oldular.

Hitler Yaxın Şərqə də SSRİ-yə hücum üçün mühüm əhəmiyyət verirdi. Xüsusilə İraqın neftinə görə Almaniya 1941-ci ilin aprelin 1-də orada dövlət çevrilişi təşkil etdi. Onda ingilislər İraqa qoşun yeridib mühüm şəhərləri tutdular. Almanların İraqı tutmaq planı baş tutmadı.

### *"Yeni qayda", faşistlərə qarşı mübarizə*

Faşistlər tutduqları yerlərdə "yeni qayda" qoydular. 1941-ci ilin mayında Almaniyada xarici fəhlələrin sayı 3,1 mln nəfər idi. Slovyanlara aşağı irq kimi baxırdılar. Milli azadlıq hərəkatı ən əvvəl Çexoslovakiyada başladı. Faşistlər yəhudiləri və slavyanları xüsusi qəddarlıqla qırırdılar. İşğal olunmuş ölkələr açıq-aşkar qarət olunurdular. Xammal və ərzaq məhsuları «Üçüncü reyxə" göndərilirdi. Antifaşist milli-azadlıq hərəkatı Müqavimət hərəkatı adını aldı. Müqavimət hərəkatında milliyyəti, yaşı, siyasi baxışları və dini etiqadları müxtəlif olan adamlar iştirak edirdilər. Müharibə uzandıqca onun ədalətli xarakteri də artırdı. Bunu Polşa, Fransa, Norveç, Danimarka, Hollandiya, Belçika, Albaniya, Yunanıstan və Yuqoslaviya xalqlarının azadlıq mübarizəsi əyani şəkildə göstərirdi. Təcavüzkarlara qarşı müqavimət göstərən dövlətlərin qüvvəsi tədricən Avropanın və Asiyanın əsarətə alınmış xalqlarının azadlıq, demokratiya və milli müstəqillik uğrundakı ədalətli mübarizəsi ilə birləşirdi.

### *Almaniyanın SSRİ üzərinə hücumu*

1941-ci il iyunun 22-də Almaniya SSRİ üzərinə xəbərdarlıq etmədən hücuma başladı. Almanlar üç istiqamətdə – Moskva, Leninqrad, Kiyev istiqamətində 190 diviziya, o cümlədən 153 alman diviziyası, 5,5 milyon əsgər və zabit, 4500 tank, 5000 təyyarə, 47 min top və minomyot, 100 gəmi ilə hücuma keçdi. İtaliya, Macarıstan, Rumıniya, Slovakiya, Finlandiya da Almaniyanın tərəfində çıxış edirdilər. Sovet-alman cəbhəsinə "mavi diviziya" göndərmiş İspaniya da hitlerçilərə yardım göstərirdi. Bolqarıstanın monarxist faşist hökuməti xalq həyəcanından qorxaraq SSRİ-yə müharibə elan etməsə də, faşist Almaniyasına kömək göstərirdi. Hitlerin



1940-cı il dekabrın 18-də təsdiq etdiyi "Barborossa" planına əsasən SSRİ-ni tutmaq üçün 8-9 həftə vaxt ayrılmışdı. Qış girənədək SSRİ ilə müharibə qurtarmalı, "Arxangelsk-Volqa-Həştərxan" xəttinə çıxılmalı idi. Hitler belə güman edirdi ki, həm güclü hərb maşını, həm də SSRİ xalqları arasında nifaq salmaq yolu ilə öz planını həyata keçirə biləcəkdir. Lakin tezliklə yanıldığını hiss etdi. Hitler özü də deyirdi ki, Rusiya böyük tikədir, onu birdən-birə udmaq olmaz, boğazda qala bilər.

Almanlar müharibənin birinci həftəsində Leninqrad (Sankt-Peterburq) və Kiyevə yaxınlaşdılar, Smolenski ələ keçirdilər. Sentyabrda Kiyevi tutdular, Leninqradı tuta bilməyib onu mühasirəyə aldılar. Müharibənin ilk aylarında Sovet ordusunun geri çəkilməsi və məğlub olmasının səbəbləri ilk növbədə Almaniya ilə bağlanan müqavilələrə ümiddən, silahlı qüvvələrin yenidən qurulmasında və qoşunların hazırlığında böyük səhvlər buraxılmasından, ordunun döyüş hazırlığı səviyyəsinə gətirilməməsindən, Almaniyanın Avropadakı hücum əməliyyatlarının aparılmasındakı təcrübəsinin qiymətləndirilməməsindən irəli gəlirdi.

Yaponiya çalışırdı ki, Uzaq Şərqdəki Sovet limanlarını mühasirəyə alsın və SSRİ-ni məcbur etsin ki, Sakit Okeandakı dəniz yollarından istifadədən imtina etsin. Türkiyə bitərəfliyini saxlayırdı. 1941-ci ilin yayında İranda vəziyyət gərginləşdi. 1941-ci ilin avqustunda 1921-ci ilin fevralında İranla Sovet Rusiyası arasında bağlanmış müqavilənin 6-cı maddəsini nəzərə alaraq İrana SSRİ qoşun yeritdi. Həmin vaxt İngiltərə də İrana qoşun çıxartdı. 1941-ci ilin sentyabrında İranda hökumət devrildi, yeni hökumət təşkil edildi. 1942-ci ilin yanvarında İrandakı yeni hökumət SSRİ və İngiltərə ilə müqavilə bağladı və antifaşist koalisiyaya qoşuldu. 1942-ci ilin dekabrında ABŞ-da İrana qoşun çıxartdı.

1941-ci ilin sentyabrın 30-da Moskvaya hücumun I mərhələsi, noyabrın 15-də isə II mərhələsi başlandı. Faşistlərin Moskvaya hücum planı "Tayfun" adlanırdı. 1941-ci ilin dekabrın 5-6-da Sovet qoşunlarının əks-hücuma keçməsi nəticəsində düşmən Moskvadan 100-250 km geri qovuldu. Moskva altındakı qələbə Almaniyanın "İldırım sürətli müharibə" planını puça çıxartdı, alman ordusunun "məğlubedilməzliyi" haqqında əfsanəni yox etdi, müqavimət hərəkatını gücləndirdi, faşist blokunu zəiflətdi.

### *Antihitler koalisiyasının təşkili*

Almaniyanın SSRİ-yə qarşı müharibəyə başlamasından dərhal sonra Böyük Britaniya və ABŞ SSRİ-yə kömək etmək istədiklərini bildirdilər. 1941-ci ilin iyunun 22-də Çörçill, iyunun 24-də isə Ruzvelt SSRİ-yə kömək göstərməyə hazır olduqlarını bəyan etdilər. 1941-ci il iyulun 12-də SSRİ ilə İngiltərə arasında Almaniyaya qarşı birgə hərəkat haqqında saziş bağlandı. İyulun 18-də SSRİ təklif etdi ki, Şimali Fransadan ikinci cəbhə açılsın. Lakin təklif təxirə salındı. ABŞ prezidentinin məsləhətçisi Qopkins Moskvaya gəldikdən sonra avqustun 2-də ABŞ SSRİ-yə iqtisadi kömək edəcəyini bildirdi. 1941-ci il avqustun 16-da SSRİ ilə İngiltərə arasında ticarət və kredit haqqında saziş bağlandı. İngiltərə SSRİ-yə 10 mln funt-sterlinq istiqraz verdi. 1941-ci ilin iyulunda Sovet-Çexoslovakiya, Sovet-Polşa sazişləri bağlandı. Sentyabrın 27-də SSRİ "Azad Fransa" təşkilatını tanıdı. ABŞ və İngiltərə müharibədə birgə fəaliyyət göstərmək haqqında bəyanatla çıxış etdilər. Onların arasındakı danışıq 1941-ci ilin avqustunda Nyufaundlend adasının Ardjenşiya buxtasında «Atlantika xartiyası» adını almış bəyannamə ilə nəticələndi.

1941-ci il sentyabrın 24-də Moskvada keçirilmiş müttəfiqlərarası konfransda Sovet hökuməti bu xartiya ilə razı olduğunu bildirdi. Büttün qüvvələri birləşdirmək zəruri idi. SSRİ 1 mlrd dollar faizsiz kredit aldı.



1941-ci ilin noyabrında İngiltərə yenidən SSRİ ilə müttəfiqlik haqqında müqavilə bağladı. 1942-ci ilin yanvarın 1-də 26 dövlət Vaşinqtonda Atlantika xartiyası prinsiplərinə qoşulmaq haqqında "Birləşmiş Millətlərin Bəyannaməsi"ni imzaladı. Antihitler koalisiyasının yaradılması rəsmiləşdirilmiş oldu. Sonra bu bəyannaməyə başqa dövlətlər də qoşuldular və müharibənin sonunda onların sayı 50-yə çatdı.

### *Sakit okeanda hərbi əməliyyatlar. ABŞ-ın İkinci dünya müharibəsinə girməsi*

Yaponiya 70-ci meridiandan şərqdə Avrasiyanı öz nüfuz dairəsi hesab edirdi. Müttəfiqləri də buna razılıq vermişdi. Şahzadə Konol Yaponiyada hakimiyyətə gəldikdən sonra 1940-cı ilin iyulunda Cənub-Şərqi Asiyanı işğal etmək və Sakit okeanda İngiltərə və ABŞ-la müharibə etmək qərarına gəldi. 1941-ci ilin yayında o, Hind-Çinə qoşun yeritdi. ABŞ iqtisadi təzyiq və diplomatiya yolu ilə Yaponiyanı güzəştə getməyə məcbur etmək istəyirdi. 1941-ci ilin oktyabrında hərbi nazir Todzio Yaponiyanın Almaniyadakı keçmiş səfiri Kurusu Vaşinqtona göndərdi ki, ABŞ-dakı səfir Nomurla birlikdə ABŞ hökuməti ilə danışıqlar aparsın.

Lakin danışıqlar gedən zaman 1941-ci ilin dekabrın 7-də Yaponiya Havay adalarında yerləşən Perl-Xarbordakı hərbi dəniz bazasını bombardman etdi. 272 təyyarə, 5 gəmi sıradan çıxdı. 3 min 400 adam öldü. Buna cavab olaraq dekabrın 7-də ABŞ Yaponiyaya müharibə elan etdi. Dekabrın 8-də Fransa və İngiltərə Yaponiyaya, İtaliya və Almaniya isə ABŞ-a müharibə elan etdilər. Sakit okeanda müharibənin yeni mərhələsi başlandı. 1941-ci ilin dekabrın 11-də Almaniya, İtaliya və

Yaponiya arasında Berlin paktından əlavə yeni pakt bağlandı. Onlar bir-birinin razılığı olmadan İngiltərə və ABŞ-la sülh bağlamayacaqlarını öhdələrinə götürdülər. Yaponlar Tailandı, Filippini tutdular. 1941-ci il dekabrın 25-də Honkonq alındı. 1942-ci il fevralın 15-də Sinqapur yaponlar tərəfindən tutuldu. ABŞ və İngiltərənin Sakit Okeanda mövqeyi zəiflədi. Yaponlar Cənub-Şərqi Asiyada geniş hücuma keçərək 1942-ci ilin yazında Birma və İndoneziyanı tutdular. Cənub-Qərbi Çinə girdilər. Yeni Britaniya və Yeni Qvineya adasının bir hissəsi də onlar tərəfindən tutuldu. 150 milyon adam, 3,8 mln kv.km ərazi, Çinlə birlikdə isə 400 milyon adam, 6 mln.kv.km ərazi Yaponiyanın nəzarəti altına keçdi.

### *3. Müharibənin ikici mərhələsi*
### *Əsaslı dönüşün başlanması*

İkinci dünya müharibəsində dönüşün ilk əsaslı addımları Sakit okeanın mərkəzində 1942-ci ilin iyununda Miduey adası yaxınlığındakı döyüşdə yaponların ABŞ donanması tərəfindən məğlub edilməsi ilə atıldı. Bu döyüşdən sonra yaponlar bir daha Sakit okeanda hücum əməliyyatlarına başlaya bilmədilər.

1942-ci ilin iyununda almanlar Xarkovu tutduqdan sonra Volqaya doğru irəliləməyə başladılar. Almanlar Stalinqradı tutmaqla Moskvanı Bakının neftindən və Şimali Qafqazın taxılından məhrum etmək yolu ilə SSRİ-ni məğlub etməyi fikirləşirdilər. 1942-ci ilin iyulun 17-də Stalinqrad və iyulun 25-də Qafqaz uğrunda şiddətli müdafiə döyüşləri başlandı. Faşistlər «Edelveys» planını həyata keçirmək istəyirdilər. 1942-ci il sentyabrın 9-da SSRİ-nin Ali Baş komandanlığı Cənubi QAfqaz respublikalarında, o cümlədən Azərbaycanda hərbi vəziyyət elan etdi. Bakı müdafiə rayonu yaradıldı. Düşmənin 1942-ci ildə 71, 1943-cü ildə isə 3 dəfə Bakının səmasına soxulmaq cəhdi baş tutmadı, onun 96



təyyarəsi vurulub salındı. Cənubi Qafqaz cəbhəsində 66, 1 min azərbaycanlı vuruşurdu. Mozdaku tutduqdan sonra güclü müqavimətə rast gələn düşmən hücum taktikasını dəyişdi, Bakıya deyil, Nalçik-Orconikidze istiqamətində yeridi. 1942-ci ilin oktyabrında Sovet ordusu Orconikidze yaxınlığında faşistləri darmadağın etdi və onlar şimala doğru qovuldular.

Almanlar Stalinqrad istiqamətində piyada diviziyalarının 1/3, tank diviziyalarının $\frac{1}{5}$ hissəsini, bir milyondan çox əsgər və zabit toplamışdı. Almanların seçmə 6-cı piyada ordusu və 4-cü tank ordusu, bundan başqa 1 italyan, 2 rumın ordusu da və bu istiqamətdə vuruşurdu. Sentyabrda artıq Stalinqradın özündə döyüşlər gedirdi. Sovet komandanlığının Stalinqradı müdafiə etmək planı "Uran" adlanırdı. 1942-ci ilin noyabrın 19-20-də Stalinqrad, Don və Cənub-Qərb cəbhəsinin qoşunları general Yeremenko, Rakassovski və Vatutinin komandanlığı altında hücuma keçərək noyabrın 22-də Stalinqradın şimalındakı Kalaç rayonunda almanların 22 diviziyasını, 330 min əsgər və zabitini əsir aldılar. Bu hücum zamanı e.ə. 216-cı ildə olmuş Kanna döyüşündə tətbiq edilmiş Hannibalın «aypara» taktikasından istifadə edilmişdi. Hitler mühasirədə olanlara kömək etmək üçün Şimali Qafqazdan Manşteynin rəhbərliyi altında böyük bir zərbə qrupunu göndərdi. Lakin Stalinqradın cənubundakı Tormosovo-Kotelnikov rayonunda general Malinovskinin başçılıq etdiyi sovet qoşun hissələri tərəfindən onlar darmadağın edildilər. Almanların mühasirəni yarmaq cəhdi baş tutmadı. 1943-cü il yanvarın 15-dən fevralın 2-dək keçirilən hərbi əməliyyatlarda mühasirəyə düşmüş qoşun hissələri məhv edildi. 147 min əsgər və zabit öldü, 91 min əsgər, 2500 zabit, başda feldmarşal Paulyus olmaqla 24 general əsir alındı. Strateji üstünlük sovet ordusu tərəfinə keçdi. İkinci dünya müharibəsində Antihitler koalisiyasının xeyrinə qəti olaraq əsaslı dönüş başlanmış oldu.

Nasist ordusu mənən və ruhən sarsıldı. Yaponiya SSRİ əleyhinə hücuma keçmək planından birdəfəlik əl çəkdi. İşğal altında olan yerlərdə müqavimət hərəkatı gücləndi.

Stalinqrad ətrafında sovet qoşunlarının hücumu martın sonuna kimi davam edən strateji hücuma çevrildi. Stalinqraddan sonra ən parlaq qələbə Leninqradın mühasirəsinin yarılması oldu. Blokada illərində şəhərin 850 minə yaxın dinc sakini həlak oldu.

1943-cü ilin yayında alman komandanlığı strateji təşəbbüsü yenidən əlinə almaq üçün cəhd etdi. Almaniya tərəfindən Kursk ətrafında «Kursk qövsü» adlandırılan çıxıntı şəkilli mövqedə yerləşən sovet qoşunlarını mühasirəyə alıb məhv etmək üçün hücum planı ("Sitadel"-«Qala») tərtib olundu. Sovet komandanlığı bundan xəbər tutaraq almanların hücum edəcəyi istiqamətlərdə böyük qüvvələr topladı. 1943-cü il iyulun 5-də sübh çağı alman qoşunları hücuma keçdilər. Kursk-Oryol döyüşü başlandı. Almanlar böyük itkilər hesabına çox az irəliləyə bildilər. Proxorovka kəndi yanında İkinci dünya müharibəsinin ən böyük tank döyüşü oldu. Döyüşdə hər iki tərəfdən 1200-ə yaxın tank, özüyeriyən və hücum topları iştirak edirdi. Almanlar taqətdən salındı və iyulun 12-də sovet qoşunları əks-hücuma keçdi. Avqustun 5-də Oryol və Belqorod, 23-də isə Xarkov azad olundu. Kursk döyüşü ilə sovet-alman müharibəsinin gedişində əsaslı dönüş başa çatdı, strateji təşəbbüs qəti olaraq sovet komandanlığının əlinə keçdi. Sentyabrın sonunda sovet qoşunları Dneprə çıxaraq çayı keçdilər. Noyabrın 6-da Kiyev azad edildi.

ABŞ və Böyük Britaniya ikinci cəbhənin açılmasına tələsmirdilər. İngiltərənin 1940-cı ilin mayından baş naziri olan Çörçil ikinci cəbhənin Avropanın "yumşaq qarınaltısı" adlanan Balkan yarımadasından açılmasını istəyirdi, Stalin isə onun Şimali Fransadan-Normandiyadan açılması təklifini irəli sürürdü. Çörçilin məqsədi Qızıl Ordu hissələrindən qabaq



ingilis-amerikan qoşunlarının Cənub-Şərqi Avropa ölkələrinə çıxarılması idi. Avropanın sənaye mərkəzlərinə ən qısa yolun haradan keçdiyini yaxşı başa düşən ABŞ rəhbərləri, hər şeydən əvvəl, Qərbi Avropada öz təsirlərini yaymağa çalışırdılar. Onlar ehtiyat edirdilər ki, müttəfiq orduları Balkanlarda ilişib qalar. Məhz ona görə də Çörçillin hərbi-siyasi planları Vaşinqtonda ehtiyatla qarşılandı və əməli olaraq həyata keçirilmədi.

Sovet Ordusunun uğurlu hücumu müttəfiqlərə Şimali Afrikada hücuma keçmək üçün əlverişli şərait yaratdı. 1941-ci ilin noyabrında ingilislər Tobrukun blokadasını ləğv etdilər. 1942-ci ilin yanvarında Kirenanika ərazisini bütünlüklə azad etdilər. 1942-ci ilin oktyabrın 23-də Əl-Əlameyn yaxınlığındakı döyüşdə Montqomerinin başçılıq etdiyi ingilis-amerikan qoşunları alman-italyan qoşunları üzərində parlaq qələbə çaldılar. 1943-cü ilin fevralında onlar Liviya-Tunis sərhəddinə çıxdılar. Bu "ox" dövlətlərinin Yaxın Şərqi tutmaq planının qarşısını aldı. Fransızlar "Fakel" əməliyyatına uyğun olaraq Eyzenhauerin başçılığı ilə Əlcəzair şəhərini tutdular. Tunis alındı. Bu alman-italyan qoşunlarının Şimali Afrikada çox böyük məğlubiyyəti demək idi. 1943-cü ilin iyununda "Fransa milli-azadlıq komitəsi" yaradıldı. Rəhbəri isə Şarl de Qoll və general Jiro idi.

Əsaslı dönüşün yaranmasının mühüm səbəblərindən biri ABŞ, SSRİ və İngiltərədə hərb sənayesinin "ox" dövlətlərinə nisbətən daha sürətli inkişafı idi. Təsərrüfat üzərində ciddi dövlət nəzarəti yaradılmışdı. 1942-ci ildə İngiltərədə hökumətə bu sahədə fövqəladə səlahiyyətlər verən qanunlar qəbul olundu. Buna bənzər tədbirlər ABŞ-da da həyata keçirildi. Burada Hərbi istehsal idarəsi təsis edildi. SSRİ-də 1941-ci ilin iyunun 30-da təşkil edilmiş Dövlət Müdafiə Komitəsinin, onun sədri İ.V.Stalinin əlində bütün hakimiyyət cəmləşdirildi. "Hər şey cəbhə üçün, hər şey qələbə üçün!" şüarı irəli sürüldü. Arxa Cəbhə Baş İdarəsi yaradıldı. Əmək intizamı möhkəmləndirildi

və kartoçka sistemi tətbiq olundu. Siyasi və ideoloji təbliğat sistemi yenidən quruldu. Orduda hərbi komissarlar sistemi təsis edildi. Müttəfiq ölkələrdə həyata keçirilən bu tədbirlər nəticəsində 1943-cü ildə onlar faşist blokundan 3 dəfə çox hərbi təyyarə, 10 dəfə çox tank istehsal edirdilər. Müttəfiqlərin istehsal etdiyi hərbi texnika keyfiyyətinə görə də üstün idi.

### *Müqavimət hərəkatı*

1942-1943-cü illərdə hərbi şəraiti müttəfiqlərin xeyrinə dəyişdirən amillərdən biri də Almaniya, İtaliya, Yaponiyanın ələ keçirdiyi ölkələrdə yaratdıqları rejimlərə qarşı genişlənən müqavimət hərəkatı olmuşdur. Buna səbəb həmin ölkələrdə yaradılmış "yeni qayda", müstəqillik və suverenliyin, demokratik və sosial nailiyyətlərin ləğv edilməsi, iqtisadi istismar, işğalçıların özbaşınalığı, habelə onların həyata keçirdiyi irqçi siyasət, "qeyri-yetkin xalqlar"ın məhv edilməsi idi. Bütün Avropada yəhudilər, qaraçılar, slavyanlar faşist irqçi siyasətinin qurbanı oldular. Hərbi əsirlər, müqavimət hərəkatının iştirakçıları, "qeyri-yetkin xalqlar"ın nümayəndələri saxlanılan Osventsim, Maydanek, Treblinka, Dahau, Buhenvald, Zaksenhauzen, Ravensbruk, Mauthauzen və b. düşərgələr həqiqi mənada ölüm zavodları idi. Bu düşərgələrdən 18 milyon nəfər keçmiş, onlardan 12 milyonu məhv edilmişdi. Milyonlarla Avropa əhalisi işlədilmək üçün zorla Almaniyaya aparılmışdı. Əhalini müti vəziyyətdə saxlamaq üçün satqınçılıq sisteminə, kütləvi qırğınların təşkilinə geniş meydan verilmişdi. Fransada Oradur, Çexoslovakiyada Liditse, Belorusiyada Xatın kəndlərinin əhalisi tamamilə məhv edilmişdi.

Slavyanlar yaşayan məntəqələrin boşaldılması və almanlar tərəfindən məskunlaşdırılması üçün genosid siyasəti həyata keçirilirdi. 1942-ci il yanvarın 20-də Avropada bütün yəhudilərin məhv edilməsi planı təsdiq edilmişdi. Bunun üçün iri ölüm düşərgələri təşkil olunmuşdu. Burada, onlar qaz kame-



ralarına salınıb boğulur və yandırılırdı. İkinci dünya müharibəsi dövründə 6 milyona qədər yəhudi bu siyasətin qurbanı olmuşdu.

Yaponiya tərəfindən işğal edilmiş ölkələrdə də vəziyyət ağır idi. Vyetnam, Laos, Malaziya, Kamboca, Filippin və İndoneziya əvvəllər də müstəmləkə idi. Bir müddət Yaponiyanın "Asiya asiyalılar üçündür!" şüarı onlarda bu dövlətin köməyi ilə müstəqillik əldə edəcəklərinə ümid yaratmışdı. Lakin yaponların burada yaratdığı rejim müstəmləkə rejimindən də ağır oldu. Filippin, İndoneziya, Malaziya və Birmada antiyapon hərəkatı meydana gəldi və genişləndi.

Müqavimət hərəkatı inkişafının mühüm amillərindən biri də bütün antifaşist qüvvələrin birləşdirilməsi oldu. 1941-ci ilin y ayına qədər kommunist və antifaşistlərin birgə fəaliyyəti mümkün deyildi. Almaniyanın SSRİ-yə basqınından sonra Kominternin çağırışı ilə kommunist partiyaları faşizmə qarşı mübarizəyə başladılar. Müttəfiqlərin təzyiqi ilə 1943-cü ildə Kominternin buraxılması kommunist partiyalarına müstəqil qüvvələr kimi çıxış etməyə, Müqavimət hərəkatına fəal qoşulmağa imkan yaratdı.

Müqavimət hərəkatının diversiya, sabotaj, hərbi sifarişlərin vaxtında yerinə yetirilməməsi, məxfi informasiyalar toplanılması və müttəfiqlərə ötürülməsi, partizan dəstələrinin fəaliyyəti kimi müxtəlif formaları vardı. Bu hərəkatın ilk nümunələrindən biri 1943-cü ildə Varşava yəhudi gettosundakı (məhəlləsində) üsyan oldu. Pis silahlanmış getto sakinləri bir aya qədər alman işğalçılarına qarşı mübarizə apardılar.

Müqavimət hərəkatının ümumi rəhbər orqanları formalaşmağa başlamışdı. Məsələn, Fransada bu hərəkata general Şarl de Qollun rəhbərliyi altında "Azad Fransa" təşkilatı başçılıq edirdi.

Müqavimət hərəkatı sıralarında Fransada 300 min, Yuqoslaviyada 350 min, Yunanıstanda 70 min, Norveçdə 50 min,

Polşada 60 min, Çexoslovakiyada 25 min, Çində 2,2 milyon adam vuruşmuşdu.

SSRİ-nin almanlar tərəfindən zəbt edilmiş ərazilərində də antifaşist partizan hərəkatı geniş miqyas almışdı. 1941-ci ildə düşmən arxasında 2000-dən çox, 1942-ci ildə 6200-dən çox partizan dəstəsi və qrupu fəaliyyət göstərmişdi. SSRİ-də partizan hərəkatında bir milyondan çox adam iştirak etmişdi. Onlar düşmənin bir milyondan artıq əsgər və zabitini məhv etmiş və əsir almışdılar.

### *İtaliyanın ikinci dünya müharibəsindən çıxması*

Şimali Afrikanın faşistlərdən azad edilməsi müttəfiqlərə imkan verdi ki, İtaliyaya qoşun çıxartsınlar. 1942-ci ilin II yarısında İtaliyada xalqın tətil və nümayişləri başlandı. 1943-cü ilin martında bu hərəkat bütün Şimali İtaliyanı bürüdü. Yuxarı dairələr Mussolinini kənarlaşdırmaq, yeni hökumət təşkil etmək və müttəfiqlərlə sazişə gəlmək istəyirdilər. Onlar inqilabdan yeganə xilası ABŞ və İngiltərə qoşunlarının İtaliyaya girməsində görürdülər. 1943-cü ilin iyulun 19-da müttəfiqlərin qoşunları Siciliyaya çıxdılar. Böyük Şura qərar çıxardı ki, Mussolini Ali baş komandan vəzifəsini krala versin. Sonrakı gün o baş nazir vəzifəsindən də azad edildi və həbs edildi. Hökumətə marşal Bodolyo rəhbərlik etməyə başladı. İnqilaba yol verməmək üçün o, 1943-cü ilin sentyabrın 3-də müttəfiqlərlə barışıq haqqında saziş bağladı. İtaliya danışıqsız təslim oldu. İngiltərə-Amerika qoşunları Apenin yarımadasının cənub hissəsinə çıxdılar. Bu Berlində həyəcana səbəb oldu. Ona görə də alman faşistləri hücuma keçib İtaliyanın şimal və orta hissəsini işğal etdilər. Hitler tərəfindən göndərilmiş Otto Skortseni Mussolinini azad etdi və onu Berlinə gətirdi. Faşistlər tutduqları yerdə oyuncaq İtaliya sosial respublikası yaratdılar.



Mussolini onun başçısı oldu. Nazirlik Salo şəhərində yerləşdiyinə görə bu "Salo respublikası" da adlanırdı.

1943-cü ilin oktyabrında İtaliya Almaniyaya müharibə elan etdi.

1943-cü ilin noyabrında müttəfiqlərin qoşunları alman qoşunlarının olduğu Neapola yaxınlaşdılar. Lakin heç bir təsirli iş görə bilmədilər.

### *1942-1943-cü illərdə Sakit Okeanda müharibə*

1942-ci ilin avqustunda ABŞ Solomon adasına desant çıxartdı.Artıq 1942-ci ilin payızında ABŞ dənizdə bir neçə qələbə qazandı. Lakin hərbi əməliyyatlar yavaş getdiyinə görə 1944-cü ilin əvvəllərinə qədər davam etdi. ABŞ 1943-cü ilin iyununda Yeni Qvineyanı, noyabrında Kilberti adasını azad etdi. Dekabrda Yeni Britaniya adası azad edildi. Bu dövrdə yaponlara qarşı Şərqi və Cənub-Şərqi Asiyada milli azadlıq hərəkatı başlandı.

### *Moskva və Tehran konfransları.*
### *İkinci cəbhənin açılması məsələsi*

Şimali Fransadan İkinci cəbhənin açılmasının ən qəti əleyhdarı Çörçill idi. O, İkinci cəbhənin Balkanlardan açılması tərəfdarı idi. Çörçill öz planlarının Kasablankada 1943-cü ilin yanvarında, Vaşinqtonda isə 1943-cü ilin mayında qəbul edilməsinə nail oldu.

1943-cü ilin avqustunda Kvebekdə konfransda ABŞ və İngiltərə elan etdilər ki, 1944-cü ilin mayın 1-dən gec olmayaraq II cəbhə açılacaq.

1943-cü ildə yenə də Almaniyanın qoşun hissələrinin $\frac{2}{3}$ hissəsi Sovet-alman cəbhəsində idi. Məşhur ABŞ

diplomatlarından olan Dalles "antisovet sanitar kardonu" ideyasını irəli sürdü. 1943-cü il oktyabrın 29-30-da Moskvada olmuş üç dövlət xarici işlər nazirlərinin (Molotov, Xell, İden) konfransında İtaliya haqqında heç bir bəyanat qəbul edilmədi. Moskva konfransında qərar qəbul edildi ki, İngiltərə, ABŞ və SSRİ-dən ibarət Avropa məsləhət komissiyası təşkil edilsin. Konfrans üç dövlət başçısının Tehran konfransına hazırlıq görmüş oldu.

Tehrana gələrkən yolüstü Ruzvelt və Çörçill Qahirədə Çan-kayşi ilə görüşdülər. Qahirə bəyannaməsi qəbul edildi. Bəyannamədə göstərilirdi ki, Yaponiyanın cəzası verilməli, Mancuriya, Formoza (Tayvan) və Peskador adaları Çinə qaytarılmalıdır. «Evrika» Adı latında keçirilən Tehran konfransı 1943-cü ilin noyabr ayının 28-dən dekabr ayının 1-dək çağırıldı. Konfransda əsas məsələ İkinci cəbhənin açılması məsələsi idi. Çörçil kommunizmin Avropaya yayılmaması üçün onun Arvopanın «yumşaq qarınaltısı» hesab edilən balkanlardan, Stalin isə Şimali Fransadan açılmasını tələb edirdi. Avropada müharibənin tez qurtarmasında və bütün qüvvələrin Yaponiyaya qarşı yönəldilməsində maraqlı olan Ruzvelt Stalinin fikrini müdafiə etdi. Çox mübahisədən sonra Şimali Fransadan (əməliyyat "Overlord" adlanırdı) 1944-cü ilin mayında İkinci cəbhənin açılması haqqında birgə bəyannamə imzalandı. Almaniyanın taleyi məsələsi müzakirə edilərkən ABŞ təklif etdi ki, Almaniya 5 dövlətə parçalansın. İngiltərə isə təklif edirdi ki, Prussiya ayrılsın, yerdə qalan ərazidə isə "Dunay federasiyası" təşkil edilsin. SSRİ hər iki təklifin əleyhinə çıxdı. Bu məsələ Avropa məsləhət komissiyasının ixtiyarına verildi. Tehran konfransında Köniqsberqin, yəni indiki Kalininqradın SSRİ-yə verilməsi qərara alındı. Konfransda həmçinin İranın suverenliyi haqqında üç dövlət bəyənnaməsi imzalandı.



### *4. İkinci dünya müharibəsinin III mərhələsi. Cənub-Şərqi Avropa dövlətlərinin azad olması. Hitler blokunun iflası.*

1944-cü ildə müharibə həlledici mərhələyə qədəm qoydu. Bu zaman SSRİ-də 6,3 milyon əsgər və zabit, 95,6 min silah və minomyot, 5,2 min top, 10,2 min təyyarə var idi. Sovet-alman cəbhəsində faşistlərin 4,9 milyon adamı, 54,5 min silahı, 5,4 min topu, 3,1 min təyyarəsi var idi. 1944-cü ilin oktyabrına qədər bütün Sovet ərazisi azad edildi. 1944-cü ilin yanvarın 1-də Polşada yeni fəhlə hökuməti olan Krayova Rada təşkil edildi. 1944-cü ilin iyulunda Sovet ordusu Polşa ərazisinə girdi. Polşa qoşunu təşkil edildi.

Mühacir hökuməti Varşavada hakimiyyətə gəlmək üçün 1944-cü il avqustunda üsyan qaldırmağa cəhd etdi. Faşistlər üsyanı amansızlıqla yatırdılar. 200 min polyak öldürüldü.

1944-cü ilin aprelində Sovet ordusu Rumıniya ərazisinə girdi. 1944-cü ildə Yassı-Kişinyev əməliyyatı zamanı 18 alman diviziyası mühasirəyə alınıb məhv edildi. 1944-cü il avqustun 23-də Buxarestdə antifaşist üsyan başlandı. Antonesku diktaturası devrildi. Yeni yaranan Rumıniya hökuməti avqustun 31-də Almaniyaya müharibə elan etdi. 1944-cü il sentryabrın 12-də Moskvada Rumıniya ilə Antihitler koalisiyasına aid olan dövlətlər arasında müqavilə bağlandı. SSRİ ilə Rumıniya arasında sərhədlər 1940-cı ilə qədər olduğu kimi bərpa edildi.

1944-cü ilin sentyabrın 5-də SSRİ Bolqarıstana müharibə elan etdi. Sentyabrın 9-da Sofiyada silahlı üsyan qalib gəldi. Dimitri Georgiyevin başçılığı altında hökumət təşkil olundu. Yeni hökumət Almaniya və Macarıstana müharibə elan etdi. 1944-cü ilin oktyabrın 28-də Bolqarıstanla antihitler koalisiyası arasında müqavilə bağlandı.

1944-cü ilin yazında sovet qoşunları Çexoslavakiya ərazisinə çıxdı. Slovakiyada Pisso hökuməti hökm sürürdü. Avqustun 20-də orada üsyan başlandı. Onun paytaxtı Bansk-

Bistritsa oldu. Sentyabrın 8-də sovet ordusu I Çexoslovakiya korpusu ilə birgə hücuma keçdi. Onlar oktyabrın 6-da Duklinsk aşırımına çıxdılar.

1944-cü illin sentyabrında sovet qoşunları Bolqarıstan-Yuqoslaviya sərhəddinə çıxdılar. Oktyabrın 20-də Belqrad azad edildi. Hələ 1943-cü ilin noyabrın 29-da yeni Yuqoslaviya hökuməti yaradılmışdı. Ölkənin bütün ərazisi 1945-ci ilin mayına qədər azad edildi. 1945-ci ilin aprelində isə SSRİ ilə Yuqoslaviya arasında dostluq və qarşılıqlı yardım haqqında müqavilə bağlandı.

1944-cü ilin noyabrın 29-da Albaniya azad edildi. Hələ 1943-cü ilin yazında yunan vətənpərvərləri ölkənin $\frac{1}{3}$ hissəsini azad etdilər. Yunanıstana ingilis qoşunları daxil oldular. Mühacir hökuməti Afinaya qayıtdı.

1944-cü ildə artıq Almaniya özünün müttəfiqlərindən məhrum olmuşdu. 1944-cü ilin sentyabrında Moskvada SSRİ Finlandiya ilə saziş bağladı.

1944-cü ilin martında hitlerçilər Macarıstan ərazisini tutdular. 1944-cü ilin oktyabrın 6-da sovet qoşunları Debretsen əməliyyatına başladılar. Xortinin müraciətinə müttəfiqlər mənfi cavab verdilər. Çünki o vaxt qazanmaq istəyirdi. Hitlerçilər Xortini hakimiyyətdən kənar edib, faşist Salaşini qoydular. Hitler onun müdafiəsi üçün əlavə qoşun göndərdi. 1945-ci il fevralın 13-də Sovet qoşunları Budapeşti azad etdilər. 1945-ci ilin fevralında Macarıstan Hitler Almaniyasına müharibə elan etdi. Bu hadisədən sonra salaşistlər Avstriyaya keçib hitlerçilərlə birlikdə 1945-ci ilin mayına qədər SSRİ əleyhinə müharibə apardılar.



### *İkinci cəbhənin açılması*

1944-cü ilin əvvəllərində müttəfiqlər Şimali Fransadan hücum hazırlığına başladılar. Buraya 4 ordu, 39 diviziya, 6 min tank, 11 min təyyarə toplandı. Almaniyanın isə qərbdə 58 diviziyası var idi. Şimalda Almaniya silahlanaraq Kaledə "Atlantika dairəsi" əmələ gətirdi.

1944-cü il iyun 6-da ikinci cəbhə Şimali Fransadan açıldı. Onun komandanı general Eyzenhauer oldu. Keçiriləcək əməliyyat "Overlord" adlanırdı. Avqustun 15-də müttəfiq qoşunlar Fransanın cənubuna çıxdılar. Avqustun 19-da Parisdə antifaşist üsyan başlandı. Avqustun 25-də üsyan qalib gəldikdən sonra general Lekmark Parisə daxil oldu. Düşmən qarnizonu təslim oldu. Paris azad oldu.

Hitler qərara gəldi ki, "Ziqfrid xəttilə" öz gücünü göstərsin. Sentyabrın 3-də ingilislər Brüsselə daxil oldular. Lakin müttəfiq qoşunları "Ziqfrid xətti"ni yarmağı bacarmadılar. 1944-cü ilin noyabrında hücum dayandırıldı. 1944-cü il iyunun 4-də müttəfiqlər Romanı döyüşsüz aldılar. 1944-cü ilin sonuna qədər düşmən Fransa sərhədlərindən və Belçikadan qovuldu. 1944-cü il oktyabrın 23-də SSRİ Fransa Respublikasının müvəqqəti hökumətini tanıdı.

1944-cü il dekabrın 10-da Fransa ilə SSRİ arasında 20 il müddətinə dostluq və qarşılıqlı yardım haqqında müqavilə bağlandı.

### *Faşist ordusunun böhranının dərinləşməsi*

Müttəfiqlərin qələbəsi alman imperializminin taleyi üçün həyəcan yaratdı. 1943-cü ildə alman generalları gizli danışığa başladılar. Onlar Hitleri devirmək, yeni hökumət yaratmaq, İngiltərə və ABŞ-la seperat sülh bağlamaq istədilər. Bu işdə Avropada Amerika kəşfiyyatçısı olmuş Allen Dalles də böyük rol oynayırdı. Gizli danışığın üzvləri general Bek,

feldmarşal Vitsleben, keçmiş oberburqomistr Leyspiq Qerdeler, Lazer zavodunun direktoru, aristokratlardan Moltke və Şulenberq idi. Polkovnik Ştauffenberq və onun tərəfdarları isə belə hesab edirdilər ki, Almaniya demokratik respublikaya çevrilməlidir. SSRİ ilə sülh bağlamaq lazımdır. Onlar Belorusiyada 1944-cü ilin iyununda "Baqration əməliyyatı" nəticəsində məğlubiyyətə uğradıqdan və müttəfiqlər Fransada qoşun yerləşdirdikdən sonra bu işi etmək istədilər. 1944-cü ilin iyunun 20-də Şərqi Prussiyada Rastenburq yaxınlığında Hitlerin dayanacağında "Qurd yuvası" planına uyğun olaraq Hitleri qəzaya salmaq istədilər. Ştauffenberq bombanı katroqrafiya zalına qoydu. Partlayış olsa da, Hitlerə toxunmadı. Qəsdi təşkil edənlərə amansız divan tutuldu. Bütün Almaniyada kütləvi təqiblər başladı. Almaniyada antifaşist mübarizə zəiflədi.

1944-cü ilin sentyabrında Kvebekdə Ruzvelt və Çörçillin iştirakı ilə müşavirə oldu. Qızıl Ordunun Mərkəzi Avropaya onlardan qabaq girməsinin qarşısını almaq müşavirədə əsas məsələ idi. Onun üçün İtaliyada əməliyyatları sürətləndirmək, Almaniyaya girmək və onun əsas hissəsini tutmağın vacibliyi qərara alındı.

1944-cü ilin oktyabrında Çörçill və İden Moskvaya gəldilər. İngilislər belə hesab edirdilər ki, Polşa, Çexoslovakiya və Yuqoslaviya azad edildikdən sonra mühacir hökumətləri gəlib yenidən hakimiyyətdə olmalıdırlar. Onlar Polşada Kerzon xəttini müdafiə edirdilər. Almaniyanı üç hissəyə bölməyi tələb edirdilər: Prussiya, Avstriya və bir də Bavariya, Rur, Vestfaliya, Saar vilayət daxil olmaqla beynəlxalq nəzarət zonası yaratmaq planını irəli sürürdülər. İngiltərə bununla Almaniya kimi rəqibi sıradan çıxarmaq istəyirdi. Sovet hökuməti bu təklifi rədd etdi. İngiltərənin Mərkəzi və Şərqi Avropada federasiya və ya konfederasiya tipli dövlət yaratmaq fikri də rədd edildi.



Hitlerin ətrafı ABŞ və İngiltərəni məcbur etmək istəyirdi ki, onlar seperat sülh bağlasınlar. Ardendə almanlar 121 diviziya, 900-ə yaxın tank, 800 təyyarə topladılar. Dekabrın 16-da onlar 3 ordu ilə hücum etdilər və 100 km irəliləyə bildilər. 1945-ci ilin yanvarında almanlar Elzasda ingilis-amerikan qoşunlarına daha güclü zərbə vurdular. Vəziyyəti belə görən Çörçill 1945-ci il yanvarın 6-da Stalinə müraciət etdi. 1945-ci il yanvarın 12-də Sovet qoşunları Baltik dənizindən Karpat dağlarına qədər olan 1200 km-lik ərazidə hücuma keçdilər. Almaniyanın cənubuna Sovet qoşunları daxil oldu. Fevralın 8-də müttəfiq qoşunları da hücuma keçdilər. Reyn sahilində bütün strateji nöqtələri ələ keçirdilər. Rur sənaye rayonunu tutdular. Almanlar ingilis və amerikanlara qarşı o qədər də kəskin müqavimət göstərmirdilər. Düşmənin Visla və Oder çayları arasında oan 60 diviziyası məğlub edildi. Polşa torpağı tam azad edildi və Sovet qoşunları Almaniyaya girdi. Şərqi Prussiyada da Sovet qoşunları qələbə qazandı. Yunanıstana qoşun çıxarmaq üstündə SSRİ ilə İngiltərə arasında münaqişə yarandı. Hitler ümid edirdi ki, bu onları parçalayacaq. 1945-ci il martın əvvəllərində Macarıstandakı Balatı gölü rayonunda döyüş başlandı. Sovet qoşunları qalib gəldilər. Aprelin 4-də Macarıstan tam azad edildi. Aprelin 25-də Şimali İtaliyada üsyan oldu. Aprelin 26-da Şimali İtaliyadakı alman ordusu təslim oldu.

Vyana yaxınlığında ciddi döyüşlər getdi, aprelin 13-də şəhər tutuldu. Avstriyanın suverenliyi aprelin 27-də bərpa edildi.

### *Krım konfransı*

Krım konfransı 1945-ci ilin fevralın 4-11-ində «Böyük üçlüyün» iştirakı ilə keçirildi. Konfransda düşmənin qəti məğlubiyyəti və dünyanın müharibədən sonrakı taleyi əsas məsələ

idi. Konfransda Almaniyanın üç işğal zonasına – sovet, ingilis, amerikan işğal zonalarına bölünməsi qərara alındı. Berlində isə bu üç böyük dövlətin qoşunları saxlanılmalı idi. Konfransda qərara alındı ki, Fransa üçün də gələcəkdə Almaniya ərazisində işğal zonası ayrılsın. Konfrans Avropanın azad edilməsi haqqında bəyannamə qəbul etdi. Oder və Neysi çaylarının Qərb sahillərinin Polşaya verilməsi qərara alındı. Təzminatın miqdarı 20 mlrd dollar müəyyən edildi. Yarısı SSRİ-yə çatmalı idi. Moskvada bu məsələ ilə əlaqədar İttifaqlararası komissiya yaradıldı. 1945-ci ilin fevralın 11-də üç dövlət arasında gizli saziş bağlandı. Bu sazişə əsasən Avropada müharibə qurtardıqdan 2-3 ay sonra SSRİ Yaponiyaya qarşı müharibəyə girməli idi. SSRİ Avropada müharibə qurtardıqdan 2-3 ay sonra Yaponiyaya aşağıdakı şərtlərlə müharibə elan etməyi öhdəsinə götürdü: Monqolustan Xalq Respublikasında mövcud vəziyyət saxlanılmalı, Saxalinin cənub hissəsi və ona bitişik adalar, Kuril adaları SSRİ-yə verilməli, Dalney ticarət limanı beynəlmiləlləşdirilməli, Port-Artur hərbi-dəniz bazası kimi SSRİ-yə icarəyə verilməli, Şərqi Çin və Cənubi Mançuriya dəmiryollarından Çin və SSRİ tərəfindən birgə istifadə olunmalı idi. Müttəfiqlər SSRİ-nin bu şərtlərinə etiraz etmədilər.

Krım konfransından bir qədər sonra, yəni 1945-ci ilin aprelində SSRİ Yaponiya ilə 1941-ci ilin aprelində bağladığı bitərəflik haqqında sazişdən imtina etdiyini bildirdi.

Krım konfransında həmçinin müharibədən sonra dünyada sülhü və təhlükəsizliyi təmin etmək məqsədi ilə BMT-nin yaradılması qərara alındı. Qərara alındı ki. Təşlükəsizlik Şurasına yekdillik prinsipi üzrə ABŞ, SSRİ, Çin, Fransa, Böyük Britaniya üzv olsunlar.

1945-ci il aprel ayının 25-də sülhü və beynəlxalq təhlükəsizliyi təmin etmək məqsədilə ABŞ-ın San-Fransisko şəhərində 46 ölkədən 282 nümayəndənin iştirak etdiyi konfrans açıldı. Sonradan daha dörd ölkə də dəvət edildi. Konfransın



işində Birləşmiş Millətlərin 1942-ci il 1 yanvar tarixli bəyannaməsini imzalayan və sonradan ona qoşularaq Almaniyaya müharibə elan edən dövlətlər iştirak edirdilər. Konfransın gündəliyində bir məsələ – BMT nizamnaməsini işləyib hazırlamaq dururdu. Konfransda ümumi məsələlər üzrə - Baş məclis, İqtisadi və Sosial Şura, Qəyyumluq Şurası; Təhlükəsizlik Şurası, Beynəlxalq məhkəmə və digər hüquqi məsələlər üzrə orqanlar yaradıldı.

Təhlükəsizlik Şurasında səsvermə məsələsində hələ Krım konfransında irəli sürülən daimi üzvlər arasında yekdillik prinsipi qəbul edildi. Daimi üzvlərdən biri "veto" qoyardısa, qərar qəbul olunmurdu. Lakin biri bitərəf olardısa, qərar qəbul edilirdi. Təhlükəsizlik Şurasına beş ölkə – ABŞ, SSRİ, Böyük Britaniya, Fransa və Çin daimi üzv, 6 dövlət isə qeyri-daimi üzv olaraq iki il müddətinə seçilməli idi. Qəyyumluq məsələsində dövlətlərin ümumi fikir birliyi əsasında himayədə olan ərazilərin əhalisinin inkişafı üçün qəyyumluq sistemi yaratmaq zəruri sayıldı. Konfrans Beynəlxalq məhkəməni təsis etdi. BMT iqamətgahının yerləşdiyi yer Nyu-York şəhəri müəyyənləşdirildi.

1945-ci il iyun ayının 26-da BMT nizamnaməsinin 50 dövlət tərəfindən imzalanıb qəbul edilməsi ilə San-Fransisko konfransı öz işini başa çatdırdı.

BMT-nin yaradılmasının böyük tarixi əhəmiyyəti var idi. O, beynəlxalq sülhü və təhlükəsizliyi qoruyan, əməkdaşlığı həyata keçirən universal tipli beynəlxalq təşkilat funksiyasını yerinə yetirməyə başladı. BMT beynəlxalq münasibətlərin mühüm prinsipləri olaraq dövlətlərin suverenliyi, sərhədlərin pozulmazlığı, bir-birinin daxili işlərinə qarışmamaq, mübahisəli məsələləri dinc yolla həll etmək və başqa prinsipləri elan etdi.

### *Berlin əməliyyatı. Avropada müharibənin qurtarması Potsdam konfransı*

1945-ci ilin aprelin ortalarında Berlini müdafiə etmək üçün Almaniya Sovet qoşunlarına qarşı burada 214 diviziya, o cümlədən 34 tank diviziyası, 4 ordu, 1 mln. adam, 10.4 min silah, 1.5 min tank, 3.3 min döyüş təyyarəsi toplamışdı.

SSRİ-dən isə 2.5 mln adam, 41.6 min silah, 6 min tank, 7.5 min döyüş təyyarəsi Berlin ətrafına toplanmışdı. 1945-ci il aprelin 16-da Berlin əməliyyatı başlandı. Sübh çağı saat 3-də tanklar və piyadalar 140 güclü projektorun işığında hücuma keçdilər. Dörd gündən sonra Jukov və Konevin orduları şəhər ətrafında dairəni qapadılar. Aprelin 25-də Elba çayı sahilindəki Torqau rayonunda Sovet və ingilis-amerikan qoşunları görüşüb birləşdilər. Hitler cənuba qaçmamaq, Berlin uğrunda mübarizəyə şəxsən rəhbərlik etmək haqqında qərar qəbul etdi. Aprelin 30-da Hitler məğlub olduğunu gördükdə özünə qəsd etdi. Alman paytaxtına hücumda sovet qoşunlarından 300 min nəfər ölən və yaralanan (ABŞ-ın bütün müharibə ərzində itirdiyindən çox) oldu. Aprelin 30-da reyxstaq alındı. Mayın 2-də Berlin qarnizonu təslim oldu. Almaniyada hakimiyyət qross-admiral Dyonitsə keçdi. Dyonits hökuməti istəyirdi ki, qüvvələri qərbə toplasın və ingilis-amerikanlara təslim olsun. Çörçill deyirdi ki, silahları yığmaq, sonra lazım gəlsə, sovetlərə qarşı mübarizə üçün almanlara paylamaq lazımdır. 1945-ci il mayın 7-də Reymsdə təslim olmaq haqqında ingilislərlə hazırlıq protoklu imzalandı.

Mayın 8-dən 9-na keçən gecə Berlində Karl-Sxorstdə darmadağın edilmiş alman silahlı qüvvələrinin başçıları (Keytel, Ştumpf, Friderberq) Almaniyanın danışıqsız təslim edilməsi haqda akta qol çəkdi. Bütün hakimiyyət müttəfiqlərin əlinə keçdi. 1945-ci il iyunun 5-də Almaniyanın məğlub edil-



məsi haqqında bəyannamə imzalandı. Nəzarət Şurası yaradıldı. 9 May qələbə günü elan edildi.

Çexoslovakiyada hələ 1945-ci ilin martında sosial-demokrat Firlinqer başda olmaqla Milli cəbhə hökuməti təşkil edilmişdi. Mayın 5-də Praqa zəhmətkeşləri üsyan etdilər. May ayının 9-da Çexoslovakiyanın paytaxtı Praqa azad edidi.

1945-ci ilin iyulun 17-dən avqustun 2-dək Potsdam konfransı keçirildi. Onun işində İ.V.Stalin, 1945-ci ilin aprelində Ruzveltin ölümündən sonra prezident vəzifəsinə keçən H.Trumen və U.Çörçill iştirak edirdilər. Konfransın gedişində Çörçilli seçkilərdə leyboristlərin qələbəsindən sonra Böyük Britaniyanın baş naziri olmuş K.Ettli əvəz etdi. Potsdam konfransı dünyanın müharibədən sonrakı quruluşu məsələsinə həsr edilmişdi. Konfrans Almaniyanı işğal etmiş dövlətlərin bu ölkə barəsində siyasətinin əsas prinsiplərini işləyib hazırladı.

Bağlanan sazişdə Almaniyanın tam tərksilah və ya demilitarizasiya edilməsi, nasional-sosialist partiyasının buraxılması, hərbi cinayətkarların cəzalandırılması, siyasi həyatın demokratikləşdirilməsi, alman iqtisadiyyatının dinc əsasda inkişaf etdirilməsinin zəruriliyi nəzərdə tutulurdu. Almaniya ərazisi İngiltərə, SSRİ, ABŞ və Fransa işğal zonalarına bölündü. Ələ keçmiş faşist rəhbərləri Beynəlxalq tribunala verildi. Konfrans qərara aldı ki, Almaniya vahid dövlət kimi yaşamalıdır. Ölkənin paytaxtı Berlin də dörd zonaya bölündü. Konfransda Almaniyanın dövlət sərhədləri qəti müəyyən edildi.

Almaniya ərazisinin dörddə birini itirdi. Oder və Neysi çaylarının qərb sahilləri Polşaya, Kalininqrad (köhnə Köniqsberq) əyaləti SSRİ-yə verildi. 1938-ci ildən sonra Almaniyanın ələ keçirdiyi bütün ərazilər ondan alındı. Konfransın qərarına görə bu ərazilərdən 9 milyon alman çıxarılmalı idi. Konfransda müxtəlif işğal zonalarında olan hərbi əsirlərin dəyişdirilməsi qərara alındı. SSRİ Qərbə qaçmış

bütün vətəndaşlarının zorla geriyə qaytarılması üçün ABŞ və İngiltərənin razılıq verməsinə nail oldu. Almaniyadan alınacaq təzminatın miqdarı 20 milyard dollar müəyyən edildi. Onun 50%-i SSRİ-yə çatmalı idi. Real maliyyə çətinliyi ilə bağlı təzminatın sənaye avadanlığı hesabına ödənilməsi qərara alındı.

Konfrans yeni yaradılan orqana – Xarici işlər nazirləri şurasına Almaniyanın müttəfiqləri və Almaniyanın özü ilə sülh müqaviləsinin şərtlərini işləyib hazırlamağı tapşırdı. Xarici işlər nazirləri şurasının tərkibi SSRİ, ABŞ, Böyük Britaniya, Fransa və Çin nümayəndələrindən təsis edildi. Bu və ya digər sülh sazişinin şərtlərini işləyib hazırlamaq məğlub tərəflərin təslim olması şərtlərini imzalamış qalib dövlətlərin üzərinə qoyuldu.

### *Uzaq Şərq və Sakit okeanda müharibə. İkinci dünya müharibəsinin qurtarması*

SSRİ-nin Uzaq Şərqdə 59 diviziyası var idi. 1944-cü ildə ABŞ Sakit Okeanda fəal hərbi əməliyyata keçdi. 1944-cü ilin əvvəllərində ABŞ qoşunları Marşal, Mariya adalarını tutub, Yaponiyanın əsas dəniz yollarını nəzarət altına aldılar. Həmin ilin martında yapon ordusu Birma ərazisindən keçib Hindistana soxuldu. Lakin "Dehliyə yürüş" təchizat çətinliyi üzündən baş tutmadı. Yapon qoşunları Pekin-Xanko istiqamətində hücum edib Homindan ordusuna qalib gələrək Zyaoyanı, habelə heç bir müqavimətə rast gəlmədən Mərkəzi Çin ərazisini ələ keçirdilər.

1944-cü ilin oktyabrında ABŞ-ın Sakit okean donanmasının baş komandanı admiral Makarturun başçılığı altında ABŞ qoşunları Filippin adalarına çıxdı. Sonra Bismark arxipelaqı, Yeni Qvineya və Karolin adaları alındı. Amerikanlar Sakit Okeanda və Cənub-Şərqi Asiyada öz qüvvələrini topladılar. Lakin yaponlar quru qoşunlarında üstün idilər.

Yaponiyaya ən güclü zərbə Filippin adasındakı Lusonda dəydi. 1945-ci ilin martına qədər Yaponiyanın İndoneziya ilə



dəniz əlaqəsi kəsildi, bu isə onun əsas neft mənbəyindən məhrum olması demək idi. Yaponiyanın hərbi-dəniz və ticarət donanması pis vəziyyətə düşdü.

1945-ci ilin yazında Birma, yayında İndoneziya azad edildi. Okinava adası uğrunda kəskin döyüşlər getdi. Bu ada Yaponiyanın əsas adalarından 600 km aralıda yerləşirdi. Burada döyüşlər üç ay davam etdi. Adanın alınması və coğrafi vəziyyəti Amerikanın Şərqi-Çin dənizində ağalığını təmin edir və Yaponiyanın özü üçün təhlükə törədirdi. Almaniyanın məğlubiyyəti Yaponiyanı da müdafiə döyüşlərinə keçməyə məcbur etdi.

1945-ci ilin yayında Mancuriya, Koreya, Cənubi Saxalin, Kuril adalarında yapon qoşunlarının sayı 1,2 mln nəfər idi. SSRİ-nin bu dövrdə Uzaq Şərqə 1,7 milyon əsgəri, 29,8 milyondan çox top və minomyotu, 5,2 min tankı, 5,1 min döyüş təyyarəsi var idi.

1945-ci il iyulun 26-da ABŞ, Çin və Böyük Britaniya Yaponiyaya Potsdam bəyannaməsini təqdim etdilər ki, orada təslim olmanın şərtləri göstərilirdi. Yaponiya bu sənədi qəbul etmədi və müharibəni davam etdirdi. Yaponlar ingilis və amerikanlarla gizli danışıqlar aparsa da, praktik nəticəsi olmadı. Antifaşist koalisiyasını parçalamaq mümkün olmadı.

Tarixdə ilk dəfə 1945-ci il avqustun 6-da Xirosima, avqustun 9-da isə Naqasakiyə ABŞ atom bombası atdı. 270 min adam, sonrakı illərdə radiasiyadan şüalanmadan 180 min adam öldü. ABŞ-da buna onunla bəraət qazandırırdılar ki, amerikalılar bu yolla yapon adalarına qoşun çıxarılanda və sonrakı döyüşlərdə düçar ola biləcəkləri ağır itkilərdən qaçmaq istəmişdilər. Böyük maddi itkiyə və mülki əhali arasında çoxlu tələfata səbəb olan atom bombardmanı hərbi zərurətdən irəli gəlməmişdi. Nüvə silahları ilə sürətlə silahlanmanın başlanğıcını qoymuş bu qeyri-insani hərəkət əslində ABŞ-ın strateji üstünlüyünün nümayişi demək idi. Atom silahı üzərində

müvəqqəti inhisara yiyələnmiş Birləşmiş Ştatlar müharibədən sonrakı dünyada öz hegemonluğunu möhkəmləndirməyə çalışırdı.

Avqustun 8-də SSRİ rəsmi olaraq Postdam bəyannaməsinə qoşuldu və Yaponiyaya müharibə elan etdi. 1945-ci il avqustun 14-də Yaponiya bildirdi ki, o, Potsdam bəyannaməsini qəbul edir. Lakin Kvantın ordusu müqaviməti davam etdirirdi. Ona görə də SSRİ hərbi əməliyyatı dayandırmadı. Avqustun 19-da yaponlar əsir düşməyə başladılar. Kvantın ordusu darmadağın edildi.

Avqustun sonunda Şimali-Şərqi Çin, Koreya, Cənubi Saxalin, Kuril adaları azad edildi.

Çan-Kayşi hökuməti 1945-ci ilin yayında SSRİ ilə danışığa girdi. 1945-ci il avqustun 14-də SSRİ ilə Çin arasında Moskvada müqavilə imzalandı. Müqaviləyə görə Port-Artur SSRİ və Çinin istifadə etdiyi hərbi-dəniz bazası olmalı idi. Dalney limanı isə bütün ölkələr üçün açıq liman hesab edildi.

1945-ci il avqustun 28-dən amerikanlar öz qoşunlarını Yaponiya ərazisində yerləşdirməyə başladılar. 1945-ci il sentyabrın 2-də Tokio boğazında ABŞ-ın «Mussiri» linkorunda Yaponiya danışıqsız təslim olmaq aktını imzaladı.

### *Müharibənin əsas yekunları*

İkinci dünya müharibəsi hərbi əməliyyatların səciyyəsinə görə Birinci dünya müharibəsindən çox fərqlənirdi. Birinci dünya müharibəsi əsasən mövqe, müdafiə, İkinci dünya müharibəsi isə texnikadan, tank, təyyarələrdən geniş istifadə, atəş gücünün artmasına görə daha çox hücum müharibəsi idi. İkinci dünya müharibəsi daha manevrli, dinamik, hərbi əməliyyatların coğrafi miqyasına görə daha geniş olmuşdu. Müharibənin gedişində silahların dağıdıcı gücü durmadan artmış, axıra yaxın raket və nüvə silahları tətbiq edilmişdi. Əgər



Birinci dünya müharibəsi 4 il 3, 5 ay davam etmiş, onda 1 milyarddan çox əhalini, 4 milyon kv.km-dən çox ərazini əhatə edən 30-dan çox dövlət iştirak etmişdirsə, İkinci dünya müharibəsi 6 il davam etmiş, bu müharibədə 61 dövlət iştirak etmişdir ki, onların ərazisi 22 milyon kv.km-dən çox, əhalisi isə 1.7 milyard nəfər idi. Əgər Birinci dünya müharibəsində 70 milyon adam səfərbərliyə alınmış, onlardan 13,6 milyon nəfəri ölmüş, 20 milyonu isə şikəst olmuş və yaralanmışdırsa, İkinci dünya müharibəsində 110 milyon nəfər səfərbərliyə alınmış, 60 milyondan çox adam həlak olmuş və yaralanmışdır. Əgər Birinci dünya müharibəsində maddi itki 360 milyard, o cümlədən müstəqil hərbi xərclər 208 milyard dollar olmuşdursa, İkinci dünya müharibəsi bəşəriyyətə 1 trilyon 117 milyard dollara başa gəlmişdi.

İkinci dünya müharibəsində 61 dövlət iştirak edirdi: onlardan 50-si Antihitler koalisiyasının, II-i isə "öx" dövlətlərinin üzvü idi. Əsas cəbhə alman-sovet cəbhəsi idi. 1944-cü ilin yayına qədər o biri cəbhələrdən 20 dəfə çox, İkinci cəbhə açıldıqdan sonra isə 1,8 – 2, 8 dəfə çox sovet-alman cəbhəsində ordu toplanmışdı. Sovetlər almanların 506,5 diviziyasını, əlaltılarının isə 100 diviziyasını, müttəfiqlər isə cəmi 176 diviziyanı məhv etdilər. Sovet İttifaqı Yaponiyanın 49 diviziyasını və 27 briqadasını məhv etdi. 7 milyon Sovet əsgəri Avropada, 1,5 milyon isə Asiyada həlak oldu.

Müharibədə 60 milyon adam ölmüş, 20 milyona yaxın isə yaralanmışdı. SSRİ-dən 27 milyon ölən, 10 milyon itkin düşən oldu. Almaniyadan 13,6 milyon ölən və itkin düşən olmuşdur. Bu müharibədə Polşa – 6 milyon, Çin – 5 milyon, Yaponiya – 2,5 milyon, İndoneziya – 2 milyon, Yuqoslaviya – 1,7 milyon, Filippin – 1 milyon, Fransa – 600 min, İtaliya 500 min, İngiltərə – 375 min, ABŞ – 300 min adam itirdi.

İkinci dünya müharibəsində faşizm üzərində qələbənin səbəbləri içərisində Antihitler koalisiyasına daxil olan

dövlətlərin siyasi, iqtisadi, hərbi və ideoloji sahədə bütün fəaliyyətlərini cəbhədə qələbəyə istiqamətləndirmələri, arxa ilə ön cəbhənin birliyi, sahmanlanmış hərbi təsərrüfatın yaradılması, müqavimət və partizan hərəkatı, bütün dünya xalqlarının faşizmə qarşı mübarizəsi, Sakit okean, Afrika və Aralıq dənizində aparılan hərbi əməliyyatların uğurluluğu, ikinci cəbhənin açılması, ABŞ-ın maddi və hərbi köməyi mühüm əhəmiyyət kəsb edir.

Faşizm üzərində qələbədə SSRİ silahlı qüvvələri, həmçinin Stalinin böyük siyasi iradəyə və təşkilatçılıq bacarığına malik olması da müstəsna rol oynamışdır.SSRİ-nin geniş əraziyə malik olması, şaxtalı rus qışı, spirtli içki vermək nəticəsində rus xalqının döyüşkənliyinin artırılması, bütün xalqın Stalinə inamı, Qərb silahlarından istifadə, hitlerçilərin müdafiə taktikasından istifadə etməsi nəticəsində partizan müharibəsinin genişlənməsi, rusların "top əti" kimi özünü qurban verməsi də Sovet silahlı Qüvvələrinin alman faşizmi üzərində qələbəsinə təsir edən amillərdən idi.

Bəzi burjua tarixçiləri faşizmin məğlubiyyətinin səbəblərini Hitlerin xəyalpərvər olması, almanların kifayət qədər vətənpərvər olmaması, Feldmarşal Paulyusun xəyanəti, SSRİ-nin döyüşə daha çox sayda canlı qüvvə çıxarması, yəni "ət hesabına qələbə çalması" və s. amillərlə izah etməyə cəhd göstərirlər.

Ən başlıca səbəb isə alman faşistləri və yapon millitaristlərinin hücumuna məruz qalan ölkələrin xalqlarının Vətən və azadlıq uğrunda ədalətli müharibə aparması idi.

Faşizm üzərində qələbədə Azərbaycan xalqının da öz payı vardır. Cəbhəyə gedən 640 min nəfərdən təqribən 60%-i geri qayıtmamışdı. Sovet cəbhəsində istifadə edilən yanacağın 70%-ni Bakı ödəyirdi. Bakı 75 milyon ton neft verirdi. Azərbaycanda təşkil edilmiş 77, 223, 271, 402, 416-cı milli



deviziyalar bütün müharibə ərzində düşmənə qarşı fədakarlıqla vuruşmuşlar.

Bakı döyüşən ordunun cəbhəxanalarından biri idi. Burada «Katyuşa» raketi, «Şnakin» pulemyotu istehsal edilir, «YAK-3» qırıcı təyyarəsi yığılırdı. Ümumiyyətlə, Bakıda 130 növ silah və hərbi sursat hazırlanırdı. Azərbaycanın mərd oğullarından 121 nəfəri cəbhədəki rəşadətinə görə Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü. 30 nəfər «Şöhrət» ordeninin hər üç dərəcəsi ilə, 176 min nəfər isə müxtəlif ordu və medallarla təltif edildi.

İkinci dünya müharibəsinin ən mühüm siyasi yekunlarından biri bəşəriyyətin faşizm taunundan xilas edilməsi idi.

Müharibənin gedişində dinc yanaşı yaşamaq prinsipinə əsaslanan yeni beynəlxalq münasibətlər sisteminin formalaşmasının başlanğıcı qoyuldu.

Müharibə müstəmləkə sisteminə sarsıdıcı zərbə vurdu, dünyada yeni geosiyasi dəyişikliklərə səbəb oldu.

SSRİ-nin nüfuzu artdı, o dünyanın iki qüdrətli dövlətindən birinə çevrildi. Sovet ititfaqı müharibə nəticəsində yaranmış dünya sosializm düşərgəsinə rəhbərlik etməyə başladı.

Kapitalizm dünyasında ABŞ-ın qeyd-şərtsiz liderilyi qəti möhkəmləndi və dünyanın birinci hərbi-siyasi və iqtisadi cəhətdən güclü dövlətinə çevrildi.

Müharibədə məğlub olmuş Almaniya, İtaliya, Yaponiya kimi ölkələrdə isə xarici siyasətdə hegemonluqdan əl çəkildi və «iqtisadi möcüzə» baş verdi. Çünki bu ölkələr demokratik quruluş şəraitində modernləşdirməni gücləndirdilər, sənayenin inkişafının üçüncü «yolu»nun axtarışına, ictimai münasibətlərin sənaye məkanı tipinin formalaşmasına nail oldular.

Dünya mədəniyyətinin xilas edilməsi, bəşəriyyətin həyatı və tərəqqi yolu ilə inkişafı üçün şərait yaradılması müha-

ribənin başlıca yekunu oldu. Müharibə ümumbəşəri dəyərlərin üstünlüyünü, onların indiki və gələcək nəsillər üçün əhəmiyyətini aydın göstərdi. Müharibə göstərdi ki, tərksilah, xalqlar arasında dostluq və əməkdaşlıq, millətlərarası münaqişələrin dayandırılması, sosial-siyasi sabitliyin möhkəmləndirilməsi yolu ilə ancaq böyük və ya kiçik müharibələrə son qoymaq olar.



## XRONOLOJİ CƏDVƏL

### 1917-ci il

| | |
|---|---|
| 31 yanvar | Meksika konstitusiyasının qəbulu |
| 27 fevral | Rusiyada fevral burjua-demokratik inqilabının qələbəsi |
| 6 aprel | ABŞ-ın Antanta tərəfində birinci dünya müharibəsinə girməsi |
| 25-31 avqust | Petroqradda Kornilov qiyamı və onun darmadağın edilməsi |
| 1 sentyabr | Rusiyanın respublika elan edilməsi |
| 24-25 oktyabr | Rusiyada oktyabr çevrilişi. Bolşeviklərin hakimiyyətə gəlməsi |
| 25-26 oktyabr | II Ümumrusiya Sovetlər qurultayı. Sovet hökumətinin təşkili. Sülh və torpaq haqqında dekretlər |
| 2 noyabr | «Rusiya xalqlarının hüquq bəyannaməsi haqqında» dekretin verilməsi |

### 1918-ci il

| | |
|---|---|
| 3 mart | Brest-Litovskda Sovet Rusiyası ilə Dördlər İttifaqının üzvləri arasında sülh müqaviləsinin imzalanması |
| 25 may | Sovet Rusiyasında çexoslovak korpusunun qiyamı ilə vətəndaş müharibəsi və xarici hərbi müdaxilənin başlanması |
| 29 sentyabr | Bolqarıstanın Birinci dünya müharibəsindən çıxması |
| 28 oktyabr | Çexoslovakiya respublikasının yaranmasının elan edilməsi |
| 30 oktyabr | Osmanlı imperiyasının birinci dünya müharibəsində məğlubiyyəti. Mudros sazişi |
| 30-31 | Macarıstanda burjua-demokratik inqilabı |

| | |
|---|---|
| oktyabr | |
| 3 noyabr | Avstriya-Macarıstan imperiyasının I dünya müharibəsində məğlubiyyəti. Padui barışığı |
| 3 noyabr | Kil limanında dənizçilərin üsyanı. Almaniyada Noyabr inqilabının başlanması |
| 11 noyabr | Birinci dünya müharibəsinin Almaniyanın məğlubiyyəti ilə başa çatması. Kompiyen barışığı |
| 1 dekabr | Serb-Xorvat Sloven krallığının təşkili |

**1919-cu il**

| | |
|---|---|
| yanvar | Almaniyada faşist partiyasının yaradılması |
| 18 yanvar | Paris sülh konfransının açılması |
| 19 yanvar | Almaniyada müəssislər məclisinə seçkilər keçirilməsi |
| 2-6 mart | III Kommunist İnternasionalının yaradılması |
| 21 mart – 1 avqust | Macarıstan sovet respublikasının fəaliyyəti müddəti |
| 4 may | Bavariya sovet respublikasının süqutu. Almaniyada noyabr inqilabının başa çatması |
| 28 iyun | Almaniya ilə qalib dövlətlər arasında Versal sülh müqaviləsinin bağlanması |
| 31 iyul | Almaniyada Veymar konstitusiyanın qəbul edilməsi |
| 31 avqust | Amerika Kommunist partiyasının yaradılması |
| 10 sentyabr | Avstriya ilə Sen-Jermen sülhünün bağlanması |
| 27 noyabr | Bolqarıstanla qalib dövlətlər arasında Neyi sülhünün bağlanması |

**1920-ci il**

| | |
|---|---|
| Mart-aprel | Rusiyaya Polşa qoşunlarının hücumu ilə vətəndaş müharibəsinin III mərhələsinin başlanması. Krımda Vrangel qoşunları üzərində Qırmızı ordunun qələbəsi. Vətəndaş |



| | |
|---|---|
| | müharibəsinin başa çatması |
| 10 avqust | Türkiyə ilə Sevr müqaviləsinin bağlanması. |
| 4 iyun | Macarıstanla qalib dövlətlər arasında Triano sülhünün bağlaması |
| 16 noyabr | Krımda Vrangel qoşunları üzərində qələbə vətəndaş müharibəsinin qurtarması. |

**1921-ci il**

| | |
|---|---|
| 16-21 yanvar | İtaliya Kommunist partiyasının təşkili |
| mart | Sovet Rusiyasında hərbi kommunizm siyasətindən yeni iqtisadi siyasətə keçilməsi |
| 18 mart | Sovet Rusiyası ilə Polşa arasında Riqa sülhünün başlanması |
| 21 avqust | ABŞ-ın Almaniya və onun müttəfiqləri ilə ayrılıqda sülh müqaviləsi bağlaması |
| 12 noyabr | Vaşinqton konfransının öz işinə başlaması |

**1922-ci il**

| | |
|---|---|
| 6 fevral | Dəniz silahlı qüvvələrini məhdudlaşdırmaq və müharibədə yeni silahlardan istifadə qaydasına, Uzaq Şərq və Sakit Okean məsələsinə həsr edilmiş Vaşinqton konfransının başa çatması |
| 10 aprel – 19 may | Genuya konfransı |
| 16 aprel | Sovet Rusiyası ilə Almaniya arasında Rapollo müqaviləsinin bağlanması |
| İyun-iyul | Haaqa konfransı |
| 29-30 oktyabr | İtaliyada faşistlərin hakimiyyətə gəlməsi |
| 30 dekabr | SSRİ-nin təşkili |

**1923-cü il**

| | |
|---|---|
| may | II və II ½ İnternasionalın birləşməsi və Sosialist fəhlə internasionalının yaranması |
| 24 iyul | Lozanna konfransı |
| 28-29 sentyabr | Bolqarıstanda antifaşist üsyanı |
| 23 sentyabr | İspaniyada Migel Primo de Riveranın diktaturasının qurulması |
| 8 noyabr | Münhendə faşistlərin "pivəxana qiyamı" və onun yatırılması |

**1924-cü il**

| | |
|---|---|
| 31 yanvar | SSRİ-nin I konstitusiyasının qəbul edilməsi |
| Yanvar-oktyabr | Böyük Britaniyada R.Makdonaldın başçılığı altında I leyborist hökuməti |
| 2 fevral | SSRİ ilə Böyük Britaniya arasında diplomatik münasibətlərin yaranması |
| Aprel | Fransada "sol blok" hökuməti |
| Avqust | Londonda konfransda Almaniyadan təzminatın onun təsərrüfatının dirçəldilməsi yolu ilə alınması məsələsinə aid "Daues planı"nın qəbul edilməsi |
| 28 oktyabr | SSRİ ilə Fransa arasında diplomatik münasibətlərin yaranması |

**1925-ci il**

| | |
|---|---|
| 5-16 oktyabr | Lokarno konfransı. Almaniyanın qərb sərhədlərinin təhlükəsizliyi haqqında Reyn təminat paktının bağlanması |



| | |
|---|---|
| dekabr | SSRİ-də sənayeləşdirmə xəttinin qəbul edilməsi |

**1926-cı il**

| | |
|---|---|
| 24 aprel | Albaniya ilə SSRİ arasında bitərəflik və bir-birinə hücum etməmək haqqında sazişin bağlanması |
| 4-12 may | İngiltərədə ümumi tətil |
| 12-13 may | Polşada dövlət çevrilişi |
| iyun | SSRİ-də trotçkiçi-zinovyevçi antipartiya blokunun meydana gəlməsi |
| iyul | Fransada Puankarenin başçılığı altında "Milli birlik" hökumətinin yaranması |
| sentyabr | Almaniyanın Millətlər Cəmiyyətinə daxil olması |

**1927-ci il**

| | |
|---|---|
| 27 may | SSRİ ilə Böyük Britaniya arasında diplomatik münasibətlərin kəsilməsi |
| dekabr | SSRİ-də kollektivləşməyə keçmək xəttinin qəbul edilməsi |

**1928-ci il**

| | |
|---|---|
| may | Almaniyada reyxstaq seçkilərində sosial-demokrat Müllerin rəhbərlik etdiyi "Böyük koalisiya" hökumətinin yaranması və avtoritar rejimə keçidin yaranması |
| iyun | SSRİ-də kollektivləşmə xəttinə qarşı çıxan Buxarin başda olmaqla sağ təmayülün yaranması |

**1929-cu il**

| | |
|---|---|
| 6 yanvar | Yuqoslaviyada monarxo-faşist çevrilişinin baş verməsi, Yuqoslaviyanın krallıq elan edilməsi |
| iyul | SSRİ-də kollektivləşməyə keçid.İnzibati-amirlik sisteminə dönüşün başlanması |
| avqust | Haaqada Almaniyadan təzminat alması ilə əlaqədar konfransının keçirilməsi və Yunq tərəfindən irəli sürülmüş planın qəbul edilməsi |
| 3 oktyabr | SSRİ ilə Böyük Britaniya arasında diplomatik münasibətlərin bərpa edilməsi |
| oktyabr | Dünya iqtisadi böhranının başlanması və 1933-cü ilə qədər davam etməsi |

**1930-cü il**

| | |
|---|---|
| 28 yanvar | İspaniyada Primo de Bivera diktaturasının devrilməsi |
| avqust | İspaniyada San-Sabestian paktının bağlanması |
| noyabr | Braziliya inqilabı |

**1931-ci il**

| | |
|---|---|
| 14 aprel | İspaniyada burjua-demokratik inqilabının qələbəsi və İspaniyanın respublika elan edilməsi |
| avqust | İngiltərə parlamentinin "Vestminister" statusunu qəbul etməsi və dominionlara İngiltərə ilə bərabər hüquqların verilməsi və Böyük Britaniya Millətlər Birliyinin yaranması |
| 24 avqust | Böyük Britaniya R.Makdonald başda |



| | |
|---|---|
| | olmaqla "Milli hökumət"in təşkili |
| 18 sentyabr | Yaponiyanın Şimali-Şərqi Çinə – Mancuriyaya soxulması və oranı işğal etməsi |

**1932-ci il**

| | |
|---|---|
| iyul | Lozanna konfransı və Almaniyadan təzminat alınması məsələsinə birdəfəlik son qoyulması |
| noyabr | SSRİ ilə Fransa arasında bir-birinə hücum etməmək və s. qarşılıqlı yardım haqqında müqavilənin bağlanması |
| noyabr | ABŞ-da demokratlar partiyasından F.D.Ruzveltin prezident seçilməsi |

**1933-cü il**

| | |
|---|---|
| 30 yanvar | Almaniyada faşist diktaturasının qurulması |
| mart | Yaponiyanın Millətlər Cəmiyyətindən çıxarılması |
| may | ABŞ-da kənd təsərrüfatını bərpa etməyin inzibati idarəsinin yaradılması haqqında qanunun verilməsi |
| iyun | Sənayeni qaydaya salmaq üçün Milli Bərpa İdarəsinin yaradılması barədə qanunun qəbul edilməsi |
| oktyabr | Almaniyanın Millətlər Cəmiyyətindən çıxması |
| 16 noyabr | ABŞ ilə SSRİ arasında diplomatik münasibətlərin yaradılması |

**1934-cü il**

| | |
|---|---|
| 6 fevral | Parisdə faşist qiyamına cəhd və onun uğursuzluğu |
| fevral | İspaniyanın Astriya əyalətində silahlı döyüşlər |
| 19 may | Bolqarıstanda hərbi-faşist çevrilişi |
| 27 iyul | Fransa Kommunist partiyası ilə Fransa sosialist partiyası arasında birgə hərəkət haqqında paktın bağlanması |
| 17 avqust | İtaliya Kommunist Partiyası ilə İtaliya sosialist partiyasının birgə fəaliyyəti haqqında paktın bağlanması |
| 18 sentyabr | SSRİ-nin Millətlər Cəmiyyətinə daxil olması |

**1935-ci il**

| | |
|---|---|
| mart | Versal müqaviləsinin hərbi maddələrindən Almaniyanın imtina etməsi |
| 2, 16 may | SSRİ və Fransa, SSRİ ilə Çexoslovakiya arasında qarşılıqlı yardım haqqında müqavilələrin bağlanması |
| avqust | ABŞ-da sosial sığorta haqqında qanunun qəbul edilməsi |
| Avqust-iyul | ABŞ-da əmək münasibətləri haqqında (Vaqner qanunu) qanunun qəbul edilməsi |
| 25 iyul – 25 avqust | Kommunist İnternasionalının VII konqresi |
| oktyabr | İtaliyanın Efiopiya əleyhinə müharibəsi. Efiopiyanın İtaliya tərəfindən işğalı |



**1936-cı il**

| | |
|---|---|
| 16 fevral | Xalq cəbhəsinin seçkilərdə qələbəsi və İspaniyada Sol respublikaçı hökumətin hakimiyyətə gəlməsi |
| 7 mart | Almaniyanın Lokarno sazişini pozması və hərbsizləşdirilmiş Reyn zonasının işğal edilməsi |
| Aprel-may | Fransada parlament seçkilərində xalq cəbhəsinin qələbəsi |
| 17 iyul | İspaniyada faşist qiyamı və vətəndaş müharibəsinin başlanması |
| 5 dekabr | SSRİ-nin II konstitusiyasının qəbul edilməsi |

**1937-ci il**

| | |
|---|---|
| İyul-avqust | Yaponiyanın Şimali və Mərkəzi Çinə soxulması. Çin xalqının yapon işğalçılarına qarşı milli-azadlıq mübarizəsinə başlaması |

**1938-ci il**

| | |
|---|---|
| mart | Almaniya tərəfindən Avstriyanın işğalı |
| 29-30 sentyabr | Çexoslovakiyanın Sudet vilayətinin Almaniyaya verilməsi haqqında Münhen sövdələşməsi |

**1939-cu il**

| | |
|---|---|
| mart | Almaniya tərəfindən Çexoslovakiyanın işğalı |
| aprel | İtaliya tərəfindən Albaniyanın işğalı |
| 12-21 avqust | SSRİ ilə Böyük Britaniya və Fransa arasında danışıqlar və onun baş tutmaması |

| | |
|---|---|
| 23 avqust | SSRİ ilə Almaniya arasında bir-birinə hücum etməmək haqqında 10 illik müqavilənin bağlanması |
| 1 sentyabr | Almaniyanın Polşa üzərinə hücumu. İkinci dünya müharibəsinin başlanması |
| 3 sentyabr | Qərbi Avropada "qəribə müharnibə" |
| 17 sentyabr | SSRİ qoşunlarının Polşa ərazisinə daxil olması |
| 30 noyabr | Sovet-fin müharibəsinin başlanması |

**1940-cı il**

| | |
|---|---|
| 9 aprel | Almaniyanın Norveç və Danimarka üzərinə hücumu ilə Qərbdə fəal hərbi əməliyyatlara keçməsi və "qəribə müharibə"nin başlanması |
| 10 iyun | İtaliyanın Cənubi Fransadan hücum etməklə II dünya müharibəsinə daxil olması |
| 22 iyun | Fransanın işğalı |
| 27 sentyabr | Almaniya, İtaliya və Yaponiya arasında üçlər paktının bağlanması |

**1941-ci il**

| | |
|---|---|
| aprel | Almaniya tərəfindən Yuqoslaviya və Yunanıstanın işğalı |
| 22 iyun | Almaniya və onun müttəfiqlərinin SSRİ üzərinə hücumu |
| 30 iyun | SSRİ-də Stalinin sədrliyi ilə Dövlət Müdafiə Komitəsinin yaradılması |
| avqust | İngiltərə və ABŞ arasında Atlantika xartiyasının imzalanması |
| 29 | SSRİ, Böyük Britaniya və ABŞ nümayən- |



| | |
|---|---|
| sentyabr – 1 oktyabr | dələrinin iştirak etdiyi Moskva konfransı |
| 30 sentyabr 5-6 dekabr | Moskva altında döyüş və alman-faşist qoşunlarının məğlubiyyəti |
| 18 noyabr – yanvar 1942 | İngiltərə qoşunlarının Şimali Afrikada hücuma keçməsi |
| 7 dekabr | Sakit Okeanda müharibənin başlanması. ABŞ-ın II dünya müharibəsinə girməsi |

**1942-ci il**

| | |
|---|---|
| 1 yanvar | Vaşinqtonda Millətlər Birliyi haqqında bəyannamənin imzalanması |
| 26 may | SSRİ və Böyük Britaniya arasında Hitler Almaniyası əleyhinə müharibədə ittifaq və müharibədən sonrakı dövrdə qarşılıqlı yardım və əməkdaşlıq haqqında müqavilənin imzalanması |
| 11 iyun | SSRİ və ABŞ arasında təcavüzkara qarşı müharibənin gedişində qarşılıqlı köməyin prinsipləri haqqında sazişin imzalanması |
| 7 iyul 1942, 2-3 fevral 1943 | Stalinqrad döyüşü |
| oktyabr | Afrikada Əl-Əlameyn döyüşü |
| 8-11 noyabr | Şimali və Şimali-Qərbi Afrikaya ingilis-amerikan qoşunlarının çıxarılması |

**1943-cü il**

| | |
|---|---|
| may | Alman-italyan qoşunlarının Şimali Afrikada təslim olması |
| may | Kominternin buraxılması |
| 3 iyun | Fransa milli-azadlıq komitəsinin təşkili |
| 5 iyul – 23 avqust | Kursk döyüşü |
| 3-9 sentyabr | Müttəfiqlərin qoşunlarının İtaliyannı cənubuna çıxarılmasının başlanması. İtaliyanın təslim olması. İtaliyanın şimal və mərkəz əyalətlərinin alman-faşist qoşunları tərəfindən işğalı |
| 19-30 oktyabr | SSRİ, ABŞ və Böyük Britaniya xarici işlər nazirlərinin Moskva konfransı |
| 28 noyabr – 1 dekabr | SSRİ, ABŞ və Böyük Britaniya dövlət baş-çılarının Tehran konfransı |
| 29 noyabr | Yuqoslaviya Milli azadlıq komitəsinin təşkili |

**1944-cü il**

| | |
|---|---|
| fevral | Leninqradın mühasirədən azad edilməsi |
| 6 iyun | Müttəfiqlərin qoşunlarının Normandiyaya çıxması. Qərbi Avropada II cəbhənin açılması |
| İyun | Belorusiya istiqamətində sovet qoşunlarının "Baqration əməliyyatı"nın başlanması |
| 21 iyul | Polşa milli azadlıq komitəsinin təşkili |
| 1 avqust | Varşavada üsyan |



| | |
|---|---|
| 19-25 avqust | Parisdə antifaşist silahlı üsyan |
| 23 avqust | Rumıniyada antifaşist silahlı üsyan. Hərbi-faşist diktaturasının devrilməsi |
| 20 oktyabr | Belqradın faşistlərdən azad olunması. |
| 29 noyabr | Tirananın azad edilməsi |
| 5 sentyabr | SSRİ-nin Bolqarıstana müharibə elan etməsi |
| dekabr | Alman qoşunlarının ingilis-amerikan qoşunlarını Ardendə çətin vəziyyətə çalması |

**1945-ci il**

| | |
|---|---|
| 12 yanvar | Sovet qoşunlarının "Visla-Older" əməliyyatına başlaması. Baltik dənizindən Karpat dağlarına qədər olan geniş bir ərazidə hücuma keçməsi |
| 4-11 fevral | ABŞ, SSRİ və İngiltərə dövlət başçılarının Krım (Yalta) konfransı |
| 6 mart | Rumıniya xalq demokratik cəbhəsi hökumə-tinin təşkili |
| 4 aprel | Macarıstanın alman-faşist işğalçılarından təmizlənməsi |
| 4-5 aprel | Çex və Slovak milli cəbhə hökumətinin təşkili |
| 16 aprel | Berlin əməliyyatının başlanması |
| 25 aprel – 26 iyun | Millətlər Birliyinin San-Fransiskoda konfransı |
| 29 aprel | Şimali İtaliyadakı alman-faşist qorşunlarının təslim olması |

| | |
|---|---|
| 2 may | Berlin qarnizonun təslim olması |
| 5-9 may | Praqada antifaşist silahlı üsyan |
| 8 may | Almaniyanın danışıqsız təslim olması haqqında akta qol çəkməsi |
| 9 may | Avropada müharibənin qurtarması.<br>Qələbə günü. |
| 17 iyul –<br>2 avqust | SSRİ, ABŞ və Böyük Britaniya dövlət başçılarının Potsdam konfransı. |
| 8 avqust | SSRİ-nin Yaponiyaya müharibə elan etməsi |
| 6, 9 avqust | ABŞ-ın Yaponiyanın Naqasaki və Xrosima şəhərlərinə atom bombası atması |
| 19 avqust | Kvantun ordusunnu məğlubiyyəti |
| 2 sentyabr | Yaponiyanın danışıqsız təslim olması haqqında akta qol çəkməsi. İkinci dünya müharibəsinin qurtarması |



## İstifadə edilmiş mənbə və ədəbiyyat

### Ümumu vəsaitlər

Дярслик, дярс вясаити, мцщазиря мятнляри, хрестоматийа вя иллик кцллиййатлар.
Новейшая история зарубежных стран: Европа и Америка. 1917-1945, г.г. т. 1, М., 1967.
Новейшая история 1918-1939 гг. Курс лекций, под ред. В.В.Александрова, М., 1972.
Новейшая история 1918-1939 гг. М., 1974.
Александров В.В. Новейшая история стран Европы и Америки 1918-1945 гг. М., 1986.
Новейшая история зарубежных стран Европы и Америки 1917-1945, М., 1989.
Хрестоматия по истории государства и права зарубежных стран, М., 1984.
Новейшая история зарубежных стран: Европа и Америки XX века. I часть. Москва., 2000 гг.
M.Qasımlı "Avropa və Amerika ölkələrinin müasir tarixi I hissə 1918-1945-ci illər Bakı 2003

### BEYNƏLXALQ MÜNASİBƏTLƏR

Бережков В.М. Тегеран 1943. На конференции Большой тройки и в кулуарах. М., 1971.
Документы и материалы кануна второй мировой войны 1937-1939 гг. в 2 т. М., 1981.
Европа в международных2отношениях 1917-1939. М., 1979.
Илюхина Р. Лига наций 1919-1934. М., 1982.
История дипломатии, т. 4-5. М., 1975-1979.
История международных отношения на Дальнем Востоке. 1945-1977. М., 1978.

Гасымов М., Абдуллаев М. Бейнялхалг мцнасибятляр тарихи. XX яср. Ы щисся. 1900-1945-ъи илляр. Бакы., 1998.
Полтавский М.А. Дипломатия империализма и малые страны Европы (1938-1945 гг.). М., 1973.
Севостьянов Г.Н. Дипломатическая история войны на Тихом океане. От Перл-Харбора до Каира. М., 1969.
Siyasi tarix ,II hissə, Бакы., 1993.

## BÖYÜK BRİTANİYA

Мосульский Н.Ф. Рабочее движение в Англии накануне второй мировой войны (1934-1939). М., 1968.
Судейкин А.Г. Колониальная политика лейбористских партий между двумя мировыми войнами. М., 1976.
Трухановский В.Г. Новейшая история Англии. М., 1958.
Трухановский В.Г. Внешняя политика Англии в период мировом этапе общего кризиса капитализма (1918-1939). М., 1962.
Трухановский В.Г. Вешняя политика Англии в период второй мипровой войны (1939-1945). М., 1965.
Трухановский В.Г. Унистон Черчилль. М., 1977.

## FRANSA

Белоусова З.С. Франция и европейская безопасность (1929-1939). М., 1976.
Борисов Ю.В. Советско-французские отношения (1924-1945). М., 1964.
Борисов Ю.В. Новейшая История Франции – 1917-1964. М., 1966 гг.
Рубинский Ю.И. Тревожные годы Франции. Борьба классов и партий от Версаля до Мюнхена (1919-1939).



Смирнов В.П. Новейшая история Франции 1918-1975. М., 1979.

## ALMANİYA

Безименский Л.А. Германские генералы – с Гитлером и без него. М., 1964.
Безименский Л.А. Разгаданные загадки «третьего рейха» (1933-1941). М., 1981.
Брехт А. О государственном устройстве Веймарской республики и вопросы ее политической системы. Свердловск, 1984.
Германская история в новое и новейшее время, т.2. М., 1970.
Германия во второй мировой войне. Пер. с немец. М., 1971.
Драбкин Э.С. Ноябрьская революция в Германии. М., 1967.
Кульбакин В.Д. Очерки новейшей история Орлова М.И. Германия в 1918-1939 гг. М., 1973. Германии. М., 1962.
Орлова М.И. Германия в 1918-1939 гг. М., 1973.

## RUSİYA

И.Б.Берхин. ССРИ тарихи 1917-1937-ъи илляри. Бакы., 1977.
Страницы истории Советского общества. М., 1989.
Юбилейный исторический сборник Народного хозяйства СССР за 70 лет. М., 1987. с. 11.
Заявлев А. Из истории утверждения единовластия Сталина. Изд. М., 1989.

История международных отношений и внешней политики ССР 1917-1987. в 3-х т. М., 1986-1987.

## İTALİYA

Додолев М.А. Демократическая оппозиция и рабочее движение в Италии. 1922-1926 гг. М., 1975.
История Италии. В 3-тт. М., 1970-1971, т. 3.
Комолова Н.П. Новейшая история Италии. М., 1970.
Лопухов Б.Р. История фашистского режима в Италии. М., 1977.

## İSPANİYA

Гарсиа Хосе. Испания XX века. М., 1967.
Гарсиа Хосе. Диктатура Прима де Риверы. М., 1963.
Гарсиа Хосе. Испанский народ в борьбе за свободу и демократию против фашизма (1931-1939 гг.). М., 1956.
Испания 1918-1972. Исторический очерк. М., 1975.
Современная Испания. М., 1983.

## ABŞ

Ананова Е.В. Новейшая история США 1919-1939. М., 1962.
Дмитричев Т.Ф. Многосторонняя дипломатия США, М., 1981.
Золотухин В.П. Фермеры и Вашингтон. М., 1968.
Зубок Л.Н., Яковлев Н.Н. Новейшая история США (1917-1968), М., 1972.
Лан В.Н. США от первой до второй мировой войны. М., 1976.
Мальков В.Л. Франклин Рузвельт. Проблемы внутренней политики и дипломатии. М., 1995.



Мальников Ю.М. США и гитлеровская Германия 1933-1939 гг. М., 1959.
Яковлев Н.Н. Новейшая история США. 1917-1960, М., 1961.

## AVSTRİYA

Крестьянинов Р.Т. Австрия вчера и сегодня. М., 1980.
Полтавский М.А. Австрийский народ и аншлюс. 1938. М., 1971.
Турок В.М. Очерки истории Австрии. 1918-1929. М., 1955.
Турок В.М. Очерки истории Австрии. 1929-1938. М., 1962.

## MACARISTAN

История Венгрии, в 3-х томах. Т. 2-3, М., 1971-1972.
Нежинский Л. Очерк истории народной Венгрии. М., 1969.
Немеш Д. Венгрия в годы контрреволюции 1919-1921. М., 1964.
Очерк по новейшей истории Венгрии. Киев, 1972.
Пушкаш А.И. Венгрия в годы второй мировой войны. М., 1966.

## POLŞA

Зуев Ф.Г. Польский народ в борьбе против фашизма. М., 1967.
Из истории польского народного движения. М., 1962.
История Польши в 3-х томах. М., 1955-1958. т. 3, М., 1958.
Мануеевич А. Очерки по истории Польши. М., 1977.

## RUMINİYA

Виноградов В.Н., Карпещенко Е.Д., Лебедев Н.М., Языкова А.А. История Румынии нового и новейшего времени. ., 1964.
История Румынии. 1918-1970. М., 1971.
Краткая история Румынии: с древнейших времен до наших дней. М., 1987.
Лебедев Н.В. Падение диктатуры: Антонеску. М., 1966.
Язькова А.А. Румыния накануне второй мировой войны 1934-1939. М., 1963.

## ÇEXİYA VƏ SLOVAKİYA

Внешняя политика Чехословакии 1918-1939. М., 1959.
Внешняя политика ЧССП. М., 1981.
История Чехословакии, тт. 1-3, М., т. 3, 1960.
Недорезов Г. Национально-освободительное движении в Чехословакии в 1938-1945 гг. М., 1961.
Советско-чехословацкие отношения между двумя войнами 1918-1939, М., 1968.
Язькова А. Малая Антанта в Европейской политике 1918-1925. М., 1974.

## BOLQARISTAN

Валеев Л. Болгарский народ в борьбе против фашизма (накануне и в начале второй войны). М., 1964.
История Болгарии в 2-х томах. Т.2. М., 1955.
Тошкова Болгария и «третий рейх». М., 1976.
Черняевский Н. Рабочее движение в Болгарии в период частичной стабилизации капитализма 1925-1929. Харьков, 1966.



## YUQOSLAVİYA

Антонов В. Югославия. М., 1984.
Волков В. Германо-югославские отношения и развал Малой Антанты. 1933-1938. М., 1966.
История Югославии. М., 1963, т. 2.
Писарев Ю. Образование Югославского государства. М., 1975.
Славин Г. Освободительная война в Югославии. М., 1965.

## ALBANİYA

Краткая история Албании. М., 1965.
Смирнов Н.Д. Политика Италии на Балканах 1922-1935. М., 1979.

## DANİMARKA

Кан А. Внешняя политика скандинавских стран в годы второй мировой войны. М., 1967.
Карлеен А.В. Современная Дания. М., 1981.
Малые страны Западной Европы. М., 1972.
Похлебкин В.В. Дания. М., 1955.

## NORVEÇ

История Норвегии. М., 1980.
Кан А. Внешняя политика скандинавских стран в годы второй мировой войны. М., 1967.
Кан А.С. История Скандинавских стран. М., 1980.
Носков А.М. Норвегия во второй мировой войне 1940-1945. М., 1940.

Носков А.М. Норвегия во второй мировой войне 1940-1945. М., 1973.

## FİNLANDİYA

Малые страны Западной Европы. М., 1972.
Похлебкин В.В. ССР – Финляндия: 269 лет отношений 1917-1973. М., 1975.
Саломаа Э. Вовлечение Финляндии во вторую мировую войну в качестве союзницы фашисткой Германии, в кн. Вторая мировая война, кн. 1. М., 1966.

## İSVEÇ

Дейниченко И. Швеция всех времен года. М., 1974.
История Швеции. М., 1974.
Кан А.С. Новейшая история Швеции. М., 1974.
Кан А. Внешняя политика Скандинавских стран в годы второй мировой войны. М., 1967.
Тимашкова О. Шведская социал-демократия у власти. М., 1962.

## BELÇİKA

Аксенова Л.А. Бельгия. М., 1982.
Рубинин Е.В. Современная Бельгия. М., 1945.
Шлепнер Б.С. Сто лет социальной истории Бельгии. Пер. с франц. М., 1959.

## NİDERLAND

Надин К. Внешняя политика Голландии. М., 1963.
Солнцев Н.Н. Государственный строй Нидерландов. М., 1960.
Современная Голландия. М., 1966.



Шелимова А. Нидерланды, в кн. Антифашистское движение Сопротивления в годы второй мировой войны.

## İSVEÇRƏ

Драгунов Г.В. Швейцария: история и современность (Очерки новейшей истории). М., 1978.
Сабельников Л.В. Швейцария. Экономика и внешняя торговля. М., 1962.
Юданов Ю.И. Международные монополии Швейцарии. М., 1961.

## YUNANISTAN

Влахов Д. Греческий народ в борьбе против фашистских захватчиков. М., 1943.
Кирькидис Г.Д. Греция во второй мировой войне. М., 1964.
Ковалев Э.В. Греция: реальности и перспективы. М., 1983.

## PORTUQALİYA

Аксанов Е. Португалия и ее роль в фашистской интервенции в Испании. М., 1937.
Коломиец Г.Н. Очерки новейшей истории Португалии. М., 1965.

## KANADA

Канада 1918-1945. Исторический очерк. М., 1976.
Милейковский А.Г. Канада и англо-американские противоречия. М., 1958.

Сорока-Цюпа. О.Е. История Канады. М., 1985.

## LATIN AMERİKASI ÖLKƏLƏRİ

Гонионский С.А. Очерки новейшей истории стран Латинской Америки. М., 1964.
Ревуненков В.Г. История стран Латинской Америки в новейшее время. М., 1963.
Строганов А.П. Новейшая история стран Латинской Америки. М., 1995.
Янчук И.И. политика США в Латинской Америке 1918-1982 гг. М., 1979.

## ARGENTİNA

Аргентина П.Г. Кризис экономики Аргентины. Пер. с. исп. М., 1980.
Очерки истории Аргентины. М., 1961.

## BRAZİLİYA

Глинкин А.Н. Новейшая история Бразилии (1939-1959). М., 1961.
Калмыков Н.П. Диктатура Варгаса и бразильский рабочий класс 1930-1945. М., 1981.
Коваль Б.И. Бразилия вчера и сегодня. М., 1975.
Очерки истории Бразилии. М., 1962.

## MEKSİKA

Лакин Н.С. Борьба церкви с государством в Мексике. М., 1965.
Очерки новой и новейшей истории Мексики. М., 1960.



Шульговский А.Ф. Национализация нефтяной промышленности в Мексике. Новая и новейшая история. М., 1960.
Шульговский А.Ф. Мексика на крутом повороте своей истории. М., 1967.

## ÇİLİ

Аникин А.С. Внешняя политика Чили. 1938-1967 гг. М., 1974.
Гаранин Ф.А. Народный фронт в Чили. 1936-1941. М., 1973.
Никитин М. Чили. М., 1965.
Очерки истории Чили. М., 1967.

## KUBA

Зорина А.М. Рабочее движение на Кубе: от первых выступлений пролетариата до образования Коммунистической партии (1850-1925). М., 1975.
Нитовирг Э.А. Политика американского империализма на Кубе 1918-1933. М., 1968.
Очерки истории Кубы. М., 1978.

## İKİNCİ DÜNYA MÜHARİBƏSİ

Антифашистское движение Сопротивления в странах Европы в годы второй мировой войны. М., 1962.
Внешняя политика Советского Союза в период Отечественной войны. Докум. и материалы. М., 1946, т. 1.
Вторая мировая война. Итоги и уроки. М., 1985.
Вторая мировая война. Краткая история. М., 1984.

История Великой Отечественной войны Советского Союза 1941-1945. т. 1-6. М., 1960-1965.
Мельников Д.Е. Заговор 20 июля 1944 г. в Германии. М., 1965.
Поздеева Л.В. Англо-американские отношения в годы второй мировой 1941-1945 гг. М., 1969.
Севостянов Г.Н. Дипломатическая история войны на Тихом океане. От Перл-Харбора до Каира. М., 1969.
Филатов Г.С. Крах итальянского фашизма. М., 1973.
Эрман Д. Большая стратегия. Август 1943 – сентябрь 1944. пер. с. анг. М., 1958.

**Avropa və Amerika ölkələri (1938)**

| **Ölkələrin adları** | **Dövlət quruluşları** | **Sahəsi(min kv. km)** | **Əhalisi (min nəfər hesabı ilə)** | **Paytaxtı** |
|---|---|---|---|---|
| Almaniya | Faşist diktaturası | 583,3 | 78790 | Berlin |
| Böyük Britaniya | Konstitusiyalı monarxiya | 244,0 | 47494 | London |
| Fransa | Respublika | 551,2 | 41980 | Paris |
| İtaliya | Faşist diktaturası (formal olaraq monarxiya) | 310,2 | 43578 | Roma |
| İspaniya | Respublika | 503,5 | 25043 | Madrid |
| Avstriya | Respublika | 83,9 | 6753 | Vyana |
| Macarıstan | Konstitusiyalı monarxiya | 104,9 | 10078 | Budapeşt |
| Чехословакiya | Respublika | 98,8 | 13254 | Praqa |
| Polşa | Respublika | 288,6 | 34785 | Varşava |
| Yuqoslaviya | monarxiya | 247,5 | 15400 | Belqrad |
| Bolqarıstan | Konstitusiyalı monarxiya | 103,1 | 6319 | Sofiya |
| Pumıniya | Konstitusiyalı monarxiya | 295,0 | 15600 | Buxarest |
| Albaniya | Konstitusiyalı monarxiya | 28,7 | 1038 | Tirana |
| ABŞ | Respublika | 7828,0 | 129257 | Vaşinqton |
| Meksika | Respublika | 1969,4 | 19640 | Mexiko |
| Kuba | Respublika | 114,5 | 4370 | Havana |
| Braziliya | Respublika | 8513,8 | 44116 | Rio-de-Janeyro |
| Argentina | Respublika | 2778,4 | 12762 | Buenos-Ayres |
| Çili | Respublika | 741,8 | 4597 | Santiyaqo |

***Bax: Şiqer A.T. Politiçeskaya karta mira (1900-1965). Spravoçnik. M., 1966. s. 69-71, 79-80***

**Birinci və ikinci dünya müharibələrinin ən mühüm göstəriciləri**

| | **Əsas göstəricilər** | **Birinci dünya müharibəsi (1914-1918)** | **İkinci dünya müharibəsi (1939-1945)** |
|---|---|---|---|
| 1 | Müharibənin müddəti | 4 il, 3,5 ay | 6 il |
| 2 | Müharibədə iştirak etmiş dövlətlərin sayı | 30-dan çox | 60-dan çox |
| 3 | Müharibə etmiş dövlətlərin əhalisinin sayı | 1 milyard nəfərdən çox | 1,7 milyard nəfərdən çox |
| 4 | Hərbi əməliyyat | 4 milyon | 22 milyon |

| | | | |
|---|---|---|---|
| | meydanlarının ümumu sahəsi | kv.km-dən çox | kv.km-dən çox |
| 5 | Silhlı qüvvələrə səfərbərliyə alınmışların sayı | 70 milyon nəfərdən çox | 110 milyon nəfərdən çox |
| 6 | Həlak olanlar, Yaralananlar və şikəst olanlar | 13,6 milyon dan çox 20 milyon nəf. çox | 60 mil. nəf. çox 90 mil. nəf. çox |
| 7 | Maddi itki (miliyard dollarla) | 360 | 4000 |
| 8 | Müstəqil hərbi xərclər | 208 | 1 trl. 117 mld. |

***Bax: Ən Yeni tarix (1939-1992). Bakı., 1998. Səh. 33 (Ümumtəhsil məktəbləri üçün dərslik).***



**Müstəmləkə vəmandatlı ərazilər**

| | 1923-cü il | 1938-cı il |
|---|---|---|
| Yer kürəsinin sahəsi | 135,8 mil. kv.km | 135,8 mil. kv.km |
| Müstəmləkələrin sahəsi | 60,7 mil. kv.km | 42,3 mil. kv.km |
| Müstəmləkə ölkələrinin sahəsinin Yer kürəsinin sahəsi ilə faizlə müqayisəsi | 44,7 % | 31,2% |
| Yer kürəsinin əhalisi | 1811,5 mln.adam | 2156,5 mln.adam |
| Müstəmləkə ölkələrinin əhalisi | 571,3 mln.adam | 660,4 mln.adam |
| Müstəmləkə ölkələrinin ərazisinin dünya ərazisinə faizlə nisbəti | 31,5% | 30,6% |

***Bax: Şiqer A.T. Politiçeskaya karta mira (1900-1965). Spravoçnik. M., 1966. s. 38, 63, 66.***

***Başlıca kapitalist ölkələrinin sənaye qüdrəti (1937-ci il)***

| | Kömür çıxarılması (mln.t) | Polad emalı (mln.t) | Elektrik enerjisi istehsalı(mlyard. kvt./saat) |
|---|---|---|---|
| ABŞ | 450 | 51 | 146 |
| İngiltərə | 244 | 13,2 | 31,9 |
| Fransa | 45 | 7,9 | 20 |

| | | | |
|---|---|---|---|
| Almaniya | 240 | 19,2 | 49 |
| Yaponiya | 45,3 | 5,8 | 30,4 |
| İtaliya | 1,5 | 2,3 | 15,4 |

***Bax: İstoriya vtoroy mirovoy voynı 1939-1945. M., 1974. c. 416***

**Metropolyarlarla müqayisənin sahə və əhalisinin nisbəti (1938-ci il)**

| | Müstəmləkə ölkələrinin metropolyarlarla müqayisəsi | |
|---|---|---|
| | Sahəsinə görə | Əhalisinə görə |
| Belçika | 80 dəfə | 174% |
| Böyük Britaniya | 73 dəfə | 9,5 dəfə |
| İtaliya | 11,3 dəfə | 18,3% |
| Нидерланд | 70 dəfə | 8 dəfə |
| ABŞ | 19,2 % | 1,9% |
| Fransa | 20,5 dəfə | 166,6% |
| Yaponiya | 75% | 44,6% |

***Bax: Şiqer A.T. Politiçeskaya karta mira (1900-1965). Spravoçnik. M., 1966. s. 38, 63, 66.***